REGIONLARIN İNKİŞAFI İCTİMAİ BİRLİYİ

Görkəmli Azərbaycan yazıçısı Mir Cəlalın 100 illiyinə həsr olunur



# MIR JALAL

AN ANTOLOGY



# MİR CƏLAL

SEÇİLMİŞ ƏSƏRLƏRİ

BİRİNCİ KİTAB

BAKI 2008

This book
features the novel Resurrection Man and stories by
Mir Jalal Pashayev, an outstanding representative of Azerbaijani
literature and learning, a doctor of philology and professor,
who was awarded the title Honoured Scholar. The novel Resurrection
Man deals with the people's liberation movement of the early
20th century in Azerbaijan, the historical events
of that time, ordinary life and the disaster that befalls the hero,
Qadir, and his family. Mir Jalal Pashayev is known as a master of the
great narrative. The interest of the stories in this book lies
in the typical images, real problems, humour and wisdom in the lives
of ordinary people. The unique characters, philosophical way of thinking
and amusing and thought-provoking humour specific to
Mir Jalal's work can be found in this book.

Azərbaycan ədəbiyyatının və elminin
görkəmli nümayəndəsi, filologiya elmləri doktoru,
professor, əməkdar elm xadimi Mir Cəlal Paşayevin oxuculara
təqdim edilən bu kitabına müəllifin «Dirilən adam» romanı
və hekayələri daxil edilmişdir. «Dirilən adam» romanı
XX əsrin əvvələlərində Azərbaycanda baş verən xalq azadlıq
hərəkatından, dövrün tarixi hadisələrindən, xalqın məişətindən, əsərin
qəhrəmanı Qədirin və ailəsinin başına gətirilən müsibətdən bəhs edir.
Böyük hekayə ustası kimi tanınan M.C.Paşayevin kitaba daxil
edilən hekayələrində sadə insanların həyatında baş verən tipik lövhələr,
aktual problemlər, yumor, fəlsəfi müdriklik maraq doğurur.
Ümumilikdə Mir Cəlal yaradıcılığına xas olan qəhrəmanların
təkrarolunmazlığı, fəlsəfi düşüncə tərzi, güldürən, düşündürən
yumor kitabda öz əksini tapmışdır.

NƏRGİZ PAŞAYEVA

# YAZIÇI VƏ ZAMAN

**XX** əsr uzaq qədimlərdən başlanan ümumazərbaycan tarixinin və mədəniyyətinin məhz Azərbaycan mahiyyətini müəyyənləşdirən çox mühüm və möhtəşəm bir dövrdür. Tarixən humanist ideallarla zəngin olan Azərbaycan ədəbiyyatı XX əsrin əvvəllərindən yeni təkamül mərhələsinə qədəm qoydu. 1900-1920-ci illər Azərbaycan xalqının həyatında sözün əsl mənasında milli intibah dövrü kimi səciyyələndirilir. Elə bu zaman böyük milli ideallarm bədii təcəssümünə və ümumən mədəniyyətin vüsətli inkişafına münbit zəmin yarandı. Ədəbiyyat, musiqi, teatr, publisistika, naşirlik, cəmi 15-20 il ərzində zənginlik baxımından bir əsrə bərabər inkişaf yolunu keçdi. Bu inkişaf ictimai-tarixi, siyasi, psixoloji, sosial-mədəni təzadlar və dəyişikliklər üzərində yarandı. Avropadan və Rusiyadan gələn, sənətə və ədəbiyyata təkanverici qüvvə kimi müəyyənləşən mədəni yeniliklər, maarifçilik



ideyaları, həmçinin neft sənayesinin uğurları ilə bağlı olan iqtisadi dirçəliş də XX əsr Azərbaycan mədəniyyətinin bütün sahələrində böyük sıçrayışa, inkişafa şərait yaratdı. Azərbaycan Xalq Cümhuriyyəti (AXC) dövründə Azərbaycan ədəbiyyatı və mədəniyyəti dünya ədəbiyyatı və mədəniyyəti sırasında layiqli yerini tapmağa tam qadir idi. Lakin məlum səbəblərdən Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi. Yeni sosial-iqtisadi quruluş, yeni ictimai münasibətlər formalaşdı və sosializm diktaturası "mədəni inqilab" proqramı elan etdi. Məhz bu dövrdə sonralar Azərbaycan sovet ədəbiyyatının baniləri sayılan cavan yazıçılar və şairlər nəsli yetişirdi. Bu böyük nəslə mənsub olanlardan biri də Mir Cəlal Əli oğlu Paşayev idi.

M.Paşayev 1908-ci ildə Cənubi Azərbaycanda doğulmuşdu. O, Əndəbil kəndinin ən möhtərəm və hörmətli sakini olan Mir Paşa bəyin nəvəsi idi. Atası Mir Əli Mir Əşrəfi - çoxlu mülkiyyət sahibi olduğundan böyük oğullarına, Mir Cəlalın özündən böyük dörd qardaşına Əndə-

bil kəndinin işlərini idarə etməyi tapşırardı. O, ən kiçik, beşinci oğlu - Mir Cəlalı isə bu işlərdən uzaqlaşdırıb təhsil dalınca Şimali Azərbaycana, Gəncəyə gətirir. Burada acı tale kiçik yaşlı Mir Cəlalı erkən atasız qoyur. Vəfat etməmişdən bir qədər əvvəl Mir Əli böyük oğullarına kiçik Mir Cəlalı tapşıraraq deyir: "Bu uşağı oxudun, onun mükəmməl təhsili olsun". Beləliklə, Mir Cəlal Gəncə şəhərində qalıb təhsilini davam etdirir, uşaqlıq və gənclik illərini burada keçirir.

Çoxəsrlik ədəbi ənənələri olan Gəncədə o zaman beynəlmiləl tərkibli seminariya, şəhər teatrı, sənət texnikumu, sanballı kitabxana, gözəl mətbəə, "Qızıl qələmlər" cəmiyyətinin Gəncə filialı fəaliyyət göstərir, "Qızıl Gəncə" jurnalı çap olunurdu. S.Vurğun, H.Araslı, N.Rəfibəyli, Əli Razi, Əli Məhzun, Mikayıl Rzaquluzadə kimi gələcəyin görkəmli şəxsiyyətləri orada keçirilən ədəbiyyat tədbirlərinin təşkilatçıları və fəal iştirakçıları idilər. Uşaqlıq və gənclik illərini belə bir mühitdə keçirən Mir Cəlalın yazıçı taleyi onu lazımi vaxtda lazımi yerə gətirmişdi.





Görünür, Mir Əlinin öz oğlunu məhz Gəncə şəhərinə gətirməyi təsadüfi deyildi. Aydındır ki, İranda mülkiyyət sahibi olan Mir Əli Paşayev o taydan bu taya qazanc və çörək dalınca yox, Mir Cəlala doğma dilində təhsil vermək arzusu ilə gəlmişdir. O, bilmirdi ki, oğlu - balaca Mir Cəlal onun bu son arzusunu, istəyini həyata keçirməklə kifayətlənməyəcək, artıq dərəcədə ümidləri doğruldaraq mənsub olduğu xalqın mənəvi dəyərlərinin daşıyıcısına və qoruyucusuna çevriləcək, böyük yazıçı, alim və böyük insan adını qazanacaqdır. Gəncə mühiti həm də müəllimlik peşəsinin müstəsna rolunu Mir Cəlalın gələcək həyatında və yaradıcılığında bu zamandan etibarən sona qədər müəyyən etdi. Beləliklə, bu mərhələdə zaman və məkan amilləri öz işini görmüş oldu.

Bədii sənətin inkişafında zaman faktoru və mövcud mühit çox mühüm rol oynayır. Sovet hökuməti qurulduqdan sonra "fəhlə-kəndli-əməkçi" birliyi o dövr ədəbiyyatının başlıca mövzularından birinə çevrilir. Azərbaycan yazıçıları da ideoloji sifariş olan bu mövzuları bu

və ya digər dərəcədə öz yaradıcılıqlarında əks etdirməli idilər. Bunun nəticəsi olaraq bədii əsərlərdə mövzunun aktuallığı birinci dərəcəli, məzmun rəngarəngliyi, sənətkarlıq, bədiilik kimi mühüm estetik meyarlar isə bir növ ikinci dərəcəli məsələlər sayılır, insan şəxsiyyətinin əsl mahiyyəti və onun bədii ifadəsi çox vaxt arxa planda qalırdı. Professor Mir Cəlal hələ o zaman diqqəti bu məsələyə cəlb edərək yazırdı: "Bir çox əsərlərimizdə təsvir olunan adamlar real, təbii çıxmır. Nə üçün? Ona görə ki, yazıçı onları maraqlı, mürəkkəb həyatı olan canlı adamlar kimi yox, ancaq bir peşə sahibi kimi, sədr, katib, traktorçu, buruq ustası, müəllim və sair kimi təsvir edir. Meşin pencəyi əynindən çıxaran raykom katibi öz obrazını itirmiş olur".

Bu dövrdə içində anlamaq dərdi yaşayan S.Vurğun, Mir Cəlal, S.Rüstəm, Mehdi Hüseyn, Süleyman Rəhimov, Rəsul Rza kimi sənətkarlar kor-koranə ideoloji tabeçiliyi insan təbiətinə, azad və həqiqi sənət qanunlarına tamamilə zidd olan qaçılmaz ağır zərurət kimi



qiymətləndirirdilər. Nə yaxşı ki, bu tabeçiliklə yanaşı onlar həm də öz dünya duyumuna, təxəyyülünə, istedadına, vətəndaş mövqeyinə, fikirlərinin və qənaətlərinin bilavasitəliyinə tabe idilər. Çünki onlar əsl sənət adamları idi. Sosializm realizmi metodunun banisi sayılan Maksim Qorki yüksək sənəti hətta despotik rejimdə belə istedadın gücü ilə yaranan gözəllik adlandırırdı. Qorkinin bu fikri ən azından ədəbi-estetik düşüncənin, mövcud ideologiyanın nəsihət və dərslərindən boyun qaçırmaq cəhdlərindən xəbər verirdi. Lakin dözmək və susmaq gərək idi. Ötən əsrin 30-cu illərinin repressiyaları, o amansız və dəhşətli illər ədəbi və çox vaxt insani prinsiplərin ancaq insan həyatı bahasına mümkünlüyünü həmişəlik o nəslin hafizəsinə və beyninə həkk etmişdi. Belə ki, Mir Cəlal hekayələrinin birində yazır: "Qışqırıram ki, xəyal uzaqlaşsın, unudum, bəlkə özümə gəlim.

Heyhat! Unutmaq nə böyük nemət, nə yüksək istedad imiş. Tale məni bundan məhrum etmişdir".

"Kölgədə bitən ağacın kölgəsi olmaz" fikrini sənət devizi seçən Mir Cəlal böyük fikirlərin lakonik bədii təcəssümünə meydan açan hekayə janrına xüsusi maraq göstərir. Bu hekayələrdə ədibin şəxsi müşahidələri, tükənməz vətənsevərlik, psixoloji hal-vəziyyət, dərin lirizm çox qabarıq şəkildə nəzərə çarpır. "Kölgəsiz ağac" dedikdə isə bu hekayələrdə qələmə aldığı bir çox yazıq, həm də çox hiyləgər və riyakar təbiətli insan obrazlarını nəzərdə tuturdu.

Məlumdur ki, Mir Cəlal böyük gülüş ustadları C.Məmmədquluzadə və Ə.Haqverdiyevin layiqli davamçısı olaraq Azərbaycan ədəbiyyatında satirik nəsrin görkəmli nümayəndələrindən biri kimi böyük şöhrət qazanmışdır. Lakin Mir Cəlalın, necə deyərlər, öz gülüşü vardır. Bu gülüş ilk növbədə Mir Cəlalın bənzərsiz fərdi təbiəti, şəxsi xarakteri ilə əlaqədardır, onun təzahürüdür. Bu gülüşdə Mir Cəlalın ədibliyi də, alimliyi də, müəllimliyi də "iştirak edir". Yəni o, bəzən bir yazıçı kimi oxucularını həyatın qüsurlarından, eybəcərliklərindən uzaq olmağa



çağırır, bəzən alim müdrikliyi ilə həyatın həqiqət yolunu nişan verir, bəzən də müəllim təmkini ilə nəsihətlərini çatdırmış olur. Təsadüfi deyildir ki, Mir Cəlal yaradıcılığında son dərəcədə səmimi, müdrik yumor aparıcıdır, əsasdır. Yumorlu kinayələrinin isə misli yoxdur! Əsərlərdəki ideyanın, əsas mətləbin məğzi, mahiyyəti çox vaxt elə bu kinayələrdə açılır, aşkar olur. 1964-cü ildə qələmə aldığı "Hərənin öz işi var" hekayəsindən bir parçaya diqqət edək:

"Günah bizim rayon ispolkomunda oldu. Elə ki, Əhmədovun hər yerdə adı hörmətlə çəkildi, ispolkom da hər işi onunla, ancaq onunla məsləhətləşməyə başladı...

...Şair Füzuliyə rayon mərkəzində heykəl qoyulurdu. Bizim rayonda bu layihənin müzakirəsi keçəndə ispolkom birinci Mədəd Əhmədovu çağırdı:

- Yoldaş Mədəd, nə deyirsən, Füzulinin başında papaq olsa yaxşıdır, ya olmasa? Heykəltəraşlara göstərin, qoy işləsinlər...

Mədəd Əhmədov da o yan-bu yana baxıb dedi:
- İstidir, papaqsız yaxşı olar..."

Başqa bir hekayəsində ədib yazıçılığı asan bilib özünə mütləq peşə kimi seçən istedadsız müəllifdən və o dövr ədəbi tənqidinin gülüş doğuran xüsusiyyətlərindən danışır. "Keçiyev dramanı çətin, tənqidi xatalı, şairləri çox görüb nəsrə keçdi. İlk hekayəsini gəlib-gedənə oxudu. Eşidənlər yorulsa da o yorulmadı... Birinci yazısı aşpazdan şikayət oldu. Görünür aşpaz onun iştahasının tələblərini ödəyə bilmir, yaradıcılığına mane olurdu. Bu gənc nasirin şikayətini nəzərə alıb aşpazın məsələsinə baxanda. yazıçının özünün aşpazlıq işindəki məharəti meydana çıxdı... O gündən bəri sanatoriyanın xörəkləri Həpirin zövqündən, Həpirin hekayələri də mətbəx səliqəsindən kamilləşirdi.

Bütün bunların nəticəsində mətbəx işləri ilə ədəbiyyat işlərinin vəhdəti möhkəmləndi. Həpirin təcrübəsindən bəziləri istifadə etməyə, ədəbiyyatı zənginləşdirməyə başladılar".



Lakin onu da qeyd etməliyik ki, Mir Cəlal lirik-romantik, lirik-psixoloji, lirik-dramatik hekayənin də böyük ustası idi. Buna misal olaraq "Niyə ovdan ayaq çəkdim", "Radio qabağında", "Baldan əvvəl", "Ata", "Gülbəsləyən qız", "Çıraqlar yandı", "Titrək bir səs" və başqa hekayələrin adını çəkə bilərik.

40-cı illər nəsrində başlıca mövzular Böyük Vətən müharibəsi ilə əlaqədar idi. Mir Cəlalın 1942-ci ildə yazdığı "Odlu mahnılar" hekayəsi Azərbaycan ədəbiyyatında müharibənin dəhşətlərini əks etdirən ən dəyərli əsərlərdən biri kimi qiymətləndirilə bilər.

Yazıçı bütün yaradıcılığı boyu 300-ə yaxın hekayə qələmə almışdır. Bu hekayələrdə o, 20-ci illərin axırlarında rayondan köçüb Bakıda, Kiçik Qala küçəsi 16 nömrəli evdə yaşadığı vaxtdan ömrünün sonuna qədər həyatının müxtəlif mərhələlərində rast gəldiyi insan xarakterlərinin, üzləşdiyi həyat hadisələrinin, təzadlı və mürəkkəb gerçəkliyin dolğun bədii təsvirini vermişdir.

Bu əsərlərdə zaman və məkan obrazı aydın nəzərə çarpır. Bakı şəhəri və onun sakinləri, şəhər ab-havası, insani münasibətlər, bu münasibətlərdə zamanın tələbindən, obyektiv şəraitdən gələn həm mənfi, həm müsbət olan çalarlar, dünəni bu günə bağlayan həyat sürəti, siyasi-ictimai quruluşun olduğundan daha gözəl və üstün görünmək təşnəsi və cəhdləri özünəməxsus, maraqlı detalları ilə Mir Cəlal nəsrində yüksək bədiiliklə ifadə olunmuşdur. Bu isə bir epoxanın, bir dövrün bədii portreti idi.

Bədii ədəbiyyatın ən mükəmməl və mürəkkəb janrlarından olan roman janrında da Mir Cəlal böyük uğurlar qazanmışdır. Mir Cəlal altı romanın müəllifidir. Bunlar "Dirilən adam", "Bir gəncin manifesti", "Açıq kitab", "Yaşıdlar", "Təzə şəhər", "Yolumuz hayanadır" əsərləridir. Gənc ikən qələmə aldığı ilk "Dirilən adam" romanı yazıçının təkcə hekayələr deyil, həmçinin roman yaratmaq qabiliyyətini və məharətini də sübut etdi. Dediyimiz kimi sənətin inkişafında zaman faktoru mühüm



rol oynayır. Lakin sənətin özünün də tarixin hər hansı bir məqamında zamanla nə dərəcədə səsləşib-səsləşməyəcəyi zərurəti var. "Dirilən adam"ın yazıldığı dövr ədəbiyyatı üçün (unutmayaq ki, söhbət 30-cu illərdən gedir) tənqidolunmaz, toxunulmaz mövzular, obrazlar və bunun əksi olaraq mütləq təbliğ və təsdiq edilən mövzular və obrazlar sistemi mövcud idi. Sovet ədəbiyyatının bir çox dövrləri üçün klişe olaraq şablon vahid qəhrəman tipi müəyyən edilmişdi. Bu sosializmin təntənəsini ifadə edən müsbət qəhrəman obrazı idi. Ümumittifaq sosialist ruhlu, partiyalı ədəbiyyata qovuşmaq Azərbaycan yazıçılarının mənəvi və professional borcu kimi təqdim olunurdu. Azərbaycan ədəbiyyatı da SSRİ civarlarında baş verən "gözəl və müasir" həyatı tərənnüm etməli, müasir mövzuları əsas götürməli idi. Lakin o dövr sovet ədəbiyyatını və həmçinin Azərbaycan ədəbiyyatını bütövlükdə ancaq bu tipli ədəbiyyatdan ibarət hesab etmək heç də düzgün olmazdı. Çünki o vaxt əsl ədəbiyyatı və sənəti yaratmaq və yaşatmaq istedadına malik olan

yazıçılar, şairlər Azərbaycan ədəbiyyat tarixini zənginləşdirən bədii əsərlər yaradırdılar. Mir Cəlalın da elə ilk romanında seçdiyi mövzu, toxunduğu problem, ifadə etdiyi bədii-estetik fikir və qənaətləri konyunkturaya yox, əsl ədəbiyyata köklənmişdi. İndiki zaman prizmasından adi və təbii görünən bu mövqe o dövr ədəbiyyatı üçün heç də adi və ən başlıcası isə təqdir olunan hal deyildi. Mir Cəlal yazdığı bütün romanlarda bu prinsipə sadiq qalmışdır.

Sovet dövrü ədəbiyyatımızın bir çox əsərlərində zaman və məkan konteksti müxtəlif taleli xoşbəxt və bədbəxt insanların qüdrətli, canlı, cazibədar obrazlarını yaratmaq üçün, onların psixoloji təbəddülatlarını, səadət və faciə yaşantılarını təhlil etmək üçün əslində bir növ bədii zəmin, şərti fon, vasitə mövqeyində görünə bilər. Dünya klassikasının ən məşhur bədii qəhrəmanları göstərildiyi ictimai mühitin, tarixin, hətta zəmanələrinin ən güclü ideologiyalarını belə adlayaraq ümumbəşəri, ümumtarixi "status" qazanmışlar. Bu əsərləri yaşadan nə oradakı həmin



vaxtların "qabaqcıl" ideologiyasıdır, nə mühitin diktə etdiyi metod və metodologiyadır, nə də etnoqrafik təfərrüatlardır. Onları yaşadan və yaşadacaq əsas amil oradakı əsl sənət qüdrətilə canlandırılmış insan xarakterləri və taleləridir! Bu gün Mir Cəlal əsərlərini müasir oxucular üçün müasir edən də elə budur.

Tək ədəbiyyatın deyil, elmin də elə sahələri var ki, orada ictimai məzmun və bu məzmunun bilavasitə zamanla bağlılığı çox aşkar və inkaredilməz olur. Mir Cəlalın sözləri ilə desək "zamana boyun əymək" meyli ədəbiyyatşünaslıq elminə də yad olmamış və sovet ədəbiyyatşünaslığını bütövlükdə götürsək, bu cəhətin mənfi təsirini etiraf etmək məcburiyyətindəyik. Lakin elə elmi əsərlər də yaranmışdır ki, onların uğurlu taleyi ilk gündən müəyyənləşmişdir. Buna ən başlıca səbəb o idi ki, dövründən və zamanından asılı olmayaraq müəllif sözü, fikri, nəzəri qənaətləri, elmi nəticələri yarandığı vaxtdan bu günə kimi orijinallığını, elmi dürüstlüyünü və dəyərini qoruyub saxlaya bilmişdir.

Mir Cəlalın yüksək professionallığa malik alim qələminin məhsulu olan "Azərbaycanda ədəbi məktəblər" monoqrafiyası XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatı tarixi, mədəniyyəti, elmi, ictimai həyatı haqqında ən sanballı elmi əsərdir. Bu kitab o dövrün ədəbiyyatının tək faktoloji icmalı yox, həm də bədii-estetik, ideya-estetik ictimai prinsiplərinin və ideallarının sistemli şəkildə elmi-nəzəri təhlili kimi çox qiymətlidir.

Mir Cəlal Firudin bəy Köçərlidən sonra Azərbaycan ədəbiyyatı tarixini yazanlardan biri, professional Azərbaycan ədəbiyyatı nəzəriyyəsinin ilk yaradıcısıdır. O, ədəbiyyat nəzəriyyəsinin əsaslarının və mühüm mərhələlərinin elmi izahını və təsnifatını verən ilk ədəbiyyatşünas alimdir. Mir Cəlalın elmi əsərləri təsviri məzmun daşımır. Onlar dərin, mükəmməl, nəzəri təhlil xarakterlidir, həm də lakonik, aydın və sadə üslubda yazılmışdır. Qəliz izahlar, ağır, pafoslu cümlələr, dolaşıq mülahizələr Mir Cəlal elminə yaddır. Bu isə gözəl bir ədəbi nümunə,



sadəlik və müdrikliyin vəhdəti demək idi. Fikrimizcə, bugünkü ədəbiyyatşünaslıq üçün bu cəhət də bir örnək ola bilər.

Altı elmi monoqrafiyanın müəllifi olan Mir Cəlalın alim kimi əvəzsiz xidmətlərindən bəhs etdikdə iki əsas məqamı qeyd etməliyik. Məhz Mir Cəlal 1940-cı ildə füzulişünaslığın təməlini qoydu, ilk dəfə Füzuli yaradıcılığının elmi-nəzəri şərhini verdi. Bu əsəri ədibin böyük ustada - Hüseyn Cavidə olan ithafı da adlandırmaq olar. Maraqlıdır ki, Mir Cəlalın ilk elmi yazısı da məhz romantizmdən bəhs edir. İkinci məqam Mirzə Cəlil yaradıcılığı ilə bağlıdır. "Sizi deyib gəlmişəm, ey müsəlman qardaşlarım" çağıran Mirzə Cəlili Yaxın Şərqə tanıtmağı Mir Cəlal özünə borc bilirdi. Mirzə Cəlil yaradıcılığından bəhrələnmək isə onda daxili bir tələb idi. O, ömrünün son günlərinə qədər, ümumiyyətlə ədəbiyyatdan söz düşəndə qarşısındakına ancaq bir sual verirdi: Mirzə Cəlili oxumusan, ya yox?

Məlumdur ki, böyük və qızıl dövrləri bir hadisə və yaxud bir insan

deyil, məhz kompleks şəkildə yaranan mədəni hadisələr və böyük şəxsiyyətlər toplusu meydana gətirir. Mir Cəlal Paşayev də XX əsr Azərbaycan tarixinin böyük və zirvə şəxsiyyətlərindən biridir.

100 il bundan əvvəl dünyaya göz açmış Mir Cəlalın bütün ömrü boyu gizlətməyə məcbur olduğu əsli onun nəcabətindən görünürdü. Bu gün yazıçı, alim, müəllim, böyük insan qarşısında mənəvi borc kimi etiraf edəcəyimiz bir acı həqiqət də ondan ibarətdir ki, Mir Cəlal müəllim sağlığında öz haqqını almamış, bir çox məqamlarda və şəraitlərdə öz prinsipiallığı və dönməz əqidəsi bahasına tam layiq olduğu adlardan, titullardan qəsdən məhrum edilmişdir. Amma o dövrdə bunu edənlərin, Mir Cəlalı kiçiltmək istəyənlərin və ömürlərində rəsmi partiya sənədlərindən savayı bir şey oxumayan yüksək rütbəli məmurların heç xəbəri belə yox idi ki, Mir Cəlal əsərlərinin birinə belə bir epiqraf yazmışdı: "Bəzi ulduzlar kiçik olduqları üçün yox, yüksəkdə olduqları üçün görünmürlər".



Mir Cəlal heç vaxt olduğu yüksəklikdən enib, haqqı da olsa heç kəsdən, heç nəyi tələb etmədi. Çünki o yaxşı bilirdi ki, əsl yüksəklik kağızların, sənədlərin, möhürlərin, qərarların, iclasların hökmü ilə deyil, ləyaqətli insan ömrü və bu ömrün zamandan-zamana təsdiqi və təntənəsi ilə ölçülür. O da sirr deyil ki, daxilində bir ilahi qığılcım yaşayan hər bir yazıçı, alim, ümumiyyətlə hər bir istedad zaman çərçivəsini yararaq əbədiyyətə qovuşur. Beləliklə, yazıçı və zaman qarşıdurması həmişə olduğu kimi bu dəfə də yazıçı qalibiyyəti ilə nəticələnir. Bu qalibiyyətin mənəvi tutumu bu gün 100 illiyini qeyd etdiyimiz Mir Cəlalın həyatı və yaradıcılığı, fiziki inikası isə onun qohumları, tələbələri, saysız-hesabsız oxucuları və nəvələrindən ən gözəli, ən yaraşıqlısı olan Mir Cəlal Aqil oğlu Paşayevdir.

Nərgiz PAŞAYEVA,
filologiya elmləri doktoru, professor

iç səhifədəkilər

NƏRGİZ PAŞAYEVA
Yazıçı və zaman
11-29

roman
Dirilən adam
33-196

hekayələr
Həkim Cinayətov
199-202
Mərkəz adamı
203-217
Sara
218-227
Təzə toyun nəzakət qaydaları
228-238
Beş almışam!
239-244
Göz
245-261
Bostan oğrusu
262-271
Ayaz
272-289
Dostumun qonaqlığı
290-298
Söyüd kölgəsi
299-305

Badamın ləzzəti
306-317
Kərpic məsələsi
318-330
Hikmətdən xəbər
331-339
Gözün aydın
340-351
Vətən oğlu
352-362
Dost görüşü
363-370
Kəmtərovlar ailəsi
371-380
Qonaqpərəst
381-387
Anket Anketov
388-396
Vətən yaraları
397-408
Leyla
409-418
Muştuluq
419-422
Badam ağacları
423-438



# DİRİLƏN ADAM

ROMAN

## DOSTLAR

Novruzqabağı idi. Bağışlanmaqdan danışırdılar. Məhbusların bazarlığını eləyən Həsən Gərmək hər gün kameraya yeni xəbərlərlə qayıdırdı. Bazarın bəzənməsini, Qala düzündə əsgərlərin məşqini deyib, nifrətlə yerə tüpürürdü. Bir o deyil, həyat işığından məhrum, qarovulların inadına oyuncaq olan adamlar pəncərədən baxdıqca hiddətdən sanki sıxılır, əriyirdilər.

Əfvi-ümumi ehtimadı var idi. Buna görə məhbuslar hər səsdə bir xəbər, hər xəbərdə ümid, azadlıq arayırdılar. Qapı cırıldadımı, qulaqlarını şəkləyib eşitmək istəyirdilər:

- Yığışdırın şeylərinizi!

- Bağışlanırsınız!

Dənizdəki balıq ac adamı nə qədər doyurarsa, məhbuslara da bu ümid o qədər təsəlli verirdi.

Nömrəsiz kamera bu hay-küydən uzaq idi. Burada qəmli bir sükut hakim idi. Hər şey köhnə qaydasında davam edib dururdu. Yaxın günlərdə buraya atılan Qədir hamıdan artıq iztirab çəkirdi. O, təcrübəsiz, aciz, məzlum bir insan idi.

Bir sutka ayaq üstündə durdu. Qımıldadısa da, söykənmədi, oturmadı. Küsmüş uşaqlar kimi başını aşağı salıb, kirimiş dayandı.

Kamerada iki nəfər də var. Biri qalın qaşlı, yumrusifət oğlandır. Tez-tez danışır, dili də şirindir, «r» səsini gətirə bilmir, yarıma yağım deyir. Bu onun ifadəsini pozmur, daha da şirinləşdirir. O, taxtın bucağından quru çörək qarasını götürüb, yoldaşına göstərir:

- Bu çöğəyi göğüğsən, hamısı bunun başında, bu zəhiğmağın başındadı...

- ...

Yoldaşı əl ağacına oxşayan uzun, caydaq adam dinmir. Vərəm öz müdhiş dırnaqları ilə onun üzünü yazmışdır. Damarları çıxmış, gözü dərinlərə çökmüşdür. Üzündən bəllidir ki, yaşı az olsa da, ömrünün çoxu getmişdir. Öskürəndə bütün bədəni yerindən oynayır.

- Dəmir yol qığılsa da, sözümüz sözdüğ!..

Qalınqaş oğlanın sözü sapand daşı kimi divarlara dəyib yerə düşür...

Yenə yoxlama zəngi çalındı. Məhbuslar qorxu və intizarla dalana yığışdılar. Belə hallar çox olurdu. Hamını bir yerə yığıb seçir, çoxlarını gecə vaxtı hara isə aparırdılar. Məhbuslar buna «gedər-gəlməz» deyirdilər. Ona görə zəng çalınanda hamının siması dəyişir, ürəyi döyünürdü.





İndi səhərdir. Günəş çıxmaq üzrədir. Belə vaxt cəzaya, qətl işinə ehtimal az olduğundan, zəngə ayrı məna verən, ümid də bəsləyənlər var idi. Elə bilirdilər ki, «bayrama üç gün qalıb, əfv-ümumi xəbəri gətiriblər».

Məhbuslar sement döşəməli dalana yığıldılar. Adamlar qurbanlıq quzu kimi bir-birini yalamaq istəyirlər. Onlar bu görüşdən çox razıdırlar, lakin çox çəkmədi, komanda ağır bir daş kimi ürəklərə dəydi. Hamı yerindəcə quruyub qaldı. Qara şal çuxalı əlindəki siyahıya baxıb, məhbusların sağına-soluna keçdi. Qışqırdı, iki nəfəri təpikləyib, sıradan çıxartdı. Onları dəftərxanaya tərəf itələdi. Qapının ağzında dayandı, marş verib yerlərinə qaytardı. Məhbusları bir də süzdü. Zəhər çıxsın deyə, qaşqabağını bərk sıxdı. Təbil ağacına bənzər qıçlarını qatlayıb, çöməldi:

- Həriflər, xainlər, bə!..

- ...

- Haydı!..

Qarovullar adamları kameralara doldurdular. Kimsə baş aça bilmədi. Qalınqaş oğlan kameraya dönəndə qarovulun eşidəcəyi səslə mızıldandı:

- Quduğubdu zalım oğlu, nədi?

Caydaq adam qapını bərk basıb, əlavə etdi:

- Yalı artıq düşüb!

Onlar yenə şirin söhbətə başladılar. Qalınqaş oğlan depoda çalışan və tətildə ittiham edilib, həbsə atılan Namazoğlu Qiyas idi. Qədir ona iki il iş kəsilməyinə inana bilmir, çünki Qiyasda məhbus ruhu yoxdur. O, toy-bayram adamına bənzəyir. Stansiyadakı fəhlə həyatından danışdıqca, uzun adamla mübahisəyə başlayır, bir-birinə bərk sözlər deyirlər. Heç kəs o birisinin sözünü qəbul etmək istəmir. İki dəqiqə sonra ağac qaşıqlar şorba qabında oynayanda mübahisə də unudulur, onlar mehriban ailə kimi danışır, evdən söz

açır, zarafatlaşırlar. Qədir indi bu ailənin üzvüdür. Qalınqaş oğlan az qala Qədiri də özü kimi sevinclə suvarır:

- Arvadın ürəyi indi sənin üçün bir tikədir. Bəs sən niyə heç yadına salmırsan?..

Qədir dil açdı. Nömrəsiz kameranın nömrəli adamı kimi heç nəyi gizlətmədi, başına gələni beləcə başdan-ayağa danışdı.

## «YERİNDƏ BİTMƏYƏN» GÜL

Gecə dəhşətli yuxu kimi kainatı basmışdı. Qatı və dibsiz qaranlığın bağrından qopan yağış dünyanı qamçılayır, arabir eşidilən səslər, qaranlıqda boğulan adamların fəryadına bənzəyirdi. Canlılar cansızlara sığınırdı. Yalnız alçaq damında ot bitmiş, kərəni qocalmış, pərdisi qaralmış daxmanın qarşısında bir atlı hər şeyə dözüb dururdu. At ayaqlarını yerə döyür, yüyürmək, yağışdan qaçmaq üçün dartmırdı. Qaya kimi atın üzərinə tinkilmiş gövdəli adam isə cilovu daha da bərk çəkir, daxmaya baxır, baxdıqca baxırdı.

İçəridən gecənin qəlbinə uzanan ağ və nazik şüa sapı atlının gözünə sancılır. Atlı sapı tuşlayıb içəriyə baxır.

Balaca dəhlizdə yeddilik lampa Qumrunun dələmə kimi ağ bədənini işıqlandırır. O, təknədə yuyunur. Qumrunun şamama kimi tər, mərmər kimi vücudunu gördükcə atlı içindən qovrulur, onun dolu yanaqlarından doymayan nəzərini uzun saçlara, qara gözlərə salır, aclığı daha da artır, ox ilanına dönmək, bu saatca sürüşüb qadının belinə dolaşmaq istəyir.

Əri Qumrunu qurulayır. Təmizlik və yüngüllükdən doğan bir istəklə onu öpür, əzizləyir. Bu səhnə çox sürməyir, lampa sönür,



pərdə salınır.

Pulsuz, lakin iştahalı tamaşaçı sovuşmaq istəmir. Gözünü ehtirasla bir dəqiqə əvvəlki səhnənin yerini dolduran qaranlıqlardan götürmək istəmir.

«Peyin içində bitən gül!»

«Zibillikdəki mirvarinin» işığı tamaşaçının gözünü qamaşdırır, «peyinlikdəki gülün» qoxusu əsəblərini qurudur.

Bəbir bəy son zamanlarda Qədirə çox yaxın gəlirdi. Halını soruşur, dərdinə qalmaq istəyir, mehriban danışdırırdı.

Bir axşam çəpərin dalından səs gəldi:

- A Qədir, Qədir!

- Bəəə...li Bəli!

Qədir Bəbir bəyi səsindən tanıdı. Yalınayaq qapıya çıxdı.

- Buyurun, bəy, buyurun!

Bəbir bəy özünə məxsus bir əda ilə öskürdü, içəri girdi. Qumru yük yerindən balış gətirdi. Bəbir bəy yanını pəncərəyə qoyub:

- İstəməz, nə zəhmət! - dedi.

O, gözaltı Qumrunun yerişinə, ayaqlarına fikir verdisə də, topuğunu görə bilmədi, çünki uzun, büzməli tuman yerdən sürünürdü. Bəbir bəyin qadın seçməkdə əsl şərtlərindən biri də baldır, ayaq məsələsi imiş.

Baldır, deyirmiş, nə çox yoğun, nə də nazik ola, ayaqları elə tən gərək ki, sağ ilə sol seçilməsin...

- Xəcalət verməyin, ay bəy, kasıb evi olanda nə olar? Buyurun yuxarı başa, üşüyərsiniz...

Qədirin də, Qumrunun da mehmannavazlığına etina etməyən Bəbir bəy yerini dəyişmədi. Çörək də yemədi. Ev sahibi sıxıldı. Qumru da utandı. Bəyə layiq heç nələri yox idi. Araya süfrə açdıqlarına çox peşman oldular. Qədir qonaq xəcalətinin ağırlığını tamamilə hiss etdi. Başını aşağı saldı. Bəbir bəy mane olmamaq

üçünmü, nədənsə danışmırdı. Gah fit çalır, gah da çəkməsinin boğazından asılan qamçını şarpıldadaraq həzz alırdı. Bəllidir ki, bizim qadınlar qonaq yanında yeməyi, ağız tərpətməyi eyib bilərlər.

Qumru süfrədən çəkildi. Qapının kənarında üzü divara sarı oturdu, uşağını qucağına aldı.

Yalnız Qədir yeyirdi. Hər tikədə utanırdısa da, tez qurtarmaq, süfrəni yığışdırmaq istəyirdi. Bir tərəfdən də Bəbir bəyin iltifatı onu çox sevindirdi.

- Allah razı olsun, - deyirdi, - kəndlinin, rəncbərin də dərdinə qalır. Harada görünüb ki, belə böyük adam, kəndin kiçik Allahı, mənim kimi lüt rəncbərin evinə gəlsin, hələ kefimi də soruşsun... Rəhmətlik Şah Abbas cənnətməkan belə imiş. Təğyir-libas ilə qapı-qapı gəzərmiş...

Sözün birini qoyub, o birini deyən Qədir çəkinməmiş də deyildi.

- Ağız, şər deməsən xeyir gəlməz, bəlkə Bəbir bəyə qandırıblar ki, belə... Qədir Qatır Məmmədə çörək verənlər nəslindəndir. Qohumdur, qahmardır, filandır, behmandır. Ona görə yüzbaşı yer altından yasa gedir, yoxsa?

Ərinin söhbətindən sonra Qumrunun da canına qorxu düşmüşdü. Gözünə vahiməli şeylər görünür, ürəyinə cürbəcür fikirlər gəlirdi:

- Onda mən neylərəm?.. Onda halım necə olar? İlahi!

Qədir arvadın təlaşını, həyəcanını söndürmək üçün öz həyəcanını gizlədirdi. Əsassız söz deməyinə peşman olur, səsini dəyişirdi:

- Səfeh olma, ağız!.. Bəbir bəy eləməz. Yox, eləməz. Canın üçün eləməz. Nə olub, deyir... Eləsəydi, haçandan Bəndalını tutalı... Onda bizi də aparardılar dana!.. Yox, xəyalından çıxar at. Özüm ölüm eləməz. Bir də, işdi Allah eləməmiş, məsələ o yerə çatanda mən də billəm neynərəm. Oraq, dəryazı ataram bir yana.



Dabanlarımı çəkib, birbaş Şeyxülislamın yanına gedərəm. Dünya başınadı bəyəm? Şəhərdə böyükləri görərəm. Nə olub deyir, Qatır Məmməddən bizə nə var? Qoyunu qoyun ayağından, keçini keçi... İyirmi beş ildir bu kənddə birinin toyuğuna daş atmamışam. Heç kəs inciməyib. Divan-dərə qapısı görməmişəm. Birinə güldən ağır söz demərəm. Odur ki, Cavahir xanım indi də yalvarır, burax gəl, deyir, öz qapımızda ol... Mən kimə neyləmişəm? Rəncbər adamam. Mənə nə Qatır Məmməd? Nə olub deyir? Dava-dalaş yerlərdə nə haqq-hesabım var?

Qədir havalanır, dediklərinin doğruluğundan xoşhallanıb gülümsəyir. Qumrunun üzünə baxır, sanki cavab gözləyirdi. Qumru ocağın başında oturub, nəyi isə qurdalayırdı. Təcrübəli kişilər kimi etiraz etdi:

- Heç elə deyici olma... Adamları tanımaq olmaz. Dünyanın işidir. Kim bilir. İndi adamlar qəlpdirlər. Bir-birinin ətini yeyirlər. Bəndalı kimi oğlu...

Burada Qumru ehtiyatla pəncərəyə, qapıya baxdı, bir an sükutu dinlədi, sözünü bitirdi:

- Kim deyərdi ki, Bəndalı kimi oğlu atacaqlar. Anası mələr qalıb. O... Nə deyim olmuşlar... Ay tanrı, özün rəhm elə. Nələr görmədik?..

- Ağız, sən nə danışırsan? Bəndalını Nikolay öldürtdü. Bəndalı padşahnan kəllə-kəlləyə durumuş. Ləvənd oğlu lap Nikolaya sataşırdı. O zamana baxma. İndi müsəlmanlıqdır, iş başında müsəlman. Özümüzünkünü niyə öldürürlər, ay dəli, nə olubdur deyir! Hələ müsəlmanın əlinə tüfəng verib, dava öyrədirlər. Daha o zaman getdi. İndi Azərbaycanlıqdır. Görmürsən atdanıb o yan-bu yana çapan əfsərləri? İndi işlər dəyişib, xəyalına ayrı zad gəlməsin, Qumru!..

Bu söhbətdən sonra Qədir, Bəbir bəyi daha şirin və arxayın

qarşılamağa hazır idi. Danışmağa yer axtarır, başqalarına hələ məlum olmayan sözləri deyib, fəxr etməyə həmsöhbət arayırdı. Qabağına kim gəlsə, harada başlasa, sözü dolandırıb, Bəbir bəyə, kəndin «kiçik Allahına» gətirəcək və işarə edəcəkdi.

- Hə... Dava məsələsi. Bəbir bəy dünən bizdə danışırdı ki...

Bəbir bəy ikinci kərə gələndə Qədir daha o qədər təşvişə düşmədi. Bəy özü də bunu hiss etdi. Çubuğunun külünü yerə silkələyərək dik-dik rəncbərin üzünə baxdı. Tuluq büzməsi kimi bürüşük, qaralmış dodaqlarını çevirdi. Yandan düşmüş dişinin yerindən çırt atdı və danışdı:

- Qədir, sənin can naloqundan nə qədər durur?

Qumru qalayı getmiş paxırlı tiyançanı gətirib, küncə qoydu:

- Ay bəy, buyur zəhmət çək, bura fınxır, - dedi.

Qara çadranın altından gözünü Bəbir bəyin üzünə zillədi:

«Bəy olanda nə olar, başı batmış nə qədər də kifirdir. Çənəsi bel, burnu bıçaq sapı, saqqalını dovşan otlamış, zalımın bığ yerlərindən deyəsən siçan quyruğu sallanır. Çənəsinin yanları dağ suda pörtdənmiş kimi işım-işım işıldayır, yanağında il yarası qırışıqlar, çal-çarpaz cizgilər arasında bürüşüb. Allah göstərməsin, «cəhənnəmdən bezbilet qaçan» beləsinə deyirlərmiş...»

Bir anda bunları fikrindən keçirən Qumrunu anlaşılmaz bir qorxu aldı. Bəlkə şeytan eşitdi. Ürəklərə girən çuğul yatmayıb, yüzbaşının qulluğunda neçə beləsi var... Şeytan bunu aparıb bəyin qulağına pıçıldasa, qiyamət qopar. Qumrunun bədəni titrədi. Qəlbi döyündü. Başına ağrı gəldi. Dodaqları bir anda qızardı. İnsanın istədiyini xəlvətcə düşünə bildiyinə sevindi. Nə yaxşı ki, bu dəftərxana adamlarının yadına düşmür, yoxsa buna da naloq qoyarlar.

Bəbir bəyin göydəndüşmə sualı Qədirə qəribə gəldi.

- A Qədir, sənin can naloqundan nə qədər durur?



Xeyir ola, bu hansı naloqdur, balam? Ay başa çatmayıb ki. Qumrunun əziz cehizi alagöz kilimi çərçiyə satılıb, pulları köz kimi nəqd yüzbaşının ovcuna tökülmədimi? Haman naloq deyilmi ki, bizi də Hacı Hüseynin ayağından yazdılar. Şikayət edəndə yüzbaşı «başa salırdı» ki:

- Ay müsəlmanlar, bilin ki, islam hökumətimiz cavandır, təzədir, qüvvəsi azdır. Gərək siz qolundan tutub qaldırasınız. Elə ki qüvvətləndi, kasıbdan naloq almayacaq, heç nə də istəməyəcək. Hələ indilikdə islam zəifdir, gətirin verin! Biz var-yoxdan da çıxsaq, yeridir. Öz hökumətimizdi. Görürsünüz, şəhərin böyük adamları islam yolunda milyondan keçirlər. Zarafat deyil, odur, Hacı Həsən bir cüt öküz verib, Hacı Əli dam-daşını divana bağışlayıb, Mir Yaqub axund şəriət eşqinə kəndlərdə moizə deyir, bir qəpik də almır... Hamı bilir ki, qeyrət vaxtıdır. Hökumətin də dostu var, düşməni var axı...

Bəyin sualından sonra Qədirin boğazı qurudu. Belini düzəldib, həsrət və təəccüblə evin aşağı başına, açıq qalan torpağa baxdı:

- Hansı naloqdan, a bəy? Yox, gərək qalmasın. Bir ay iyirmi beş gün olar ki, hamısını doldurmuşam. Yox, yadımdadır, naloq-maloq qalmasın gərək. Divan deyəni borcumuzdur verək, vermişik.

Qədir danışa-danışa durdu, yük yerindən kağız düyünçəsini açıb gətirdi. Düyüncədəki kağızları Bəbir bəyin qabağına tökdü:

- Budur, bəy, buyurun, bu olacaq, baxın görək, demirəmmi vermişəm?

Bəy kağıza baxıb, mehriban kimi danışdı:

- Heç, əşi, eləcə soruşdum, nə olasıdır? Vermisiniz!

O, təbəssümlə ev yiyəsinə baxdı:

- Nə olar soruşanda, a Qədir, qiyamət olmadı ki? Nə əl-ayağa düşürsən, ay evini Allah yıxmasın! Orada oturan biz deyilikmi? Yəni öz əlimizdə deyilmi?

- Düz buyurursunuz, a bəy, ancaq ki, ürəyim üzüldü.

- Nikolay dəftərxanası sizin gözünüzün odunu alıb. Heç öz islam hökumətinizin qədrini bilmirsiniz.

- Bizə təfavütü nədir, bəy? Nikolay oldu, ya Ələs bəy oldu. Hər kəs eşşək olar, biz də ona palan.

Qədirin sözü bəyə yaxşı təsir bağışlamadı. O, bir az qızışdı:

- Odur da, müsəlmanın evi onda yıxılır dana. Ədə, a bədbəxt oğlu, necə yəni təfavütü yoxdu? Necə yəni «təfavütü nədi?» Boş söz niyə danışırsan? Nəsib bəy hara, Ələs bəy hara, Vartazar, İvan hara? Ağlın çaşıb nədi? Səndə heç müsəlman qanı yoxdu?

- Yox ey... Ay bəy, sən də pis demirsən ha, orası var ki, biz elə gözümüzü açıb, böyükləri görmüşük, Həsənəli uşağı, Hacı Hüseyngillər, indi də ki, siz. Əvvəldən də heç burada urus, erməni oturmadı. Bizim, fağır-füqəranın cilovu həmişə sizin əlinizdə olub. Biz elə şallağı da, möhürü də sizdə görmüşük.

- Mənim olmağım ilə nə işin var? Hər adama belə daverit olmaz axı. Mən heç, ancaq bizə müsəlman hökuməti olmaq böyük işdi!.. Sən avamsan, belə şeylərə ağlın çatmaz. Biz biz olsaq, gərək gecə-gündüz zikr eləyək...

- A bəy, buyurdunuz verilib, eləmi?

- Hım... Elə-belə soruşdum, necə? Gözün çox qorxubmu?

Bəyin belə mehribanlığı Qədirə xəcalət verirdi. Əvəz eləmək üçün heç nəyi yox idi. Qədir əlini sinəsinə qoyub razılıq edirdi:

- Yox, bəy, Allah sizin kimilərin sayəsini bizim üstümüzdən əskik eləməsin. Hökumət dediyin rəiyyətin çobanıdır. Bizim borcumuzdur mal ilə, can ilə, nə bacarsaq. Ancaq ki, var ola verəsən. Varlığa nə darlıq? Var yaxşı şeydir. Allah düşməni də kasıb eləməsin. Kasıblıq, sizdən ayıb olmasın, a bəy, kasıblıq bir köpəyoğluluq deyil!

Bəbir bəy Qədirin sözünü ağzında qoydu:

-Günah özündədir!..





-...

- Əlbəttə, günah özündədir! Lap özündə!

- Yəni necə buyurursunuz, a bəy?

- Necəsi yoxdur. Allah varı gətirib qar-yağış kimi bacadan tökməyəcək ki! Böyük sözünə qulaq assaydın, əlbəttə ki, varlı olardın!

- Mənmi qulaq asmamışam, a bəy?

- Bəli, sən.

- Mən ha?

- Lap elə sən, Qədir, sən cənabın!

- Mən sizin hansı sözünüzdən çıxmışam? Xeyr, a bəy, mən nəkarayam? Mənim borcumdur, nökərçiliyim var! Niyə elə deyirsiniz, bəy?

- Yox, qulaq assaydın, indi sən də bir kişi idin.

- Bu çörək gözümü tutsun əgər mən siz deyəndən çıxmışamsa. Divandan nə əmr gəlib, mən boyun əymişəm. Nə deyibsiniz ki? İnandığım bir Allaha and olsun... - deyə Qədir arpa çörəyindən bir çimdik qırıb yerə tulladı. - Bu bərəkət məni gözdən eləsin, yalan deyirəmsə!

Qumru cəld qalxıb çörək parçasını götürdü, üfürdü, öpdü, süfrəyə atdı.

Bəy pəncərədən yuxarı yönəldi, ocağın başında oturmaq istədi. Qədir xahiş etdi:

- Yaxın əyləşin, bəy, lap yaxın. Quru yerdə oturmayın, ev xarabdır, üşüyərsiniz.

«Ev xarabdır» deyəndə Qədir vaxtilə topdan dağılmış divarın təzə hörülmüş, hələ suvanmamış yerinə baxdı. Bu divardan soyuq keçir, gecələr evə ayaz dolurdu. Bəbir bəy böyrünü yastığa verdi. Sifətini ocağın közü işıqlandırdı. Ağır kəlbətin kimi çətin açılan və asan yumulan ağzı indi qayçı kimi yaxşı işləyirdi:

- Qumru da mənim bacım, eşidin ha! Qədir, kasıbın başı olmaz deyərlər. Bu düz sözdü. Vallah düz sözdü. Bax, biri sən özün. O gün çağırıb deyirəm, balam, girlənmirsən, gəl səni bir qulluğa qoyum, bir parça çörəkdir, niyə özgəsi yesin, niyə sən yeməyəsən? Ay sağ olmuş, cavabın nə oldu? Yaxşı deyiblər, dərgah qapısı açıq olanda köpəyin yuxusu gələr.

Qədir çəkilib divara söykəndi. Bəbir bəyi diqqətlə dinlədi. Onun bəlkə də haqlı, yerli danlağına qarşı söz tapa bilmədi. Başını silkələyib, təsdiq ilə ürəyində təəssüf elədi.

Bəbir bəy hərifi sükutda görüb davam edirdi:

- Mən deyirəm, sən ol! Odur Həsənəli uşağı gəlib-getməkdən yolu ağartdılar. Hər gün bir düdük verib yola salıram. Düzəltmək istəmirəm. Niyə istəmirəm, açıq deyim, çünki xoşum yoxdur. Amma sənin kimisinə varam. Kasıbsan, üzüyolasan, işləyənsən. Bu saat sağlığına pristavın yanında bir sözüm iki deyil. Hər gün bir sifarişi gəlir. O gün yanına çağırtdırıb, qabağıma bir papruz da qoyub, deyir ki: «Eşidəm mənsiz ova çıxıbsan, daha nə bilim ha!»

Bu sözü bəy bir xəbər kimi yox, böyük bir müjdə kimi ürəkdən və şirin dedi. Qədirin də, Qumrunun da üzünə baxıb səsini ucaltdı:

- Axı bunu rəhmətlik oğlu istədiyindən deyir. Bəs niyə Navacalılara, Qaraca Əmirlilərə, Sərkarlara demir? Demir, deməz də! O da adamı tanımır? Zarafat deyil, Nikolayın qulluğunda sümük sındırıb. Mən əlsiz-ayaqsızlara kömək eləmək istəyirəm. Sənin kimi oğlanı belə bir həsir, bir Məmmədnəsir görəndə vicdanım ağrıyır. İnan ki, ağrıyır. Çünki niyə? Vardan adama nə zərər? Budur oturmuşuq sənin evində, axı niyə olmasın, niyə sənin də varın olmasın? Mən ki, qabaqda varam, sən qulluq eləməyib bəs kim eləyəcək? Səni də işə düzəltməsəm, kimi düzəldəcəyəm? Ancaq ki, özün yovuşan adam deyilsən... Vecə gələn deyilsən, üzünə deyirəm.



Qumru bəyin vədlərinə sevindi, sevincindən yerində qımıldandı: belə bir xeyirxahı dinləmədiyi, sözünə qulaq asmadığı üçün ərinə acığı tutdu. O da söhbətə qarışdı:

- Haqq deyirsən, bəy! Qədir dolanacağını bilsə, bu günə niyə qalırdı? Kənd başdan-ayağa həsrət çəkir ki, nə olaydı divan adamı ilə, bəy ilə iki kəlmə danışıb dərdini deyəydi. Bizimki malın-məğmunun biridir, lap düz buyurursan!

Bəbir bəy mətləbinə çatmış, sözü hədəfə dəymiş kimi sevincək dikəldi, üzünü Qumruya tərəf çevirdi, daha səmimi bir ifadə ilə dedi:

- Qumru bacı, indi bilirsən, bayaq dedim, mən ki. qabaqdayam. hökumət öz əlimizdədir. İş başında durub müsəlman... Hürriyyətlik dediyin nədi? Özümüzük, lap loru desək: özümüzük dana! Kimi deyirsən yıxım, kimi deyirsən tikim. O bizim əlimizdədir. Şəhərdə elə hörmətim var, bütün kəndi selə verəm, bir deyən olmaz, a bəy, gözün üstə qaşın var. İxtiyarat özümdədir.

Sözün bu yerində bəy ürəyində yanğı duydu. Gözünü gəzdirdi. Qədirdən xahiş etdi:

- Qədir, o kuzədən bir qurtum su ver içim. - Hə... nə deyirdim: aləm daraşıb yeyir, on minə, yüz minə pul deyən kimdir?

Bəbir bəy cümləsini bitirmədi. Əllərini bir-birinə vurub kiridi. Yenə də vacib bir şeyi xatırlamış kimi mətləbə qayıtdı:

- Yanıram axı, yandırır məni! Necə yandırmasın ki, cavan, ağlı başında igid oğlan qulluğu qoyub, qapılarda nökərçilik eləyir. -Bəy ifadəsini dəyişdi: -Demirəm eləmə ha, nökərçilik də lazımdır. O da kərəkdir. Biz özümüz də Nəsib bəy həzrətlərinə, hansı ki. xahiş edirəm onun şərəfinə ayağa durun...

Bəy zıqqına-zıqqına ağır gövdəsini yerdən üzdü, dərhal yenə döşəkçəyə çırpdı. Ev sahibi də qalxdı. Bu, Qədir üçün də, Qumru üçün də təzə məsələ idi. Onlar elə bilirdilər ki, dünyada yalnız bir adamın, Sahibəzzamanın adı gələndə ayağa qalxarlar. Demə

Sahibəzzaman tək deyilmiş, Nəsib bəy kimi tayı varmış.

Bu təzimin təsiri həyətdə hiss edildi. Bəy oturmamış, itlər eşikdə hürüşməyə başladılar.

O, sözünü belə bitirdi:

- Hım... nə idi, biz özümüz də o kişilərə nökərik. Onlar da millətin başının ucalığıdır. Söz məsəli, nökər var, nökər var. Amma mən duran yerdə Qədir qulluğa getməsin, lap nahaqdır. Lap ha! Çünki qulluq ya adamı öldürər, ya dirildər. Can yandırdınmı, islam yolunda iş gördünmü, nəsilbənəsil yeyəcəksən. Yeddi gavuru bir gülləyə yıxan Sarını nə dəsgah ilə Bakıya apardılar. Nəsib bəy ona qızıl medal verib. Kişinin dalınca indi də, köpək kimi iki yasovul gəzir. Daha nə istəyirsən? Hökumətimiz də Azərbaycan, islam əlində, Məhəmmədin şəriəti. Görürsən ki, ermənilərin də bu gün-sabah külünü göyə sovurarıq. Niyə qulluğa girməyəsən axı?

Qədirin ailəsində sevinc, xoşbəxtlik ruhu vardı. Ər də, arvad da gündüzün ağır və ucuz zəhmətlərini unudur, sihhət vannasında çimmiş, ehtiyac, əziyyət və əzablardan silkinmiş kimi, özlərini yüngül hiss edirdilər. Gələcək xoş günlərin dadı ilə ağzı dada gəlmiş ata, uşağı Faxirəni də dönə-dönə öpdü, bu gecə şad yatdı.

Söz vaxtına çəkər. Bildir bu zaman idi. El məscidə yığışmışdı. Əsgər getmək məsələsinə baxırdılar. Sarıqlı mollanın «cahad» haqqındakı sözləri çox adamlara yer elədi. «Can-başla» getməyə hazır olanlar dilləndilər. Hacı Hüseyni, Danqır Abbası, Kök Məşədi Məhəmmədi, Taq Hamidi də pulla əsgər tutdular. Bağır oğlu Əlini dəftərxana qabağında dirəyə bağlamışdılar. Hər iki yandan durub, yun çırpan kimi döyürdülər. Yüzbaşı boğazına güc gəlib qışqırırdı:

- Vur, vur, vur... vur donuz oğlunu ki, ağlı başına gəlsin!

Söyüd şivləri qırıldıqca yasovullar yenisini gətirirdilər. Kişinin «öldüm!» harayına gələn Mələk qarı özünü çubuğun altına atdı. Yasovullar qarını da Bağır oğluna qatdılar. Sarıqlı mollanın səsi



gəldi:

- İnsaf eləyin! Əhli-insan nə günahın sahibidir, bəradər!

Bu vurhavur Qədiri çox qorxutdu. Heç gözə görünmək istəmədi. «Bəlkə - dedi, - mənə də bu qulluqdan verəcəklər. Mən qələt elərəm! Öküzü döyməyə ürəyim gəlmir, bu vay-haray insanların qəlbini parçalamırmı?»

Bəbir bəyin də kefi qarışıq idi. Qaşqabağını sallamışdı. Deyəsən, nəyinsə dərdini çəkirdi. Qədir fürsət bilib yayındı, üzünü bağlara tərəf tutub, yavaşca, dala baxmadan gedirdi. Bekar Ağabala dalından çatdı:

- Hara belə?

- Heç, evə gedirəm!

- Yüzbaşı deyir, bəs it baxandan niyə baxırsan?

- Necə bəyəm?

- Qayıt, nə evbazlıqdır? Hələ salamat çıxdın, qaldı ev. Gəl, çağırırlar səni! Bəri qayıt!

Qədirin ürəyi nanə yarpağı kimi əsdi. Bu çağırışın xeyir olmadığını duydu. Bir də fikir etdi ki: «Belə deyil, mən nə etmişəm ki, döyələr. İnşallah mənə dəyməzlər». Camaatın içinə çatmamış, yasovullar onu çoxdan axtarırmışlar kimi qamarladılar. Qədir nəsə demək istəyirdi: «Dayan bir, aha... axı... günahım...» Yasovullar macal vermədilər, kişinin dinəcəyi olmadı. Onu da dirəyə sarıdılar. Qolları kürəklərinin altında əzilir, topuqlarını dirək qırır, ayaqları göyə sarı dik dayanıb kötək gözləyirdi. Bir qara, qılpapaq adam var idi. Gözü ilə Qədiri yemək istəyirdi.

Çubuqları çəngələdi, cəld irəli yeridi. Odun yaran kimi qollarını göyə qaldırdı, adamları dəhşət aldı. Qədir gözlərini yumub qışqırdı.

- Ay müsəlmanlar, kömək! Mən nə günahın sahibiyəm? Ağa! Ağa, mənə yazığın gəlsin!..

Səs gəldi:

- Əl saxla!

Yüzbaşı üzünü ağsaqqallara tutub dedi:

- Əfəndilər! Millətin qarşısında müqəssirdir. Əsgər borcunu verməyib, avam olub. Bundan bir ay möhlət alaq, mən zamına götürürəm, borcunu yerinə yetirməsə, bir də kahallıq eləsə, mən vicdanən məsul! Məhkəməyə özüm gətirəcəyəm!

Əslində Qədirin nə üçün sarınmağını bilməyən ağsaqqallar iltiması dərhal qəbul etdilər. «Olsun, razıyıq» dedilər. Qədir buraxıldısa da, məscid həyətində bir köynək ət tökdü. Həyatında ilk dəfə idi ki, adam içində əli-qolu sarıqlı yerə sərilmişdi. Üst-başını çırpdı, dəftərxana qabağından ötüb, bir tərəfə əkilmək istədi. Bekar yenə bir bəla kimi ətəyindən tutdu:

- Qurtardın ki, ay lotu! Ötür gəlsin görüm!

Qədir başa düşmədi:

- Nəyi ötürüm?

- Tülkülüyünə bax! - Qədir durub baxırdı. O daha açıq dedi: – Əlini cibinə sal!

Qədirin cibində çörək qırıntısı və kəndir parçası var idi. Utandı. Boğazının ətini çəkmək, Bekara bir şey boyun olmaq istəyirdi. Bəbir bəy arxadan səsləndi, işarə ilə çağırdı. Qədir qorxudan cəld bəyin yanına gəldi. Bəy gülümsünüb dedi:

- Yoxsa qorxdun? Uşaq olma, qulluğa girməyin belə işləri var. Bərkə-boşa düşüb çıxasan gərək. Dedim görək hərif tablaşarmı? Sabah səni düşmən yaxaladı, döyər də, canına nizə də, iynə də batırar, gərək dözəsən, millətin sirrini verməyəsən. Eybi yoxdur, öyrənərsən, hər şey qamas-qamas.

Bəy yeriyə-yeriyə ifadəsini dəyişdi:

- Əliboş niyə gəlmisən, ay xalası göyçək? Divan-dərədə qulluğa girirsən. Kənddə beş adamın biri olacaqsan. Zarafat deyil. Özün də əl-qolunu ata-ata gəlmisən. Adamda qanacaq olar, böyük-kiçik



yaxşı şeydir axı!..

Qədir, bəy qarşısında minnətdarlığın nə demək olduğunu başa düşdü, səhvini anladı:

- Baş üstə, bəy, borc olsun, - deyib evinə tələsdi.

Qumru ilə Qədir çox məsləhətləşdilər. Nə ümid yeri, nə də satılası bir şey var idi.

Evi Hacı Hüseynin yanında girov qoydular. Qədir Axrenni[1] Məşədi Ələkbərdən 400 manata bir berdanka, əlli patron aldı. Doğru deyiblər ki, yaraq yaman şey olur. Kişi əlinə alanda bildi ki, bu zəhrimarda nə hikmət var. Qəlbində elə bil od qaladılar. Durduğu yerdə dingildəyir, yerindən oynayırdı, tüfəngi düşmənlərə çevirib, çaxmağı işlətmək istəyirdi. «Lənət sənə, kor şeytan ha!»

Qədir, bəyin yanına getdi. Bəbir bəy onun berdankasını alıb baxdı. «Pis deyil» dedi. Çotkənin yanına, divara söykədi. Soruşdu:

- Bəs niyə əliboş gəlmisən? Ay xalası göyçək, qulluğa girirsən, olacaqsan beş adamın biri...

Qədir təəccüb etdi:

- Bəy, almışam ki!-dedi.-Tüfəngi Məşədi Ələkbərdən satın almışam, özümündür.

Bəy başını buladı, əlini tovladı:

- Ay hay! Ədə, bambılı, mən heç. Mən, deyək ki, islamsan, boynuma almışam, cövrünü çəkim. Bilirsən ki, səndə tamahım olmaz. Pristavın yanına bəs nə üz ilə gedəcəksən? Həsənəli uşağı, Hacı Hüseynin gedəsi gəlib-getməkdən yorulublar. Mən bu qulluğu kəsib sənə saxlamışam...

- A bəy, onlar vağzalın böyüyüdürlər.

- Ona baxma, işləri bizdən aşır. Nə baxırsan! Gəlib-getməkdən...

- Ay bəy, Məşədi Ələkbər deyir, nə bilim yüzbaşı özü də bizə baxır.

1. Stansiya qarovulu

Bəy qızardı, acığı tutdu, qapı-bacanı nəzərdən keçirib, cavab verdi:

- O, ... yeyir, sən də ağzını yalayırsan.

Qədir susdu, yerdəki papiros kötüyünün tüstüsünə baxdı. Bəy bir az da Qədirə tərəf əyilib dedi:

- Gözlə, söz burada qalsın ha! Bu, divan işidir! - Səsini ucaldıb mətləbini bitirdi: - Gəlib-getməkdən yağır olublar. Pul deyənə, camış gətirənə bax. Onları astanadan qovurlar. Sən istəyirsən mən də pristavın yanında üzü qara olum? Olmaz axı, bura hökumət qulluğudur. Sünnət toyu deyil ki!

Qədirin ürəyi çox sıxıldı, yüzbaşını o indi başa düşmüşdü. Kor peşman evə qayıtdı. Həvəsi qalmadı, yaralanmış quş kimi halsız düşdü. Qumru da çırpı yığmaqdan qayıdırdı. Ərinin kədərini hiss etdisə də, heç nə demədi. Uşağı nənniyə salıb, küncə qısıldı. Belə vaxtlarda o, Qədirin sükutuna hörmət qoyar, bəlkə onun yorğunluqdan, taqətsizlikdən pərişan olduğunu güman edərdi. Qədir bir şey hiss etdi:

- Soruşmursan, yüzbaşı nə dedi?

- Bəlkə, deyirəm, özün danışacaqsan?

- Yüzbaşı yaman kafir imiş!

Qumru yenə dinmədi. Qədir diqqətlə qulaq asdı, fikir verdi. O ağlayırdı. Durub qolundan tutdu, yanına gətirdi, göz yaşını sildi, dərdini soruşdu.

Qanlıdərə deyilən bir yer vardı. Qışda orada qurumuş qol-budaq çox olurdu. Qumru bunları toplayıb gətirir, pisini evdə yandırır, yaxşılarını qom-qom bağlayıb qonşulara satır, təndir çörəyinə dəyişirdi. Bu gün meşəbəyi rast gəlmiş, odunları yerə tökdürmüş, Qumrunu söyüb qovlamışdı. Qədir bunları biləndə ovqatı daha da qarışdı. Arvadına təsəlli vermək istədi:

- Eybi yoxdur, - dedi, - getmə, çırpı yığmayanda acından



ölməyəcəyik ki? Daha niyə ağlayırsan? Qoy aparıb gözünə soxsun. Razı olmazlar ki, kasıb dolansın. Bu namürvət uşağını tanımırsanmı? Daha niyə ağlayırsan, kiri, dəli olma!

Qədir kədər üstünə kədər gətirə bilməzdi. Yüzbaşının dediklərini açmadı. Yalnız axşam, Qumrunun rəngi özünə gələndən sonra mülayim bir dillə söhbət elədi. Qumru çox pozuldu. Belə bilsəydi heç razılıq verməz, həyəti də satmazdı.

Nə o dedi, nə bu danışdı. Evə matəm sükutu çökdü. Bir müddət susdular. Yeddilik lampanın işığında ər-arvad məzlum-məzlum bir-birinə baxıb dururdu, nəzərlərində sual və ehtiyac hiss olunurdu.

Qumru soyuq bir məsləhət gördü. Qulluq fikrindən daşınmaq istəyirdi, ancaq dolanmaq da lazım idi. Çörək dərdi ərindən artıq Qumrunu sıxırdı. İnsan ümidlə yaşar. Xoşbəxtliyi duyulan uçurumları, girdabları da adlamaq asan olur, deyərlər. Ər-arvad ha fikirləşirdilər, qulluğa olan ümidlərini söndürə bilmirdilər.

Yarı yoldan qayıtmamaq üçün bir çarə tapdılar. Qumrunun anasından bir yadigar var idi. Məxmər zıvınça. Yorğanın toxunma üzü ilə zıvınça satılmalı oldu. Qumrunun könlünü almaq üçün Qədir gələcəkdən şirin-şirin danışırdı:

- Ağız, heç fikir eləmə, birə min gələcək. Beş günlüyə dözərsən. Eybi yoxdur. Allah qoysa qulluqda hamısının əvəzi çıxar, arxalıq nədir, sənə lap məxmər don alaram.

Bəbir bəyin məsləhəti ilə pristava bir saat alındı. Saatı pristava çatdırmaq yüzbaşının öhdəsinə düşürdü. Qədir qulluq kağızını alıb qoynuna qoyanda elə bildi dünyanı ona verdilər. Dərindən bir köks ötürərək, sanki aylardan bəriki həsrət və iztirablarını papiros tüstüsü kimi havaya buraxdı:

- Allah axırını xeyir eləsin!

AYRILIQ

Qədir Xaçbulağa rəisin dəyə qarovulu təyin olunmuşdu. Bəbir bəy ezamiyyət kağızını ona verəndə bir quran söz dedi. Qədir bunları dürüst öyrənib yadda saxlamasa da, mətləbi başa düşürdü. Bəyin sözündən bu çıxırdı ki, qulluğun üstündə möhkəm dur, mənim üzümü pristavın yanında qara eləmə, bu yaxşılığı da həmişə yadında saxla!

Şənbə günü Qədir dəyədə olmalı idi. Qumru bu ayrılığa razı ola bilmirdi. «Ya, deyirdi, burax, boynundan at, ya da ki, məni də apar! Ayrı dura bilmərəm».

Qumrunun halını Qədir yaxşı düşünürdü. Kənddə onun kimsəsi yox idi. Yaman gündə qapısını açıb, dərdini soruşan yalnız Məşədi İslamgil idi. Məşədi İslamın da işi Qədir kimi düz gətirmirdi, güclə dolanır, gah bu kəndə, gah o kəndə kərpic kəsməyə, əkinə-biçinə gedirdi. İşdən baş açıb dostlar görüşə də bilmirdilər. Qədir bir fikirləşdi ki: «Qumrunu da özümlə aparım».

Bu çox çətin olacaqdı. Külfəti dağa çatdırmaq üçün çoxlu pul lazım idi. Dağda isə, kim bilir, yer, ev tapmaq mümkün olacaqdı ya yox. Qədir bəyin yanına məsləhətə getdi. Evi aparmaq fikrini eşidən kimi bəy özünü itirdi. Nədənsə başını tovladı, rəngi qaçdı, dili dolaşdı. Möhürü yerə atıb ayağa durdu. Qədirə qoşulub gəldi:

- Kim deyir onu? Bu nə fikirdi? Elə iş olarmı? Ev nədir, zad nədir! Sən bu kənd tərəfindən qulluğa gedirsən. Evin burada qalmasa, sənə kim qulluq verər? Bir dəqiqə inanarlarmı? Qaldı ki, hara gedirsən? Dağda sən özünə yatmaq yeri tapsan, qoçaqsan. Evi dəbərtmək nə üçün? Yox! Boşla, boşla.

Bəbir bəy ərkyana bir ahənglə üzünü qadına tərəf tutub deyirdi:

- Qumru bacı, bunu ayrı yerdə deyib camaatı özünüzə



güldürməyin! Güc ilə razı salıb qulluq almışıq. Pristavın qulağına çatsa ki, siz köçürsüz, daha Qədiri yaxına qoymaz!

Bəy sonra Qədirə sarı baxıb, sözünün təsirini yoxlamaq istəyirdi:

- Bildin nə deyirəm, Qədir?
- Bəli, bildim.
- Başa düşdün də?
- Başa düşdüm, bəy!

Səhər gün hələ uzaq dağların arxasından qalxmamış, cütçülərdən də qabaq, çəpərli, tozlu yollarla iki adam gedirdi. Onlar kənddən məcburi uzaqlaşdırılan kimi, addımlarını yavaş-yavaş atır, arxadan çox müntəzir kimi tez-tez dönüb, dala baxırdılar.

Qumru qucağındakı körpəsinin qığıltılarına, məsum təbəssümlərinə fikir verməyib, düzənlikdən qalxaraq, dağların başına dırmaşan, kolluqlar, dərələr, qayalıqlar arasında yumaq kimi pırtlaşıq düşən yollara baxır, ərinin gələcəyini, qaranlıq taleyini düşünürdü. İndi Qumru kənddə yalnız və köməksiz idi. Müharibə günlərində yatalaqdan ölən anasından sonra, təsəllisini yalnız Qədirin, özü kimi adamsız bir gəncin qucağında tapmışdı. Həyat ona bunu da çox gördü. İndi öz əlilə Qədiri gör haralara, əlçatmayan uzaqlara, həm də təhlükəli yerlərə yola salırdı.

Qədir öz yuxusundan oyanıb yenicə çiçəklənən düzlərə, yamaclara baxdıqca, bahar havasını udduqca, dərindən köks ötürürdü: «Gedirəm, bu ayrılıq mənə daha ağırdır. Çörək, yalnız bir loğma çörək üçün ailəmdən və əziz körpəmdən ayrılıram. Nə edək, güzəranımız belədir. Bəlkə biz də bir gün görək, qüssə eləmə».

Qədir ürəyində dediyi bu sözləri dilinə gətirməyə qorxurdu. Onsuz da qəlbi dolmuş, gözündə buludlar oynayan Qumrunu ağlatmaq istəmirdi. Bir addım yeriyir, Faxirənin üzündən öpür, ürəyində onu Qumruya, Qumrunu da ona tapşırırdı:



«Qızıl gül olmuyaydı,
Saralıb-solmuyaydı.
Bir ayrılıq, bir ölüm,
Heç biri olmuyaydı!..»

Yavaş və yeknəsəq piyada addımlarının səsi altında qaranlıq seyrəlir, üfüq işıqlanırdı.

Səhər açılanda Qədir kənddən xeyli uzaqlaşmışdı. Yenicə puçurlamış ağacların, söyüd salxımlarının arasında damların tüstülü bacası görünür, xoruzların səsi eşidilirdi. Vağzal yoluna çıxan «Qumlu təpə»nin yanında çoxdan qazılmış, nədənsə unudulmuş, içi daş-kəsəklə dolmuş su quyusunun başında Qumru oturdu. Onlar ayrılmalı idilər. Nə Qədirin getməyə ürəyi, nə də Qumrunun qayıtmağa ayağı gəlirdi. Qədir geri baxdı. İyirmi beş ildən bəri onu böyüdən, bütün dərdlərinin, sevinc və arzularının səhnəsi olan doğma kəndə, geniş bağlara, sıx ağaclıqlara, yaşıl zəmilərə, yetimlər kimi qısıq damlara, ömürdən uzun yollara, Qədiri güldürməsə də, uşaqlığının zərif səhifələrini təşkil edən səhnələrə baxdı, baxdı. İndi o, qaranlıq, aqibəti naməlum bir səfər üçün bu yerlərdən ayrılırdı. Ya qismət! Bəlkə bir daha qayıtmayacaq. Bir də buranın səhərinə göz açmayacaq, axşamlarını dinləməyəcək. Bəlkə ömür karvanı kimi hər gün kəndin üstündən ötən günəş də onun kiçik həyatındakı boşluğu hiss edəcək...

- Yaxşı yol!

Qumrunun ayrılıq sözü onu daha da kədərləndirirdi. Ağır və bitməz, tükənməz xatirələrdən ayrılaraq, çətinliklə dillənə bildi:

- Sağlıqla qal, Qumru! Başına dönüm, Faxirədən muğayat ol, ağlamasın.

Qumru gözünü yerə dikərək, ağlamsındığını gizlətmək istədi:

- Arxayın get! - dedi.



## QIRMIZI VƏ QARA

Qızılqayadan ötəndə günorta olardı. Gün qızmışdı. Piyada getmək olmurdu. Qədir özünü arabaçılara yetirdi. Onlar yaylağa azuqə aparırdılar. Birisi fit verdi. O birilər Qədirə baxdılar. O dilləndi:

- Ay lələ, yavaş sürün!..

Bir də baxdılar. Yenə fit verildi. Araba sürən cavan uşaqlar ayağa qalxıb, zoğal ağacı ilə şarpaşarp öküzləri döyəclədilər. Qədir təəccüb etdi. Sonradan başa düşdü. Öz üst-başına nəzər saldı. Hər halda tüfəngli olduğuna görə ondan şübhələnmişdilər. Kəndlilərin də çoxunda tüfəng var idi. «Qulluq paltarı» - deyə yüzbaşının verdiyi köhnələr Qədirin əynində idi. Kəndlilər Qədiri yasovul sayıb çəkinirdilər. Azuqəyə dəyməsin, onları incitməsin deyə öküzlərə güc gəlib, qabaqda gedən dəstələrə qovuşmaq istəyirdilər. Bu vəziyyətdə heç kəs Qədiri hörmətlə qəbul etməyəcəkdi. Bura nə qanun, nə də ehtiram yeridir. Qədir Nemsə dəyirmanı deyilən mənzilgaha yayındı. Nar kollarının arasına girib, paltarını soyundu, kürkün içinə bükdü. Köynəyini tərs çevirdi. Alabəzək rəncbər paltarına oxşayırdı. Beləcə yolu çıxdı. Kömürçülər onu danladılar:

- Bu yolu da piyada getmək olarmı, ay zalım oğlu? Qurd ürəyi yemisən, nədi?

Qədiri çağırdılar, qatıra mindi.

Qatırlar dağa dırmaşdıqca yol qısalır, dağlar ucalır, şəhər və bütün aran yerin dibinə çökür, ayaq altında qalırdı. Hamarlı dərəsindən yoxuşa çıxanda dağ boyu, dolayı bir cığır uzanırdı. Ağ qurşaq kimi yaşıl dağın qarnına dolanan bu cığır getdikcə yüksəlirdi. Yolun kənarından sallanan həmişəcavan, palıd, nar ağacları zümrüd tağ kimi yolun üzərində çataqlanmışdı. Qədir

qatırın yalından yapışıb, belinə mindi. Bir əlini yarpaqlı budaqlara toxunduraraq oturdu. Sanki bundan, uşaq kimi, xoşlanırdı. Altındakı qatır dodağını uzadıb budaqları qamarlayır, tikanları hiss etdikdə buraxırdı.

Aranda ağır işdə böyüyən, mahala nabələd olan Qədir ömründə bu yaylaqları görməmişdi. Ona görə hər addımda maraq və həvəsi artırdı. Qatırçılar bu yollarda araba aşmasından, adam uçmasından faciəli hadisələr danışırdılar. Doğrudan da qurşaq kimi nazik yola araba salmağın nə qədər cəsarət istədiyini düşünür, əyilib dərənin təkinə baxırdılar.

Birdən ümumi ahəngi pozaraq, sanki bir vurğun mələdi:

Əzizim yaralandım,
Ox dəydi paralandım,
Mən səndən ayrılmazdım
Zülmünən aralandım...

Bu, qatırçılar arasında ən cavan, zirək, gülərüz Abış adlı oğlan idi. Çarıq bağlarından, uzunboğaz, rəngli ip corabından bəlli idi ki, ananın əzizidir. Abış hamıdan qabaqda gedir, bataq, su, yarğan olanda arxadakılara xəbər verirdi. Onun səsi Qədiri daha da heyrətləndirirdi. Zahirdə avam və düyümlü görünən bu oğlanın təmiz, təbii səsi su kimi sərin və təsirli idi. Oxuduğu sözlər ürəkləri tərpədirdi. Meşələr, dərə-təpələr, oyanmaqda olan təbiətin gizli səsi ona cavab verirdi. O, çəkdiyi bayatıları həmişə belə bir əlavə ilə bitirirdi:

Haray dumanlı dağlar,
Dilim ərzə yazar,
könlüm qan ağlar! Qan ağlar!



Qədir yenə də əyilib baxırdı. Dərə, nə dərə! Elə bil böyük dənizləri dolduran çayların hamısı buradan axıb ötmüşdür. Çılpaq, uca, müdhiş qayalar tərtəmiz, bomboz. Fikir edirsən ki, bura yerin bədəni çölə çıxan yerdir. Dərənin təkindən, göz güclə işləyən yerdən parıltı gəlir, ancaq su görünmür. Sarıköynəklər[1], qaranquşlar qayalar arasında oynaşır, kollar arasında itirlər.

Meşənin arasından axan sular yaşıllıqlarda gümüş kimi işıldayıb, qayaların altına soxulur. Bir az yuxarıda, az qala torpaqdan üzülmüş, üstünü xəzəl basmış, lakin nazik budaqlarını göyə uzadan, yaşamaq istəyən sısqa kollar görünür. Onların dibində tək-tək baş qaldıran bənövşələr yoldan ötənlərə baxır, bahar münasibətilə adamları təbrik edir.

Cığır getdikcə yüksəlir, açıqlığa çıxırdı. Dağın başında keçəlləmiş, talaya dönmüş bir yerdə hamı dayanıb nəfəs aldı. Buradan arana, şəhərə təyyarədən baxanlar kimi baxırsan. Yaylağın sərin, təmiz, ətirli havasını udan adamlar aranı tozlu-tüstülü və istidən qaynayan qır qazanı kimi görürlər. Heç bir şey seçilmir. Yalnız aranı gümüş bıçaq kimi ikiyə bölən Kür çayı işıqlı və xoş bir xəyal kimi uzanıb getməkdə idi. Kür qırağında unudulmuş, yaz münasibətilə gözdən düşmüş çılpaq rəmələr uşaqların əlilə düzülmüş qum təpəsinə, siçovul atımına oxşayırdılar. Yaşıllaşmaqda olan düzlükdən ara-sıra ötən qatarlar tüstülü kösöv gəzdirən külxançılara bənzəyirdi. Sanki o külxançı baharla canlanan həyatı qaynadıb əritmək istəyirdi. Ona görə də hiylə ilə, səssiz hərəkət edirdi.

Təpədə, tarlada qatırçılar qatırdan töküldülər. Qatırları meşəyə ötürdülər.

Qədir həm yorulmuş, həm də qıçları sanki tutulmuş, keyimişdi. Haçandan minik görmədiyi üçün xamlayacağını yəqin etmişdi.

1. Quşdur

Soyuqdan göz açıb yenicə göyərən, baş qaldıran otun üstünə uzandı, dirsəkləndi. Qatırçıların arasında gövdəsi yumru, uzunsifət, ağsaqqal bir kişi var idi. Dəsmalını açıb, yoldaşlarına təklif etdi. O, şor-çörək tikəsini orduna basır, yağ-bal kimi şirin-şirin yeyirdi. Yeyirdi, ancaq qara tikişli ilməyə bənzəyən gözlərini uzaq mənzərələrdən, arandan ayırmırdı:

- A gidi-gidi dünya, bir vaxt var idi Nikolayın saldat-qazağı bu yollarda mıx-töyləsini bərkitmişdi, qarışqa kimi. Haxçılar[1] zınqırovlu faytonlarda pırıltı ilə budu belə gəlirdi ki, odu elə gedirdi...

O dedikcə qolunu tovlayırdı:

- Hanı bayaqkı Nikolay?

Çubuq dolduran birisi onun sualına cavab verdi:

- Necə olacaq, necə hanı? İmam Rzanın günbəzinə top atan elə olar da. Qurban olum o dərgaha ki, bir dumutda üç yüz illik əjdahanın, Nikolay kimi padşahın çarxını çevirdi.

Bayatı çəkən oğlan üzü üstə uzanıb, nə isə yeyirdi. Ağzındakı tikəni ordlarına yayaraq, yavaşcadan mızıldandı:

- Kaş ki, heç çevirməyə idi. Ağ günəmi çıxartdı camaatı? Manpasının girvənkəsi 100 manat. Nöytə, lampaya həsrət qalmışıq. Şuluqluqdan qardaş qardaşı itirir. Hamı quduz olub, bir-birinə daraşıb. Hərə bir berdanka tapıb, kola çəkilib. Arada genə kasıbın evi yıxılıb ki, yıxılıb. Bir yük kömür bazara aparınca iki dəfə doğursan.

Ağsaqqal kişi ona şərik oldu:

- Eşitməmisənmi «qorx o yaxşıdan ki, pisin yerinə gəlir?» Arvaddan soruşdular əvvəlki ərindən razısan, indikindən? Dedi: ağrım hər ikisinin ürəyinə! İndi necə deyərlər, hər fırıldaq kəndlinin başındadır, qardaş, yetən atını çapıdır.

---

1. Haxçı - ermənicə "qız"



- Baş pulu!
- Yerpulu!
- Əsgər pulu!
- Dinmə, ver!

Qədir bunları eşidirdi, danışmırdı. Arana da baxa bilmirdi. Bir an da olsun əziz ailəsinin dərdini unutmaq üçün nəzərini yuxarıya, dənizdəki buz parçası kimi, göydə üzən ağ buludlara çevirmişdi.

Qatırçılar yığışıb yollandılar. Ağsaqqal kişi Qədirlə yanaşı, diz-dizə gedirdi. Onu başa salırdı:

- Bundan bu yana yollar qorxuludur, oğul, ermənilər rahat oturmurlar. Yaraq-yasağını yüklərdə gizlət. Yoxsa nə lazım, mərdimazara rast gəldin... Bizi də incidərlər.

Tüfəngi söküb çula bürüdülər, qatırların qarnı altında gizlətdilər. Dağlar arasından keçdikcə hər addımda oğru, soyğunçu gözlənirdi. Üç dağ aşdılar. Bunların biri, başındakı qayalarda qartallar uçan, qarı əskik olmayan dağ idi. Qayalar nağıllarda söylənən əfsanəvi yerlərə, tilsimlərə bənzəyirdi. Bəzisi minillər, yüzillər boyu dəhşətli günlər gördüyündənmi və ya qar-yağış təsirindənmi şiş duran bir bıçaq kimi itilənmişdi. Yolun ətrafı daşlıq idi. Daşların dibindən hərdən kəklik uçur, adamların başı üstündən keçən turac sürüləri fişəng kimi səslənirdi. Dağların nisbətən alçaq olan ikisi gömgöy idi. Aralıqda, alçaq bir düzlükdə şirin sulu məşhur bir bulaq qaynayırdı.

Yolçular iki dərə ötdülər. Hər dərənin enişində qatırı yavaş sürür, aşağıya baxır, «bismillah» deyib yalvarırdılar. Yoxuşunda isə «xatadan sovuşduq» deyə sevinir, yeyinləyir, yuxarı baxırdılar.

«Cırcırlara» yaxınlaşdılar. Deyilənə görə, bura ən təhlükəli dərə idi. Suyu çoxdan qurumuşdu. Burada ədavətdən bir körpənin-südəmərin başı kəsildiyi üçün bulaq batmış, yaxın olan kənd dağılmış, quşlar da köçmüş, dərə ilan, əcdaha yuvası olmuşdu.

Buradan keçən yolçular qorxudan kiriyir, dörd gözlə fəlakət gözləyirdilər. Yolçular bir vahimə içinə düşmüş kimi susmuşdular. Ancaq nallanmış qatırların ayaq səsi eşidilirdi. Bu səs qayalara düşüb, əks-səda verdikcə adama elə gəlirdi ki, qayalar, qayalar yox, bütün göylər uçur, parça-parça olub cəhənnəmin dərinliyinə tökülür. Ağsaqqal kişi çubuğunu söndürdü. Qatırları yanaşdırdı. Canavardan qorxan qoyun kimi, adamlar yaxın, nəfəs-nəfəsə gedirdilər. Ağsaqqal kişi Qədirə him elədi:

- Yeyin sür!

Qədir miniyinə çubuq vurur, ayaqlarını tərpədib sürürdü. Axşama yaxın idi. Heç bir insan izi yox idi. Səssizlik ürəklərdəki qorxunu daha da artırırdı. Qatırçılar udqunmağa da ehtiyat edirdilər. Dərənin dibinə endikcə göz böyüyür, hər şey qaralır, şübhəli görünürdü. Hər daşın, hər kolun dibindən bir yağı gözlənirdi. Döşdən bir dovşan qaçdı. Dağın baş tərəfinə yaxın bir yerdə qartallar uçurdu. Kölgələr uzanır, günəş çəkilib batmağa gedirdi. Yolçular gözlərini kollara, daşlara, qaranlıq və kölgəli yerlərə dikib yeyinləyirdilər. Qədir yolun altındakı sıx yarpaqlı, papaq kimi alçaq palıd ağacının yanında bir şeyin qaraldığını gördü. Qaraltı adama oxşayırdı. Lap oxşayırdı. Elə bil qolunu çataqlayıb dayanmış, gələnlərə baxırdı. Qədir çarığının ucu ilə girdə kişinin ayağına toxunub, him elədi:

- Adam var!

- Nə danışırsan?

- Qaraltı!

O, qaşını çatıb baxdı. Rəngi qaçdı. Qaraltı tərpənmədən yolçulara baxırdı. Sanki onların yaxınlaşmağını gözləyirdi... Birdən qabaqdan vahiməli bir səs eşidildi:

- Dürür merkəl![1]

1. Tərpənmə!



Hamı diksindi. Qatır ürkdü. Kimin isə tərkindən xurcun düşdü. Yolçular diqqətlə baxanda qaya rəngində paltar geymiş adamların onları nişan aldığını gördülər. Səs qayalara düşüb bir əmr kimi ucaldı. Hamıdan artıq iztirab çəkən Qədir idi. Nə edəcəyini kəsdirə bilmirdi.

Qatırçılar təslim vəziyyətində dayanıb, əllərini yuxarı qaldırdılar. Qədir də qaldırdı. Qaçaqlar tökülüb yolçuları qarət etdilər. Onlar elə cəld danışıb, hərəkət edirdilər ki, yolçular ölüm qorxusu ilə özlərini itirmişdilər.

- Şorer et hani![1]

- Es shatis kes ğopanem qıraq qats[2].

- Tərpənmə!

- Ananı ağladaram!

Qaçaqların bu təhdidedici sözlərinə yolçuların anlamadığı şeylər də qarışırdı. Onların bəzisi azərbaycanca danışırdı. Ağsaqqal kişinin ləzgi şalını, Qədirin kürkünü, cavan oğlanın papağını, çarığını, corabını aldılar və ciblərini axtarıb pul tapdılar. Telinin ucunu qaşına tökmüş, qarayağız, qırmızı yanaqlı bir yaraqlı Qədirdən şübhələnmişdi. Üzünə baxanda az qala kişinin zəhri yarıldı.

- Nə karasan?

Qədir nə demək lazım gəldiyini bilmirdi. Çulun altında gizlətdiyi tüfəngi xatırladı. İşin üstü açılacağını zənn etdi: «Qulluğa getdiyimi biləcək, tikə-tikə doğrayacaqlar...» Nə isə demək istəyirdi, dili dolaşdı. Ağsaqqal kişi cavab verdi:

- O da kömürçüdür, a kirvə. Bir yük kömür satmağa getmişdi. Yol-iz görməyib, qorxur...

Yaraqlı, qocaya inandı, barmağını silkib, acıqlı-acıqlı tapşırdı:

- Ki gəncəli olmayıbsan, sağa dəymədim. Onların başını

1. Soyun!
2. Bu saat öldürrəm, dur!

kəsəcağam. Ki pirsətafa düşsə!

Ağsaqqal kişi anlamışdı:

- Yox, a kirvə, məzhəb haqqı, gəncəli deyil, kasıb adamıq, kəndçi baba. Bir loğma çörək üçün şəhərə getmişdik. Özün görürsən ki, biz hara, gəncəli hara? Məzhəb haqqı...

Onlar başaşağı qayıdıb, ağaclar arasına dağıldılar. Biri əli çaxmaqda yolçulara qarovul çəkdi, tərpənməyə qoymadı. Yoldaşları gözdən itən kimi o da bir çalağan kimi yox oldu.

Yolçuların həyəcanı sönürdü. Şeylərin dərdini unutmuşdular. Salamat qurtardıqlarına çox sevinirdilər. Qədirin şəxsi vəsiqəsi, şəhadətnaməsi və bir çox xatırlaya bilmədiyi lazımlı kağızlar kürkün cibində getmişdi. Bu onu çox narahat etdi. Kim bilir, bu kağızlar kimin əlinə düşə bilər... Yaxşı ki, yüzbaşının kağızını qoltuq cibində saxlamışdı.

Qaş qaralanda yolçular dağa çatdılar. Hər il bu zaman bu yolun ətəklərinə qədər çadırlar, obalar düşərmiş. Ara qarışandan bəri dağın da ləzzəti qaçmışdı. Gələn az idi. Dəyələrdə də həmişə çal-çap olurdu. Bu il hələ yay köçünə xeyli qalmışdı. Belə olsa da, hökumət yaylaqların əldən getməsindənmi və ya ermənilərin hücumundanmı qorxmuş, burada tez-tələsik çadırlar qurmuş, dəftərxana gətirmişdi. Görünür, rəis yaylaqda asayiş düzəldəcək, çapovulların qabağını alacaqdı.

Yarımdairə şəklində bir-birinə söykənib oturmuş ağ çadırlar tamaşaya gələn qadınlara bənzəyirdi. Ortadakı çadırın başında əsən göy bayraq ələmə oxşayırdı. Məhərrəmliyin girməyinə baxmayaraq, içəridən musiqi səsi ucalırdı. Hərdənbir paqonlu şeşəbığ, çəkməsi məhmizli, başı açıq adamlar çadırdan görünür, yenə səsin içinə batırdılar.

Qədirin qulluq yeri yəqin ki, bura olacaqdır. Bəli, buradır.

O, qatırçılarla vidalaşdı. Keyimiş qıçlarını açmaq üçün ovucları



ilə diz qapaqlarını ovdu, ayaqlarını oynatdı. Ancaq içəriyə girməyə cəsarət etmədi. Yerə iki ağ dirək sancılmışdı. Üzərlərində yazı da vardı. Çadırdan iyirmi-iyirmi beş addım kənarda qoyulan bu dirəklərin düzümü ilə yaşıl otun üstünə sanki qatı ayran töküb cızıq çəkmişdilər. Aydın bilinirdi ki, bu nə isə sərhəd kimi şeydir. Qədir berdankanı dirəyə söykəyib dayandı. Qaranlıq lap qarışmışdı. Arabir yoldan ötən qaraltılar güclə seçilirdi. Qədir dayanan tərəfə gələn yox idi. İçəridə isə vurçatlasın davam edirdi. Tanımadığı bir adam Qədirə yaxınlaşdı. Gödək kişi idi. Qədir güman etdi ki, kişi musiqinin havasına oynayır. Yaxın gələndə axsadığını gördü. O, içəriyə, çadıra gedirdi.

- A qohum, naçalnikin yanına gəlmişəm, kağızım da var, nə tövr eləyim onun hüzuruna?..

O, dik-dik Qədirin üzünə baxdı. İstiot kimi tünd cavab verdi:

- Qanmaz hərif, əfəndim demək lazımdır. Haydı, məktubmu vardır, nədir?

Bu adam rəisin eşikağası idi, ara-sıra xanımlardan məktub gətirənlər, xəbərçilər olurdu. Qədiri onlardan biri hesab etmişdi. Qədir pristav tərəfindən xidmətə gəldiyini dedi, vəsiqəsini göstərdi. Gödək kişi bir asqırdı. Qədirə elə gəldi ki, hərif istehza edir. Sonradan burunotu çəkdiyini gördü. Gödək adam ombasından laxlamış olan qılçasını sürüyə-sürüyə getdi. Çox çəkmədi ki, dönüb gəldi.

- Burda dur, adam buraxma, qarovulsan, ixtiyarsız bir kəsi də yox! Bildinmi?

- Baş üstə!

Qədirin üzündə təbəssüm, gözündə qığılcım oynadı. Ürəyində dedi: «Şükür, deyəsən işim düzəldi, qulluğa qəbul olundum».

Ayaqlarını yerə bərk basıb, qamətini düzəltdi. Özünə cürət verdi, dirəklərin arasında durdu, üzünü eşiyə tərəf çevirdi. Tüfəngi

nə cür tutmağı bilmirdi. Bir istədi çiyninə qoya, xatırladı ki, qarovul elə olmur. İki əlində bərk tutub, o tərəf-bu tərəfə getmək istədi. Bir əlilə qundaqdan, o biri əlilə də tüfəngin qolundan tutub, sallaq bir səziyyətdə saxlayır, gəzinirdi. Gödək kişi gəlib Qədirin qoltuğundan dümsüklədi. Qolundan tutub ağ dirəyə söykədi. Tüfəngin küpünü yerə qoydu, sağ əlinə verdi. «Bax belə!»-deyib cəld getdi. Qədir həm xəcalət çəkdi, həm də razı qaldı. İllərcə qarovulda durmuş adamlar kimi yerində daha da möhkəm durdu.

Qaranlıq qatılaşır, əl-ayaq çəkilir, gündüz adama xoş gələn sərinlik sazağa çevrilirdi. İçəridə, işıqlı çadırlarda isə qarışıq səslər ucalır, daha da şiddətlənirdi.

- Yaşşşa... Var ol...Əfəndim! Ver gəlsin! Bir də, ha bir də, bir də...

Baş alıb gedən, dağlara yayılan kefli musiqiyə baxmayaraq, bəzən aydın eşidilən bu səslər ümumi bir qarğaşalıq içində boğulurdu. Qadın səsləri ancaq iki cür eşidilirdi: bəzən boş bardaq kimi laqqıldayır, qəhqəhə çəkir; bəzən də vəhşi kimi qışqırırdılar.

Aydın etmək olurdu ki, xumarlanan qadınları ya çimdikləyir, ya da bir diş qoparırlar. Bu hadisələri ancaq bəylər haqqında nağıllarda eşidən Qədir indi heç nə eşitmək istəmir, yalnız vəzifəsini düşünürdü. Onu tanıyan, çəkinən ya hörmət qoyan da yox idi. Burada qulluqda özünü möhkəmlətmək üçün yaxşı çalışmalı idi. Rəis və böyük adamlar gəlib ötdükcə ona baxacaqlar, xoşları gəlməsə, qulağından tutub qovacaqlar:

- İtil cəhənnəmə, tərəkəmə!

Bu vahiməli xəyallarla Qədir dəsmalı çıxarıb, üz-gözünü sildi. Yaxasını düyməlıdi. Qulluq məqamında donmuş kimi dümdüz dayandı. Kim isə çadıra tərəf gəlirdi. Yaxınlaşdı. Vəznəli çuxası, kəhraba rəngli buxara papağı vardı. Uzunbığ, çalper kişi sərhəddən, ağ mərzdən içəri, çadıra yönələndə Qədir onun qabağını kəsdi. Berdankanın küpünü yerə vurub dayandı:





- Kimsən?
- Olmaz!

Kişi onu çəpəki baxışla diqqətlə süzdü:

- Bu ayrımı kim qoyub bura?
- ?!.
- Naçalnikin adamıyam, mənə söz yoxdur. Sən adamını tanı!
- Mən bilmərəm, buyurublar adam buraxma!
- Məni deməyiblər!
- Xeyr, sizi də deyiblər, çünki siz də adama bənzəyirsiniz.

Qədir cavabını bitirməmişdi ki, qulağının dibi alışdı. Tapança kimi açılan sillənin zərbindən sanki beyni laxladı. Səndələdisə də, özünü topladı, möhkəmliyini itirmədi. Mənlik hissi vücudunu od kimi qızdırdı, yandırdı. Çalper kişinin üzünə də baxmadı. Heç bir şey də düşünmədi. Tüfəngin qundağı ilə onun sinə taxtasına vuranda, kişi kürsü kimi mayallaq aşdı. Papağı kənara dığırlandı. Daz başı qalaylanmış qab kimi işıldadı. O, yerə sərilmiş halda qışqırırdı:

- Qoymayın, it əlində ölürəm!.. A dostlar!

Bunu deyə-deyə xəncərini belindən siyirdi, eşikağası özünü eşiyə atdı. Kişini bu kökdə görəndə ikiəlli dizinə döydü:

- Məşədi Süleyman, bu nə halətdir?..

Çalper kişi Qədirin üstünə atılmaq istəyəndə tutdular. Səs olmasın deyə, eşikağası işarə edib, adamları dağıtdı. Məşədi Süleymanı qoltuqlayıb, içəri apardılar. Yasovullar Qədiri rəisə təqdim etdilər. Çadırda isə şərab işini işləmişdi. Hamısı süst və şüursuz düşüb ağırlaşmışdı. Zərif, qısa və ipək libaslı, daş-qaşlı xanımlar mum kimi əriyib, sanki kişilərin ağzına tökülmək istəyirdilər. Kimisi qadını buraxıb, şlyapanı bağrına basmış, kimisi də miz ilə kürsü arasına düşüb çıxa bilmir, hıqqanırdı. Rəis zər

paqonlu, qaraşın bir oğlan idi. Söykəndiyi yerdə Sürəyya xanım ağzına bir qabırğa sümüyü qoymuşdu.

- Quzu kababıdır, bəy, buyursunlar!

O vəziyyətdəcə rəisi yuxu aparmışdı. İçəri dolan sərin külək xanımın ətəklərini oynadırdı. Hamıdan ayıq xanımın qeyri-rəsmi «əri» ağ sandıq tulası idi. Növbə ona gəlmişdi, məclisin başında çöməlib sərxoşlar dünyasına ayıq tamaşa edirdi. Gah qulaqlarını sallayır, gah da yad bir səs eşitmiş kimi şəkləyirdi. Gah məclisin sağ, gah da sol səmtinə baxıb, «haf!» eləyir, mırıldayır, mırıldayır, susurdu. Kənardan baxan, bu məxluqun çoxdan belə bir sahibsiz məclis və qarışıq süfrə həsrəti çəkmiş olduğunu, indi fürsət vaxtında sanki tamadalıq etdiyini düşünərdi.

Məşədi Süleymanın başına gələn iş bu yerlərdə nadir iş olsa da, kimsəni ayılda bilmədi. Hər kəsin çiynindən tutub silkirdinsə, «Hımmı... Öhə...» səsləri çıxardıb, təzədən huşa gedirdi. Rəisi oyatmağa cəsarət edən yox idi. Məşədi Süleymanın hirsi bir az da artdı. Acıq edib getmək istəyirdi. Eşikağası onun dalınca yüyürüb, təsəlli verdi:

- Məşədi bəy, əmin olun ki, əfəndim, bu təhqirə əvəz ediləcəkdir. Əmin olun!

Böyük adamlarla, dövlət məmurları ilə rəftarı bacarmadığına görə Qədiri çadırdan uzaqlaşdırdılar. Qoruğa, erməni kəndlərindən alınmış otlaqlara qarovul təyin etdilər. «Axırıncı dəfə olsun» - deyə ağır şərt qoydular:

- Bir neçə gavur öldürüb, millətə sədaqətini bildirməsən, kənar olacaqsan, cəzalanacaqsan!

Qədir aclıq çəkirdi:

- Əfəndim, çörəyim qurtarıb... Pulum da yoxdur.

- Kəndlilərdən birtəhər elə, dolan!

Qədir bu «bir təhər»i heç anlaya bilmirdi. «Onsuz da ehtiyacda



boğulan, evindəki bir tay kömürü, əllərini tikan apara-apara yığdığı fıstığı, gətirdiyi çırpını satmağa, arpaya dəyişməyə imkanı olmayan, gün çörəyinə möhtac olan dağ kəndlisindən mən nə istəməliyəm və necə istəməliyəm?» O, tüfəngi yerə qoydu. Qollarını bir-birinə keçirib, dəftərxanaçının üzünə mənalı-mənalı baxdı. Dəftərxanaçı soruşdu:

- Niyə duruxdun?

- Ac da qarovul olarmı?

- Niyə ac olursan? Çayda başına daş qəhət oldu? Bu kəndləri görmürsən, o tüfəngi niyə götürmüsən?

O, xadimi çağırdı:

- Get, Abbasgildən bir az çörək al! Deyinən naçalnik istəyir, çox versin, beş-on dənə!

Qədir iki ay iyirmi bir gün qoruqlarda qarovul durdu. Ancaq həmişə vahimə, intizar, nigaranlıq onun zehnini gəmirirdi. Bu yerlərə necə, nə üçün gəldiyini, bu səfərin nə ilə nəticələnəcəyini kəsdirə bilmirdi. Dünya heç də yaxşılığa tərəf getmirdi. Sular bulanır, ruzgar pozulur, ara daha da qarışır, camaat çaxnaşır, böyüklər başını itirir, dəqiqədə bir əmr çıxır, xəbər çatırdı.

Əsgəran davasında basılmaq xəbəri bütün yaylağı kədər və vahiməyə salmışdı. Hökumətin əmrilə erməni kəndlərinə hücum edilir, qırğın, talan, yanğınlardan qopan tüstü göyləri bulud kimi örtür, qənimət gətirmək üçün dəstə-dəstə qoçuların at, qatır arabaları gəlirdi.

Zabitlərin kefi pozuqdusa da, ələ keçən qəniməti həvəslə bölüşdürürdülər. Mirvari, boyunbağı ucundan Sürəyya xanım ilə Səltənət arasında deyişmə, rəislə qərargah zabiti arasında söyüşmə və tapança davası da olmuşdu. Kəndlərdə danışırdılar ki, rəisin ürəyi yumşalandan sonra qolunu zabitin boynuna salıb əzilir, büzülürdü:

- Ay xalası göyçək, heç bilirsən baxan bizə nə deyər? Millət

davada, din əldən gedir, sən başlamısan boyunbağı... Ayıb deyilmi? Ayıbdı! Canın üçün ayıbdır! Gəl bir də belə sözlər araya çıxmasın. Göy imama and içək: nə sən, nə də mən! Qurtardı, getdi!

Bu axşam fövqəladə, qorxulu vəziyyət haqqında qarovullara bərk tapşırıq verilmişdi. Dağ kəndlərindən düşmən üstünə silahlı qüvvələr toplamaq üçün adamlar gedirdi. Atlılar sağa-sola çapırdılar, qonşu «erməni kəndlərinin hücumu» haqqında danışılırdı. Yuxarılardan, şəhərdən gələn bu xəbər pıçıltı ilə hamıya yayılırdı. Qədir öz mövqeyində ayıq-sayıq durmuşdu. Nəzərləri qaranlığa qarışıb, xəyal kimi dağılırdı. Özünə yeganə bir munis tapdığı su daşının üstündə oturdu. Gecədən xeyli keçmişdi. Qədir isə vahimə, intizar içində gah ailəsini, gah qulluğunu, gah da aranı, dağın xaşıl kimi qarışan işlərini fikirləşirdi.

Birdən hənirti duydu. Cəld ayağa qalxdı. Nəfəsini gizlətdi. Bütün duyğularını qulaqlarına yığıb dinlədi. Hənirti sağ tərəfdən, erməni qoruqları, Kalış meşəsi deyilən yerdən gəlirdi. Bütün diqqəti ilə baxdı. Tünd qaranlıqda heç bir şeyi seçmək mümkün deyildi. Yerlə göy əriyib bir-birinə qarışmış, qara ləkə olmuşdu. Duman gəldiyini hiss etmək çətin deyildi. Kibrit yandırıb havanı yoxlamaq istədi. Birdən yadına düşdü: «Ey diliqafil, sən nə qayırırsan, özünü düşmənəmi göstərirsən?»

Qədir sanki yatmışdı, yuxudan ayıldı. Yerə sinib oturdu, sükutu dinlədi, qulağı cingildədi. Hənirtinin lap yaxınlaşdığını hiss etdi. Tüfəngi böyrünə uzadıb, daşın dibinə yatdı. Gələn vardı, aşkar bəlli idi. Özü də düz Qədirə tərəf gəlirdi.

Bir anda dəhşət onun vücudunu bürüdü. Daş kimi hissetməz və hərəkətsiz durdu. Bədənindən su axdı. Ölüm tabut kimi qarşısında dikəlib durdu. Qara və əcaib şəkilli cənazənin heybətindən damarları sustaldı. Tüfəng əlindən düşməkdə idi.

Deyəsən, Qədiri çağırdılar, deyəsən, ona nəyi isə tapşırdılar,



təkid etdilər. Bu çağırış uzaqdan, dərindən gəlsə də, onun nazik, soyuq bədənini silkələdi, bir anda o hər şeyi unutdu. Bu qaranlıq, yalnızlıq, qorxu və dəhşət içində bir şey - arxada vədlərə görə buraxıb gəldiyi kasıb ailəsini xatırladı. Sinəsindən soyuq bir ah qopdu. Sanki keçən günlər, ailəsi ilə keçirdiyi möhtac, lakin mehriban günlər gəlib nəzərində dayandı. Qədir görürdü ki, bu qaranlıq, qarışıq yerlərdə, dövlət qulluğunda çox şeydən yadırğasa da, yalnız bir duyğunu, ailə məhəbbətini itirməmişdir. Kənd, bahar səhəri, qığıldayaraq oynayan Faxirə, ona lay-lay deyən Qumru, xallı pişik gözünün önünə gəldi.

Budur, Faxirə qollarını açıb atasının üstünə atılır, Qumru isə ona baxıb yalvarır:

- Gəl, biz istəmirik, pul da, çörək də istəmirik, heç nə, heç nə! Biz səni istəyirik. Gəl! Ürəyimin bəndi, evimin dirəyi, gəl!

Hənirti, deyəsən, Qədirin lap yanında idi. O, ehmalca tərpəndi. Özünü yığışdırmaq istədi. Diqqət edəndə qaraltının qarovul yerinə yaxınlaşdığını duydu. O, ağır tərpənən bir nöqtəyə oxşayırdı. Ağır yerisə də, kimsə, deyəsən, yük altında idi. Get-gedə böyüyüb qaralırdı. Gələnin ayaqları otlar üzərində sürüşdükcə səs apaydın eşidilirdi. Qaraltı ehtiyatla, bəlkə də arxayın-arxayın yeriyir, otların içindən ötüb, köç yolunun kənarı ilə gəlirdi.

Deyəsən, gələn yapıncılı idi. Qədir yəqin etdi ki, qaçaq ermənilərdəndir. «Nə bilirsən dörd tərəfdən tökülüb məni mühasirəyə almağa gəlmirlər, bəlkə də görmür, arxayın yeriyirlər. Ya da yatmış bilib diri tutmaq istəyirlər».

Düşmən yaxınlaşdıqca Qədirin ürəyi bərk döyünür, az qala sinəsindən çıxmaq istəyirdi. Fikrinə nələr gəlirdi. Onda özünümüdafiə hissi oyandı. Sərbəst uzandı, bədənini yerə daha möhkəm yapışdırdı. Barmağını tətiyə yetirdi. Qaraltı bir neçə addımlıq məsafədə idi. Bircə üstünə hoppanıb, yaxalamağı

qalmışdı. Qədir «Ya bəxtim!» deyib, tüfəngin küpünü çiynine bərk sıxdı, cürətini toplayıb, gözünü yumdu, tətiyi çəkdi.

Gecənin bağrından qopan güllə qaraltının başını aparmışdı. O, dərin bir uçuruma enən dağ kimi endi. Ağır gövdə yerə dəyəndə, yazıq, davamlı bir uğultu səsi gəldi.

Dərə sularında qurbağalar susdu. Harada isə it hürdü, güllənin səsi dumana yayılıb əridi, havadan barıt qoxusu gəldi. Qədir həyəcanından boğulurdu.

Toyuq başı kəsiləndə qəlbi çırpınan adam bir əjdahanı atəşə tutub yandırarmış. İndi o, əsl qatil idi. Yaxasını nə vaxt cırdığını özü də bilmədi. Bir xeyli vaxt duyğusuz düşüb qaldı. Nə həyat, nə ölüm hiss etdi. Sanki bədəni od tutub yanırdı. Tər damlaları burnunun ucundan, ürəyindəki neştər cizgilərindən axdıqca qarovul özünə gəlirdi.

Atılıb düşmənin silahını soymaq lazım idi. Fikirləşdi ki: «Bu hərif tək deyil. Yoldaşları kolluqlara sığınıb pusurlar. Qanını almamış əl çəkməzlər».

Tərpənmədi. Qatil əllərilə berdankanı sinəsinə basıb, ayaqda saxladı. Su daşının dibinə daha bərk sığındı, gözlədi. Tüfəngin lüləsi daşa dəyib taqqıldadı. Qədir ixtiyarsız «hi!» eləyib diksindi. Ətrafı dinlədi. Səs yox idi.

Dağlardan gələn soyuq küləyi udduqca elə bilirdi ki, ağzına qar təpirlər. Çuxasını ağzına basıb, nəfəsilə isinmək istəyirdi. Soyuq bərkimişdi. Sanki işlənən cinayətdən, günahsız ölənin qarğışından yer matəm tutur, dağlar ah çəkirdi. Bir müddət sonra Qədiri anlaşılmaz bir fərəh də çulğadı:

«Gavur öldürdüyüm üçün rəisin hörmətinə, xələtinə nail olacağam. Sabah adamlar bu ölünün və mənim başıma yığılacaqlar. Rəisin boş çənəsi laxlayacaq, yenə də nələr deyəcək, nələr danışacaqdır...»





Bu mənzərə Qədirdəki nifrəti daha da böyütdü. Daxili bir pərişanlıq onun ruhunu əzirdi. «Yaşamaq üçün yaşamaq istəyəni məhv etməyi, həyat axtaranları məhv etmək zərurətini, yerləri qanla suvarmağı mənə haçan, kim öyrətdi?» Qədir özünə, hərəkətinə nifrət edirdi. Əllərində canavar tükü, pələng dırnağı görür, yer əkən, oraq tutan əllərinin müqəddəsliyi və təmizliyini itirdiyi üçün peşmanlıq çəkir, məyusluqla başını aşağı salırdı. Tətiyi buraxdı, başını soyuq qundağa söykəyib, kədərli bir halda yaralı quş kimi dayandı. Gecənin sərin, oxşayıcı mehi onu alıb ayrı aləmlərə apardı. Yox, bu, ayrı bir aləm deyil. Bu, onun öz kəndi, öz kövşəni, belləyib arpa səpdiyi Düzyurtdur. Məhsulunu yoxlamağa, arpa biçməyəmi, ya nə üçünsə Qədir kövşənə gəlmişdi. Göy şaqqıltısı, ildırımdan sonra kükrəyib gələn bulanıq bir su əvvəl onun topuqlarına çıxır, sonra yuxarı qalxıb, onu ağzına alır. Onu sel aparır, daşlara, kəsəklərə, kötüklü ağaclara, qoyun-quzuya, daha uzaqlardan axıb gələn, çabalayıb, hay-haray salan adamlara qatıb aparırdı. Təpənin başında dizinə döyüb ağlayan Qumru gah görünür, gah yox olurdu. Deyəsən o, Qədiri axtarırdı. Qədir uzun, geniş çaylağın ağır daşlarını, köklü kötükləri qucaqlayıb bir an dayanır, üz-gözünün palçığını silib yuxarıya baxır, gücü gəldikcə qışqırırdı:

- Qumru, Qumru! Uşaq hanı? Uşağı harda qoymusan, ağız!

Qumru bu ağır, fəlakət vaxtında onunla gizlənpaç oynayırmış, ya suyun lap axan yerində çimirmiş kimi gah görünür, gah batırdı. O nə dinir, nə danışır, nə də Qədirin səsini eşidirdi.

- Ay qız, Qumru, mənəm ey, niyə dinmirsən? Batıram, görmürsənmi, ay Qumru!..

Deyəsən, Qədir öz səsinə ayıldı. Soyuqdan ağac kimi quruyan bədənini büzüb kündə kimi kiçildi. Bir an əvvəl içində çabaladığı dəhşətlərin yuxu olduğuna sevindi. Əlini üzünə çəkib, salavat çevirdi, gözünü ətrafın qaranlığında dolandırdı. Yuxunun



təsirindən ya xəstəlikdən, nədənmi birtəhər idi. Harada olduğunu təyin edə bilmirdi. Qarışıq röyanın izləri hələ gözündən silinməmişdi. Üzünə soyuq külək dəydi, dikəlib ətrafa boylandı. Dan yerinin ağardığını hiss etdi.

Ulduzlar uzaqlara çəkilib, itməkdə idi. Qədir ayağa qalxdı. Heç kəs yox idi. Yaylanın başında hay-küy səsi gəlirdi. Harada isə at fınxırır, taqqıltı eşidilirdi. Dərələrin dibində uşaq ağlayır, bu səslər çoxalıb bir-birinə qarışır, gündüz mərəkəsinin həyat mahnısı çalınırdı. Bu mahnıdan cəsarət alıb ölüyə yaxınlaşan Qədir baxıb nə görsə yaxşıdır? Baxır, baxır, təəccüb edirdi. Onun gecəki qəhrəmanlığı nələr etmişdi?

O, yekə bir camış öldürmüşdü!

Qədir bunu heç gözləməzdi. Gülür, gülə bilmir, sevinir, sevinə bilmirdi. İndi bəs nə olsun, bəs necə olsun bu? Bir də yadına düşdü ki, heyvanın ziyanını istəyəcəklər. «Dərimə saman təpəcəklər».

Kişini bir qorxu çulğadı. Canında vahimə, qəlbində həyəcan qaynadı. Dosta, uzaqgörən bir dosta ehtiyac hiss etdi. Onun səadətini istəyən xeyirxah bir dost bu dəqiqə qarşısında durub onu danlamalı, tüpürməliydi: «Beləmi kənddə beş kişinin biri olacaqsan? Burada nə gəzirsən?»

Qədirin arzuladığı dost yox idi. Elə bir dost hanı?

Daşın üstündə oturub çarıqlarını bərkitdi. Şumlanmış yerlərdən keçib, böyük kəsəkləri ayaqlayaraq aşağılara endi. Sonra dönüb birbaş şəhərə yollandı.

## QUDUZ ŞƏHƏR

Şəhərin başından girən kimi böyük bir izdihamın axışdığını gördü. Uşaq, böyük hamı bir-birinə qarışmışdı. Bazar əhli qaynaşırdı. Çəkməçilər, önlərində döşlük, əldə çərməki, ayaqyalın çıxmışdılar, papirossatanlar qutusunu qoltuğuna vurmuş, baqqallar əllərində çömçə gəlmişdilər. Qorodovoyların tüfəngi, faytonçuların zoğal qamçısı göz-başa ilişirdi. Amindeyən Ağabala döşünə salladığı uzun və xalça kimi əlvan qırmızı saqqalını oynatdı. İzdihamın son sıralarından dilləndi:

- Öldürün məlunu! Ədüyi-islamın qanını içəm gərək...

Vurun, vurun! Rişeyi-ülfətin qırın!

Tayqıç Kazım illər uzunu sürtülüb işıldayan qoltuq ağacı ilə bir addımda beş metr məsafəni geridə buraxırdı. Onu bütün şəhər tanıyırdı. Generallar kimi uzun, topa bığları, bəzən yastıq əvəzinə işlətdiyi üçün kitab kimi bükülmüş ağ, tüklü qazaq papağı var idi. Əvvəllər, «erməni-müsəlman davasında» böyük igidlik göstərib, Azad kəndinə talan saldığı üçün qubernator ona bir papiros qutusu bağışlamışdı. Qıçı da bu «qəhrəmanlıqda» zay olub kəsilmişdi. Sonralar bir müddət bazarlarda, meydanlarda müsəlmanın biqeyrətliyindən danışdı, daha sonra çayxanalarda birtəhər girləndi. «Xeyirsiz müştəri» onları da təngə gətirib bezdirmişdi:

- Zəhmət çək çıx, dükanı süpürək!..
- Mən bu yanda durum, sən o tərəfdən süpür!
- Yox, adam olanda süpürməyim gəlmir, çıx eşiyə!
- Bura sənin üçün söyüd kölgəsi deyil ha!

Bunu deyən bir nəfər üzlü çayçı şagirdi onu itələyib eşiyə salmış, bərk-bərk qapını dal tərəfdən basmışdı. Tayqıç Kazım qapını açmaq üçün hıqqanmış, bacarmamışdı. Cini başına vurmuşdu:



- Milləti saxlayan mən, gavurun yurduna od qalayan mən oldum, belə bihörmət olan da mən oldum? Belə də çörəkitirən məxluq olar, ilahi?

Tay qıçını astanaya söykəyib, gücünü qoluna yığmış, qoltuq ağacı ilə şüşəbəndə elə bir zərbə çırpmışdı ki, şüşələr çilik-çilik olmuşdu.

Onda da camaat tökülmüşdü. Kişini fıştırığa basmışdılar. Taxtalar döyülmüş, çərməkilər səslənmiş, tərəzi tayları ilə çəpik çalmışdılar. Qorodovoylar fit vermiş, uşaqlar səs salmışdılar. Bu qəribə səslər Tayqıç Kazımı biabır etməkdən əlavə, çaşdırmışdı.

Tayqıç Kazım indi də izdihamı yarır, balaca adamların başından axsaq qarğa kimi addayıb ötürdü. Papağını göyə qaldırıb:

- Dayanın... - deyirdi.

Kazımın dəhşətli çağırışa bənzəyən sözü yüyürən yüzlərcə addımın səsi içində boğulub yox olurdu. Onu təkcə Amindeyən Ağabala yaxşı eşitdi və gülə-gülə mızıldandı.

- Dayanmağa hacət yoxdur, ey qafil! Gavur malını yeməyə tələsmək gərəkdir, tələsmək!

İzdiham məscid həyətinə doğru gedirdi. Adamlar erməni kəndlərindən gətirilmiş kisbin «millət xadimlərinə» necə paylanmasına tamaşa etməyə gedirdilər. Tayqıç Kazım bir tərəfdən özünün sadə adam deyil, «böyük bir millət xadimi» olduğuna, digər tərəfdən şikəst qıçına olan güzəştə görə hamıdan bərk yortur, hamıdan çox pay umurdu. İştahasından ağzını marçıldadırdı. Amindeyən Ağabala onun gözündə parlayan iştahaya içindən istehza ilə gülürdü:

- Ölmüsən, ay Ağabala ki, sən dura-dura belə başı boşlar kisbdən pay aparsın... heyhat!..
- Öldüm vayyy!

Kim isə qarğaşalıqda Tayqıç Kazımın ayağını ayaqlamışdı. O bir

ağız bağırandan sonra qoltuq ağacı ilə birisinin başından elə çırpdı ki, qan fışqırdı. Kişinin üzü lalə kimi boyandı. Tayqıçın ürəyi sakit olmuşdusa da, camaatı heyrət almışdı. Bir ağac zərbəsilə bu qədər qan fışqırmasına təəccüb etdilər. Bu sirri Tayqıç Kazım özü bilirdi. Ağacın gövdəsinə nalbənd mıxı döşəmişdi. Kişinin əli başından axan isti qana dəyəndə kini daşdı. Tayqıçın kəsik qılçasından yapışıb beş addım kənara atdı. Kazım qalxıb, papağını çırpdı. Yaralıdan üzr istədi. Heç kəs bununla maraqlanmadı. İzdiham getdikcə gedirdi. Tayqıç Kazım düşməninə yalvarmağa məcbur olmuşdu:

- Ay eloğlu, gedək payımızı alaq, sonra məni öldürsən də sözüm olmaz. Amandı, yenə əlimiz boşa çıxmasın!

O, kəsik qıçının kötük kimi bərkimiş yerini göstərib yalvaran bir dillə deyirdi:

- Mən can qoymuşam, fürsətdi, eloğlu!

Qədir çayxanaya qayıdanda nahardan xeyli keçsə də, adam çox idi. Yuxarı başda, hansı paşanınsa şəkli toxunmuş bir xalçanın yanında adamlar yığışıb pıçhapıç söhbət edirdilər. Qədir pəncərəyə söykənib, fikirli-fikirli baxırdı. Dal tərəfdə qışqırıq qopdu:

- Vay, qoymayın, müsəlmanlar!..

Hamı aşpazxanaya yönəldi. Camaat elə tökülüşdü ki, içəriyə işıq düşmədi. Maraq dolu gözlər aşpazxanaya dikildi.

- Gözlə, öldürmə!
- Vicdanın olsun!
- Kənar durun!
- Gəbərt!

Qədir lap qabaqda idi. Təzyiq belini qırsa da, dözürdü. Az qalırdı adamlar onu taxtapuşun altına, kömürlüyə yıxsınlar. O, əllərini divara dayayıb, möhkəm durmuşdu. Qışqıran uzun, qara saqqallı, göyçək bir kişi idi. Xırdavat satmağından və uzun saqqalından şübhələnmişdilər. Qoçu Kəblə Abbasəli naqanı



çəkmişdi. «Cuhudsan ki, cuhudsan! Sənin qanın halaldı, öldürəcəyəm!»

- Ay qardaşlar, mən müsəlmanam! Əli şiəsiyəm, Məkkə, Mədinə haqqı, müsəlmanam! İsmayıl...

«Əli-qanı» coşmuş, gözü qızmış tüfəng qatarlı «xadimlər» isə buna inanmırdılar. Camaatı qorxudub geri qaytarmaq üçün Kəblə Abbasəli aşpazxananın səqfinə iki güllə sıxdı. Torpaq töküldü. Çoxları, canavar görmüş qoyun kimi, geri çəkildilər. Qaçhaqaç düşdü. Qapılar şaqqıldadı, şüşələr töküldü, arabalar qaçdı. Xırdavat səbətləri, əl arabaları dəmir təkərlər altında əzik-əzik oldu.

Kəblə Abbasəli naqanı qarasaqqal kişinin yalvaran ağzına tuşlamışdı. Qəssab Həsən özünü aralığa atdı:

- Dayan, qoy mən sübuta yetirim. Cuhud olduğunu bu saat aləmə bildirim. Düzünü de: Əli şiəsisən, ya gavur?

- Müsəlmanam, nəyə deyirsən and içim, ay...

- De görüm haralısan?

Qəssab Həsənin sualı güclə eşidildi. Əllaf Abdulla cavab gözləmədən qışqırdı ki:

- Canım, vəzzariyyat istəməz, kənara qaç görüm! Sən iş görən deyilsən.

Arxa cərgədən beşaçılanlı bir adam qışqırırdı:

- Soruşmağa ehtiyac yoxdur, canım! Payı bir güllədir, verin getsin, o dünyada dərsinə baxarlar. Vaxtı keçirməyin, inkir-minkir özü soruşacaq. Şikarı əldən çıxarmaq olar? Di tez olun! Yoxsa camaat arasına düşüb gedər. Cəld olun!

Qəssab Həsən aralıqda hədər ölümdən qorxub, özünü adamların içinə soxdu. Əllaf Abdulla əlini qaldırdı:

- Müsəlmanlar, dayanın! Siz həzrət Abbas, bir hovur!..

Hamı, hətta yazıq, yerə sərilmiş, çöhrəsinə ölüm tozu qonmuş qarasaqqal kişi də əllafın üzünə baxdı. Əllaf cəllad kimi irəli durub,

əlini dizinə qoydu, əyilib soruşdu:

- Müsəlmansanmı?

Qarasaqqal kişinin simasında ümid əlaməti duyuldu.

- Bəs nədi, ay qardaş, Əli şiəsiyəm. Şiə!..

- De görüm pişiyin ayağı neçədi? De də!

Qəssab Həsənin əllafa acığı tutdu:

- Canım, tapmaca vaxtıdır?

- Pişiyin mətləbə nə dəxli?

- Əllafa pişik lazımdır axı, siçan taxılını tərk eləməsin.

- Pişiyin dəxli yoxdur!

Əllaf hirslə cavab verirdi:

- Lap çox dəxli var! Mane olmayın, qoyun ədalətimizi eliyək!

Hamını heyrət apardı. Əllafın fəndinə adamlar mat qaldılar. Qoçular tüfəngin küpünü yerə qoyub, nəfəs dərdilər. Gözlədilər. Ani bir sükut oldu. Yenə qarışıq səslər eşidildi:

- Abdullaya cavabını de!

- Di cavab ver!

- Di söylə, de görək pişiyin ayağı neçədir?

Qarasaqqal kişi, deyəsən, bu sadə sualın məğzini bilmişdi:

- O nədi ki?.. Rəhm edin, müsəlmanam...

Kişi əlini yuxarı qaldırıb yalvardı, yazıq bir səs dilinə dolaşdı:

- Pişik... pişiyim...

Xorla neçə səs birdən qışqırdı:

- Deynən, pişiyin neçə ayağı var?

- Neçə?

- Pişiyin, pişiyin... iki ayağı qabaq...

Kəblə Abbasəli dartındı. Ağzından köpük daşlandıraraq söydü, qarasaqqal kişinin sinəsindən bir yumruq vurdu. Kişi daha bərkdən dedi:

-Pişiyin iki ayağı qabaqda, ikisi... dalda.



- Cəmini de, cəmisini?

- İkisi bir yanda, ikisi solda...

- Bax, vurdum ha! Cəmisini de! Deyirsənmi?

Kəblə Abbasəli naqanı hazırlayanda kişi barmaqları ilə «4» işarəsi göstərdi. Əllaf boğazına güc verdi:

- Ağzında de, yoxsa öləcəksən! Dilin laldımı, de!

Kəblə Abbasəli naqanı tuşladı:

- Al gəlsin, vurdum ha!

Kişi iki əlilə aman istədi və çətinliklə dedi:

- Pişiyin... neçə... pişiyin ayağı dürtdür!

Kəblə Abbasəli onun sözünü təkrar etdi:

- «Dürt», budur bax «dürt!»

Bu səslə tapança da dilləndi. Şaq, şaq, güllələr açıldı. Qarasaqqal kişi dünyadan üz çevirən kimi dala dönüb arxa dığırlandı, üzü üstə düşdü. Elektrik vurmuş göyərçin kimi başı axdı, ağzından gələn qan torpağı islatdı, yerdə bir sual işarəsi yazdı.

Bütün bu dəhşətləri gözü ilə görən, lakin mənasını anlamayan, dünən kənddən ayrılan, yaxşılıq, xoş gün, əmin-amanlıq arzusu ilə ayrılan Qədirin sanki dünya başına hərlənirdi. «Bu nə işdir, bu nə ədavətdir, bu nə qansızlıqdır...» Qədirin ürəyi xarab oldu. Dizində taqət qalmadı. Ayaq üstə dura bilmədi. Özünü güclə stulların üstünə salıb, fikrə getdi. Başı ağrıdı. Ürəyi qarışdı. Sakitcə başını soyuq divara söykəyib baxırdı.

Ac və lüt ailə gözünün qabağında ağlayırdı. Nə pulu, nə köməyi, nə də bir ümidi, imkanı vardı. Atıla-atıla, əliboş kəndə getməyə utanırdı. Burada isə nə edəcəyini bilmirdi. Onun vücuduna bir manat verən, onu bir işə çağıran kim ola bilərdi...

Meydanın yuxarısında nə üçünsə camaat yığışmışdı. Yenə oğru tutulmuş, yaxud ölən var zənn edib, Qədir tamaşaya getdi. Sən demə ayrı şey imiş. Çilingərxanaların yanında təzə silah bazarı

düzəlmişdi. Burada xəncərlər sulanır, itilənir, hər cür tüfənglər yoxlanır, hər çaplı patronlar sayılır, hər növ tapançalar sökülür, qoşulurdu. Satıcı aldatmaq üçün atır, alıcı aldanmamaq üçün atır, kimisi də ötüb-keçənləri hesaba almadan patronları qudurmuş kimi dalbadal havaya boşaldırdı.

Silah bazarına xeyli camaat toplanmışdı. Bu gün bazarın açılış günü idi. Qubernator dəstəsilə gəldi. Atın üstündə şeşə bığlarına əl vurmadan, «millət naminə» belə bir nitq söylədi:

- Həzərat, müsəlmanlar!

Yasovulun biri qamçısını uzatdı. Basabas edib boylanan bazar əhlinə acıqlandı:

- Dinməyin, orda nə qır-vırdı?

Elə bil qurbağa gölünə daş atıldı. Camaat qoyun sürüsü kimi durdu. Sükut bərpa olundu. Sıx duran, deyiləni eşitmək üçün can atanların bədəni az qala bir-birinə yapışmışdı. Ancaq başlar tərpənirdi, yüzlərcə nəzər qubernatorun iri, qaralmış dodaqlarına sancılıb qalmışdı.

- Həzərat, müsəlmanlar! Necə ki, predpalaqat olurdu, millət üçün belə bir cəşni-mərasim günü! Burada tüfəngin olsun, patronun olsun, tapılacaq hər vidi! İslam hökumətimiz, hansı ki, əmr eləyir, ala bilər hər vətəndaş. O yaraqlar, hansı ki, əldə olunub, şalonlardan, izvesnidir. Nikolay. O zalım qoymadı müsəlman görsün yarağın üzünü. Hətta qonşu-qonşu ilə dalaşanda, timsal belə, Səfərəli Qurbanəli ilə dalaşanda məcbur olurdu silah əvəzinə lapatka, vilka, çubuq... - qubernatorun dodaqları qaçdı. O, qorodovoylara baxdı. Onun təbəssümünü görüb qorodovoylar əl-ayağa düşdülər, gülmək üçün gücəndilər. Onların şit səsi, yalandan kürt yatan toyuğun boğuq qıqqıltısına oxşadı. Qubernator davam etdi:

- Əcayibatdandır ki, keçmişdə rüsxət yox idi kəndli əlinə yaraq-əsbab alsın. Hələ adımızı qoymuşuq nəsli-Teymur, nəsli-Çingiz.



Dini-mübini islamın düşmənini də yer üzündən istəyirik götürmək! İndi silahımız var, kim istəyir, kağız alsın, saxlasın. Biz bilirik kimə verməyi. Bu şərti-şirut ilə, çalışaq islam baydağını qalxızmağa! Mən necə ki, siz rəiyyətin qubernatorunuz, çox ümidvaram, ol barədən ötrü ki, hansı ki bu gün olur rəsmi-cüşadi silah bazarının.

Qədir şəhərdə gördüklərinə o qədər uydu, o qədər ah-əfsus içində göynədi ki, öz işlərindən xəbər tutmadı. Şeylərini və tüfəngini çayxanadan oğurladılar. Çayxana sahibi kəndlilərdən görürdü. Onlar da çoxdan çıxıb getmişdilər. Onları axtarmaq üçün minik, pul, kömək, bələdçi lazım idi. Buna Qədirin nə imkanı, nə də bir ümidi var idi. Qədir indi lap əliboş qalmışdı. Oğurluq haqqında çox yazıldı, pozuldu. Heç bir şey çıxmadı.

Qədir bu işi çayçıdan, o hiyləgərdən görür, şübhələnirdi. Ancaq bu şübhəni doğruldacaq şahid, sübut olmadığından, dinmirdi.

Küçəyə çıxdı. İstiqamətsiz yerişlə gəzindi. Aclığını unutmaq, davamlı görünmək istəyirdi. Qızdırmanın təsiri, polisə gedib-gəlmək, yorğunluq və aclıq onu lap halətdən salmışdı. Bazarda isə yeməli hər şey var idi. Satıcıların tərifi, xörəklər, meyvələrin dadilə ağzı sulanırdı. Tanımadığı bir aşpazxanaya girdi. Onu təzə müştəri bilib, çox ehtiramla qarşıladılar:

- Nə buyurursunuz?

- Çay gətir, pendir də gətir, çörək də ver! Çoxlu ver!

Qədir kəmərin altı bərkiyənəcən yedi. Qarnını doydurdu, sonra acı çay istədi. İndi saymazyana oturub dişini qurdalayır, qabağındakı tünd çaya baxır, hesabdan qurtarmaq üçün çarə arayırdı. Bir istədi ip corabını çıxarıb aşpaza versin. O halda yəqin ki, qışqırıb söyəcək, itələyib biabır eləyəcəkdi. Birdən ürəyinə ayrı fikir gəldi. Deyəsən ona öyrətdilər. Əyildi pəncərədən baxdı. Cəld qalxıb çağıra-çağıra yüyürdü:

- Ay Hümmət, ay Hümmət, ay lələ, bir dayan! Bura bax, bura

bax! Ayaq saxla, a qadan alım!..

Qədir dostunu çağırmaq bəhanəsilə meydanda adamlara qarışıb, çoxdan gözdən itmişdi.

Gün əyilmiş, kölgələr sallanmışdı. Qədir dar küçəli, qaranlıq döngəli bazarlarda sərsəri kimi mənasız dolaşırdı. Hara getdiyini, nə edəcəyini bilmirdi. Bircə onu bilirdi ki, belə şəhərlərdə canı cibdən aramaq lazımdır. Pulsuzluq xəstəliyinin burada təbibi və müalicəsi yoxdur.

Bir kənara, divar dibinə çəkildi. Corablarını çıxardı. O bunları dəstəmaz almaq üçün yox, yolpulu, bir qarın çörək pulu üçün çıxarırdı.

Corabı əlinə alan kimi Qumru gözünün önünə gəldi. Corabın ilməklərində dolanan barmaqlarını görürdü. Onun, o mehriban kənd qızının arıq, düz, millər kimi cəld hərəkət edən barmaqlarını aşkar görürdü. Qumru belə həvəslə işləyəndə başını aşağı salar, gözünü işə dikər, qara, sıx saçları alnına tökülüb, bulud kimi onun ay üzünü örtərdi...

Qumrunun toxuduğu corablar Qədirin gözündə böyüdü, kənd qızını səslədi. Qumru bunların yununu da özü yumuş, özü əyirmiş, özü boyamış, min nəvazişlə Qədirin adına toxumuşdu.

## YANĞI

«Şamama, mərmər düyməçəli, ipək məmələr».

Bəbir bəy o yağışlı gecəni nəinki unuda bilirdi, hətta xoşbəxt yaşamaq istəyəndə o səhnəni gözü önünə gətirməyə çalışırdı. Ehtirası qaynayıb-daşırdı. Qumrunun inadı, üsyankar etirazı qarşısında sarsılmış, pozulmuşdusa da, «eşqi, həvəsi» gün-gündən alovlanır, dərinləşirdi.



- İtil burdan, bir qıy çəkərəm dünya yığılar. Kaftar canavar!..

Bunlar, ötən axşam Qumrunun astanasında eşitdiyi bu sözlər bəyin qulağında səslənir, ağır daş kimi başına dəyirdi. Nə eləsin ki, «şamama, mərmər, düyməçəli məmələri» nə daş, nə təhqir, bəlkə güllə də ona unutdura bilməzdi.

O, bığının tüklərini çevirib ağzına doldurdu. İynə batırılmış kimi qaşqabağını salladı, gözünü yüksək bir nöqtəyə dikdi, əlini sinəsinə qoydu (o həmişə fikirləşəndə belə edərdi).

«Əslinə baxsan aşıq gərək cəfa çəkə!
Xoşdur nə qədər eyləsə yarım cəfa mənə...
Əğyar ta ki, söyləməsin bivəfa mənə!»

«Yar, yar» deyib ömür boyu mələyənlər bəs havayıdırmı? Zillət çəkməsən, sabah qucağına alıb öpəndə heç ləzzət də verməz. Töycü deyil ki, yükləyəsən kəndlinin belinə, hazır qapına gətirə! Burda, zad demişkən, qamas-qamas![1].. Pişim-pişim ilə!»

Bəbir bəyi bu gün xiyalplov elə qızışdırdı ki, dəftərxanaya da getmədi. Bekarı yanına çağırdı:

- Bilirsən nə var, ay Bekar?
- Allah var, şəriki də var!
- O kimdir?
- Hələ ki, bəydir!

Bəbir bəy irişdi:

- Ay axmaq, Allah olsam dərd ürəyimi dələrdimi?
- Allah eləməsin, ay bəy, sən ölsən bəs biz kimə pənah...

Bəbir bəy əlindəki çubuqla onun burnundan vurub, sözünü yarımçıq qoydu:

- Qulaq as, söz danışıram!

Bəbir bəy dikəlib ətrafa boylandı, pəncərədən eşiyə baxdı. Qıssa xanım təndir başında yastılanıb çörək bişirənlərin üstündə göz

1. Yavaş-yavaş

olurdu. Bəbir bəy səsini yavaşıtdı, nökərinə xəlvəti danışdı. Onun səsi tuluqdan hava boşaldılanda eşidilən fısıltıya bənzəyirdi:

-Ağzını çuval kimi açma! Dərinə saman təpərəm. Eşitsəm ağzından qaçıb, özünü ölmüş bil! Maymağın biri maymaq!

Bekar əl-ayağa düşdü.

- Xeyr, ay bəy, elə köpəkoğluluq olarmı? Mən sizin qapıda, özün bilirsən... Bu nə sözdü buyurursan, bəyəm, bəndəni tanımırsan?

Bəbir bəy bu ciddi, rəsmi müqəddimədən sonra qıçını qaldırıb dizinin üstə qoydu. Bekara tərəf əyildi. Səsini də, tövrünü də dəyişib, soruşdu:

- Bu Qumrunu nə sayaq eləyək? Köpək qızı çox çəmxəm eləyir axı!.. Bilmirəm məndən niyə ürkür, ya ürküdürlər, nədi?..

Bekar bəyin əndişəsini azaltmaq qəsdi ilə məsələni yüngülləşdirmək istədi:

- Ay bəy, arvadın qaydasıdır. Yaxşı atı minmək çox çətin olur! Baxma, bas qarmala, qurtarsın getsin. Sən onun atılıb-düşməyinə baxma, başmaqları da razıdır.

- Ay ölmüş, nökər olanda nə olar, dedik bir söz danış, söz olsun. Lap sarsaqladın. Get Çəpəli bura çağır. Durma, tez get!

Sayalı arvad kənddə dünyagörmüş, ağbirçək sayılırdı. Düyünləri açar, tilsimləri sındırardı. Ondan gizli sirr yox idi. Hətta o, qabaqcadan bilirdi ki, kim kimi alacaq, hansı arvad boşanacaq və boşanıb kimə gedəcək. İşi çəlpəşik olan, kələfçəsi pırtlaq düşən, dardan qurtarmaq istəyənlər, hətta özgə kəndlərdən, uzaq yollar dolu xurcunla, ayın-oyunla gəlib, onu tapardılar. Deyirlər onun qaranlıq bir evi var. Heç kəsi ora buraxmır. Orda ancaq cin-şəyatin saxlayır.

Sayalının kağız-baratsız, qolsuz, möhürsüz hökmü dəmir yolundan Kürün qırağına qədər işləyirdi. Nədənsə ona Çəpəl deyirdilər. Bir molla onsuz dua yazmaz, daha doğrusu, yaza



bilməzdi, falçı onunla tas qurardı. Uşağı olmayan, həmzad vuran, günüdən qaçan, günü gedən arvadların hamısı Çəpəldən xeyir görərdi. Onda, onun kilfli, üfunətli düyünçələrində bitdən sirkəyədək nə desən tapılardı. Dəvə qığı, qara pişik tükü, kirpi dərisi, tısbağa ciyəri, cin gözü, leysan suyu, ekiz badam, gözmuncuğu, sağsağan beyni, göyərçin qanadı, qurd yağı...

O, bu «dərmanları» hər adama boyun olmazdı. Yerinə baxardı. Eləsi olurdu ki, Çəpəl Sayalı əsla yaxın qoymurdu:

- Get, bala, sənə veriləsi dərmanım yoxdur,-deyirdi.

Adi şeyləri bir «su içim saatda» düzəldirdi. Çox qızlar qayıdıb ona deyərdi:

- Ay Sayalı xala, sənin üzündə övliya nuru var. Anamın canı üçün, bir bais sən oldun. Yoxsa kişidən zəhləm qaçırdı. Az qalmışdım yığışıb gedəm dədəm evinə. İndi yaxşıca köpüb oturmuşam yerimdə... Nə olub, Allah bəndəsidir, bir tikə çörəyi var. Səni görüm nəfəsin kəsərli olsun!

- Həəəə... xala səni yesin, qızı qoysalar öz kefinə, ya zurnaçıya gedər, ya halvaçıya! Mənə də elə savabı bəsdir ki, zurnaçıya siz cavanəzənləri ər evində, oğlan qucağında yerbəyer eləyirəm.

Bəbir bəy Çəpəl Sayalı ilə diz-dizə oturub, ağır bir «sevda» eləməyə məcbur olmuşdu. Bir şal çadraya, bir də oğluna ləzgi şalından paltara güclə Sayalını razı saldı:

- Yüzbaşısan daha bərkimirəm, yoxsa hansı itin qızı belə ağır işi boynuna alar? Ərli arvadı cızığından çıxartmaq bəyəm asan işdi?

Bəbir bəy çox sevindi. Amma şərt qoydu: Çəpəl elə etməli idi ki, Qumru «can», «sənə qurban!» deyib, Bəbir bəyi bağrına bassın. Uşağı da ərinin üstünə atsın.

Çəpəl sənətinə güvənən mahir ustalar kimi ürəkdən söz verdi:

- Yeri, get evində arxayınca otur. Mənə də Çəpəl deyərlər. Qumrunun ürəyində bir ocaq qalayacağam, bir təndir qoyacağam.

özü hu çəkib yana-yana qapına gələcək. Sənin dodaqların ilə, şirin-şirin öpüşlərin ilə ürəyini söndürəcək. Səni bal deyib yalayanda görərsən ki, Sayalı xalanın feli nə feldir, əməli nə əməldir. Onda görərsən!

Bu söz Bəbir bəyin çox xoşuna gəldi. Özü bir də təkrar etdi: «Varam elə felə də, əmələ də!» Sevincindən əlini cibinə salıb, göy bir pul çıxartdı, Çəpəlin ovcuna basdı:

- Qoy bir az da kəsərli olsun, əlinə dönüm, ay Sayalı xala. Elə bil ölmüşəm, yerdən götür. Bu köpək qızının ağzını bağla görək nə olur!

- Arxayın get, bəy!

- Əlinə dönüm!

- İltifatın kəm olmasın!

Gün batırdı. Həyətlərdə səs-küy çoxalmışdı. Arvadlar çardaqların altında məşğul idilər. Kimi biçinçiləri doyurmaq üçün ayran verir, kimi inək sağır, kimi boş süfrəsini sərir, doğmuş qoyun kimi, bir nöqtəyə baxıb göyşüyürdü.

Qumru başaqdan gətirdiyi taxıldan döyüb, bir cam arıtmışdı. Uşağa hədik asmışdı. Faxirə evin torpağını qazıyıb yemək istəyirdi. Qumru onu qucağına aldı, «pfu-pfu»-deyə doyurmağa başladı.

Qapı cırıldadı. Çəpəl, açılmaqda olan yay kimi burula-burula içəri girdi. (O, aşağıdan çox yoğun olduğu üçün balaca qapılardan çətinliklə keçirdi.) Qumrunun gözü Çəpələ sataşanda ürəyinə bir şey gəldi: «Bu şər vaxtı görəsən... Allah, bu küp qarısının felindən sən saxla».

- Salamcan-əleykim, qızım! Yaxşısanmı? Ağrıyıb eləmirsən ki? Balan necədir, hancarısan, necə dolanırsan, lap yaxşısan ki, kefin-zadın?

Çəpəl tez-tez danışan idi. Burada Qumrunu halallamaq üçün bir az da tələsir, nöqtəsiz, vergülsüz hüdülüyüb tökürdü:





- Lap yaxşısanmı, kefin-zadın necədir, necə dolanırsan? Ağrıyıb-eləmirsən ki, ağrın alım?

Çəpəl dayandı. Qumrunun üzünə tünd baxdı. Nagahani, bir şey duymuş kimi əllərini dizlərinə çırpdı. İfadəsini dəyişdi:

- Bıy, mənim başıma kül! Ay qurbanınız olum, bir gör, gör, gör. Gör qız nə yeyir, soğan-çörək! Vaxsey, mer-meyvə dünyanı götürüb, sən nədir bu yeyirsən, ağız?..

- Qarı axırıncı sözün son hecasını bir sızıltı kimi uzatdı.

- Ağız!..

Eşidən güman edərdi ki, yazığın bədəninə iynə soxur, ya da ağır yarasının məlhəmini qoparırlar.

Çəpəl bu sözləri deyə-deyə yanını yerə qoydu:

- Səndə günah yoxdur, qızım. Allah adamı yetim qoyunca birkərəlik öldürsə yaxşıdır. Min dəfə yaxşıdır. Sənin atan olsaydı, daha nə deyim? Ay parçası kimi uşaq. Niyə gedirdin, ağız? Səndən ötrü igidlərin... uşağı qoyma, yıxılar, ağız... İgidlərin ürəyi bir tikəydi ki, «oxay» deyib can verirdilər. Kül başına bu dünyanın, fələyin çarxı dönsün: əyri Qıssa bəy arvadı, adı da «Qıssa xanım», Qumrular da dərənin rəncbərinə tuş gələr... Kiş-kiş!... - Çəpəl toyuqları qova-qova dəyirmanını işlədirdi: - Rəncbərinə tub gəlib soğan çeynər. Qız, bu nə gündür sınıxıb əriyibsən? İynəyə saplanarsan, ay binəva!..

O belə tez-tez danışırdı ki, sanki ac toyuq yerdən dən götürür. Qumruya dillənməyə macal vermir, danışdıqca burcuxur, yuxarı başa çəkilir, baş-gözünü açır, məhrəmləşir, ev-eşiyi həris gözlə süzürdü.

- ...Yoldan keçirdim, pəncərədən baxmışam. O əyri Qıssa, o naxıs Qıssa, turşumuş xamır kimi enlənib oturur. Qabağında qarabaşı, nökəri qulluğunda. Süfrəsinə padşah da tamah salır. Qaymağınamı söz var, yağmamı, kərəsinəmi, salma çayınamı,



fətirinəmi, fəsəlisinəmi, qatlamasınamı deyim? Ağ əppəyi yaxın qoymur ki, çiyrinmişəm, iyrənirəm...

- Dünyadır, ay Sayalı xala! Biri varlı olar, o biri kasıb.

Qumrunun bu sözlərini Sayalı saymadı:

- Yox, bala, onu kişilərə deyiblər. Arvad dediyin bal arısıdır. Şirəli çiçəyə qonar. Bundan qalxıb, o birisində oturar. Söyüd yarpağında nə vardı ki, arı da nə götürə. Burası var ki, qulaq asma, heç kəsin çırağı danatan yanmaz. Qıssanınkı da keçmiş ola!

Çəpəl səsinin xodunu aldı. Qıza yaxınlaşdı. Burnu Qumrunun saçlarına toxunacaq qədər əyildi. O, zirzəmidə qalmış küp kimi soyuq nəm iyi verirdi. Çəpəl Qumrunun qulağına pıçıldadı:

- Muştuluğumu ver!

- Nə var bəyəm?

- Muştuluğumu ver!

- Xoşxəbər olasan, ay Sayalı xala! Çox nigaranam. Haçandı getdiyi, Qədirdən xəbər-ətər yoxdur. Bilmirəm kişinin başına nə gəldi bu şuluqluqda. Uşaq da yadına salıb ağlayır. Yerdə-göydə durmur.

Çəpəl əlini tovladı:

- Yox... ağız. Eh, sən də bilmirəm lüt Qədirdən nə istəyirsən! Ayrı şey, şad xəbər deyəcəyəm, heç kim bilmir. Təptəzə qatı açılmamış xəbər! Muştuluq nə verirsən? Qədirdən yaxşısını deyirəm ey! Muştuluğumu ver!

Qumru dinmədi. Çəpəl Sayalı ufuldayıb dikəldi. Qumrunun yanına çəkildi. Qapı-pəncərəyə baxdı, yavaşca danışdı:

- Söz burda qalsın, bəxtəvər, bəxtin açılıb, xəbərdən xəbərin varmı?

Çəpəl bunu deyib, Qumrunun soyuq yanağını çimdiklədi. Saçını tumarlamaq istəyəndə Qumru mane oldu və bir şey anlamadı. Çəpəl burcuxa-burcuxa ona daha da yaxınlaşdı, təkrar etdi:

- Bəxtin açılıb, heç kəsə demə ha, söz burda qalsın. Bəbir bəyin sənə gözü düşüb. Dərdindən ölür, dəli-divanədi, ay bəxtəvər. Ağ günə çıxacaqsan dana!.. Sağ əlin bizim kimilərin başına...

Qumru çox tutuldu, qıpqırmızı qızardı, rəng verib, rəng aldı. Odlu dodaqlarını gəmirdi, xatalı bir şey duymuş kimi tez geri çəkildi, yerə baxa-baxa bir müddət sakit durdu.

Onun baxışından dəhşət yağırdı. Adama elə gəlirdi ki, o, müdhiş bir qərara gəlmiş və yerinə yetirməyə and içmişdi. İcrasına başlamaq əzmində idi. Sükut çox sürmədi. Qumru səsinə və adətinə yaraşmayan bir inad və ahənglə danışdı:

- Bu, çoxdankı xəbərdir. Sən gecikmisən, ay arvad! Bəy çox qələt eləyir, sən də onun murdar ağzını yalayırsan. Mənə nə olub? Mənim ərimə nə gəlib? Kasıbdır, mən də kasıb qızıyam. Onun bir dırnağını Bəbir kimi min köpəyə dəyişmərəm. Getsin yalaq Səkinəni aldatsın. Mən də ona fərə Məsmə deyiləm ki? Çox ayıb olsun ona da, sənin kimi başı gora titrəyən qarıya da! Ayıb olsun! Nə olub? Bəyəm kasıbın namusu yoxdurmu?..

Qumru danışdıqca qızır, səsi körüklənən ocaq kimi alovlanır, sözlər köz kimi tökülürdü. O, əsəbiləşdi, ayağa qalxıb, guya evi yığışdırmağa, süpürməyə başladı. Bu, Çəpəl Sayalını qovmaq demək idi. Çəpəl yaxşı qanırdı, lakin saya salmaq istəmirdi. Qumrudan belə cavab gözləmirdi. Zahirdə mülayim, fağır görünən, ağ günə möhtaç olan kasıb gəlindən belə tünd cavablar da çıxarmış!.. Çəpəl özünü toxtadıb, analara məxsus bir ifadə ilə davam etdi:

- Kiri, kiri... Ağrım o kişinin ürəyinə ki, qarnım dolusu çörəyi də yoxdur. Cavansan, qanmırsan, danışırsan. Nəyinə oturacaqsan, lüt canına, ac qarnına, qaranlıq daxmasınamı? İndi də səni tək qoyub gedib dağda, bağatda, kim bilsin, hansı kefə. Sən ev qızısan, nə bilirsən indi o hansı haxçıxnan kef çəkir. Sənin nə vaxtındır əriyə-



sən, əziz canını çöldən tapmısanmı?.. - Çəpəl səsini ucaltdı. - Qurban olum şəriət qoyana. «Kəbinim halal, canım azad». Necə deyərlər: «Mən gəlmişəm istəkənə qənd salmağa, gəlməmişəm ürəyimə dərd salmağa». Qızım, bu bir xoşbəxtlikdir sənə üz verib, əldən qoyma, peşman olarsan! Mən səni istəyib deyirəm, yoxsa Bəbir bəyə, kəndin ağasına qızmı əskikdir?!.

Onun bu son sözlərini Qumru eşitmədi, çünki eşiyə çıxmışdı. Evə qayıdanda hələ Sayalının səsi kəsilməmişdi. Qumru çəpəki və qılınc kimi kəsərli baxışla onun gözünün içinə baxdı, cavab verdi:

- Anam yerdə arvadsan, evimə gəlibsən, xoş gəlibsən. Yox əgər bəd niyyətlə, belə şeyləri danışmağa, məni bişirməyə gəlibsənsə, çox ayıb olsun! Qələt elədi bəy də, mənim sözümü danışan da. Bax, qulağınızı açın, eşidin; qoy yığışsın otursun yerində. Məni adamsız görüb yoxsa, əlquşu eləmək istəyir? Vay-vay!..

- Qumru kiriyən kimi Çəpəl əlini qaldırıb, nə isə demək istəyirdi. Qumru acığını sön- dürə bilmədi, belə bitirdi:

- Necə gəlmisən, eləcə də çıx get! Ağbirçək arvadsan, hörmətini saxla! Mən çox da böyük-kiçik qanmaram, bil!

Qumru Çəpəlin dalınca qapını elə hirslə çırpdı ki, deyərdin bu qapı bir də heç vaxt açılmayacaq!

- Küp qarısı! Ağ birçəyin al qanına bulaşsın, görüm!

Bunları öz qulağı ilə eşidən, amma eşitməzliyə vuran Çəpəlin fikrindən keçirdi ki, nə çarşab, nə də ləzgi şalı baş tutacaq.

Qumrunu bu kökdə görən qarı, ümidlərinin, xəyallarının boşa çıxdığını yəqin etsə də, fitnə-felindən əl çəkmir, çarə axtarırdı. Evinə qayıdandan sonra çox götür-qoy elədi, düşündü. Bədənindəki duaları bir də yoxladı. Gecə aralığa gələn kimi yatmadı, ulduzlara baxdı. «Məkkə yolu»nu[1] bir-bir ziyarət elədi.

Kənd yatışdıqdan sonra Sayalının dizinə kaftar qüvvəti gəlirdi.

1. Kəhkəşan

O, vəhşi kimi səssiz, ayıq-sayıq gəzirdi. Bu gecəni Bəbir bəyin evilə Qumrunun evi arasında dolaşan hana qurdu evdən evə qaçdı, durdu, oturdu. Salavat çəkdi, surə oxudu, sağa üfürdü, sola ötürdü, on üç yaşar pişik tükünü yandırıb, külünü göyə sovurdu. Köhnə süpürgə çöpünü qırx parça doğrayıb, Qumrunun evinə yeritdi.

Dərmanlar, cadular kəsərdən düşmüşdü. Cinlərin heç biri bu «vəzifə»ni boynuna almırdı. Qumru iki ayağını bir başmağa dirəyir, dediyini deyib dururdu. Çəpəl fəndinin karsızlığını onunla izah edirdi ki: «Bəyin inamı düz deyil! Etiqadı kamil deyil! Yoxsa belə işlər mənim əlimdə nədir ki!..»

Bu əhvalatdan sonra Bəbir bəy neçə gün oruc tutdu, namaz qıldı. Bir manat nəzir dedi. Ürəyindəki hissləri həmdi-surəyə silib məscidə atmaq istədi. Çəpəl işdən çəkilməmişdisə də, bir şey də edə bilmirdi. Bəbir bəy soruşanda deyirdi:

- İş səndədir, ay bəy. Ürəyin təmizlənsə, günü bu gün düzələr. Bir də uşaq var, arada duran uşaqdır. O pisdir. Qızın məhəbbəti çevrilib uşağa. Uşağı atıb cinlərin ayağına, onlar da körpəyə yaxın düşmürlər. Körpədən Allah da keçmir, bəndə də! Neyləyəsən, kəsib qabağı, işləri kor qoyub!..

Qarı bu yerdə şəltəsini işlədə bilmədi. Bəbir bəyin vədinə, səxavətinə də inanmadığı üçün Çəpəl meydandan çıxdı.

İndi də Sarıqlı molla işə başladı. Bunun əsl adı Molla Mirzə Məhəmməd imiş, nəzir verilmiş bir qızı bağrına basanda qız kişinin alt dodağını dişləyib üzmüşdü. Yara işləyib sim eləmiş, iki ay onu ibadətdən qoymuşdu. O zamandan molla dodağına ağ dəsmalla kukla balıncı bağlayırdı. Mollanın üçmərtəbəli adı ailədən qırağa çıxmadı. Hər kəs onu Sarıqlı molla deyə çağırmağa başladı.

Bəbir bəy dərdini Sarıqlı mollaya açdı. «Sən də dərd əhlisən, axund, buna bir əlac elə, - deyə bir kəhər at boyun oldu, - yəhər əsbabı da üstündə!»



Kəhər olmasın, lap yabı olsun, mollaya bir at vacib idi. Çünki dörd para kəndin ölüsünə, dirisinə, kəbininə, siğəsinə yiyə duran təkcə o idi. Məhərrəmlikdə bir məclisdə tökülən göz yaşları qurumamış, o birisində «ağam vay» səsi ucalırdı. Bunlar Sarıqlı mollanın sayəsində idi. Belə mövsümlərdə mollanın mərsiyəsini dinləyənlər ona at da, hər cür azuqə də verirdilər, lakin ona öz atı lazım idi, çünki özgə atına minən tez düşər. Axund isə düşmək istəmirdi. O da can idi, o da insan idi. Necə deyərlər, ruhu vardı, arzusu vardı. O da atını, məhz öz atını qamçılayıb, yaşıl dağlara dırmanmaq, cıdırlarda oynatmaq, köç yolunda çapmaq, hələ bərkə düşəndə ova da getmək istəyirdi. O da «Allahın əmri, peyğəmbərin şəriəti ilə» dünyanın halal nemətlərindən feyzyab olmaq istəyirdi.

O, bəyin vədinə inanırdı. Kəhər atın həvəsilə Qumruya şəriət öyrətməyə gəlmişdi. Öskürə-öskürə başını əyib, Qumrunun evinə girəndə soruşdu:

- Öhəəəə!.. Qumru xanım evdədirmi?

Qumru ona oturmağa macal vermədi. Sarıqlı mollanın ağzını qapıdan qaytardı:

- Şəriət belindən vursun, kişisiz evdə sənin nə işin var? Çıx, çıx bircə, cəhənnəm ol!..

Qumru biabırçılıq salmaq istəyənlər kimi bərkdən danışdı. Sarıqlı molla isə onu sakit eləməyə çalışdı.

- Dayan, qız, cuvanəzənsən, ərzimə mültəfit ol, bir gör nə deyirəm. Xeyrindir. Səni istəyib gəlmişəm...

Sarıqlı molla bu sözləri deyib qurtarmamışdı. Qumru dinməz-söyləməz, xəkəndazla mollanın yanından elə çırpdı ki, sümükləri şaqqıldadı.

Molla ömründə bunu gözləməzdi. Karıxdı, özünü itirdi. Başmağını astanada qoyub, ətəyini ovcuna yığdı, oğru pişik kimi sürüşdü:

- Allahın lənəti Aişəyə gəlsin, məlunə!..

Başmağı toyuqlar dimdikləyib həyətə saldı. Əhmədlilərin tulası başmağı ağzına alıb, birbaş yola düzəldi. Sanki yiyəsinə verməyə aparırdı. Görənlərdən utandı, uşaqlardan qorxdumu, yoxsa nallı başmaq ağırlıq elədi? Nə isə, tula küçənin ortasında başmağı atıb qaçdı. Günortanın istisindən hamı, hər şey su qırağına, kölgələrə çəkilib qorunurdu. Yalnız başmaq tozlu yolda ağzı günə qalmışdı. Başmaq məsələsi dilə-dişə düşdü. Kənddə danışıb gülürdülər. Sarıqlı molla ötəndə eşitdirirdilər:

- Molla əmi, başmağın niyə taykeşdir?

Çay başında, zəmidə, doqqazda, söhbətdə danışırdılar ki:

- Deməzsənmi, Sarıqlı molla Qədirin arvadına əl atıb...

Bu söhbət çox adama qəribə gəlirdi. Bəzi xalis möminlər inanmaq istəmirdilər. Kimisi də məna verməyib:

- Ehhh... - deyirdi. - O çoxdanın kaftarıdır, canım... Saqqalından cin-şəyatin sallanır!..

- Molla demə, camadara oxşayır zalım! Vələzzalini örkəndən çox uzadır.

- Evimizi yıxan elə vələzzalin olmadımı?

Bu danışıqlar quru söhbət olub qalmadı. Müştərilərin ayağı seyrəldi. Axundun bazarı kasad oldu. Hətta yetim Əkbər divardan boylanıb, barmağını Sarıqlı mollanın üstünə silkələdi:

- Bir köpəkoğlunun ölüsünə namaz qılmayacaqsan!

Bütün bunlar Sarıqlı mollanı cücəyə döndərdi. O, at məsələsinə it kimi peşman oldu. Yaxın adamlara rast gəldikcə qırağa çəkir, «işin içini» danışır, Bəbir bəy üçün, məhz o «bişərəf» üçün getdiyinə and-aman eləyir, qarğış tökürdü:

- Allah əzabını şədid eləsin!-deyirdi.-Kəndxudadır, sözünü yerə salmadım. Nə edəsən ki, qəzayi-rəbbanidir...

Təsəvvür edin ki, Sarıqlı mollanın vəziyyəti çox pis oldu. Çəpəl



Sayalı əlinin dalını yerə vurub, yolun yarısından geri çəkildisə, axunda elə bir xoşbəxt nəticə qismət olmadı.

Başmaq məsələsi onun üçün indi ölüm-dirim məsələsinə çevrilmişdi. Bəbir bəyin qorxusundan camaat arasına çıxıb deyə bilmirdi ki: «İş ayrı cürdür. Ya cyyuhənnas, bəndə kəndxudaya vəsatətə getmişdim. Mənim qeyrilərinin övrətində təməhim olsa, Əlinin zülfüqarı belimdən dəysin. Siz nəyə inanırsınız?.. Qurani-məcid haqqı!,.»

Bunu edə bilmədiyi üçün beş adamı bir yerdə görəndə axund başını aşağı salır, nisyə salam verib ötürdü.

Sarıqlı mollanın özünü müdafiə üçün arada-bərədə xəlvəti verdiyi izahat saqqız kimi ağızdan-ağıza dolandı. Dolandı, dolandı, gəlib Qıssa xanımın qulağına çatdı. Əvvəl o da inanmadı. Əlində tiyança, ayaq üstdə donub qaldı. Söz qurğuşun kimi ürəyinə düşdü. Çadranı başına salıb, Qumrunu görməyə getdi.

Axşam idi. Doqqazdan əl-ayaq çəkilmişdi. Qumrunu çardağın yanına, tut ağacının dibinə çağırıb, and verdi:

- Sən o bir balanın canı, sən bu çörək, olanını mənə de. Bəbirin başına ləçək bağlamasam, atamın qızı deyiləm...

Qumru ondan heç nəyi gizlətmədi.

Qıssa Qumrunu belə mülayim, xoşrəftar bilməzdi. Əhvalatı tamam öyrəndi, razılıq edib qayıtdı. Yarım saat keçmədi. Kəndin ortasında qırmızı kərpicdən tikilmiş bəzəkli, kirəmitli evin həyətində, eyvanda qışqırıq qopdu.

Qıssa xanım bağban bəylərindən idi. İyirmi beş il idi ki, Bəbir bəyin evində xanımlıq edirdi. Bəyin şəhərdə, özgə kəndlərdə arvad saxlamağına daralıb dava salardısa da, gözü görmədiyindən, bənd olmazdı. İndi isə bəy həyasızlığına salıb, göz görəsi, əməlli-başlı evlənirdi. Qıssa xanımın üstünə dərənin kənizini arvad gətirmək istəyirdi.

Bunları fikirləşdikcə Qıssa xanımın gözündən od yağır, bağrı çatlamaq istəyirdi. İyirmi beş illik xanımlıq günləri bir anda təsəvvüründən gəlib geçdi. Yenə hər şeyi unutdu. İndi onun simasında, intihara qərar vermiş kimi, küt bir durğunluq vardı. Ev, övlad, xoşbəxt ailə həyatını bir çini qab deyib yerə vurmaq, qiyamət qoparmaq üçün başıaçıq, ayaqyalın eyvana çıxdı. Üzünü qaranlıqlara tutdu. Əllərini dizinə qoydu, ağzını açdı, gözünü yumdu, inadkar uşaq kimi gücü çatdıqca çır-çır çığırdı:

- Vaaay!.. Günüm vaaaay!.. Elim vaaaay!... Canım vaaaay!... Vaxssseeey!... Öldüm, vayy!..

Nökərlər özlərini itirdilər. Ömürlərində belə dəhşətli səs eşitməmişdilər. O da Qıssa xanımdan... Yalnız Ağakişinin anası ölən oğlunun üstündə belə qışqırıb, saçını yolmuşdu. Qıssanın səsi həyətin sükutunu pozdu, ümumi bir çaxnaşma saldı. Atlar hürküb kişnədilər. Ördəklər çığırıb divara uçdular. Kənardan gələnlər oldu. Qonşu çardağın altında oturub çörək yeyən biçinçilər süfrə başından qalxıb, divara dırmaşdılar:

- Görəsən xanıma nə bədbəxtlik üz verib!..

Bəyin eyvanında vahiməli hay-küy, tələşlı hərəkət, taraphatarap eşidildi. Amma qaranlıqda müəyyən bir şey görmək, seçmək olmurdu.

Qıssa xanım tir kimi uzanmış, qarnı, başıaçıq yerə sərilmişdi. Haçan özündən getdiyini bilən yox idi. İlan vurduğundan şübhələnirdilər. Əldə çıraq hər yerini yoxladılar. Bir şey tapılmadı. Ağzına şüşə tutdular. Nəfəsi var idi. Başını ovdular, ayağını övkələdilər, su səpdilər, damarını sıxdılar, burnuna tüstü verdilər, yastıq kimi çalxaladılar.

Bəy quruyub qalmışdı:

- Buna nə oldu? Durduğu yerdə...

Qıssa xanım özünə gəlmişdisə də, bəyin acığına gözünü açmır,



özünü daha da ağır göstərir, diriliyini gizlətməyə çalışırdı. Onu qaldırıb, yorğan-döşəyə saldılar. Uşaqlar ağlayırdılar. Nökər də yalandan dəsmalı ağzında saxlamışdı. Bəy ürəkdən sevinirdi. «Ay Allah, başımdan rədd olaydı! Bir toğlu da nəzir eləyirəm». Lakin adamlar ona baxdıqda üzünü turşudur, kədərli görünmək istəyirdi. Dəsmalı gözünə basıb uşaqların fəryadına səs verdi. Hönkür-hönkür ağladı:

- Balalarım... öhhhöö... ööhhö...

## XƏBƏR

Bu il qarışıqlıq olduğundan, dağa getmək çətin idi. Ancaq, yaraqlı, arxalı adamlar getmişdilər. Yaybaşı Bəbir bəy külfəti aparmaq istədi. Qıssanın qılığına girdi:

- Qubuş, istidə əriyirsən, gəl sizi aparım qoyum dağa, gədələrdən də qarovul duran olar... Səlman bəyin, Aslan bəyin evi də oradadır. Mən kəndi təkbaşına qoya bilməyəcəyəm. Sizsə də qalmayın, mənim oduma yanmayın, uşaqlar qırılır. Deyirlər bu yay od töküləcək. Aradan çıxın.

Başqa vaxt Qıssa belə bir təklifi bəlkə qəbul edərdi. lakin indi Bəbir bəyin «sancısı»nı yaxşı bilirdi. Ona bəlli idi ki, bəyin aranda qalmasının səbəbi Qumrudur. Qumrunu ərindən təkləyib, ələ gətirmək, özünə arvad eləmək istəyir. Buna görə də ailəni dağa göndərir, başından eləyir.

- Məni bağışlayasan. Cəhənnəmə, gora olsun kənd də, kəsək də, uşaq da! Dağa gedirsən, evini yığışdır apar, getmirsən, yum ağzını, köp yerində. Mən səni başına qoyub getməyəcəyəm!

Bəy Qıssanı yaxşı başa düşürdü. Bilirdi ki, bir az da bərkə salsa, qulağı ayrı şeylər eşidər...

Şam vaxtı dağ atlılarından bir neçəsi qayıtmışdı. Onlar həmişə olduğu kimi yeni xəbərlərlə gəlmişdilər. Bəyin eyvanında xalça salıb söykəndilər. Kabab yedilər, tut arağı içdilər, yemiş kəsdilər. Yemək üstündə şirin söhbətdən də qalmadılar. Atlıların deməyinə görə, «ermənidə ermənilik qalmamış, darmadağın olmuşdu. Qırılanın sayı-hesabı yoxdu». Qara Aslanı da vurmuşdular. Kişinin meyidi düzdə tərk olandan sonra tapılmışdı

- Kisib nə kisib ... Bəy, başın üçün, evlər gördüm ki, Nəsrəddin şah nəçidi! İpək pal-paltar ayaq alıb gedir. Nə başını ağrıdım, gedənin hamısı yükünü tutdu. Zabitlər qiymətdən ağır, vəzndən yüngül şey götürürdülər. Bizimki elə deyil, ələ nə gəldi çırpışdırırdıq... Arvad-uşağa çılpaqlıq gətirmişəm. Alınan kənddə üç gün talan oldu. Əsgər gördüm dalına ağ samovar alıb, bəri qaçırdı. Qızlar nə qızlar, bulağın suyundan içib, alma kimi qızarıblar...

Məşədi Cahangir danışdıqca Bəbir bəy qəlyanı tüstülədir, kirpriyini qırpırdı. O, qızlar haqqında eşitdiyini xatırında canlandırdı. Qumru bütün vücudu ilə gəlib gözünün qarşısında durdu. Məşədi Cahangir birdən dikəldi. Yadına düşən qəribə bir şeyi danışdı:

- Kəndi alandan sonra atışma yatdı. Camaat evlərə daraşdı, hərdənbir güllə açılırdı. Ancaq hamı çalışır, axtarır, özünü varlı yerə salmaq istəyirdi. Mən girdiyim evdən bir qrammafon götürdüm. Eşiyə çıxanda bir arvad səsi eşitdim:

- Ay qardaş, müsəlmansan məni də apar! - O, saçı-başı açıq, enlisifət bir qadın idi. Hamı bizdən qorxub qaçdığı halda, o, pilləkənlərdən düşüb, mənə tərəf gəldi, dedi: «Mən müsəlmanam, məni əsir gətirmişdilər. İndi üç aydı...» - Baxdım, baxdım, Avazlı Qənbər yadıma düşdü. Eşidibsən ki, onun arvadı dağdan yoxa çıxmışdı? Adını soruşdum, yanılmırdım, Qənbərin arvadı imiş.



Yoldaşıma baxdım, o da mənə baxdı. Qadın ayaqlarıma düşdü, yalvardı. Onu qaldırdım, gətirmək istəyirdim. Yoldaşım qulağıma pıçıldadı:

«Sən nə xəyaldasan? Bu əllərdən çıxmış adamı yanımıza salmaqmı istəyirsən?»

Yadıma düşdü ki, buna kafir əli dəyib. Qan beynimə vurdu. Acığımdan bilmirəm arvadı haçan parçalamışam, doğramışam.

Bu söhbətlər nə qədər qəribə və təzə olsa da, Bəbir bəyi məşğul edə bilmirdi, çünki o çox dalğın idi, gecikmiş və kiflənmiş bir «eşqin» qoxusu ilə keflənmişdi. Qaynayan samovarın musiqisi altında xəyalata, ehtiraslı düşüncələrə dalmışdı.

- Məşədi Cahangir qırğın və talandan danışıb dizinə çırpanda Bəbir bəy diksinir, atılır-düşür, düşmənlərinə meydan oxuyurdu. Bununla guya Məşədi Cahangiri «huş-guşla» dinlədiyini bildirmək istəyirdi.

Məşədi Cahangir bəyin Qumruya olan münasibətini yaxşı bilirdi, lakin üzə vurmurdu. Ona görə də bəy üçün ən qiymətli bir xəbəri danışmaq istəyirdi. Yeni həvəslə dil açdı, diz çöküb danışdı:

- Rəncbərin də ki, başına sadağa oldu. Ermənilər öldürdülər.

- Həə... Belədir. Dünyanın işi...

Məşədi Cahangir anladı ki, bu xəbər bəyə çatmadı. Onu ayıltmaq üçün bu kifayət deyilmiş. Sual verdi:

- Nə belədir? Dünyanın hansı işini deyirsən?

- Hər işi dana, ay sağ olmuş!..

- Heç bildin ki, nə dedim?

- Nə dedin? Müsəlmanın işini demirsənmi?

- Bir qulağın məndə olsun, a Bəbir, gör sənə nə deyirəm: Qədiri də öldürüblər!

Bəbir bəy qaşlarını çatdı. Ona tərəf əyildi. Qəlyan əlindən düşdü:

- Necə?

- Qədiri ey!.. Qədir tərəfindən başın sağ olsun... Allah sənə səbr versin! Necə olsa nökərin idi!

Bəyin qara və çuxur çöhrəsini gülüş işıqlandırdı. Bir az da Məşədi Cahangirə tərəf əyildi...

- Qədiri ha? Belə bizim bu Qumrunun əri...

- Özüdür. Həmin Qumrunun əri!..

Məşədi Cahangir son sözlərini mənalı əda ilə bitirdi. «Qu...mru...nun... əəəəri!»

- Qədiri?

- Qədiri!

- Öldürüblər?

- Canını da alıblar!

- Gavur?

- Lap gavur, kirvələr!

- Dağda?

- Yox, yolda. Carçı dərəsində üç erməni tutduq. Qədirin başbileti onların cibindən çıxdı. Görünür, dağa gedəndə soyub öldürüblərmiş... Qorxma, onun qanını qardaşın yerdə qoymazdı. Sənin cövrünü hər yerdə lələşin çəkib, çəkəcək!

Məşədi Cahangir danışa-danışa qatarının altındakı ciblərini qurdaladı. Çəkməsinin boğazından qana bulaşmış bir kağız çıxarıb ortalığa tulladı. Bilet müqəddəs bir şikayət kimi göründü. Yazıları sürtülüb oxunmaz olmuşdu. Bəy bileti əlinə alanda qorxu hiss etdi. Qanlı vərəqlər quruyub kardona dönmüşdü. Qədirin bulanıq surətində ölümün iti dırnaqları iz buraxmışdı. Ani bir xəyalatdan sonra Bəbir bəyin gözləri parıldadı. O özündə qəribə bir sevinc hiss etdi. Qalxıb Məşədi Cahangirə bir boşqab yaylıq üzüm gətirdi:

- Bağban qızına sovqat gəlib. Səndən əziz hansı qonağım yeyəcək? Döşə! Döşə getsin, sənin kimi igidə halaldır!

Qapı döyüldü. Qənbər tövşüyə-tövşüyə içəri girdi. Məşədi Ca-



hangirə əl verdi. Xoş-beş eləməmiş onun alnından öpdü:

- Daha rahat yataram. Şortu qızının kələyini kəsdinmi? Əlinə dönüm. Mənim namusumu qorumusan, qeyrətinə əhsən! Elə bil dünyanı mənə bağışladın.

- O, Məşədi Cahangirdən cavab gözləmədən Bəbir bəyə çevrildi - Gördün ki, a bəy, gördün ki, sənə deyirəm qoymaram, qoymaram mənim arvadım...

- Cümləni bitirmədən çal papağını yerə çırpıb, ürəkdən nə isə demək istəyirdi. Papağın küləyinə çıraq söndü. O, cümləsini qaranlıqda bitirdi:

- Bu namus mənə haram olsun, əgər Məşədi Cahangir olmasa da, özüm tapıb, tikə-tikə doğramasaydım. Mənə Avazlı deyərlər. Ürəyimdə Əli qanı var.

Bəy təsdiq etdi:

Sən o pəhlivansan ki, girdin bağa.
Şəhid eylədin əlli min qurbağa.

Məşədi Cahangir güldü:

- Yox, aşna, bu, masxara oldu! Şüşəkiyə qoydun məni lap!

Qonaqlar gedəndən sonra Bəbir bəy özündə yeni bir qüvvə, lap cavanlıq həvəsi duydu. Qalxıb aftafa-ləyən istədi. Yuyundu. Çuxasını geyindi. Gümüş toqqasını bağladı. Boğazlı çəkməsini ayağına çəkdi. Saat zəncirini döşünə taxıb, evdən çıxdı.

Qədirin vay xəbəri çoxdan alçaq daxmanı titrətmişdi. Qumru bunu eşidəndə ürəyi döşündən çıxıb daşa dəydi. Elə bil ki, onu dərin dənizlərin dibinə atdılar, uca dağları üzərinə yıxdılar. O, sevgilisinin adını çəkir (indiyə qədər o, ərinin adını çəkməmişdi), vəfalı yoldaşının dalınca leysan kimi yağırdı. Uşaq da döyüküb qalmışdı. Anası heç belə eləməzdi. Heç onun bu qədər çırpındığı yox idi.

Qumrunun kədəri fəlakətindən ağır idi. O, ölüm arzulayır, lakin tapa bilmirdi. Dağlar daş olub qəlbindən asılmış kimi, ağır nəfəs alırdı.

«Sağlıqla qal. Uşaqdan muğayat ol!..»

Uzaq deyil. Dörd ay əvvəl şirin ailə həyatından ilk dəfə ayrılan cavan atanın son tapşırığı bu olmuşdu: «Faxirədən muğayat ol!.. Başına dönüm, Faxirədən muğayat ol, ağlamasın».

Bunları xatırladıqca Qumru ağlayırdı. Nisgil, kədər, məhəbbət, yoxsulluq!

Qumrunun həyatını təşkil edən məzmun bunlardı. Aclıq da, ehtiyac da unudulmuşdu. Uşaq anasının boş və solğun döşlərini sorub ağlayır, ağlayıb sorurdu.

Bu matəm xəbəri kənddə heç nəyi dəyişmədi. Heç kəsə təsir etmədi. Yalnız «millət», «vətən» şüarı çəkərək, sağa-sola çapıb gedən atlılar Qumrunun naləsini eşidib, dodaq büzür, lağa qoyurdular.

Qumrunun dağdan ağır xəbərini duyan Məşədi İslam isə heç bir şey edə bilmirdi. Onun qardaş qədər əziz olan sevgili yoldaşı, sirdaşı əlindən getmişdi. O, Qumrudan az matəm tutmurdu. Arvadı Tellini götürüb, Qumrunu ovutmağa gəlmişdi.

Bu axşam Telli yemək bişirib gətirmişdi. Uşağı özü saxlayıb, Qumrunu rahat buraxmaq istəyirdi. Bəbir bəy Sarıqlı molla ilə başsağlığına gəlmişdi. Oturan kimi molla fatehə çəkdi. Hamı dodaqlarını tərpətdi. Bir xeyli sakitlik oldu. Heç kəs dinmir, başqasını eşitmək istəyirdi. Bəy «göydəndüşmə» xoşbəxtliyini gizlətmək üçün qaşqabağını sallayır, özünü qüssəli göstərmək istəyirdi. Hələ mümkün olsa kirpiklərini sıxıb, bir-iki damcı yaş da axıtmağı arzulayırdı. Bu, Qumrunun xoşuna gələrdi.

Boynunu çiyninə qoydu, dəsmalını çıxarıb, ağzında saxladı. Yerə baxa-baxa, ağlayanlar kimi öskürdü, burnunu çəkdi. Sarıqlı



mollaya elə gəldi ki, bu ailənin matəmi bəyə də təsir etmişdir. Ona görə sözünü saxladı, çubuğu sorub, tüstüsünü birdən püskürdü. Bir az da gözlədi, dizi üstə çöküb dilləndi:

- Qızım, qüssə eləmə. Allah özü buyurub: külli nəfsin zaiqətil-movt. Qədir kafirlər əlində, din yolunda ölüb, deməli, şəhid olub. Ruhu cənnətdə ağalarımız ilə bahəmdir. Huri-pərilərnən həmsöhbət olub. Sən də ürəyini toxtat. Səbr elə. Balasının başı sağ olsun!

Bəy onu tamamladı:

- Nə olub qüssə eləyirsiniz... Qədir ölüb, biz ki varıq. Onun əyalının namusu bizim namusumuzdur. Millət yolunda ölənə can qurban elərik. Qoymarıq bir qırıq da korluq çəkəsən. Qumru xanım, heç vecinə də alma. Nə olub bəyəm, nə qədər canımızda can var, sizin qulluğunuzda...

Molla bəyin sözünə qüvvət verdi:

- Əlbəttə, əlbəttə! İslam deyilikmi!..

Bəy ifadəsini dəyişdi:

- Kişi çox qeyrətli kişi idi. Onun adı dillərdə qalacaq, çünki millət yolunda...

Telli bəyin sözünü ağzında qoydu:

- Ehh! Bəbir yüzbaşı, yetimə can-can deyən çox olar, çörək verən az!.. Təki nə Qədir öləydi, nə də millət onun adını çəkə idi. Bizə ad lazım deyil, dolanmaq, salamətlik lazımdır.

Bu, bəyin acığına gəldi. Necə yəni yetimə can-can deyən? Burada danışan yüzbaşıdır axı... Ayrı vaxt olsa Bəbir bəy Tellinin ağzını yaxşıca yumardı. İndi yas yeri olduğu üçün, o yumşaq cavab verdi:

- A Telli, a Telli! Axı işin içində bizik. Bu işləri biz bilirik. Axı biz bilirik ki, Qədir hərçəndi rəncbər idi, kişi qanan rəncbər idi. Millət yolunda canından keçən rəncbər idi! Oxumuşların bilmədiyini bilirdi. O da bizə məlumdur ki, mərhumun adı bu saat qoburnatın hüzurunda nöqtəbənöqtə yazılıbdır. Mən hər yerdə demişəm, yenə

deyirəm. Qoy sənin ərin Məşədi İslam da eşitsin. Rəncbərlərimiz Qədir kimi qeyrətli olsalar, işimiz çox irəli gedər. Çox da yeyin gedər. Düşmən də üstümüzə ayaq almaz. «Olsalar!» deyirəm, olsalar! Amma nə fayda ki, kəndlinin, rəncbərin çoxusu qarın davası döyür. Sümük dartışdırır.

Məşədi İslam anladı ki, bəy nəyə işarə edir. Şəhərlərdə, kəndlərdə gedən dövlətli-kasıb davasından eşitmişdi. «Balşavet» deyilən bir cür təzə adamlar aralığa çıxıb ki, gərək kasıb, dövlətli bərabər olsun. Bu sözdən bəylərin acığı gəlir. Belə danışanı döyüb dama salırlar. Məşədi İslam bildi ki, bəy «sümük dartışdıranlar» deyə kimə işarə verir. İstədi canını dişinə tutub desin: «Aşna, əyri oturaq, düz danışaq, balşavetin dediyi əsl düz sözdür, haqq sözdür!» Buna özündə cəsarət hiss etmədi. Yas yerində yaxşı deyil, söz çəp gələr, artıq-əskik danışılar. Qumrunun qəlbi inciyər deyə kiridi. Bir də, Məşədi İslam «balşavet» sözünü yaxşı bilmirdi. Bu söz onu çox məşğul etmişdi: «Dövlətli, kasıb bərabər olsun! Olsun...»

Bu söz qızıl kimi sözdür. Bunu deyənlər lap ədalətli, hesabı deyirlər. Lap düz danışırlar. Amma adlarını «balşavet» qoymaq nə üçün? Nəyə görə balşavet olsun. Axı, düz sözə balşavet niyə deyilsin?

Məşədi İslam bir də ona görə məsələni ayırd edə bilmirdi ki, nədən belə ağıllı adamlar özlərinə bir yaxşı ad tapa bilməyiblər. O, fikirləşirdi: «Məndən soruşsaydılar, gül kimi ad qoyardım. Nə balşavet qoyardım, nə azadlıq, nə millət, nə də ki, hürriyyət. Qoyardım «ədalət». Onu da bəyənməsələr, qoyardım «düz iş» ya da ki, «haqq yol».

Bütün deyilənləri eşidən, lakin eşitmək istəməyən Qumru üzünü divara çevirib, gizli-gizli ağlayırdı. Bu gün ölünün üçü tamam olurdu. Telli Qumrunun yaxasını bağlamaq istədi. O mane oldu. Məşədi İslam işarə ilə «bənd olma» - dedi.



Bəbir bəy gedəndən sonra Məşədi İslam Qumruya artıq təsəlli verib, öz evinə köçməyi təklif etdi. Qumru razı olmadı. Evin işığını söndürməmək üçün alçaq və qaranlıq daxmada yaşamağı məsləhət gördü:

- Yox, İslam qardaş, mən sizi ata evi kimi biliröm. Amma ki, yaxşı deyil. Nə olub, gözüm-başım sağdır ki, kənizlik edib, uşağımı saxlaram. Sizdən çox razıyam.

Bəbir bəy Qədirin «ölüm»ündən sonra arzusuna çatmağına darı boyda da şübhə etmirdi və yəqini idi ki, nəziri qəbula çatmışdır. Mərhumun qırxının çıxmağını gözləyirdisə də, hazırlığını kəsmirdi. Qıssadan xəlvət tədarük görürdü. Hərdənbir Bekara bir dəsmal fətir verib, Qumruya göndərirdi. Əvvəl dəfə fətiri gətirəndə Qumru Bəbir bəyi də söydü, Bekarı da. Bekar istədi ona bir qamçı vurub, desin ki: «Ağzını təmiz saxla!» Birdən diksinmiş kimi «hiii» elədi. Xatırladı: «Daha bu, rəncbər arvadı deyil. Bəbir bəy onu özünə saxlayır. Eşidər, dərimə saman təpər». Çörəyi qaytarıb gətirdi. Bəyə xəbər verdi:

- Almadı, bəy, mənə də söydü ki, bir də buralara dolanma!

Bəbir bəy pərt oldu. Təpiklə Bekarın qarnından vurub, dişini qıcadı:

- Sənə demədimmi çörəyi ver, gəl? Donuz oğlu, niyə naqqallıq eləyirsin ki, söyüləsən də! Gedib xalqın zəhləsini tökürsən yəqin!

Bəy bu təpiyi Qumrunun acığına yox, həm də Bekarın öz günahına görə vururdu. Bəyə elə gəlirdi ki, Bekar Qumruya da başqa arvadlar kimi artıq-əskik söz deyir. Ona görə qısqanclıq edib, onu təpikləyir və bərk tapşırırdı:

- Donuz oğluna min dəfə demişəm ki, danışma! Apardın çörəyi, çörəyi qoy, bəri qayıt!

Ondan sonra Bəbir bəy çörək, yemiş və başqa sovqat göndərəndə Bekar öz evinə gətirib, dinməz-söyləməz aşırırdı. Bəy soruşanda bir az da təəccüblə deyirdi:

- Yüzbaşının canı üçün, Qumruya nə göndərirsən gözünə təpir... Daha əvvəlki deyil, nə sovqatın olsa, ver aparım!

Bəy bu xəbərdən çox sevindi. Arxayın oldu ki, Qumrunun «başı əlhəd daşına dəyib, ağlı başına gəlib... Anası ölməsin aclığın. Aslanı yola gətirir. Çörək elə şeydir, tülkünü aslan edir, aslanı tülkü. Dünya dediyin çörəkçixanadır. Bu vurhavurda kimi bişirir, kimi aşırır. Hamı istəyir təndir başında otursun».

Bekarın arvadı son zamanlarda yaman barınırdı. Xalq yavan çörək tapmayanda ona səbət-səbət üzüm gəlir, yağ-şor gəlir, dolu dəsmallar gəlir. Bekar arvad ilə qabaq-qabağa oturub yeyir, içini arıdıb deyirdi:

- Ye getsin, ay çörəkçi qızı. Qismət olsa, bəyin toyunda da oynarsan, əvəzi çıxar. Bizim qarnımız doysun, altda qalanın canı çıxsın!

Bəy Bekarı şəhərə, pristavın yanına göndərəndə o, səkkiz yaşlı oğlunu gətirib, bəydən xahiş edirdi ki:

- Ay yüzbaşı, Qumruya çatası nəyin olsa, bizim bu gədəyə ver, aparsın. Arxayın ol. Qaydasını öyrənib, məndən yaxşı bilir.

Hacı Hüseyn həyəti gözdən keçirir, ürəyində qiymət qoyurdu. İkinci dəfə Qumrunun yanına gəlib, evdən çıxmağını tələb edirdi. Qumru yalvarır, payıza qədər möhlət istəyirdi. Hacı bir əlilə çallaşmış saqqalını qaşıyır, o biri əlindəki təsbehini oynadır, deyirdi:

- Bala, a qızım, gör sənə, dul arvad olmağına necə hörmət qoydum ki, on gün dindirmədim. Gərək on gün bundan qabaq həyəti təhvil verəydiniz. Şəriət ilə desən şəriət ilə, zaqun ilə desən yenə ixtiyarım var ki, sizi tökəm eşiyə. Onu mən istəmirəm. Ürəyim qəbul eləməz. Ancaq ki, həyəti çərçilərə satmışam. Gərək çıxasan. Allah rəhmət eləsin, Qədir dursaydı, mən haqqımı çoxdan almışdım. Di gəl ki, indi Qədir yoxdur. Dul arvada nə deyəsən? Namusu bizə düşər. Necə olsa müsürmanıq. On günün də kirəsini keçirəm.



Bəyin əhvalatı haradansa Hacının qulağına çatdı. «Arif adam» olduğu üçün məsələni anladı. Bir də Qumrunun həyətinə yaxın düşməyə cürət etmədi. Fikirləşdi ki: «Nə təfavütü, toy olanda Qumru köçəcək, davasız-şavasız həyət özümə qalacaq».

Toya şiddətli hazırlıq gedirdi. Bəy Qıssa xanımı ələ gətirmək, dilə tutmaq üçün bacardığını edirdi:

- Ağız, axmaq olma, onu qulluqçu alıram. Onu sənə köməkçi alıram, gic fikri niyə eləyirsən? Dəli deyiləm ki, rəncbər arvadını sənə tay-tuş gətirəm. Özümün də adım-sanım var, qanımı nökər qanına qataramını?!

Qıssa sirkədən tünd olmuşdu. O hər dəfə kişini daha bərk zəhərləmək istəyirdi:

- Hər nə qələt dartırsan get dart, mənə də bağban qızı deyərlər, aləmi dağıdacağam!

Bəy bu etirazlara heç bir əhəmiyyət vermirdi. Qədir öləndən sonra bəy məsələni lap həll olunmuş hesab edirdi. O, «el-oba adəti üzrə iş görəndən sonra» Qıssa nə edər, nə qələt eləyə bilərdi? Bərkə vursa, uşağını töküb atası evinə gedəcəkdi.

Bəy Qumrunu ələ gətirmək üçün bərk çalışırdı. Onun yanına cürbəcür adamlar göndərirdi. Adamlar gəlib eyni fikri hər kəs öz səsi, ifadəsi, ədası ilə danışırdı:

- Cuvanəzənsən, gül kimi camalın var. Dul qalmayacaqsan ki, nə zəmanədir? Kişilər nədən hərəsi dörd-beşini alır? Şəriət yoluynan, Allah əmriynən olan işdi. Allah mübarək eləsin. Başını sal aşağı, get. Başacan olsun...

Küləkli və tozlu bir payız axşamında Qumru ağlayır, Sarıqlı mollanın qələmi cırıldayıb, çırpı kimi dolaşıq, uzun hərflərlə nikah yazırdı. Bəy tapşırmışdı ki: «Qızın xatirinə dəyməyin. Mehrinə nə qədər desə mal-dövlət salın. Varım-yoxum ona qurbandır!»

Qumru qaçmaq, onu kəməndləmək istəyənlərin əlindən



qurtarmaq istəyirdi. «Getmərəm, getmərəm, mən ər istəmirəm, uşağımı böyüdəcəyəm özüm!..»

Bu sözlər canavar əlində parçalanan quzu səsi kimi ümidsiz və köməksiz idi. O ağladıqca qadınlar qolundan tutub «toxtadırdılar». Çəpəl Sayalı əyilib Tellinin qulağına pıçıldayırdı:

- Qız gərək ağlasın axı! Qaragün kişi cavan ölmədimi? Amma ürəkdən başmaqları da razıdır. Niyə də razı olmasın? Bəxtəvər qurulu evə gedir, açıq qapıya, xanımlığa gedir. Görmədiyi günlər görəcək!

Telli yavaş, lakin qəti ifadə ilə Çəpəlin sözlərinin əksini deyirdi:

- Məndən soruş onu. Mən bilirəm yazıq qız nə çəkir. Bəyi görməyə gözü yoxdur. Ərini güdaza verən də, deyir, o donuz oğludur: «Biz nə bilirik qulluq nədir? Dağ hara, Qədir hara? Dili lal olmuş, qıçı sınmış qoymadı kasıblığımızı eləyək. Bədbəxti qurşadı, dabanlarını çəkdi, qızıl güllə qabağına göndərdi... Bəyi görüm qızıl gülləyə gəlsin!»

Telli Qumrunun sözlərini, Qumrunun öz qarğışlı, yanıqlı dililə deyirdi.

Sarıqlı molla mehr kağızını qurtarmamış gözünü hərləyib, içəri qapıya zillədi. Şirin çay gözləyirdi. Ancaq gətirən yox idi. Adəti üzrə öskürdü:

- Öhhəə!..

Kağızın altında qarışıq qol çəkdi. Onun qolu düyün düşmüş örkənə bənzəyirdi. Xərçənk kimi yumru və qollu-qanadlı bir heyvana da oxşatmaq olardı. Qız vəkili Tellinin və oğlan vəkili Çəpəlin əvəzində də mehr kağızına qol çəkdi. Axund qələmi yerə qoyub, əlini ovuşdurdu, öskürəkdən bir şey çıxmadığını duydu, at kimi kişnədi...

- İmha-ihahah-iha...

Onun səsini hamı eşitdi, lakin duymadılar, çünki burada



qadınlara bəlli olmayan bir şey vardı. Ancaq çırpı arabasının üstündə, küçədən ötən Məşədi İslam anladı ki, axund nə istəyir. Dişini qıcadı, dodaqaltı mızıldandı:

- Hın... ay kafir! Arpası əskik düşüb, kişnəyir! Onun yemini verən yoxdurmu?..

Bəyin səbri tükənmişdi. Əziz günlərdə, bayramqabağı işi qurtarmaq fikrində idi. Tək səbirdən bir az şübhələndiyi üçün Çəpələ tas qurdurmuşdu. Fal göstərirdi ki, «dan ulduzunun karvanqıran ilə ötüşüb qovuşmağı gözlənir. Lap xoş saatdır».

Axır çərşənbə axşamı bəy fəqir-füqəraya altı manat pul, beş çömçə arpa payladı. Bekara tapşırdı ki, tonqalı evin dalında, təndir başında yandırsın. Axşam qaranlığında alov, tüstü-təzək, saman iyi, tikan cırıltısı dünyanı tutmuşdu. Kimi fişəng atır, kimi qışqırır, kimi dama, divar üstünə çıxırdı. Uşaqlar, arvadlar hoppanıb, hay-küy salırdılar. Bekar yabanın ucunda bir çənkə alovlu tikan götürüb, bayraq kimi göyə qaldırmışdı. Tikan yandıqca od parçaları qızıl kimi yerə səpələnirdi. Bəy qışqırır, nökərinə acıqlanırdı:

- Oyun çıxartma, yanğın salarsan, ay axmaq! Uşaqlığın yadına düşüb, nədi?

Bekar yabanı kənara atıb, özü də tonqaldan qaranlığa qaçdı. Bəy eyvanda dəstəmaz alıb, damın dalına gəldi. Çərşənbə odundan hoppanıb, bəxtini açmaq istəyirdi. Ətəklərini əlinə yığmış, təzə həvəsli uşaq kimi, dilini çıxartmışdı. Çubuğu ilə tonqalın başını alçaldır, sağa-sola atılıb deyirdi:

Atıl-utul çərşənbə,
Bəxtim açıl, çərşənbə,
Çilləm tökül, çərşənbə,
Bəxtim açıl, çərşənbə!
Ağrım-uğrum tökülsün,
Qara bəxtim açılsın.

Çərşənbəsən, çilləsən,
Hər aydan bir pilləsən.
Düşmənimin ağzını,
Bağla sən, qıfılla sən!

Bəbir bəy çərşənbə mərasimini yaxşı keçirdiyi üçün bəxtinin açıldığına etimadı artırdı. Qədirin ölümünü, kəbinin kəsildiyini yadına salıb, öz-özünə deyirdi:

«Bəs bu açılmaq deyil, nədi? Bəxt sənə dəftərxana qapısı deyil ki, açılıb-örtüləndə cırıldasın. Bəxt belə səs-səmirsiz açılır da. Açılmağın daha buynuzu olmaz ki? Ürəyimdən keçənlər bir-bir göyərir. Buna nə söz? Yox, naşükürlük bir şey deyil. Mən yaradandan razıyam...»

Bəy özündən razı halda təzə paltarını geyinib, qapılardan birində çərşənbə söhbətini dinləməyə getdi...

Toya üç gün qalmışdı. Bəyin tay-tuşu, dostları uzaq kəndlərdən axışıb gəlirdilər. Şəhərdən xanəndə çağırılmışdı. Aşıq Ələsgərin dalınca Göyçəyə təcili adam getmişdi. Qadınlar arasında danışılırdı ki, yüzbaşının toyuna pristav özü gələcək, rəis gələcək, çaxır da alacaqlar...

Qıssa xanım qiyamət qoparıb, evə elə şey qoymayacağına and içirdi. Bəy onu bir az əzmişdisə də, başa gəlmirdi. İnadından əl çəkmirdi. Qıssa iki gün idi ki, uşaqlarını yığıb, dayısı nəvəsi sayılan Qan Sarının evinə getmişdi. Qan Sarı bibisi qızını nə qədər əzizləsə də, bu vəziyyətə dözə bilmirdi. Bəyin gözündən düşməmək üçün Qıssaya yalvarırdı:

- Qurbanın olum, bibi qızı, mən sabah ona cavab verə bilmərəm. Çıx get, ayrı adamın evində qal. Ayrı yerdə mənzil tapım sənə. Xatanı buradan sov. Yoxsa Bəbiri mən tanıyıram!

Bu dar vaxtda Qıssa xanım hara gedə bilərdi? O yəqin edirdi ki,



kənddən çıxıb getmək bəyə heç bir şey etməyəcək, əksinə, bəyin əli-qolu açılacaq, arxayın iş görəcək. Qumrunu toy-dəsgahla evə gətirəcək. Hələ onun cehiz yorğan-döşəyini də, qumaş paltarını da açıb tökəcəkdir. Bəlkə də günüsünə verib geyindirəcəkdir... Bu səhnəni yadına saldıqca Qıssa xanım içəridən alovlanır, özünü yerdən-yerə çırpır, nə yeyir, nə içir, ərinə qarğıyırdı:

- Bunu mənə tuş salan, evin yıxılsın! Uşaqların mələr qalsın! Bunu görüm üzü gülməsin, bayramı qara gəlsin! İştahı içində qalsın!

Qıssa xanım Qumrunun bəyə olan nifrətindən xəbərdar idi. İşin nəticəsini gözləmək, tədbir tökmək, heç olmazsa toy gecəsi bir fəlakət törətmək fikrində idi. Qan Sarı qorxusundan dayana bilmədi, işdən xəbəri olduğunu bildirməmək üçün «ağıl» tikmək bəhanəsilə atını minib, Kürün qırağına getdi.

Qan Sarının arvadı dözə bilmədi:

- İndi ki belə oldu, biz özümüzə xaraba tapaq. Eləmi?

Qıssa xanım mülayim cavab verdi:

- Mənimki beşgünlükdür, Allah qonağıyam. Görüm başıma nə gələr. Bacı, sizə əziyyətim dəyməz.

- Beşgünlük, nə beşgünlük? Ərin gündə qızıb birinə daşlanacaq, sən də qapılara düşəcəksən? Bu nə işdir, a qurbanın olum? Bizlər belə şey görməmişik. Töycünü yükləyəndə heç salam verməyirsiniz. İndi nə oldu qohumluq yada düşdü, araya gəldi?

Qıssa xanım bu tənələrə dözməkdənsə evinə qayıdıb, ərinin gözünə iynə kimi girməyi qət etdi. Bir səhər bəy fısıldaya-fısıldaya yerindən duranda, Qıssanı küncdə yatmış gördü. Heç nə demədi. Ürəyindən bir el məsəli keçdi:

«Adın nədir, Daşdəmir,
Yumşalarsan, yumşalar!... »

Bəydən xələt uman ağbirçək qadınlar dəqiqəbaşı, qarğa kimi, Qumrunun evinə qonur, çöməlib otururdular. Onu təbrik edirdilər. Çəpəl Sayalı şal çarşabı diriltmək üçün əldən-ayaqdan gedirdi. Qarmon kimi bükülüb-açılırdı. Arvadları o yan-bu yana eləyib, iş sahibi kimi içəri dürtülür, yuxarı başa keçir, hamıya məsləhət verir, hamıdan hündür danışırdı.

Çəpəl səhər açılmamış Qumrunun yanına gəldi. Bir kisə Xorasan xınası, ətirli sabun, ətir, kirşan, fitə-qətfə gətirmişdi. Qumrunu hamama aparmaq, çimizdirmək istəyirdi. Bəyin sözlərini ədа ilə Qumruya çatdırırdı:

- Qumruya deyərsən ki, canımın gözü, sənə qurban! O balaca dəhlizdə çimsin. Mən onu çimәndə bəyənmişəm.

Axşam Qumrunu daha ağır bir kədər almışdı. Hava sıxlaşaraq, sanki onu əzmək istəyirdi. O, nə evdə otura bilir, nə həyətdə qərara gəlirdi. Qaş qaralmışdı. Faxirə tut ağacının dibində qığıldayıb oynayırdı. Qumru sağda fətir bişirmək üçün ocaq qalamışdı. Yenə ürəyi döyündü. Oturduğu yerdə fikrə getdi. Qədirdən ayrıldığı günlər, yaz səhəri yadına düşdü. Qədirin şən və mehriban simasını öz gözü qarşısında gördü, xəyalən yaratdığı sevgilisini doyunca görmək üçün gözünü bir nöqtəyə dikib qaldı. Baxdı, baxdı. «Nə üçün insan qara günləri öz əlilə yoğurur? Bu nədir? Nə üçün mən Qədiri gözləyən fəlakəti görmədim? Nə üçün kor oldum? Nə üçün öz əlimlə onu qızıl güllə qabağına göndərdim? Qulağıma belə bir pıçıltı gəlsə idi: «Buraxma, Qədir ölümə gedir, buraxma!», Faxirəni ayaqlarına atar, qollarımı boynuna salıb yalvarardım».

Qumru düşündükcə qəlbi qaralır, arzuladığı mənzərələr görünməsin deyə nəzərlərinə pərdə salınırdı. Gecə yalquzaq kimi qorxulu idi. Hamı yatmışdısa da, onun qulağına səs gəlirdi. Yuxu və istirahətini, həyat və ümidini itirmiş ana balası ilə baş-başa verib, gecənin fəryadını dinləyirdi. Kimin əmri iləsə, ay buludları yırtıb,



yeri süd işığı ilə boyadı. Uşaq yuxarı baxdı. Anaya elə gəldi ki, ömür çırağı, sönən qığılcımlar kimi, son dəfə parıldadı. O, ay şüasının altında Faxirəni bağrına basıb yatdı...

Qumrunun dərdi bərkiyib daşa döndü. Bəbir bəyin təpəsinə dəyəndə iplər qırıldı. Qumru uçub göylərə getdi. Günəş vilayətində qumlu bir təpənin üstündə oturub, Qədiri gözlədi. Qədir şüalarla axıb gəldi. Qumrunu bağrına basdı. O, qəhərlənib qara günlərindən şikayətlənmək istədi. Qədir həyat dolu gülüşü ilə sevgilisinin üzünü işıqlandırdı. Faxirəni əlquşu kimi başına qoydu. Qumrunu qucağına alıb uçdu. Qanadlı at onları sərin, sakit göylərdən keçirib apardı. Çiçəkli, ətirli bir bağa qoydu. Qədir bir dəstə qızılgül gətirdi. Gül təzə, şehli və qırmızı idi. Qumru iylədi. Gülün yarpaqları ələndi, ipək don olub, Qədirin qolundan sallandı. Qədir Qumrunu və balasını qızıl dona bürüdü...

## ÖVDƏT

Qədir çayxanadan çıxandan sonra nə etməli olduğunu təyindən aciz idi. Yoluna düzəldi. Gedirdi, lakin haraya getdiyini bilmirdi. Bu böyük şəhərdə artıq lüzumsuz adam olduğunu anlamışdı. O özünü şəhərə və adamlara yad görürdü. Adamlar da sanki bunu hiss edirdilər. Başıaşağı, acıqlı ötüb gedirdilər. Kimisə də dönüb Qədirə baxırdı. Bu baxışlardan Qədir xoş bir niyyət gözləmir, dərin bir kin, yaxud acı istehza duyurdu. Tozlu yollardan yorulmuş at və qatır üstündən, köhnə qonkanın qırıq pəncərələrindən, qapısı sökük darvazalardan qərib rəncbərə atılan bu nəzərlər onu daha artıq təşvişə salmışdı. Ona elə gəlirdi ki, baxanlar onu ya vurmaq, yolun kənarında yıxıb palçığa bulamaq, kərpic arabalarının içinə tullamaq

istəyir, yaxud istehza ilə gülüb, «buna bir bax, sən şəhərdə nə gəzirsən?» deyirdilər. Qədirin başında min cür xəyal dolandı. «İşim rast gətirmir, - dedi. - Çünki Qumrunu tək qoyub gəlmişəm. Uzunsaçın ahı yerdə qalmaz. O gözləyir, intizar içində boğulur. Belə olduqca mən nəyə yapışsam, od olacaqdır. Mən işıq görə bilməyəcəyəm. Mən evə, ailəmin yanına qayıtmalıyam!..»

Bu xəyalat içində Qədir, özü hiss etmədən, gedə-gedə şəhərin ayağına - «Cəbir ağzı» deyilən yerə gəlmişdi. Bura iki vərəqin ayrıldığı yer idi. Yuxarı baxdıqca bir-birini sıxan kərpic binaları, alçaq damları, tüstülü bacaları, uçuq bazarları, yalnız minarələri, qarğalar yuva salmış qoca çinarları ilə donub qalmış şəhər görünürdü. Vaxtilə, göylərdə zəlzələ olmuş kimi, avadanlıqlar üst-üstə tökülmüş, yağış, qar döymüş xaraba divarları yerə yapışdırmışdı. Tozlu, tutqun və kəsif havadan qarışıq səslər gəlirdi. Ancaq şəhərin üfüqlərini ölçən güllə səsləri aydın eşidilirdi. Bu səslər kimin isə, ölmüş bir adamın minacətini çəkirdi. Alçaq damlar altında fəlakətə qapanan hansı ailənin isə başsızlıq xəbərini dağların döşünə yazırdı. Şəhər ağlayırdı.

Aşağıda «Cəbir ağzı»ndan başlanan açıqlıq, işıqlıq, düzlükdə isə azad təbiət dincəlirdi. Dərə sularından içib böyüyən cavan qovaqlar yoncalıqda bitən sünbülə bənzəyirdi. Dönə-dönə biçilmiş kəvər ləkləri yenə də gömgöy göyərir, ipək qarğıdalı saçaqları kəhraba rənginə çalır, enli və qalın yarpaqlar altında gizlənən sarı yemişlər kimi isə gözləyirdi. Kələmlər gümüşü rəngə çalır, Dirişdovluğun bağından kompot iyi gəlirdi, bağın ağ, uzun divarlarına sığmayan meyvəsilə ağırlaşan armud ağacları hasar qəbul etmək istəmir, dolu budaqlarını səxavətlə kənara sallayır, sanki yoldan ötənlərə təklif edirdi:

- Buyurun, armud yeyin!

Bəzən budaqları dinləyən olmurdu. Kin və qüssə ilə gedən,



ümidsizliklə qayıdan adamların başı göyə qalxmırdı ki, sarı armudun təklifini eşitsin, qəbul etsin! Ağaclar yetişmiş sarı, dolu, sulu, şirin armudu ehmallıca yerə buraxırdı. Bəzi yolçular isə bu ləzzətli meyvələri dişinə çəkəndə nə ağaclara, nə budaqlara baxır, nə də «sağ ol» deyirdilər. Eləsi olurdu ki, hoppanıb budağı üzür, yazıq ağacın qol-qanadını qırırdı.

Qədir bu açıqlığa, üfüqlərindən uca durduğu bu münbit düzə çıxanda özündə bir yüngüllük duydu. Addımlamaq, ağacları ülüqdə çətin seçilən kəndə tez qovuşmaq istəyirdi. Bunu edə bilmirdi. Yarım illik səfərdən sonra cibi boş, ayaqyalın, əl-qolunu ata-ata evə dönməyə utanırdı. Ev isə budur, gözünün qabağındadır. Faxirə böyümüşdür. Onu çağırır:

- Dədə! Gəl, ay dədə!

Qumru uşağını dilə tutur:

- Dədə sənə qaqa gətirəcək!..

Faxirə atasını görürmüş kimi əllərini şəhər tərəfə uzadır, balaca barmaqlarını tez-tez yumub-açır:

- Dədə, gəl, gəl!..

Şəhərdən qayıdanlar kisib aparırlar. Erməni kəndlərindən gətirən kim, bazardan çalana bax, çapqın edib ev dağıdana bax, tində güdüb öldürdüyü adamı soyana bax... Dünya bir-birinə dəyib. Əlində bir berdankası olan hər kəs yerə-göyə sığmır. Qoçuluq, çal-çap dünyasıdır. Korluq çəkən Qədir kimi kasıb-kusub, fəqir, aciz adamlardır.

Bu acı etiraf Qədirin ürəyini sıxdı. Yüzbaşıya qarşı qəlbində dərin bir kin duydu: «Oturub kasıblığımı etdiyim yerdə donuz oğlu mənim evimi yıxdı, nə yıxdı! Biçin də, yığın da əldən çıxdı. Qabaqdan qara qış gəlir. Bir ovuc unum, dənim yox. Cibim boş, ümid yerim yox! Zamana şuluqluq, qışqabağı bir karlı iş yox! Kaftar məni necə yerimdən elədi! Dedi: «Millət yolunda!..» Ay millətin daşı

sənin başına düşsün! Qoysana kasıblığımı edəm, a donuz oğlu! A mənə «yaxşılıq» eləyən, dilin lal olsun! Nə tutmusan yaxamdan ki, din belə, iman belə! Mənim dərdim bir tikə çörəkdir ki, uşağım ac qalmasın. Külfətim dolansın. Məni nə çəkirsən divan-dərəyə! Tüpürüm o divan-dərəyə ki, başçısı Bəbir bəy kimi dovşansifətlər ola! Bəydən, xandan xeyir görən olub ki, dünyada?!.»

Qədir bağ divarının dibi ilə, nar ağaclarının kölgəsilə yeriyirdi. Qabağından arabalar, atlılar gəlirdi. Kimisi boş gəlir, kimisi qucağında qoyun, tərkində palaz, ya dolu çuval satmağa aparırdı. Qədir onlara diqqətlə baxıb, tanış arayırdı. Adamlar beş addımlığına gələnə qədər gözlərinin içinə baxırdı. Hətta onlar, deyəsən, Qədirdən şübhələnirdilər. Tanış olmadığını görəndə Qədir başını tərpədir, piyada salamı verirdi. Peşmançılıq, ailə xəcaləti, üstəlik iztirab onu sıxırdı. Yarım il qoyub getdiyi ailənin yanına indi necə, nə üzlə dönəcəyini hey düşünür, bir çarə tapmırdı.

Gün günorta yerində durub, müqtədir natiqlər kimi tənha rəncbərə baxır, sanki mənalı baxışında çox şeylər söyləyirdi:

«Nədir bu ruyzi-ərzi qaplayan al qanlar, insanlar!»

Yadına düşən bu sözü Qədir şəhərdə, çox pozğun, pərişan gəzən qəribə bir dəlinin ağzından eşitmişdi. «Dəlidən doğru xəbər» demişdi.

İstidən yayınmaq, həm də Faxirəyə bir şey tapmaq üçün Qədir bağın divarını aşdı. Su kənarında sıx bitən böyürtkənlərin meyvəsi qaralıb yetişmişdi. Qədir ağacla tikanı araladı, daraşıb yedi. Dəsmalına da yığmaq istədi. Yadına düşdü ki, evin yanında, böyük çəpərdə bundan çox var. Bunu aparmağa dəyməz.

Bağda üzüm, armud yığırdılar:

- Yolçu qardaş, üzüm buyur!

Əllidən artıq adam işləyirdi. Tənəklər arasından çıxan uşaqlar ətək, ya səbət dolusu üzümü gətirib təhvil verir, cəld iş yerinə



qaçırdılar. Zabit papağına oxşayan girdə səbətlərdə üzümü ustaların yanına yığırdılar. Qayçılayanlar isə şüşə kimi ağ, qara salxımları zədəli gilədən təmizləyirdilər. Ustalar dizlərini yerə qoyub, üzümü yeşiyə qablayırdılar. İki uşaq da, əldə çəkic, hazır yeşiklərin qapağını mıxlayırdı. Nabələd qonağa bir yeşik göstərdilər:

- Əyləşin!..

- Oturun, yaxın oturun!..

Qədir iri, dolu giləli Təbriz üzümünü ağzına qoyduqca, üzüm qənd kimi şaqqıldayırdı. Gilələr təmiz, duru və bərk idi. Elə bil dişləyən kimi suyu qana keçirdi. Qədir görürdü ki, meyvə boğazından getmir. Tikan kimi ilişib qalır. Nisgilini gizlədə bilmədi:

- Beş aydır bir yaşında qızımdan ayrılmışam, ona bir armud aparsam, elə bil dünyanı bağışlaram.

Fəhlələr bunu eşidən kimi Qədirin qabağına bir səbət armud tökdülər:

- Götür, doldur ciblərini, kefin istəyən qədər!

Yeşik bağlayan uşaq bir-birinə bitişmiş, haça, qırmızı alma gətirdi:

- Uşaq üçün bu daha yaxşı olar!

Qədir sevindiyindən bir şey yemədi, evə tələsdi. Armudu, almanı papağına, üzümü dəsmalına yığıb, çox-çox razılıq elədi:

- Allah artıq eləsin! Yorulmayasınız, payınız çox olsun.- Ağacların altı ilə yoluna düzəldi.-Çox sağ olun!..

Fəhlələr xorla, lakin adda-budda səslə qonağa cavab verdilər:

- Xoş gəldin! Yolun uğurlu olsun!

Şəhərdən Qobulara on beş-iyirmi verst yol var. Poçt yolu ilə gedəndə yol daha uzaq düşür. Qədir qəsdən bağlardan, yoncalıqdan, dirriklərdən keçir, kəsə yolla gedirdi.

Gecə vaxtı kəndə çatdı. Hamı yatmışdı. İşıq əsəri yox idi. Alçaq torpaq binalar nağıllarda söylənən düşərgələr kimi qaranlıq,

qorxulu idi. İtlər ulamır, töylələrdən at fınxırığı, öküz fısıltısı gəlirdi. Qədir neçə ay əvvəl ayrıldığı bu evləri gördükcə, uzaq bir yerdən öz yurduna dönməyinə şad olurdu. Ev-eşik, yar-yoldaş gözünün önünə gəlir, hər şey dil açıb onu qarşılayır, sanki «xoş gəldin» deyirdi. Belə xoş hisslərlə Qədir daha yeyin gedirdi. Ürəyi darıxır, tələsirdi. Fikirləşirdi ki: «Görəsən, evdə nə var».

Çəpərdən aşdı, həyətə gələndə ay sanki onu qarşılamaq üçün pərdəsini üzdən atdı, qalxıb kəndin üstündə durdu. Bəlkə o məhz iki sevgilinin uzun ayrılıqdan sonrakı görüşünün şadlığını eləmək üçün dayanmışdı. Qədir həyətdə palaz salıb yatan Qumrunu görəndə və onun qolu üstündə pişik balası kimi xırdaca görünən Faxirəyə baxanda necə, nə qədər sevindiyini dil deməkdən, qələm yazmaqdan acizdir. Onun dili tutuldu, dizi taqətdən, özü hərəkətdən qaldı. İndi o, ailəsinə qovuşan bir adam kimi yox, ay işığında çaşıb duran bir hərami kimi hissiz, hərəkətsiz idi.

Ürəyi bərk döyündü, başına anlaşılmaz bir ağrı gəldi, dodağında təbəssüm oynadı. Atalıq məhəbbəti coşdu. O əyilib uşağın pörtmüş, tərli yanaqlarından öpdü. Uşaq elə bil yuxulu-yuxulu deyirdi:

- Öpmə, sən niyə bizi qoyub getdin? Səndən küsmüşəm!

Qumru yuxuda, yataqda daha məhzun görünürdü. Oxlanmış göyərçin kimi boynunu çiyninə qoymuşdu. Qədir onun başını qucaqladı, baxdı. Geri çəkildi, bir də baxdı. Deyəsən, oyatmaq istəmir, səhərəcən keşiyini çəkmək istəyirdi. Bu vaxt Qumru ipək dona bürünmüşdü, ərinin qucağına sığınaraq gül iyləyirdi.

Qədir sinəsinə sığdıra bilmədiyi bir sevinclə bağırmaq istədi. Səsi gəlmədi. Xəyalının dərinliyinə endi. Ani bir sükutdan sonra başına bir fikir gəldi. Fikirləşdi ki, bu ana-balanı şirin yuxudan ayıltmaq pisdir, cinayətdir, bəlkə onlar indi ayıqlıqda xoş gün görməyən gözlərini xoşbəxt bir röyanın gözəl səhnələrinə dikib sevinir, gülürlər. Bəlkə də onlar şirin və ümidli bir yuxu içində üzürlər...



Qədir özü də bərk yorulmuşdu, ayaqlarının altı sızıldayırdı. Yük yerindən bir mitil gətirdi. Paltarını da baş altına qoyub yatdı.

Bəbir bəy bu gecə nişanbazlığa hazırlaşmışdı. İkinci dəfə idi ki, durub alma və konfet bağladığı şal dəsmalı götürərək, evdən çıxmaq istəyəndə Qıssa xanım qarovul kimi qalxıb, evdə gəzən kölgəyə baxırdı:

- Bu kimdir? Kimsən?

Bəbir bəy uşaqları oyatmamaq üçün yavaşcadan cavab verirdi:

- Mənəm, ay qız, çölə çıxıram, niyə qışqırırsan daha? Səs salma!

Niyyəti baş tutmayanda o, qayıdıb yorğana təpilirdi, lakin vəhşi, qızğın ehtiras onu yatmağa qoymurdu. Aylardan bəri həsrətini çəkdiyi «şamama, ipək, mərmər, düyməçəli məmələr» gəlib gözü önündə dururdu. O, xəyalında Qumrunu qucur, gözünü yumub, dodaqlarını tərpədirdi. Gecə lampasını da söndürmüşdü. Yerinin içində dizlərini qucaqlayıb, yastığa söykənmişdi. Qıssanın yuxuya getməyini gözləyirdi. Fikirləşir, tərləyir, tərini adyala silir, gözləyir, Qıssanın xorultusuna həsrət çəkirdi. Çox çəkmədi ki, Qıssa bozbaş kimi qaynamağa başladı. Xorultu bərkidi.

Bəy yavaşca dəsmalı götürdü. Barmaqlarının ucunda yeridi, evdən çıxdı. Səssiz-səmirsiz pilləkəndən düşüb, Bekarı bizlədi. «Dalımca gəl, ədə! Yavaş ol!..»

Çətini evdən çıxmaq idi. Qıssa durub bəyi evdə görməsə Bekarın arvadından soruşacaqdı. O da əzbərləmişdi ki: «Pristavın adamları gəlib xəlvəti çağırdılar».

Bəy Bekarı ehtiyat üçün aparırdı. O, əlində tüfəng, qapıda gözləyəcək, özü isə Qumru ilə «razi-niyaz edib» kefə baxacaq idi. Bəyin ürəyində qorxu və iztirab vardısa da, «eşq atəşi» gözünü örtmüşdü. Birtəhər özünü Qumrunun yatağına salmaq, «mərmər bədəni» bağrına basmaq istəyirdi:

«Mən sənin eşqində cəfalar çəkərəm, ay gözəl!»

Bekar tüfəngin çaxmağını çəkdi:

- A bəy, sən yeri! Nə qədər mən varam, quş da səkə bilməz, qorxma!

Bəy işarə etdi ki:

- Tüfəngin ağzını o yana tut. İşin olmasın, sən dur gözlə, «vur» desəm, atarsan!

Bəy çəpəri aşdı, barmaqları üstə yeridi. Dəsmalı sallaya-sallaya Qumrunun yatağına yanaşdı. Səkinin üstündə bir dolu dəsmal göründü. O da nişanbazlıq dəsmalına oxşayırdı. Bəy Qumrunun yatağına baxdı. Heyrətə gəldi. Gözlərini sıxıb diqqətlə baxdı. Qumrunun yanında bir kişi vardı. Uzun bir kişi yatmışdı. «Bu nə işdi?» Bəyi vahimə götürdü. Nəfəsini oğurladı, geri çəkilib, qapıya gəldi. Bekar nə hiss etmişdisə, pıçıldadı:

- A bəy, nə olub, alışdırımmı?

Bəyin dili tutulmuşdu. Dediyi sözlər anlaşılmırdı. Əllərini Bekarın döşünə vurub deyirdi:

- İş var, iş var!

- Necə?

- Başıma iş gəlib, a donuz oğlu!

- Qorxma, bəy nə var, nə olub ki?

- Arvadın yanında... Bu nə işdir ?

- A bəy, nə var?

- Arvadın yanında adam var, özgə adam!

Bekarı gülmək tutdu:

- Səni qara basır, bəy, bir salavat çevir!

- Yekə kişini görmürsənmi?

- Elə isə arvadı qara basır.

- Dəsmallı-zadlı kişi gəlib, əməlli-başlıca, gözüm kor deyil ki, dilim qurusun, qolu da arvadın boynunda. Bilmirəm bu nə işdi?

Bekar qaqqıldayıb gülməkdən özünü güclə saxladı:



- A bəy, deyəsən, yiyəsi gəlib axı! Qayıdaq, bu gecə uğursuz oldu, sabah gələrsən. Xatalı işdir!

Bəyin dizləri titrəyir, əli əsir, ürəyi döyünür, gözünə müxtəlif şeylər görünürdü. Bekarın ətəyindən tutub çəkirdi:

- Axı bu nə işdir, bu donuz oğlu kim ola?

- A bəy, gözünə elə görünür.

- Gəl, gəl sən də gör. Bir görək nə olan işdir, a başına dönüm? Kəbinli arvadımla bu nə hekayətdir?! Bu nə bədbəxtlikdir, ilahi!

Onlar barmaqları ucunda ehtiyatla yeriyir, hər addımda yatağa baxır, yaxınlaşdıqca təkrar baxırdılar:

- Bax, odur bax, görürsən, gördün ki, aha!.. Elə bilirsən mən yalan deyirəm?

Bekar bir az özünə cürət verdi. Baş tərəfə keçmək, yatanın üzünə diqqətlə baxıb, kişi olmağını yəqin etmək istəyirdi.

Yatanlardan biri tərpəndi. Yuzbaşı, bostan oğrusu kimi, sinə-sinə, ətəyini tuta-tuta qaçdı. Çəpərdən hoppananda dəsmal tikana ilişdi. Almalar tappatap töküldü, küçə aşağı dığırlandı. Bir neçəsi gölə düşüb şappıldadı. Qurbağalar kiridi. Bekar ovcu ilə ağzını örtüb gülürdü:

- A bəy, vallah, baş tutmayacaq!

- Qorxaq olma, axmaq!..

- Görürsən kişinin qızı zənitdi də, a bəy. Daha nə istəyirsən?

Bəy dinmirdi, lakin Bekarın ətəyini də buraxmırdı. Onun ətəyini bərk-bərk tutub, özünə tərəf çəkir və yalvaran bir əda ilə deyirdi:

- Gəl görək axı mənim kəbinlik arvadımla bu nə işdir? Bu kafir oğlunu...

Onlar bir-birindən tutub, təkrar yatağa tərəf irəlilədilər. İkisi də addımını yavaş, səssiz, ehmallıca atıb, hər addımda dörd tərəfi yoxlayır, gözlərini yatağa zilləyirdi. Yatağa yaxınlaşdıqda kişinin xorultusunu da eşitdilər. Bəyə yəqin oldu ki, arvadın yanında

«oynaş» var. Hətta kişi bir qolunu Qumrunun sinəsinə uzatmışdı. Namus bəyə güc gəldi, qan başına vurdu, gözü kəlləsinə çıxdı. Ancaq o, gözlərinə inanmır, dəsmalla silir, təzədən baxırdı. O, ağzını açmış, barmaqları üstə dikəlmişdi, yatanların ayaq tərəfinə baxırdı.

Bekar onun ətəyindən yavaşca çəkdi:

- Yiyəsi gəlib, a bəy, səfeh işdir, bəri qayıt!..

Qumrunun boz pişiyi hinin üstündə yatardı. Bu gecə gələn adamlar onu rahatsız etmişdilər. Bunun üçünmü, yaxud onlardan şübhələndiyi üçünmü, nə isə, oturduğu yerdən dinməz-söyləməz bəyin başına hoppandı. Bəyin heç şeydən xəbəri yox idi. Gərgin həyəcan və qorxu halında ikən başına yumşaq bir daş düşdüyünü hiss etdi. Boz pişik dırnaqlarını onun yenicə qırxılmış nazik üzünə ilişdirəndə, bəy özünü çəpərə atdı, yıxıldı; arxadan, yataqdakı adamın hücumundan qorxub, tikanların içindən ilan kimi sürüşdü, çıxdı. Bekar ondan qabaq hoppanıb, tikanın o biri başında durmuşdu. Sökülən dan yerinə baxırdı:

- A bəy, vallah, xatalı işdir. Vaxt da ötdü. Bu gecəliyə birtəhər döz, sabah bu da olmasa, sənə bir siğə düzəldərik!

Bəy ona da, yatana da söydü:

- Get həyətdən o tüfəngi götür, mənə ver! Onun anasını ağladacağam.

Bəy sözünü bitirməmişdi ki, başına ağır bir zərbə endi. Qıssa xanım dink toxmağını kişinin başına elə rəhmsiz çırpdı ki, tapança kimi açıldı:

- Kaftar köpək, gecə vaxtı qapılarda nə sümsünürsən? Arvadını evdə qoyub, fahişə dalınamı düşmüsən? Bu ləçək mənə haram olsun, başıma bir düjün kişi yığmasam! Görərsən şortuluq necə olar?!

Qıssa xanımın qışqırığına kənd ayıldı. Hava da tez işıqlanmağa başladı. Sanki qaranlıqlar da yerə salınmış pərdələri sürətlə qaldırdı. Elə bil bu balaca həyətdə baş verən qəribə hadisələri hamıya



göstərmək üçün günəş qaça-qaça gəlirdi. Qıssanın qara-qışqırığından sonra bəy yox oldu. Adamlar Qumrugilin qapısına tərəf gəlib, bir-birindən soruşurdular:

- Ölən kimdir, nə qışqırıqdır?

Hərə bir cürə yozurdu. Kimi deyirdi, bağrı çatladı öldü. Kimi deyirdi uşaq boğdular. Bəzisinə də elə gəlirdi ki, qışqıran qarnına bıçaq soxulan bir adamdır.

Kainatın qoca və ayıq keşikçisi günəş üfüqdən yuxarı qalxmaq istərkən, yuxudan kal ayılanların üzündəki həyəcanı işıqlandırırdı.

Qışqırtıya Qədir də ayıldı. Məna vermədən, şirin səhər yuxusuna cummaq üçün yorğanı başına çəkdi.

Qumru gözünü açan kimi yanındakını görüb dik atıldı. Gördüyünə bir məna verə bilmədi. Ayaqyalın, başıaçıq qapıya yüyürdü. Qadınlar Qumrunun səsini eşidib gəldilər. Qumru ağlayır, yanağını cırır, dizinə vururdu. Ona elə gəlirdi ki, yüzbaşı yatağına girmişdir. Adamlar onu anlamırdısa da, dayandırmaq, təsəlli verib ovutmaq istəyirdilər. Güman edirdilər ki, zərbə həmin bu qadına vurulmuşdur, qışqıran da bu imiş.

Qədir Qumrunun küçəyə çıxdığını görüb şübhələndi. Küçədən bir xəbər bilmək üçün durub getdi. Küçədə anlaşılmaz bir həyəcan hakim idi. Adamlar bir-birinə dəymişdilər. Qumru ağlayır. Qıssa xanım isə onu söyüb qışqırırdı. Qadınlar onları aralığa alıb sakit etmək istəyirdilər.

Qədir yaxına gedəndə qonşusu Ağa Məhəmməd onu gördü. Qədir gülümsəyib görüşmək üçün əlini uzadanda kişi «bismillah» deyib, geri-geri çəkildi:

- Ölü, ay camaat, ölü! - deyə bağırıb qaçdı. Qonşular, çoxdan öldüyünü xəbər tutduqları Qədiri görəndə vahimələnib qaçışdılar. Axundu çağırdılar. Dirilib gələn Qədirin «xortdadığı» xəbəri ağızdan-ağıza düşdü. Nökərlər əldə şana, ağalar kinli, qadınların

bəzisi əli xamırlı, bəzisi qucağı qundaqlı, uşaqlar isə suya qaçan cücə kimi töküldülər.

Hamı «xortdan»ı görmək istəyirdi. Qədir hər kəsə yaxın gedir, başa salmaq istəyirdisə, qorxub qaçırdılar. O, yurdundan, el-günündən ayrı düşmüş bir qərib kimi tək qalmışdı. Məşədi İslam Qədirin «xortdamağını» eşidəndə heyrət etdisə də, özünü itirmədi, mətləbi başa düşdü:

- Bir kişinin ki, başına elə oyun açıla, əlbəttə, xortlayar!.. Mən də olsam, xortlaram. Hələ harasıdır, qoy bir iş sahibi gəlsin. Qoy bir camaat haqqını bilsin. Hər qarış torpaqdan bir igid qalxacaq, «xortlayacaq». Bəs nə, diri-diri qəbrə getmək olarmı? Zülm ərşə dayananda belə olar! Hələ dayanın bir... Daş-torpaq cana gəlib zəbanə çəkəndə soruşacağam ki: «Ağalar, indi necə, halınızdı, dəminiz?..»

## BOĞAZA DÖYMƏ

Kəndin adi axşamlarından birini deyirəm. Mal-qara, şirin yuxu eşqi iləmi, canavardan qurtarmaq arzusu, yaxud balalarla görüşmək həvəsi iləmi evlərə qayıdırdı. Naxır tozlu yollardan axışıb gəlirdi.

Məşədi İslam taya basırdı. Mələknisə çox ehtiyatla xanımın xallı inəyini sağırdı. Bəndini qırıb qaçmış buzov arvadın barmaqlarını da ağzına salıb sormaq istəyirdi. Yenə də min cür danlaqdan, qara-qorxudan sonra töycü yükünü aşırıb arxayın nəfəs almaq xəyalı ilə qayıdan cüttəkər arabalar, basılmış pəhlivanlar kimi ağır-ağır yeriyir, cırıltılı təkərləri ilə, doğan inək kimi, əzabdan zarıldayırdı. Toyuqlar dən, köpəklər yal, atlar tumar-qaşov, öküzlər yem, Hacı Hüseyn isə buxarı başında kişnəyib plov istəyirdi...



Soyuğa, küləyə baxmayaraq, doqqazın başında qalmaqal əskik deyildi. Alçaq çəpərlərin, uçuq məscid divarının, qəssab dükanının yanındakı açıqlıqdan, peyinli, torpaqlı bir yerdən danışıram. Kəndin göbəyi buraya basdırılmışdı. Haralardansa azıb gələn müsafir bu doqqazda dayanar, istiqamət alar, bir qarın çörək üçün özünü satmağa gələn rəncbər, biçinçi, kankan burada öz sərbəstliyini itirərdi. Suyu oğurlananlar burada çarpışardılar. Ürəyi yumşalanlar da burada barışardılar. Həmin bu açıqlıqda, bu kalafalardaca çərçi udur, kəndli uduzur, molla deyir, kəndli eşidir, axşama qədər bomboş olan bu yerdə qaranlıq qarışırkən daha çox qarğaşalıq başlanırdı.

Dünyanın yeni-yeni xəbərləri: dava, aclıq, şuluqluq, ölüm, dirilmə, təvəllüd, fəlakət və səadətlər özü özünə gəlib toplanırdı.

Dörd tərəfdən gələn küləklər burada toqquşur, şaqqıltı ilə parçalanır, yerə tökülürdü. Bu küləklərin çarpışmasından, daşlanan sulardan hərə bir içim içir, hər kəs bir dad duyurdu...

Bunlar, bu doqqazın başına gələnlərin hamısı canlı tarix kimi dilə gəlir, adamların hamısını xəbərdar edirdi. Bir sözlə, doqqaz kəndin əcaibxanası, qəzeti, telefon və teleqrafı idi. Su bölünəndə, töycü gələndə, əsgər yığılanda, məscid üçün pul yığılanda qiyamət qopurdu. Kobud, nazik, haqq və nahaq səslər bir-birinə dəyir, gah mis qab kimi cingildəyir, gah bir-birini qırıb yerə tökür, gah da bir-birinə dəyən bu səslərdən çaxmaq daşı kimi qığılcımlar qalxırdı. Ətrafa işıq düşürdü.

Bu axşam da doqqaz məclisi şirin keçdi. Bitmək bilmirdi. Qadınların bəzisi xörəyin altını söndürmüşdü. Kimisi süfrəni açmış, çörəyi doğrayıb gözləyir, süfrənin qırağında çöməlib yalvaran pişiyə acıqlanırdı:

- Pişdə, pişdə!..

Elələri də var ki, çadrasına bürünüb, darvazanın böyrünə,

torpaq divara söykənmiş kişilərin ucalan səsini, qəribə söhbətini dinləməyə gəlmişdi.

Qaranlıq qatılaşanda səs ucaldı. Adamlar deyir, eşidir, ancaq bir-birinin sifətini görməklə o qədər maraqlanmırdılar. Bu sifətləri onsuz da tanıyırdılar. Onlar «hərif»i eşitmək, onun qabağına doqquzluq qoymaq üçün çalışırdılar. Bugünkü mübahisələr və çalçatdasın nə töycü, nə də su üçün idi. Adamlar bəlkə də özlərinə dəxli olmayan şey üçün baş ağrıdır, boğaz cırır, çənə çıxarırdılar:

- Qumru kimin olmalıdır?

Rəncbər Qədirin sirli işi kəndin bütün başqa söhbətlərini unutmuşdu. Yaxın kəndlərə qədər yayılan bu faciəni hər kəs, mahir bir aşıq kimi, başqasına söyləyir, bacardıqca üstünə bir şey də qoyur, daha artıq təəccüb oyatmağa çalışırdı. Fikirlər çox müxtəlif idi. Buna «qəzavü-qədərin işi» kimi baxırdılar. Bir başqaları dünyanın qarışmağından, işlərin baş-ayaq olmağından şikayətlənib deyirdilər:

- Dünya... Nə bilim, vallah, belə getsə, vay, vay birkeçilinin halına. Çoxları xortlayacaq, diriləcək, çox adam da ölməli olacaq! Ata-babadan da görmüşük. Şam qızaranda, dan yağar. İl bəd gəldi, bəla üzülməz...

Bekar Ağabala kimilər isə «baş çıxardılası işə oxşamır»-deyə qolunu qamçı kimi tovlayırdı...

- Qumru kimin olmalıdır?

Bu sual bir ağırlıq olub ürəklərə çökmüşdü. Heç kəs bundan silkinə bilmirdi. Çərçi Ağa Ələsgər qurandan ayə gətirib deyirdi ki, Qumrunun meyli kimə olsa, «sahibi-ixtiyar odur». Sarıqlı molla da ayə gətirir, hədis tökür, ancaq ayrı hökm verirdi. O buyururdu ki:

- Mötəbər hədisə görə, üç nəfər adil şahid şəhadət versə ki, şövhər mərhum olubdur, övrətin nikahı fəsx hesab olunur!

Belə olanda Qədirin əli boşa çıxır, Qumru bəyə ana südü kimi



halal olurdu, çünki üç nəfər deyil, beş nəfər «islam mücahidi» erməni kəndlərindən qayıdıb Qədirin ölüm xəbərini gətirmişdi. Axundun deməyinə görə, Qədir gərək o zaman öz salamatlığını övrətə yazıb bəyan edə idi.

Çoxları axundun bu fəndgir hökmü ilə ağırlıqdan silkinirdilər. Qədirə də yazığı gələn olurdu, lakin Məşədi İslam bu sözü iki qəpiyə almaq istəmirdi:

-Ləğviyyatdır, - deyirdi. - Kişi qürbətə gedib, indi də qayıdıb. Buna kimin nə sözü ola bilər? Nə ayə, nə hədis? Diri-diri kişini danmaq olarmı? Bunlar hamısı bəyin fırıldağıdır. İstəyir Qumrunu o söz...

Hacı Hüseyn, ağzında qəlyan, dili dolaşa-dolaşa Məşədi İslamın sözünü kəsdi:

- «İstəyir» ha!.. «İstəyir»ə bax ey! Ədə, ay qoduq otaran, «istəyir» harasıdır? Qumru Bəbirin kəbinli arvadı deyilmi?

Kim isə əlavə etdi:

- İndi çoxdan gönü suya veriblər!

Məşədi İslam başını tovladı:

- Hay-hay! Əcəb adam tapmısan. Qumru özünü öldürər ki, Bəbir bəyin üzünə tüpürməz də.

Hacı Hüseyn sinəsini arıtdı:

- Ölünü öz kefinə qoysalar, kəfəni xarablar. Arvad razılıq verib, kəbin də kəsilib. Qədir xortlamasın, lap çıxsın göyə, keçmiş ola!

Hacı Hüseynin sözü Qədirin kankan yoldaşı Sultanəliyə bərk dəydi. O, ağasının damında novdan təmizləyirdi. Doqqazdakıların hamısını apaydın eşidirdi. Elə bil yerdə danışılan sözləri qoz kimi ovuc-ovuc dama tullayırdılar. Sultanəli pəncərənin çərçivəsindən yapışıb aşağı düşürdü və həm də Hacı Hüseynə eşitdirirdi:

- Əlbəttə, Hacı, zora qalanda Qumrunu bəy aparar. Canavar qoyun aparan kimi. Həyəti də sən içəri ötürərsən.

- Ağzını əymə! Həyət sözü sənə qalmayıb. Yoxsa Hacının daşı sənin də başına düşüb? Dddaaanışığına...

Məşədi İslam dilləndi:

- Hə, Hacı, deyəsən, döşünə yatmadı!

Sultanəli daha da yavaşdan, lakin iti ifadə ilə dedi:

- Bəllidir də, kasıbın arvadını da çəkib aparmaq istəyirsiniz. Amma...

Hacı Hüseyn qəlyanı ağzından çıxartdı, dodaqlarından selik sallandı, çənəsi tez-tez tərpəndi:

- Sən nə belə artıq-əskik danışırsan, tülkü? Başın gövdənə ağırlıq eləyir deyəsən?..

- Tülkünün səsi gəlir. Artıq-əskik sənin kimi pərəklər danışır. Danışanda nə eləyəcəksən? Kimi qorxudursan?

Məşədi İslam ayağa durdu:

- Kimi qorxudursan? Bundan da pis günə qalmayacayıq ki? Qaradan o yana rəng yoxdur! Gəncə bəyləri sizi qudurdub. İnsaf deyilən şey hanı?

Adamlarda bir ciddilik və gərginlik duyuldu. Doqqazdan barıt iyi gəldi. Bir saat əvvəl eşidilən zarafatların, hırıltıların izi qalmadı. Gözlərə qan çiləndi. Hacı, Sultanəliyə baxdı. Sultanəli Hacıya baxdı. Nəzərlər bir-birini bıçaq kimi kəsirdi. Onlar bir-birini gözlə oxlamaq istəyirdilər. Sanki qaranlıq ortadan qalxmışdı. Heç kəs o birisinə güzəştə getmədi.

- Kaftar!..

Bu sözü Sultanəli sanki dili ilə yox, böyümüş və qızarmış gözlərilə deyirdi. O qədər cəld və etimadla deyirdi ki, ürəyindən tikan çıxan kimi, özünü rahat hiss edirdi. Məşədi Cahangir irəli çıxdı:

- Donuz oğlundan lap mazut iyi gəlir. Qapıların yalı sizi qudurdub!



Hacı daha da cürətləndi və ürəyini dələn sözü bir od kimi eşiyə tulladı:

- Balşavet köpək uşağı... Bura da sizə Ərəsey-zad deyil ha, onu bilin!

Məşədi İslam bu vurhavurda soruşurdu:

- Hacı əmi, qarnın niyə şişib?

Məşədi Cahangir az qaldı barmağını Sultanəlinin gözünə sox-sun:

- Başını elə batıraram, üstündə ot bitməz!

- Gözünü aç, mənə bax!..

- Hapçxi!.. Yox əşi!..

Məşədi İslamın zorakı gətirdiyi bu «səbir» Məşədi Cahangirin hərbə-zorbasına çox yerli cavab oldu. Kənarda durub maraqla işin nəticəsini gözləyənlər ixtiyarsız güldülər. Bu gülüş Məşədi Cahangiri və Hacını daha da qorxutdu. Sarımsaq kimi yandırdı.

Məşədi Cahangir Sultanəlinin yaxasından tutmaq istəyəndə o dartındı. Məşədi Cahangir boğazlamaq istəyəndə o, balıq yağı içən uşaq kimi, üzünü turşutdu. Məşədi Cahangirin gicgahından bərk ilişdirib, divara hoppandı, aradan çıxdı. Məşədi Cahangirin gicgahı od tutub yandı. Səndələyib divara söykəndi. Hacı Məşədi İslamı qarmalamaq üçün can atdısa da, onu tutdular. Sarıqlı molla başmağını taqqıldadaraq, qurşağını dolaya-dolaya gəldi:

- Ey əhli-qəryə! Lənət şeytana deyin! Camaat, bu nə hərəkətdir? Dağılın! Şeytan şərrindən uzaq olun, amandı!..

Lap qaranlıqlaşmışdı. Pəncərədən sallanan işıqlar, çəp gözlər kimi, qaranlığa, doqqazdakı qalmaqala baxırdı. Səs-küyü sonradan eşidənlər şamını yarımçıq qoyub gəlirdilər. Doqqazda heç kəs olmasa da, «xata izi», «barıt iyi» qaranlıqdan silinməmişdi. Vaxtında burada olmayanlar təəssüf edirdilər.

Doqqazdan dağılanlar isə bu əhvalatı çörək başında arvadına şirin-şirin danışır, artırır, böyüdür, əcaibləşdirir. Sultanəlinin

yumruğunu dönə-dönə təsvir edirdilər. Hampa arvadları bu davalara «səbəb» olan Qumruya boğma çıxardırdılar:

- Kül başına, arvad olan yerdə. Bəy evinə getmək istəmir. Öl, canın çıxsın! Daha xalqı niyə vuruşdurursan?..

Sultanəli gecə ikən kənddən çıxdı. Gözlərində kin, qəlbində intiqam arzusu, qolunda vuruşmaq gücü ilə yollara sığmır, qaranlıqları əlinə dolayıb, barmağını cida kimi düşmənin gözünə soxmaq istəyirdi.

Hacının beynini tüstü, duman bürümüşdü. Yerə otura bilmirdi. Əli, ayağı əsə-əsə «gədə-güdəyə» əncam çəkmək üçün Bəbir bəyin yanına xahişə getdi.

Hacı titrəyə-titrəyə gəldisə də, bəyə, bir ultimatum gətirdi. Yetirən kimi acığını yerə töküb ağladı:

- Kaftar mən oluram, ihi, ihi, ihi. Donuz mən oluram. Mənim qarnım, ihi, ihi, şişir. Yüzbaşı da rahat oturub, küftə yeyir...

Arvad o biri evə keçdi. Bəy, ağzında tikə, ayağa durdu. Yağlı barmaqları çıraq işığında işıldaya-işıldaya Hacıya yer göstərdi. O, doqqazdakı əhvalatı öz qulağı ilə eşitmişdi, lakin «əngəl çıxmasın» deyə qulaqardına verib ötmüşdü. Hacının «abi-havasından» bildi ki, məsələ ciddidir. Özünü bərk çəkdi. Qaşlarını çatdı. Bir «millət xadimi» kimi səbirlə Hacını dinləməyə başladı.

Hacı danışır, danışdıqca alt dodağı rezin kimi sallanır, uzanırdı. Ağzından bəzən selik axırdı. Hacı qarnından tutur, papağını-namusunu göstərir, bir də Məkkəyə and içirdi. Qalan sözləri anlaşılmırdı. Danışığından «çarə, nə günə, nökər, dik, quyu, saqqal, pristav, sabah...» kəlmələri aydın eşidilirdi, lakin bunlar Hacının hiyləgər, şivənli zırıltısına qarışır, anlaşılmamış qalırdı.

Bəbir bəy çörək təklif etdi. Hacı ilə uzun söhbətə girişdi.

O, Qədirin və başqa «banditlərin» haqqında uzun plan tökmüşdü. Heç tələsmək, əl-ayağa düşmək lazım deyildi. Bu işi yeritsə





hər şey olacaqdı.

Bəbir bəy müsahibini başa salırdı:

- Əvvəla budur ki, Hacı, Qədirin bir də Qədir olub kənddə gəzməyi, baş girləməyi keçmiş ola. Lələşin ona bir aş bişirib ki, dadı damağından gedən deyil!..

Bəy qəlyanı ucuz tənbəki ilə doldurub, baş barmağı ilə basdı. Alışdıranda Hacı, ağır şeylərlə yüklənmiş eşşək kimi, «uf, uf» elədi, burnunu tutdu, geri çəkildi. Bəy anladı ki, kükürdün tüstüsü Hacıya əziyyət verir.

- İpişkadan qorxursan, əşi? Sabah millət yolunda meydana çıxanda, atışanda nə eləyəcəksən bəs?..

Hacı, dərman atmış kimi, üzünü yana çevirdi, öskürüb asqırdı, özünə gəldi. Bəy davam etdi:

- Hənn... nədi... ona lələşin bir yağlı iş bişirdi! Deynən necə?

- Necə?

- Axı bu iş belə şeydir ki, gərək əlində sübutun ola. Dakumentalnı-subutalnı baxanda Qədir səfər ayının on üçündə ölüb!..

Hacı onun sözünü ağzında qoydu:

- Deməli, yezid günündə tünbətün düşüb...

- ...Şahidlərin sözü var. Başbilitində yazılıb ki, «filankəs ermənilərin əlində şəhid...» Şəhid məsələsi səhv düşüb, onu qaralayıb düzəldərik... heç... Yazılıb ki, bu adam o söz, öldü! Qumrunun da kəbini kəsilib qurtarıb gedib, gəldi-gedər, mərsiyə mollası yox, mötəbər axundun yekə qolu var, üstünə möhür basılıb. Arvadın mehrinə də neçə yüz qızıl salınıb. Hamısı həpti-cəpt olunub. Burası belə! Görürsən ki, hara getsə, mənim ixtiyarım var kəbinli arvadıma sahib durmağa. Bir yana baxanda Qədirin diriliyinə barmaq boyda sübut, şahid yoxdur. Mən də elə hərifi burada tutmuşam. Mən ölüm, nə deyirsən?.. Dirilmisən, dirilmisən, a donuz oğlu, hanı kağızın, hanı sübutun?

- ...



- Hə, belə. Dərədə yüz bambılı var, biri gəlib deyəcək ki, Qədirəm. Beləsinə kim inanar, burada hökumət var, kəndxuda var. Başına deyil ki. Bu camaata baxan var. Pristav yanında mənim adımdır. Yüz gün lafasın ki, «Qədirəm!», kim inanar?.. Qədirin adı mənim kəndimdən çoxdan silinib, çoxdan silinib gedib. Yalandan biri özünə ad qoyub gələcək, mən dəliyəm onu kəndə buraxam? Mən dəli deyiləm ki! Qəbristanlığa gedən ölü qayıdarmı?.. Vəssalam... Çıxarıram, başın haqqı, qoymaram bir gün qala kənddə!

Hacının acığı tutdu:

- Axı, a bəy, bir kəlmə işarə verməyə ağzın ağrıyır? Niyə it damına basdırmırsan qurtara gedə, bu donuz oğlunu?

- İxtiyarımız yoxdur!

- Necə?

- İxtiyarımız çatmaz!

- Nədən bəs tat Həmidin qardaşını Narginə sürəndə çatır? Yəni Qədir belə əcdaha oldu ki, ixtiyar da çatmaya!

- Yox, a kişi, onu demirəm, ixtiyara nə gəlib? Dövlətindən, lap kəndə od da qoymağı bacarram. Pristav mənə güldən ağır söz deməz. Əlbəttə, millətin ixtiyarı bizə çatır. Ancaq bir iş var. Qədir ölübdür, dirilər siyahisində adı da yoxdur! Mən onu tutub dama salsam, sabah məni öz sözü ilə tutar, deyər ölmüşdümsə, niyə qalaya basdırdın? Ölü də dustaq olarmı? Odur ki, mən tutmuram, məsləhət də deyil. Sabah kənddən qovacağam, qonşu yüzbaşılara da demişəm. Qəbristanlıqdan qayıdanı kəndə qoyan kimdir. İlim-ilim itib gedəsidir. Onun işi bitib!

- Vəssalam?

- Əlbəttə ki, vəssalam!

- Ay dedin ha!...

Hacı bu sözün axırında zıqqıldadı, divara sarı çevrildi. Bəy anladı ki, tədbirləri onun xoşuna getmir. Sabahdan bəri danış-

dıqlarının harasında səhv olduğunu fikirləşmək istəyirdi. Hacının xırıltılı səsi mane oldu:

- Yatmısan!.. Dünya bir-birinə dəyib, sən hələ yuxudasan. Demək ki, Sultanəli tək məni söyür, ya Məşədi Cahangirə kişilənir? Yox, dalda uzun zırıltı var. Bu gün məni döyər, sabah axundun sözünü danışar, o biri gün də səni, sən yüzbaşını ağıza salar. Nə hökuməti sayırlar, nə şəriətə baxırlar. Görmürsən bəyəm, qudurublar, canım, Urusetdə balşavet yalan olub. Bizimkilər gəmidə oturub, gəmiçi gözü çıxardırlar.

Hacı bu sözdən sonra bir qədər susdu. Yüzbaşı da danışmadı. Hacının xırıltılı səsi onun qulağını didirdi. Hacı indi daha qətiyyətlə danışırdı:

- Yox, ay yüzbaşı, bu olmadı. Mən şəhərə gedib danışaram. Bir Qədirin dərdi deyil ki... hansı axundun sözüdü, o demişkən:

«Düşmən bir olsa dəfini asandır eyləmək,
Vay ol zaman, hücum edə dörd bir kənardən...»

O biri evdən tünd çay gətirdilər. Arvad bəyi qapıya çağırdı. Bəy mızıldandı, qayıtdı:

- Hacı, mən elə demədim, bir bil gör nə deyirəm, gör Sultanəliyə nə eləyirəm də...

- Heç nə eləmirsən.

- Başın haqqı, budur cibimdə!

Cibindən tənbəki kisəsini çıxartdı, təsbeh, bıçaq, möhür əlinə gəldi. Çox axtarıb büzüşmüş bir kağız çıxartdı. Hacıya tərəf əyildi. Göz-göz edib, sanki oğurluqca danışdı:

- Yüz il qalasan Sultanəlinin işini mən bilən kimi qananmazsan. İstəyirdim açım.

Bəy ayağa qalxdı. Pəncərəyə baxdı. Arvada tapşırdı ki, «gələn



olmasın», bardaş qurub oturandan sonra pıçhapıç danışdı:

- Özün də bilirsən ki, Sultanəli balşaveti istəyir. Bu kağızı siqretni mənə pristav yazıb ki, öyrənəm, hərifin işini açam. Eşitmisən dana. Bağmanda çopur Kazımın nökəri kişini öldürüb qaçıb. Hacı Ağakişinin oğlunu bıçaqlayıblar. Şəhərdə fəhlələr yaman qalxışıb. Deyirlər dünən Keçiev Cabbarın sabun qazanlarını ocaqda qoyub çəkiliblər. Vağzalda fəhlələr lap üzə durub. Elə belələri kənddəki lütlərin də ağzına dil atır, kömək edirlər. Naçalnik pristavlara tapşırıb ki, millətə xain çıxanların siyahisini tutaq. Biz də yığırıq, həriflərin bir-bir başını əkəcəyik. Dostun bu gecə gedir, o söz... Sultanəlini deyirəm ey!.. Bu gecə aparırlar. Qalanlarını da yavaş-yavaş, qaraquş cücə dənləyən kimi, hərəsini bir-bir... Sən arxayın ol! Kim köpəkoğlu bunların toxumunu kəsməyincə rahat oturar? Biz hamısını bilirik! Sən döz! Sənin işin o olsun ki, belə əhvalat eşidəndə tez qaç, mənə yetir. Mən pristavla danışmışam...

Evdə sakitlik idi. Hacı bəyi maraqla dinləyirdi. Sultanəlinin işini biləndə ürəyindən tikan çıxdı, gözləri işıldadı. Fikirləşirdi ki, onu dama basanda qıraqda durub üzünə tüpürsəm, başına bir qapaz salsam, nə olardı! Ax nə olardı! Deyərdim: «Öl, lütqom oğlu lütqom! Canın çıxsın qazamatlarda. İndi halındı, dəmin?»

Bəy bir az uca, lakin mülayim səslə söhbətin cilovunu əsl mətləbə çevirdi:

- Toyu da eləmək istəyirəm axı. Nə məsləhət görürsən?

- Eləyək. Niyə eləmirik?

Bəy ayağa durdu:

- Eləyəcəyəm, sağlığına kefin istəyən kimi toy eləyəcəyəm...

Qədiri kənddə yaşamağa qoymadılar. Yalnız böyüklər deyil, uşaqlar da uzaqdan baxır, «Xortdan»-deyə çağırırdılar. Qəbristandan qayıdan adamın söhbəti hamının ağzına düşmüşdü. Heç kəs bunu ayırd edə bilmirdi. Qədir yalnız ailədə və dostları arasında

ehtiram və təəssüf görürdü. Bu isə yaşamaq hüququ almaq üçün çox az idi. Qıraq kəndlərdən eşidən bir muzdur dostu Qədirin dalınca kinayə edir, deyirmiş:

- Çox səfeh adamdır ki, dirilib. Elə bilir dirilər halva yeyir. Bədbəxt oğlu, ölüm kimi neməti əldən buraxıb qaçıb ki, nə var-nə var, yaşamaq istəyirəm. De yaşa görüm, ac-susuz, yurdsuz-yuvasız necə yaşayacaqsan? Bu, güzəran deyil, aşkarca ölümdür! Çıxsın canın, gündə yüz dəfə öl. Onda bilərsən ki, rahat qəbiristanlığın ləzzəti ayrı imiş, əvəzi yox imiş!

Bu kinayələri Qədir anlamamış deyildi. Ancaq bunlar ona bir təsəlli idi. Öz gücünə güvənməli olduğunu duyurdu. Qədir necə olsa yaşamaq arzusunda idi. Bütün qüvvətilə qışqırıb aləmləri agah etmək istəyirdi ki: «Diriyəm, ölməmişəm, ölmək istəmirəm!» Lakin səsi çıxmırdı. Harayı bir yerə yetmirdi. Ona elə gəlirdi ki, adamlar, evlər, küçələr, sular, ağaclar və bütün kənd Bəbir bəyin arxasında kömək durub, onun dediyini deyir. Hər şey və hətta dönə-dönə əkib-biçdiyi zəmilər də dilə gəlib, rəncbərə rişxənd eləyir:

- Buna bax, bu ölü nə gəzir?

İlk günlər Qədirə yuxu kimi gələn işlər get-gedə ağarır, aşkar həqiqətə çevrilir, bir qüvvət olub onu məhrum, məhv etmək istəyirdilər. Nə canlı həyat, nə şahidləri, nə də bütün qüvvətilə qışqırdığı səsi onun varlığını «isbat» edə bilmirdi.

Yüzbaşı dediyində dururdu. Yazılanı pozmaq çətin idi. Qədirin əlacı kəsildi, din xadimi axundun hüzuruna getdi. Dərdinə əlac istədi. Ona edilən haqsızlıqlara qarşı şəriətin hökmünü, həqiqi cavabını tələb etdi.

Axund təmkinini pozmadı:

- Eşitmişəm, bala, - dedi, - eşitmişəm... O kəbin kağızında mənim də möhürüm var. İş çox çətinləşib, dolaşıq gətirib. Əslinə baxanda səni də günahkar etmək olmaz. Sən də bilməmisən. Burada üç nəfər



adil şahid qol çəkib, məzkurəyə nikah oxunub, kəbin kəsilib. Üləmanın mötəbər imzası olub. Bunların cəmisi şəridir. Ancaq sənin ricətinə, dirilməyinə mən çaşıram. Özüm də mat-məbhut oluram.

Qədir bir şey başa düşmədi. Axundun izahatını anlaya bilmədi:

- Necə yəni, axund ağa! Mən ölməmişdim ki, dirilə idim? Mən ölməmişəm ey! Kim bu sözü çıxarıb, bilmirəm? Allaha şükür, mənim sağlığıma nə gəlib? Görmürsənmi mən boyda adamı? Göz qabağında durmuşam!

- Yox, oğul, məsələ sənin məsələn deyil! Sən öldün-ölmədin, aləmi-ruzigara bir fərq, bir təfavüt yoxdur. Bir məqamda ki, üç nəfər adil şahid, üləma, ağsaqqallar qol qoyub, hökm veriblər, buna nə söz? Sən bir adamsan, hökm on adamındır. Sən Qədirsən, onlar Bəbir bəydir, Məşədi Cahangirdir, Mir Qənbərdir və sair əyani-əşxasdır. İndi şəriət sahibi bir adamdan ötrü beş adamı qurban verməz, öldürməz, mötəbər əşxası yalançı da eləməz. Sənin ölməyin məsləhət imiş. Çifayda, indi ki ölməmisən, nə çoxdur vilayət! Heç eyb eləməz, baş götür, get birində gününü keçir. Beş günlük ömrün qalıb fani dünyada, nə istəyirsən bu camaatdan?.. Çıx qoy get, məsləhətdi!

- Axund, mən buna razı deyiləm. Ağıllı adam bunu deməz. Mən birbaş Şeyxülislamın hüzuruna gedərəm. Qoy onlar da bilsin ki, siz necə yüzbaşıların tərəfini vermirsiniz, həqiqəti ayaqlayırsınız, mən boyda adamı görmək istəmirsiniz. Mən bunları deyəcəyəm. Şeyxülislamdan cavab istəyəcəyəm. Mən hamısını yerində danışacağam. Qoy şəriət sahibi hökmünü versin. Görək ölməli kimdir. Kasıb olanda nə olar, kasıbın Allahı yoxdur, rəncbərin Tanrısı yoxdur? Dünya bəyəm başlı-başınadı?

- Sahibi-ixtiyarsan!

- Sizdən bir xahişim var.

- Bəqədri-qüvvə.

- Təvəqqə eliyirəm ki, Şeyxülislamdan cavab almayınca, Qumrunun toyunu ləngitməyi buyurasınız. Şəriət sahibindən soruşaq! Şeyxülislam da, şəhərdə də mənə diri deməsələr, məni «öldüyə» çıxsalar, siz deyən olsun, onda eybi yoxdur!

Axund fikirləşdi və başını aşağı salladı.

- Xub!

Qədirlə Məşədi İslam tədarük görüb, şəhərə yollandılar.

## QIŞ GECƏLƏRİ

Qədirin dirilməsi Qumrunu yüzbaşının əlindən çıxara bilməsə də, iş çox ləngidi. Sarıqlı molla Fazili-Dərbəndidən hədis gətirib isbat edirdi ki: «Belə hallarda gözləmək, sahibi-şəriətin əmrinə müntəzir olmaq lazımdır». Beləliklə, həm Qədirin, həm də yüzbaşının qadına yaxınlığına yol verməmək üçün Qumrunu mötəbər bir yerdə müvəqqəti saxlamaq məsləhət görüldü. Onu məcburiyyətlə, gözüyaşlı, qucağında uşağı, axundun evinə gətirdilər. Hacı Hüseyn həyətə yiyələndi və tut ağacının dibində təzə kirayənişinlərilə palaz salıb, bir qonaqlıq da yedi.

Qumru axundun evinə gəlmək istəmirdi. Sevgilisi ilə ağır da, möhtac da olsa, xoş günlər keçirdiyi daxmaya, o balaca həyətə cənnət kimi baxırdı. Təkbaşına da olsa, burada, qara hisli pərdilər altında sızlamaq, yanan və qovrulan qəlbinə göz yaşları səpmək istəyirdi. Ancaq buna da mane oldular. «Namus, abır, həya» adına, «müqəddəs şəriət qanunları» adına onu evindən çıxardılar, axundun yanında «əmanətdə» qoydular.

Axundun arvadı Şirin qonaqpərəst, xoşqılıq bir qadın idi. Qumrunun halına yanır, onu ovutmağa çalışırdı. Bu axşam



axundun evində iki, bir-birinə zidd qütb görünürdü. Qumru nə qədər qəmli, kədərli idisə, o bu evə nə qədər qüssə, göz yaşı gətirmişdisə, axund biləks, sevinc və şənliklə qaynayırdı. O, qırmızı saqqalından dəstəmaz suyu tökülə-tökülə, Qumru olan otağa keçib, ağ köynəyinin qolunu aça-aça xoş gəldin deyirdi:

- Qızım, bura sənin öz evindir. Heç qüssə eləmə, şəriət sahibi nə deyər, ona əməl olunar. Burda bir elə çətin iş yoxdur. Kefini kök elə. Elə də olsa, belə də olsa, sən dul qalmayacaqsan!..

Həm Qumruya təsəlli olsun, həm də «Allahın əmri yerinə yetirilsin» deyə axund qalın, qara meşin cildli kitabları qabağına tökür, şapalaqlayıb tozunu qaldırırdı. O, dizi üstə yıxılıb, yırğalana-yırğalana hədis oxuyur, təzə qonağını məşğul etmək istəyirdi. Axundun oxuduğu hədislərin hamısı «salihə» qadınlar, siğə və nigah barədə olurdu. Axşam hansı kitabdan isə xüsusi bir iştah, ayrı bir həvəslə bir hədis oxudu:

«Yezid ibni Müaviyənin gözü (Allah ona lənət eləsin) Abdullah ibni Kəbin arvadına düşdü. Yezid məlun cavan idi, gümrah idi. Dərdini atasına dedi. Müaviyə Abdullahı Mədinədən çağırdı. Böyük qulluq verdi. Xəlvətcə yanına çağırıb qandırdı ki:

- Oğlum Yezid səfehdir. Qoy cəhənnəm olsun. Səni yerimdə vəliəhd eləmək istəyirəm. Pərdeyi-ismətdə olan qızımı da sənə verəcəyəm. Mədinədən yığış, üzülüş, arvadını rədd elə, gəl!

Abdulla ibni Kəb şadlığından qəşş elədi. Fövrən bir molla çağırıb, vəkil elədi ki, get Mədinədə mənim arvadımın talağını ver. Bu tərəfdən də Müaviyə mollaya tapşırdı ki, «özü bilməsin, Abdullahın arvadını boşayan kimi nikahını oxuyarsan, kəbinini oğlum Yezidə kəsərsən. Molla qoca, çopur, çirkin, yoxsul adam idi. Dəvəyə səvar olub, Abdullah ibn Kəbin arvadının yanına getdi. Əhvalatı arvada təfsilatı ilə nəql elədi və əlavə məlum etdi ki, özüm də müştəriyəm:

«İstəyirsən dünyan olsun, yaxşı güzəranın, kənizin, gətir-götürün olsun, xanım olasan, kef çəkəsən, onda Yezidə get. Yox, istəyirsən bu dünyanı birtəhər keçirəsən, axirətin xoş olsun, qiyamətin günündə cənnətdə feyziyab olasan, əbədi xoşbəxtliyə çatasan, ənbiya ilə həmsöhbət olasan, abi-kövsərdən içəsən, cənnətdə yeyəsən, onda mənə gəl!..»

Sarıqlı molla burada başını qaldırıb, diqqətlə Qumruya baxdı. Qumru isə əsir, məzlum bir halda küncə sıxılıb, uşağını əmizdirirdi. Sarıqlı molla onun diqqətini cəlb etmək üçün öskürdü, dedi:

- Görün Abdullahın salihə övrəti nə elədi.

- Nə elədi?

- Abdullahın övrəti salihə, mömünə idi, qabil, aqil idi. Düşündü və dedi ki: «Ey nurani şəxs, Yezidin sarayı başına dəysin, Abdullahın da vəfasına tüpürüm. Mən sənə gəlirəm, nikahımı oxu!..»

Sarıqlı molla sözünü bitirib, başını qaldırdı. Bir də gözünün altından Qumruya baxdı, çayını hortuldatdı:

- Qumru xanım, necədir? Mültəfit olursan?

- Niyə, hədisdir də...

- Hədisdir, həm də çox mötəbər hədisdir. Görün necə saliyə övrətlər varmış. Bəəəs... İndiki kimi övrətlər cifeyi-dünyaya aldanmazdılar. O zaman ayrı iş idi, ayrı məqam idi.

Axund eynəyi gözündən çıxarmamışdı ki, yüzbaşı içəri girdi. Sarı, ağır Buxara papağını qapıya çırpdı.

- Yağış qiyamətdir, - deyə ayağını silməyə başladı.

Şirin ayağa qalxdı. Axund yerində qımıldandı. Onun fikrinə gəldi ki, gecənin bu vaxtında yenə nə var görəsən:

- Xeyir ola, bəy, nə əcəb buyurmusunuz?

- Xeyirdir.

Bəy oturdu. Şirin yeni bir şey eşitmək üçün qulağını şəklədi.



Qumrunun isə dərdi sözələndi, nifrəti coşdu, lakin susmaqdan başqa çarəsi yox idi. Axund gözünü yüzbaşının ağzına dikmişdi. Yüzbaşı hiss etdi ki, onun gəlişinin səbəbini axund duymamışdır. Özündən xoşhal oldu, oturuşu və danışığı ilə ciddiliyini saxlamaq üçün ehtiyatla tərpəndi. Qəlyanı alışdırdı, gücənərək bir mövzu aradı. Gələndə vacib söhbətə oxşayan məsələ hazırlamışdı, lakin gözü Qumrunun üzünə sataşan kimi hər şey yadından çıxdı.

Axundu intizar boğurdu. O elə güman edirdi ki, yenə də ölüb-öldürmə hadisəsi var. Bir də soruşdu:

- Xeyir ola?

Bəy qəlyanı dəmlədi.

- Xeyir olmayanda nə var.

Yenə arada sükut oldu. Axund zənn etdi ki, bəy vacib məsələdən danışacaq. Bir də qımıldandı, diqqətini topladı, gözlərini bəyin dodaqlarına zillədi. Bəy burcuxdu. Çətinliklə söz tapanlar kimi kəkələdi:

- Zaddır. Əee. Nə deyəcəydim, şovqərib... mmm. Zəhrimar huşum dağıldı getdi.

Bəy mövzu tapa bilmirdi. Axund isə özündən şübhələnirdi. Bəlkə evdə arvad-uşaqda bir bəd hərəkət olub ki, bəyin acığı tutub. O, arvadını başdan-ayağa süzdü. Bir şey hiss edə bilmədi. Yalnız xınalı ayaq barmaqları görünürdü. Axund öskürən kimi Şirin gen və uzun tumanı ilə ayaqlarını örtdü. Yüzbaşı sözə başladı:

- Hə, mmm. Axund, millətin halına heç qalmırsan ha.

- Necə məgər?

- Elə də!

- Yoxsa yenə kirvələrdən xəbər var?

- Var, bəəə...

- Əsgəran alınmayıb ki?

- Alınar da. Vaxt olar alınar!

- Nə vaxt? Yoxsa müsəlmanlar şəhərə giriblər?

- Allahın izni ilə şəhərə də girərlər, kəndə də girərlər, köyşənə də girərlər, örüşə də... Niyə girməsinlər!..

Bəy alacalanmış gözünü ətrafa dolandırdı, mövzu tapdığından, arxayınlaşıb, səsini ucaltdı:

- Yaman darıxıram. Zəncirdə olsam bundan yaxşıdır. Pristava nə qədər dedim hünər məqamıdı, qoy gedim səngərə, dedi olmaz. Sən də kəndi buraxsan camaatın arvad-uşağı necə olar? Onu bil ki, axund ağaya and olsun, mən dözə bilmirəm. Daha bəsdir. İgidə yaraşar heç? Səngərə getdimmi, ya ölərəm, ya alaram. Elə gəlmişəm məsləhətə, nə deyirsən?

Axund onun sözünü kəsdi:

- Xeyr aaa... Mən sizi tanımırammı, maşallah, sizdə Əli şücaəti var. Qan ki, duruldu, igidin arxası yerə dəyməz. Mən məsləhət görürəm, get! Mehmandarov səni görsə bağrına basar. Məsləhətdi, ələhəni götür, get!

Bəyin fikrinə gəldi ki, «aşnam məni əkmək istəyir. İstəyir ki, Qumrunu xəlvətə salıb, o söz! Yox, ay ağbaş tülkü! Qumru sənin xörəyin deyil. Eşşək nə bilir zəfəranın dadını. Bağışlayasan...»

Gecə keçmişdi. Bəy hazırlaşıb getmək istəyəndə heç kəs mane olmadı. Axund sevindi. Ona elə gəldi ki, bəy ermənilərlə davaya gedəcək:

- Yaxşı yol, uğur olsun, bəy!

Yatmağa hazırlaşırdılar. Qumruya ehtiram olmaq üçün axund öz yerini balaca otaqda saldırdı. Qumru çölə çıxmışdı. Dəhlizdən ötəndə xırıltı səsi eşitdi. Elə bil damda qar kürüyürdülər. İçəri girəndə anladı ki, axund yatağında qaşınır.

Axund arvadına tapşırmışdı ki, Qumrunun yerini ayna qabağında, ipək yorğan-döşəkdə salsın. «Çünki o, Allah qonağıdır. Ona hörmət vacibdir».



Çıraqlar söndü. Ev-eşikdə hərəkət kəsildi. Yuxu ağır ehtiyac kimi qara qanadları ilə evlərə qondu. Kainat yumulu gözlərə doldu. Yalnız axundun arxalıq cibindəki zəncirli və qapağı «şah nişanı», gümüş saat, ağır yük altında zıqqanan hamballar kimi səslənirdi: «Tıq, tıq, tıq...»

Axundun gözünə yuxu getmirdi. O, dünyanın naz-nemətini bir-bir qaranlıq nəzərlərindən keçirib qiymətləndirir, «mənkuhatın müəzzəm faillərini» düşünür, qadına «ləzzətlərin padşahı» deyirdi. Xüsusən belə Qumru kimi «məhəbbətin qumrusu, gözəlliyin leylası» ola:

- Həqiqətən Qumru! Qurban olum bu adı qoyan anaya!

Axunda elə gəldi ki, axşamkı hadisələr hədər getmədi. Sakit dinləməyindən, kəlməbaşı «bəli, bəli» deməyindən bəlli idi ki, Qumru Abdullahın arvadı kimi olmaq istəyir. «İstəyir, istəməsə əyan edərdi!..» Bəzən xoş ehtimal xoşagəlməz həqiqətdən üstün olur.

Axundu ehtiras boğurdu: «Ömür-gündən keçən dəqiqələrdən istədiyiniz kimi istifadə etməməkdən qorxunuz». Ömər Xəyyamın belə bir rübaisini xatırlayanda, elə bil, yatmış axundu yataqdan dik qaldırıb, ayaq üstə qoydular. O, canlı skelet kimi sükutun, qaranlığın içində üzürdü. Səs olmasın deyə heç şey geyinmədi. Qara gecə ləbbadəsini ehmalca çiyninə salıb, dəhlizə çıxdı. Böyük evin dəmir rəzəsindən tutdu, qiraətlə oxunan bir dua tədricilə qapını açdı. Mahir oğrular kimi nəfəsini içəri çəkdi, yanakı sürüşüb, qadınlar yatan otağa girdi. Bir qədər susdu. «mətləbə» yaxınlaşdığına görə sevindi. Vəziyyəti yoxlamaq istədi. Ayılan olarsa, kibrit axtardığını deyəcək, arvadını danlayacaqdı. Yatanların dərin yuxuda olduğuna qəti, inanandan sonra «bismillah» deyib, kərtənkələ kimi yerə uzandı. Əvvəlcə əlini pəncərənin qabağında salınmış yatağa, ipək yorğan-döşəyə uzatdı. Əli yatağa dəyəndə yavaşdan, xəfifcə bir xışıltı eşitdi. Yatanın vəziyyətini

yorğanın üstündən təxmini təyin etdi. Əlini qoltuğuna qoyub qızdırdı. Ehtiyat və tədriclə yorğanın altına uzatdı.

Barmaqları yatanın isti və yumşaq qılçalarına toxundu. Bu halda axundun ürəyi, yerindən çıxacaqmış kimi, bərk-bərk döyündü. Qumrunun təslim olmuş vücudu, munis baxışı, «şəhla gözləri» axundun qarşısında dayanıb, canlandı. Ehtiyat və qorxunu buraxmaq, kəmər kimi qadının belinə dolanmaq istədi. Bir də lənət şeytana dedi, tez-tez nəfəs aldı, nədənsə sinəsində yığılan, onu darıxdıran şeylər öskürmək tələbi doğurdu. Az qalmışdı öskürsün. Özünü güclə saxladı, əlini ağzına qoydu, oğurluqca birtəhər udqundu, mətləbinə davam etdi.

Axund əllərinin təmasına qadında etiraz görmədi, sevincindən az qaldı aşkarca qollarını açıb qucaqlasın, «ox, qadan alım sənin, ay Qumru xanım!» desin. Bunu edə bilməzdi, çünki evdə «ayrı» adam var idi. İnandı ki, axşam danışdığı hədis Qumrunu o ki var bişirmişdir. O, axundun olmaq istəyir. Buna çoxdan razıdır. Yalnız siğə oxumaq lazımdır ki, «Allahın əmri, peyğəmbərin şəriəti ilə» halal olsun... Axund gecənin qaranlığında kəhildəyə-kəhildəyə dil-dodağını tərpədir, qan-tər içində siğə oxuyurdu...

Axund məqsədinə nail olandan sonra yağ-bal yemiş kimi şad və çox razı bir halda, isti yal içmiş kimi, dil-dodağını yalaya-yalaya yatağına qayıtdı. Özündə cəsarət və qələbədən doğan bir şən-şətarət, yüksəklik hiss etdi: «Mənə də Sarıqlı molla deyərlər. Qoy Bəbir bəyin həsrətdən canı çıxsın. Qədir kəfən yırtıb, məzarlardan xortlasın. Amma haqq öz yerini alacaq. Cəhənnəm əzabında çırpınan Qumru, cənnət əvəzində mənim Quran-kitablı sinəmdə yatacaq. Bundan sonra heç yatmasa nə olar, necə deyərlər, «gülünü dər, tikanı ver!»

Bu təşbeh axunda heç xoş gəlmədi. Doğrudan da Qumrunun gül və ətir qoxulu mərmər bədənini tikana oxşatmaq insafdan kənar bir şeydi.



Qumrunun mütənasib vücudu, ağ və yumşaq bədəni axundun gözü önündə təkrar canlandı və hərəkətə gəldi. Bu dəfə Qumrunun nə başında çadra, nə bədənində libas var idi. O, qədim memarlara məxsus çılpaq heykəllər kimi, qol-qanad açıb durmuş, axundun vüsalına həsrət çəkirdi. Axunda yenidən həvəs gəldi...

- İşdir, qəzadır, - dedi, - bəlkə heç qız mənə qismət olmadı. Fürsət var ikən «ləbi-candan kövsər suyu içməyəsən?.. Fürsəti fövt eyləməz aqil məgər nadan ola!..»

Ayağa qalxdı. Bu dəfə çiyninə heç bir şey salmadı. Yeyin getdi, çünki onun işıqlanan gözləri qaranlığı yarıb ötürdü. O indi naşı və qorxaq alma oğrusu kimi yox, mahir bir quldur kimi cəld hərəkət etdi.

Axund o biri otağa girəndən sonra barmaqlarının ucunda yeridi. İpək rəxti-xaba girdi. Qadını qucaqladı. İndi Axund özünün ən xoşbəxt dəqiqələrini yaşayırdı.

Sanki hər şey axunda paxıllıq edirdi. Külək həyətə süpürgə çəkərək, nəyi isə ağacdan yerə salıb danqıldatdı. Xoruzlar ağız-ağıza verib sabahı çağırdı. Axund arvadının oyanmasından qorxurdu. Lakin o yanılırdı, özünün oyanmağından qorxmalı idi. Elə də oldu. Axund ayıldı, anlaya bilmədiyi bir ehtiras yuxusundan oyandı və çox qəribə, gözlənilməz bir vəziyyətə şahid oldu.

Axundun qucağındakı öz arvadı Şirin idi. Adi hallarda axund aylarla ona yaxın durmaz, iyrənərdi. Şirin axundun bu gecəki hərəkətlərindən təəccübləndisə də, mənasını anlaya bilmədi: «Bu gün sənə nə olub, a kişi?»

Axund barmağını dişlədi. Suyu süzülmüş, dəryada gəmisi batmış kimi, pərişan bir halda yatağına qayıtdı. Şeytana lənət oxudu. O, həyatında heç vaxt belə aldanmamışdı. Bir şeyə sevindi ki, heç olmazsa aldandığını kimsə bilmədi: «Allah sirr açmayıb, bu da açılmaz... inşallah, açılmaz!»

Qədirin diriliyi hökumət yanında təsdiq olunmamışdı. Dirilməyinin üstündə onu da «gedər-gəlməz»ə göndərmişdilər. «Şəriət sahibindən» xəbər çıxandan sonra yüzbaşı işə başlamışdı. Gələn dost-aşnaya əvvəl şirin çay, sonra da quzu ətindən kabab verirdi. Toy tədarükü bərpa olundu, bir az da şiddətləndi. Bəy on səkkiz yaşında oğlan kimi dost-aşna yanında atılıb düşürdü:

- Ədə! - deyirdi, - dul olmağıma baxmayın, mənim əsl toyum indidir. Qıssa köhnəlib gedib. Mən Qumru kimi bir can alıram, Qıssa nə qələt eləyir? Onu Qumruya kəniz saxlayacağam ki, gəlinin əlinə su töksün.

Bəy bunu ona görə deyirdi ki, «Əlli yaşında cavan» deyə ona lağ eləyənləri susdursun. Bu söz Qıssa xanımın qulağına çatanda özünü yerdən-yerə vurdu, başını daşa, divara çırpıb qanatdı, üç uşağını götürdü, ayaqyalın çıxıb getmək istədi. Onu kiridən Qumru oldu:

- Qıssa xanım, qorxma, mən səndən və sənin uşaqlarından xəcalət çəkirəm. Həm də sənin axmaqlığına gülürəm. Görünür, sən məni tanımamısan! Yəqin elə ki, min canım ola, hamısına da qurd düşsə, Bəbir bəyi yaxın qoyan deyiləm. Bu tədarüklər səni ağrıtmasın. Qədirin canı sağ olsun. Onun adı mənə bəsdi. Bu, toy deyil, kimin isə yas tədarüküdür. Bu baş tutsa, gərək göylər uçulub tökülsün.

Qıssa xanım, ayrıca bir otaqda saxlanan, axundun əmrilə məhbus kimi insanlardan az qala təcrid edilən Qumrunun sözlərinə inanırdı, çünki o, təbii olduğu qədər səmimi, səmimi olduğu qədər doğru bir insandı. Onun faciəsi də bunu isbat edirdi. Bu sözdən sonra Qıssanın Qumruya məhəbbəti artdı. Onun halına yanır, uşağını dindirirdi, lakin qəlbindəki qısqanclıq və intizar onu içindən gəmirib yeyirdi. Ona aydın deyildi ki, bu toy, yaxud bu faciə nə ilə nəticələnəcəkdi. O, balkonda əlini qoltuğuna qoyub pərişan durur, qazan gətirənlərə, çörək bişirən, odun yaran, qab-qaşıq yuyanlara baxıb düşünürdü...



## YƏQİN

Qədir Məşədi İslamla çox tələsik gedirdi. O, şəhərə çatmaq, Bəbir bəyin, Sarıqlı mollanın paxırını açmaq istəyirdi. «Dərəni xəlvət görən belə adamlar qanunu, şəriəti saymayıb, hər şeyi öz istədikləri kimi öz xeyrinə aparırlar. Buna dözmək olmaz. Qoy qanun verənlər, şəriət sahibləri bilsinlər ki, kəndlərdə camaatın başına nələr gətirirlər. Qoy bilsinlər ki, necə xəlvət dərələrdə tülkü bəydir».

Əvvəlcə Şeyxülislamın yanına getmək lazım idi. Qoy o da öz qulaqları ilə eşitsin, görsün ki, kasıb-kusub nələr çəkir.

Qədir başıaşağı yeriyir, böyük və son bir ümid arxasınca yeyin gedirdi. Gedirdi və ürəyində sözlər arayırdı: «O, mehriban və işıqlı üzünü bizə çevirib soruşacaq. Şeyx nurani saqqalını tumarlayacaq, bizimlə salam-kəlam edəcək. Mən utanmaqlığı, sıxılmaqlığı bir kənara qoyub, danışacağam, ürəyimi boşaldacağam. Hər şeyi deyəcəyəm. Onu inandıracağam ki, Sarıqlı mollanın dərdi-başı öz qarnıdır. Yüzbaşı xalqın namusunu gözləmək əvəzinə, kasıbların arvadını ələ gətirmək üçün tülkü hiyləsi qurur. Kəndin ağsaqqalları da onlara qoşulur. Mən yekəlikdə adamın diriliyini danırlar. Dirigözlü adamı öldüyə çıxırlar. Möhür basıb, qol çəkirlər. Məni öz evimə qoymurlar. Bu hansı şəriətdə var? Qanun beləmi deyir? Ədalət bəs hanı? Pulum ola, mümkünüm ola, Bakıya gedərəm. Yerinə yetişərəm. Bunları Nəsib bəyə söylərəm. Onda sizin üçün eyib olmazmı?.. Belə də zülm olarmı? Bu harda görülüb, hansı ölkədə görülüb?

Şeyxülislam heyrət edəcək, bunlara inanmayacaq. Onda ver, deyərəm, adam ver, qəmisiyə ver bizimlə getsin, görsün ki, mən yalan demirəm. Görsün ki, mən gözümlə gördüyümü, olub-keçəni,

bəlalı başım çəkəni deyirəm. Qoy görsün, yəqin eləsin. Siz də millətin, islamın xatirinə bu xainləri cəzasına çatdırın ki, özgələrə dərs olsun».

Məşədi İslam yol boyu danışırdı, lakin Qədir fikir-xəyalda idi, çox sözü eşitmirdi...

Onlar çatmışdılar. Yağışlı bir gün idi. Səkilərin üstündə palçıq dizə çıxırdı. Adamlar addımladıqca palçığa batırdılar, küçədən ötən faytonlar on addım kənara, sağa-sola palçıq səpirdi. Atlar hər addımda ayaqlarını palçıqdan güclə çəkib çıxarır, ağır-ağır yeriyirdilər. Adamlar ətəklərini yığıb pişik kimi ehtiyatla addımlayırdılar. Qədirgil isə tələsirdi. Zəmidə suvarma ya cüt sürmə vaxtı kimi heç nəyə məna vermədən gedir, cürətli və cəld addımlarını yerə vurduqca yer qanad çalırdı. Kənarlara daşlanan palçıq ötənlərin üstünü bulayırdı. Onlar əyri-əyri baxıb, hirslə deyirdilər:

- Hoqquş, eşşək kəndli!

- Yavaş, a çöllü!

Lakin rəncbərlər bunları eşitmək istəmirdi, çünki iki dəqiqə sonra Şeyxülislamın hüzurunda isbat ediləcəkdi ki, eşşək kimdir!

Onlar məsciddən məyus qayıtmalı oldular. Şeyxülislam Mamırlı bəyin toyuna getmişdi. Qayıtmağı uzun çəkəcəkdi:

- Gedək birbaş pristavın hüzuruna!

- ...

Fikirləşmək vaxtı deyildi. Məşədi İslamın dediyinə Qədir də razı oldu. Pristavlıq qala düzündə «Dumun» yanında idi. Soraqlaşdılar. «Ələs bəyin idarəsi» - deyə nişan verdilər.

Şikayətçilər oraya çatanda yağış altında, qapıda çox adam var idi. Növbə gözləyirdilər. Bir qorodovoy qapıda durub, adamları növbə ilə buraxırdı. Uzunbığlı, gümüşü çinli kişilər növbəsiz girir, gülə-gülə çıxırdılar. Bucaqda, novdan altında oturan, nəyi isə gözləyən müntəzir kəndlilər əliboş deyildilər. Bunların çoxu cərimə





olunmuşdu. Kimisi əsgərlik işinə, kimisi də Qədir kimi şikayətə gəlmişdi. Kiminin çiynində xurcun vardı, bəzisi quzu, bəzisi də turac gətirmişdi. Rəncbərlər isə əliboş idilər. Biabır olacaqlarını düşündülər. Qədir kəmcürətlik etdi:

- Gəl qayıdaq!..

Məşədi İslam razı olmadı:

- Nə olsun? Birinin varı olar, o birinin olmaz. Böyüyümüzdür. Dərdimizi bəs kimə deyək? Qoy eşitsin, görsün ki, kənddə bizə nə gün verirlər. Əlidolu olmağa qoyurlarmı? Acından bağırsağım qırıldayır. Əlimdə nə olasıdır, ay sağ olmuş?.. Lütün nəyi var ki, ondan pay da versin...

Bir dilənçi arvad qucağında çılpaq və bozarmış uşağı ilə dalan qapısına yastılanıb pay istəyirdi. Ona fikir verən olmadı. Qorodovoy qapını basıb acıqlandı:

- Get, Allah versin, bir şey yoxdur, ay arvad!

Qadın uşağı sanki sıxıb çimdikləyir, uşaq çır-çır çığırırdı. Qadın bu çığırtı içində, paslı ərsin kimi, kobud səslə yalvarırdı:

- Aaacından ölür... İrəhm eləyin, ay qar...

Rəncbərlər lap axıra qalmışdı.

Qorodovoy baxdı:

- Şeyiniz hanı bəs?

- Bir şeyimiz yoxdur.

- Heç nə yoxdur?

- Yoxdur, xeyr!

Qorodovoy əyri-əyri baxdı, dinmədi.

Növbə çatmışdı. Pristavın hüzurunda ədəbli görünmək üçün Qədir düymələrini bağlayır, ətəklərini tuturdu. Ürəyi bərk döyünürdü. Çaşmamaq üçün şikayətini fikrində əzbərləyirdi. Qorodovoy tüfəngini əlinə alıb, ayağa durdu. Qapının bir tayını cəftələyərək, dedi:



- Qurtardı. Qalan adamlar sabah gəlsin. Qurtardı.

O bunu deyib, heç kəsə qulaq asmadı, içəri girdi. Qədir, Məşədi İslam kor-peşman qayıtdılar.

Onlar sabah hamıdan tez, gün çıxmamış pristavın qapısını kəsib durmuşdular. Bu gün hava açıq idi. Gün var idi, lakin bərk soyuqdu. Dağlardan çayaşağı axan küləklər adamın qulağını dondururdu. Pristavlıqda gözləyənlər, toyuq kimi, ayağının birini qoyub, o birini götürürdülər. Deməyə, gülməyə söz də qalmamışdı. Nədənsə belə vaxtlarda adamın dəqiqəsi bir il keçir. Gün orucluq ayı kimi çox tənbəl və ağır yeriyirdi.

Yenə adamlar yığıldı. Bu gün Qədir kimi qara camaatdan başqa «qazonni» adamlar da var idi. Misri çuxasının boynu yağlanmış, Buxara papağının zağarası getmiş bir çal kişi böyük yerlərdən danışırdı. Qədirin yanında bir bağmanlı var idi. Qulağına pıçıldadı ki:

- Bu, xadimi-millət Məşədi Fərzəlidir!

Qədir diqqətlə baxırdı. Onun gözünün altı qaralmış, burnunun ucu bibər kimi qızarmışdı. İri qara dodaqları atlı lobyaya oxşayırdı. Sel kimi bulanıq gözlərində nə isə bir təlatüm var idi. Bu təlatümün nə olduğundan baş tapmaq çətin idi. Qədirə elə gəldi ki, millət qeydi kişini üzür. El dərdi çəkməkdən kəlləsi qurumuş, boğazı uzanmışdır.

Yenə dilənçilər, hərə bir dil, bir dərdlə yalvarıb ötürdü. Kim isə əlini cibinə saldı, dilənçiyə iki şahı verdi. Məşədi Fərzəli hirsləndi:

- Ey əzizi-mən, bicəhət vermə. Bərадər, vermə, əfəndim, vermə!

Hamı üzünü ona çevirdi. O, dilənçiyə pul verən bir kişini sözə basmışdı. Əl-qolunu ölçüb, bir cinayət olmuş kimi, ucadan danışırdı:

- Əfəndim, yapdığın qəbahətin zırpılığını qanırsanmı? Paran çoxdur, ver qatığa, yax başına!

Qədiri gülmək tutdu. Qatığın yemək üçün, bəzi halda isə (məsələn, ilan-çayan adamı sancanda) dərman üçün işləndiyini Qədir

bilirdi. Ancaq başa yaxıldığını, nə üçün yaxıldığını bilmirdi. Məşədi İslam da «xadimin» sözünə çiyin çəkirdi. Xadim isə danlağında davam edirdi:

- Bədbəxt müsəlmanlar! Havaxt ayılacaqsınız?.. Paranı ver Vartazara, paranı ver Hamparsuma, ver xaricilərə! Qoy öyrənsin, qoy din düşməni dilənçi olsun. Müsəlman qardaşı niyə dilənçiliyə öyrədirsən? Kifayət deyilmi? İslamı zəlil, bədbəxt eləyən sizin kimilərdir axı... Abdal həriflər!.. Təklifini qanmayanlar, ax!..

Növbə rəncbərlərə çatmışdısa da, macal verən yox idi, başqaları addayıb ötürdülər. Qədir qorodovoya baxdı. Bununla nə isə demək istəyirdi. O, hiss etmişdi. Gözünü Qədirdən yayındırdı. Məşədi İslam yoldaşının qulağına pıçıldadı:

- Bu itin ağzına bir şey atmaq lazımdır. Yoxsa bizi buraxmayacaq! Mənim yəqinimdir, buraxmayacaq!

Qədir durub gəzindi. Saymazyana bir cırıq onluq çıxartdı, hərifə uzatdı. Qorodovoy əsnədi, böyrünü pula tərəf əydi. Qədir onluğu onun cibinə saldı. O, papiros bükmək bəhanəsi ilə cibini yoxladı, bu dəfə başqa adamları geri itələdi, rəncbərləri buraxdı:

- Bu kişilər uzaqdan gəliblər!..

Budur, Ələs bəy qarşıda, otağında oturmuşdur. Ağ, göyçək, nazikbığlı bir adamdır. Qara, yağlı tükləri işıldayır, bığları siçan qulağı kimi şeşə durur. Yanında iki nəfər adam vardı. Biri çalper, qıllıpapaq kişi idi. Onun qara, uzun, aşlı çarığa oxşayan sifəti Qədirə tanış gəldi. Otağın içəriyə açılan qapısından yaraşıqlı xanımlar, yaraşıqsız «pisarlar»[1] girib-çıxırdılar. Ələs bəy, heç kəsi görmür kimi, gələnlərə etinasız idi. Yanındakı qıllıpapaq kişi ilə danışırdı. Rəncbərlər qapının yanında əl-əl üstə qoyub gözlədilər. Bir xanım gəldi. Ələs bəy söhbətini kəsib, onu yola saldı. Sonra bir qorodovoy girib, meşədən iki meyit tapıldığını xəbər verdi. Ələs bəy başı ilə işarə etdi:

1. Katiblər



- Məscidə göndərin!..

Qara çadralı bir qadın zora və qışqırığa salıb, içəri təpildi. O girəndə çiyni ilə Qədirə elə toxundu ki, Qədir pristava tərəf hoppandı. Arvad nə dindi, nə danışdı, qucağından bir kündə çıxarıb, Ələs bəyin qabağına atdı.

Məşədi İslam diksinib, «hiii» elədi, Qədir də qorxdu ki, bombadan-zaddan olar. «Bizi də burada qana calayarlar!»

Sən demə, uşaq imiş. Uşar yumaqca kimi stola dəydi, nazik, zəril bir səs çıxartdı. Bilinirdi ki, bir fəlakət var. Qadın uşağı tullayıb, gözünün yaşını tökdü, hönkür-hönkür ağladı.

Çalper kişi qəlyanı yerə qoydu. Ələs bəy də dik-dik durub baxdı:

- Nə olub, ay arvad, nə var?
- Danış görək, ay bacı!
- Dərdini de!
- Ağlama, utanma, danış!

O kəsmə-kəsmə deyir, yanıqlı-yanıqlı dillənirdi. Bəlli oldu ki, yuxarıdan, dağ kəndlərindəndir. Ərini, qardaşını tutub «islam yolunda cahada», davaya göndəriblər. Hər ikisinin ölüm xəbəri gəlib.

- Üç gündür acam, uşaq ölür, bir qəpik əl tutan yox. Qapımızdan qatırı, çuvalları oğurlayıb aparıblar. Divan adamları şikayətimi eşitmir, ərizəmə baxmırlar.

Çalper kişi güldü:

- Ay müsəlman qızı müsəlman! Cavan adamsan, nə çoxdur ər, birinə qoşulub getsənə!..

Ələs bəy barmağı ilə işarə etdi:

- Bacı, baş qarışıqdır. Burada biz millətin gününə ağlayırıq, sən də qəpik-quruş davası döyürsən. Çıx, çıx, hələ görək başımıza nə gəlir.

Bəyin işarəsilə qorodovoylar arvadı çıxartdılar. Birisi murdar

əski kimi uşağın qundağından yapışıb, anasının qucağına qoydu. Uşaq, qırıq val kimi, zırıldayırdı.

Durmaqla bir şey çıxmayacaqdı. Qədir Məşədi İslama göz vurdu:

- Cürət lazımdır!

Tərpəndi, bir addım irəli yeriyib, şikayətə başladı.

Qədir əlini qoynuna saldı. Yüzbaşının verdiyi kağızı, başbiletini təqdim edib, bacardığı qədər «əməlli» danışdı:

- Təvəqqə eləyirəm mənim ərzi-halıma qanun ilə baxasınız. Yüzbaşının nə haqqı var mənim arvadıma müştəri çıxmağa! Necə deyərlər, ölmüşdümsə də dirilmişəm. Mən diri ola-ola qoymaram belə haqsızlıqlar ola!.. Hökumət var, pristav ağa var!..

- Nə deyirsən, anlamıram.

Ələs bəyin sözü Qədiri çaşdırdı:

- İzin ver başdan danışım?!

- Nu... de!

Oturanların üçü də Qədirin şikayətinə diqqətlə qulaq asırdı:

- Ərzim var! Mən getmişəm yaylağa qulluğa, divan işinə. Adımı çıxarıblar öldüyə. Bax, həmin yüzbaşı Bəbir bəy ki, qol qoyub...

Qədirin ifadəsi, sözləri, hərəkətləri yəqin ki, Ələs bəyin zəhləsini tökürdü. O dözmədi, şikayəti yarımçıq kəsdi:

- Nə istəyirsən ey, nə? A çöllü!

Qədir yenə də çaşdı. Az qaldı dili dolaşsın. Əl-qolunu tərpətdi.

- İzin ver lap başdan danışım!

Ələs bəy qaşqabağını turşutdu. Qıllıpapaq, çalper kişi dodağını büzdü, ikisi də birdən dilləndi:

- Nə istəyirsən, ey, nə?

- İstədiyim odur ki, mən dirilmişəm. Qoymaram arvad-uşağıma Bəbir bəy kimi canavarın əli dəyə! Görək... Qoymaram...

Qədir bu sözləri neçə bir həyəcanla deyə bildiyini təsəvvürümə



gətirə bilmirəm. Böyük ümidlər bəsləyib gəldiyi adamdan tamam qəlbi qırılmışdı. O, qızarmış və hiddətlənmişdi. Bir fəlakət qoparmağa hazır idi. Ələs bəy şikayətçinin hiddətini duyduğundanmı, yaxud nədənsə yumruğunu masaya çırpıb, ayağa qalxdı. Yoldaşlarına baxdı. Dünyanı dağıtmaq istəyirmiş kimi dartındı. İçəri qapıya səsləndi:

- Miri bəy, Həbib, gəlin, bir içəri gəlin!

Çalper kişi əyilib bəyə nə isə deyir, rəncbərlər eşitməmək üçün əlini ağzına tuturdu.

Məşədi İslam dala çəkilib, qaçaq yolu axtarırdı. Qədir quruyub qalmışdı. Belə yerlərin qayda-qanununu pozduğu üçünmü, onu başqa adama oxşatdıqları üçünmü, yaxud ağzından, kim bilir, nələr qaçırdığına görəmi onu belə qəzəblə qarşılayırdılar? Aydın deyildi. İçəri qapı açılan kimi yapıncılı, yaraqlı və yaraqsız adamlar otağa doldular. Bunlar Ələs bəyin qulluqçuları idilər. O, adamlara belə deyirdi:

- Görün, qulaq asın!

- De!..

- Nə deyim?..

Çalper kişi daha bərk acıqlandı, üstünə qışqırdı:

- Şikayətini danış!

- İzin ver başdan danışım!

- Di tez ol! Zəhləmizi aparma!

Qədir sevindi, zənn etdi ki, sözü Ələs bəyə çox təsir etmişdir. Uzaqlarda, kəndlərdə bu cür işləri, qanunun pozğunluğunu hamıya eşitdirmək, qulluqçulara «prikaz» vermək istəyir. Belə yüzbaşıların kələyini kəsəcək. Yaxşı da yeridir.

Qədir bir az da cürətə gəldi, dil açdı, ucadan dedi:

- ...Deməyim budur ki, Qobular kəndində, bəy sağ olsun, məni ölü hesab edib, ev-eşiyimi dağıdıblar, Yüzbaşı arvadımın kəbinini

özünə kəsdirib. Mən gəlmişəm sizə deyim. Görün ki, mən diriyəm. Gərək, haşa burdan, bir köpək oğlunun haqqı olmasın... Rəncbərin namusu yoxdurmu? Bu nə islam, bu nə hökumətbazlıqdır...

Qədir sözünü qurtarmamışdı ki, bəy qışqırdı:

- Kəs! Donuz oğlu donuz!..

Qədir xırp kiridi. Heç kəs dinmədi. Hamı şikayətçiyə, o da bəyə baxırdı. Vahimədən rəngi qaçmış, gözü böyümüşdü. Bir ürəkləndi üzr istəsin. «Nə günahın yiyəsiyəm, a bəy!» - desin. Bəy ayağının birini irəli qoydu, bir əli cibində, o biri əlini uzatdı, başdan aşağı rəncbəri seyr etdi. Üzünü adamlara tutdu:

- Baxın da... Görürsünüz ki! Başa bax, qulağa bax, ağız-burnuna bax, çarıq patavasına bax, dirilənə bax!..

O, ahəngini dəyişdi, quduz kimi qışqırdı:

- Kim səni diriltdi, ədə, donuz oğlu? Həə? Allahun əkbər ha!..

Nazik xətt qoydurmuş, yoğun qurşaqlı, təngnəfəs bir kişi bəyin sözünü tamamladı:

- Ədə, müsəlman, bədbəxt müsəlman! Sənin kimi müsəlmanı çayaşağı axıdım, çayyuxarı axtarım! De görüm səni urusmu dirildəcək, a qırxıq? Nikolay nə belə fazil müştəhid oldu sənə? Ay urus quyruğu... Ay qudurmuş!

Çalper kişi papağını yerə çırpıb özündən çıxdı. Başı gün kimi işıldadı. Qədir dərhal onu tanıdı. Bu, dağda Qədiri sillələyən Məşədi Süleyman idi. Demə, o çoxdan tanımışdı. Göy gözlərini üzünə tutdu, dişini qıcadı, qudurdu:

- Ədə, həpənd, bu da sənə dağdakı oldu? Balşavet oğlu balşavet!.. Başın bədəninə ağırlıq eləyir?

Üzünü bəyə tutdu, ahəngini dəyişdi:

- Bu tülkünü mən çoxdan tanıyıram. - Yenə rəncbərə döndü, altdan-altdan baxdı: - Füqərayi-kasibə! Baxarsan!

Qədirə o qədər də aydın olmayan bu sözləri o, bütün bədəni ilə



dedi. Səsini daha da gur çıxarmaq üçün əllərini böşlarına qoyub, mədəsini sıxdı. Bütün bədəni laxladı, yerindən oynadı. Söz tündləşmiş sirkə qabından partlayan tıxac kimi çıxdı, hündürdən, şikayətçinin başı üstündən ötdü.

Yerlərdən də dilləndilər. Səslər qarışdı:

- Qanını içmək lazımdır!

- Dilini kəsin!..

- Bu xainləri hələ də sağ qoymuşsunuz?..

Qədir əlini qaldırıb etiraz etmək, günahını soruşub anlamaq istəyirdi. Bəy əlindəki taxtanı stola elə çırpdı ki, qulaqlar cingildədi:

- İtirin gözümün qabağından bolşevik oğlu bolşeviki... Verrəm, dilini dalından çəkərlər. Onda «dirilərsən»! Dirilənə bir bax!

Qədir quruyub qalmışdı. «Bolşevik» sözünə təəccüb edirdi. Bunların hamısı bu sözdən qılıncdan qorxan kimi qorxurdular. Rəncbərin ürəyində bir maraq oyandı: «Mən öyrənməli, bilməliyəm. Bu sözlə tanış olmalıyam! Bu söz mənə lazımdır! Mən bu sözü yerində öyrənəcəyəm...»

O gündən rəncbərləri işıq üzünə həsrət qoydular. Əvvəlcə onları polisə apardılar. Karvansara həyətində on gün damda saxladılar.

Orada cürbəcür adamlar var idi. Sultanəlini də burada tapdılar. Deməyinə görə, kənddən qaçandan ikinci dəfədir ki, tutulur. Birisində zamin verib çıxmışdı. İndi işi bərk idi, həyətə də buraxmırdılar.

Qədir «bolşevik» sözünə olan marağını dedi. Sultanəlidən soruşdu: «Bu nədir, bunlar kimlərdirlər? Nə üçün bəylər bu sözdən belə qorxurlar?»

Sultanəli Qədiri kənara çəkib, qulağına pıçıldayırdı:

- Kasıbların tərəfi! Bolşevik kasıbları istəyir, dövlətlilərin atasını yandıracayıq. Firqəyə yazılsana!

- Nəyə?

- Firqəyə!
- Firqə nədir?

Sultanəli Qədirə anlatdı ki, bəylərin öhdəsindən gəlmək üçün kasıblar birləşirlər. Hər yerdə birləşirlər. Fəhlələr bir firqə yaradıblar. Bu firqəyə girmək lazımdır. Burada çox böyük və qüvvətli adamlar var. Hamısı düz danışan adamlardır. Hələ Rusiyada fəhlələr bayraq qaldırıb, bolşevik olublar. Dövlətliləri iş başından qovublar. Torpağı alıb kəndliyə, rəncbərə veriblər! Biz də burada o cür eləmək istəyirik. Bakıdan da xəlvəti yanımıza adamlar gəlir. Bizə kömək edir, bizi öyrədirlər. Birləşmək, əl-ələ vermək gərəkdir! Sən də yazıl! Məsləhətdir!

- Bolşevik!

İndi bu söz yaxşı təbib kimi Qədirin qarşısında durub, onun dərdli üzünə baxırdı. İndi onun əlini sıxmaq və himayəsi altında dayanmaq həvəsi, dadlı arzular kimi, Qədirin ürəyində dolanırdı...

O, aldandığını, bu bağışlanmaz sadəlövhlüyünü bir də xatırladı. Öz-özünə utandı.

Bunlar, Sultanəli kimi əziz və igid yoldaşlar Qədirin tutduğu işi, qəbahəti nə üçün başına vurmayırlar? Nə üçün onlar demirlər: «Axmaq, ömrün yarıdır, hələ də düşmənini tanımadın? Bəbir bəydən mərhəmət umursan? Zəhərdən şəfa, ağadan vəfa heç görmüsən?

Onlar bunu, bu qəbahəti Qədirin üzünə vurmurlar, lakin özü duyur. Bu onun üçün daha ağırdır. O, Sultanəlinin, əziz yoldaşının uzaq gördüyünü duyduqca sevinir, Bəbir bəyə olan kin və cəsarəti qat-qat artır, bir qartal kimi uçmaq, iti caynaqları ilə onun qarnını sökmək istəyirdi.

Məşədi İslam daha çox darıxırdı. Qumrunun köməksiz və intizar qaldığına Qədirdən az darıxmırdı. Sultanəli kömək elədi. Qorodovoyun əlinə bir şey sürtdü. Məşədi İslamın günahı kiçik idi.



Qol çəkdi ki, onu buraxsınlar. Buraxılan kimi kəndə, Qumrunun dalınca getməli idi. Kənddə nələr olduğunu Qədir bilmirdi. İntizardan ürəyi qısılırdı.

Qədir başına gələnləri məhbuslara danışanda hamı suya dönmüşdü. Uzun və mənalı bir sükut kameranı tutmuşdu. Qədirin faciəsi o qədər dərin və ağır idi ki, dinləyənlər hamısı kədərlənmiş, bəylərə nifrət etmişdi. Qədir dinmirdi. Sərgüzəştinin buraxdığı təsiri, məhbusların ona hörmət və rəğbətini görüb, xoş bir sükutla yoldaşlarını dinləyirdi. Onun ağır günləri, qurğuşun dağlar kimi, əriyib ürəklərə tökülür, boğulur, incidirdi. Kamerada anlaşılmaz bir qaranlıq duyuldu. Qiyas dilləndi:

- Sən canlı romansanmış, balam!..

Yenə sükut oldu. Hamı düşünür, hər kəs ürəyində, bacardığı kimi lakin eyni bir mətləbi düşünürdü:

«Yox bizə heç kimsənin imdadı,
Sultanlardan, paşalardan,
Bunlar bütün insanlar cəlladı,
Özümüzük bizi hürr yaşadan...»

Qiyas bu sözləri hündürdən oxuyanda Qədir çox maraqlandı:

- Hansı şair deyib bunu?

Qiyas gülümsədi:

- Bunu şaiğlərin şaiği deyib. Bunu əli qabağlılar deyib. Səni apağğam. Biğ yeğə, hələ göğ nələğ eşidəcəksən, nələr öyğənəcəksən. Sən kəndə lazım adamsan, Qədiğ! Kəndliyə lazımsan!

Qədir xahiş etdi ki, şeri bir də oxusun. Onlar səs-səsə verib, bu sözləri hava ilə pəsdən oxudular. Kameraya ruhu oxşayan bir şənlik, qaranlıqları boğan bir işıq gəldi:

Qalx ey lənətlə damğalanmış,
Ac və çılpaq məzlum dünya!
Zülmə qarşı vicdanlar yanmış,
Alovlanmış qanlı dəva...

## ARZULAR

Qiyas bu gün çıxası idi. Vaxtı tamam olmuşdu. Qədirin qulağına pıçıldadı:

- Mən getdim. Dəftəğdə imza atmayacağam. Bu vəsiqəni cibinə qoy, mənim adımı üstünə götüğ. Sabah axşamüstü, adlağ çağığılanda dəftəğdağı tutağsan, xahiş edəğsən. Depoda, pambıq zavodunun qabağındakı evdəyəm... Gözləyiğəm. Halalik... Buradan çıxan kimi məni tap.

Dostlar qardaş kimi həsrət, məhəbbətlə öpüşüb ayrıldılar. O gecə Qədir sevindiyindən yatmadı. Şirin xəyallar, ailəsi ilə görüş arzusu yuxunu gözündən qaçırmışdı. Səhər qarovulun başına qaxırdı ki:

- Mənim vaxtım dünəndən tamamdır. Niyə demirsən, basmısan bura, çürütmək istəyirsən? Rəncbərəm deyin ayaqlayırsan?

Qarovul çiyinlərini çəkdi, müəyyən söz demədi. Qədir dəftərdarın yanına getdi:

- Əfəndim, mənim vaxtım dünən tamam idi. Dünən qalabəyi özü dedi, adımı çağırdı. Gecə sancılanıb qalmışam, adam buraxılanda xəbərim olmayıb. Xahiş edirəm burax!

Dəftərdar siyahıya baxdı:

- Qiyas Dəmirov!..

- Bəli, o mənəm, özüdür.

Bu familiyanın qabağı bomboş idi. Dəftərdar Qədirin vəsiqəsinə



baxdı, uzun, çirkli və kənarları sürtülmüş dəftəri onun qabağına itələdi, «qol çək!»

Qədir barmağını mürəkkəbə batırıb, ora basdı.

- Murdarladın ki, - deyə dəftərdar məhbusa çımxırdı. Səsləyib qarovulu çağırdı, başı ilə işarə verdi:

- Bundan şeyləri təhvil al!

Qədir ayağını darvazadan çölə qoyanda buraxıldığına inandı. Gün işığına, sərbəstliyə çıxdığına, təmiz hava udmağına sevinib, daban aldı, qaladan uzaqlaşdı. Qulağı səsdə idi, yeridikcə xəyalına elə gəlirdi ki, bu saat qarovul dalımca gəlib qaytaracaqdır. Kürəyinə də tüfəngin küpü ilə döyüb, «hara qaçırsan, kimi aldadırsan?» deyəcəkdir.

Gözdən itəndən, qala düzündən, polis nəzarəti dairəsindən uzaqlaşandan sonra kənar, xəlvət küçələrin birində, daşın üstündə oturub, azad, rahat nəfəs aldı. Ətrafdan yaz havası gəlirdi. Ağaclar puçurlamış, qarlar ərimiş, üfüqlər açılmış, ətəklərilə üfüqü örtən zümrüd göy, bulaq suyu kimi dumduru olmuşdu.

Qədir Qiyasla vədələşdiyi yerə getdi. Yavaş və heyran kimi yeriyir, hər addımda ətrafı süzür, sanki yeni bir şey görür, yoxlamaq istəyirdi. Lakin hər şey öz qaydasında idi. Yenə də eşşəkçilər bazara girir, faytonçular ötüşür, təkəri qırılmış arabanın arıq atı üzünü günəşə tutub, yaralılar kimi, ağır-ağır ufuldayır, dilənçilər müntəzir nəzərlərini ötənlərin əlinə dikib boynunu burur, mərhəmət diləyirdilər. Qara çadralı qadınlar qarğa sürüsü kimi küçələrdə yan basa-basa gedirdilər. Yasdan, yaxud mərsiyədən qayıdırdılar. Yeddi ay içərisində, deyəsən, dünyada heç bir şey dəyişməmişdi. Yalnız həbsxanada yadırğamış Qədirin addımları kiçilmiş, yavaşımışdı. İndi Qumrunun intizarı onu həbsdəkindən artıq sıxırdı. Lakin yeni bir duyğu onun bütün arzularına üstün gəlirdi. Yol yerimək, hər şeyi görmək, adamları dindirmək arzusu Qədirdə güclənmişdi.

Sanki aylardan bəri qalada yatmağının, məhrum olmağının əvəzini çıxmaq istəyirdi. Onu azadlığa, gün işığına həsrət qoyanlara qarşı qəzəb hissi coşurdu.

İntiqam, mübarizə!..

O, piyadaca stansiyaya, Qiyasın yanına yollandı. Qiyasla yoldaşlığı sanki onun xəyalından və təsəvvüründən bir örtüyü, çoxdanın ağır və tozlu örtüyünü götürmüşdü. Bəlkə də bu, örtük deyildi. Uzun illərin soyuğunda, qarında, isti və tüstüsündə qəlbinə yapışan qalın bir qabıq idi. Bu qabıq götürüldükdən sonra o, yuxudan ayılmış kimi oldu.

«Yox bizə imdad sultanlardan, paşalardan...»

Qiyasın ağızdolusu, şirin-şirin danışdığı bu sözlər, Qədirə həyat mahnısı kimi yeni, munis, xoş gəlirdi. O, ağaların, yüzbaşıların taxtdan düşməsini təsəvvür edə bilmirdi. Onların qarovulları, qorodovoyları, əsgərləri, silahları Qədirin gözü önündə böyük bir qüvvə kimi canlanır, hər şeyə - şirin arzulara, xoş günlərə mane olurdu. Lakin çətin olsa da, uzaq olsa da, Qədir bu arzularından ayrıla bilmirdi. Ona elə gəlirdi ki, Qiyasın tanışlığı və dostluğundan sonra qəlbində cücərən bu xəyal və arzular çay kənarında bitən ağac kimi bəslənir, boy atır, böyüyür, bərkiyir.

## İTKİ

Züy tutulmuşdu. Bəbir bəyin adına, arzusuna layiq toy! Boyat və gecikmiş olsa da, bu toyun gurultusu və şöhrəti Qobular kəndinin çəpərlərini, dərə-təpələrini çoxdan aşmışdı. Uzaq yoldan şirmayı kəmərli bəylər, qalın qurşaqlı, Xorasan kürklü, tirmə arxalıqlı hacılar, kərbəlayılar, dörd qatar qoçular gəlmişdilər. Zurna sazı



təqib edirdi. Hekayəti bitirmək bilməyən aşıq sazı «Şahzadə Əbdüləzim» nağılını ipək kimi tel-tel edib, çırtıq çalan adamların qulağına doldururdu. Adamlar Bəbir bəyin saqfinədək fərşlə döşənmiş zalına girən kimi xarici mühitdən üzülüb, kefli musiqinin haldan-hala düşən səsilə yaşayırdılar. Musiqi susan kimi toybəyinin zoğal qamçısı şart-şart şartıldayırdı.

- Gətirin Hacı Qurban oğlunu! Cərimə altmış manat!

- Hacı Ağa kişini çəkin ortalığa, bir taqə ləzgi şalı! Yengə payı!

Həyətdə bərkdən qah-qah çəkib gülən Dülgər oğlu Paşanı bəyin əmrilə çəkib, ortalığa saldılar. Toybəyi bir stəkan araq doldurub verdi:

- Cərimədir, iç!

- O, heç ömründə, çaxır içməyib!

- Çaxır deyil, araqdır!

Adamlar Paşa kişinin halına qalır, onu qurtarmaq istəyirdilər. Bəy isə əlini belinə qoyub, əmr edirdi. Paşa kişinin əlacı kəsildi. Stəkanı əlinə aldı, bir az dayandı, nəhayət, dilləndi:

- İçərəm, bəy, Sizin sağlığınız elə biz kəndlilərə cərimədir!..

Bəyin dediyi qanundur. Hamı boyun əyməli, əməl etməlidir. Pullar alınır, qaval dolur, ciblər boşalırdı. Kimi sevinir, kimi peşman olurdu. Eşikdə isə zəfəran iyi küçədən keçənləri saxlayırdı. Çirməkli aşpazlar, oğlan doğan ananı əzizləyən kimi, plov qazanının başına dolanırdılar. Yağ əridən, odun qoyan, yumurta çırpan, lavaş doğrayan, qaz düzən, xuruş qovuran, göyərti yuyan, soğan soyan kim!..

Üçüncü səhnə Qumrunun qarşısında açılmışdı. Balaca bir otağa qoşa-qoşa lampalar, daş aynalar, güldanlar, ətirli şüşələr qoyulmuşdu. Qumrunu qurbanlıq quzu kimi bəzəmək, bir canavara təslim etmək mərasimi hazırlanırdı. Qumru qaranlıq bir gecədə kainatın dar ağaclarından asılmış kimi çabalayırdı. Hər şey onun

əzablarına duyğusuz olmuşdu. O, daşa dönmək, yaxud şam kimi əriyib yerə tökülmək istəyirdi. O, son ümidini Qədirin qardaşlığı, əziz dostu Məşədi İslama bağlamışdı.

Məşədi İslamın yaxın adamı Mələknisə bu toyda məşşatə idi. Gəlini bəzəyib-düzəmək, geyindirib-kecindirmək onun öhdəsində idi. O, axşamdan Bəbir bəydən xahiş etmişdi ki:

- Bəzək otağına get-gəl olmasın! Adam çaşır. İstəyirsən əlimdən isbatlı iş çıxsın, bağrına basanda maşallah deyəsən, buyur məni qarıxdırmasınlar. Qızı qoyum qabağıma, görüm nə eləyirəm.

Bəy «gözüm üstə» deyib, əmr etmişdi. Mələknisənin yanına pişik də buraxmadılar. Yalnız Məşədi İslam qaranlıq düşəndə, toy mərasiminin ən şiddətli çağında, zurna-balaban kəndi başına alanda pəncərənin önündə mənalı öskürdü:

- Öhhhö... mm... öhhö... mm.

Mələknisə Faxirəni Qumrunun qucağına verib, çırağı söndürdü:

- Əkil! Di əkil!..

Məşədi İslam, qaranlıq bir xəyal kimi, həyətdə qımıldadı, uşağı qucağına alıb gözdən itdi. Uşaq şirincə yatmışdı. Heç bir şeydən xəbəri yox idi. Məşədi İslamın döyünən qəlbi, yeyin və ehtiyatlı addımlarının ahəngi onun mışıl-mışıl yuxusuna laylay çalırdı. Qumru hər qaraltıdan, hər kəsdən şübhələnir, qorxur, iztirab içində təlaşla yeriyirdi. Onlar beş dəqiqənin içində kənddən çıxdılar...

Mələknisə çırağı yandırdı. Qorxusundan taqətsiz düşdü. Dizi hərəkətə gəlmədi. Kim idisə qapını açıb baxanda o daha da diksindi. Bekarı görən kimi soruşdu:

- Ağabala qardaş, di zəhmət çək Qumrunu çağır!

Ağabala heç bir şey eşitmədi. Aşın həvəsilə mətbəxə getdi.

Yarım saat keçdi. Musiqi bir az da bərk səslənir, uzaqlarda eşidilirdi. Adamlar daha sıxlaşır, şənlik artır, Bəbir bəyin toyu gecənin qaranlıq üfüqlərinə qədər işləyir, hər şeyi oyatmaq istəyirdi.



Mələknisə bir də qapıya çıxdı. Toppuz saçlı, qırmızı qoftalı, bənövüş kəlağayılı kənd qızları dartınıb qadınların arasına soxulmaq, oynayanın, çalanın, oxuyanın üzünü bir də görmək istəyirdilər. Yenə də zəfəran iyi aləmi bürüdü. Hava çox xoş və mülayim idi, ayaz göydə ulduzlar sayrışırdı. Mələknisə Bekarın arvadını səslədi:

- Ağız, Fizzə, yengələr hardadır, bir gəlsinlər axı, vaxt keçir!..

Bəyin yengəsi Mina arvad gəlin otağına girdi. Mələknisə onun qolundan tutdu. O, sevincindən Mələknisəni qucaqlayıb öpdü:

- Xələtinə şərikəm, ay mütrüb! Sən də mənimkinə şərik ol! Sağ olsun, belə səxavətli bəy hardadır?

- Ağız, Qumrunu çağır görək neynirik!

- Hardadır?

- İndicə eşiyə çıxdı.

- Tamaşaya gedib, nədi?..

Yengə özünü adamların içinə verdi. Qumrunu tapa bilmədi. Bekarın arvadını çağırdı. Toy otağına girdilər. Xəlvət yerləri axtardılar, həyəti gəzdilər, uşaq da yox idi.

Qumrunun evinə adam getdi. «Yox» xəbəri gəldi. Otaqları bir-birinə vurdular. Güman gələn yerləri ələk-vələk elədilər. Hər yerdən bir xəbər gəldi: «Yox, yox!» Qumru, deyəsən, göyə çəkilmişdi: yoxdur ki, yoxdur! Bir saat keçmədi bu uğursuz xəbər kəndə yayıldı:

- Qumru yox olub!

- Aradan çıxıb!

- Qumru qaçıbdır!..

- Qumrunu aparıblar!

Bu xəbər qartal kimi hamının başında uçdu, hər kəsi, hər şeyi heyrətdə qoydu. Göydən düşmüş ağır bir daş kimi hamını əzdi. Aşığın sözü ağzında qaldı. Dümbəkçinin ağacı əlindən düşdü. Zurnaçı orduna doldurduğu havanı bilmədi hara üfürsün. Sümük-

ləri oynayan Taskabab Nağı məclisin ortasında donub çaşbaş qaldı. Qıssa xanım küncə sıxılıb içindəki şadlığı güclə gizlətməyə çalışdı. Aşpaz aralığı qarışıq görüb, xoruzun yağlı budunu dişinə çəkdi. Ərinmiş yağdan bir qab doldurub arvadına him elədi: «Nə durmusan?» Toybəyi qaşqabağını salladı. Nəzəri qapıya dikilmiş halda qavaldakı puldan bir xışma çuxasının qoluna yeritdi. Bekarın arvadı bəzək otağına girib, pilək qutularını, kirşanı, ətir şüşələrini tələm-tələsik çəngələdi:

«Bəlkə bəy bir də evləndi, lazım olar!» - deyə yığışdırdı. Beş dəqiqə əvvəl hamının əzizlədiyi Bəbir bəy indi sudan çıxmış toyuğa bənzəyirdi. Qax kimi qurumuş, taxta kimi uzanmışdı. Təlaş edən adamların arasında gic kimi veyillənirdi. Aylardan bəri bəslədiyi, böyütdüyü qaba, vəhşi ehtirası daşa dönmüşdü. Kim isə bu daşı sapanda qoyur, Bəbir bəyin gicgahına vurur, yenə də vururdu.

O, şüurunu itirmişdi. Heç nə duymur, heç nə eşitmirdi. Yayda Yevlaxda piyada gedən adamlar kimi gicəllənirdi. Gecəmi, yaxud gündüzmü olduğunu bilmirdi.

Sazandalar şuluqluq düşdüyünü, toyun pozulduğunu yəqin etdilər, Məşədi Cahangiri ətəklədilər:

- A məşədi, yolumuz uzaqdır, qaçaq-quldur vaxtıdır. Zəhmət çəkin, bizi yola salın. İnşallah, gəlin də tapılar.

Məşədi Cahangir acığından nə deyəcəyini, nə edəcəyini bilmədi. Bəbir bəyə daha sadiq görünmək üçün eyvana çıxdı, kolahürən köpəklər kimi ağzını yuxarı tutdu. Tapançasını çıxarıb, ulduzlara üç güllə sıxdı.

- Gəlin, mənnən gedən gəlsin!

Bəbir bəy atlanan kimi qardaşı uşağı da atlandı.

- Bu papaq bizə haram olsun!.. Aləmi xıngal kimi doğrayam gərək!

Üç dəstə kənddən çıxan yollara ayrıldı. Məşədi Cahangir ham-



ısına tapşırdı ki, səs-küy salmasınlar, gecə vaxtı həriflər gizlənə bilərlər.

Bəbir bəylə Məşədi Cahangir şose yolu aşağı yönəldilər. Gecə dərinləşir, hava soyuyurdu. Çöllərdə ölüm sükutu var idi. Bəbir bəy hər qaraltıda Məşədi İslamı, Qədiri görüb vahimələnirdi.

Məşədi İslam Qumrunu kənddən uzaqlaşdırandan sonra, çəpərlərdə gizlənib təqib edənləri azdırmaq istədi. Müdafiə üçün onun berdankası və yeddi patronu var idi. O, bu patronları məhz belə vaxta, yaman günə saxlamışdı.

Bir az fikirləşəndən sonra uşağın ağlamasından qorxdu, bir evdə daldalanmasını məsləhət gördü. Dərə-aşağı gedib Qəhrəmanlı kəndinə endilər. Yoldan ayrılan bir döngə ilə evlərə getdilər. Köpəklər onların üstünə töküldü. Uşaq ayıldı, qışqırdı. Qumru da qorxudan özünü itirdi. Məşədi İslam ona ürək verdi:

- Qorxma, bu saat ev yiyəsi çıxar!

Onlar bir qapını döydülər. Köpəklər isə əl çəkmir, onları divara qısnayıb, yemək istəyirdi. Məşədi İslam bir əlilə tüfəngi itlərə sarı tutmuşdu, o biri ilə qapını döyürdü.

- Kimsən qapıda?

- Aç, Allah qonağıdır!

- Get-get! Gecənin bu vaxtında qonaq olmaz!..

- Aç, ay lələ, yol azmışıq!

- İtil qapıdan ki, ölərsən. Gör kimi aldadır! Sən deyən burda yoxdur.

İçəridəki adam tüfəngin çaxmağını çəkib, pəncərəyə tərəf yönəltdi. Qumru titrəyib ağlamağa başladı. Məşədi İslam and içdi və uşağı pəncərəyə tutdu.

- Ay qardaş, Həzrət Abbas haqqı, sən deyən adam deyilik, arvad-uşağı görmürsənmi? Budur körpə uşaq. Aç, qıyma bu yazıq uşaq soyuqdan ölsün!

İçəridəki dinmədi. Pıçıltı səsi eşidildi. Yəqin arvadla danışırdı. Qumru da yalvardı:

- Ay qardaş, canavar əlindən qurtarmışıq, bizə rəhmin gəlsin!

İçəridəki kibriti eşiyə tulladı:

- Yandır, sür-süfətinizə bir baxım!

Məşədi İslam kibriti yandırdı. İşıqda əvvəl özünü, sonra Qumrunu və ağlamaqdan az qala keçinən uşağı göstərdi. Qumru Faxirənin solmuş yanaqlarına, göz yaşlarına baxdı, o da ağladı. İçəridəki əmr edirdi:

- O tüfəngi də bir tərəfə tulla!..

Məşədi İslam tüfəngi tulladı. Əllərini göyə qaldırıb durdu:

- İnanmırsan, ay Allah bəndəsi, çıx vur, nə edirsən et! Bu arvad-uşağa rəhmin gəlsin.

İçəridən qadın səsi eşidildi. Qapını açdılar. Əvvəl Qumru uşağını içəri apardı. Ev yiyəsi işığı yandırıb, onlara diqqətlə baxdı. Zərərli adam olmadıqlarına inandı. Məşədi İslam oturub, papiros yandırdı.

Qapılar bağlanmış, köpəklər susmuş, gecənin sükutu yenə də hökmünü sürməkdə idi. Lakin Qumrunun ürəyi çırpınırdı. Evin sahibəsi ortayaşlı, iki uşaq anası qışqırıqçı bir arvad idi. Qumrunu yaxalayıb haradan gəldiklərini söyləməyi tələb edirdi. Qumru onu başından elədi:

- Başımız çox bəla çəkib. Səhər sənə nağıl edərəm!

Dəstələr yatmış gecənin qəlbini tapdalayaraq gəzirdilər. Bəndini qırmış dananı, canavar ağzından qurtarmış göyərçini axtarırdılar. Onlara elə gəlirdi ki, qapqara qaralmış, yerə bitişmiş üfüqlər Qumrunu pərdə dalına alıb gizlədir, günəş çıxmayınca onu görmək mümkün olmayacaq; lakin yüzbaşının ehtirası soyumasın deyə ümid bəsləyirdilər:

- Bu saat onu yaralı quş kimi tapmasam, parçalamasam, atamın oğlu deyiləm!



Kimisi də evdə bomboş qalan yatağı, yuxusu gəlməyən arvadını xatırlayırdı:

- Donuz oğluna arvad tapmaq da rəiyyətin borcudur? Bu da işdi, bu da sözdü?..

Kür qırağına sarı gedən dəstə Hamarlıda bənd alıb qaldı. Dəyirmançının deməyinə görə, buraya «bir xallı-zadlı arvad» gəlmişdi. Amma kim olduğunu bilmədilər. O, unlu kürkünü əyninə taxıb çıxdı. Arvad gedən evi dəstəyə göstərdi. Onlar evin qapısını dabanından çıxarıb, içəri doldular. İçəridə ağlaşma qopdu. Dəstə başçısı Ələkbər dilləndi:

- Qorxmayın, a bacı, bizə qonaq arvad lazımdır. Onu verin, sizinlə işimiz yoxdur.

Ev yiyəsi sıçrayıb durdu. Qoca kişi idi. O yalvarmaq istədi. Arvad isə işarə ilə bəlanı başdan rədd elədi.

- Odur, qonaq arvadı heç biz də tanımırıq. Götürün, aparın!..

Onlar qonaq arvadı qoltuqlayıb eşiyə çıxaranda Ələkbər çox sevindi. Bu şikarın əvəzində Bəbir bəydən nə istəsəydi, alacaqdı.

Kibriti yandırıb arvadın üzünə tutanda, çopur, qara, üzünə xallar döydürmüş bir qaraçı arvadı gördü. O, dişini ağardırdı. Bu hay-küy ona çox mənasız görünürdü.

- Yox, canım! Qumru nə gəzir?

Qaraçı qadın onları müştəri saymışdı:

- Bəri gəlin falınıza baxım. Baxtınız açılar, a mərd igidlər.

Onlar kor-peşman qayıtmaq istədilər. Ələkbərin ürəyinə bir fikir gəldi: «Bəlkə Qumrudur, özünü gizlədir». O, bu fikrini yoldaşlarına pıçıldayanda inanmadılar:.

- Yox, canım! Qumru hara, belə kifirlik, neybətlik hara!

- Nə danışırsan, a sağ olmuş? Belə olsa, Bəbir bəy heç məhəl qoyar, heç xərc tökər, özünü dilə-dişə salar?

Ələkbər bunlara baxmadı. Arvadı götürüb Bəbir bəyin hüzuruna

aparmasını məsləhət gördü. Qaraçı arvadı öz tərkinə mindirdi. Onlar qayıtdılar. At yeridikcə arvad Ələkbərə bərk-bərk sarılırdı. Ələkbərdə ərik qurusu kimi meyxoş bir duyğu oyanırdı. O, yuxulu kimi dal tərəfə ləngər salırdı...

Yuxarı gedən dəstənin atlıları səhərə yaxın yorulub, əliboş qayıtdılar. Onlar güman elədilər ki, o biri dəstələr indi bir şey tapmış olar.

Bəbir bəyin dəstəsi şəhərə gedən yolları, çəpərləri ələk-vələk elədi. Harada xışıltı gəlirdisə, yoxlanır, harada iz görünürdüsə, axıra qədər aparılırdı... Bəbir bəy kədərindənmi, acığındanmı və ya utandığındanmı dinmirdi. Ancaq içində danışırdı. Oyanmış, təxriş olunmuş, gərginləşmiş duyğuları ilə Qumrunun «mərmər, şamama, ipək» döşlərini təsəvvür edirdi. Anlaya bilmirdi ki, Qumrunu ondan qaçıran nədir: «Çörək desən var, paltar istədiyin qədər. Özüm də kəndin bəyi. Bəs o məni qoyub yamacın rəncbərinin dalınca niyə düşsün?»

Çəpəl Sayalının sözü bəyin yadına düşdü: «Qızın istəyi uşağa çevrilib. Uşaq olmasa, onu döndərmək nə çətin işdir?..»

Məşədi Cahangir yaman gündə bəyə can yandırdığını isbat üçün ilana dönmüşdü. Atını kola-kosa çırpır, ağacları qamçılayır, quşların boş yuvasını da qurdalayır, Qumrunu ovlamaq istəyirdi.

Gecə can verir, üfüqlər ağarır, kainat ərik kimi çiçəklənirdi. Onlar kənddən çox uzaq düşmüşdülər. Şəhərdən araba səsi, motor dəyirmanının yeknəsəq, ahəngdar gurultusu eşidilirdi. Onlar yoruldular. Qayıdırdılar. Qabaqda səs eşidildi. Atları saxlayıb dinlədilər:

- Hoqquş... heyyy... hoşşş.

Kim isə eşşək sürürdü. Atlılar bir az dayandılar. Eşşəkçi yaxınlaşırdı. Yaxın kəndlərin hansından isə çıxıb, şəhərə gedirdi... Eşşəkçi onlara çatanda qaçaq zənn edib, qaçmaq istədi. Məşədi Cahangir beşaçılanla nişan aldı. Kəndə tərəf üfüqü ölçəndə eşşəkçi dayandı:



- Bu gecə bir arvad qaçırdıblar. Xəbərin, sorağın olmuya?..

Çərçi qorxusundan düzünü dedi:

- Bizim kəndə, Qəhrəmanlı kəndinə gecə yarısı qonaq gəlmişdi. İtlər də çox səsləndi. Gərək ki, Abışlıların evinə düşdülər. Zəhmət çəkib köç yolundan enin. Kəndin başından 4-5 ev aşağıda taparsınız...

Elə bil Bəbir bəyə can dərmanı verildi.

- Sağ ol! Bazarın olsun! - deyib çapdılar. Məşədi Cahangir beş dəqiqədə özünü Qəhrəmanlıya yetirdi. Üfüq tamam açılmaq üzrə idi. Kənddə tək-tək oyanan var idi. Onlar arabanın yolunda kənddən çıxan birisindən Abışlıların evini soruşdular. İrəlilədilər.

Bu gecə Qumru üçün çox ağır keçdi. Elə bil dağları, dərələri, daxmaları, tikanlı çəpərləri od eləyib onun qəlbinə doldurmuşdular. Həyat onun gözündə zəhər qoxusu verirdi. Nəfəs aldıqca, kasalarla zəhər içirdi. Ancaq nədənsə vücudu dözür, ölmürdü...

Qaranlıq və dalınca düşmən gəzən vahiməli bir gecədə o nə yatdı, nə oturdu. Nə etdiyini özü də bilmirdi. Aciz bir evə girib söykənmək, yəqin bilirdi, onu xilas etməyəcəkdir. Qaranlıqlar, gecənin ölü sükutu yaşa dönüb onun gözlərindən axırdı. Nə göylərdə, nə də yerlərdə onu dinləyən, ona acıyan bir qəlb var idi. Qoca göyün altında minlərlə faciələrə şahid olmuş, qanlar içərək tikanlar bitirən yerin üstündə, Qumruya yardım əli uzadan yalnız Məşədi İslam idi. Bu sadə, kimsəsiz insan öz əmək və mübarizə yoldaşı Qədirin namusu, kənddə aciz və təklənmiş adamların arzusu uğrunda evindən, canından, hər şeyindən keçmişdi.

- Qorxma, Qumru! Mən sağ olduqca qorxma. Tək və aciz olsam da, hələ ki, sağam. Uzanan murdar əlləri kəsməyə hazıram. Qorxma, ümid var ki, sabah səni şəhərə, kasıbları, acizləri əzizləyən dostlarımıza yetirəm... İnanıram ki, Qədir indi qurtulmuşdur. O da bolşevik olmuşdur. Qüvvət bizdədir, gələcək bizimdir. Urusetdən

tutmuş bizim kəndimizə qədər hər yerdə kasıblar cana doyublar, birləşib sözü bir eləyiblər. Çox çəkməz ki, bizə qan udduran adamlardan... Səbr elə, bacım, səbr elə... əvəzini çıxarıq!

Qumru səhəri aramsız gözləyirdi. Yanğın olsa da, bir işıqlıq görmək istəyirdi. Bəlkə də qaranlıqlarda onu məhv edən qorxulu təsəvvürlər dağıla idi!

Səhər açıldı. Günəş ilk bakir tellərini Abışlıların pəncərəsindən sallayanda Qumruda qorxu, təlaş daha da artdı. O indi bildi ki, qaranlıq bəzən ovçulara çəpər də olurmuş. Onun elə bil, qulağına dedilər:

- Nə durmusunuz? Bu saat burada sizi tapacaqlar.

Məşədi İslam durdu. Ev yiyəsi də onlardan şübhələnmişdi. Birtəhər onları rədd eləmək istəyirdi:

- Qorxma, qardaş, biz gedirik. Zəhmət verdik, bağışla... Sağlıq olsa, əvəzini çıxarıq...

Onlar yoldan yayındılar. Kənddən iki verst uzaqdakı qamışlıq daldalanmalı yer idi. Heç olmasa günortaya qədər burada gizlənmək istədilər. Buraya düşmənin gümanı gəlməzdi. Hava soyuq, bir az da küləkli idi. Küləyin təsirindən qamışlıq dəniz kimi təlatümdə, səsdə idi.

Atlılar Abışlıların evini qəfildən mühasirəyə aldılar. Ev yiyəsi çıxıb, əl qalxızdı, aman istədi. Qumrugilin gəldiyini və səhər tezdən durub vahimə, qorxu içində şəhərə tərəf getdiklərini söylədi. Ondan lazım olan məlumatı alandan sonra Məşədi Cahangir onun təpəsini qamçıya tutdu:

- Sənə kim demişdi hökumətdən qaçanlara yorğan-döşək açasan? Malbaş oğlu malbaş.. Düş qabağıma...

Kişini həbsə göndərdilər. Dəstə ətraf kəndləri axtara-axtara şəhərə tərəf yollandı...

Uşaq sakit olmurdu. Neçə gündən bəri yiyəsiz qalan uşaq



ətçəbala quş kimi anasına baxıb yalvarır, çabalayır, ağlayırdı. Nə süd, nə də təsəlli ilə onu kiritmək mümkün idi... O tələb edirdi ki, qucağa alıb gəzdirsinlər.

Məşədi İslam onun ağlamasından çox qorxurdu. Uşağı qucağına alıb, sinə-sinə, belibükük halda qarğılıqda iki addım rütubət yerdə fırlanırdı. At kişnəməsi, onun ardınca da ayaq səsləri eşidildi. Bəlli idi ki, atlı gəlir. Məşədi İslam uşağı anasına verdi. Tüfəngi ayaqda saxlayıb, yerə yatdı. Atlılar yolla ötmədilər, səpələndilər.

Uşaq kirimişdi. Sanki o da düşməni görmüş, duymuş, anasına rəhmi gəlmişdi. Məşədi İslam üzü yola sarı uzanmışdı. Sağ tərəfdən gələn ayaq səsi lap yaxınlaşdı. At, çiyilliyə girmiş kimi, ayağını qoyub-götürdükcə bataq səslənirdi. Atlıların qamışlığa girdiyini gördü, özünü toxtatdı. «Bəlkə yandan xəbərsiz ötüb sovuşalar» - dedi. Yox, nədənsə atlı düz Məşədi İslamın üstünə sürürdü. Yenicə boy atmış, yarpaqlanmış qamışlıq o qədər də sıx deyildi. Məşədi İslam açıq başını qaldırıb baxanda atın qulaqları, atlının tüfəngi göründü. Məşədi Cahangirin kəhər atı az qala Qumrunun üstünə çıxmışdı. Bir güllə atıldı. Məşədi Cahangir çinar kimi yerə yıxıldı. Ayı kimi zıqqıldadı.

Atışma başlandı. Məşədi İslam üzərinə yağan güllələrdən qorxmayıb, Qumrunun qabağında durmuşdu, ona və uşağa gələn zərbələri çəpər kimi qaytarırdı. O, az atırdı, lakin boşa atmırdı.

- Öldür köpək oğlunu!

- Beynini sovur!

Bəbir bəyin vəhşi səsi atlılara da cəsarət verirdi. Onlar, bütün bir ordu ilə atışan kimi, qatarları boşaltmağa çalışırdılar...

Günəş dağların, bağların uca qovaq ağaclarının altından min il bundan əvvəl atılmış, lakin hələ soyumamış, uzaq vuran top güllləsi kimi yüksəlirdi. Burada, bu tənha qamışlıqda başlanan atışmanı nəzərə almasaq, hər yer, hər tərəf sakit və durğun görünürdü...



Əsrlər boyu tapdalanmış dünya bu gün, yalnız bu səhər nədənsə nəfəs alır, dincəlirdi. Nə üfüqlərdə tüstü, nə dərələrdə duman, nə dağlarda bulud görünür, nə yerlərdə fəryad eşidilirdi. Deyəsən, yaranandan bəri döyüş və çarpışmalardan yorulan dünya böyük bir tənəffüsə çıxmışdı. Ani sakitlik müdhiş və böyük günlərin sərlövhəsini yazırdı.

Yox! Belə görünsə də, belə deyildi. Kainat susmuş, diqqətini toplamışdı.

Qoca tarix yeni böyük bir natiqə, həyatın qızıl komandanına söz verirdi. Bu natiq - üfüqlərdən yüksələn günəş, qəlblərdə qaynayan sevinc, nəzərlərdə böyüyən səhər idimi? Bəlli deyil, lakin bəlli olan bir şey var idi. Hamı, hər yer, hər şey bu natiqi, onun göylər kimi saf səsini dinləmək, onun nicatverən simasını görmək istəyirdi.

Sükut çox sürmədi. Şəhər tərəfdən qopan şən və şaqraq səslər şüalar kimi aləmə yayıldı.

## QƏBUL

Qədir depoda Qiyası tapa bilmədi. Növbətçidən soruşdu. Axşam gələcəyini bildi. O, qorxusundan maşın qabağına çıxmadı. Gününü köhnə vaqonların arasında yubatdı. Dəmiryol kənarında haçandan, nə üçünsə tökülüb dağ kimi qalanmış torpaq komalarının üstünə çıxıb, aşağılara, kəndə sarı diqqət və həsrətlə baxmaqdan doymadı.

Qiyası görəndə qucaqlaşıb öpüşdülər. Qiyas onu mənzilinə apardı. Stansiyanın ayağında üç yoldaşa bir otaq vermişdilər. Balaca, isti və səliqəli bir mənzil idi. Qədir bu fəhlə yoldaşların həyatı ilə çox maraqlandı. Evi başdan-ayağa süzdü. Qiyasın gənclik şəklinə baxdı. Dillənmək istədikdə, Qiyas əlini ağzına qoyub, işarə verdi:



- Sus!..

Qədir heyrətləndi. Qiyasın üzünə baxanda, o, üzərinə çaynik qoyulmuş köhnə maşinkaya baxdı və işarə elədi. Qədir yenə bir şey başa düşmədi. Qiyas Qədirin qulağına pıçıldadı ki, «səs eləmə, maşinka sönüğ, çay qaynıyanacan dinmə». Qədiri gülmək tutdu, əlini ağzına qoydu.

Qiyas heyva qabığından çay hazırladı. Qənddana kişmiş tökdü, çörək də gətirdi. Onlar yedilər. Qədir dincəlmək istəyib, taxtın üstünə yastılandı. Qiyas onu başa saldı:

- Şüküğ ki, yaxamız quğtağdı. Amma ayıq ol! Polis dəqiqəbə-dəqiqə bizi pusuğ. Ağabəyin adamlağı xəlvəti gəlib qulaq asığlar. Ayıq ol ki, daha ələ keçməyək!

Qiyas bunu yavaşca deyib, pəncərələrə göz gəzdirdi. Əyilib qapıya baxdı, sonra arxayın danışdı:

- ...Fiğqəmiz səni götüğəcək. Danışmışam. Ancaq ki, gəğək çox öyğənəsən, biləsən ki, nə vağ, nə yox. Dünya iki təğəfə bölünüb: kasıb-dövlətli. Fəhlələğ deyiğ ki, nə salmısan ağzımıza eğməni belə, müsəlman belə, cuhud belə? Heç elə zad yoxduğ. Kasıb kasıbdı, dövlətli də dövlətli. Eğməninin də kasıbı yazıq deyilmi? Ağvadı-uşağı yoxduğmu?.. Əli qabağlı nə dində, nə məzhəbdə olsa da, zəhmətkeşdiğ. Zəhmət adamına zaval olmasın gəğək! Bildinmi? Kommunist olan bunu deyiğ! Fəhlə də, kəndli də, rəncbəğ də hamısı zəhmət adamıdığ. Zəhmət dünyası!..

Bu sözlər Qədirə daha artıq təsir elədi. Ailəsi yadına düşdü. Bu mətləbləri duymayan kasıb varmı?

Qədir bu fikirlə məşğul ikən Qiyas nə dedisə də, eşitmədi. Ancaq son sözünü eşitdi və sual verdi:

- Necə dedin, Qiyas, hökumət də özümüzdən olsun?

- Bəs nə, niyə olmasın? Dünyada həğ işi göğən biz, biz əkək, biz biçək, biz yetiğək, dəmiğ yolunu biz çəkək. Fabğiki biz işlədək, niyə

hökumət də özümüzdən olmasın? Nikolay, müsavat zülmünün axığına çıxacayıq!

- Çətin işdir ha!..

- Çətin işdiğ, vacib işdiğ. İşləsən, çətin olmaz. Həğ şey bizdən asılıdı!

Bu sözlər Qədirin beyninə batmadı:

- A qardaş, hökumət işi uzun işdir. Əsgərlər, yunkerlər, zabitlər qoyarmı bizim... Top-topxana adamı küllü-küf eləyər. Bu, zarafat deyil.

Qiyas onun sözünü ağzında qoydu:

- Axı sən bilmiğsən. Əsgəğ kimdi? O da sənin kimi kasıbın biğidiğ! Bəy oğlu əsgəğ olağmı? Bəy oğlu biğcə zabit olub əsgəği qapazlayığ. Top-topxana qayığan da biz deyilikmi? O da fəhlənin əlindən çıxmığmı? Xozeyinlər öz qayığdığımız şeylə özümüzü öldüğüğləğ. Oğdunun da çoxu fəhlə-kəndli deyilmi? Onlağ da zülmdən bezibləğ!

Qapı açıldı. Mirağa gəldi. Qiyas Qədirə işarə etdi:

- Bu da mənim məhbus yoldaşımdığ. Tanış ol!

Mirağa xoş-beş elədi, oturdu.

Qiyasın bir sözü Qədirin lap beyninə batdı: «Öz qayığdığımız şeylə özümüzü öldüğüğləğ».

Elə bil bu fikir çoxdan bəri mədən layı kimi Qədirin beynində paslanıb qalmışdı. Ancaq Qiyas torpaq və zibillə örtülmüş bu layın altına lom salıb, üzə çıxartdı.

Qədir düşünür, kəndi gözünün qabağına gətirirdi: «Bəbir bəyin dustaq damını, həmişə fağır-füqəranın dama salındığı bu yeri öz əlimizlə tikmədikmi? Daş, kərpic daşıyan mənim bu qabarlı əllərim deyildimi? Millət əhvalatı təzə çıxan zamanlar idi. Başımıza qamçı döyə-döyə dustaqxana tikdirdilər ki, bunsuz kəndin günü keçməz... Yüzbaşının qırmızı kərpic evini kim tikib? Ağam demirdimi ki, rəiyyəti şil-küt eləyib tökdülər. Bu evi tikən də biz kasıblar olma-



mışıqmı? İndi Bəbir bəy həmin evdə rəiyyətin arvadını əlindən almaq istəmirmi?»

Fikirdən Qədirin canına hərarət gəldi. Başı ağrıdı, dodağını necə gəmirdiyini bilmədi. Qiyas işarə edib, «qanadı» deyəndə, Qədir dəsmalı ağzına tutdu.

- Gedək, vaxt keçiğ!..

Onlar qapıdan çıxdılar. Qaranlıq idi, təzəcə şər qarışmışdı. Qiyas tapşırdı ki, bir-bir gəlin. Əvvəl Mirağa getdi. Uzaqlaşıb gözdən itəndə Qiyas Qədiri yola saldı. Ona qandırdı ki, çarhovuzun yanı ilə getsin, rus qəbristanında dayansın.

Hava tutulmuşdu. Yağış gözlənirdi. Gecə idi. Stansiyada yük qatarlarından başqa heç bir şey hərəkət etmirdi. Hərdənbir paravoz qışqırıb, sağa-sola qaçırdı. O, tələyə düşmüş siçan kimi, elə bil, çıxmağa yol arayırdı. Bufetdə, xurcun çiynində, veyillənən adamlar yük qatarlarına minmək üçün yolların arasına keçirdilər.

Qiyasgil Kiriştovun bağında, çölə tərəfki, kənar divarın dibində, yenicə çiçəklənmiş ərik ağacının altındakı adamlara qarışdılar.

Qədir ömründə heç bu cür iclas görməmişdi. Xüsusilə belə, dost bildiyi, arzuladığı adamların yanında, iclasda olmamışdı. İndi o, dərin bir maraqla hamının hərəkətlərini izləyir, hər kəsin sözünü diqqətlə dinləyirdi. Öyrənmək arzusu ilə çırpınırdı. Adamlar qaranlıqda kölgə kimi görünürdülər. Biri əlindəki səbəti yerə qoyub, içindən stəkan-nəlbəki, çaynik, pendir-çörək çıxarırdı.

Onlar komalaşdılar. Daşın üstündə dizini quçaqlayıb, ağaca söykənən bir qara kişi danışdı. Qədir onun üzünü yaxşı görməsə də, hərəkətini, məşəl kimi yanan və yandırmaq istəyən gözlərini aşkar görürdü. Sonra Qiyas ortalığa çıxdı. O, asta-asta danışırdı:

- Vaxtdığ. Daha düşmənin son günləği yetişib. Ğusiyalı fəhlə-kəndli yoldaşlağımız bizə köməyə gəliğ. Yoldaş Lenin onlağa tapşığıb ki, buğda, Azəğbaycanda, Gəncədə də ədalət bayğağını

ucaltsınlağ. Bizə təzə qəzet gəlib. Biz gəğək oxuyub, əməl edək. Qoy yoldaş Miğağa oxusun. Yaxın gəl!..

Qədir indi bildi ki, dəmir yolunda vağzal fəhlələrinin arasında Qiyasın çox hörməti var. Qiyas sözünü bitirməmiş paketi Mirağaya uzatdı. Mirağa paketi açdı, içindən çox qatlanmış bir qəzet çıxartdı, ətrafı yoxlayandan sonra şam yandırdı. Qiyas şamı ətəyinin altında tutdu. Mirağa oxumağa başladı. Hamı dinləyirdi, nə öskürən, nə papiros işıldadan var idi.

«Zəhmət nəyə deyirik? Bir iş insanın öz başı, öz əli və ya ayağı ilə başa gəlir, ona zəhmət deyirik. Məsələn: əl ilə bir stul qayırsaq, o bir zəhmətdir; ancaq həmin stulu pul ilə satın alıb və mənfəət edərək, başqasına satmağa zəhmət deyilməz. Yer əkmək, becərmək və oradan məhsul almaq, bu, zəhmətdir. Həmin yeri başqasının əlilə işlətmək və ya icarəyə vermək, bu, zəhmət deyildir. Buna görə yer əkən əkinçi və fabrikdə çalışıb çit toxuyan fəhlə yaşamağa haqlıdır. Yəni yemək, içmək və qanun qərarlaşdırmağa, idarəni öz əlinə almağa onun haqqı var. Mülkədar, fabrikçi və tacir zəhmət çəkmir. Özgənin zəhmətinə yiyələnir. Onlar heç bir haqqa sahib olmasın gərək...»

Bu sözlər Qədirin ürəyindən tikan çıxarırdı. İndi və yalnız indicə sözünü eşitdiyi, sanki göydən düşmüş bu yeni adamlar, böyük xilaskar kimi, onun qarşısında böyüdü, əzəmətli oldu. O bir az da yaxın oturdu, gözünü Mirağanın ağzına zillədi. «Görüm daha nələr yazıblar». Mirağa qəzeti oxuyurdu:

«...Sahib olmasın gərək. Bizim tələblərimiz bu və gələcək azad cəmiyyət, gələcək həyat əsasları da budur. Xalqı, hökuməti və bütün bəşəriyyəti gələcəkdə səadətə çıxaran da budur. İnsanları birləşdirən, bir-birinə yaxın, qardaş və yoldaş edən, murdar ədavəti, millət, din ədavətini ortadan götürən də budur!

İnsanlara lazım olan həqiqi tərəqqinin doğru yolu, həqiqi məhəbbətin doğru qapısı! Köhnə kapital, pul-para dövrü bunun



hamısına bərəks olduğu üçün biz də bu dövrü uçurub devirmək istəyirik. Hər yerdə kapitalçılara elan edərək deyirik: ey tənbəl cənablar, bu vaxta qədər füqəranın zəhməti ilə faydalanıb kef çəkmisiniz. Artıq yetər, bəsdir!..»

- Bəsdir, canım, bıçaq boğazımıza dayandı, axı bəsdir! Bəsdir, canım, axı!..

Kim idisə yerindən belə qışqırdı. Mirağanın səsi onun sözlərinin arasında itdi, eşidilməz oldu.

Yaxasıaçıq, uzunboğaz bir oğlan bu sözləri deyib, əl-qolunu oynadırdı. Qara kişi ayağa durub acıqlandı:

- Kiri, a kişi, kiri! Heç bilirsən bura haradır? Düzün ortasında yoxsa təbin gəlib?.. Biz də bilirik bəsdir. Axı «bəsdir»in də yeri var! Qoy oxusun görək kişi nə deyir. Hay salma, işi güdaza verərsən!.. Mirağa davam etdi:

«...Artıq yetər, bəsdir. Bundan sonra belə yaşamağa sizə izin verilməyəcəkdir. Ya insanlıq naminə siz də özünüz işləyin və ya da yolumuzdan kənar durun, rədd olun...»

Yaxasıaçıq oğlan yenə mızıldandı: «Yox, yox, işləsələr də qoymayacayıq. Gərək dünyada ya fəhlə...»

Sədr Qara kişi özü danışdı. O belə deyirdi:

-Yoldaşlar, daha vaxtdır. Yuxusuz qalmaq, işimizin dalınca olmaq, rəhbərlərimiz kimi, gecə-gündüz çalışmaq vaxtıdır. Vəziyyət də qorxuludur. Əvvəla budur ki, mən deyirəm hamı silahlı olsun!

- Düzdür!..

- Həəə. Silahlı olsun. Danışaq şəhər ilə ki, bizim yerimiz yol ağzıdır. Bura bəndər kimi bir şeydir. İkinci odur ki, fəhlələrin, kəndlilərin içinə girmək lazımdır. Qoymayın kəndlini aldatsınlar. Qaniçənləri tanıdın. Üçüncü, mən deyirəm, cavanları ələ gətirək. Kimin cavan qohum-qardaşı varsa, öyrənsin görək, müsavatçılar necə zəhərli fikir yeridirlər, yaymaq istəyirlər.

Qara kişinin təklifləri müzakirə olunurdu. Silah məsələsi üzərində bərk dayandılar. Cürbəcür təkliflər var idi. Təzə konduktor İbrahim söz istədi:

- Mən silah yeri bilirəm, izin versən, deyərəm. Bizim qonşuda bir firqəçi zərgər var. O yankı firqədən. Gündə mənə deyir ki, gəl yazıl bizə, sənə tüfəng verək. Mən söz vermişəm, yazılaram. İndi ki bizə tüfəng lazımdır, gedək hamımız yazılaq. O birisi firqədə adamımız olsun, alaq tüfəngi. Onlar yaman bicdirlər. Denikindən çox yaraq alıblar.

- Bəh, bəh! Afərin belə kəlləyə!

Bu sözlə İbrahim huyuxdu. O yan-bu yana baxıb, cavab verdi:

- Kəllə cənabındır, nə olar yazılanda? Onlar da islam deyilmi? Çox da ikitirəlik...

Mirağanın hökm kimi qəti səsi İbrahimin sözünü ağzında qoydu:

- Dünənki baqqalın axı burda nə işi var ki, canım, belə də danışa...

Oturanlar başlarını tovladılar. Yenicə firqəyə gələn İbrahim dediyinə peşman oldu. Vəziyyətdən anladı ki, çox böyük səhv buraxdı. O, ayağa durub ağladı.

- Mən nə bilim, nə başa düşürəm, yoldaşlar, axı mən nə eləyim... Məni, a başına dönüm...

İclasın axırında Qiyas Qədiri əyləşənlərə tanıtdı, öz həbsxana həyatından danışdı və anlatdı ki, «Qədir əməklə bişmiş, ən inamlı və partiya sıralarına çəkilməli yoldaşdır...» Özünün və Nayibovun ona zəmanətini bildirdi. Hələ Qədirin Bəbir bəylə olan faciəsindən də bir az danışdı.

Qara kişi soruşdu:

- Konduktor İbrahim kimi olmasın, Qiyas?

Qiyas dillənməmiş İbrahim ayağa qalxdı, yenə də zarıltı ilə ağlamaq istədi.



Qədiri sədrin yanına keçirdilər. O, ayaq üstə durdu. Cürbəcür suallara cavab verdi. Qara kişi hamını kiritdi:

- Ay Qədir, bilirsən nə var, qardaş? Bizim partiyaya ya firqə dediyin, bolşevik dediyin nə rahətlik, nə kef, nə dövlət, nə də İbrahim deyən kimi, bollu silah üçün deyildir!..

İbrahim ayağa qalxdı, qarnını tutub zarıldadı:

- Qara kişi əmi, bir qələt idi. Oğul da səhv eləyər, keçin mənim günahımdan, mənim işimdən keçin...

Qara kişi əl işarəsilə onu sakit etdi. Üzünü Qədirə çevirdi:

- Hə, bilirsən nə var, qardaş oğlu! Burda heç zad yoxdur. Burda bircə şey var - məslək!

- Necə yəni məslək? Məslək nə olsun?

- Bir döz! - Qara kişi aramla danışdı: - Bir döz, gecə də keçir. Məslək odur ki, burda sən canını, malını, başını qoyursan! Kimin yolunda? Fəhlə-kəndlinin azadlığı yolunda... Sabah firqə deyəcək: tüfəngi götür səngərə get. Baş üstə, getməlisən! Partiya sənə deyəcək: soyuqda köynəkcək burdan Şəmkirəcən qaç! Gərək qaçasan. Qoy ev-eşiyini, get Fitilbörkə. O saat. Ayrı söz yoxdur. Gərək gedəsən...

Qədir duruxdu:

- Yəni firqə qoymaz məni arvad-uşağım ilə görüşəm?

- Yox... Elə demədim. dediyim odur ki, firqəmizin işi sənə candan da, başdan da, arvad-uşaqdan da qabaqdır. İstəyirsən firqənin oğlu olasan, onda budur. Papağını qoy qabağına, fikirləş. Səni zor ilə kommunist eləyən yoxdur...

Qədir baxırdı. Qiyas onu danışdırmaq üçün soruşdu:

- Beyninə batdımı, nə deyirsən?

- Deməyim odur ki, mən kasıbam, əliqabarlı rəncbərin biri... Mən istəyirəm ki, kasıbın firqəsində olam.

- Atan rəhmətlik. Bax elə buncuğazın üstündə bərk dursan, bəsdir!..

- Salın əllərinizi, deməli, bir səslə Qədir keçir.

Bu sözdə Qədir dərin bir mehribanlıq hiss etdi. Dağda camış öldürdüyünü xatırladı, arzuladığı dostun xilaskar əli yadına düşdü. İndi o əl Qədirin qollarından tutub qaldırır və deyirdi: «Firqə sənə qüvvət verəcək, firqə sənə həyat verəcək, hazırlaş».

## QIZIL SƏHƏR

Dünyanın ən uzun və son gecəsi idi. Bundan sonra qara pərdələr bir də işıqlı çöhrələri örtməyəcək, azad, saf nəfəsləri boğmayacaq.

Nədənsə bu gecə hər yerdə, hər kəsdə bir təşviş var idi. Zər paqonlu nazir gecə ikən qənimətini yığışdırıb vurnuxurdu. Yaxasını qurtarmaq üçün yol arayırdı. Hər gün qamçısının səsi qayalara düşən rəis indi nə arvadını eşidir, nə uşağını görmək istəyirdi. Sanki bütün şəhərin fəhlələri əli silahlı qapıya tökülmüşdülər.

- Bir çıx, a murdar, üzünü görək, səninlə hesabımızı kəsmək istəyirik.

Bu mənzərə onu o qədər qorxutmuşdu ki, dünya başına hərlənirdi. O, bir dilənçi paltarı tapmaq, sifətinə lil-palçıq yaxmaq, gözdən itmək istəyirdi.

Çal papağının zağarası getmiş bələdiyyə rəisi içindən yanıb tökülsə də, coşan insan dalğalarını görürdü. Gözünü Nəsib bəyin şəklinə zilləyib baxır, baxırdı. Şəkli götürüb xalçanın altında gizlətdi. «Mən çoxdan fəhlə tərəfdarıyam» - deyirdi. Qulağı səsə düşür, dinləyir, bu «etirafının» qəbula yetib-yetmədiyini yoxlayırdı.

Yeni xəbərdən quduran qolçomaq qamçını daşlara çırparaq qışqırırdı:

- Heç elə şey olmayacaq!..

Pristav «tfu» deyə paqonlarını sökür, tüfəng-qatara sarılırdı. Tacir anbarda, zirzəmidəki malları qarnına doldurmaq, üstündən



«invalidlik» qurşağı bağlamaq istəyirdi. «Şəriət sahibi» namazdan sonra üzünü qiblədən çevirib, şimala doğru bir kök «lənət» tüpürürdü. Çərçi Ağa Ələsgər eşşəyini xırda-xuruşla daha ağır yükləyib, vağzala sürürdü. «Şuluqluqda yaxşı satılar» - deyə təzə, xam müştəri gözləyirdi...

Bu, dünyanın astar tərəfində, son gecənin son vərəqlərindəki cücülərin tələşı, gündüzün vərəqlərinə adlamaq ciddi-cəhdi idi. Dünyanın üzündə səhərin ilk vərəqləri, tarixin ilk saatları başlanır, azad həyatın böyük günəşi doğurdu:

- Mənəm, mənəm həyatın həqiqi sahibi, çəkilin səhnədən, əməyin qanına daraşanlar! Yaşamaq yaşadanındır! Həyat həyatı yaradanındır!..

Bu sözlərdə indi ayrı səs, ayrı qüvvə, ayrı bir ahəng, ayrı bir qüdrət duyulurdu. İndi başqa bir qəlb bu sözləri demir, əmr edirdi. Onun səsi almaz kimi çoxcəhətli, parlaq sular kimi saf idi. İnsanlar dinlədikcə bu səsin böyüklüyü qarşısında kiçilirdilər. Mal vaqonunda sürülən, sapanda qoyulub Sibirə, Qazana, Həştərxana atılanlar - böyük inqilabın ilk əsgərləri işıqlanan vətənə dönürdülər. Məhbəsdə çürüyən və ölmək istəməyən dustaqlar qapıları qırır, darvazaları taytabay qoyur, silaha sarılırdılar. İllərdən bəri qanlı qırğın meydanlarına sürülən əsgərlər ağır yüklərdən silkinib yüyürür, doğma kəndlərinə, şəhərlərinə, yoldaşlarına qovuşurdular.

Ağasının tövləsini kürəyən, atını yemləyən nökər inqilabın ilk işığı ilə qamaşan gözlərini geniş açırdı. Şəhərdən, mazutlu o qüdrətli əllər yurdundan gələn şadlıq və rəşadət səslərində tanımadığı, görmədiyi, lakin qəlbən bağlı olduğu böyük bir adamın, gülərüzlü dahinin sözünü eşitdi:

- Torpağı kəndlilərə!..

Bostanını şumlayan əkinçi dayandı, üzünü qırmızı kərpicli ikimərtəbəli evə tutdu.

- Həəə. Hacı Hüseyn cənab, halındır, dəmin? Demədimmi axı kəndlinin də Allahı var!

Kür qırağında qoyunu yamaca haylayan çoban kasıb hökumətinin eşqilə dilə gəlib, saz kimi çalındı.

Bulaq, səndə mum olaydım,
Əriyəydim qum olaydım.
Yarım gələr su doldura,
Kuzəsinə mən dolaydım.

Bulaq, səndə daş olaydım,
İslanaydım yaş olaydım.
Yarım gələr su doldura,
Kuzəsinə mən dolaydım.

O, çobanlıq haqqından, ürəyində bir quzu ayırır, kasıb hökumətinin adamlarına qurban deyir!

Üzünə saqqal tükü bata-bata, ağzına xına iyi dola-dola Məşədi İbadın qoynunda çırpınan məzlum qız səhərin həyəcan və şənliyini duyur. Kəsərli bir həsrət çəkir:

- Görəydim kasıb hökuməti bu işə də qarışacaqmı? Yoxsa bu kaftarın nəfəsi məni çürütsün, əritsinmi?

Dülgər Akop tezdən durub dostu usta Yəhyəni axtarır, «görüm, deyir, həmkarım nə qayırır?»

Bu ətirli, həyatverici yaz küləyi hamını ayıltdı. Atlılar teleqraf teli kimi hər tərəfə çapdılar:

- Durun, sabahdır!..

Günəş isə üfüqdə al bayrağını qaldırır. Böyük azadlıq bayramı şənliyi və şadlığının həyəcan təntənəsilə qaynayan insanlara baxır. Bir natiq kimi əzəmətli görünür, qütbə çıxıb danışmaq istəyir.



O, dirilən adamların təvəllüd gününü təbrik etmək istəyir. Onun üfüqdə qaldırdığı qızıl bayraq torpağın dərinlərinə qədər işıq saçır. Bu işıqlar altında milyonları diriltməyə gələn gənc əsgərlər, vərəmli şəhərin sinəsini təpikləyir. Həyatı kölgələyən qoca çinar ağaclarını doğrayır. Günəşin işığını həyatın dibindəki insanlara, alt qatlarda yaşayan adamlara verirlər.

Həmin bu günəşin şüaları altında ildırım kimi iti gedən atlılar. Qobular kəndinin tozlu yolları ilə çapırdılar. Onların başı üstə muştuluq xəbəri kimi dalğalanan qızıl bayraq, bahar göylərində qızıl quş kimi qanad çalırdı. Qədirin ürəyi daha bərk döyünürdü. O, indi aciz və küt bir mətbəx bıçağı deyil, sınaqlardan çıxmış kəsərli bir qılınc kimi idi.

O, qayıdır, özü ilə kəndə qurtuluş gününün xəbərini gətirirdi. Partiya bu şərəfli işi ona inanmışdı.

Qədir fəlakət içində qoyub getdiyi ailəsinə, evinə qayıdırdı. O, bu ailəni qurtarmaq üçün getmişdi, böyük və dünyəvi bir qüvvə onu qucağına aldı, onun yolunu dəyişdi. Qədirin bu qüvvə ilə bərkimiş ürəyi, köksündən çıxıb qızıl bayraqda durmaq, nə isə demək istəyirdi. Qədir kimsəsiz qoyub getdiyi ailəsinə qollarını açmağa tələsirdi.

Şəhər tərəfdən qopan şən və şaqraq səslər düzə yayılırdı. Bir dəstə atlı gəlirdi. Onlar güllə səslərini eşidəndə yəhərə sinib cilovu buraxdılar, tərlan kimi qıy vurdular.

Məşədi İslam son patronunu ata bilmədi. Düşmənin gülləsi onun arzu ilə dolu qəlbini qızıl gül kimi parçaladı. O, üzü üstə yıxılanda nəzərini bağrı yarılan uşağa və saçını yolan Qumruya çevirdi. Vidalaşmağa macal tapmadı. Göz qapaqları facia səhnəsində pərdə kimi düşdü.

Məşədi İslamın nəfəsi kəsildiyini hiss edən düşmən atlıları qamışlığı tapdaladı. Gözünü qan tutmuş Bəbir bəy ağlayan uşağın

qıçlarından tutub qaldırdı. Uşaq gözünü açdı, bəyə baxdı. Bu baxışla o dilsiz və köməksiz məxluq yalvarırdımı, atasınımı axtarırdı? Bu baxış qığılcım kimi söndü. Bəy, ovlanmış göyərçin kimi salladığı uşağı əlində yoxladı.

Çəpəl Sayalının sözü bəyin yadında bərkimiş, qaranlıq bir etiqada çevrilmişdi: «Uşaq var, qızın məhəbbəti uşağa keçmişdir. Yoxsa asandır. Səni istəməyib kimə gedəcək idi?..»

Bəbir bəy uşağı qamışlıqdan çıxarıb, suyun qırağına gətirdi. Qılçalarından bərk tutdu, başını tovladı. Havada tovlandıqca uşaq içini çəkir, kəsmə-kəsmə səs çıxarır, «ana!» deyirdi...

Bəbir bir də bərk tovladı. Uşaq qorxusundan hıçqırırdı. Ona nə ediləcəyini bilmirdi. Bəy uşağı var qüvvəsilə qaldırdı, daşa çırpdı. Uşağın başı əzildi. Nar kimi xışıldadı. Yazıq bir səs eşidildi. Uşağın burnundan, ağzından, qulaqlarından gələn qan bitkiləri, cücüləri, heyvanları sulamaq üçün axan suyu boyadı.

Bəbir bəyin qardaşı Muxtar bəy huşunu itirmiş Qumrunu götürüb, atın belinə salmaq istəyirdi. Qumrunun gözü uşağa sataşanda onu dəhşət aldı. Bu dəhşəti, qələm yazmaqdan, dil deməkdən acizdir, oxucum, özün təsəvvür et!

Kürəyini ayazlara verən, qəlbini kiçik bir məxluqun sinəsinə qoyub bəsləyən ananın faciəsini duy! Sevgisi son bilməyən dünyanı, dahiləri, qəhrəmanları, sənətkarları, böyük xilaskarları qucağında böyüdən, südündə həyat gətirən mehriban anaya ayıların, canavarların etmədiyi edildi...

O, anaların üsyanını çağıran vulkan kimi səsləndi. Bu yaralı səsi nə hava itirdi, nə torpaq boğdu, nə sular əritdi, nə məsafə pozdu. Bu səs ildırım kimi üfüqləri, dağları yarıb ötürdü. Daşları, qayaları əridirdi. Hər şey, hər yer, həyatın damarına daraşan vəhşilərdən başqa hər kəs bu səsi duyur, anaya acıyır, ananı dinləyirdi.

Böyük qəlblər bu səsə, şərəfli anaya acıdı və önündə əyildi.



Bu səs çaparaq kəndə gələn Qədiri hamıdan artıq sarsıtdı. O, ananın səsində dəhşət və faciə ilə birlikdə küsmüş bir məhəbbətin acılarını duydu. O, atına dəydi...

Qızıl bayraqlar bu faciəli səhnəni gözlərilə gördü.

Sultanəli Bəbir bəyi görən kimi revolver dilləndi. Bəy ayı kimi böyürdü, suya yıxıldı. Qədir atın üstündə dağınıq saçlı Qumrunu qucaqladı:

- Qumru!

Sultanəli Faxirənin meyidini qolları arasına aldı, bu məsum uşağın çöhrəsində yenicə sönməkdə olan həyat izinə təəssüflər etdi.

- Qumru!

Qumru ayılmırdı. O, balasını itirdiyi, yaxud sevgilisinin həyat gətirən səsini eşitdiyi üçünmü gözlərini açdı, yenə qapadı. Qədir Qumrunun yanaqlarında işıldayan almaz dənələrini dəsmala yığdı.

- Qumru, mənəm, Qumru! Bir bax, mənəm!... Gəlmişəm. Kəndimizə azadlıq xəbəri gətirmişəm!

Günəş qızıl duşa bənzəyirdi. Əmudi vuran işığı ilə kəndi yuyub təmizləmək istəyirdi. İnsanlar çabalayırdı. Bəzisi örtünməyə qaranlıq yer arayır, zirzəmilərə soxulur, kimisi dərin quyulara girmək, cinayətlərini torpaqların altında gizlətməyə çalışırdı. Çoxu isə sinəsini geniş açaraq, arzularla dolu qəlbini həyat işığına verirdi. Məzar daşlarını aşırıb bahar havasına çıxmış dirilən adamların səsi eşidilirdi. Qədir əlini silkələyərək danışırdı:

- Yoldaşlar!..

Minlərlə yalan, puç, köhnə sözlər içində bu söz qüdrətli həqiqət kimi parlayırdı. Cütçü «aaaho» - deyə xışın əlcəyini buraxıb şumları, kötük boyda kəsəkləri ayaqlayır, çəpərlərdən, hasarlardan quşlar kimi adlayır, dərələri, suları ötür, əlindəki qızıl gül dəstəsini öz qəlbindən xəbər verənlərə hədiyyə gətirirdi:

- Yoldaşlar!..

Bu birləşdirici, həyat və gələcək mahnısı qədər şirin sözü, Qobular kəndinin böyüyü də, kiçiyi də eşitdi, duydu.

Xilaskarların rəhbəri məğrur başını qaldırdı, qəlbindəki həyəcanı boğmalı, böyük günün əbədiliyi eşqinə, inqilabın tribunu dilləndi:

- Yoldaşlar!..

Bu səs bahar havası, bayram müjdəsi kimi kəndləri, şəhərləri ayıltdı.

- Yoldaşlar!..

Bu səs adamları yeni mübarizələrə, bəxtiyar həyat yollarına çağırdı.

- Yoldaşlar!..

Bu səs parlaq bir qılınc kimi üfüqləri kəsdi, gələcəyə qədər işlədi.

1934-1935



# HEKAYƏLƏR

# HƏKİM CİNAYƏTOV

Gənc tələbə Ramazan Əlizadə səhiyyə şöbəsində ərizəsinə dərkənar qoydurub, tələsik müalicəxanaya yollandı, qırmızı mürəkkəblə və xırda xətlə yazılmış dərkənar bu məzmunda idi: «Təcili tibbi yardım göstərməli».

Ramazan atasının başına gələn bədbəxt hadisədən təşvişə düşmüşdü. Atasız qalacağını təsəvvür etdikcə beyninə bir ağrı dolurdu. Özünə ümid verərək deyirdi: "Atamın yarası bir o qədər qorxulu deyil. İndiki həkimlər ölünü diriltdirlər. Atam üçün niyə qorxuram? Klinikadan bu saat bir həkim alaram, təcili müalicəsinə başlaram".

Ramazan bu kimi fikirlərlə klinikanın qapısından içəri girdi. Bir tərəfdə qadınlar durmuşdu. Bunların duruş və baxışlarından xəstəlik yağırdı. Çoxunun qucağında azarlı uşağı vardı. Kiminin başı, üzü və ayağı sarıqlı idi.

Ramazan şapkasının günlüyünü qaldırdı, ətrafa baxa-baxa müdirin otağını tapdı. Onun işi rayon həkiminə aiddisə də, səhiyyə şöbəsinin təkidini müdirə söyləməyi yersiz görmədi.

Müdir Ramazanı hörmətlə qarşıladı. Onun atasının başına gələn qəzanın nədən ibarət olduğunu dinlədi. Sonra onu bir tibb bacısına qoşub, rayon həkiminin yanına göndərdi.

Ramazanla tibb bacısı müalicəxananın çiçəkli və ağaclı həyətinə çıxdılar, bir alçaq pilləkəndən qalxdılar. Balaca otağa girdilər. İki nəfər ağ döşlüklü gənc qız nömrə üçün kağız doğrayırdı. Stolun dalında kök, ortaboylu, alnının qırışları uzaqdan görünən bir həkim oturmuşdu. Müəyyən bir işi yoxdu. Yalnız kağız doğrayan qızlarla söhbət edirdi. Hərdənbir söylədiyi məzəli sözlərdən qızlar şaqqıldayıb gülür, həkim də öz müvəffəqiyyətindən açılırdı.

Ramazan gözünü stolun üzərindəki siyahıya dikib həkimi gözlədi, həkim Cinayətov öz işində idi. Qızlardan birisi Ramazana baxaraq, həkimə nə isə dedi. Həkim naşı bir ifadə ilə:

- Nə istəyirsən, balam? - deyə soruşdu.

Ramazan əlindəki kağızı göstərərək izah etdi:

- Yerevanlılar küçəsində oluruq. Atam kankandır. Quyuda işlərkən yuxarıdan düşən daş çiynini yaralamışdır. Bərk xəstədir. Buraya gətirmək mümkün olmadı. Təcili kömək lazımdır.

Həkim Cinayətov həvəssiz bir halda əvvəlcə Ramazanın səhiyyə şöbəsinə yazdığı ərizəni oxudu. Sonra səhiyyə şöbəsinin dərkənarını gözdən keçirtdi. Qızlardan birisi naz sata-sata həkimə bir şey anlatmağa başladı. Ramazan tələsirdi. Həkim isə hələ yerindən qımıl-



danmaq istəmirdi. Nəhayət, qız sözünü bitirdi. Həkim başını qaşıyaraq güldü, qızlar da gülüşdü. Ramazan həkimin diqqətini səhiyyə şöbəsinin yazdığı "təcili" kəlməsinə cəlb etmək istədi:

- Səhiyyə şöbəsində onu çox təcili yazdılar. Tələsik gəldim. Tez kömək etməsəniz, sonrası qorxulu olacaq, atanın halı ağırdır.

Həkim Cinayətov haqq-hesab dəftərçəsini istədi. Ramazan tez təqdim etdi. Həkim yenə tələsmədən, qızlar ilə mazaqlaşa-mazaqlaşa iki-üç dəfə haqq-hesab dəftərçəsini başdan-ayağa varaqladı. Sonra bir papiros yandırdı. Əlinə bir kağız aldı. Soruşmağa başladı.

- Adınız? Familiyanız? Küçəniz?

Ramazan bitmək bilməyən cansıxıcı sualların hamısına cavab verdi. Həkim bu işi bitirdikdən sonra kamali-səliqə ilə suçəkəni aldı, yazdığı sual vərəqini qurutdu, ağır bir işdən qurtarmış kimi geniş bir nəfəs aldı, stula söykəndi. Qollarını boynuna çataraq bərk gərnəşdi. Stulun cırıltısına qadınlar da gülüşdülər. O, saxta bir ciddiyyət göstərərək, yumruğunu stola vurdu, onlara acıqlandı. Təkrar gülüşməyə başladılar.

Ramazan cəsarətlə dedi:

- Yoldaş həkim, tələsmək lazımdır.

- Siz gedin, xatircəm olun, mən adam göndərərəm.

Ramazan sıxıldı. Atasına təcili yardım lazımdı. O, həkimsiz qayıda bilməyəcək-di. Bu fikrini anlatdı. Cinayətov çəkdiyi papirosu külqabında söndürərək soruşdu:

- Yerevanlılar küçəsi haradadır?

Ayağa qalxıb, divardan asılan planın qabağına getdi, aramağa başladı. Ramazan ona kömək edib, küçəsini ona göstərdi. Həkim:

- Bura çox uzaqdır, - dedi, - piyada necə getmək olar?

Ramazan əsəbiləşdi:

- Həkim yoldaş, tələsmək lazımdır! Siz getməyəcəksinizsə, mən başqa bir həkim istəyim?

Cinayətov ayağa qalxdı. Təkrar oturaraq, üzünü qızlardan birisinə tutdu, onu o birisi otaqdan başqa bir həkim çağırmağa göndərdi. Bu ikinci həkimin gəlib çıxması yarım saat çəkdi. Cinayətov əvvəlcə başqa bir iş haqqında danışdı. Sonra onu Ramazanın atasına baxmağa göndərmək istədi. O isə getmək istəmirdi. Axırda Cinayətov özü getməli oldu. O, otaqdan çıxınca Ramazan iki dəfə klinikanın bayır qapısından çıxıb, təkrar geri qayıtdı. Həkim çox naz ilə yeriyirdi, ağır addımları ilə Ramazanı əsəbiləşdirirdi. Ramazan nə qədər tələsirdisə, Cinayətov bir o qədər ağır tərpənirdi, öz vəziyyətini dəyişmirdi, bəzən ilk dəfə görürmüş kimi mağazaların vitrinlərinə tamaşa etməyi də unutmurdu. Ehtimal ki, həkim öz yerişində hifzi-səhhə qaydalarına riayət etmək istəyirdi.

Nəhayət, gəlib, qapıda on dəqiqədən bəri gözləməkdə olan Ramazana yetişdi. Xəstənin başı üstünə gəldi. Yorğan altından işıldayan zəif və batıq gözlərə baxdı, "haran ağrıyır, niyə yatmısan?" - deyə bir neçə məlum sual verdi. Xəstənin istiliyini ölçmək, tənəffüsünü, ürək fəaliyyətini yoxlamaq məqsədilə termometri, trubkasını axtardı. Kostyum, şalvar ciblərini bir-bir yoxladı, tapa bilmədi.

- Vay səni... - deyə təəssüfləndi. Öz hafizəsizliyini söydü. Unutduğu şeyləri gətirmək üçün təkrar ağır addımlarla müalicəxanaya tərəf hərəkət etdi.

1930



## MƏRKƏZ ADAMI

«Ölərsəm görmədən Darçın xanımda eşqimə istək,
Yazılsın səngi qəbrimdə: ürək məhzun, can məhzun».

*Əntərzadənin bloknotundan*

Bir axşam kinodan çıxıb mənzilimə gəlirdim. Üç ildən bəri küsülü qaldığım bir yoldaşıma rast gəldim. Üzümü qaranlığa çevirib, saymazyana ötmək istəyəndə, qolumdan tutdu:

- Küsülülüyümüz öz yerində, dost, eşitmişəm otaq axtarırsan, gəl səni bir xeyirli yerə calayım.

- Boynuma böyük minnət qoymuş olarsınız.

- Nardaranski küçədə doqquz nömrəli dalana get. İkinci qatda iki otaq var, bəzəkli gəlin kimi! Hər şeyi içində. Xüsusi əldədir, yiyəsi satır. Özü də suyu qiymətinə: uzağı, beş-altı minə alacaqsan. Di durma!

Küsülü yoldaşımın əlini sıxıb yüyürdüm. Həmin evi tapdım. Otaq yiyəsi hələ yatmamışdı. Qəmli-qəmli oturub, deyəsən, məni gözləyirdi.

- Salam!

- Salam!

- Otaq satan burada...

Qoymadı sualımı bitirəm, sevincək cavab verdi:

- Özüdür ki, var. Mənəm. Qardaşoğlu, de görüm, alansan, ya danışdıran?

Bu söz məni yağlı xörək kimi tutdu. Az qaldım tərcümeyi-halımı danışam.

- Bu nə sözdür, dayı? Siz məni tanımırsınız. Gecə yeddi verst yol

tapdalamaqda, döngə-möngəni gəzməkdə sizin, bağışlayın, ala gözlərinizə aşiq-zad olan yoxdur ki! Özü də təzə, Allah oğluna qismət eləsin, xeyir iş xəyalındayam.

- Oğlum-zadım yoxdur.

- Dediyim odur ki, otaqdan ötrü sinov gedirəm.

Dediyimə peşman oldum, çünki toy məsələsini eşidib, kişi ayağını yuxarı pilləyə qoyacaqdı. O, əlimi şana kimi yekə və qalın barmaqlı ovcunun içinə alıb mənə tərəf əyildi, qətiyyətlə dedi:

- Alacaqsan ki?

- Alacağam!

- Bir söz deyim də?

- Bir söz de!

- Bir kəlmə, xoşsifət oğlansan, görürəm. Xeyir işin də var, bir kəlmə: bu otaqları sənə verəcəyəm, neçəyə, neçəyə, beşcə min manata. Əllicə dənə qaragöz yüzlüyə! Necəsən?

- Beş min manat?

- Beş!

- Aldım!

- Satdım. Allah xeyir versin!

- Sağ ol!

- İçində həmişə toy-bayram eləyəsən!

Səhərisi təzə otağa köçdüm. Anadan yenicə doğulmuş kimi yüngüllük hiss etdim. Köhnə, qaranlıq, dar otağımın «acığına» papağımı bir otağa, çəkməmi o biri otağa qoydum. Bir saat pəncərə qabağında, bir saat evin tən ortasında oturdum, dama çıxdım, çarpayıya uzandım, rahatlandım, mızıldayıb mahnı dedim.

Toy məsələsi düzəlmiş kimi idi: oğlan var, otaq var, zaqs var, pul var... Qalıb bircə qız tapmaq...

Axşam oldu. Gün batdı, çıraqlar yandı, şənlik səsləri aləmə yayıldı. Yeni otaqların həvəsi ilə uçurdum. Heç yerə gedəsi



deyildim. Otaqlar mənə ən böyük şənlik idi. Divarlara şəkil vurub sahman eləyəndən sonra çarpayını çəkib sərin balkonda doyunca yatmaq, köhnə, rütubətli otağımdakı yuxusuzluğumun əvəzini çıxmaq istəyirdim. Elə də elədim. Hay-küyə baxmadan, uşaq kimi hamıdan qabaq yatdım.

Məni yuxu aparmışdı. Yuxuda görürdüm, şairmi, ya aktyormu, nəsə olmuşam, kolxozçulara deklamasiya deyirəm. Öz-özümə gülürəm ki, mən hara, bu sənət hara?

Yuxudan dik atıldım. Gördüm, qonşu otağın balkonunda uzun bir adam Məcnun kimi saçlarını gözünün üstünə töküb, heykəl kimi əlini Şərqə uzadıb qışqırır: «Neçin də sən tökülmiyorsın, ey insanın bədəni, neçin, neçin?»

Məni heyrət götürdü. Gecənin bu vaxtında nə deklamasiya?

- Yoldaş, niyə qoymursan yataq?

- Pəhə! Sən yatacaqsan deyə, biz sənətimizdən əl çəkək? Əcəb işdir! Sabahın xeyir! Bir az mədəni olmaq lazımdır.

Hirsləndim. Ağır söz demək istədim. Bir də lənət şeytana eləyib, yorğanı başıma çəkdim.

Mən güman etdim ki, bu adamın təbi gəlib, eşqi qalxıb; on-on beş dəqiqə baş-beynimizi aparar, sonra yorular, gedər.

Belə olmadı. Dostum Hamleti ötdü, Aydından dedi. Ondan ötdü, Oqtaya, Otelloya keçdi. Qadınlığa lənətlər yağdırdı, əlini qulağına qoyub azan çəkdi. Cin vurdu beynimə, yuxulu, gic kimi yerimdən qalxıb dilləndim:

- Ayə, əmioğlu, bu nə hərəkətdir? Axı biz iş adamıyıq! Yuxumuz gəlir. Qoysana bir saat gözümüzə yuxu getsin!

O acıqlandı:

- Müftə konsert verirəm, təşəkkür əvəzinə... Xalq on beş manata bilet alıb eşidir... Mədəniyyətsiz!

- Buyur, sən mədəniyyətli ol, ancaq səsini kəs.

Dostum mülayim səslə dedi:

- Heç təhəri yoxdur. Sabah saat on ikidə klubda çıxışım var. Özümü biabır edə bilmərəm. Gərək hazırlaşım. Bir də ki, məsələ bu gecənin məsələsi deyil, mən hər gecə beləyəm. Bu mənim sənətimdir. Qonşular da bilir. Təzə gəlibsiniz, bir azdan sonra alışarsınız.

Qorxdum ki, bu adam məni, doğrudan da, öz hərəkətlərinə alışdıra, bədənim qızdı. Paltarımı geyinib, küçəyə çıxdım. Həyətin qarovulu üzümə baxıb, əhvalımı soruşdu. Güldü. Balaca gözlərini fanar işığından qoruyaraq, dişlərini ağarda-ağarda dedi:

- Hə! Get dolanginən, xamsan hənuz! Bacıoğlu, bu namərd oğlunu sən tanımırsan. Buna Əntərzadə deyərlər. Gecələr sənəti budur. Bəzən olur ki, qızlar gətirir, dəstə ilə xor oxuyub, yeddi qapı qonşuları bədxab eləyir. Bəs bu gözəllikdə otaqları üç-beş minə alanda demədinmi bunun amması var?

- Yox, əmi, ammadan o qədər başım çıxmaz.

- Gərək başın çıxa idi. Amma böyük ammadır! Səndən qabaq üç-dördü gəlib-gedib. Bir-iki ay qalıb, qaçırlar ki: «Biz kəsbkar sahibiyik, gecə yatmasaq, işləyə bilmərik». Nahaq yerə danışıb, ağzını ağrıtma, Əntərzadə belə Əntərzadədir. Neçə dəfə cərimə verib, gecə mövzəsini tərgitmir ki, tərgitmir.

Mən adam axtarası oldum. Pulumu versinlər, mən evdən əl çəkim. Otaqların adresini deyən kimi geri çəkilirdilər:

- Bildim, Əntərzadənin qonşuluğunu deyirsən, müftə verəsən, alan olmaz! Kim gələr ora?

Axırda əlacım kəsildi, otaqlardan çıxdım.

Bir il keçdi. Bu zərərin və yuxusuz gecələrin ağrısı canımdan çıxdı. Əntərzadəni də unutdum.

Təsadüfən bir xeyir işdə haman qarovula rast gəldim. O, Əntərzadə haqqında mənə bu aşağıdakı hekayəni danışdı:

- Fit verildi. Qatar hərəkət elədi. Əntərzadə N rayonuna yola



düşdü. Uzun davadan, çəkişmə və mübarizədən sonra Əntərzadəni mər-kəzdən ayırdılar. Ayırdılar, nə ayırdılar! Canı cəsəddən ayıran kimi! Böyük müsibət ilə ayırdılar. Onun təmiz, qat kəsməz, toz qonmaz, qumaş kimi xış-xış xışıldayan paltarları cib dəsmalına dönmüşdü. Yalvarmaq, xahiş etmək üçün Maarif Komissarlığının dalanında durmaqdan, pilləkənləri düşüb-çıxmaqdan, oturub-qalxmaqdan, qəti, silinməz əmrləri qorxa-qorxa oxumaqdan canı üzülmüşdü. Az qala bütün xanımları heyrətə salan Əntərzadə indi böyük restoranların yorulmuş aşpazına oxşayırdı.

Rayona getmək xəbərini söyləyəndə, deyəsən, kişiyə vay xəbəri verdilər. Saraldı, kiçildi, boğazı biçildi. Sevgilisi Darçın xanımı yanına saldı, qapı-qapı gəzib, məsul işçiləri bir-bir dişinə vurdu, olmadı. Yalvardı, baxmadılar. Hədələdi, qorxmadılar. Səs-küy saldı, eşitmədilər. Qızdırmalı olması haqqında vəsiqə çıxartdı, inanmadılar. Zərif kağızlarda ərizələr yazdı, rədd etdilər. Maarif müfəttişliyi iki ayağını bir başmağa qoyub deyirdi:

- Rayona gedəcəksən, vəssalam!

Budur, onu mərkəzin gurultulu küçələrindən, gözəl qızlarından, bulvar gəzintilərindən, tost deməli qonaqlıqlardan, konsert axşamlarından, bilyard oyunlarından ayırıb rayona - «hicra guşələrə» göndərirlər ki, get orada kəndlilərə tamaşa ver...

Bu hadisə Əntərzadə üçün sevgilisinin xəyanətindən də ağır oldu. İllah da ona görə ağır oldu ki, Əntərzadə özünü mərkəz adamı sayırdı. Vağzaldan o yana, şəhər işıqlarından o tərəfə, semaforun dalında dərin bir zülmət olduğunu güman edirdi. Ona elə gəlirdi ki, savadı, bacarığı olan adamlar tökülüb şəhərə gəlirlər. Rayon avamlar yeridir. Kim deyirsə ki: «Təkiadət bə məvcibi mərəzəst», boş sözdür! Əntərzadə kimi səliqəyə adət edən hanı? Adamlara toxunmasın deyə, tramvaya minməzdi. Sinifdə skamyasını silmək üçün evdən ipək dəsmal gətirərdi. Barmağı mürəkkəbə batmasın

deyə, yazı yazmazdı. Dərslərini hər axşam makinaçıya diktə edib, beş-on manat verərdi. Şapkasını asmağa qoymazdı. Qapıçıya xüsusi bir qutu vermişdi. Əntərzadə gələn kimi, görərdin, qutunun ağzı avtomat kimi açıldı. Gözəl gəlinlər saray təzyinatı içinə qərq olan kimi, Əntərzadənin məxmər papağı qutunun içində gözdən itərdi. Əntərzadə çəkməsini sutkada üç kərə sildirərdi desələr, inanın! Bir gündə neçə dəfə corabını dəyişər, paltarı da o nisbətdə. Küçəyə çıxanda təsadüfən birisi ona toxunsaydı, xəstə kimi əhvalı pozulardı, dərhal evə dönüb, qədd-qamətini təzədən güzgü qabağında yoxlar, düzəldər, yoluna düzələrdi.

Lakin rayon məsələsi kişinin varlığını sarsıtdı. O, nəinki səliqə məharətini, hətta başını da itirdi. Darçın xanımla görüşdəki təbəssümləri yox oldu. Üzünü bulud kimi qaranlıq, quyu kimi dərin bir kədər qapladı.

Əntərzadə başını vaqonun pəncərəsinə söykəyib, qəmli-qəmli baxırdı. Nə danışır, nə də bir şey eşidirdi. Ürəyi heç nə istəmirdi. Qəlbinə ağır daşlar asılmış kimi, özünü çox pis hiss edirdi.

Xırr... Qatar dayandı. Vağzalda orkestr səsləndi. Əntərzadə çexollu çamadanı götürüb qapıya çıxdı. Musiqi onda ruh yüksəkliyinə səbəb oldu: «Cəhənnəmə, - dedi, - rayon olsa da, adamı yaxşı qarşılayırlar. Burada klub, teatr-filan tamam özümə baxacaq...»

Ona elə gəlirdi ki, orkestr yerli icraiyyə komitəsi tərəfindən Əntərzadəni qarşılamaq üçün göndərilmişdir. Ayağını pilləkənə qoyanda bərkdən öskürdü - yəni ki, gəlirəm.

Ayağını yerə qoyanda «taaaq» deyib, şalvarının pozulmuş qatına baxdı, çamadanı sol əlinə alıb, sağ əlini görüşmək üçün saxladı, başını qaldırıb salamlaşmağa hazırlaşdı.

Musiqi durmadan çalınırdı, adamlar da o tərəf-bu tərəfə hərəkət edirdi. Kimi görüşür, kimi öpüşür, kimi «xəbərdar» deyirdi. Əli



fanarlı bir kişi çəkiclə qatarın təkərlərini yoxlayırdı. Əntərzadəyə fikir verən yox idi. O, bir az dayandı və gözlədi ki, bu saat gəlib deyəcəklər: «Əntərzadə yoldaş, yerli təşkilatlarımızın köməyinə, kəndimizi maariflәndirməyə çox xoş gəlibsiniz, səfa gətiribsiniz! Kənd soveti sizi aramsız gözləyir. Buyurun, əyləşin maşına!..»

Gələn olmadı! Adamlar vaqonların pəncərəsinə baxırdı. Əntərzadə fikirləşdi: «Yəqin səhv düşmüşəm. Onlar məni yumşaq vaqondan gözləyirmişlər. Sən öləsən belədir ki, var». Geri döndü, tələsik vaqona girdi. Vaqondan-vaqona keçib, yumşaq vaqona soxuldu. Gözünün ucu ilə pəncərə qabağında qaynaşanlara baxdı, ürəyi döyündü, sevindi, ehmallıca ətəklərini çırpdı, aramla, təmkinlə vaqondan düşdü. Yenə də heç kəs ona etina etmir, heç kəs yaxın gəlmirdi. Musiqi öz işində idi. Əntərzadə qaynaşan izdiham içində hürkmüş qoyun kimi döyüküb qalmışdı.

Əntərzadə gəlib "N" kəndində, şairlər demişkən, "bərqərar" oldu.

Əntərzadə kəndə baxıb fikirləşirdi: «Uğursuz tale gör məni haralara atdı! Mən şəhərdən, asfaltlı küçələrdən, yumşaq maşınlardan ayrılıb gör necə yerlərə düçar oldum! Yoldaşlarım, sirdaşlarım indi dəniz hamamlarının «mavi» sularında yumurta kimi qızlarla kefə baxırkən, mən də camışları seyr edirəm. Vay, bədbəxt Əntərzadə! Yazıq Əntərzadə, sənin nə bəlalı başın varmış!»

Əntərzadəni kənd klubuna müdir təyin etmişdilər. Kooperativin böyründə ona bir mənzil də vermişdilər. Onun səhərləri ahla açılır, axşamları vayla qovuşurdu! Sevgilisi Darçın xanıma gündə bir təcili məktub yazırdı, şikayətlənirdi, axırda da təkid edirdi: «Cavab! Cavab! Cavab! Cavab!»

Əntərzadənin razı qaldığı yeganə şey vardı: kənddə iş görmürdü: «Kəndçi avam camaatdı, hərdən yığıb, bir nağıl döşə qabırğasına, «sağ ol, a qadan alım!» - deyə-deyə getsinlər. Burada mənim vaxtım

çox olacaq. Bundan istifadə edib, sənətimi işlədə bilərəm».

Yağışlı bir gün idi. Batdaq dizə çıxırdı. Arabalar ağır-ağır gedirdi. Əntərzadə üst paltarı ilə yatağına girib, dam dirəklərini sayırdı. Komsomolçulardan biri gəlib dedi:

- Yoldaş klub müdiri, açarı istəyirlər.

Əntərzadə qalxıb oturdu:

- Kim istəyir?

- Camaat çoxdur! Abas kişi, Xalıq əmi-zad oradadırlar...

Əntərzadə elə bildi ki, klubdan götürüləsi bir şey var, yaxud qəzet-curnal lazım olub. Ayağa qalxdı, getmək istədi. Pəncərədən baxıb, yağan yağışı gördü, fikrini dəyişdi. Dinməz-söyləməz açarı çıxarıb verdi, özü qayıdıb yerinə girdi.

Bir qədər keçməmişdi ki, klub xidmətçisi gəldi:

- Yoldaş Əntərzadə, camaat sizi gözləyir.

- Məni neynəyir camaat?

- Klub dolub. Bilmirəm, ancaq bir vur-çatdasındır ki!

Əntərzadənin canına qorxu düşdü. Kluba gələsi «təftişdən» şübhəyə düşüb qalxdı, tələm-tələsik qapını bağlayıb getdi...

Əntərzadə klubda adamların oturub söhbət etdiklərini gördü. Bir neçəsi də nərd atır, piano çalırdı. Komsomolçular haradansa bəzəkli bir qəzet gətirib divardan asırdı.

Kənd soveti katibi Əntərzadəni görən kimi gülümsədi:

- Gəl də, gəl çıx, ay müdir, görək axı!

Əntərzadə ona yanaşıb soruşdu:

- İsmayıl, niyə yığılmısınız, xeyir ola?

İsmayıl elə bildi o, zarafat eləyir:

- Yığılmışıq belə sənin o xətt-xalına, gül camalına baxıb, salavat çevirək!

Əntərzadə qızardı, səsini alçaldıb, bir də soruşmaq istəyəndə Abas kişinin səsi eşidildi:



- Hə, balam, vaxtdır, gətirin görək, tamaşanı başlayın da!

Abas kişi üzünü kənd soveti katibinə və Əntərzadəyə tutub bunu deyəndə, camaatdan əl çalanlar oldu. Əntərzadə işi ayrı cür görüb, İsmayılı kənara çağırdı:

- Mən ölüm, de görüm, niyə yığılmısınız?

İsmayıl Əntərzadənin üzünə baxıb ciddiləşdi:

- Başına soyuq dəyib, nədir? Camaat tamaşaya gəlib, sən kimdən soruşursan, bu nə deməkdir?

- Ay İsmayıl, məni qəbrə qoyasan, xəbərim yoxdur.

- Qardaş, mən çağırmamışam.

İsmayıl gülümsədi:

- Çağırmaq nəyə lazımdır? Klubun kalendar planı hamıya məlumdur. Uşaq da, böyük də bilir ki, onunda tamaşa var. Ayın onudur, gəliblər. Planı düzən, camaata təsdiqlədən klub idarəsi, sən bunu bilməyəndə, bəs kim bilir?

Əntərzadə sərçə kimi çapaladı:

- İsmayıl lələ, sosializmə and olsun, oxumamışam. Bəs mən necə eləyim?

İsmayıl çiynini çəkdi:

- Bilmirəm necə eləyəcəksən! Ancaq camaatı qaytarmaq olmaz. Bizim üzümüzə tüpürərlər. Bir də yığmaq mümkün olmaz. Tez ol, bir-iki deklamasiyadan-zaddan nə bacarırsan, yadına sal, çalan uşaqları da çağır. Keç səhnəyə, camaat zalı dağıtdı, tez ol!..

Əntərzadə ömründə belə dara düşməmişdi. Çox adamları darda qoymuşdu, çox çətinliyə düşmüşdü, çıxmışdı, ancaq heç beləsinə rast gəlməmişdi. Payızın soyuğunda, xalq yaxasını bərk-bərk düymələyib oturduğu halda, Əntərzadə puçur-puçur tər tökürdü. Qaranlıqda özünü ora-bura çırpırdı.

Bir də gördü pərdə qalxdı. Nərd səsi kəsildi. Camaat kiridi. Qapı örtüldü.

Əntərzadə əlacsız səhnəyə çıxdı, əllərini qarnının üstündə çataqlayıb, böyük faciəvi rolda böyüyən aktyorlara məxsus bir vəziyyət aldı. Camaat əl çaldı. Əntərzadə alqışlar altında, laylay dinləyən uşaq kimi, özünü rahat hiss etdi. Bir saatdan bəri əl-ayağa düşməsinin tamamilə yersiz olduğunu gördü. «Canım, bura kəndistan yeridir. Nə desən, bunlara təzədir, ləzzətlidir. Bunlara nə hazırlıq! Bir ay bu səhnədə dursam, yenə deməyə sözüm çatar».

- Yoldaşlar, əlbət ki, qüsurlarımız mövcuddur. Bağışlamanız xahiş olunur.

Abas kişi təsəlli verdi:

- De gəlsin görək!

Əntərzadə ayağının birini irəli qoydu, dik durub, məğrur-məğrur zala baxdı. Yumruğunu bərk düyərək başladı:

- Hamletdən parça... Ey insanın bədəni, neçin də tökülmiyorsın, neçin də parçalanmiyorsın...

Abas kişi əyilib İsmayıldan soruşdu:

- Kimə qarğıyır?

İsmayıl gözünü səhnədən ayırmayaraq, əli ilə Abas kişini kiritdi:

- Qulaq as, görək nə olur.

Əntərzadə ağzını geniş açırdı. Qantarğa çeynəyən at kimi sifətini turşudub, təpiyini yerə vurur, əl-qolunu ölçürdü: «Neçin, neçin?»- deyə get-gedə özündən çıxırdı. Camaat bunu görüb fikirləşirdi: «Yəqin bu saat maraqlı tamaşa olar». Lakin Əntərzadə başını əyib geri çəkildi.

Kimsə yerindən dilləndi:

- Yoldaş müdir, musiqi olacaqmı?

Abas kişi ona cavab verdi:

- Necə yəni olacaq, afişada yazılıb. Bu nə sözdür? Olacaq harasıdır? Biz buraya qarğışa gəlməmişik, gəlmişik musiqidən-zaddan eşidək. Yoldaş müdir, başlayın. Musiqi başlayın, qarğışdan fayda çıxmaz!





Əntərzadə bir müddət qurudu, dili tutuldu. Birdən dilləndi:

- Yoldaşlar, çalğıçılarımız gəlib çıxmadığından...

Zaldan bir oğlan qoymadı ki, Əntərzadə sözünü qurtarsın:

- Yoldaş müdir, biz gəlmişik.

Bu sözü deyən, qucağında torbalı tar olan, yaraşıqlı bir oğlan idi. Onun «gəlmişik» sözünə gurultu ilə əl çaldılar. O, səhnəyə keçdi. Çalmaq üçün stula oturanda, Əntərzadə kölgə kimi titrəyib getdi, pərdənin dalında gözdən itdi.

Yaraşıqlı oğlan ətrafına baxdı, elan verən yox idi, özü məlumat verdi:

- Sizin xahişinizə görə: «Həyat».

Sözünü deyib, tarı bağrına basdı. Barmaqları arı kimi pərdələri gəzdi. Qulağı ilə simlərdən tökülən həyat nəğməsini dinləyir, köksünü qabardan həyəcanı, ruhunu oxşayan sevinci, üzünü işıqlandıran təbəssümü ilə cavab verirdi.

Əntərzadə pəncərəyə söykənib, mat-məəttəl qaldı: «Tikanlı çəpərlərin, palçıqlı küçələrin, balaca daxmaların içində, adi paltarda, sadə simada görünən gənclər içində sənətin həvəskarları yox, sahibləri var imiş». Artıq nə tar eşidilirdi, nə yaraşıqlı oğlan, nə də səhnə nəzərdə idi. Yalnız əlçatmaz bir istedadı məharətlə nümayiş etdirən işıqlı və həssas bir qəlb görünürdü.

Yaraşıqlı oğlan ayağa qalxanda, zal da ayağa durdu. Zərif, incə musiqiyə qarşı qulaqları sarsıdan alqış başlandı. Bu hazırlıqsız müsamirədən sonra Əntərzadə kəndlilərin gözündən daha da düşdü; hələ kişini dilə-dişə də saldılar. Abas kişi hər yetənə deyirdi: «Klub müdirinin qarğışına gələsən, belə adam!»

Təhsilinə, gecə məşqlərinə, vərdişlərinə baxmayaraq, Əntərzadənin deklamasiyaları heç kəsi cəlb etmirdi. O bu barədə İsmayıla şikayətlənəndə, o da deyirdi:

- Doğru deyirlər! Çox süni başladın. Deklamasiyanın da təhəri



var. Yerdən-göydən dəm vurmağın camaat üçün heç bir mənası yoxdur. Kəndli həyatpərəst adamdır. O, ürəyəyatan tamaşa istəyir.

Əntərzadə yanıldığını anladı. İnandı ki: «Kəndlərdə muğamat bilənlər, yaxşı səsi olanlar vardır. Mən nahaq burada sənət məsələsinə əl atıram. Yaxşısı budur ki, bunları şəhərdən gətirdiyim məlumatla maraqlandırım».

Bu fikir Əntərzadənin beyninə batdı. Sevinə-sevinə qəzetləri qabağına töküb, məruzə hazırladı. Məruzəni bir də ona görə həvəslə hazırlayırdı ki, bir neçə gün idi rayondan kəndə bir bağça müdirəsi gəlmişdi. Yaxşıca bir qızdı. Onun qarşısında məruzə eləmək-mərkəzdə danışmaq kimi bir şeydir...

Bağça müdirəsi gələndən bəri Əntərzadə üst-başına fikir verməyə, iki aydan bəri unutduğu vərdişlərini xatırlamağa başlamışdı. Günlər keçdi. Əntərzadənin «mədəniyyət barəsində» məruzə günü çatdı.

Yenə həmin klub, yenə qaranlıq bir gecə, lakin yağışsız, ayazlı bir gecə idi.

Camaat kluba toplaşdı. Proqram üzrə Əntərzadə məruzə etməli, sonra bədii hissə başlanmalı idi.

Camaat bədii hissə üçün axışıb gəlmişdi. Əntərzadə ancaq məruzəyə hazırlaşmışdı, camaatı da bura onun üçün yığmışdı. Bədii hissədə nə olacağını, hətta belə bir hissəyə ehtiyac hiss olunub-olunmayacağını düşünməmişdi. Onun şəxsi rəyinə görə belə məruzə bu kənddə eşidilməmişdi. Camaat bunu eşidəndə ağzı açıla qalacaq, yerbəyerdən qalxıb deyəcəklər: «Yoldaş klub müdiri, qadan alım, o söylədiyin cümləni zəhmət çək, bir də de, dəftərimə yazım». Bəzisini də, məsələn, Abas kişi kimilərini heyrət götürəcək, dizinə çırpıb deyəcək: «Vay sənin atan-anan yarımasın, kişi, gör nə avamlıqda qalmışıq ki, belə-belə şeylərdən xəbərimiz yoxdur!» Bağça müdirəsi deyəcək: «Şəhərdə bizi beş il oxut-dular, bu sözlərin heç birini

öyrədə bilmədilər. Malades klub müdirinə!» Beləliklə, məruzə gecəyarısına qədər çəkəcək. Camaat əl çəkməyib, sualı sual üstündən verəcək. Axırda maarif şöbəsi müdiri məruzəçiyə bir stəkan şirin çay gətirdəcək, camaatın ağzını saxlayıb deyəcək: «Yoldaşlar, bəsdir suallar! Bu qayət maraqlı və qiymətli məruzəni biz bir də qoyacağıq. Mümkün etsək, rayon icraiyyə komitəsi ilə danışıb, rayon miqyasında qoyacağıq ki, hər bir kəndli tamam göz açıb, mədəniyyəti klub müdirimiz kimi zatların sayəsində bilsin. Məncə, bəsdir suallar. Məruzəçini yorma-yın». Belə vəziyyətdə, əlbəttə ki, bədii hissəyə yer ola bilməz. Olsa, olsa, klub müdirini təbrik üçün komsomol nümayəndəsinə, pioner nümayəndəsinə, qadınlar nümayəndəsinə (ki, ibarət olmuş ola kəndə yenicə gəlmiş bağça müdirəsindən) söz vermək olar...

Əntərzadə bütün bu mülahizələri nəzərdə tutub, bədii hissəyə hazırlıq görməmişdi. Oxucular darıxıb soruşa bilər ki, de görək, bu maraqlı məruzə başlandı, ya yox? Başlandı nədir, Əntərzadə tribunanın dalında özünü yırtdı, tökdü!..

O, materialsız natiqlər kimi başlamadı, ay nə bilim: «Üzr istəyirəm, nöqsanımı bağışlayın, filan...» Belə söhbətlərə Əntərzadənin məruzəsində yer ola bilməzdi. O, birdən-birə başladı:

- Yoldaşlar!

Bu sözü elə bərkdən dedi ki, azyaşlı uşaqlar qorxdu, qocalar səksəndi, ortayaşlılar özünü yığışdırdı. Gözünü qabaq sırada oturan bağça müdirəsinin yanağındakı «miskin xallara» dikərək «mədəniyyət barəsindəki» məruzəsini bitirdi:

- Yoldaşlar! Mən... sözümü... qurtarıb.... deyə bilərəm ki... mədəniyyət işlərimiz... cəhalət işlərimiz... maarif işlərimiz... bisavad işlərimiz... odur ki, bu kənddə işlərimiz...

Abbas kişi əlini qaldırdı:

- İşlərimiz nə olsun, yoldaş, axı, onu de!





İsmayıl ona səs verdi:

- Yoldaş Əntərzadə, bizi ələ salmısan, özünü?

Camaat küyləşdi:

- Bu necə məruzədir, vaxtımızı alırsınız? Belə mədəniyyət Əntərzadənin başına dəysin!

- Klubun işini nə korladılar, fələk!

Əntərzadə əlindəki kağız-kuğuzu cibinə doldurur, yerə düşənlərini götürüb qoltuq cibinə qoyurdu ki, salondakı küy onu ayıltdı, dönüb salona baxanda, İsmayılın tribunaya çıxdığını gördü. İsmayıl camaatı sakit edib dedi:

- Yoldaşlar, bizə aydın oldu ki, Əntərzadə bir klub işçisi deyil, xaliscə bir fırıldaqçıdır. Onda günah yoxdur. Biz elə dəmdəməkinin əlinə kağız verib, buraya göndərən maarif şöbəsi ilə danışarıq. İndilikdə klubun idarə işini Yusif yoldaşa tapşırırıq.

Abbas kişi gülüb, ayağa qalxdı:

- Əntərzadəni özüm yola salacağam. Dostam o kişi ilə...

Əntərzadə bildi ki, bu «abırla» mərkəzə qayıtmaq mümkün olmayacaq. Mərkəzin gurultulu küçələrini, bulvar gəzintilərini, köpüklü pivəsini, tost dəməli qonaqlıqlarını, ətirli Darçın xanımını tamamilə unutdu. Başındakı «mədəniyyəti» satmaq üçün münasib bir yer axtarmaq fikrinə düşdü. Lakin belə bir yer tapa bilməyəcəyini yəqin etmişdi. Ancaq çox gec idi...

1933

Məmmədhüseyn əhvalatı eşitmişdi Darvazadan girəndə gözündən od tökülürdü. Xəkəndaz əlinə keçdi, ucadan bağırdı:

- Səni mənə calıyanın atası tünbətün olsun!..

Hirs kişini boğurdu. Sözünü bitirə bilmədi. Kəlməbaşı Saranın dizinə, başına, kürəyinə ilişdirdiyi zərbələrin hıqqıltısı ilə ürəyindən tikan çıxarırdı. O vurduqca, odun yaran kimi, bir «hıqqıltı» səsi çıxırdı.

- Axı... hını!.. hını!.. Evimdə hı... hı!

Qonşu arvad Giləxanım xala özünü Saranın üstünə atdı:

- Ay Məmmədhüseyn qardaş, nə qayırdığındır? Bu, candır axı! Bəd-bəxti öldürdün ki. Bəsdir! Sən Allahın, bəsdir!

Bir xəkəndaz zərbəsi də Giləxanımın dirsəyinə toxundu. Arvad uful-dadısa da, Saranı əldən qoymadı. Daha Məmmədhüseynin ağzı qayıtmışdı. Hirsinin qalanını Cəmilin üstünə tökəcəkdi.

Cəmil qışqıraraq, özünü qadınların üstünə atdı. Məmmədhüseyn, ilanın başını əzmək istəyirmiş kimi, bir əli ilə divara söykəndi, o biri əli ilə Cəmilə bir xəkəndaz ilişdirə bildi.

Dəfələrlə içinə mal əti qoyduğundan çirklənmiş, qan ləkəli dəsmalını çıxardıb, alnının tərini sildi. Birdən bir şey yadına düşmüş kimi, ayağa qalxdı:

- Giləxanım bacı, dayanma! Şeyləri ver, yerbəyer eləsinlər!

Məsələ aydındı. Bu saat ev şeylərini gizlətmək lazımdı.

- A qız, Bilqeyisə kömək elə!

- Sara, samovarı ver, xalçanı qatla!

Şeyləri tələm-tələsik divardan Giləxanımgilə ötürürdülər.

Məmmədhüseyn ayə haşiyəli xalçanı səliqə ilə büküb, dəsmala bağladı. Saranın gəlinliyində hazırlanmış atlaz yorğanı, ağ samovarı, hamam boğçasını. Məmmədhüseynin vəznəli çuxasını (Sovet hökuməti qurulandan sonra Məmmədhüseynin ürəyi açılmırdı ki, bu çuxanı əyninə taxsın, beş adam içinə çıxsın) və qeyri qiymətdə ağır şeyləri iki dəqiqənin içində yerbəyer etdilər.



Ev dönüb oldu «bir həsir, bir Məmmədnəsir».

Sara gözünün yaşını silərək, şeyləri daşıyırdısa, Cəmil yenə də həyətin küncündə yenicə yarpaqlamış armud ağacına söykənib, içini çəkirdi.

Dünənki kimi yadındadır. Molla Tağı ilə bığı xınalı, yekəburun, göygöz, uca və beli donqar bir kişi gəlmişdi. Yağış da yağırdı. Anası əriştəli sıyıq bişirmişdi. Çox söhbət elədilər. Cəmilin anası yük yerinin dalında üzünü tutaraq oturmuşdu. Kişilərə hərdən cavab verirdi. Ağlayırdı da.

- Eybi yoxdur! Cəmil də mənim oğlum. Onu səndən ayırmayacağıq ki! Cəmili böyütmək mənə xoşdur. O da mənim oğlum.

Uzun kişi bu sözləri deyəndə Cəmil anasının dizi üstündə uzanmış pişik balası kimi oynayırdı. Saranın gözündən axan yaş uşağı diksindirdi. O gündən sonra uzun kişi Cəmilgildə qaldı. Anası da öyrədirdi ki:

- Ona ağa de, o sənin atandır!

Səkkiz il əvvəl olan bu əhvalatı Cəmil xatırlayırdısa da, yenə mütəəssir olmurdu. Cəmili təsirləndirən başqa bir şeydi.

Bir həftə əvvəl məktəb pioner bürosu pionerlərin evini gəzməyi, kimin necə təmiz, nizamlı yaşadığını öyrənməyi qərara almışdı. Yoxlamaq üçün Cəmilgilə gələnlər onun kitablarına, dəftərlərinə, yazılarına, yaşadığı evə, yatacağına baxmış, bəzi şeylər yazmışdılar. Təmizlik üçün gəzdiklərini demişlərsə də, nə qadınları, nə da hamam icarədarlığında ödənməmiş vergisi qalan Məmmədhüseyni inandıra bilmişdilər. Məmmədhüseynə elə gəlirdi ki, «ispextorlar» hardansa eşələyib, vergi kağızını tapmışlar, pioner-filan bəhanədir.

Hökumət də uşaqları göndərib ki, onun şeylərini siyahıya alsınlar.

Məmmədhüseyn özünü itirmişdi. Bu bədbəxtliyin başlıca səbəbini Cəmildə görürdü. Evi hökumətə tanıdan Cəmildir. Yoxsa kim nə bilir ki, hamamçı Məmmədhüseynin yurdu haradadır, nəyi vardır.

Bütün bunlara görə Məmmədhüseyn tez evə qaçıb, şeyləri gizlətmək fikrinə düşmüşdü. Cəmili düşündürən bu idi ki: «Doğrudanmı, ev şeylərini aparacaqlar? Doğrudanmı, bu işlər mənim oxumağıma görə olur?»

Bu gün evləri qapı-qapı gəzmişlər. Hökumət deyib ki, gərək oxumayan qalmasın. Səriyyəni, Giləxanımı, Ziynəti, hətta Məşədixanımı da yazmışlar. Yazanların içində bir saçıkəsik qız da var imiş. Səriyyəyə demişdi:

- Vaxt ikən oxuyun. Bir-iki ildən sonra savadsızlar utanacaqlar. Yadınızdadırmı, bir vaxt sizin uşaqları məktəblərə çağıranda qorxub vermirdiniz. Axırda dadını bildiniz, indi özünüz kağız çıxarıb, oğlunuzu böyük məktəblərə göndərirsiniz. Bax, bu iş də elə olacaq, hökumət kitab-dəftər verir, yaxşı müəllim verir, yer verir, həftədə bir teatr, kino verir. Kim oxusa, aparıb! Kim getməsə, özü peşman olacaq!..

Saçıkəsik qızın sözləri Səriyyəyə, Leylaya xoş gəlmişdi, ancaq Maman arvad lağ eləyirdi məktəb tərəfə ikiəlli boğma atıb, ağzını büzürdü:

- Qadam onun dəftərinə də, qələminə də! Mən gedib matışkalarla baş-başa verə bilmərəm, bacı! Gündə də müəllimlər yanbızımdan bir çimdik götürsünlər ki, yoldaşlıqdır. Yox, a bacı, mən qələt elərəm!

Hələ deyirlər ki, Mamanın əri Hacı Əbdüləli kişi bərk tapşırıbmış ki, elələri həyətə gələndə qapını bağlayıb desinlər: «Evdə adam yoxdur». Hər kəs onların, o şeytan dostlarının əməlinə uysa, nə



dünyası olar, nə axirəti...

Sara bunları eşidir, gülürdü. Ona elə gəlirdi ki, bunlar ona aid deyil, çünki onsuz da dərdi çoxdur. Heç hökumət də elə adamlara bənd olmaz, çünki ev-eşik, uşaq dərdi qoymaz ki, başına bir şey girsin. Bir də, indi oxumaq Saranın nəyinə lazımdır? Vaxtı keçmiş, günü keçmiş. Kişinin töhmətindən qurtarsa, Cəmilini oxutsa ona bəsdir!

Bu axşam Sara paltar yuyub yorulmuşdu. Böyük çayniki közdə qaynadıb, yanına qoymuş, rəngsiz çaydan tez-tez töküb içir, yanğısını söndürmək istəyirdi. Kişi, nədənsə, çox gecikmişdi. Cəmili də məktəbdə müsamirəyə çağırmışdılar. Sara divardan Səriyyəni səslədi (o, savad kursundan təzəcə qayıtmışdı).

- A qız, darıxıram, təkəm, gəl bir az otur!

Səriyyə fəhlə qızı idi. Şirniçiyə ərə verilmişdi. Əri ilə inciklikləri olduğundan, üç həftə idi ki, daha onun evinə qayıtmaq istəmirdi. O, indi özünü sərbəst hiss edirdi. Bu gün ikinci gün idi ki, savad kursuna gedirdi. Kurs çox xoşuna gəlmişdi. Qayıdan kimi Saraya tərifləməyə başladı. O, boynunu tərlədən uzun və qara hörüklərini əlinə alıb, döşünə saldı. Toxunmaqdan cilalanıb, mərmərə dönmüş aralıq divarın daşına dirsəklənib, bir az ehtiyatlı, lakin gülər üzlə Saraya anladırdı:

- A qız, yurdda qalan elə sənnən mən imişəm! Kursda arvad istədiyin qədər. Əlinin arvadı, baldızı Seyidxanım... Nədir, o iranlıların həyətində olan arvad...

Saranı maraq götürdü:

- Necə? Ay qız, nə təhər olur? Saç kəsməkdənmi danışırlar? Nə deyirlər sizə? Çadralı qoyurlarmı?

- Yox, a qız!.. Sənin saçında nə işi qalıb? Mən də sənin kimi bilirdim. Amma elə yaxşı imiş ki! Sinifdə oturan kimi müəllim gəldi. A qız, bizə salam da verdi ey! Adlarımızı çağırdı. Hərəmizə təzə

kitab, cızıqlı dəftər, qırmızı qələm payladı, özü də dedi ki, iki ayda lap su kimi oxumaq öyrədəcəyəm.

Bu halda darvazanın bir tayı özünəməxsus bir şaqqıltı ilə açıldı. Gələn Şimir Məmmədhüseyn idi. Sara:

- Vaxsey, ciyərin yansın, kişi! - deyə evə təpildi.

Məktəb həyəti uşaqlarla dolmuşdu. Qız, oğlan bir-birinə qarışmışdı. Cəmil anası ilə müdir otağının pilləkənində dayanmışdı. Sara ilk dəfə idi ki, oğlu ilə müdirin yanına gəlirdi. O bu şənliyə yabancı idi. Oğlunun bu yeni həyat ulduzları arasında olduğuna sevinirdi.

Qapı açıldı. Boz kostyum və ağ köynək geymiş bir cavan oğlan onları çağırdı:

- Buyurun!

Müdir, Sara və Cəmilə yer göstərdi. Oturandan sonra onların kefini soruşdu. Cəmil utandığından cavab verə bilmir, yalnız gülümsəyirdi. Sara isə müdirin iltifatından razı idi. Çox şükür edir, Cəmilə olan hörmət üçün xəcalət çəkdiyini və bu yaxşılığın əvəzini verməyə imkan axtardığını bildirirdi. Müdir dedi:

- Mən Cəmilə heç bir yaxşılıq etməmişəm. Cəmil burada gördüyünüz yüzlərcə uşaqların biri kimi Sovet hökumətinin, sovet məktəbinin oğlu, yeni nəslimizin bir nəfəridir. Doğrudur, siz Cəmilin anasısınız, ancaq Cəmilin daha böyük bir anası var, o da Sovet hökumətidir. Məktəb öz ata-analıq vəzifəsini yerinə yetirir.

Saraya elə gəldi ki, müdir ona məktəbin əhəmiyyətini başa salmaq, onu ayıltmaq istəyir. «Yəqin, - deyə düşündü, - müdir elə bilir ki, mən də oğlunu məktəbə buraxmayan analardanam». Az qaldı ki, kursda oxuduğuna dair kağızı müdirə göstərib desin: «Başımdakı çadraya baxma. Mən elmin qədrini bilən olmasam, Cəmilin ucundan Şimir Məmmədhüseyn kimilərinin vərəmini udmazdım...»

Müdir, ehtimal, Saranı anladığı üçün əsl mətləbə keçdi:



- Sizə zəhmət verməkdə məqsədim bir məsələni danışmaqdır. Pansion məktəblərinə bizdən adam istəyirlər. Seçdik, yaxşı bilən və yoxsul uşaqlardan altı nəfər gələn ildən hökumət xərci ilə oxuyacaq, yeyəcək, içəcək, geyəcək. Hər şeyləri hökumətdən olacaqdır. Özləri də sənət öyrənəcəklər. Gələcəkdə mühəndis olacaqlar. Ancaq eşitdiyimə görə, sizin yoldaşınız Cəmili çox incidir. Odur ki, mən belə məsləhət görürəm. Cəmil bu ildəncə texnikumun pansionuna keçsin. Hər şey verirlər. Yaxşı da yoldaşları var. Mən özüm ona nəzarət edəcəyəm. Siz də tez-tez onunla gö-rüşə bilərsiniz. Nə deyirsiniz, razısınızmı?

Sara çox razılıq etdi, belə olarsa, Cəmilin daha tez və yaxşı oxuyacağını bildirdi...

O gündən sonra Cəmil pansionun öhdəsinə keçdi.

Bərk isti idi. Yalnız kölgələr uzanıb hər yeri örtəndən sonra bir az nəfəs almaq olurdu. Açıqlıq və su qırağı olduğundan, körpü üstündə külək vardı. Qonşu qadınlar bura toplaşmış, söhbət edir, gəlib, gedəni gözdən itənədək süzür, «təhlil» edirdilər.

Səriyyə qaça-qaça ovcunun içində nə isə gətirirdi. Əvvəlcə Saraya göstərəcəkdi. Açanda qatlanmış qəzet olduğunu gördülər. Saranın gözü qəzetin ortasındakı şəkillərə sataşdı; diqqətlə baxanda, hamısını tanıdı:

- Budur ha! Sənsən. Nə açıq düşmüsən, a bəxtəvər! Nə vaxt çəkdirdin, a qız?

Qadınlar komalaşdılar. Hamı barmağı ilə göstərib deyirdi:

- Bu da Seyidxanımdır.

- Sitarə lap artistsayağıdır.

- Arsız gör nə baxır!

- Çəkil, görək, a qız, qıraqdakı kimdir?.. Zeynəb xanıma oxşayır.

Zeynəb xanım bundan incidi:

- Oxşasın canuva! Mənim elə yerlərdə nə işim?

- Dayan görüm, əşi!

Savad kursuna davam edən qadınların şəkli ilə hər kəs maraqlanırdı. Seyidxanım ətrafı yoxlayandan sonra yavaşcadan dedi: «Kişilər bilməsin, yaxşı deyil». Ancaq o bilmirdi ki, Şimir Məmmədhüseyn Sovet hökumətinə qarşı dava xəbərini axtardığı qəzetdə şəkillər gözünə sataşmışdı, hətta zəmanəyə tüpürmüşdü də.

Qadınlar qəzeti o qədər dartışdırdılar ki, bir qulağı cırıldı, hamısı heyifsiləndi. Səriyyə dinmədi. Sara cırılan yeri yapışdırmaq üçün yapışqan dalınca uşaq göndərdi. Kim idisə təsəlli verdi:

- Mən bu qəzetdən aldıraram, adam var, gətirər!

Sara Məcid müəllimin diqqətini cəlb etmişdi. Hamıdan əvvəl gəlir, hamıdan tez gedirdi. Hər zaman dal sırada oturardu. Tənəffüslərdə də bəzən başını kitabdan qaldırmır, dinmir, danışmır, sual vermir, lakin maraqla dinləyirdi. Sual veriləndə isə pul kimi qızarır, çətin eşidilə biləcək nazik bir səslə, qırıq cümlələrlə, lakin doğru cavab verirdi.

Bu isə Məcidə kifayətdi. O, belə bir mətbəx qadınının birdən-birə Səriyyə kimi aktivləşə bilməyəcəyini bilirdi.

Sara Məmmədhüseyndən gizli, Səriyyənin köməyilə savad kursuna müntəzəm davam edirdi. Onun indi oğlundan - Cəmil tərəfindən heç bir intizarı yoxdu. Bir qorxusu vardısa, o da Məmmədhüseyndən və onun kurs məsələsini eşidəcəyindəndi. Buna görə də Sara kursdan tez qayıtmağa məcbur olurdu. O, Cəmilin getməsindən, ərinin işdən gec gəlməsindən istifadə edərək, dərsinə davam edirdi. Ərinə və ya başqa soruşanlara: «Evdə otura bilmirəm, axşamlar bacılığımgilə gedirəm»,-deyirdi.

Məmmədhüseynin isə son zamanlarda başı çox qarışıqdı. Cəmilin hökumət pansionuna keçməsi münasibətilə öz adının «dəftərə düşməsindən» ehtiyatlanırdı. O biri tərəfdən də hamamın bərəkəti qaçmışdı, adamlar hökumət hamamlarına gedirdilər, xüsusilərə gələn çox az idi. Az qala, odunun, suyun pulunu çıxarmaq olmurdu.



Məmmədhüseyn səhər tezdən süftə eləməmiş, cibindən bir abbası çıxarıb, bir rusca, bir azərbaycanca qəzet alırdı. Qış gecələrində qəzeti qonşu uşaqlara avaz ilə oxutdurur, «hərifllərin işi yaxşı deyil» - deyə əllərini ovuşdururdu. Qəzeti büküb cibinə qoyandan sonra dünya işlərindən danışırdı. Hərçənd savadı yox idi, amma özünü dünya işlərini bilənlərdən sayırdı. Ona elə gəlirdi ki, gəlib-keçəcəyi ovcunun içi kimi bilir. Yolda musiqi çalan və məşq eləyən uşaqları, qırmızı qalstuklu pionerləri gördükcə, uzun bığlarını sığallayaraq öskürər və ürəyində deyərdi: «Ay şeytan əməlinə uyan yazıqlar, dünyadan xəbəriniz yoxdur!»

Uşaqlar isə onu uzaqdan görən kimi: «Şimir Məmmədhüsen gəlir» - deyərdilər. Məmmədhüseyn dəfələrlə nəzir-niyaz vermişdi ki, şimirliyi üstündən götürülsün, amma başa gəlmədi. Uşaqlar bir yanda dursun, beş manat verib, dua etdirəndə axund onu Məşədi Ağa Məmmədhüseyn adlandırırdı. Elə ki minbərdən yerə düşürdü: «Hə... Şimir Məmmədhüseyn hara getdi?» - deyirdi.

Bunlara görə idi ki, Şimir Məmmədhüseyn Sara ilə çox əlləşə bilmir, onun gündüzlər və ya axşamlar harada olması ilə maraqlanmırdı.

Sara isə ara-sıra qadınlar klubuna gedir, nitqlər eşidir, yeni adamlar görür, yeni şeylər öyrənirdi. Sara indi daha azad yaşamaq istəyənlərin öz məqsədlərinə nail olduqlarını görürdü.

O, kursa davam edəndən sonra çox açılışmışdı. İndi Məcid müəllimin suallarına cəsarətlə və düzgün cavab verirdi. Hər yeni hərfi bildikcə, bir xeyli böyüdüyünə inanır, bütün əlifbanı qurtarmağa tələsirdi. Sinfə girən kimi çadranı açıb bir kənara qoyur, başıaçıq dərsə qulaq asırdı. O, həmişə Səriyyə ilə otururdu. Səriyyənin də Saraya çox köməyi dəyirdi.

Bir gün Sara dərsdən qayıdırdı, Məmmədhüseyn onu gördü. Sara kitablarını gizlətmək istədisə, mümkün olmadı. Məmmədhüseyn dərhal onun üstünü aldı. Çirməkli qollarını aça-aça mənalı və yavaş addımla irəli yeridi:

- Haradan gəlirsən belə?

Sara dinmədi, kitabları pəncərəyə qoydu. Çadrasını açdı.

- Sənə deyirəm, harada idin?-deyə kişi səsini ucaltdı.

Sara bilirdi ki, Məmmədhüseyn işi duymuşdur. Əl çəkməyəcəkdir. İndiyə qədər etdiyi kimi yumşaqlıq və itaət göstərsə, qol-qanadı qırılacaqdır. Haray salıb, dost, düşməni buraya yığmağın da mənası yoxdur. Cəsarətlə cavab verdi:

- Dərsdən gəlirəm!

Bu gözlənilməz cavab Məmmədhüseynə bir güllə kimi dəydi. O, siğəsindən savayı dörd arvad yola salmışdı. Heç birindən belə cavab görməmişdi. Bayaqdan güman edirdi ki, Sara həya edib dinməyəcək, təpiklər və yumruqlar altında «qələt eləmişəm» deyəcək və yalvaracaqdır.

- «Dərsdən gəlirəm!»

Bu cavab Məmmədhüseynə məlum olmayan şeydən xəbər verirdi. Ona görə də kişinin dizləri titrədi, dodağı əsdi. Bir az duruxdu. Sonra Saranın üstünə cumdu, Sara özünü pəncərədən həyətə atdı. Lakin qaçmadı. Belin sapı əlinə keçdi.

Sara Məmmədhüseynin gözündə böyüdü. İndi o, ərin əlinə baxan, kötəyində əzilən qadına deyil, bir aslana bənzəyirdi. Onun qəti hərəkəti, illərcə toplanıb qalan, sızıltılarla paslanan, lakin parlamağa qadir olan qüvvət və bacarığın bir qığılcımı idi. Bu qığılcım bir ox kimi Məmmədhüseynin gözünə batdı.

- Köpəyin qızı... Bəs belə?!

O, qolu ilə başını qoruyaraq əşqiya şəbihi kimi qadına hücum etdi. Məmmədhüseynin dirsəyinə çırpılan ağac, quru oduna vurulmuş balta kimi səsləndi. Məmmədhüseyn Saranı yerə çırpmaq və boğmaq fikrində idi. O, ilk həmlədə zəifliyini hiss etdi. Sara onun xirtdəyindən yapışıb, başını geriyə əydi və yerə vurmaq istədi. Özünü belə aciz görən Məmmədhüseyn əvvəl içində təəssüfləndi, özündə daha şimirlikdən bir əsər qalmadığına inandı. Saranın saçını çəngələyərək, vəhşicəsinə yoldu. Sara buraxmadı. Məmmədhüseynin arxası yerə dəyəndə, çox yemiş ayı kimi zınqıldadı və qışqırdı. Qonşular çoxdan tökülmüşdülər. Saranı evə apardılar. Su verdilər. Həyəcandan, ya əsəbilikdənmi o ağlayırdı. Məmmədhüseyn isə həyətdə tövşüyə-tövşüyə meydan oxyurdu.

- Qoyaydılar, görəydin səni parça-parça eləyirəm, ya yox!

O gündən sonra Sara Məmmədhüseynin üzündən qurtardı. Əməlli-başlı savadlandığını görüb, onu katiblik kursuna qəbul etdilər. Xalq məhkəməsində qulluq etdi. Sonra iclasçı seçildi. O, xüsusən qadın azadlığı cəlladlarına qarşı amansızdı. Məhkəmə sədri Babayev iclaslarda Saranın fikrilə hesablaşırdı...

1933

# TƏZƏ TOYUN NƏZAKƏT QAYDALARI

Qardaşlığım kooperativdə işləyirdi. Anası da mağazaların hansındasa satıcılığa təyin edilmişdi. Vaxtı yox idi, görüşə bilmirdik. Bu axşam ona rast gəldim.

- Soyuq! Etibarsız! - deyə məni çox danladı. Bərk tapşırdı ki, sabah Bəhlulun toyudur, gələrsən.

Mən boyun qaçırtdım:

- Vacib işim olacaqdır, - dedim.

- İstirahət günüdür, - dedi, - kimə yalan satırsan? İş-zad bilmirəm, gələcəksən, vəssalam! Mən ona bibi deyirdim.

- Sözün açığı, bibi, mən təzə toy-zad görməmişəm. Qaydasını da bilmirəm. Qonaqların yanında qızarmağa təhərim yoxdur.

Bibi barmaqları ilə ağzımı yumdu:

- Kiri, kiri! Dünya gör-götürdür. Gəl otur, öyrən. Bəhlul da kənd uşağı deyilmi? O da sənin kimi utancaq, mağmunun biri idi. Getdi, gəldi, girdi, çıxdı. Maşallah olsun, indi nitq deyir. Belə bir gün sənin üçün də var. Sabah, biri gün, Allah qoysa, sən də bir halal süd əmmiş tapıb evlənəcəksən. Xeyir işin olmayacaqmı, tifil?!

Bibimin sözündən çıxmağa qorxdum. Səhər qalxıb, şalvarı döşəyimin altından çəkdim, geyindim. Məktəb yoldaşımın saroçkasını aldım. Gümüş zaponka axtardım. Uşaqlar toya getdiyimi bildilər. «Bəxtəvər», - deyə hərəsi bir tərəfdən köməkləşib, məni yar-yaraşığa salmağa çalışdılar. Tamam-kamal toy adamı kimi yola düşdüm.

Saat yeddidə qardaşlığımgilə çatdım. Vurhavurnan hazırlıq gedirdi. Qazan altına odun qoyan kim, su daşıyan kim, ərzaq gətirən kim, düyü arıdan, toyuq yolan, taqhataq qənd doğrayan kim... Bibi məni öz otağına çağırdı. Bəy hamamdan qayıtmamışdı.



Onun üçün təzə çay dəmləmək istəyirdilər, kim isə limon doğrayırdı.

Bibi dedi:

- Sağdış, soldışla gələcək!

Bibinin xoşuna gəlmədim. Bəhlulun boyun şallarından birini boynuma elə asdı ki, saçaqları at yalı kimi döşümü örtdü. Çəkməmi çəkib ayağımdan çıxartdı. Bir cüt haşiyəli ipək corab geyindirdi. Belimə sümüklü toqqa bağladı. Bir dəmir qarmaqlı qələm gətirib, döş cibimə keçirtdi, üçbucaq şəklində bükülmüş ipək dəsmalı elə qoydu ki, bir küncü göründü. Şalımın saçaqlarını daradı, yaylığın yanlarından salladı. Güzgüyə baxanda mənə elə gəldi ki, bir boyalı qadın tellərini ayırıb, döşümdə oturmuşdur. Bunları gördükcə mən heyrətimdənmi, xəcalətimdənmi dinmirdim. «Adımı oxumuş qoymuşam, bibi məndən çox bilir», - deyə düşündüm. Bibi bununla kifayətlənmədi. Hamı eşiyə çıxandan sonra yanımda oturdu. Zərli balınclara söykənib dedi:

- Tifil, yazıq bala, nə görmüsən dünyada! Kitablar ağzının dadını aparıb. Quruyub, saqqıza dönmüsən. Buna görə deyirəm ki, gəl, get! Bizdə kefin açılar...

Bibim hər cümləni başlayanda dirsəyimə, bitirəndə dizimə vururdu.

- Di qulaq as! Hə, indi toydur. Beş adam içinə çıxacaqsan. Təzə toydur. Başa düş necədir! - O, təzə toyun nəzakət qaydalarını bir-bir saydı: birinci - əsnəmək, hıçqırmaq, öskürmək, asqırmaq, gərnəşmək qadağandır; ikinci - ədəbli otur, çay içəndə marçıldatma, xörəyin yağı dodağında işıldamasın, gül, amma qaqqıldama, yumşaqca irişdin, bəsdir, danış, ancaq qışqırma, dodaqaltı mızıldandın, kifayətdir, elə danış ki, hamıya, hər şeyə, hər vaxta aid olsun; üçüncü - hamı ilə görüş, tanış ol, öpüşmək də olar, o da üzdən yox, dodaqdan; dördüncü - stəkanı nəlbəkiyə yavaş qoy, rumkanı iki barmağınla tut, qaşığı ehmallı tərpət; beşinci - qabını siyirmə,

süfrəni batırma, stulu cırıldatma, burnuna əl vurma, qaşınma, qurcuxma; altıncı - yaxanı bağla, başını aç!..

Bibinin sözünü yarımçıq qoyub qalxdım. Boyun şalımı açıb, qayıtmaq istədim:

- Hələ ki, xudahafiz!

Qolumdan tutdu:

- Dayan bir, hara durursan?

- Bibi, sən oğlunun əziz canı, sən vicdanın, məni burax! Mən bacarmayacağam. Razı olma ki... yuxum da gəlir. Sabaha dərsim var. Qoy gedim. Yemişçə varam. Mübarək olsun! Neçə belə toylar...

Səsimə o biri evdən gəldilər. Qollarımdan dartıb oturtdular. Mən qorxu, iztirabla təzə toyun başlanmasını gözləyirdim. Yalvardım ki:

- Camaat yığılmamış məni zala apar. Adamlar gələndən sonra nə lazım, utanıram...

- Bala, yoxsulluğun üzü qara olsun! Xanım nənəgilin zalını bu günlüyə borc almışıq. Kişilər hələ çaylarını yığışdırmayıblar. Bir az da dur. Səni içəri aparmaq, bax, bibinin bu boynuna!

Bəy hamamdan qayıtdı. Pörtmüşdü, üzünün əti sallanmışdı. Qaş-qabağı yernən gedirdi. Ömründə gülüşlə işıqlanmamış kimi görünən tutqun sifəti bir az da enlənmişdi. Şəkil kimi susub dururdu. Sağdışı, soldışı ona baxıb, guya göz qırpımından nə dediyini anlayır və anladırdılar.

Onlara çay verdilər. Bəy üst dodağını balıq əti kimi nəlbəkiyə saldı, çayı isti-isti hortuldatdı. Bibinin qulağına pıçıldadım:

- Deyəsən, Bəhlul da bilmir.

O mənə cavab vermədi. Mən təkrar etdim:

- Qaydaları deyirəm ey... Bəhlul dodağını marçıldadır, ona göz elə!

- Balası, - dedi, - bura toy deyil ki! Öz aramızda eybi yoxdur.



Mən çox utanırdım: bir küncdə oturmuşdum. Qonaqlar bir-bir gəlirdilər. Addım səsi eşidən kimi ürəyim döyünürdü. Təzə toyun nəzakət qaydalarını yadıma salırdım. Elə bil bibim qabağımda və ya çiynimdə oturub, qulağıma pıçıldayırdı: «Belə otur, elə otur!»

Qonaqlar içəri girməmiş mən əllərimi görüşməyə, salamlaşmağa hazırladım. Bibimdən öyrəndiklərimi ürəyimdə əzbərlədim.

Qonaqlar zaldakılarla görüşüb əyləşdilər. Uşaq dəlləkdən qorxan kimi, mən də qonaqlardan çəkinirdim. Onlar mənə tərəf gələndə öz-özümə: «Gözlə ki, nəzakət qaydaları pozulmasın», - deyirdim. Ancaq görüşəndə ayağa qalxıb-qalxmamağın mənasını bilmirdim. Bibim mənə öyrətməmişdi. Başqalarına baxırdım: qalxan da olurdu, oturduğu yerdə əlini uzadıb görüşən də olurdu. Quşbaxışı bu adamları müqayisə etdim. Mənə elə gəldi ki, ayağa qalxıb görüşənlər daha mötəbər adama oxşayırlar. Onları təqlid edib qalxdım. Bir xanımın yumşaq, üzüklü və ağ əlini ovcuma alıb sıxdım.

- Çox xoş gördük! Təbiət sizdən razı olsun! - dedim.

Bəy içəri girdi. Adamlar bir-birinə dəydi. Yuxarı başda üç nəfərlik yer hazırlamaq istəyirdilər. Bibim kəlağayısını yelləyərək gəldi, onları geri çağırdı:

- Mən nə vaxt desəm, onda!..

Hazırlanan yerlərdə çalğıçılar otururdular. Dəm tutdular, nə tutdular! Sarı, Buxara papaqlı birisi tarı bağrına basıb, özündən getdi. Qaval yox idi. Başı açıq, boynu şallı, pencəyi çox gödək, qulaqları dik bir oğlan şaxsey dəfini dizləri arasına alıb, mal döyəcləyən kimi döyürdü. Birisi də klarnet üfürürdü. Onun nəfəs almadan iki saat üfürməsinə hamı mat qalmışdı. Müğənni özündən getmişdi. Pəncərələrdən küçəyə segah tökülürdü. «Can, ay atam balası, can!» - deyən səslər ucalırdı. «Atam balası» elə bərk döyürdü ki, adamın dümbəyə rəhmi gəlirdi.

Stolun yanları adamla doldu. Mən tanıdığım bir nəfər də yox idi.

Ona görə bir küncdə qəribsəyirdim. Nəzakət qaydalarından qorxduğum üçün yanımdakıları dindirməyə də cəsarət etmirdim. Bir də gördüm bəy iri addımlarla otağı ölçüb, yuxarı başa keçdi. Keçdi, nə keçdi! Üç nəfər ayağa qalxdı. Sağdışa, soldışa da yer elədilər. Bəy yenicə oturmuşdu ki:

- Xankişi! - deyə səsləndi.

Tədarük otağından oğru pişik kimi ağzını təmizləyə-təmizləyə başı açıq, uzun çənə kişi gəldi (toyda başı açıq adam bir o idi, bir də mən). Bəy ona əmr ilə tapşırdı:

- Yoldaşlar məclisi sənə həvalə edirlər. İşə başla!

- Baş üstə, ay bəy! Mənim kor gözüm üstə! - deyən Xankişi əllərini ətəyinə silib, ətrafa göz gəzdirdi. - Hə... niyə danışmırsınız? Yoldaşlar, domino oynayan var, desin. Kart kimin meyli çəkir? Muşqulat eləyək. Təvəqqə eləyirəm, çalanlar yorulanda qramofonu oxudasınız.

Bibim o biri evdən dilləndi:

- Oynamaq olsun, Xankişi! Oynat!

Adamlar güldülər.

Xankişi irişə-irişə cavab verdi:

- Nə deyirik! Sahibkar deyir, gərək ola da! Başlayaq oynamağa!

Bəy əlini stula vurub, Xankişiyə acıqlandı:

- Bu nə mövhumatdı eləyirsiniz? Niyə bəs arvadlar bir yanda oturub, kişilər o biri yanda? Bu saat qatmaqarışıq lazımdır. Məhv olsun köhnə qaydalar!

Bəyin sözünü şarpaşarp alqışladılar. Xankişi stullara əl gəzdirməyə başladı. Hamını növbə ilə: bir arvad, bir kişi düzdülər. Elə arvad var idi ki, ərsiz, elə kişi var idi ki, arvadsız gəlmişdi. Bunlar nəzərə alındı. Utancaqlığından tək qalan mən oldum. Xankişi düzdüyü adamlara baxıb, əlini əlinə çırpır, nəşələnirdi:

- Bax, belə ha! Mədəni budur ha!



Onun gözü güldü, məni işarə ilə hamıya göstərdi:

- Binavaya baxın! Yazıq tək-tənha qalıb!..

Adamlar gülüşdülər. Mən tərlədim. Bibim içəridən səsləndi:

- Onun yanında özüm oturacağam!

Məclis bayram mağazası kimi bəzənmişdi. Allı-güllü zərif paltar geymiş qadınların qulağında sırğalar, boyunlarında muncuqlar, barmaqlarında üzüklər par-par parıldayırdı. Sanki onlar satılmaq üçün düzülmüşdü.

Kişilərin burnu, qadınların barmaqları işıldayırdı. Qadınların üzü, kişilərin dişi ağarırdı. Qadınların dodağı, kişilərin boynu qızarırdı... Otağın havasını sorub, klarnetə doldurmaq istəyən adamda rəngbərəng insanların əlvan paltarına bəstələnmiş havalar səpirdi. Özündən gedən müğənnidən gözlənilmədən «Xoruz mahnısı» yüksəldi:

Mənim toyuğum çil-çil idi,
Qanadları pil-pil idi.
Toyuq deyil, bülbül idi;
Səni yanasan, toyuq tutan,
Odlanasan, toyuq tutan!

Xankişi bir qalın qayım arvadı aralığa saldı. Yanındakılar pıçıldaşırdı ki: «21-də kassirşadır». Kassirşa doğrudan qəşəng oynadı. Hər ləngərində bir gəminin qərq olmaq təhlükəsi hiss olunurdu. Döşəmənin taxtaları cırıldayır, şüşələr tərpənir, kənardakı stol titrəyirdi. Musiqi coşanda qadın kələfçəni düyün saldı. Nə etdiyini özü də bilmir, atılıb-düşürdü. Bunların hamısı təzə toyun nəzakət qaydalarını pozurdu. Bibimin içəridən qışqırığı bu arvadın rəqsini yarımçıq saxlayacağını güman edirdim. Olmadı. O, hərdən böyrünə biz soxulan fil kimi göyə atılırdı. Hamı baş-gözünü

qorumağa başladığından, əl çalan yox idi.

Bundan sonra sanki onun tamam əksinə, qəsdən bir arıq hörümçəyi aralığa saldılar. Atlas paltar, qırmızı çəkmə geymiş bu arıq qızın qaşları mötərizə, burnu sual işarəsinə oxşayırdı. Yerindən qalxan kimi çapalamağa başladı. Onun sürətli, qarışıq hərəkətləri can verən məxluqu andırırdı. Sanki quruya düşmüş balıq özünü yerdən-yerə çırpırdı. Bir az çapaladıqdan sonra stuluna yapışıb qaldı. Sinəsi qalxıb-düşür, nəfəsini dərirdi. Bu da təzə kassirşa imiş!.. Ona macal vermədən qara krepdeşindən çarlston paltar geymiş, pəhləvan kimi enlikürək bir qadın aralığa çıxdı.

Xankişi səsləndi:

- Yoldaş yoldaşı ilə oynasın!

Yuxarı başda müştükdə papiros çəkən və yaxalığı yanakı əyilmiş bir kişi irəli çıxdı. Qaraquş kimi qanad gərib, arvadına kölgə salmağa, dolanbacı getməyə başladı. Qadın isə irişdiyindən dodağı sallanmışdı. Əri fırlanırdı, qadın durduğu yerdə qarmon kimi büzülüb açılırdı.

Bunlardan sonra çıxan qadınların çoxu durduğu yerdə qanad çalır, sağa-sola dönürdülər. Yalnız bir nəfər (o da deyilənə görə gəlinin qohumu imiş), gözəl oynaması ilə hətta çalğıçıların da heyrətinə səbəb oldu. Qız al geyimi ilə şəfəq kimi parlayır, xumar gözlər kimi süzülüb gedirdi.

Çaylar içildi. Xörək gəldi. Plov nə plov! Buludlar qarlı dağlar kimi ucalmışdı. Camaat xörəyə girişdi. Evdə qulaq batıran bir marçıltı qopdu. Bir dəqiqədə məlum oldu ki, nə aş çatır, nə də qara. Xankişi ürək verib dedi:

- Nə qədər kefinizdi yeyin, qorxmayın, xörək tapılar!

Məni fikir götürmüşdü. Marçıltıya, işıldayan dodaqlara, ağ boşqablara uzanan qara biləklərə baxdıqca, yanımda oturan bibimə işarə edirdim:



- Ay bibi, toyun nəzakət qaydaları, deyəsən, bir balaca...

Onun ağzı dolu olduğundan dillənmir, yalnız qaşlarını çatıb:

- Yox, - deyirdi.

Çay stəkanları paylandı. Xankişi bir-bir stəkanları şərabla doldurdu. Yuxarı başdan kassirşa ehmallıca baş qaldırdı.

- Yoldaşlar, - dedi, - xahiş eləyirəm ki, biz xoşbəxt olmuşuq. Bəy yoldaş, yəni Bəhlul, bizim 21 nömrənin işçilərindən olmağına görə bu bakalı içək, yoldaş, necə ki, mən xahiş eləyirdim, içilsin!..

Xankişi qışqırdı:

- Əl saxla!

Hamı qapı tərəfə baxdı. Naşı bəzənmiş, yaşlı bir qadın içəri girdi. Xankişi təqdim etdi:

- Qız anası!

O saat nidalar ucaldı:

- Yaşasın bəyimizin qayınanası!

- Təbiətin gizli qüvvələri mübarək eləsin!

- Təbiət hamıya qayınana yetirsin!

Qayınananı bəyin yanına keçirtdilər. Bibim camaatın hörmətinə cavab verdi:

- Təbiətin gizli qüvvələri sizə də qismət eləsin! Sizdən razı olsun!..

Stəkanlar dolur, boşalır, sağlığa içilirdi. Eşitməli sözlər danışılırdı. Bəy danışanda hamı diqqətlə dinlədi. O deyirdi:

- Deməsinlər ki, Bəhluldur. Onverset qurtarmasam da... elə bir şeyəm. O daxıl ki, var ha... Buradakıların çoxu həmkarımızdır, başa düşər. O daxıl elə şeydir ki, onverset ondan baş açmaz. Elə onverseti də oradan götürüblər. Görmürsünüz student gəlir, bizə baxıb öyrənir? Mən deyirəm, o daxılın sağlığına içək ki, (bəy əlindəki stəkanı lampoçkaya qədər qaldırdı) bunu bizə yetirən odur. Bunsuz dünya bərqərar olmaz. Jiznimdə belə ləzzətli şey görməmişəm. İçək bunu daxılın sağlığına!

Stəkanlar döyüşdü, şaqhaşaq göyə çıxdı. Bəyin stəkanı qayınananın boş stəkanına dəyəndə, bəy boynunu əyib, geri çəkildi:

- Bu olmadı! Xankişi! Bu arvada nəsihət ver!

Kim isə dilləndi:

- Ədə, dalaşarsız!

Xankişi qayınananın stəkanını doldurdu:

- Kim içməsə, yaxasına tökəcəyik.

- Təklif var: öpüşsünlər...

- Ədə, gəlin ilə öpüşərlər, o ki, burda yoxdur.

- Yox, öpüşsünlər...

Xankişi qayınananı qucağına götürüb, Bəhlula tərəf qaldırdı. Bəhlul bir öpüş götürüb, şərabı başına çəkdi. Qadın qızarıb yerində oturdu, qızın dayısı acıq eləyib getdi. Bəhlul bunu eşidən kimi hirsləndi:

- Kim məni istəmir, gedə bilər!

Başlar xörəyə tərəf endi. Qaşıqlar şaqqıldadı. Birdən Xankişinin səsi gəldi:

- Kim oğurladı?

- Nəyi?

- Kim götürdü?

- Nədir itən?

- Mənim qaramı sən yemisən?

Stəkan Xankişinin kəlləsində çilik-çilik oldu. Şərab şüşəsi bufetə dəydi. Şüşələr töküldü. Mürəbbə bankasının böyrü deşildi. Mürəbbə axdı, töküldü. Qayınana təşvişə düşdü:

- Batdı, batdı! - deyə yeznəsinin ətəyini çəkdi.

Dava qızışdı. Məclis parçalandı, cəbhələr ayrıldı. Bibim özünü aralığa atdı. Qışqırırdı. Mən qulağına pıçıldadım:

- Deyəsən, nəzakət qaydalarını, bir balaca...

Aralıq bir az sakitləşmişdi ki, mən şalı boynumdan açdım. Batinkaları, toqqanı atdım. Öz tələbə paltarımı geyinib, çıxmaq



istədim. Bibimin ovqatı təlx olsa da, soruşdum:

- Bağışla, bir dəfə əsnədiyim üçün üzr istəyirəm. Təzə toyun nəzakət qaydalarını pozdum...

Bibim məni bərk-bərk tutub buraxmadı. Hamı dağıldı. Biz o biri otağa keçdik.

Bibim pəncərələrdən qoltuqlayıb aralığa şey töküırdü: konfet qutuları, tort, marmelad...

Mən elə bildim ki, bunları öz aramızda yeməyə saxlamışlar. Bir konfet götürmək istədim. Bibim biləyimdən tutub çəkdi. Corab, şal, kağız gül dəstəsi, gümüş qaşıqlar, duxi, pudraqabı, krepdeşin, qəndqabı, bəzək qutusu, dəsmal, yaxalıq, düymə... Bir sözlə, elə bil 22 nömrəli mağaza açıldı.

Mən gözləyirdim. Bibim səliqə ilə şeylərin qulağından tutub deyirdi:

- Bu şalı Məmmədin arvadı gətirib. Altı dənə qaşıq, isbatlı şeydir. Minaxanım alıb. Bəzək qutusu, əcəbdir! Kişinin adına layiq. Məşədi Rəhimi deyirəm ey!

Bibim sovqatı əlində saxlayır, bəyin fikrini bildikdən sonra kənara qoyurdu. Bəy əvvəl mülayim görünür və deyirdi:

- Xub... Pis deyil... - Sonra: - Zarafat deyil! Ərinə çörək ağacı düzəltmişəm, hələ o çoxdur? Öt!

Bibim bir kağız gül göstərdi:

- Bu da, - dedi, - dostun Əyyubgildəndir.

Bəy mızıldandı:

- Elə dostu qəbrə qoyum! Heç utanmır da!

Bibim bir cüt corabı göstərdi:

- Bunu Həmzət gətirib.

- Kim?

- Mirsaadın arvadı, Həmzət!

- Çox qələt eləyib gətirib! Sən də çox qələt eləyib almısan! Məni

ələ salıb, ya özünü? Qızı küçükləyəndə mən onu adam bilib, subaylığım ilə qırx manat xərcə düşdüm. İndi mənim əziz günümdə kimə doqquzluq qoyur? Dur apar, at üstünə, gəl! Hələ o qədər ac qalmamışıq. İt uşağı! Corab! Özü də nə corab!

Mən bunları görəndə bildim ki, qardaşlığım məni niyə danışdırmır. Toyun nəzakət qaydasını hamıdan bərk pozan mən idim ki, heç nə gətirməmişdim. Döyülməyimdən qorxdum. Həyətə çıxmaq bəhanəsi ilə gecə vaxtı birbaş Ermənikəndə, yataqxanaya götürüldüm. Odur-budur, belə yerlərə getmirəm. Bir də mən təzə toya gedim! Ay tövbə!

1934



## BEŞ ALMIŞAM!

Bizdə, el-oba içində bəzi rəqəmlər çox işlənir. Çox da məşhurdur: üç, yeddi, on iki, qırx.

«Atalar üçəcən deyib», «Qırx gün, qırx gecə toy elədilər», «İl on iki ay əlim işdədir».

Hacılar haca gedər,
Bilmirəm necə gedər?
Bir yumurta içində
Qırx dənə cücə gedər...

Bu rəqəmlərə son zamanlarda gözəl bir rəqəm də əlavə olunub: elmlə, dərslə, qələbə ilə bağlı bir rəqəm... Beş! Bu rəqəmi alqışlamayan yoxdur. Böyük, kiçik, oxumuş, avam, şəhərli, kəndli...

Telefon səsləndi. İlqar dəstəyi götürdü:

- Kimdir?
- Kim lazımdır?
- İlqar, sənsən, niyə evdə oturmusan? Səni gözləyirik, tərpəş!
- Nə var, bəyəm?
- Nə olacaq, konsertə gedirik, komiklərin konsertinə.
- Sizin də lap kefiniz gəlib, canım, bu imtahan vaxtında konsert nədir?
- Eh, imtahan! Nə olsun, dincəlmək, gülmək də lazımdır.
- Nadir, əslinə baxsan, sənə, mənə gülmək yox, ağlamaq lazımdır.
- Necə bəyəm?
- Bəyəm eşitməmisən, müəllimlər indi çox ciddi soruşurlar!
- Soruşmaq həmişə var da.
- Müəllimlər indi sənin-mənim xatirimə proqramdan keçmirlər. Nöqtəsinə qədər soruşurlar. O gün Məhəri elə bərkə qısnayıblar, bildiyini də yadından çıxardıb. Bu saat gəlirəm məktəbə, orada ol.

hamısını sənə danışım!

Bu telefon söhbətindən sonra konsertə getmək baş tutmadı. Nadir özünün də, yoldaşlarının da biletini bacısı Gülaraya verdi:

- Halal xoşunuz olsun, - deyib məktəbə qaçdı.

Doğrudan da, İlqar məktəbdə idi, eyvanın məhəccərinə söykənib, sinif yoldaşları ilə söhbət edirdi.

Nadirin gəlməyi onun halına təfavüt eləmədi. Hamı eşitsin deyə, bir az da ucadan danışıb Nadirin üzünə baxdı:

- Bu xına o xınalara bənzəməz! Təzə direktor imtahanların çoxunda oturur. Heç kəsə məhəl qoymadan şıdırğı suallar yağdırır: hankı əsər, neçənci il, baş surət necədir, niyə, hardan oxumusan?

İlqar Məhərin ədəbiyyat imtahanından iki alıb çıxdığını təfsilatı ilə danışanda Nadir quruyub qalmışdı. Görürdü ki, müəllimlər də tələbi artırıblar. Belə zamanda konsertə, gəzməyə, oyan buyana gedib vaxt keçirmək adamı dərsdən eləyər, sinifdə qoyar.

Nadir yoldaşının xəbərdarlığından çaşmış kimi sual verdi:

- İndi neyləmək lazımdır?

- Sizi bilmirəm, mən birbaş mərkəzi kitabxanaya qaçıram. Gələn imtahana hələ vaxt da var. Gecə-gündüz oturub oxuyacağam. Qardaş, üzüqara olmamaq, müəllimlərin başını aşağı eləməmək üçün hazırlaşmaq lazımdır.

Həmin axşam kitabxanada qiraət salonunda yoldaşlar görüşdülər. Yuxarı siniflərin proqramına dair nə kitab varsa, masa üstünə yığıb bir-bir əldən çıxartmaq istədilər.

Nadir də, İlqar da bir sinifdə, bir müəllimin yanında, hətta bir sırada əyləşib oxuyurdular. Ancaq bu iki yaşıd yoldaşın hazırlaşmağında çox fərq vardı.

Nadir cəld, zirək və zehinli şagird idi. Oxuduqlarını ehtiyat kimi xatirinə yığmaq, üst-üstə bildiyi məlumatı sıra ilə təkrarlamaqda mahir idi.

Ona elə gəlirdi ki, kitab səhifələrində yazıları öyrənsə, imtahan cavablarında ifadə eləsə, bəsdir və yaxşı qiymət alacaqdır. Ancaq İlqar



bu fikirdə deyildi. o, dərsliyi oxumağı, bütün səhifələri diqqətlə əldən çıxarmağı, hətta məlumat ehtiyatını da zehninə yığmağı vacib bilirdi. Bundan başqa, oxunan hər məsələnin dərin, düyünlü sirlərini açmağı, çətin yerlərdə lüğətə, yoxlama kitablarına, müəllim məsləhətlərinə müraciət etməyi, hətta özünə sirli görünən uzaq, mübhəm məsələlərə əl atmağı da lazım bilirdi. Hərdən belə hallarda Nadir onu danlayırdı:

- Ay kişi, kimdir soruşan, müəllimin sualına ucdan-qulaqdan cavab verdin, bəsdir, deyəcək ki, dur get!

Tələbə yoldaşlar bir həftədən çox mərkəzi kitabxanadan çıxmadılar, müxtəlif məzmunlu kitabların birini qoyub, o birini götürdülər. Hərdən də bir çətin suala rast gələndə, künc otaqda oturan qocaman məsləhətçiyə, şəhərdə ədəbiyyat mənbələrini yaxşı bilən çeşməkli kişiyə müraciət etdilər. Heç nəyə, heç kəsə, soyuğaistiyə baxmadan imtahan materiallarını əldən çıxarmağa çalışdılar, nəhayət, vaxt gəlib çatdı.

Bilet çəkib imtahan kürsüsünə keçəndə, elə bil, təzə direktoru çağırdılar. Direktor otağa girib salam verdi, keçib dərs müəllimi ilə mehriban görüşdü. İlqarı diqqətlə süzəndən sonra soruşdu:

- Nə əcəb yaxanı düyməməmirsən, məktəbli yoldaş? Əyləşənlər sənin müəllimlərin, məktəb yoldaşlarındır. Qoy sənin səliqənə diqqət yetirsinlər...

İlqar qələmi yerə qoyub, cəld yaxasını düymələdi. Onun özünü itir-məsinə, çaşmasına yol verməmək üçün direktor dərhal məktəblinin çiyninə əl qoydu, imtahan suallarına nəzər yetirdi:

«Sabirin ruhanilərə qarşı satirası». «Cabbarlının «Sevil» dramı». «Lirikanın xüsusiyyəti».

Direktor sualları qəsdən bərkdən oxudu, əvvəl İlqarın, sonra da dərs - müəlliminin üzünə baxdı:

- Zənnimcə, - dedi, - bunlar çətin suallar deyil, proqramlarda aydınlaşdırılmışdır.

Müəllimə macal verməyən İlqar tez dilləndi:

- Müəllim, sualların hamısı aydındır, cavab verə bilərəm. Sanki



məktəblinin şəstlə, cəsarətlə cavab verməyi direktorun xoşuna gəldi.

- Danış, - dedi, - qoçaq oğlum, danış! Mənim burada iştirak etməyim səni çaşdırmaz ki?

İlqar daha da cürətləndi və iftixarla cavab verdi:

- Yox, yoldaş direktor, sizin imtahan cavablarına qulaq asmağa vaxt tapmanız bizə xoşdur və biz heç vaxt bu saatları unutmayacağıq!

Dərs müəllimi, əvvəlcə direktorun belə fəal işə qarışmağına bir qədər darıxsa da, sonra məktəblinin cavablarından ruhlandı. Diqqətlə İlqarın üzünə baxdı. Qəlbində ona afərin dedi, özü özünü də danladı ki, belə şagirdi mən nahaq yerə diqqət mərkəzinə götürməmişəm, onun qabiliyyətini seçib qeyd eləməmişəm. Bu uşaq indi daha məktəb çərçivəsində qalmır, həyata, cəmiyyətə çıxır. Məhz belə iti, ayıq cavablar ilə çıxdığı üçün bizim məktəbin fəxridir!

İlqar cavablarına başlayandan böyük Sabirin kəsərli satiralarından bir neçə bənd oxudu, izah etməyə başladı:

Ax, necə kef çəkməli əyyam idi,
Onda ki övladi-vətən xam idi.

Direktor sualla İlqarın sözünü kəsdi:

- İlqar, bunu kim deyir?

- Müəllim, bunu Sabir deyir, ancaq ruhanilərin öz sözü ilə, təəssüf izahı ilə deyir.

- Ay sağ ol! Davam elə!

İlqar bir az da ucadan, qiraətlə dedi:

Bizlər idik xalqın inandıqları,
Piri-hidayət deyə qandıqları,
Nur görürlərdi qaranlıqları,
Bizdə idi cümlə qazandıqları.
Kim bizə pul verməsə bədnam idi,
Ax, necə kef çəkməli əyyam idi...

Direktor şagirdin sözlərinə, ahənginə, şeiri necə əzbərləməsinə sevinclə qulaq asaraq, yenə sözünü kəsdi:

- Ruhani hansı günləri arzulayır?!

- Müəllim, aydındır ki, sovet dövründən qabaqkı, avamlığın hökm sürdüyü günləri arzulayır. Amma keçmiş ola!

Direktor İlqarın üzünə baxıb güldü, sonra müəllimə tərəf döndü:

- İlqar yaxşı deyir, cənab axund, daha keçmiş ola! Yaşasın Sabir!

Dərs müəlliminin cavablardan xoşlandığını, sevindiyini görən direktor, sanki şagirdə qiymət verməkdə ona razılıqla kömək etdi:

- İlqar yaxşı hazırlaşıb, məncə, onun qiymətini aşağı salmağa haqqımız yoxdur!

İlqar bu sözləri eşidəndə ürəyi dağa döndü.

- Çox sağ olun, müəllim, - dedi və sevincək eşiyə çıxdı.

Yoldaşları onu əhatə etdilər, qiymətini soruşdular. Amma o heç kəsə baxmadı, heç nə demədi. Çantasını götürüb birbaş evlərinə yüyürdü.

O bilirdi ki, anası intizarla gözləyir, necə həyəcan keçirir. Gəncəçay evlərinin qabağından axırdı. Yaz yağışlarından sonra kükrəmiş, güclənmiş çay bulanıq axaraq özü ilə daş-çınqıl gətirir, şaqqıldayaraq səs salırdı. İlqar çayın bu tayından baxanda qapıda müntəzir dayanan anasını gördü, sağ əlini göyə qaldırıb pəncəsini geniş açdı, sevinclə anasını çağırdı:

- Beş almışam, ay ana, beş! Direktor özü məni imtahan elədi!

Doğrudur, qadın onun sözünü eşitmədi, nə dediyini bilmədi, ancaq əl işarəsindən yəqin elədi ki, oğlu imtahandan igidliklə çıxıb, beş alıb.

Dodaqlarının arasında yavaşcadan dedi:

- Sənin qadanı alım, ay fərasətli balam, qoçaq balam!

İlqar anasına çatanda ana-bala qucaqlaşıb öpüşdülər. İlqarı tanıyan anaların çoxu qibtə ilə baxır, bu sevincə şərik olurdu.

- Beşə dünyada zaval yoxdur, hamının balasına qismət olsun görüm!..



## GÖZ

- Yəhya Kamal!

Böyük məscidə yolunuz düşsə, ayələrdən çox bu adı oxuyarsınız. Qoşa çinar ağaclarının gövdəsində, yağ tutmuş, kirli, naxışlı qapılarda, kəci qopan divarlarda iti xətlə, səliqəsiz yazılmışdır:

- Yəhya Kamal!

Yayda yeri cızar, qışda qarı sulayar, hər yerdən əlacı kəsiləndə dırnağını yalayıb yazardı:

- Yəhya Kamal!

Siz maraqlanıb, bu «möhür» sahibini tanımaq istəyəcəksiniz. Siz onu çoxdan tanıyırsınız. Az-çox ictimai yerlərlə əlaqəniz varsa, mərasimə, mitinqə, iclasa, kluba yolunuz düşərsə, onu gündə bir neçə dəfə görə bilərsiniz. Qoltuğunda qəzet, əlində işıldayan ağac, qolunda qırmızı, yazdırsa, döşündə bir çiçək, nə isə mızıldaya-mızıldaya yanınızdan ötəcəkdir.

Sizi maraqlandıran möhrün sahibi haman bu gödəcik, axsaq, yaraşıqsız adamdır.

Mərasimlərdə rəsmi adam olar. Ayağını sürüyərək, tribunaya çıxar. Musiqidən qabaq salama durar, hamıdan sonra əlini salar.

Pioner bayramında özünü çox sərbəst hiss edirdi. Əlillərin nümayəndəsi bilib, ona tribunada yer vermişdilər. O, günlüyü əzilmiş papağını günorta yerinə yeritdi, əlini gözü üstünə qoyub, bir şüar da söyləmək istədi:

- Yaş...

Bir pionerin bulaq suyu kimi duru və təmiz səsi Yəhya Kamalın şüarını ağzında qoydu. Pionerin salamı ilə bütün nümayiş dilə gəldi. Yəhya Kamal küsdü. Getdi. Evə gəldi. Dərdlərini unutmaq üçün güzgünün qabağına keçib, sifətinə baxdı. Bu gün bir qat da artıq qocalmışdı. Qırılıb tökülən çör-çöp palçıqlı yerdə nə qədər iz buraxırsa, onun qəlbinə dəyən bir şey üzündə eləcə qırışıq yaradırdı.

Rəngi tutqun, gözləri dumanlı idi. Yaylığını çıxartdı. Dili ilə isladıb üzünü sürtdü. Sürtdükcə sifəti qızarırdı. Bunu təkrarladıqca özünü on səkkiz yaşında bir gənc kimi görür, sevinir, bu rəngin tez dəyişdiyinə təəssüf edirdi. Adəti üzrə, başındakı ağ tükləri yolmağa başladı. Bu halda çox rəhmsiz olurdu. Səliqəli dirrikçi kimi, başının alağını tər-təmiz vurmaq, onu vaxtından əvvəl qocaltmaq istəyən «zəhrimarların» kökünü kəsmək istəyirdi. Birdən bir şey yadına düşdü. Durdu. Toz basmış mürəkkəbqabını yaxına qoydu, tərcümeyi-halına aşağıdakı parçanı əlavə etdi:

«Ta çocuqkən anamı qeyb etdiyimdən dolayı yetimliklə olması qeyri-qabildir. Ac durmaq, pis gündə oturmaq, təzyiqdən başqa bir şey deyildir. Mənimlə vəzihəml olan əsgər fərzəndanın xətti haşa-kəlla peyda olmamışdır. İştə, bu həqirin pərəstarı olmadığından, ona görə də şəbablığım qiyudat təhtində qərq olmaqda hənuz baqidir...»

Özündən razı halda evdən çıxdı. Gödəkcəsinin ətəklərini bir-biri üstünə qoyub, bərk çəkdi. Əllərini çataqlayıb, yola düşdü. Başıaşağı gedirdi, fikirləşirdi. Gələcəkdə, əsrlər keçdikdən sonra tərcümeyi-halının məktəblərdə keçiriləcəyini təsəvvür edirdi. «Yəhya Kamal çox korluq çəkməyinə baxmayaraq, zəmanəsinin böyük müxbiri, düşüncəli adamı olmuşdur».

Hacı Əlinin evi yanına çatmamışdı ki, şırp dayandı. Yağı tükənmiş traktor kimi donub qaldı. Mühüm bir səhv etmişdi:

- Ey dili-qafil, o nə idi mən yazdım: «Qiyudat təhtində qərq olmaqda hənuz baqidir».

- «Hənuz baqidir!»

Bu parçanı bir neçə dəfə təkrar edib, geri qayıtdı.

Yəhya Kamalı hərarət götürdü, tər basdı, ürəyi çırpındı. Tələsik evə gedirdi. Tez çatmaq, kibrit çəkib stolun üzərindəki «səhv» olan kağızı yandırmaq istədi. «Yandırmaq da yaxşı deyil. Baxan, görən olar. Yaxşısı budur ki, qara çernil ilə üstünü yaxşıca poz! Yox, onda bütün tərcümeyi-halımdan şübhələnərlər. Deyərlər, görəsən, nəyi



var imiş, hərif qorxmuşdur. Kağızı ağzıma alıb çeynəməli, sonra çaya, bulanıq suya atıb axıtmalıyam...

Yəhya Kamal evə çatanda, qonşusu Məşədi Səkinə xala onun evini süpürüb çıxmışdı.

Məşədi Səkinə xala dul arvad idi. Yəhya Kamal onun kirayənişini idi. Onun evsizliyinə, şikəstliyinə yazığı gəlir, hərdən evini yır-yığış edirdi. Davud adlı bir komsomolçu oğlu da vardı. Yəhya Kamal evin süpürüldüyünü görüb, təşvişə düşdü. Kağızın ələ keçdiyinə şübhələndi. Qapını taqqıltı ilə divara çırpıb, içəri girdi. Tərcümeyi-hal yerində, mürəkkəbqabının yanında idi. Lakin üstündəki təzəcə yazılmış vərəq yox idi.

- Ay Məşədi Səkinə xala, burada bir kağız gördünmü?

- Yox, a bala, bir şey görməmişəm.

- Uzun kağızdır.

- Yerdə xırım-xırda kağızlar vardı. Süpürüb atdım.

- Bəs ha tərəfə atdın?

- Odur, zibil yeşiyində.

Yəhya Kamal bir həftəlik zibili alt-üst etdi. Yerkökü. dəri parçası, papiros kötüyü, kartof qabığı, çörək xırdası, ərik çərdəyi, öküz aşığı, cındır tapdı, ancaq «söz səhvindən» əsər görmədi. Canına lərzə düşdü. Həyəti başdan-ayağa dolandı. Darvazaya baxdı, küləkdən şübhələnib, on addım da küçəni axtardı: yoxdu ki, yoxdu!

- Məşədi Səkinə xala, Davud evdə idi?

- Hə, gəlmişdi. Bilmədim nə işi vardı. Gəldi, tez də qayıtdı, getdi.

Bu söz Məşədi Səkinə xalanın ağzından çıxmamışdı ki, Yəhya Kamalın dizi qurudu, rəngi zəfərana döndü. Dili tutuldu. O saat xəyalına gəldi ki, «materyal gəlib». «Özüdür ki, var! Mərdimazar oğlu, yəqin götürüb, kəndimizi, əsil-kökümü xəbər veriblər. Qulaq balası-filan yazıblar... Davud da axtardığını tapıb».

İçəri girdi. Otuzillik tərcümeyi-halını bürmələyib, cibinə basdı. Dinməz-söyləməz həyətdən çıxdı.

Köçəmirli kəndi yaylaqların yaylağıdır. Dəmir yolundan səksən kilometr uzaqdı, təpəsindən qar əskik olmayan dağların ətəyində xəlvət bir dərəyə sərilmişdir. Yəhya Kamal dərd yoldaşı Diləni deyib gəlmişdi.

Vaxtilə komsomolların əlindən dilə-dişə düşən Dilən kənddən-kəndə köçmüş, nəhayət, Köçəmirlidə bənd olub qalmışdı. Kolxoz sədası buralara gəlib çıxanda o, kooperativi buraxıb, qabağa düşdü:

- Gəlin, ay camaat, hökumətimiz dediyi yola! Birinci kolxoza mən yazılıram!

Yəhya Kamal ondan-bundan soraqlaşıb, Dilənin mənzilinə gəldi. Dilən onun boynunu qucaqladı, çox da sevindi. Xəlvətlik idi. Dilən dil açdı:

Ey vətəndən gələn el aşinası!
Şadlıqmıdır gətirdiyin pəyamın?

Yəhya Kamal da şair kimi cavab verdi:

Yoxsa, o yerləri düşmənlər almış,
Sən deyənlər dönüb xərabə qalmış...

Arxayın olmaq üçün Dilən pəncərəni açdı. Çölə çıxdı. Qapını eşikdən qıfıllayıb, pəncərədən içəri girdi. Dostlar «cırıldayan taxta» yastılanıb, çox yavaşdan, lakin şirin-şirin dərdləşirdilər. Yəhya Kamal çox təzə xəbərlər gətirmişdi:

- Səndən sonra Hüseynqulu uşağını yaman günə qoydular. Şükürü öldürənlərin işi açıldı. Girmançа Qulunun gədəsi ilana dönmüşdü. Bir günün içində hökuməti kəndə tökdü. Mən gecə bağların içindən cırdım...

Yəhya Kamal dedikcə ah çəkirdi. Dilən eşitdikcə ürəyinin yağı əriyirdi. Öz qəlbində bu işlərin axırının necə olacağını düşünürdü. Bir müddət evi sükut basdı. Eşikdə səs-səmir kəsildi. Gecə keçdiyini



hiss etdilər. Dilən ona təsəlli verdi:

- Hələ, ay eloğlu, buralar pis deyil, dinclikdir. Adamlarından da mən o qədər qorxmuram. Var ha! İçində vələdüzzinası çoxdur. Ancaq ki, məni tanımırlar. İşi elə salmışam ki, «niçevo!» Sən ayıq ol. Özünü bir tanıtsan. Ümid Allahadır ki, sovular. Ondan sonra da nə işimiz var şəhərdə-zadda, arığın nə işi qoruqda ki, qıçını sındırsınlar! Burada kimdir səni-məni itirib-axtaran, ay rəhmətlik oğlu!..

Yəhya Kamal kolxoz idarəsində katib vəzifəsinə başladı. Nə başladı! Sabah açılmamış darvazanı açıb oturur, papirosunu tüstülədərək, işləri fikirləşirdi. İdarəyə gələn kolxozçulara stul çəkir, tanısa da, tanımasa da əhvalpürsanlıq edirdi:

- Necəsən? Nə var, nə yox? Arvad-uşaq nə qayırır? Lap yaxşısan ki? Şükür!..

Çox çəkmədi Yəhya Kamalın tərifi dildən-dilə düşdü:

- Kəndə heç belə katib gəlməyib! Kişi kəndçinin qanına bələddir.

Bunlar Yəhya Kamala daha da ruh verirdi. Söz arasına salıb, camaata bildirirdi:

- A sağ olmuş, kolxoz saxlamırsınız ki, bu nədir? İdarədə qəzet yox, şəkil yox, stul qırıq... Gələydiniz, Bakıda bizim kolxozu görəydiniz, nə dəsgah başlamışam...

O, Bakıdan danışdıqca camaatın gözündə daha da böyümək istəyirdi. Çobanlar çomağına söykənib, biri o birisinə pıçıldayırdı:

- Yaman adamdır! Bakıdan deyiblər ki, gərək gedib Köçəmirlini düzəldəsən...

Yəhya Kamal komsomolçuların divar qəzetinə də bir məqalə yazdı. «Kəndli» qəzetinə abunə yazıldı. Yanvarın 5-dən ilk qəzeti aldı. Qəzetin üstünə balaca bir adres kağızı yapışdırmışdılar. Yəhya Kamalın adı çap hərflərilə aralı-aralı yazılmışdı. O, qəzetin möhürlü tərəfini üstə qatladı. Gəlib-gedənə göstərdi:

- Buyurun, oxuyun! Bakıdan mənə liçni göndəriblər.

Qəzetə abunə yazılandan sonra müxbirlik qələmini itilədi.

Redaksiyanın müxbirlərə göndərdiyi anketdən birini poçtdan ələ keçirtdi. Bu anketi də kəndin başbilən adamlarına, komsomolçulara göstərdi.

Məsmə qarı ispalkomun nəyindənsə narazı idi. Dilən onun qulağına çatdırmışdı ki, katibə deyinən qəzetə vursun. İspalkom olanda nə olar. Atasını yandırarlar. Məsmə qarı darvazada camaatın içində Yəhya Kamala yalvarıb deyirdi:

- Qadan alım, a katib, bildir Səlmanı gərək qəzetxanalara yazasan. Yaz ki, əlsiz-ayaqsızı dolanmağa qoymur.

Yəhya Kamal stulunda burcuxdu, ağır-ağır danışdı:

- Düzələr, düzələr, ay Məsmə xala! - dedi və inandı ki, o artıq müxbirdir. Bunu bütün kənd bilir. Belə bir özünütəmindən sonra camaata eşitdirdi:

- Müxbir dediyin hökumətin gözüdür, amma çifayda, bizim aramızda qədrini bilən hanı? Qəzetxanalarımız dəfəatla deyirlər: yaz, yaz! Di gəl, mən istəmirəm yoldaşlar ilə olam üz-göz. Nə lazım inciklik...

Yəhya Kamal anketi qabağına qoyub, doldurmağa başladı. İki sual ona çətin gəldi. Qələmi mürəkkəbqabına söykəyib düşündü, düşündü... Bir papiros tüstülətdi. Durub gəzindi. Yenə də bir şey çıxmadı. Ayaq üstə əyilib, bir də diqqətlə baxdı:

- Sizin ictimai mənşəyiniz...

Nəhayət, nöqtələrin üzərindən yazdı: «Fəhlə».

Bu sözü o elə cəsarətlə yazdı ki, deyəsən, bayaqdan məəttəl qalan, baş sındıran heç o deyilmiş. Dalısını davam etdirmək istəyirdi. Yenə dayandı, baxdı, geri çəkildi, indicə yazdığı «Fəhlə» sözünə acıqlı-acıqlı baxdı. Canına üşütmə gəldi. Qulağı cingildədi, ayağa durdu: «Fəhlə...» «Qəzayi-rəbbani, bəlkə qəzetxanadan soruşdular ki, ay filani, sən harada fəhlə olmusan? Buna şahidin, sübutun hanı?» Bu sual Yəhya Kamalı ayıltdı. Qələmin ucundakı mürəkkəb ilə fəhlə kəlməsinin üstünü örtdü.

«Bəs nə yazmaq! Yazarsan fəhləyəm, sabah içindən iş çıxar.



Yazarsan...» Yəhya Kamalın fikri qarışdı: qolçomaq, alverçi, yüzbaşı, molla... Bu sifətlərin hamısı nəzərinə gəldi. Qaşını çatdı, dodağını gəmirib, bunları yadından çıxaranda, sualın qabağında yekə bir qara ləkə gördü. Ləkə o qədər böyük idi ki, o biri sualları da örtmüşdü.

«Bu qara nədir? Ləkə nə deyən sözdür? Bu nə cavabdır?»

Yəhya Kamala elə gəldi ki, bu sualın doğru cavabı öz-özünə anketə yazılmışdır. Redaksiyaya gedəcək, oxuyacaqlar. Köçəmirli kəndinə məxfi məktub yazıb, onu «dərdəst» edəcəklər... Dəhşətdən ayağa qalxdı. Evi nəzərdən keçirdi. Kənardan sualın qabağına baxdı. Heç nə yazılmamışdı. Yan-yana düzülən nöqtələr fağır-fağır durur, cavab gözləyirdi.

Yenidən stula oturdu. Lampanı yaxına çəkdi. Qələmi batırıb, ürəyində «bismillah» dedi. Əlini kağıza tərəf aparanda ləkəni gördü. Ləkə daha tünd qara, qatı və iti idi. Ləkə yalnız ictimai mənşəyində olsa, dərd yarı idi. Anketi doldurmuş, adını, yaşını və stajını da tutmuşdu. Belə anketi, Allah eləməmiş, qəzetxanada görsələr, qırmızı xətt ilə üstünə yazacaqlar:

- Siyahıdan silinsin!

Yəhya Kamal arxasını kürsüyə söykəyib halsız düşdü. Ümid və arzuları qırılan, daşdan qopan toz kimi, göyə sovrulurdu. Üzünü çevirdi, anketə baxmaq istəmədi, gözü divarda asılan plakata sataşdı. Orada qalstuklu bir pioner «Kəndli» qəzetini uzadıb deyirdi: «Kəndli, kolxozçu yoldaşlar! Öz qəzetinizi oxuyun və ona müxbir olun».

Həmişə bu kağıza baxıb ruhlanan Yəhya Kamala indi pionerin dedikləri yabançı gəldi. Üzündə acı bir təəssüf doğdu. Ürəyindən keçdi ki, «nə kəndlibazlıqdır? Motalpapaq Əyyubmu, qazan qarası ilə qol çəkən Bəndalımı sənə müxbir olacaq? Budur, yazılmaq istəyirəm. Nədir? Bu ləkə nədir? Qoysana yazılım! Məndən xeyir görərsən. Xeyir ver, xeyir ver!» Gözünün ucu ilə yavaş-yavaş anketə, ləkəyə baxmağa başladı. Diqqət edəndə ləkədən əsər

görmədi. Sual yerində idi. Nöqtələr təsbeh kimi düzülüb cavab gözləyirdi. Heyrət onu aldı:

«Nə tövr olur? Bir şey görmürəm». Gözlərini ovxalayıb, bir də baxdı... Gözünü lap sualın qabağına zillədi. Heç nə yox idi. Ancaq qaraladığı sözün böyründən münasib bir cavab yazmaq lazım idi. Bu dəfə o, səbrlə tərpəndi. Qələmi mürəkkəbdən ayıranda birdən kağızın üzərinə yıxılmadı. Yavaş-yavaş yaxınlaşdı. Deyəsən, yumru ləkə yenə anketin üzərində tərpənirdi. Birdən anladı, başına qapaz vurub güldü. Sevindiyindən əlini əlinə çaldı, ayağa qalxdı. Burnunun kölgəsi, az qala, onun zəhrini yarmışdı.

O bir də fikirləşdi. Başqa cavab tapa bilməyib, qaraladığının böyründən yazdı: «Fəhlə!»

Ona elə gəlirdi ki, heç kəs bunu rədd edə bilməz, fəhləliyini isbat üçün heç nə yoxsa, fəhlə olmadığını isbat üçün də bir şey yox idi:

- Deyərəm, buyur, sən isbat elə ki, mən fəhlə yox, burjovoyam. Kim məni tanıyır? Kənddən soraqım gəlincə dabanlarımı yağlayıb, on dağ aşaram.

İkinci sualı bir də oxudu: «Sizin firqəyə mənsubiyyətiniz».

Burada o, tərəddüd etmədən belə bir cavab yazdı: «Firqə ilə əlaqəmiz sıxdır. Ürəkdən çisti kommunist olmağıma dair vəsiqələrim lazım olsa, təqdim edərəm». Burada o, kolxoz sədrindən aldığı mükafat vərəqəsini və divar qəzetində «gələcək həyat» barəsindəki məqaləsini nəzərdə tuturdu.

Anket hazır idi. Qatlayıb paketə qoydu. Cib dəftərindən bir şəkil çıxarıb, əlavə etdi. Paketin yapışqanını yalayıb bağladı, kənarlarına bir manatlıq marka döşədi. Üstünü həm azərbaycanca, həm rusca yazdı:

«Bu məktub Bədkübə şəhərində «Kəndli» qəzetxanasında möhtərəm müdir əfəndilərinə vüsul olacaq. Zəhmət buyurub, təvəqqe edirəm, qəbul olmağımı yazasınız.

Qrod Badkuba qəzetxana «Seleniy» doroqoy ziverdişi».

Səhər tezdən Yəhya Kamal məktubu poçt işçisi Aslana verdi və



bərk tapşırdı ki, «sroşni» şeydir, gərək tez gedə. Yəhya Kamal öz xəyalında məktubun hərəkətini yoxlayıb, müəyyən etdi ki, yeddi günə qədər qəzetdən cavab gəlməlidir, çünki o xüsusi bir rica da etmişdir.

«Qoy adım rəsmi dəftərə düşsün. Hökumətin gözü olum bir!.. Mən bilirəm nə edəcəyəm».

Yəhya Kamal Dilәndən bir şey öyrənmişdi. Bu fikrə gəlmişdi ki, nə qədər kefi saz olsa da, paltarını dəyişməsin, gözə girməsin. Köhnə, büzük, yaraşıqsız paltarına baxdıqca, Dilənin taxt üstündə verdiyi məsləhət qulağında səslənirdi:

- Gözə girmə. Qoy sənə «yazıq» desinlər. Zəmanə yazıq zəmanəsidir!

Bununla bərabər bir şeyə dözə bilməyəcəkdi:

- Paltarları desən, yaxşı, cırım-cındır gəzərəm. Yeməyi deyirsən, xəlvətdə! Ancaq ki, arvadsız işim keçmir. Sabah qışın günündə mən tək dolanamı bilərəm?

Xüsusən Ballı arvadla tanış olandan sonra Yəhya Kamalın səbri kəsilmişdi. Dilənin qolundan sallanıb yalvarırdı:

- A qibləsiz, bu işi birtəhər eləyək. Axı səssiz-küysüz... Nə var ki!..

Əri ölmüş, lakin hələ sulu, cavanca bir gəlin olan Ballının kəbini kəsildi. Cümə axşamı o, «bismillah» deyib, dikdaban çəkmə ilə Yəhya Kamalın mənzilini şənləndirdi.

Beləcə, günlər gəlir, keçir, mübarizə davam edirdi. Qolçomaqların bir sinif kimi aradan qaldırılmasından hər yerdə danışır, yazırdılar. Yəhya Kamal da bu işlərin içində idi. Bəlkə də hündürdən danışan idi.

Dilənin sayəsində yeyib dolanır, gün-gündən stajını artırır, hökumətə «yaxınlaşırdı». Kolxozda arxası möhkəm, ispalkomla arası yaxın idi. Onun ehtiyatı yalnız komsomolçulardan idi.

Bir gün iclasda katib idi. Protokol yazırdı. Nə təhər oldusa, özək katibi Həmid kağızı onun əlindən aldı.

«Aşna, səndən gözüm su içmir».

Bunu nə sarıdan deyir? Yəhya Kamalı fikir götürdü.

İstədi Həmiddən soruşsun, dili gəlmədi. Təşvişlə evə qayıtdı. Təzə aldığı arvadı xoruldaya-xoruldaya qoyub durdu. Köynəkcək stolun altına girdi. Toz basmış, çarıqbağı ilə sarıqlı bir kağız boğçası çıxartdı. Açıb bir-bir baxdı:

«Bu mənim Qobu kəndində katib olmağıma dair kağızım. Bu rayondan gələn qəzet ki, üstündə peçatlı adım. Bu mənim osoaviaximim. Yardıma və hökumətə üç manat vermişəm. Bu da onun arayışı. Mənim nəyimdən gözün su içmir? Deyən ola, ay anasının oğlu, işçinin qəlbinə niyə dəyirsən? Niyə qoymursan çaqçuqumuzu eləyək? Mən kimə nə eləmişdim...»

Yəhya Kamal siçan kimi kağızlar arasında o qədər xışıldadı ki, Ballı yuxudan durdu. Kişini görüb, heyrət etdi:

- A ciyərin yanmasın, sətəlcəm olarsan, bu nə gündür?

- Yox, gərək mən o vələdüzzinaya bildirəm ki, kiməm...

Nə oldu, məndən şəhərdəkilərin gözü su içir, nə oldu, qəzetdə oturan partinnilərin hamısı məni tanıyır. Dərənin burnu fırtılıqlısı məni ləkələyir?

Yəhya Kamal titrək səslə danışır, vəsiqələri qatlayıb, üst-üstə qoyurdu. Ballı qalxdı, daldan onu qucaqlayıb, yorğan-döşəyə saldı.

- Sənə deyirəm, kürəyini soyuğa verərsən? Yat! Sabah mən də da-nışaram. Bərkə qalsa, lap rayona da gedərəm.

- Yox, canım, rayon-zad lazım deyil. Elə bir ispalkom çağırıb, ağzına vursa, bəsdir.

Çox çəkmədi ki, Ballı şirin yuxuya getdi. Üfürə-üfürə xoruldadı. Yəhya Kamal isə pəncərədən sivişib, ötən ay işığına baxır, papirosu qaranlığın qəlbində işarır, sönürdü. Gözünə bir çimir də yuxu getmədi... Qəzetxanadan da cavab gəlməməsi ümidlərini puça çıxarırdı. Fikirləşirdi ki, «deyəsən, bu müxbirlik kitabçasını ala bilməyəcəyəm...»

Havalar gün-gündən soyuyur, qış gəlir, uzun gecələrdə dedi-





qodu çoxalırdı. Köçəmirli kəndi noyabrda qar ilə örtülür, yer donur, soyuq qulaqları göynədir, suların üzündə daş aynadan körpü dururdu. Qızlar, gəlinlər kartof yığmaqdan, odun eləməkdən evlərə çəkilir, qoyun yunundan corab, palaz toxuyurdular.

Bu il mal-qaranın məhsulu kolxoza gəlmişdi. Beş yüz qoyunun süd-qatığı, yağ-pendiri kolxozun əlindən gəlib-gedirdi. Yəhya Kamalın qələmi qılınc kimi kəsir, sözü daşdan keçirdi. Söz düşəndə, o, kolxoz üzvlərinin qulağına çatdırırdı:

- Kolxozumuz yaxşı, qüvvətli olacaq. Bu var ki, hələ tezdir. İlkidir. İlk ili qaydadır. Hər yerdə zərər eləyir...

Kolxoza on bir qoyun gətirən Zindalı kişi bunu eşidəndə lap ikitəhər, birtəhər oldu:

- Yəhya, hələ bu nə deyən sözdür? Sənin deməyindən bu il bimuzd olacağıqmı?

Yəhya Kamal təcrübəli adam kimi Zindalını «başa salırdı».

- Yox, mən elə söz məsəli dedim. Bemuzd niyə olur. Axı təzədir.

- Təzə-məzə bilmirəm. Mən işləmişəm, ya yox?

- İşləməmisən bəs neyləmisən?

- İşləmişəm, bəs bunun haqqı hara gedib? Üç baş adam...

- Yox, mən deyənə mültəfit olmadın, dayı. İş belədir ki, kolxoz təzədir. Tutaq belə kolxoz olmasın, ol sən, Zindalı dayı...

- Mən olum!

- Xub, sən deyək ki, arandan köçüb, burada bina salırsan. Yer-yurda, ev-eşiyə zəhmətin gedəcək, ya getməyəcək?

Zindalı kişi susmağını yersiz gördü:

- Gedəcək, gedəcək, buna nə söz!

- Belə olan surətdə necə bilirsən? O kolxoz qurmağı ki, gələcəkdə bir kəndin çörək ağacı ola, oradan sənin çörəyin, paltarın, yeməyin, qəndin, məktəbin, hamamın, balnisan gələ.

- Gələ!

- Bu gəlməklə, yəni belə bir iş başlamaqda birdən-birə qazanc eləmək olarmı, canım? Axı bu işi biz bilirik, neçə yerdə kolxoz



qurmuşuq. İş başlamışıq, hər şeyin haqq-hesabı var.

Yəhya Kamal sözünü bitirməmiş, Zindalı dilləndi:

- Mən qanmadım, Yəhya lələ!

Yəhya Kamal söhbətin ciddi şəkil almağından çəkindi. Ayağa durub, ətəklərini çırpdı:

- Bu, dəftər-kitab məsələsidir. Əzbərdən çətindir. Mən də bilmirəm.

Aylar dolandı. Yəhya Kamalın Köçəmirli kəndində dördaylıq iş stajı tamam oldu.

Yanvar ayının başlanğıcında xəbər çıxdı ki, on beş günəcən kolxozun haqq-hesabı çəkilsin, gəliri müəyyən edilsin.

Yəhya Kamal bu xəbərin təşviş və həyəcanından sakitləşməmişdi ki, qarları basa-basa, dağları aşa-aşa iki nəfər təhkimçi işçi gəldi.

Onlar ispalkomun evinə düşüb, kolxozun dəftər-kitabını istədilər. O gecə nə Dilən, nə də Yəhya Kamal yatdı. Belə nagahani bir qorxunu birtəhər başdan eləmək üçün səhərə qədər oturdular. İşləri hazırladılar.

Şəhərdən gələnlərin biri cavan, qarayağız, arıq oğlandı. O birisi sarısaç bir qızdı. Üzünə baxanda rus deyərdin. Danışanda xalis azərbaycanca danışırdı. Yəhya Kamal əvvəl elə bildi ki, əsl gələn arıq oğlandır. Qız isə yolda ona «squçnı» keçməsin deyə gəlmişdir. O, bir kənarda oturub güləcək, əziləcək, arıq oğlan ləzzət alıb, işin ağırlığını hiss etməyəcəkdir. Yetirən kimi iki əlini arıq oğlana uzadıb, tanış oldu:

- Nökəriniz Yəhya Kamal!

Bu sözü müstəsna tabelik ifadəsilə deyib, ikiqat oldu.

Birinci gün haqq-hesaba oturanda, ispalkomun evində tünd çaylar süzülür, stəkanlar dolub-boşalırdı. İspalkomun arvadı Sayalı xala da o biri evdə xörək hazırlayırdı. Qovurmanın iyi Yəhya Kamalı damaq etmişdi. Arıq oğlan - Zahidov deyirdilər - çayını nəlbəkiyə tökə-tökə üzünü Dilənə tutdu:

- Gətir, - dedi, - başlayaq görək.

Dilən ayağa qalxdı. İstədi bayıra çıxsın. Bir də yadına düşdü ki, işlər budur, buradadır, Yəhya Kamalın qulağının dibindədir. Yəhya Kamala işarə etdi:

- Gətirək də!

Yəhya Kamal dizi üstə oturmuşdu. Dik qalxdı. Kamodun üstünə qoyduğu dəftər-kağızı iki əli ilə qucaqlayıb, yenə diz çökdü. Arıq oğlanın üzünə baxdı.

- Deyirəm, yoldaş Zahidov, meşayit olar. Qoy çay-çörəyi yığışdıraq, birkərəmə başlayaq.

Zahidovdan qabaq ispalkom əlini endirib, etiraz etdi:

- A kişi, nə meşatı var, bəri ver! Ağzın yesin, əlin işləsin, dana!

Zahidov da şərik oldu.

Çay dəsgahına hesabat dəsgahı da əlavə olundu. Yəhya Kamal dəftərini açıb, başlamaq istəyirdi ki, ispalkomu çağırdılar.

- Alı kişi, evdəsənmi?

İspalkom qapını açdı.

- Gəl, a Zindalı dayı.

İçəri girdi, oturdu. Çubuğunu doldurdu. Yəhya Kamalın dəftər-kitabına baxmağa gəlmişdi.

Zahidov əvvəlcə nədən başlamaq lazım olduğunu dedikdən sonra bir əmr kimi işarə etdi:

- De gəlsin!

Yəhya Kamal oxuyur, sarı qız çötkəni salır, Zahidov balaca, qara dəftərinə qeyd edirdi:

- İdarəyə gəlib, daxil olub, ərz olsun qulluğunuza, siyahı üzrə yağdan altı yüz manat, pəndirdən yüz yetmiş iki manat əlli iki qəpik yarım.

Yəhya Kamal dişini ağardıb Zahidova baxdı:

- Hərçəndi ki, yarım qəpiyin maliyyəti bir şey deyil, amma ki, hesab dinar-dinar. Qoyun dərisi 63 manat 3 qəp... yun 89 manat yarım. Yenə pəndir. Müəllimlərə satılıb. 27 manat iki abbası. Canım sənə desin, ərz eləyim ağanın qulluğuna, yenə yağ 51 manat on dörd



şahı, 4 ay ərzində kolxozda 1200 manatlıq məhsul satılıb. Bunun müqabilində ərz olsun, məxaric ordelləri belədir. Sal ora, - deyə Yəhya Kamal dəftərə baxdı. Saymazyana oxudu. - Sal ora. Azarlı qoyunlara dərman 75 manat, sal, 300 manat Oktyabr bayramında çalğıçılara. Yox, yox, səhvən oldu, bağışla. 289 manat 87 qəpik olub, çünki onlardan prosent çıxılır. Sal ora, ot biçəndə çörək bişirdik. Üzünə çəkmək üçün yumurta 86 manat 49 qəpik yarım.

Zahidov dəftəri Yəhya Kamalın əlindən aldı. Vərəqləyib baxdı. Zahidov bərk tutulmuşdu. Sarı qız gülümsəyirdi. Yəhya Kamal başıaşağı dəftərə baxır, sanki itirdiyi bir hesabı axtarırdı...

- Yoldaş Dilən, bu pullar kimin qərarı ilə xərclənib?

Dilən diz çöküb, cavab verdi:

- Necə ki, qaydadır. Qoymuşuq heyətdə. Heyət qərara gəlib ki, bəli, bu şeyə filan qədər vermək olarmı, verməsək kolxozun işi aşarmı... Qərar var, protokolları da...

Üzünü Yəhya Kamala çevirib dedi:

- Yazılıb, necə ki, var.

Zahidov soruşdu:

- Haradadır o protokollar?

- Bizdədir, lazım olsa...

- Gətir, lazım olub...

Yəhya Kamal protokolların dalınca gedəndə yolda çəkməsi çıxdı. Əlinə alıb qaçdı. Onun Köçəmirlidə belə qaçmağı birinci dəfə idi. Qarı xırtıldada-xırtıldada dağın döşüylə idarəyə tərəf yüyürdü.

O, tərli, ləhləyə-ləhləyə qayıdıb içəri girəndə özək katibini də ispalkomun evində gördü.

Zahidov protokollara baxıb, Həmiddən soruşdu:

- Sən zurnaçılara 300 manat verən iclasda...

Yəhya Kamal onun sözünü kəsdi:

- Xeyr, yoldaş, 300 manat deyən yoxdur. Olubdur 289 manat, haqq-hesab düz gərək.

Zahidov sualını bitirəndə, Həmid başını tovladı:

- Ay canım, niyə elə söz danışırsınız? Onların hərəsinə bir göy üçlük verildi, mənim yadımdadır. Şotu bəri elə görüm!

Şot əldən-ələ gəzdi. Ləhya Kamal and-aman elədi.

- Vicdan-məsləkimiz haqqı. Necə ki var, əməkgünü yazılıbdır. Qəpik oyan-buyan olsa, vicdanım itin olsun.

Zahidov kağızları qatlayıb, cibinə qoydu.

- Belə olmayacaq, aşna! Yoldaş Dilən, bu şotlarda adı olan kişilərdən öləni varmı?

Dilən tərəddüdlə Yəhya Kamalın üzünə baxdı:

- Yox, - dedi, - gərək ölüb-itən olmasın. O var ki, tapmaq çətin olacaq.

Zahidov üzünü ispalkoma tutdu:

- Alı dayı, yaz bu siyahını götür. Haradan olsa, bu adamları tap, yoxlayaq sabahacan! Bu nə haqq-hesabdır?

Alı kişi əl-ayağa düşdü. Yəhya Kamalın yaxasından yapışdı.

İclas çox basabas idi. İynə salmağa yer yoxdu. Adamlar üst-üstə oturmuş kimi idi. Hamı iclasın açılmasını səbirsizliklə gözləyirdi. Lakin nə Dilən, nə Yəhya Kamal tapıldı. Onlar qaçmışdılar. Bu xəbər iclasa gələnləri şübhəyə saldı. Hamı arıq oğlanın açdığı işləri görmək istəyirdi. Pıçıltı, söhbət, öskürək bir-birinə qarışıb, böyük ispalkom idarəsinin tüstülü havasında əriyirdi. Alı kişi açarla stola döyəndə səslər xırp kəsildi. Alı kişi Köçəmirli kolxozçularının ümumi iclasını açıb, sözü arıq oğlana verdi.

Arıq oğlan asta-asta, kəlmə-kəlmə danışırdı. Həmid və milis Heydər içəri girdilər. Həmid adamları basa-basa keçdi. Arıq oğlanın qulağına nə isə pıçıldadı. Arıq oğlan başını tərpədib razılıq verdi.

İçəriyə iki qara çadralı arvad gətirdilər. Onlara pəncərənin qabağında yer edildi. Heç biri bu kənd adamına oxşamırdı. Üzlərini bərk-bərk tutmuş, başlarını aşağı salmışdılar.

Bunların kim olduğu, nə üçün kolxoz iclasına gəldikləri hamını maraqlandırırdı. Him ilə adamlar bir-birindən soruşurdu:

- Bunlar kim ola?



Zindalı dayı pəncərənin qabağında durub, özünü arvadlara tərəf verdi. Üzlərini görmək istəyirdi.

Arıq oğlan məruzəsini qurtarırdı. Müqəssirlərin qaçmasından danışanda şəhadət barmağı ilə qara çadralı qadınları göstərdi. Heydər bu anda çadranı onların başından çəkdi.

Hamını heyrət götürdü. İclas bir müddət susdu. Bunlar səhərdən bəri kənddə tapılmayan, qaçıb itmiş Dilən və Yəhya Kamal idi. Zindalı kişi diksinib, qırağa çəkildi. Yetim Əkbər nə dedi, nə qandırdı, Dilənə bir qapaz ilişdirməyə dartındı. Onu geri itələdilər.

Kim isə dilləndi:

- İlanın başını niyə əzmirsiniz?

- Öldürün bu canavarları!

Quzu Allahyar cavab verdi:

- Arvad xeylağı ilə nə işiniz var?! Bu söz Telli xalaya xoş gəlmədi.

1934

# BOSTAN OĞRUSU

Gecənin bir aləmində Durmuş kişi yerindən qalxıb, ətrafa göz gəzdirdi. Axşamkı qaranlıq, ayaqlanan palçıq kimi bərkimiş, qatılaşmışdı. Göz gözü görmürdü. Qardaşı Kərbəlayı Tapdığın üzüm bağı bir ləkə kimi güclə seçilirdi. Hava bürkü idi. Hər şey əriyirmiş kimi, göy yerə qarışmışdı.

- İş yiyəsi işdə gərək! - deyən Durmuş kişi çoxdan bəri suvarılmadığından qurumuş və torpağı çatlamış ləklərin arası ilə gedirdi. Quru otlara, yemiş tağlarının süfrə kimi enli yarpaqlarına dəyib, səs salmamaq üçün şalvarını dizinə qədər çırmadı, papağını qoltuğuna vurub, sinə-sinə yeridi. Sonra özünə ürək verməyə başladı: «Heç qorxmaq istəməz! Yatıbsa, işim işdir. Oyaq olsa, deyərəm: Söhbətə gəlmişəm. Tutdu hənək, tutmadı dəyənək!»

Kərbəlayı Tapdığın dəyəsinə yaxınlaşanda qulağınasəs gəldi. Deyəsən, haradansa: «Ey, hey-hey, ey!» çağırırdılar. Qızılgül kollarının dibinə çöküb, qulaqlarını şəklədi. Bir şey xışıldayırdı. Durmuşun fikrinə gəldi ki: «Kişi pusquda dayanmış olar, məni oğru bilib, doldurar qırmanı qarnıma». Bu fikir çəkic kimi onun başına dəydi, bədənini odlandırdı. Kişi diksindi. Ayağa qalxıb, qardaşını səsləmək istədi. Bir dəqiqə də gözlədi. Xışıldayan şeyin kərtənkələ olduğuna inandı.

Heyvan, Durmuşun vedrəyə oxşayan gövdəsini görüb hürkmüş, rahatsız olmuşdu.

Durmuş dəyənin yanında barmaqları üstə yeriyib, xəyal kimi səssizcə Kərbəlayı Tapdığın yatağına yanaşdı. Kişi şirincə yuxuda xoruldayırdı. Əyilib Tapdığın üzünə diqqətlə baxdı. İnandı ki: «Yeddi gün, yeddi gecə!» dev yuxusuna gedib. Kərbəlayının plov yeməkdən böyüyən ağzı elə geniş açılmışdı ki, oraya dolan yuxunu



yeddi gün, yeddi gecədə ancaq həzm edə bilərdi.

Durmuş özünü tənəklərin arasına verdi...

Kərbəlayı Tapdığın bağında bir lək yaylıq üzüm var idi. Bu xırda, yumrugilə, ağ, şirin, sıxsalxım üzümdür. Tez yetişdiyinə görə nobar olur, çox sevilir, az tapılır, baha satılır. Neçə ildir ki, Kərbəlayı Tapdıq altı tənəkdən altı salxım üzüm dərə bilmirdi. Üzümləri gülünü tökər-tökməz ala-qora vaxtında yoluşdurub aparırdılar. Kərbəlayı xəbər tutanadək bir salxım da qalmırdı. Arvad onu çox danlayırdı. Axırda özü də hirsləndi.

- Canım, - dedi, - belə şey olmaz axı, görüm bu zəhrimara dadanan kimdir? Onun qarnını yırtmasam, mən Kərbəlayı Tapdıq deyiləm...

Oğlunu, nökərini də göndərmədi. Üzümlər gül tökəndə iyun ayının axırlarında yorğan-döşəyini götürüb bağda, dəyədə yatardı. Niyə də yatmasın? Qoruya bilsə, tənəkdə bir pud üzümü var. Qolqanad açıb, isti torpaqlarda yatan tənəklər bulud kimi dolu salxımlar verir. Dolmalıq vaxtını ötən və baş qaldırıb tac kimi şax duran yarpaqlar, sanki günəşin almaz zərrələrini, sabahın ilhamlı təranələrini sorub salxımlara və şəffaf gilələrə doldurur. Yarpaqlar yaşıl ətəkləri ilə salxımları örtüb bəsləyir. Salxımlar isə pərvazlanmış quş kimi, yuvasına sığmayıb kənara boylanır, quşları çağırır və bəlkə də yoldan ötənlərin zavalına gəlir...

Üzüm, nə üzüm! Şəkər kimi şaqqıldayır, diş vuran kimi şirəsi qana keçir, ürəyə axır, gözə işıq, dizə taqət verir. Tənəklərdən sallanan salxım deyil, onluq çervonlardır.

Vaqon pəncərələrindən baxan bəzəkli xanımların gözü bu üzümə sataşdımı, deyəcəklər: «Vinoqrad davay!» Belə olanda hansı axmaq güzəştə gedər? Mən də deyəcəyəm: «Kilosuna ədin çervon davay!»

Bu ağıllı fikirlər yalnız Kərbəlayı Tapdığın başına gəlməmişdi. «Ürəkdən ürəyə yol var» deyərlər. Bunları Durmuş da yaxşıca

kəlləsinə vurmuşdu.

Gecənin bu vaxtında, porsuq kimi tənəklərin arasına soxulub, salxımları şirin yuxusundan oyadan və yoluşduran Durmuş da hər salxımdan «bir çervon» gözləyirdi. Fikirləşdi ki: «Atadan mənə bir çatı da düşmədi, boğazıma salım. Böyük qardaş (Kərbəlayı Tapdıq) mənə kəbin kəsdi, hamısını içəri ötürdü, məni məğmun elədi. Qapısında bir donuzu əskikdir. Bağı özünə bəsdir. Heç olmasa bu yaylıq üzümü də mənə çatmazmı?»

Durmuş «işini» görüb, bostanına qayıtdı. Üzümü yerbəyer elədi. Bir gilə də ağzına qoyub, şirinliyindən dodağını marçıldatdı. Bu üzüm, cavan vaxtında minbir qorxu və ürək döyüntüsü ilə gecə xəlvət görüşündə nişanlısından aldığı «haram öpüş» kimi ləzzətli idi. Həmlələr pozmuş, qoşun sındırmış, qala fəth etmiş əsgər sevinci ilə Durmuş yatağına girdi.

Kərbəlayı Tapdığı elə bil yuxudan oyatdılar. Qaranlıq, sakitlik, yalnızlıq idi. Nağıllarda söylənən tilsimli gecələr Tapdığın yadına düşdü. Göyə baxdı. Səliqəsiz səpilmiş ulduzlar ona qızıl onluqları xatırlatdı: «Nə ola, bu qızıllar göydən qopa, qızıl yağışı yağaydı. Nə qapaqap olardı, fələk! Qıllı papağımı başıma basıb, bir yüzcə dənə yığsaydım birtəhər olardım. Şəhərin göbəyində bir mülk alardım, ya da Namazlıların bağını ələ keçirərdim, ildə on beş-iyirmi min manatlıq təkcə «Təbriz üzümü» satardım. Onda Durmuş da paxıllığından çatlardı. Qoy onda mənimlə ha bəhsə girişsin!..»

Kərbəlayı Tapdıq bu dadlı xəyalını udmamışdı ki, nökər qulağına pıçıldadı:

- Vaxtdır! Vaxt keçir!

O, yerindən qalxdı, işarə ilə nökərə qandırdı: «Sən o yandan gəl!»

Özü ağacların arasından dərəyə endi. Durmuşun bostanına keçdi.



Bağ da bostanın yeri də qardaşlara atadan qalmışdı. O zaman ayrılanda nə təhər oldusa, Durmuş xali yer yiyəsi oldu. Atıldı, düşdü, çığır-bağır saldı, şəriət yanında, yüzbaşı yanında sözünü eşitmədilər.

Ovladığı bir qazı ətəyinin altında axunda peşkəş apardı. Sən demə, Kərbəlayı Tapdıq da axunda ağzında bir qızıl onluq göstəribmiş. Bağ davası başlananda axund istiot kimi tündləşdi. Kərbəlayı Tapdığın sözünü təsdiqlədi. Durmuşun üstünə qışqırdı:

- Qaz boynu kimi boynunu uzatma! Kişi ağzında qızıl kimi söz danışır!

Durmuş başını aşağı salıb dedi:

- Eybi yoxdur! Qoy böyük qardaş bağa yiyələnsin, can sağ olar, mən də o xali yerin torpağını qızıla döndərərəm. Heç eybi yoxdur!..

Durmuş, doğrudan da, dediyini edirdi. Qanqallı, tikanlı, sarmaşıqlı yerin torpağını atım-atım edib, un kimi elədi. Yaxşıca arx çəkdi, su çıxartdı. Yerin ətrafına iki cərgə meyvə ağacı əkdi. Yeri isə hər il dirlik bostan edib, çoxlu mənfəət götürürdü. Səliqə ilə əkilmiş, taxtalanmış bostan yaz vaxtı Quba xalçasına bənzəyirdi. Yaşıl, cavan alma, armud, ərik, əncir ağacları saçaq kimi sallanıb sıxlaşırdı.

Durmuşun bostandan dəsmal-dəsmal pul götürməyi, hələ bağ salmaq fikrinə düşməməyi Kərbəlayı Tapdığı narahat edirdi. Fikrinə gəlirdi ki: «Bu gədə məni ötəcək, mənim var dövlətim yalan olacaq...»

Kərbəlayı Tapdıq bu dərdi sinirə bilmirdi. Durmuşa badalaq qurmağa çalışırdı.

Son zamanlarda gözünü onun yemişlərinə dikmişdi. Dəfələrlə gündüzlər kiçik qardaşının bostanına kecib «əhvalpürsanlıq» bəhanəsi ilə yemişləri bəlləmişdi. İki-üç kisə yemiş «daşbaş» eləyib satdırmaq, bostanın xeyrindən «feyziyab» olmaq iştahasında idi.

Gündüzdən nökəri öyrətmişdi ki, kisə götürüb, bağa gəlsin.

Yemiş tağları göyləri əmib, yerləri sormuş, ərköyün oğlan kimi köks gərib, qol-qanad açmışdı.

Tağların hər qolunda bir neçə yemiş böyrünü sərin torpağa verib, kotana qoşulmalı cöngə kimi yatırdı, sanki göyşəyirdi. Qalın və şax yarpaqları başında boşqab kimi tutan uzun zoğlar deyil, qonaqcıl gəlin biləkləri idi. Yemişlərin bəzisi qaraqabaq adamlar kimi burnunu yerə dikmişdi. Çoxusu ağaran qabarıq gövdəsi ilə yelkənə bənzəyirdi. Eləsi də vardı ki, yupyumru şamama kimi...

Kərbəlayı Tapdıq bəllədiyi tağların dibinə sindi. Nökərə him elədi:

- Çırpışdır! Nə durmusan?

Çopur, ağır və böyük yemişlərə əl dəyən kimi tağdan üzülürdü. Bəzi yemişləri tağdan üzmək çətin idi. Toy və bəylik günləri Tapdığın gözü önünə gəldi. Xəncəri çəkib, yemişlərin saplağını kəsdi.

Yemiş, nə yemiş! Öz-özünə tağda cathacat cırılan yemiş!

Tapdıq dayaz ləklərdə sürünə-sürünə yemişləri seçib dərir, nökər isə kisəyə yığıb, dərəyə yendirirdi. Çox çəkmədi tağlar boşaldı, kisələr doldu. Dan yeri sökülməkdə idi ki, onlar kolların arasında itdilər.

Səhər açılmış, gün xeyli qalxmışdı. Hər gün dan üzü yuxudan duran qardaşların heç biri yatağından çıxmaq istəmirdi. Azar dəymiş kimi, yataqda o yan-bu yana çevrilirdilər. Hətta Kərbəlayı Tapdığın yatağını gün döyürdü. Dözmək mümkün deyildi. Yerini divarın dibinə çəkdi, başını yerə qoydu, gözünü yumdu, qulağını bostana tərəf şəklədi. Ona elə gəlirdi ki, bu saat Durmuşun hay-küyü qopacaq. «Qoy gəlib məni yatan görsün».

Durmuş da qalxmır, gözləyirdi ki, Tapdıq «üzümlərim vay!»-deyəndə. gümanı bu tərəfə gəlməsin. Gəlsin məni yatağımda görsün. Mən də yuxudan indicə oyanmış kimi, gözümü ovuşdura-ovuşdura



qalxım, heyrətdə qalım...»

- Nə olub, dadaş, nə xəbərdi?-deyə o, yoldan ötənlərə baxmaq üçün yerindən boylandı. Yemiş tağları gözünə bir təhər gəldi. Diqqət edəndə şübhəsi artdı. Yerindən sıçradı. Şalvarı dizinə çəkib yüyürdü.

Yanılmırdı, bəllədiyi Carco yemişlərindən biri də qalmamışdı. Ləklər ələk-vələk edilmişdi. Tağlar güllələnmiş igid kimi üzü üstə sərilmişdi. Gözünə inanmadı. Bir də yoxladı, əli ilə tağları çevirdi, ayağı ilə torpağı eşələdi. Otun arasına baxdı.

- Yox, - dedi, - bostanı pozublar!

Yoldan ötənlərdən şübhələndi. Yol üstünə qaçdı. Orada gülə-gülə araba sürən və at üstündə qucağına quzu alıb aparan kəndlilərdən başqa kimsəni görmədi. Qayıtdı. Tapdığa xəbər vermək üçün ləkin qırağından səsləndi:

- Dadaş, ay Kərbəlayı dadaş, hey!.. Onun səsini eşidən kimi Tapdığın dodaqlarında təbəssüm oynadı: «Hə, - dedi, - dostumun canına isti keçir ha!.. - O, yenə eşitməməzliyə vurub qalxmadı. - Qoy lap özü gəlsin, çağırsın».

Durmuş mərzi keçib gəldi. Qardaşını yatan gördükdə qışqırdı:

- Ay dadaş, nə yatmısan, evimi yıxıblar, dur görək bu nə işdir!

Tapdığı bostana apardı. Ayaqlanan ləkləri, pozulan tağları birbir göstərib, yana-yana dedi:

- Gör, bir gör! Gör namərd oğlu malımı nə günə salıb! Buna bax sən Allah! Bu tağların hər birində beş-altı yemiş var idi. Biri bir oğula dəyərdi... Saxlamışdım el dağdan qayıdana. Vay köpək oğlu, toxumluqları da yolubdur. Sənin atan gorbagor olsun!

Tapdıq baxırdı, özünü heyrətli göstərməyə çalışaraq dedi:

- Heyif! Heyif zəhmətinə!.. Ay canım, səndə də günah var axı! Bostanda yatmısan, niyə ayıq olmursan? Bilmirsən ki, oğrular gözdən tük çəkirlər? Mən o üzümü güc-bəla ilə saxlamışam. Gecələr

yuxunu özümə haram eləmişəm.

Boğazını biçən kədərinə baxmayaraq, Durmuş Tapdığı «üzümü güc-bəla ilə saxlamışam» sözünə içində istehza ilə güldü, öz-özünə dedi: «Ay saxladın ha!..»

Tapdıq qardaşına təsəlli verməyə çalışdı:

- Eybi yoxdur, canın sağ olsun!..

- Heç sağ olmasın belə can ki, əməyinin məhsulunu itə-qurda verəcək...

- Eybi yoxdur. Oğru elə həmişə oğrudur. Sən yenə əkəcəksən, yemiş yiyəsi olacaqsan. Amma oğru...

Durmuş onun cümləsini bitirməyə macal vermədi:

- Oğrunun namusu əllərdə qalsın!.. Axı buna zəhmət çəkmişəm, əlim qabar olub bel vurmaqdan. Xalqlar kimi muzdura, əmələyə əkdirməmişəm. Hər yemişə bir gecə yuxusuz qalmışam axı!..

Burada Kərbəlayı Tapdıq diksindi.

Bayaqdan bəri atası, anası söyülürdü. Buna dözürdü, çunki qardaşıdır, söyürsə də, yarısı özünə gedir. Durmuş ağzını açıb, arvad söyüşü söyəndə kişinin namus damarı dimdik durdu, üzü qızardı, dodağı pörtdü, gözü bulandı, bəbəklərində, deyəsən, ildırım çaxdı. Durmuş isə bir də təkrar etdi:

- Oğrunun namusu əllərə düşsün, demirmi ki, bunun yiyəsi var?!

Kərbəlayı Tapdıq qırx yeddi yaşa çatmışdı, heç vaxt belə üzü yuxarı namus söyüşü eşitməmişdi. Qan başına vurdu, ürəyinə alov doldu. Əlini xəncərin dəstəyinə atıb, qınından siyirmək istəyəndə, bir də qaşlarını çatıb fikirləşdi: «Yaxşı, vursam, deyəcək: «Oho! Oğru sənsən ki!..» Yox, açıb-ağartmaq lazım deyil...» Boğulmuş bir səslə dedi:

- Nə lazım yemişdən ötrü namusa söyürsən? Yaxşı deyil! Eşidən olar...

Durmuş gözünü pozulmuş ləklərdən ayırmadan bir az da hirslənib, özündən çıxdı:



- Necə yaxşı deyil! Mənim malımı yeyəni söyərəm də, o yana da keçərəm. Bu nə sözdür?

Bu sözlər kürədə qızardılmış kömür kimi bir-bir Tapdığın ürəyinə dəyir, onu yandırıb yaxırdı. Ayrı vaxt olsaydı, Kərbəlayı Tapdıq ölüb-öldürməklə cavab verərdi. Amma indi vəziyyət elə idi ki, sükutdan başqa çarə yox idi. O, üz döndərib getdi. Bağına keçdi. Ayağının altında bir salxım əzilmiş üzüm görəndə diksindi:

- Niii!

Elə bildi ki, kim isə üzümü dərib, bağ yiyəsini görəndə tullayıb qaçıb. Bağın ətrafına baxa-baxa tənəklərə yaxınlaşdı. Yaxınlaşdı, nə gördü! Tənəklər sağılmış qoyun kimi durub baxır. Yaylıq üzümü elə təmizləyiblər ki, deyərsən günün günorta çağı buradan bir dəstə oğru keçib. Bir zingirə də üzüm qalmayıb. Salxımlardan qırılan gilələr ləkin içindəki çuxurlara tökülüb. Tənəklərin yoluq yarpaqları sallanır, budaqlar soyulmuş adam kimi, mat-məyus, boynu çiynində baxır, salxımların saplaq yeri göz yaşı tökür.

Tapdıq arxası getmiş və evi yıxılmış ata kimi, halsızca diz çökdü. Tərpənməyə taqəti qalmadı. Ağır-ağır nəfəs aldı, güclə qışqıra bildi:

- Gəlin hay, gəlin hay! Gəlin!..

Zərər görənlər kənd sovetinə gəldilər. Hər ikisi zərərini dedi, əhvalatı danışdı. Katib akt yazdı və soruşdu:

- Kimə gümanınız gedir?

Durmuş Ağcanın oğlunu dedi. Kərbəlayı Tapdıq isə Danqır Abası yazdı. Katib yenə soruşdu:

- Nə bilirsiniz, bəlkə ikisini də bir adam dərib? Tapdıq etimadla cavab verdi:

- Yox, mənim bağımı ayrı adam dərib.

- Nədən bilirsən?

- Bilirəm!

- Bilirsən, bəs niyə oğrunu açıq göstərmirsən?

- Yox ey, yadımdan çıxdı, bilmirəm! Bilmirəm, yemiş oğurlayanın atasına lənət!

Məsələni aydın etmək çətin oldu. Danqır Abas həbsdə imiş, Ağcanın oğlu isə bir ay imiş ki, kənddə yox imiş. İş sovetə tapşırıldı, təhqiqata verildi.

Üç gün sonra, axşamüstü milis Qələndər Quliyev sədrin yanına gəldi.

- Dur bir tez vağzala çıxaq! - dedi.

- Yorulmuşam, yenicə xırmandan gəlmişəm, qılçam gizildəyir, qoy dincəlim, - deyə kənd sovetinin sədri cavab verdi.

- Yox, iş var, gedək!

- Mən ölüm qoy nəfəsimi dərim!

- Yox ey, iş var. Tez ol! Qəribə bir iş görəcəksən.

Sədr çəkməsini ayağına çəkib qalxdı. Onlar bağçanın içi ilə ötüb, çəpərdən aşıb, vağzala keçdilər.

Zəng səsləndi, səsi ilə də hamını hərəkətə gətirdi. Kimi adamları basabasa əlini kassanın pəncərəsinə yetirməyə can atır, kimi çamadan əlində növbətçiyə güc gəlib, dal qapıdan platformaya çıxmaq istəyirdi.

Dəqiqələr keçdikcə hay-küy artırdı. Adamlar bir-birinə qarışmışdı. Ümumi gurultu içində vağzal istilahları eşidilirdi:

- Plaskart!

- Sürət qatarı.

- Tranzit.

- Birbaşa.

- Hara soxulursan!

Bufetin sağ kənarında balaca bağın qabağındakı vağzal bazarı minikləri, çağrılmış qonaq kimi aramsız gözləyirdi. Üzümü səbətlərə düzən, almanı yüngül-yüngül çəkib kağız torbaya dolduran, stəkanı təmizləyən kim, bişmiş kotleti stola düzən, yemişi dilimləyən kim...



Qələndər sədrin qolundan tutub, bağın qırağına gətirdi. Barmağı ilə nişan verdi:

- Bax, mən ölüm bir yaxşı bax!

Tapdıq iki tay Carco yemişini yerə düzməkdə nökərinə kömək edir, göstəriş verir, o yan-bu yana baxıb, nökərinə nə isə deyirdi.

Qaynar su budkasının solunda isə Durmuş qabağına yaylıq üzümü ilə dolu balaca bir səbət qoyub, kisəni qılçası arasına almışdı, qorxa-qorxa səbətin ağzını bəzəyirdi.

Sədr baxdı, baxdı, yandı, töküldü:

- Yazıq Danqır Abbas, binəva Ağcanın oğlu!..

- Çaqqal baş qopardır, qurdun adı bədnamdır, - deyə Qələndər onun sözünü təsdiqlədi.

Qatar gəldi. Adamlar vaqondan töküldülər, qırılmış boyunbağı kimi yerə səpələndilər. Yeyənə, içənə, aldığını qoltuğuna vurana, vaqonda gözləyənə, sevgilisinə meyvə aparana bax! Pullular alır, mallılar satır, aralıqda qalanlar tamaşa edirdilər.

Tapdıq on iki-on üç yemiş xırıda vermişdi ki, müştəri azaldı. Üçüncü zəng vurulandan sonra qatar yola düşdü. Yemiş alan olmadı. Boylanıb budka tərəfə baxanda Durmuşun əlində yaylıq üzümü gördü, yerindəcə donub qaldı.

Onların gözü bir-birinə sataşdı: atışan adamlar kimi özlərini yığışdırdılar. Diqqətlə bir-birinin üzünə və matahına baxdılar.

Durmuş səbəti yerə qoyub, özünü ağacların arasına verdi. Kərbəlayı Tapdıq nökərə him elədi:

- Gəldilər...

Özü isə divardan hoppanmaq istəyərkən, bir əlin biləyindən yapışdığını gördü. Bu, sovet sədri idi.

Qələndər isə Durmuşu yaxalayıb gətirirdi.

Onlar bu iki qardaşı üzləşdirməyə və məsuliyyətə almağa gətirirdilər.

1935

## AYAZ

Hələlik darıxmayın, mən Əkbərin cavanlığından danışmaq istəyirəm.

O, bəzəkli, təntənəli, gurultulu saraylarda gün keçirməmişdi. Yerişi ilə nişanlayan, kirpiyi ilə oxlayan, baxışı ilə xumarlanan, nazı ilə canlar alan xanımları görməmişdi. Süfrəsi bərq vuran şərab məclislərində sağlıq deməmişdi. Cəbhələrdə döyüşməmiş, vuruşmalarda igidlərlə qarşılaşmamış, həmlə, zərbə dadmamışdı.

Əkbər elm adamı, kitab düşkünü də deyildi. İşdə, həyatda gözəçarpan bir qabiliyyəti də yox idi. Natiqəsi zəif idi. Bəzi mühəndislər kimi beş kəlməni bir-birinə calayıb, içindən məna çıxarmağı bacarmazdı.

Yoldaş oxucu, deyəsən, ürəyinə yatmadı? Dodaqlarını büzüb, ayağa qalxmaq istəyirsən...

Gəncsənsə, yəqin düşünürsən: «Əzizim, belə tiplərin ədəbiyyatda nə işi? Bunun sənətə layiq bir xasiyyəti yoxdur. Bir adam ki, ürəyində qız yarası görməyə, bir təbəssüm üçün hönkür-hönkür ağlamaya, eşq badəsi nuş etməyə, dünyanın, varlığın iyini bir tikməli yaylıqdan almaya, bir qəmzədə min bir məna oxumaya».

Yaşlısansa, dünyanın yalnız istisini yox, soyuğunu da dadıbsansa, deyəcəksən: «Mübarizə görməyən, səyahətə getməyən, biliksiz, təcrübəsiz adamdan nə ibrət almaq olar?»

Əkbər siz deyən adamlardan olmasa da, özünə görə ibrətli həyat yolu var. Onun cavanlığı göl kimi sakit keçməmişdi. Onun gözü bənna şagirdliyində açıldı. İllərlə usta Murtuzun yanında sənət öyrənərdi. Bir də görərdin, səhər açılmamış usta Murtuz adam göndərib tapşırardı:

- Əkbər, durma gəl!





Əkbər dərhal anlardı ki, iş var. Palçıq təknəsini və çiynini ağrıtmasın deyə, tikdirdiyi köhnə arxalığı götürüb cumardı. Ustası, görərdin, filan tacirin, bəyin, mirzənin, axundun evini tikməyi boynuna götürmüşdür. Fəhlələr yer qazar, evin bünövrəsini qoyar, usta tarazla ölçər, ip uzadar, başlayıb divarı qaldırardı. Əkbər torpaq gətirər, palçıq tutar, daş daşıyardı. Fəhlələrin hamısından çox işlərdi. Gün muzdunun isə yarısını alardı, çünki usta Murtuz onunla qabaqcadan şərtləşmişdi: usta ona bənnalıq öyrədirdi, o da muzdunun yarısını ustadan almırdı. Bunu da ona görə edərdi ki, sənət öyrənsin, əli çörəyə çatandan sonra rahatca otursun, az işləyib, çox istirahət eləsin, çoxlu çay içsin, bu ağır, yuxusuz günlərin yorğunluğunu, əzabını canından çıxarsın.

Cəld işlədiyinə görə usta Murtuzun Əkbərdən xoşu gələrdi:

- Şagird deyil, igiddir, igid! Tikintinin fəndini öyrənsə, işin çəmini tapsa, ustaların əlini taxtaya bağlayacaq! Pah, insan da belə işcil olar? Əjdaha kimidir!

Bir il, dava düşən ili tacirlərin gəlhagəli idi. Hansı baqqalı dindirsən, alaxana-balaxanadan dəm vurardı. Şəhərin dar küçələri, sıx həyətləri, qaranlıq damları onları təmin etmirdi. Kənarlara, yoncalıq, dirrik yerlərinə çəkilirdilər. Pulun gücünə beş ay ərzində koma-koma evlər tikildi. Bənnanın iş günü, az qala, bir qızıla çıxmışdı.

Bunlar usta Murtuzun ürəyinə yatırdı. O, çox işləyir, çox da qazanırdı. Sutkanın on altı saatını damda-divarda keçirirdi.

Əkbərin qoçaqlığı indi gözə çarpırdı. Günün yandırıcı istisində, təknə çiynində tər tökə-tökə nərdivana qırğı kimi dırmandığını görənlər dayanıb tamaşa edirdilər. Onun ustaya kərpic atmasına, hətta palçıq dolu təknəni, baratanı «ya mədəd!» - deyib, yuxarı tullamasına hamı mat qalırdı. Camaat əlini əlinə vurub, heyrət etdikcə, Əkbər qızışırdı. Təknəni daha çox doldurur, daha etinasız

atırdı. Özü də irəli yeriyib, təknənin altında dururdu.

Bunun böyük mənası vardı. Başını aşağı salıb, divarın dibində durmaqla demək istəyirdi: «Başımı verərəm! Düz atmamışamsa, qoy düşüb, başımı parçalasın».

Usta Murtuz hərdən bir kişinin həyətində işlərdi. Bənna-fəhlənin xörəyini də iş sahibi verərdi. Nədənsə, qadınlar fəhlələrdən gizlənməzdi. Əkbər bundan əsəbiləşirdi: «Necə yəni? Biz kişi deyilik?» Əlipaşanın həyətində işləyəndə Əkbər bir ev qulluqçusu gördü. Kaş ki, heç görməyə idi! Kişi durduğu yerdə pozulub haldan getdi.

Nə olar qız görəndə? Adam qız da görər, qızla danışar da, zarafatlaşar da, şəhər yerində qol-qola verib gəzər də...

Əkbər bunu bilirdi. Qonşu qızı Bilqeyislə o qədər qum-qum, gizlənqaç oynamış, o qədər əl-ələ verib kəpənək tutmağa, quş yuvası axtarmağa getmişdi ki... Ancaq heç bu günə düşməmişdi! İndi nədənsə gözü qulluqçu qıza sataşan kimi birtəhər oldu. Deyəsən, gözünə işıq, üzünə qırmızı, könlünə xəyalat gəldi.

Bir də baxdı. «Gözün aydın!»

Qız göy köynək geymişdi, quyudan su çəkib, vedrələrə tökürdü, hərdən üzünü örtən telini kənar etmək üçün başını geri atırdı, qara və ayıq gözləri ilə arabir yuxarıya, tikintidə çalışanlara baxırdı.

Əkbərin gözü qızın gözlərinə sataşanda dünya bir-birinə dəydi. Göyün buludları ağ ətəyini sallayıb, yeri örtdü. Ani bir külək yenicə tikilmiş yarımçıq evi qaldırıb, yeddi kərə fırlatdı. Əkbərin təpəsinə çaxdı. Əkbər bu zərbənin nə səsini eşitdi, nə ağrısını duydu. Ona elə gəldi ki, zərbə öz təsirini içəri verdi. Onun gənc və möhtəris qəlbi ovlanmış qartal kimi çırpınıb, köksünə vəlvələ saldı, az qaldı yerindən qopub göyün boşluğuna uçsun...

- Ədə, Əkbər, başımı yardın, nə xəbərdir!

Usta Murtuzun səsi Əkbəri xəyalatdan ayıltdı. Başını qaldıranda



göydən kərpic yağdığını, ustanın qaçıb, divarın başında dayandığını gördü. Özü hiss etmədən kərpicləri bir-birinin ardınca elə tullamışdı ki, usta hürküb qaçmış, divarın bir kənarında durub bağırmışdı:

- Ədə, Əkbər, başımı yardın, nə xəbərdir?

- ...

- Əkbər, sənə nə olub?

Əkbər utandı. Dinmədi. Başını aşağı salıb işlədi.

Əkbər bir səhər yerindən qalxanda qıza əməlli-başlı bənd olduğunu hiss etdi. Əl-qolu boşalmış, dizi taqətdən düşmüş, könlü yaz suları kimi bulanmışdı. Özündə bir əskiklik duyurdu. Sanki onu bu evə, illərcə yaşadığı bu tənha və məhrəm guşəyə müvəqqəti buraxmışdılar. Vaxt bitdiyi üçün naməlum bir adam qapını kəsib, onu bayıra çıxarmaq istəyirdi. Buna sevinməlimi idi, ya ağlamalımı idi? Göyköynək qızın baxışları Əkbərin gələcək həyatından pərdələri qaldırmışdı.

O, açıq havanın qızdırıcı günəşini, baharın ətirli səhnələrini, yurdsuzluğun ağır günlərinimi gözləyirdi? Nə qədər fikirləşdisə, bunu aydın edə bilmədi.

Tələsik əl-üzünü yuyub, tikintiyə qaçdı. Hələ heç kəs gəlməmişdi. Çırmanıb palçıq hazırladı. İşi bəhanə edib, həyətdə oyan-buyana getdi, məhbubəsini gözaltı axtarmağa başladı.

Usta gəldi. Hamı öz işinə davam etdi. Qız yenə həyətdə göründü. Əkbərin gözündə aləm bir-birinə dəydi. Ürəyi döyündü,başı gicəlləndi. Qızın yaxına gələcəyini, bəlkə də onlara çay hazırlayacağını güman etdi. Nə cür oldusa, gözü yenə qızın şəvə kimi qara, yaz göyləri kimi aydın gözlərinə sataşdı.

O, köhnə kişilərə inanırdı. Onlar: «Qəlbdən-qəlbə yol var». - deyirlər. Qız Əkbərin qəlbindən xəbərdar olmasaydı, ustanı və başqa fəhlələri qoyub, düz Əkbərin gözünün içinə baxmazdı... Əkbər ayağa qalxıb, könül dolusu iştaha ilə baxmaq istəyəndə, qız



üzünü çevirdi. İslanmış bir xalçanı başına alıb, həyətdən çıxdı gözdən itdi. Əkbəri bir uşaq küskünlüyü bürüdü. Bir ah çəkdi Gözünü qapı-bacadan yığıb, kərpic atmağa başladı.

- Bərk!

- Əkbər, bərk at!

- Bir az bərk at, Əkbər!

Usta Murtuz heyrətindən qayıdıb aşağı baxdı.

- Bərk at ki, çatsın da!

- Bıyy! Oğlum, sənə nə oldu birdən-birə? Yoxsa kefin xarabdır? Naxoşsan, hə?

Əkbərin kərpicləri ikinci qata, ustanın əlinə çatmırdı. O nə qədər gücənir, ayağını uca yerə qoyub atırdısa, kərpic getmirdi, əlindən çıxan kərpic qəlp fişəng kimi qayıdıb, tappıltı ilə yerə düşürdü. Usta Murtuz dayandı:

- Xəstəsən, bala, get yat, - dedi. - Yorğanı başına çək, bir möhkəm tərlə!

Əkbər, doğrudan, xəstələndi. Usta Murtuz gəlib, onu yataqda görəndə, təsəlli olsun deyə, hay-küy saldı:

- Sənin nəyindi yatasan, a qırışmal? Dur, əl-üzünü yu, eynin açılsın, yatdıqca ağırlaşarsan. Rəngin lap durulub.

Usta Murtuz xəstənin ürəyini açmaq üçün şirin söhbətlər elədi, məzhəkə dedi. Gətirdiyi qırmızı almadan soyub ona verdi.

Xəstənin üzünə bir şey deməsə də, fikirləşdi ki: «Evsiz-adamsız oğlandır, baxan olmaz, xəstəliyi bərkiyər. Əlipaşaya deyim, buna şorbadan-zaddan hazırlatsın».

Əkbər mütəkkəyə arxalanıb, pəncərədən baxırdı. fikir-xəyalatını dağıtmaq üçün, ya bir yerə yığmaq üçün papirosu papirosa calayırdı.

Ayaz - Əlipaşanın ev qulluqçusu, həmin o göyköynək qız - əlində bir qab xörək qəfildən içəri girdi.

Əkbərin huşu başından çıxdı. «İlahi, yuxu görürəm, ya bu aşkardır?» - deyə özünü toxtatdı. Yerində dik oturdu və qızın pul kimi qızarmış yanaqlarına baxıb güc-bəla ilə dilini tərpədə bildi:

- Nə zəhmət çəkirsiniz?

- Xoşdur!

Ayaz bu cavabı deyəndə, Əkbər sevincindən az qaldı sıçrayıb ayağa qalxsın. Gülümsədi. Ayazın cavabını xəyalında dönə-dönə təkrar edib fərəhləndi: «Demək, mənim zəhmətimi çəkmək onun xoşuna gəlir...» - deyə düşündü.

Əkbər ha fikirləşdi, Ayaza layiq və münasib xoş bir cavab tapmadı. Aralıqda davam edən sükutdan utandı. Ömründə ilk dəfə nail olduğu belə əziz bir görüşdə sükutla ötən dəqiqələrə heyfsiləndi. Qızdan soruşdu:

- Gözəl qız, sənin adın nədir?

Bu sualın yersizliyini özü də anladı. Lakin əlacsızlığından soruşdu.

Ayaz ona duz, qaşıq verdi. Dəsmalı qatlayıb, getməyə hazırlaşdı. Pəncərəyə baxa-baxa dedi:

- Qəşəng oğlan, hava ayazdır.

- Aybəniz qız, adını bəyan elə!

- Naçaq oğlan, məramını aç söylə!

- Qonağım qız, məni sağalt, amandır!

- Ellim oğlan, yatma dur!

Onların söhbəti aşıq deyişməsi kimi oldu. Əkbər qızın mehribanlığını və meylini görüb, ayağa qalxdı, onu küçə qapısına qədər yola saldı. Dalınca uzun müddət baxa-baxa qaldı. Qız çoxdan gözdən itmişdi, lakin Əkbər onun izinə baxırdı.

Sabahı gün Əkbərin kərpicləri yenə göyərçin kimi göyün yuxarı qatlarına qalxırdı. Ustalar, fəhlələr də ruhlanıb, axşam qaranlığına qədər işlədilər.



Usta Murtuz elçi düşdü. Əlipaşa şərt qoydu:

- İşləsin, tikintini bitirsin, işinə, mərifətinə baxarıq. Birdən-birə mən nə deyim! Çox da qulluqçu qızdır, axı mənim çörəyim ilə pərvəriş tapıb.

Əkbər iki ay bərk işlədi. Əlipaşanın bütün buyruqlarını yerinə yetirdi. Onun gözünə «iş görən, mərifətli» görünmək üçün tikintinin fəhlə işini də boynuna aldı. Əlipaşa onun üçün muzdla işləyən iki fəhləni işdən çıxartdı. Usta Murtuza dedi:

- Əlinin altında Əkbər kimi əjdaha var. Sənə fəhlə nə lazımdır? İşlə, qoçum, qurtar!

Usta Murtuz bir gün Əkbərdən muştuluq tutdu:

- Əlipaşa razı oldu. Qız sənindir. Tədarük gör!

Bu xəbərdən Əkbərin ürəyi dağa döndü. Qoluna yeni qüvvət gəldi.

Günlər də get-gedə qızır, ağır işdə çalışmaq çətinləşirdi. Bir gün Əkbər fikirləşə-fikirləşə palçıq ayaqlayıb yetirməkdə idi. Usta hara isə getmişdi. Xanım eyvandan baxırdı, dörd yaşlı oğlu da əlində çubuq həyətdə ağac at çapırdı.

Uşaq palçığa yaxınlaşdı, söyüd çubuğu ilə Əkbərin çılpaq baldırına çəkdi. Əkbər ufuldadı. Uşaq gülüb, anasına baxdı. Anası oğlunun şücaətindən qanadlanıb uçmaq istədi və işarə elədi:

- Bir də! Oğlum, bir də vur! Balası bir də vursun, görüm!

Əkbər uşağa acıqlandı:

- Eləmə! Eləmə, a bala, qılçamı ağrıdır axı!

Uşağı qolundan tutub, həyətin o başına apardı.

Qayıdıb palçığa girdi. Uşaq qaçıb gəldi. Gülə-gülə palçığın ətrafında hərləndi, fürsət axtardı və qəfildən vurdu.

Əkbər yuxarı, eyvanın məhəccərinə söykənib, saçlarını sallayan və həyətə tamaşa eləyən xanıma baxdı.

- Xanım, - dedi, - uşağı çağırın, ayağı palçığa batar!

Bu sözü o qədər nəzakət və ehtiyatla dedi ki, səsi boğuq çıxdı. Bu sözdə mərifətinə xələl gətirəcək heç bir şey olmadığına inandı. Lakin, nədənsə, xanım cavab vermədi, uşağı da çağırmadı, dişlərini ağardaraq durdu. Əkbər fikirləşdi: «Mərifət deyilən şey bunlara dözməkdən ibarətdirsə, bu, ölümdən də çətindir. Mən, deyəsən, dözə bilməyəcəyəm. Ağadır, xozeyindir, qəbul. Daha mənim canıma dağ basmağa nə haqqı var?»

Uşaq onun baldırına tutarlı bir çubuq çəkib, gülə-gülə qaçdı. Əkbərin baldırı bərk göynədi. Əkbər istədi işi, aclığı və hətta canından əziz tutduğu sevgilisini də ayaqlayıb keçsin, canını bu körpə uşağın əlindən qurtarsın. Lakin cürət etmədi. Əlipaşanın zəhmi canına çökdü, səbir eləməyi məsləhət gördü.

Uşaq bir də yaxınlaşanda dilə tutdu, çubuğunu əlindən alıb, atmağa çalışdı. Xanım eyvandan qışqırdı:

- İşin olmasın!

Əkbər mülayim cavab verdi:

- Xanım, uşağa soyuq dəyər, çağırın evə!

Xanım dinmədi.

Əkbər palçığını ayaqlamaqda davam etdi. Bir dövrə vurub başa çıxmamış, uşağın çubuğu sol qılçasını yandırdı. Bu dəfə Əkbərin yalnız qılçası yox, bütün əsəbləri yandı. O, palçıqlı ayağı ilə uşağın sinəsindən elə çırpdı ki, uşaq qartal caynağından düşən dovşan kimi yerə dəydi, hərəkətsiz qaldı. Xanım qışqırıb, özünü uşağının üstünə atdı. Küy qopdu, adamlar töküldü. Əkbər palçıqdan çıxıb, ayaqlarını təmizlədi, bir kənarda dayandı, qovulmaq əmrini gözlədi. Uşağı ovutmağa apardılar. Xanım ustanı da Əkbərə qatıb söydü.

- Tez ol, - dedi, - bu saat gözümdən rədd ol!

Əkbər ayaqqabısını geyinib getmək istəyəndə, Əlipaşa gəldi, mane oldu:

- İşini işlə, - dedi.



Üzünü xanıma tutub, yumşaqca dedi:

- Nə olar, uşaq döyülər də, ağlar da, kiriyər də!

- Necə nə olar? Balamı öldürürdü...

Əlipaşa onu sakit eləməyə çalışdı:

- Sənin işin olmasın. Get otur yerində!

Əkbər ömründə birinci dəfə idi ki, belə heyrətli bir işə rast gəlmişdi. O düşünürdü: «Ola bilməz! Əlipaşa məni niyə döydürüb, dama basdırmadı?» O dedi: «Uşaq döyülər də, ağlar da, kiriyər də...»

Əlipaşanın bu hərəkətinə Əkbər uzun müddət inanmadı, inandıqdan sonra isə ona hörməti artdı. Onun xasiyyətinə «əhsən», - deyib can-dillə işi qurtarmağa çalışdı.

İş qurtardı. Əlipaşanın hüzuruna adam göndərib, adaxlısını aparmaq fikrini bildirəndə, o, etiraz etmədi:

- Mən həmişə xeyir iş tərəfdarı olmuşam. Əyalıdır, gətirsin borclarını versin, aparsın. Mənim bir sözüm yoxdur.

- Nə borc?

Bu sözdən mat qalan Əkbər təkrar elədi:

- Nə borc?

Əlipaşa qızı böyütməyinə min manat məxaric istəyirdi. Qızın ərə getməyini eşidib, mübarəkbadlığına gəlmiş qonaqları yola salmaq üçün də düz beş yüz altmış yeddi manat xərc çəkdiyini deyirdi. Sonra əlavə edirdi:

- Nəcib oğlan olar, bizim zəhmətimizə, atalıq ehtiramımıza müqabil bir xələtdən-zaddan da tədarük edər. Zarafat deyil, evlənir, ay parçası kimi qız alır. Evi olur, daha yurdsuzluqdan çıxır. Bu yaxşılığı ona heç kim eləməz...

Əkbərin nə yalvarması, nə vasitəsi, nə vədi Əlipaşanın bir qəpiyinə əvəz ola bilmədi. Əlipaşa bu barədə vasitəçi olanları, az qala, söyüb qovurdu.

Axırda Ayaz özü Əlipaşaya yalvardı:

- Ağa, - dedi, - mənə atalıq haqqı qoyub, çörək veribsən... Mən də xəcalətindən çıxaram. Biz borclu olaq, sən də...

Ayaz öz təmənnasını deməyə utanırdı. Əlipaşaya məsələ aydındı. O dedi:

- İndi ki, sən xahiş edirsən, qız, pulunu keçərəm. Amma qabaqca sən də mənim kiçik bir xahişimə boyun əyəcəksən.

- Ağa, gözüm üstə, buyurun!

- Bir söz deyəcəyəm sənə. Axşam danışarıq.

- Çox razıyam, elə indi buyurun. Mən hazıram.

- Yox, elə məsələdir ki, sonra danışsaq yaxşıdır.

Ayaz məsələni - Əlipaşanın ürəyindəkini anlamışdı. O gecə qorxudan özünü xəstəliyə vurub, bacılığı Gülzarın yanında qaldı. Gecə səhərə qədər gizli-gizli ağladı.

Səhər suya gedəndə Əkbəri orada duran gördü. Əkbər Əlipaşanın mərhəməti haqqında xəbər soruşmağa gəlmişdi. Ayazın üzünə baxan kimi ağladığını hiss etdi. Köyrəldi, o da ağlamaq istədi. Özünü toxtadıb soruşdu:

- Sənə nə olub? Niyə ağlayıbsan? De görüm niyə?

Əkbərin sualı Ayazı daha da köyrəltdi. Güyümü yerə qoyub, dizlərini qucaqladı, hönkür-hönkür ağlamaq istədi. Utandı, ayağa qalxdı, kəhrizbaşı ilə yuxarıya, bağçaya sarı getdi, Əkbər də onun dalınca düşdü.

Dalda bir yerdə dayandılar. Ayaz Əkbərə nə dedisə, Əkbər əvvəl kağız kimi ağardı, sonra pul kimi qızardı, bədəni alovlandı...

Həmin gecə Əkbərlə Ayaz əl-ələ verib, şəhərdən qaçdı.

Sərin bir payız axşamında Əkbər səfərdən qayıdıb, Ayazın qucağında uşaq gördü. Astanada dayandı, sevincindən nə edəcəyini bilmədi. Gəlin ananı - hələ dodağından ilk öpüşün istisi soyumamış, qəlbindən ilk təbəssümün narıncı alovu sönməmiş, ilk baxışın həsrəti getməmiş Ayazı təbrik etsinmi? Sabahkı qara günlərin,



ağzını əcdaha kimi açmış ehtiyacın dəhşətlərini düşünüb ağlasınmı?

Sevinsin!

Heyvan da balasına baxıb fərəhlənir. Lakin insan müstəsna ülvi bir məxluqdur. Uşaq iki qəlbin bir məhəbbəti, iki keçmişin bir gələcəyidir. Süfrəsi uşaq şıltağı, uşaq həvəsi, övlad səsi ilə şənlənməyən ailənin kədəri dağlardan ağır, zəhərlərdən acıdır. Onu tənhalığın qara və iti dişləri meyit kimi gəmirər. Ölüm də onları quldur kimi çalıb aparar.

Bunları düşünərək, oğlunu bağrına basan ata, övladının qırmızı, balaca, yumşaq yanaqlarını öpüb, başdan-ayağa qədər süzdü. Nədənsə o, atalarsayağı, uşağın qaş-gözünə, sifətinə diqqət edib, özündən bir əlamət görmədi. Gözü uşağın əskiyə bükülmüş, soyuqdan göyərmiş bədəninə sataşdı. Ayağına baxdı. Boğazından tutan ehtiyac və yoxsulluğun əzabını bir daha dərindən duydu. Qarşısına böyük hədiyyə ilə çıxan Ayaza boş əllərini göstərməyə xəcalət çəkdi.

Əkbəri kədər basdı: budur, ay günəşi, gecə gündüzü, soyuq istini qovub aparır, uşaq ayaq alıb küçəyə çıxır, dil açıb, atasından paltar, ayaqqabı, yemək, əyləncə şeyləri istəyir. Ata isə təqsirini boynuna almış cinayətkar kimi susur, susur...

Ayaz anlamışdı. Ərinə baxıb, o da xəcalətindən boğulur, ona daha bir ac qarın gətirdiyi üçün özünü böyük günahkar sayırdı. Balasına, sonra da Əkbərə baxıb ağladı. Əkbər də Ayaza baxıb ağladı. Ürkdümü, bir şeymi hiss etdi, nəsə, körpə də qışqırdı. Uşaq uzaq keçmişlərdən, xəyali gələcəklərdən qopan sızıltı ilə xəcalətliliyinimi bildirirdi? Atasına təsəllimi verirdi? Dərdlərinə şərikmi olurdu? Yoxsa yalana, hiyləyə, bədbəxtliyə açılmayan dili ilə gələcəkdən, hələ ata-anasına məlum olmayan böyük və ağ günlərdən müjdəmi verirdi?

Gün o gün oldu ki, Əkbər kərpic zavodunda həmişəlik işə

götürüldü. Direktorun əmrini alanda sevincindən idarədə dayana bilmədi. Qapıya çıxıb yaxasını açdı. Bahar günortasının ılıq və duru havasını bulaq suyu kimi içdi, böyük bir rahatlıq hiss etdi.

Doğrudur, bu son illərin hadisələri Əkbər deyən kimi keçib gedirdi. Bu bahar çox adamları, qış çiçəyini günəşə çıxaran kimi, işıqlı həyata çıxarıb, can verdi, sevindirdi. Lakin o, heç vaxt bugünkü qədər sevinib, eşqə gəlməmişdi, özündə belə cəldlik, cəsarət və möhkəmlik hiss etməmişdi.

İndi o, bir istehsalat ocağının həmişəlik işçisi, işçi ailəsinin bərabər bir üzvü olmuşdu. Onu işsizlik, ailə xəcaləti, soyuq qış gecələri, istirahətsiz yay günləri gözləmirdi. O daha qapı-qapı düşüb, «ayıbalası» (kərpic) kəsməyəcəkdi, əlipaşaların tikilisində qarın çörəyinə tər tökməyəcəkdi, qılçası göynəməyəcəkdi, adaxlısı ağır söz eşitməyəcəkdi.

İnqilab onun canını, qanını, insanlıq hüququnu, hətta namusunu belə oğruların əlindən almışdı, canavardan saldıran kimi saldırmışdı. Aldığı maaşla ailəsini təmin edəcək, orta güzəran ilə üç uşağını böyüdüb, bəsləyə biləcəkdi. İllərdən bəri çeynənən həyatını isidəcək, şənləndirəcəkdi. Uşaqlar böyüyüb, hərəsi bir işin qulpundan yapışandan sonra Əkbər tamam rahat nəfəs alacaqdı, ehtiyacın daşını atacaqdı.

Bir gün işdən çıxanda direktor onu çağırdı:

- Əyləş! İşlərin necə gedir?

Əkbərə elə gəldi ki, direktor, görəsən, incimişdi, işdənmi narazıdır, ya vəzifə tapşıracaq, nədir...

- Niyə, pis deyil, - deyə o, cavab verdi.

Onun yarımçıq cavabı direktora xoş gəlmədi:

- Burunaltı danışma! De gerüm nəyin çatmır, niyə bikefsən? Əkbər çaşdı, fikirləşməmiş, hazırlaşmamış cavab verməkdə çətinlik çəksə də, kirimədi:



- Bikef deyiləm.

- Bəs niyə sozalırsan?

- Durub sənə «dasnıçors» oynamayacağam ki? Yorğun adamam, indicə çıxıram işdən.

- Get naharını ye, dincəl, axşam yanıma gəl!

Nigaranlıq ilə keçən bir neçə saatda Əkbərin ürəyinə nələr gəlmədi? Direktorun nə üçün çağırdığını bilə bilmədi. İntizarı get-gedə artırdı.

- Bilirsən nə var?

- Nə var?

- Neçə uşağın var?

- Var bir üç-dördü. Necə bəyəm?

- Burada bağça düzəldirik. Fəhlə uşaqlarını yığıb tərbiyə verəcəyik. Hər xərci bizdəndir. Müəllimi, yeri, çarpayısı, yeməyi, içməyi...

- Mən verə bilməyəcəyəm.

- Niyə? Niyə gərək verə bilməyəsən? Səbəb nədir?

Direktor Əkbərin etirazına təəccüb edib, təkid ilə soruşdu, Əkbər də soyuqqanlılıqla cavab verdi:

- Çünki maaşım çatmır.

- Səndən pul istəyən kimdir?

- Ayın başında çıxmayacaqsınızmı?

- Kim?

- Bəs necə?

- Boş danışma, ağzımda söz deyirəm, xərci hökumətdəndir.

- Elə şey olmaz! Bəs xərci sizdəndirsə, bizi niyə çağırırsınız?

- Çağırırıq, bütün ataları çağırırıq ki, övladlarını versinlər.

- İndi gedim gətirim?

- İndi yox, bağça düzələndən sonra.

- Üçünü də götürərsinizmi?

- Ayaq tutanın hamısını! Siz gərək arvadları da başa salasınız.

- Ona söz vermirəm.

- Burada bir çətin iş yoxdur ki.

- Yox, yoldaş direktor, kimin arvadını deyirsən, gətir başa salım, ancaq mənim arvadımı başa salmaq çətindir.

Əkbər bağçanın pulsuz olacağına heç inana bilmirdi: «Uşağın hökumətə nə xeyri var? Uşağı nə üçün bəsləsinlər? Yox, hökumət-gəlir-çıxarını yaxşı bilir. Sabah, birisi gün görəcəksən budur, maaşlardan tutdular...»

Hər ay o, maaş alanda, bağçada tərbiyə alan uşaqlarını yadına salır, onlara pul çıxacaqlarını güman edirdi. Hesabdar isə az qala yüz, yüz əlli manat da artıq verirdi. «Bu, fəhlənin paltar puludur. Bu dəfə mükafatın da var», - deyirdi.

Aylar, illər keçdi, Əkbərdən bağça haqqı tutmadılar.

Bir gün zavodda iclas vardı. Özgə yerdən də fəhlələr gəlmişdilər. Direktor haqq-hesab vermək üçün pilləkənlə kürsünün üstünə çıxdı. Dedi... dedi... Zavodda görülən işləri saydı. Bağça məsələsinə gəlib çatanda Əkbərin ürəyi tıp-tıp elədi: «Deyəcək: Əkbər filan qədər borcludur».

Direktor isə elə demədi, belə söylədi:

- Fəhlə uşaqları üçün qırx nəfərlik bir bağça düzəltmişik. Əvvəllər fəhlələrin bəzisi qorxub, uşağını vermirdi. Elə bilirdilər onlardan pul çıxacağıq. Halbuki idarə bağça üçün ildə dörd min beş yüz manat pul buraxır.

- Azdır, çox azdır! - deyə mərkəzdən gələn bir çeşməkli oğlan dözə bilməyib, yerindən səsləndi.

O, məruzədən sonra çıxıb direktoru bərk tənqid elədi:

- Mən baxmışam, o bağça ilə az məşğul olursunuz. Yoldaşlar, hökumətimiz qənaət deyir, ancaq qənaətin yeri var. Fəhlə uşağının tərbiyəsinə əsirgəmək qənaət deyil, xəyanətdir. Bəli, xəyanətdir! Yoldaş direktor anlamalıdır ki, zavod fəhlələrindir. Mən təklif



edirəm: zavodun hesabına uşaqlara xüsusi bağça binası tikilsin. Həyəti, bağı, oyun otağı, hamamı, mətbəxi də içində. Orada hər cür oyun şeyləri olsun. Şəhərdən iki-üç nəfər yaxşı tərbiyəçi çağırılsın. Uşaqlar bizim gələcəyimizdir, ümi-dimizdir.

Bunları eşidəndə Əkbəri heyrət götürdü. Ömründə ikinci dəfə idi ki, o bu qədər təəccüb edirdi. Təəccüb etsə də, tamamilə inandı. Sovet hökumətinin, böyüklərə olan kimi, kiçiklərə də ata qaygısı bəslədiyini yəqin etdi. İxtiyarsız təbəssüm edən dodaqları tərpəndi: «Sovet hökuməti dedimi, eləyəcək. Buna nə söz!»

Son günlər göydə böyük bir hadisə oldu. Səhər camaat yerindən qalxıb, havanı kükürd rəngli gördü. Günəşin üzünə ləkə gəlirdi. Ləkə get-gedə böyüyür, Günəşin üzünü örtürdü. Xalq əl-ayağa düşdü. Günəş qəlblərdən qopan həyəcanı, yaşamaq arzusunu duymuş kimi, qüdrətli əlini üzünə çəkdi, ləkələri təmizlədi. Dünyada ən böyük və ən müqəddəs olan vəzifəsinə davam etdi.

Həmin gün yerdə də böyük və heyrətli bir hadisə oldu. Axşam Əkbər bir xəbər eşitdi:

- Uşaqlı ailələrə iki mindən tutmuş beş minə qədər pul bağışla-yırlar. Qərar çıxıb!

Bunu Əkbərə ilk dəfə deyən qonşusu montyor Məhər olmuşdu.

Əkbərin səkkiz uşağı vardı. İkisi böyük idi, uzaq şəhərlərdə oxuyurdu. Böyük qızı tramvaysürən idi. On dörd yaşa qədər olan kiçiklər məktəblərin müxtəlif siniflərində oxuyurdular.

Əkbər işdən qayıdanda uşaqları küçədə, pilləkən üstündə dayanıb, onu gözləyən görərdi. Onu görən kimi qabağına yüyürüşərdilər. O, uşaqların hərəsinə bir şey verməklə sevindirər, özü isə hamıdan artıq şadlanardı. Onlar onun ətəyindən tutub, qollarından sallandıqca, o xoşhallanar, yorğunluğu bədənindən çıxardı.

Həmişəki kimi, bu gün də uşaqları başına yığıb, pilləkənlərdən düşürdü. Montyor Məhər ona rast gəlib, yuxarıdakı xəbəri deyəndə,

Əkbər zarafat sayıb ötdü.

Nahardan sonra qapıya çıxanda Məhər Əkbəri təbrik etdi:

- Demək, iki min manatı alırsan!

- Nə iki min?

- Sənə demədim, hökumətin qərarı var. Yeddi uşağı olan külfətə mükafat verirlər.

Əkbər başı ilə rədd işarəsi etdi:

- Sözdür!

- Qəzetdə var, nə deyirsən? Bizə iş vaxtı dedilər! Qərar var.

- Qərar?

- Bəli, qərar! Qərar var! Qəzet başdan-ayağa bundan yazır. Abort eləyənə də cərimə gəlir.

Əkbər oğlunu səslədi, bir abbası verdi:

- Qaç, - dedi, - Tahir, ordan bir «Yeni yol» al gətir.

Əkbər aldığı qəzetin hər maddəsini oxuduqca dayanıb fikirləşirdi. Çoxuşaqlı külfətlərin məsələsinə çatanda əlini əlinə çalıb, ayağa qalxdı:

- Pah, pah, gözünə dönüm, a hökumət!

Ömründə unuda bilməyəcəyi üçüncü heyrətini soyutmaq üçün qəzetin o yerini bir də oxudu, sonra ayağa qalxdı. Evinə girdi, sevincindən uşaq kimi Ayazı qucaqlayıb öpdü.

- İki min manat! Ay arvad, birdən iki min tapsan, nəyə verərsən?

- Lağ-lağ danışma! Qoy görüm, çaynik daşdı.

- Nəyə verərsən, arvad?..

- Sən iki mini gətir, xərcləməyə yer tapılar! Özümə bir qol saatı alaram, uşaqların da hərəsinə bir dəst paltar. Təki pul olsun.

- Pul var. Pul olacaq. Hökumət qərar çıxarıb, ildə iki min pul verəcək.

- Mükafat var sənə, hə?

- Mənə yox, bu dəfə sənə!



- Mənim nəyimə mükafat olacaq? Əlimdən nə gəlir?

- Ay-hay! Əlindən nə gəlir? Sənin əlindən çox iş gəlir, heyif ki, qədrini bilmirsən!

- Nə iş?

- Doğmaq işi!

Ayaz zarafat sayıb, yaxasını qurtarmaq istədi. Əkbər buraxmadı:

- Sən öl, düzünü deyirəm. Yeddi uşağın varsa, iki min, on üç uşağın varsa, beş min pul bağışlayırlar.

Qadının üzündəki inanmazlıq bir dəqiqədə həvəs və sevincə çevrildi.

- Əkbər, sən mənim canım, doğrudan, elə bir şey var? Gerçək sözündür?

- Ağzımda söz deyirəm, hökumətin qərarı var. Özüm oxumuşam. Bizim hökumətin sözü bir olar: deyib-eləyəcək.

Ayaz inanmışdı. Sevincindən uşaqlarını qucaqlayır, alınlarından öpürdü.

Əkbər evdən çıxdı, fikrində tutmuşdu: dosta, tanışa rast gəlsə, dayandıracaq, bu şad xəbəri çatdırmaq üçün qəzetlərdən söz açacaq, söhbəti gətirib, mükafat məsələsinə çıxaracaqdı.

Şəhər bağına girəndə şənlik səsi onu aldı. Yüzlərlə uşaq meydançada qaçışıb-oynaşır, yıxılıb-qalxır, gülüb-qışqırırdı. Bu kiçik boylu, zərif üzlü, müxtəlif paltarlı balalar baharın laləli, bənövşəli çəmənliyini andırırdı. Böyüklər isə kənarda əyləşib, qəzet oxuyurdu. Onlar qəzeti əldən-ələ götürür, danışırdılar.

Əkbər göylərin böyük hadisəsini yadına saldı. O səhər hamı göyə baxıb, qaralan Günəşə heyifsilənirdi. İndi hamı yerlərin böyük hadisəsini qəzetdə oxuyur, fərəhlənirdi.

Əkbər bu ümumi sevinc içində hər uşaq səsində mənalı bir nəğmə duyurdu. Ürəyində isə yeni-yeni arzular doğurdu.

1936

# DOSTUMUN QONAQLIĞI

## Təsadüf

Kənddə, tanışlarımdan birinin evində Mirzə Qulamla tanış oldum. O, şəhərdən gəlmişdi. Deməyinə görə, istəkli dostunun ailəsilə bir yaylaq yerinə getmək istəyirdi. Onu vəkil eləmişdi ki: "Get, yer seç, ev tut, mənə xəbər ver!"

Nədənsə Mirzə Qulam mənə çox hörmət eləyirdi. İlk tanışlığımız olsa da, uzun illərin dostu, yaxın qohum kimi danışırdı. Mən onun hər sözünə "bəli" deyirdim, lakin söhbətimizi uzatmaq istəmirdim. O, yəqin bunu hiss etmişdi. Səsini dəyişdi, mənə yaxınlaşıb, yavaşcadan dedi:

- Qardaşoğluma başağrısı vermirəm ki?

- Yox, - dedim, - xoşdur, söhbətinizə qulaq asıram.

Mənim bu sözüm ona cəsarət verdi; özünə xam məclis tapmış hoqqabazlar kimi sevinə-sevinə danışdı, böyük bir müqəddimə ilə başladı:

- Sizləri görəndə, sizin kimi irəli gedən cavanları görəndə elə bilirəm öz oğlumu, öz kiçik qardaşımı görürəm. Qardaşoğlunun canına and olsun, sənin canına yalandan and içmərəm, məni qəbrə öz əlinlə qoyasan, əgər yalan deyirəmsə, sənin kimi müəllimləri görəndə ürəyim dağlar boyda böyüyür. Çünki görürəm siz qultura barəsində, maarif barəsində, elm-ürfan barəsində, doğrudan da, mərhaba çalışırsınız. Halal olsun sovet hökumətinin sizə verdiyi çörək! Halal olsun sizə çəkilən zəhmət!

Mirzə Qulam danışırdı. Ev yiyəsi bizi bostana, yemiş-qarpız yeməyə çağırdı.

Mən ev yiyəsinin əkdiyi, becərib yetirdiyi dirriyə tamaşa edirdim. Gömgöy kəvər, nanə, reyhan ləklərini, uzun yemiş tağlarını, tağlardakı yemişləri gördükcə baxmağım gəlirdi. Mənim fikrim zəhmətsevən, səliqəsevən təsərrüfatçı kəndlilərdə idi. Mirzə Qulam isə danışırdı. O, elmin xeyirli şey olduğundan, oxumağın lüzumundan, özünün qocalmağına baxmayaraq dərsə artan həvəsindən, çoxdan mənim kimi bir dost axtarmağından deyirdi. Ev yiyəsi, görünür, onun xasiyyətini bilirdi, səsləndi:

- Mirzə, qonağı yorma! Sənin çənənə hər adam dözə bilməz axı!

Mirzə ev yiyəsinin sözünü zarafat sayıb güldü.

- Ələkbər, - dedi, - sənin bu qonağın lap mənim ürəyimə yatan oğlanmış. A sağ olmuş, bizi nə üçün indiyəcən tanış eləməmisən? Söhbətimiz elə tutur ki, gəl gör!

Ev yiyəsinin başqa qonaqları da vardı. Hamı evin qabağında qoyulan və üstünə xalça salınan taxtda əyləşdi, yemişi kəsib dilimlədilər.

Qonaqlar yemiş yeyirdi. Mirzə Qulam danışırdı. Ancaq indi onun sözünə qulaq asan azdı. Ona görə də danışanda mənim üzümə baxırdı. Mən başımı aşağı salırdım.

Mən tələsirdim. Qalxıb gedəndə, Mirzə Qulam ev yiyəsi ilə bərabər bir qırx-əlli addım məni poçt yoluna qədər ötürdü. Addımbaşı elmdən, mərifətdən, səxavətdən, sədaqətdən dəm vururdu. Əlimi sıxıb ayrılanda, söhbətinin yarımçıq qaldığına heyifsiləndi, çox xahiş etdi ki, şəhərə gedəndə mütləq onu axtarıb tapım. Adresini də dedi. Xahiş elədi ki, dəftərimin qulağına yazım.

- Yadımda qalar, - dedim, - arxayın olun.

Ayrılandan sonra daha mən Mirzə Qulamı görmürdüm və tamamilə unutmuşdum. 1930-cu ilin yayında təzəcə tətilə çıxmışdım. Yay maaşını da almışdım. Cibim dolu, kefim saz idi. Gürcüstan kurortlarından birinə istirahətə getməyə hazırlaşırdım. Şəhərə gəlmişdim. Balaca, səliqəli, sulu, ağaclı, bağlı-bağçalı rayon şəhəri yay vaxtı yaxşı olur. Dost-aşna hər tərəfdən məzuniyyət alıb

gəlir. Yar-yoldaşla görüşüb əhvallaşırsan, şəhər bağının sərin, musiqili, şənlik axşamlarında gəzirsən...

Acmışdım, yeməkxanaya nahar etməyə gedirdim. Fikrimdə tutmuşdum ki, gedib naharımı yeyərəm, qayıdıb mehmanxanada bir saat istirahət edərəm, axşam geyinib-kecinib, yoldaşlarımla vədələşdiyim yerə - kluba gedərəm.

Bir ortaboylu, qarapaltar adamın qarşımda durduğunu hiss etdim: o, dümdüz dayanmışdı, bığlarının altından yüngülcə qımışırdı, əlini də mənə tərəf uzatmışdı.

- Xoş gördük, ay etibarsız qırışmal! - deyə dilləndi.

Mən ilk baxışımda onu tanımadım. O, əlimi sıxdı, bir əli ilə də çiynimdən tutub silkələdi və qayımdan dedi:

- Hələ elə olar... Daha Mirzə Qulam dayını tanımazsan. Böyüklüyün xasiyyəti belədir, səndə günah yoxdur.

Adını çəkəndə, üç il bundan əvvəl kənddəki görüşümüz, Mirzə Qulamla söhbətimiz yadıma düşdü. İstər-istəməz əhvalını soruşdum:

- Necəsiniz, kefiniz, damağınız?

Mirzə Qulam cavab verməк əvəzinə soruşdu:

- Bəs harda düşmüşsən?

- Bu yaxında, mehmanxanada.

Bunu deyəndə Mirzə geri çəkildi, mənə bir tünd baxdı:

- Necə yəni mehmanxanada?

- Necəsiz-zadsız. Yerim də rahatdır.

Mirzə bərkdən dedi:

- Bəyəm mən ölmüşəm? Bəyəm mənim evim-eşiyim yoxdur ki, gəlib ayrı yerdə qalasan?

- Təfavütü nədir, - dedim, - ay Mirzə, bir-iki gün qalacağam. Nə eybi var?

- Çox eybi var. Adam olana, mən öz payımı deyirəm, çox eyibdir.



Təvəqqe eləyirəm, bunu mənə dedin, daha bir kəsə deməyəsən. Mən də özümə görə bir adamam axı! Mənim də dostum var, düşmənim var. Sabah şəhərdə biri desə ki: "Mirzə Qulamın dostu filankəs gəlib qəstində gecələyir", onda daha mən gərək el içinə çıxmayım. Eyibdir. Boynuna al, qardaşoğlu, çox eyib iş görmüşsən. Gedək, gedək evə!

Mirzə Qulam qolumdan tutub məni evə sarı çəkəndə, dayandım. Fikirləşdim ki, qonaqpərəstlik buralarda çox olsa da, hər evə getmək yaxşı deyil. Bəlkə kasıb, adamdır, niyə xərcə salım. Nə lazımdır. Bəhanə gətirib, ayrılmaq istədim. Mirzə Qulam daha da möhkəm yapışdı:

- Bu da kənd deyil ki, söhbətimizi yarımçıq qoyasan. Bu can ölsün ki, səni əldən buraxdı yoxdur!

O, qolumdan çəkdi, gedəsi oldum. Özüm də bərk acmışdım.

- Gəl, - dedim, - Mirzə, aşxanada nahar eləyək, söhbətə evə gedək.

Mirzə yenə üzümə tərs-tərs baxdı. Bir müddət dinmədi. Sonra başını aşağı salıb dedi:

- Elə zarafatları bir yana qoy ki, aramız dəyər. Xarabamızda sənin qarnını doydurmaq üçün bir tikə çörək tapılar.

Mən onun acıqlandığını görüb, bir söz demədim. Yanına düşüb getdim. "Qoy, - dedim, - qəlbi sınmasın".

Mirzə Qulam məni bir qəssab dükanının qabağına apardı. Bığı xınalı, dəvərəgöz bir qəssab kötüyün üstündə ət doğrayırdı. Mirzə Qulam məni ona göstərib dedi:

- Məmmədhəsən, bizim bu oğlana bir üç-dörd kilo... - Bunu deyib Mirzə Qulam mənə tərəf döndü. - Nə deyirsən, qardaşoğlu, dörd kilo azlıq eləməz ki?

- Yox, - dedim, - bəs elər.

Mirzə yenə üzünü qəssaba tutdu və barmağı ilə mənə işarə elədi:

- Bizim bu oğlana bir dörd kilo kabablıq erkək əti ver. Məmmədhəsən, xatır üçün əməlli-başlı elə, yağlı tikəsi çox olsun, çünki bizim bu qardaşoğlu şəhərimizdə qonaqdır...

Qəssab kənardan asılan ətləri bir-bir göstərib məndən soruşdu:

- Bu necədir, burasını bəyənirsinizsə, kəsim?..

Mən razılıq verdim. Qəssab əti çəkib ikiəlli tərəzidən götürdü, mənə tərəf gəldi. Mirzə məndən soruşdu:

- Qabdan-zaddan nə təhər eliyək?

Mən əlimdə bükülmüş qəzeti verdim. O, əti qəzetə bükməkdə idi, qəssab mənim üzümə baxırdı. Baxdı, baxdı və dedi:

- On bir, on bir, elər iyirmi iki, o da iyirmi iki, cəmisi qırx dörd manat. Düz qırx dörd manat!

Mən tez əlimi cibimə atıb, ətin pulunu verdim. Mirzə Qulam əti götürdü. Çıxdıq. Lavaşçı dükanına çatanda Mirzə Qulam gülümsəyərək dedi:

- Kababla bürüştə lavaşın ayrı ləzzəti olur!

- Bəli, - dedim, - ləzzətli olar!

Mən cavabımı qurtarmamış Mirzə Qulam lavaşçıya dedi:

- Bizim bu oğlana bir beş kilo ağ lavaş ver. Bürüştə olsun...

Mirzə məndən soruşdu:

- Beş kilo azlıq eləməz ki?

- Bəsimizdir, - dedim, - neçə adamıq ki!

Sözarası "neçə adamıq", - deyə soruşmaqda mənim məqsədim vardı: bilmək istəyirdim, görüm Mirzənin daha neçə nəfər qonağı var? Mirzə buna cavab vermədi. Lavaşı çəkdirib qoltuğuma vurdu. Mən pulunu verdim, qayıtdıq.

Bazarın başından ötəndə Mirzə içki dükanına girdi. Stolun dalında bir cavan oğlan dururdu. Mirzə onunla ermənicə danışdı. Sonra məni göstərib dedi:

- Bizim bu oğlana bir beş-altı butulka araq, çaxır ver. Lap ələsin-



dan ver, özü də cür ver. Məclisi rəngarəng eləyən olsun...

Cavan oğlan göstərdikcə, Mirzə seçdi. Şüşələri də lavaşın üstündən qoltuğuma yığdı. Mən içkinin də pulunu verdim. Çıxdıq. Mirzə Qulam geriyə döndü, qolumdan çəkdi:

- Yadımızdan çıxıb, - dedi, - burada bir yaxşı qənnadı dükanı var, ətirli konfetlərdən keçmək insafdan deyil!

Mən konfet xoşlamadığımı dedim. Mirzə başa saldı ki: "Konfeti yalxı yeməzlər, ancaq uşaqlar elə yeyər. Amma məclisdə içki ilə, kefdamaqla ayrı ləzzəti var! Xanımlar konfetsiz adama kəlmə verib, kəlmə almazlar!.."

Anladım ki, Mirzənin nahar üçün, deyəsən, böyük məclisi olacaqdır. Tədarükünə mane olmaq yaxşı deyil. Konfetin də pulunu verib çıxanda, cibimə fikir verdim. Pulum azalmışdı. Axşam yeməyinə və mehmanxanaçıya bir gecəlik mənzil pulu verməyə ancaq çatardı. Bir də fikirləşdim ki, Mirzə Qulam qanacaqlı adama oxşayır, nə bilirsən: bəlkə mən xərclədiyim pulların hesabını saxlayır. Bəlkə evə çatan kimi ovcuma sayacaq! Bəlkə, kişi hazırlıqsız bazara çıxıbmış, məni gördü, qonaqlıq fikrinə düşdü. Puldan ötrü bir də evə getməmək üçün mənim xərcləməyimə razı oldu, evdə qaytaracaqdır. Bu fikirlərlə məşğul idim. Mirzənin səsi gəldi:

- Fayton, fayton, bəri sür!

Uzunətək, gödərək faytonçu lap yanımıza, səkinin qırağına sürdü. Mirzə məni göstərib dedi:

- Bizim bu oğlanın xatırına elə sürərsən ki, tozun da görünməsin!

Biz faytona oturduq. Mirzə çaparaq gedən faytonun sürətindən nəşələnərək deyirdi:

- Andır evimiz bir balaca şəhərdən qıraqdır, həmişə faytonla gedirəm. Tanış faytonçumuz var, ancaq bu gün xəstədir. Bir damaqlı oğlandır.

Evə çatanda Mirzə Qulam şeyləri qoltuğuna vurub, tez fayton-

dan düşdü, həyətə girdi. Mən faytonçuya bir beşlik verdim. Razı olmadı, "azdır", - dedi. Bir üçlük də verdim, sağ ol da demədi, sürüb getdi. Fayton gedən kimi Mirzə alçaq və nazik torpaq divarlı həyətin köhnə, işdən düşmüş qapısını açıb, içəridən çağırdı:

- Buyur, gəl!

Mən içəri girdim. Balaca su arxının yanlarında əkilmiş qızılgül, ərik, armud ağaclarının arasından keçdik. Mirzə Qulamın evinə girdik. Saat beş, ya altının yarısı olardı. Yorulmuşdum. Aclıq məni dildən salmışdı. Tez stul çəkib oturdum. Mirzə şeyləri o birisi otağa apardı; təxminən bir on dəqiqə heç bir səs-səda eşitmədim. Darıxdığımdan, acımdan yenə saata baxdım. Yoldaşlarımla axşam görüşünə vədə verdiyim vaxt keçmişdi. Yəqin onlar beş-on dəqiqə məni gözləyəcək, pərt olacaq, dalımca deyinəcək, çıxıb gedəcəkdilər. Nə isə, bu Mirzənin, mənim bu təzə dostumun naharı çox uzun çəkdi.

Mən başıaşağı, əlimdəki saatın əqrəbinə baxır, vaxtımı keçirirdim. Mirzə Qulam tələsik içəri girdi:

- Ay filankəs, - dedi, - oradan cibindən bir on beş manat da mənə ver, vacib iş var, bu saat gəlirəm.

Mən lap məəttəl qaldım. Bu pulsuz vaxtımda, Mirzənin kisəmə daş atmağına müəyyən məna verə bilmədim. Fikirləşməyə vaxt yox idi. Mirzə başımın üstünü kəsmişdi, tələsdirirdi:

- Bircə, mən ölüm, tez ol ki, vacib iş var, bu saat gəlirəm!

O bu sözləri elə qəti, elə ərklə, elə etibarla deyirdi ki, hər kəs olsa cibini boşaldıb, var-yoxunu verərdi. Mən onun dəm-dəsgah düzəltdiyini, nə təhər olmuşsa pulunun çatışmadığını zənn etdim, əsirgəyə bilmədim. Cibimdə qalan son iyirmiliyi çıxardıb verdim. Mirzə iyirmilik olduğuna daha çox heyifsiləndiyimi duyduğu üçün dedi:

- Eybi yoxdur, beş manatını qaytarar. Tez ol görüm!

Pulu əlimdən qapıb, küçə qapısına tərəf qaçdı. Mən aclıqdan,



əsəbilikdən, taqətsizlikdən otura bilmədim, qəbahət sayılsa da, yük yerindən balınc alıb, palazın üstünə atdım və uzanıb dirsəkləndim.

Mirzədən səs çıxmadı. Saat yeddiyə işləyirdi, lap içim üzülmüşdü. Bu saat kabab, qovurma, ya da bozbaş iyinin məni vuracağını, o biri otaqdan samovar cızıltısının başlanacağını, Mirzənin başqa qonaqlarının bir-bir gəlib çıxacağını, ev sahibinin məndən üzr istəyəcəyini, geniş və iştahalı bir süfrə açacağını güman edirdim. Gözüm qapıda, qulağım səsdə idi... Nədənsə, həyətdə bir ölüm sükutu hökm sürürdü. Mən təəccüb elədim: "Deyəsən, Mirzənin xörəyi başqa yerdə hazırlanır, deyəsən, heç bu həyətdə adam yoxdur, bəlkə qonaqlar başqa həyətə, başqa otağa yığılmışlar; bəlkə, Mirzənin başı bərk qarışmışdır, mən yaddan çıxmışam..."

Pəncərədən boylanıb həyətə baxanda, arxın bulanıq suyundan, divar dibində eşələnən toyuqdan, əncir ağacının altında yatan ağ pişikdən başqa bir şey görmədim. Yan otağın qapısında da kimsə yox idi. O otaqla mən olan otağın arasında ikitaylı qapı vardı. Qapıya yanaşıb, qorxa-qorxa açar yerindən baxdım. Diqqətlə baxdım, qapı ağzında çömbəlib oturan, corab toxuyan bir qadın gördüm. Daha başqa adam yox idi. "Görəsən, bu kimdir? Mirzənin arvadıdırsa, bəs nə üçün belə arxayındır? Qonşudursa, nə üçün Mirzə şeyləri o evə apardı? Qulluqçudursa, gərək bu saat əldəamanda ola, hazırlıq görə..."

Mən donub qalmışdım. Dedim, bəlkə, o mənim burada olduğumu bilmir. Qoy bir səs salım, görüm nə olur. Əvvəl yavaş, sonradan bərk öskürdüm. Qulaq asdım, görüm qadın nə deyəcək. Bir səs gəlmədi. Açar yerindən baxdım, qadın öz işində idi, ip corab toxuyurdu. Deyəsən, o qadın, ağac altında yatan pişik, sarı toyuq, evi bürüyən sükut, həyətdə hiss olunan arxayınlıq – hər şey, hər şey tox idi, yuxulayıb rahatlanırdı. Mən isə bütün əsəbiliyimlə, hirsimlə, aclığımla, qaranlıq bir sərgüzəştə düşmüş kimi, çaşıb qalmışdım. Nə

dinə bilirdim, nə otura bilirdim, nə də dura bilirdim. Belə yerdə səbrə, utancaqlığa, xatır-hörmətə lənət oxudum, eyvana çıxdım, qadından soruşdum:

- Bacı, Mirzə hara getdi?

Qadın özünü yığışdırdı, örpəyini çəkib, başını aşağı saldı, nazik səslə cavab verdi:

- Bir söz deməyib, nə bilim!

- Siz onun əyalı deyilsiniz?

- Onun başı batsın, evdəkilərə sözmü deyər? Kim bilsin, harda indi başı qumara, çaxıra qızışıb!..

- Bəs gec gələr?

- Nə deyim, ay qardaş, başı qızışsa, getdi gecə yarısına. Nə işiniz var idi?

Mən qadının bu qəribə sualına cavab tapa bilmədim.

- Heç, - dedim, - ürəyim onu çox istəyir.

Qadın dinmədi. Mən kor-peşman qalxıb evdən çıxdım, uzaq, tozlu, qaranlıq yolları acqarına yüyürə-yüyürə, güc-bəla ilə özümü mehmanxanaya saldım.

Odur-budur Mirzə Qulam gözümə görünmür. Görünmür ki, soruşam:

- Dostum, iyirmilikdən qalan beş manatı neylədin?

1936



## SÖYÜD KÖLGƏSİ

Dünyada hərənin bir həvəsi, bir adəti olar. Bostançı Salman əminin də adəti belə idi: ürəyi yandığı adama əlindən gələni əsirgəməzdi.

Bir gün bostanın qırağında, yol ağzında dayanıb nəyi isə düşünürdü. Günorta yerinə qalxmış günəş düz onun açıq başına döyür, tunc kimi qırmızı alnı işım-işım işıldayırdı. O, nədənsə, birdən-birə əli ilə gözünü günəşdən qorudu, xəyalına nə gəldisə dönüb yerə baxdı, bir şey itirmiş kimi, yolun oyan-buyanına gedib-gəldi, çarıqlı ayağı ilə bərk torpağı eşələdi də.

Onun səhərisi, hələ gün qalxmamış Salman əmi həmin yerdə bir çuxur qazıdı. Çox çəkmədi, gətirdiyi iri bir söyüd qələmini basdırdı, kənarlarına da bir az tikan düzdü ki, mal-qara toxunmasın.

Salman əmi günorta ləklərin arasında işləyəndə, kürəyinə dəyən isti yay günəşindən təngişəndə, dəyəsinə qayıdıb dincələrdi. Yolun ortasında belə bir kölgəliyə ehtiyac hiss edəndə, deyəsən, sakit bir səs içəridən ona tapşırırdı: «Burada bir ağac ək!»

Daşlıca azı kənddən beş verst kənarda, bağ-bağat yollarının ayrıcında bir yer idi. Ətraf əkin yeri idi. Ancaq, nədənsə, bir kölgəlik yox idi. Salman əminin bostan yerinə yaxın Saz bulağı deyilən balaca bir bulaq da var idi. Yolçular yay günü bu bulaqdan içməmiş, əl-üzünü yumamış ötməzdilər. Di gəl ki, günün istisindən yayınmağa, bir hovur oturub nəfəs dərməyə daş kölgəsi də yox idi.

Salman əmi buna görə yol ağzında bir söyüd ağacı əkdi, beş il ondan yaxşıca muğayat olub böyütdü.

Cavan və tənha ağac qol-budaq atdığı kimi, çoxdan kök buraxıb, rişəsini suya yetirmişdi. Bulaq suyundan içir, səhər günəşindən işıq, istilik alır, ildən-ilə canlanır, böyüyür, yaşıl budaqlarını yasəmən

salxımları kimi yolçuların başına sallayır, kölgəsi ilə çölün havasını sərinlədir, gəlib-gedəni salamlayırdı. Lap kənardan ötən, bulaqdan xəbərsiz yolçular da söyüd kölgəsində sərinlənməyə gedirdilər. Salman kişi bunu görəndə ürəyi böyüyür, könlü açılır, xələf övlad böyütmüş atalar kimi xoşhal olurdu.

- Gərək, - deyirdi, - yoxlayam, görəm bu ağacın qədrini bilən varmı, gəlib-gedən nə deyir?

Bu məqsədlə kölgəlikdə adam olan zaman, saymazyana gəlib dayanmaq, deyilənləri eşitmək istəyirdi.

Bu dəfə iki atlı gəlib, söyüd altında düşdü. Salman əmi əlində bel, mərzi selləmək bəhanəsilə yol ağzına yanaşıb, atlılara qulaq verdi. Atlılar geyimlərindən müəllimə, ya həkimə oxşayırdılar. Nə isə, oxumuş adam idilər. Atları kola bağladılar. Gülüşə-gülüşə bulağa enib, su içdilər. Sonra ağır-ağır qalxıb, kölgəlikdə, göy ot üstündə dirsəkləndilər.

Salman əmi sevindi, çünki onların çox arxayın və söhbət istəyən adam olduqları bilinirdi. Atlıların biri cibindən qutu çıxarıb, papiros bükdü, o birisi, nisbətən alçaqboy oğlan çoxdan başlanmış, özü də mübahisəli bir söhbəti təzələdi:

- Səhvin var, sən adam tanıya bilmirsən.

Papirosçəkən də soyuqqanlı cavab verdi:

- Mən bir baxışda bilirəm bu nə yuvanın quşudur. Şirin dilə aldanmıram.

Atlılar kimin barəsindəsə deyişirdilər. O dedi, bu dandı, bu dedi, o rədd elədi. Onların söhbətindən bir mətləb çıxmadığını görən bostançı məyus və peşman öz dəyəsinə qayıtdı.

İkinci gün Salman əmi kölgəlikdə uzanan bir şəhərlini dinləyirdi. Şəhərli, görünür ki, piyadalıq görmədiyindən, yol yorğunu olduğundan səssiz, hərəkətsiz uzanmışdı. Bir xeyli dayanandan sonra Salman əmi çıxıb getmək istəyirdi ki, şəhərli dilləndi:



- Necə sözdü, ay dayı?

Salman kişi bu üzə döndü:

- Nə söz, a bacıoğlu?

Şəhərli qalxıb oturdu:

- Bu ağacı əkəni deyirəm ey, deyirəm tünbətün oğlu, zəhmət çəkib əkirsən, meyvə ağacı əksənə, bir tut ağacı, ya armud ağacı əksəydin əlin topal olmazdı ki...

Şəhərlinin sözü Salman əmini bərk tutdu. Kişi heç bir cavab verməyib, başını aşağı saldı, qayıdıb dəyəsinə gəldi.

Üçüncü gün kölgəlikdə bir kəl arabası əyləndi. Arabaçı əlində bıçaq, söyüd ağacına dırmandı.

Salman əmi yüyürüb, yaxın gəldi. Arabaçının samı qayırmaq üçün ağac axtardığını bilib, sakit oldu.

- Ay eloğlu, - dedi, - bəlkə bu ağac burada əkilməyəydi, samını haradan alacaqdın?

Salman kişi bu işarə ilə yaxşı söz eşitmək istəyirdi. Arabaçı başıaşağı budağın qabığını yontalaya-yontalaya etinasız dedi:

- Zalım oğlu bunun yerində qarağacdan, çinardan bir möhkəm şey əkə bilməzdimi? Söyüdün samıya nə davamı olacaq. Əlacsızlıqdan yonuram. Bilirəm ki, hədərdi...

Salman əmi ona da cavab vermədi. Dördüncü gün havanın lap bürkü vaxtında ki, nəfəs almaq olmurdu, bir dəstə biçinçi Saz bulağına töküldü. Onlar yaxın tarlaların birində işləyirdilər. Söyüd kölgəsində nahar eləməyə gəlmişdilər. Yetirən kimi xurcunu açıb, süfrə sərdilər, torbadan süzmə çıxartdılar, bulaqdan su götürüb, ayran elədilər, çörək, soğan, xiyar doğradılar. Ağac qaşıqları əllərinə alıb, iştaha ilə yedilər.

Salman əmi istədi onları bostan tərəvəzinə qonaq eləsin. Sonra fikirləşdi ki, kənarda dayanıb, dinləmək lazımdır: görək bunlar xeyir işi görürlər, ya yox?



Biçinçilər süfrəni yığdılar, əllərini başları altına çataqlayıb, söyüd kölgəsində uzandılar.

- Rəhmət içində olasan, ay ağac əkən kişi!

Salman əmi diqqət yetirəndə, lap kənarda uzanan qarasaçlı oğlanın danışığını seçdi. Bir başqası onun sözünə qüvvət verdi:

- Bu düzün ortasında söyüd kölgəsi dünyalara dəyər. Var olsun bunu əkən əllər!

Salman əmi özünü saxlaya bilmədi. Mərzin dibindən qalxıb, kölgəliyə tərəf yeridi və dilləndi:

- Var olsun qədirbilən igidlər!

Biçinçilər ağac əkən kişini tanıdılar. Qarasaçlı oğlan dikəlib oturdu:

- Əmi, bu saat sənə rəhmət oxudum, bağışla məni!

- Nə olar, oğul, rəhmət diriyə də lazımdır. Siz ki, mənim əməyimi bilir, haqq-sayımı deyirsiniz, bundan yaxşı rəhmət olmaz!

Salman əmi bir əlini toqqasına keçirtdi, bir əlinin şəhadət barmağı ilə söyüd kölgəsini göstərib, ürək sözünü dedi:

- Burada çoxları oturub, çoxları gəlib-gedib, çoxları da ağac əkənin ata-babasını söyüb gedib. Bu qulağımla eşitmişəm, dinləmişəm, çünki onlar öz mənfəətlərini güdürdülər. Dünyada, bacıoğlu, hər sifətdə insan var. Mən bilirdim ki, bu kölgənin qədrini bilənlər, mənə «sağ ol!» deyənlər olacaq! Dünya xali deyil. İndi, budur, sizin rahatlandığınızı görəndə, söhbətinizi eşidəndə bütün ağrılar canımdan çıxır. Özümü anadangəlmə bilirəm, dünyada borcumu ödəmiş oluram...

Biçinçilərdən biri Salman əminin sözünü kəsdi:

- Zər qədrini zərgər bilər, əmi, biz özümüz də zəhmət adamıyıq.

- Oğul, mənim zənnimcə, dünyada xeyir iş görməyən adam bir heç məqamındadır. Niyə ki, it də başını dolandırar. Biz insanların gərək dünyada izi qalsın, yaxşı işi, əl yerisi qalsın.



Salman əmi üzünü aşağıya çevirdi, qucaqlamaq istər kimi, qollarını açdı:

- Budur ey, üzüaşağı, görürsünüz, hamısı bağdı, bostandı. Atalar, babalar əkiblər, tər töküb becəriblər, xeyrini biz görürük. Biz də gərək əkək, yetirək ki, xeyrini balalar görsün. Yoxsa hamı ancaq yemək qeydinə qalsa, onca ildə dünya xaraba qalar.

Biçinçilər bir ağızdan Salman əminin sözünü təsdiq elədilər. Onlar qalxıb gedəndə söyüd ağacı cavan, yaşıl, təmiz yarpaqlı budaqlarını dalğa kimi tərpədir, ipək kimi zərif, xışıltılı səsi ilə Salman əminin fikrinə sanki: «Bəli, bəli», - deyirdi.

1937

# BADAMIN LƏZZƏTİ

İmran İçəri şəhərin dar, qaranlıq, əyri-üyrü küçələrindən keçdi, daş pilləkənlərdən qalxıb, yeddi nömrəli evin alçaq qapısından həyətə girdi. Həyət kibrit qutusu kimi balaca, yaraşıqlı və kölgəli idi. Bir qadın şüşəbənddə paltar yuyurdu, bir pioner də su quyusunun qabağında, səkidə oturub, aeroplan modeli düzəldirdi.

İmran dəftəri çıxarıb, ev qadınlarının siyahısını tutdu, ayın 25-də açacağı dərnək haqqında, dərs haqqında danışdı. Doqquz nəfərin adını yazdı, qayıdıb getmək istəyəndə fikrinə nə gəldisə, pionerdən bir də soruşdu:

- Üst qatlarda işləməyən evdar qadın yoxdur ki?

Pioner başını qaldırmadı, əlindəki taxta parçasını şüşə ilə yontaya-yontaya dedi:

- Yoxdur, ancaq bir Badam xala var, o da ki, lap qoca arvaddır.

İmran dayandı:

- Qoca arvad, yəni on səkkiz yaşı var, ya yox?

- Bilmirəm, yuxarı çıxın, özündən soruşun.

İmran üçüncü qatdakı sement döşəməli dəhlizi keçib, Badam xalanın qapısını taqqıldatdı. On-on iki yaşlı bir qız çıxdı. İmran soruşdu:

- Bacı, Badam xala buradamı olur?

- Badam xala yasa gedib.

- Nə vaxt gələr?

- Nə bilim!

- Yaxşı, siz onun familiyasını deyin, mən yazım.

Qız bir az dayandı, sonra içəriyə dönüb səsləndi:

- Məmə, ay məmə! Qapıya çıx!

Qızın səsinə əli tikişli, ortayaşlı bir qadın gəldi. Qadın məsələni





anladı. Badam xalanın familiyasını dedi.

- Kərbəlayı Həmidovadır. Yaz, amma Badam xala, nə bilim, belə şeylərə çətin qol qoyar. Heç adını yazmağa qoymaz. Yaxşı olar ki, sonra özünüz gəlib görəsiniz.

İmran siyahını tutub qayıdanda fikirləşdi ki, axşam işdən sonra Badam xalanın yanına getsin, onunla seçki haqqında danışsın. İctimaiyyətə yovuşmayan qoca qadınları başa salıb, dərnəyə gətirmək birinci şərtdir.

İmran həyətdən yenicə çıxmışdı ki, Badam xala gəldi. Tövşüyə-tövşüyə pilləkənləri çıxdı, eyvanda çadrasını atıb, dincini almağa başladı. Qonşu qız əhvalatı xəbər verdi:

- Gəlmişdilər, arvadları dərnəyə yazırdılar. Səni də yazdırdıq. Fa-miliyan Kərbəlayı Həmidovadırmı?

Badam xala qaşını düydü:

- Necə, necə?

Qızın anası Badam xalanın bu hirsli sualını eşidib, tez eyvana çıxdı:

- Badam xala, seçkilərə hazırlıq gedir. Ali Sovetə seçki qaydalarını ev qadınlarına öyrədirlər. Dərnəkdə oxudurlar. Bütün ev arvadları gedir, səni də yazdılar.

Badam saymazyana cavab verdi:

- Mənim elə yerlərdə nə işim!

- Mən dedim, yazdılar.

- Ay anam, bacım, sənin nə borcuna məni dəftər-kitaba saldırırsan! Canım, gözüm, heç məni birdən-ikiyə iclasda görmüsən?

Qonşu qadın Badam xalaya bələd idi. Onu artıq hirsləndirmək istəmədi, mülayim cavab verdi:

- Heç kəsi dərnəyə zorla yazmırlar. Hamı özü gedir. Sənin adını soruşdu, biz də dedik. Özünü görməyə gələcək. İstərsən gedərsən, istəməzsən adını pozar. Heç qorxub eləmə!



Badam xala sakit olub içəri girdi. Lakin ürəyində narahat idi. O, zənn edirdi ki, adını yazıb aparan «naməhrəm» adam bir kölgə kimi ona bağlanmışdır. Onun qəlbinə yol axtarır, familiyasını öyrənməklə bu yolun, bu qapının açarını ələ keçirmişdir.

Bu fikirlər Badam xalanın yadından təzəcə çıxmışdı: eyvanda əyləşib yorğan yunu tökürdü, bir də gördü Bədirnisa ilə bir cavan oğlan içəri girdi. Bədirnisa Badam xalanı oğlana, oğlanı Badam xalaya tanıtdı:

- Badam xala, bu oğlanın adı İmrandır. Bizə yeni seçki qaydasını öyrətməyə gəlib, buyurun tanış olun!

İmran irəli yeriyib, əlini Badam xalanın əlinə uzatdı. Badam xala başını aşağı salıb, əl vermədi, dinmədi, oğlanın əli uzalı qaldı. Bir az sonra Badam xala dedi:

- Mən qoca arvadam, seçkidə-zadda nə işim!

İmran güldü:

- Qoca olanda nə olar, on səkkiz yaşın var ki!

Badam xala elə bildi ki, İmran zarafata keçib. Onun üzünə əyri-əyri baxdı, ciddilik əlaməti görüb, heç nə demədi.

İmran aydın danışdı:

- Ölkəmizdə on səkkiz yaşından yuxarı, ağlı başında olan, məhkəmə ilə səsi alınmayan adamların hamısının hökumət seçməyə, hökumətə seçilməyə ixtiyarı var, haqqı var. Seçirlər və seçilirlər. Bütün zəhmətkeşlərin, bütün vətəndaşların hüququ birdir. İstəyir savadsız qoca arvad, istəyir universiteti qurtaran mühəndis olsun, istəyir narkom olsun, istəyir süpürgəçi! Hamının bir hüququ var. Sabah hər kəs kimi, sizin də seçki kağızınız olacaq, hər kəsin seçilməyini istəsəniz, ona səs verəcəksiniz. Dərnəyin sizə xeyirdən savay zərəri yoxdur. Daha yaxşı, təzə seçki qaydasını öyrənərsiniz. Düşmənləri, xainləri, pis adamları seçkiyə qoymazsınız. İstədiyiniz, bəyəndiyiniz, tanıdığınız təmiz, vicdanlı adamları seçərsiniz.

İmran danışdıqca Bədirnisa Badam xalaya yavaşca deyirdi:

- Yazıl getsin, bütün arvadlar gəlir. Sənə nə olub ki? İki gündə bir oturub, dərsə qulaq asacaqsan, bunda bir iş yoxdur! Yazılmasan, tay-tuş üstünə ayaq alar. Yazıl getsin.

Badam xala bərkdən dedi:

- Mənim ağzımda hökumət seçilmir ha!

İmran qadına izah etdi:

- Bir sənin ağzında seçilmir, düzdür. Ancaq sənsiz də seçilmir, hökumət seçkisində bütün vətəndaşlar iştirak edirlər. Onların rəyi bu işdə əsasdır. Bakıda, deyə bilərəm ki, bu işə soyuq yanaşan tapılmaz. Bütün ölkəmiz, bütün xalqımız özünün ali hakimiyyət orqanlarını seçməyə ciddi hazırlaşır. Hətta bizim düşmənlərimiz, o adamlar ki, biz ona ixtiyar vermirik, özlərini seçkiyə soxmağa, öz adamlarını hökumətə keçirməyə çalışırlar. Amma siz, Badam xala, öz hüququnuzdan istifadə işinə etina etmirsiniz. Belə şey olar?

İmranın yerinə Bədirnisa darıxdı, qələmi onun əlindən alıb, yazmaq istədi:

- Yazıram, Badam xala, oğlanı yorma, di bəsdir.

Badam xala bir az səssiz dayandı və alçaqdan dedi:

- Yazginən!..

Badam xala birinci gün dərnəkdə ağzını da açmadı. Dinməz-söyləməz qulaq asıb qayıtdı. Lakin evdə oğlu Xəlili rahat qoymadı:

- A Xəlil, o bizə dərs verən oğlan deyir ki, lap hökumətin böyüklərini, məsələn, lap o Mövskvada əyləşənləri də biz seçəcəyik, düzdürmü?

Xəlil əslində qaradinməz adam idi... Elektrik stansiyasında texniklik edirdi. Anasının qocalığını nəzərə alıb, onunla ictimai söhbət açmazdı. Badam xalanın bugünkü sualı Xəlili də maraqlandırdı. Xəlil fikirləşdi ki, iyirmi ildir inqilab olub, işlər dəyişib, dünya ayılıb, camaat irəli gedib, gör mənim anamı ki, adi



şeyləri də bilmir. Sabah bir yoldaşımdan belə şey soruşsa, mənim üçün də yaxşı olmaz. Deyərlər, sən necə sovet adamısan ki, evdar anana belə mətləbləri də başa salmırsan?

Xəlil anasına anlatdı ki, Sovet hökuməti xalqın əsl hökumətidir. Həmişə bütün böyüklər seçki ilə, camaatın əli ilə seçilir. O, qanunlardan, SSRİ-nin yeni Konstitusiyasından danışdı.

İmranın dərnəkdə dediklərini, bir az pərakəndə olsa da, bacardığı kimi, anasına izah etdi. Badam xala dedi:

- Müəllim yaxşı danışırdı, sən qarışdırırsan...

Sabahısı gün Badam xala dərnəkdən şövqlə, daha aydın təsəvvürlə qayıtmışdı. Oğluna çay-çörək verib, rahat elədi və soruşdu:

- A Xəlil, yoldaş Lenin nə deyib?

Xəlil gülümsədi:

- Bu nə sualdır?

- Soruşuram da, rəhbərimiz nə deyib?

- Lenin deyən bəyəm birdi, ikidi?

- Bir söz var ey, Lenin özü deyib...

Xəlil barmağı ilə şkafda cərgə ilə yığılmış gözəl və qırmızı cildli kitabları göstərdi:

- Lenin bir söz deməyib. Lenin çox söz deyib. Bax, o qırmızı kitabları görürsən ki, orada yazılanların hamısını Lenin yoldaş deyib!

- Yox ey, arvadlar barəsində.

Xəlil anladı:

- Hə, qadınların azadlığı haqqında. Gərək qadınlar kişi ilə bərabər olsun! Azadlıq işi qadınların öz işi...

Burada Badam xala yenə Xəlilin sözünü kəsdi:

- Yox, onu demirəm. Bir söz də deyib e, xörək bişirənləri də yada salır...

Xəlil fikirləşdi, birdən yadına düşdü:

- Bildim, Lenin deyib ki, qulluqçu da hökuməti idarə etməyi bacarmalıdır. Yəni xörək bişirən arvad da hökumət işlərini bilməli və öyrənməlidir.

- Ay sağ ol! Elə mən bunu axtarırdım. Ağrın alım, onu bir kağıza yaz, ver mənə!

- Neyləyirsən?

- Necə neyləyirsən? Qızıl kimi sözdür, yadımda saxlayacağam. Mənə lazım olar!

Xəlil anasının xahişini yerinə yetirdi. Badam xala Leninin sözü yazılan kağızı qatlayıb, çəp köynəyinin altına, qoynuna qoydu və oğlundan razılıq etdi.

- Əllərin ağrımasın!

Badam xala indi dərnəyə getməyindən, İmrandan və Bədirnisadan çox razı idi, seçkiləri gözləyirdi. Gözləyirdi ki, görsün, doğrudan da, seçkidə, hökumət adamlarını seçəndə onu çağıracaqlarmı. Necə saya salacaqlar, ona harada yer göstərəcəklər və nə deyəcəklər.

Gün o gün oldu ki, Badam xala yaşayan məntəqədə SSRİ Ali Sovetinə seçiləsi namizədlərin müzakirəsi başlandı.

Seçki komissiyası böyük və bəzənmiş bir zalda bütün seçicilərin iclasını çağırmışdı. Evlərə xüsusi çağırış vərəqələri göndərilmişdi. Ömründə birinci dəfə idi ki, Badam xalanın adına evə kağız gəlirdi. O, zər haşiyəli, qırmızı yazılı kağızı ovcundan yerə qoymurdu, sevindiyindən özünü itirmişdi. Bədirnisaya inanmadı. Oğlunun işdən qayıtmasını gözləmədi. Qapıya çıxdı. Bir portfelli kişi gedirdi. Badam xala onun naməhrəm olmağından utanıb, soruşmaq istəmədi. Bir də fikirləşdi ki, canım, nə naməhrəmbazlıqdır, məni yeməyəcək ki! Kağızı portfelli kişiyə göstərib soruşdu:

- Ay oğul, bir zəhmət çək oxu görüm, bu kimin adınadır!



Portfelli kişi oxudu:

- Badam Kərbəlayı Həmidova Nəzər qızı!

Badam xala «sağ ol!» - deyib kağızı aldı. Səliqə ilə dörd qatladı. Xəlil yazan kağızın yanına qoydu.

Axşam iclas başlandı. O böyüklükdə zal camaatla dolmuşdu. İynə salmağa yer yox idi. Badam xala basabasdan qorxub, qıraqdan yeriyirdi. Klub müdiri onu görüb irəli çağırdı, yol açdı:

- A yoldaşlar, bu qoca qadınlara qabaq tərəfdə yer verin!

Badam xala Bədirnisagillə cərgələrin arasından, adamların içindən keçib, lap qabaq tərəfdə oturdu. Badam xala əvvəl bir səhnəyə göz qoydu, şəkilləri, zər qotazlı qırmızı bayraqları, ağ yazılı ipək parçaları gördü. Səhnədə oturanlara diqqət elədi. Heç birini tanımadı. Yavaşca çevrilib dala, zalı dolduran, bir-birilə danışıb-gülən, təzə, təmiz paltarlı yüzlərcə seçicilərə baxdı, onu heyrət götürdü. Ürəyində dedi: «Pah... Bizim küçədə gör nə qədər camaat varmış! Çoxu da cavan-cavan...»

Bir enlikürək, boy-buxunlu oğlan zəngi tərpədib iclası açdı, danışdı. Sonra namizədlərin müzakirəsinə keçdilər. Badam xala fikir verirdi. Danışanlar çox asan sözlər deyirdilər. Hamısını anlayırdı, hərdənbir əyilib, Bədirnisadan soruşurdu:

- «Qəti» nədir? «Xarakteristika» nə deməkdir?

Bədirnisa başa salırdı:

- «Qəti» - yəni möhkəm ol! «Xarakteristika» - yəni xasiyyətnamə, yəni bu necə adamdır, belə ha!..

Badam xala görürdü ki, iclasa gələnlər yaxşı adamları, iş bacaranları seçməyə hazırlaşırlar. Hər kəs deputata tapşırıqdan, abadlıq işlərindən deyir.

Badam xala da bildiklərini demək istədi. Bu arzu onun qəlbindən keçəndə, sanki bütün vücudunu oda tutdular: bədəni əsdi, onu tər basdı, istədi «eh» deyib, kirimiş otursun, heç danışmasın. Bir də

xatırladı ki, bəs mən niyə gəlmişəm? Sabah bir pis adam gəlib bizə böyük olanda hökumət deməzmi, a filanın qızı, niyə dinmədin? Sizdən soruşduq axı? Badamın əli cəsarətsiz, yavaş-yavaş qalxdı. Deyəsən, batmış bir gəmini çətinliklə dənizdən çıxarırdılar, dor ağacı yavaş-yavaş görünməyə başlayırdı. Onun əli başından bir az hündürə qalxmışdı ki, sədr söz verdi:

- De görüm, ay xala. Söz verilir seçici Badam Nəzər qızına.

Badam əyilib Bədirnisadan soruşdu:

- A qız, o bildir incinar gəlmişdi ha, küçənin planını verdi ha, adı da Yusif, famili nə idi onun?

- Əmirov, rayon ispalkomunda işləyir, Əmirov!

- İspalkomda işləyəndə nə olar. Bəyəm onu seçmək olmaz?

- Olar, niyə, razı olsalar, niyə olmur.

- Mən onu deyəcəyəm!..

Bədirnisa müəyyən bir cavab verməsə də, Badam əzmindən dönmədi. Camaatın onu gözlədiyini, ona tərəf dönüb baxdığını görüb, özünü topladı və ağır-ağır ayağa qalxdı. Sədrə baxdı, bir də dönüb, camaata baxdı. Camaatda maraq artmışdı. Bütün zal susdu. Milçək uçsaydı, səsi eşidilərdi. Bütun gözlər Badam xalaya dikildi. Bədirnisa onu dümsüklədi ki, «di tez ol, danış, camaat səni gözləyir!»

Badam ömründə ilk dəfə idi camaat arasında danışırdı, hökumət işlərində iştirak edirdi. Sevindiyindən, utandığından, ya həyəcanındanmı, nədənsə, nitqi tutulmuşdu, dili gəlmirdi. İşarə ilə su istədi. Ona su verdilər, xahiş edib uca yerə, tribunaya çıxartdılar. Bir də əyləşən, diqqətlə qulaq asan camaata göz gəzdirdi. Stəkanı əlinə alıb, ağzını islatdı, mülayim səslə sözə başladı.

- O yoldaş, başdan danışan yoldaş çox qəşəng danışdı. Düz deyir ki, gərək deputatlığa təmiz adamları, iş görənləri seçək. Keçən ildən bizim rayonda bir oğlan işləyir. Dərsi qurtarıb gəlib. Adı da



Yusifdir, famili də...

Badam duruxanda yerlərdən dedilər: «Əmirov». Badam gördü ki, onun göstərmək istədiyi namizədi çoxları tanıyır. Bu, ona bir az da cəsarət verdi:

- Həmin o Yusif oğlan bizim evlərə işıq da çəkdi, su da... O bir plan töküb ki, küçə başdan-başa açılıb, bir abad şəhərə dönüb. Mən görürəm, bizim işlərimizə elə canyandıran lazımdır. Əgər yaşı düşürsə, bir də soruşaq, əgər razıdırsa, mən deyirəm, onu seçək! Lap qabil adamdır. Yoldaşlardan mənim bir xahişim elə budur ki, deyirəm, yaşasın Yusif kimi qabil işçilərimiz və onların müəllimləri!

Əyləşənlər əl çaldılar. Badam xala aşağı enib, yerinə getmək istədi, nəsə yadına düşdü, bir də səhnəyə qayıtdı. Sədrin üzünə baxıb, şəhadət barmağını yuxarı qaldırdı:

- Bir sözüm qalıb, tək bircə sözüm.

Sədr işarə ilə ona danışmağa icazə verdiyini bildirdi. Badam dedi:

- Mən eşitmişəm ki, gəmi təmir edən fəhlələr də mən deyəni deyib. Çünki bizim həyətdə adam var, o danışırdı. Özü də yalan danışan adam deyil. Yusifi də tanıyır.

Badam xala bu sözü deyəndə camaat gölüşdü, təkrar əl çalındı.

Badam xaladan sonra çıxan üç natiq - bir fəhlə, bir nəfər milis işçisi, bir nəfər də komsomolçu qız Yusif Əmirovu təriflədi.

Bədirnisa Badam xalanı təbrik edirdi:

- Sənin dediyin oğlana hamı səs verir. Özü də kommunist imiş, ordeni-zadı da var imiş.

Badam öz təklifində təkid etdi:

- Bacı, kişinin oğluna halaldır!

Sədr də Yusif Əmirovu yaxşı iş görən bir mühəndis kimi təriflədi. Badamın təklifini səsə qoydu.

Badam zal boyu yüzlərlə əlin göyə qalxdığına baxanda ürəyi dağa döndü:

- Əcəb, əcəb! - dedi.

Badam xala iclasdan çıxanda qonşular başına yığılışdı. Müəllim onun əlini sıxıb deyirdi:

- Səni görüm yüz yaşa!..

Badam xala ömründə pis günlər görmüşdüsə, çox ləzzət də çəkmişdi. Analar üçün ən böyük arzu olan oğul toyu da görmüşdü. Sovet hökumətinin sayəsində yeddinci nəvəsinə 2000 manat da mükafat almışdı. Özünə ipəkdən, şaldan, mahuddan da paltar tikdirmişdi. Yayda bağda, qışda evdə istirahət edib, deyə-gülə gün keçirmişdi. Hətta neçə dəfə Kirovabada, Nuxaya gəzməyə də getmişdi. Sərin yay axşamları hərdənbir Dağüstü parkda gəzmişdi. Kirovun heykəlinə də doyunca baxmışdı. Amma heç vaxt bugünkü qədər ağzı dada gəlməmişdi. O, cəmiyyət içində heç vaxt belə yaxşı bir iş tutub, elin rəğbətini qazanmamışdı. İctimai iftixarın bu ləzzətini görməmişdi. İndi vücudundakı qocalıq hisslərinin töküldüyünü, dizinə və qoluna qüvvət gəldiyini duyurdu. O, ancaq indi hiss etdi ki, arxasında yalnız oğlu yox, böyük bir vətən, qədirbilən bir xalq durur. Onun hər bir doğru, xeyirli sözü və işi həmişə alqışla qarşılanacaqdır. Bundan çox xoşlandı, ayrı bir şirinlik, ayrı bir ləzzət duydu. O, güman etməzdi ki, bu qədər böyük adamlarla - narkomlarla, kommunistlərlə, mühəndislərlə, həkimlərlə, müəllimlərlə, komandirlərlə yanaşı, bir qoca evdar qadının da sözünü saya salarlar. Fikir verərlər, eşidərlər. Badam xala qəlbində daşan sevincin təsiri ilə quş kimi yüngül olmuşdu. Evə gəldi, ancaq indi anladı ki, nə üçün qonum-qonşu qadınlar hələ on il bundan qabaq çadralarını atıb oxuyublar, işə girişiblər, kluba, iclasa qurşanıblar... O, indiyə qədər geri qaldığına utandı, ürəyində dedi: «Başıma xeyir, mən də tutmuşam namazın quyruğundan. Seçkiyə qədər mən gərək çox iş görəm. Köhnə şeylərdən lap üzüləm gərək!» Oğlunu səsləyib dedi:



- A Xəlil, o cənəmazı apar sat!

Xəlil gülümsədi:

- Kimin nəyinə lazımdır, ay arvad!

Badam xala Xəlilin haqlı cavabından duruxdu, dərin fikrə gedib öz-özünə dedi: «Doğru deyir, mən gecikmişəm».

1937

## KƏRPİC MƏSƏLƏSİ

Hər səhər yatağımdan qalxanda gözüm evimizin qabağındakı balkona sataşır. Diqqətlə baxıram, görüm, samovara od salan Babaxanın köhnə arvadıdır, yoxsa yox...

Babaxan çoxdan arvadı təzələmişdir.

Əvvəllər yaxın qonşumun bu hərəkəti, vurhavur arvad alıb-boşaması mənə ağır gəlirdi. Hirslənirdim, həm də təəccüb edirdim. Öz-özümə deyirdim: «Bəs onun vicdanı yoxmu? Qızları necə aldadır. Aldıqları kimlərdir?»

Anam bu suallara məna vermirdi, deyirdi:

- Babaxan işbacaran adamdır. Ona nə var, tapır, düzəldir, alır, buraxır, tanışı çoxdur...

Sonralar məsələni anladım, fikir elədim ki, «cavan adamdır, yəqin ömrünü kefdə keçirmək istəyir».

Lakin mən Babaxanın toylarına heyran qalmışdım. O, cürbəcür qadınlarla evlənir, ayrılırdı. Tez-tez evlənsə də, çox gurultulu toy edirdi. Bir də görərdin çilçırağı yandırıb, evi çıraqban elədi. Pilləkənlərə xalça döşədi. Limon ağacını balkona çıxartdı. Zər yazılı toy bileti payladı. Xanəndə çağırdı. Babaxanın dost-aşnası yığıldı. Saz çalındı. Qiyamət qopdu.

Səs-küydən dərsə hazırlaşmaq mümkün olmadığından, dəftərlərimi qoltuğuma vurar, evdən çıxardım:

- Gözləmə, - deyərdim, - ana, qardaşlığımgildə yatacağam.

Anam da bezmişdi. Neçə kərə Babaxanın elçi göndərdiyi qızların ailəsini öyrənib, xəbər vermək, onları yeni kürəkənin «bəzi» xasiyyətləri ilə tanış etmək istəmişdi. Ancaq məndən çəkinirdi.

- Qoymursan bu tramvay altında qalmışın işləklərini bildirəm! Cavan-cavan qızları aldadır... Ayıb döyülmü? Bəs döyülmü?



Babaxanın balkonunda, şair mübaliğəsi olmasın, hər istirahət axşamı toydu, sazandası, xanəndəsi, plovu, içkisi, məzəsi, cehizi, başlığı öz qaydasında, dəm-dəsgahlı bir toydu. Siz soruşarsınız: «Yaxşı, Babaxan bu dəm-dəsgah üçün pulu haradan alırdı?»

Babaxan mənim qapıbir qonşumdur. Mən ayda beş yüz manat alıram. Onun maaşı yüz əlli manatdır. Lakin o, yalnız pəncərələrindən asılan təzə, qotazlı mahud pərdələri ilə mənim kimilərini alıb-satır. O, bir toy axşamında mənim evimin üçaylığını xərcləyir. Bunlara baxanda mən də Babaxanın işinə heyran qalıram.

Kooperativçilər də onun işinə mat qalmışdılar.

Babaxan kooperativlərin birində parça satardı. Mal gələndə tez yüyürüb, qapıları çəkərdi. Parçanı top-top təhvil alıb, qəfəsələrə yığdıqca ruhu şad olardı. Fıştırıq çala-çala, dodaqaltı «Yetim segah» oxuya-oxuya malı sahmanlardı. Sonra qapını açıb, qonaq qarşılayanlar kimi müştəriyə təzim edərdi:

- Di buyurun! İndi buyura bilərsiniz!

Babaxanın, arvad almaqda olduğu kimi, parça satmaqda da məharəti vardı. Əvvəlcə malı yoxlardı. İki-üç topunu piştaxtanın altına ötürərdi. «Bazarı» malı qəfəsələrə, göz qabağına yığardı.

- Bu saat almışıq, axşama bir metr də qalmayacaq. Mən məsləhət görürəm, apar. Peşman olarsan, ha...

Yuxarı küçədən gəlmiş yarımçadralı qadınlar Babaxanın sözünü yerə salmaz, vurhavur ölçdürərdilər.

Bir də görərdin, bir gödəkcəli, balacagöz, burnubiz, üzü tüklü, çiyni xurcunlu kişi alverin şirin yerində Babaxana salam verdi. Salamın dalınca əhvallaşmağa başladı:

- Nə var, nə yox?

Hamıya məlum olan bu sualın hamıya bəlli də bir cavabı var:

- Sağlığın!

Babaxan xurcunlu kişinin qabağında boynunu burub əzilərdi,

üzr istəyən bir əda ilə deyərdi.

- Qadası, bir az sonra gəl!

Camaat bu danışığa fikir verməzdi, fikir versə də, bir şey hiss etməzdi.

Bir dəfə Babaxan, adəti üzrə, üzü tüklü kişi ilə «əhvallaşanda» bir cavan oğlan şübhələndi:

- Yoldaş, necə yəni «bir az sonra gəl?» Nədi gizlədib, sonra gələnə saxladığın? Bu saat bəri çıxart!

Babaxan hamamdan çıxmış adamlar kimi qızardı. Dili güc ilə söz tutdu:

- Yoldaş, o mənim bacanağımdır. Xüsusi işi var...

Oğlan qələmini çıxarıb, şikayət dəftərini istədi. Babaxan özünü itirdi. O yan-bu yandan mane oldular. Oğlanın da acığı soyudu. Xata birtəhər sovuşdu. Babaxan bir də belə hərəkət etməsinə tövbə elədi.

Sonralar xurcunlu kişi özü də ehtiyatla gələrdi. Qapıda görünəndə Babaxan nə dinər, nə danışardı. Yalnız burnunu çəkərdi. Bir dəfə burnunu çəkdi, deməli, «bir saatdan sonra gəl», iki dəfə burnunu çəkdi, «iki saatdan...»

Babaxan əlaltı işlərinin bütün sirlərini burnunu çəkməklə ifadə edərdi. Yaxşı parçaların kooperativdən qabaq meydançada satılmasının sirri, onun gurultulu toylarının sirri, evinin dəm-dəsgahının sirri bunda idi...

Babaxan onu da gözəl bilirdi ki, burun çəkmək pis adətdir. Lakin «bu pis adətin nəticəsi əlamət olduğu üçün» boyun əyirdi.

Haqdan keçmək olmaz. Babaxan arvad «çıxaranda» cehizini də qaytarar, gəlinə aldığı bər-bəzəyi də ona bağışlardı. Bu məsələdə Babaxanı məcbur edən qanun-qayda vardı. Lakin o, buna «səxavət» adı verərdi.

Mən Babaxanla yaxın münasibət saxlamaqdan çəkinirdim.



Qonşuluq üzündən, görəndə ötəri bir salam verirdim.

Onun növbəti arvadlarından biri diqqətimi cəlb etdi. Sadə olduğu üçün xoşuma gəlirdi. Bəlkə də, kim bilir, simpatiyamın səbəbi ayrı bir şeydi.

İnsanın bəzən tanımadığı, lakin uzaqdan gördüyü bir adamdan zəhləsi gedir. Nə üçün? Adam özü də bilmir, əksinə, bəzən aləmin zəhləsi gedən bir adam sizə məsum və təmiz görünür. Yaxınlaşır, söhbət edirsiniz, axırda aldanıb, peşman olursunuz. Axırı ki, insanları tanımaq çətindir.

Babaxanın diqqətimi cəlb edən arvadı hələ gəlinliyin əziz və qayğısız günlərini yaşayırdı.

Babaxanın yeni arvadı Məlikə cavanca, şən bir qızdı, hər kəs ilə gülüb-danışardı, bunu da ərindən gizlətməzdi. Məlikə bizə gəlib-gedərdi. Onun yerli olmadığını, yerli məişət və adətlərə nabələd olduğunu zənn etmişdim. Yanılmırdım.

Məlikə Çakva çay plantasiyalarında fəhləlik edirmiş. Babaxanın ora yolu düşür, belə gözəl bir qızı yayın istisində tarlada çalışan görür. Gözü düşür, ürəyi tutur.

- Məlikə də fəhləlik edərmi, ay qız! Sənin yerin bura deyil! Gedək, məni özünə nökərçiliyə götür.

Uzun ilticadan sonra Babaxan qızı inandırmışdı. Məlikə etiraz etməmişdi. Öz sözü ilə «Azərbaycanı görməyə həvəsi gəlmişdi». Mən Məlikə kimi sadə, xoşqılıq bir qadınla tanış olduğuma sevinirdimsə də, yaxın günlərdə onun evdən çıxarılacağına da yanırdım.

İstirahət günü yaxınlaşdı... Babaxan Məlikə ilə xudahafizləşməli oldu. Qızın başmaqlarını cütlədi:

- Bacımsan. Xasiyyətimiz tutmur. Mən nə qədər özümü zorlayıb, səni sevmək istədimsə, mümkün olmadı. Buyur, bu da yol xərcin, pal-paltarın da özünə qalsın. Qayıt yerinizə. Məni bağışla. İmkan

ver, subay yaşamaq istəyirəm.

Əvvəl Məlikə zarafat zənn etmişdi. Gülmüş, oynamaq istəmişdi. Babaxan özünü hirsli göstərmiş, qıfılı əlinə alıb, qapını bağlamaq üçün Məlikəni bayıra itələyəndə, qız məsələnin ciddiliyini anlamış, özünü itirmişdi.

Evdə oturub gilas yeyirdik, qonağım da vardı. Bir də gördüm Məlikə özünü içəri atdı. Hönkür-hönkür ağladı. Anam onu ovutmaq istədi. Məlikə yanıqlı ağlayırdı. Ürəyim xarab oldu.

Məlikəni şikayətə göndərmək fikrində idim. Razı olmadı.

- İntiqam almaq istəmirəm, - dedi. - Babaxan ölsə də, mənim pozulmuş həyatım, puç olmuş ümidlərim qayıtmayacaq. Məni yola salın, vətənimə qaytarın!..

Babaxan ilə mübahisə açmağa dəyməzdi. Məlikənin xahişini dedim. Məmnuniyyətlə qəbul etdi:

- İnanın ki, Məlikə yaramaz olduğu üçün ayrılmıram, özüm yaramaz olduğum üçün ayrılıram. Cavan qızdır. Mənim daxmamda çürüməkdənsə, qoy getsin, azad gəzsin. Qonşuluq haqqına, onu aparın, Batumiyə yola salın!

Babaxan Məlikənin dolu, ağır çamadanını mənə verib, əlavə etdi:

- Buyurun! Heç bir şeyini istəmirəm. Nəyi varsa, özü ilə aparsın, xərclik lazım olsa, yenə verim.

- Heç zad lazım deyil. Mən onu yola salaram.

Mən çamadanı gətirib evə qoydum. Məlikə tanışları ilə vidalaşmağa getmişdi. Çox çəkmədi, qayıtdı. Biz stansiyaya yollandıq.

Uşaqlar bayramı gözlər, böyüklər məzuniyyəti!

On bir ay işdə-gücdə çalışmaqdasan. Səfərə də çıxmırsan. Bu ayların nə vaxt gəlib-keçdiyini bəzən bilmirsən. Məzuniyyət gələndə gözəl yaylaqlara gedib, şamlıqlarda nəfəs almaq, mühitini təzələmək istəyirsən. İstirahət sənin qanuni haqqındır. Məzuniyyətə gedənə o



ki var, hörmət edirlər. Dəmir yollarında növbəsiz yola salırlar. Kurort bələdçiləri qabağına çıxırlar. Xörəyin, çörəyin, meyvənin, dondurmanın, şirənin yaxşısını sənə verirlər. Kinolar, teatrlar, çalğıçılar, şairlər, xanəndələr ruhunu oxşayır...

Bizim zəmanəmizdə hər kəs istirahət etməyə borcludur. Məzuniyyət də onda şirin olar ki, hər işini artıqlaması ilə bitirəsən. Adın gələndə müdirin ürəyi açıla. Əmr edə, sənə bir- aylıq mükafat da verələr. Qərar, pul, putyovka, bilet, maşın, hər şey hazır...

Bu halda eşidəsən ki, «istəklinin» ailəsi də sən gedən yerə gedib... Qız gedəndə səni görə bilməyib, yoldaşlarından xəbər göndərib, səni qonaq çağırıb:

- Həl-həlbət gəlsin! Heç olmasa, ikicə gün! Gözləyirəm! Nə durmusan!

Belə səfərə çıxanda adam qayıdacağını güman etmir. Dala baxmadan gedir. Stansiyalarda qatarın dayandığı hər dəqiqə bir il keçir, düşüb yüyürmək istəyirsən.

Mən bu damaq çağlığı ilə istirahət evinə yola düşdüm.

Maşın dırmandıqca mən özümü yüngül və rahat hiss edirdim. Dağların sərin mehi qulaqlarımda səslənirdi. Gözlərim laləli çöllərdən ayrılmırdı. Yolun lap kənarından başlanan taxıllar ləpələndikcə gümüşü rəngə çalırdı. Quşlar maşın səsindən hürküb uzaqlara uçurdu. Dağlardan buğ qalxırdı. Dağlar keçidindən görünən günəş uşaq kimi məsum-məsum baxırdı. Hər dəqiqə dəyişən mənzərələrdən, bir-birindən gözəl yerlərdən doymaq olmurdu. Dayanmaq, hər çiçəyə, hər gülə, üfüqləri yarıb ötən hər quşa, hər böcəyə bir-bir baxmaq istənilirdi.

İstirahət evində xalatla gəzən kök, gödək bir həkim vardı. Məni yoxlayanda bərk tapşırdı:

- Siz əsəbisiniz, rejimi yaxşı gözləməlisiniz.

- Ay sağ olmuş, məni əsəbi eləyən həmin bu tibbi rejimlər

olmadımı? Buraxsana bu dağlarda nəfəs alım? Bəs deyilmi? Kəl kimi sakit adam idim. Pivə krantına döndərdiniz, bəs deyilmi?

Həkim güldü. Mən çıxdım. Anket dolduranda soruşdular:

- Nə? Kərimov?

- Bəli, Kərimov!

- Sizə, deyəsən, tel vardı. - Katib ayağa qalxıb qapıya sarı boylandı: - A Lətif, o gədəni bəri səslə, poçtalyonu!

Lətif poçtalyonu çağırdı. Teleqram mənə idi. Açdım oxudum, mat-məəttəl qaldım:

- «Təcili qayıdın vergül lap bu gün tire Murtuz».

Teleqram yaxın və sirdaş məktəb yoldaşımdandı. Nə isə vacib iş vardı. Murtuz hələ-hələ mənim istirahətimin pozulmasına razı olmazdı.

Məni fikir götürdü: «Bu nə bədbəxtlikdir, ay canım?» Xəyalıma min cür şey gəldi: «Anam da bağdadır. Yəqin evi yarıblar, var-yox əldən gedib. Yaxşı lüt-üryan qaldım küçələrdə... Buna inanmıram. Yox, elə şey olsa Murtuz mənə xəbər verməzdi, kefimi pozmaq istəməzdi. Özü bu iş ilə məşğul olardı. Belə deyil, qohum-qardaşdan ölən var. Ya anamın başına bir iş gəlib... Nə bilim, dünyanın işidir. Bəlkə, təcili məktəbə çağırırlar». Nə isə, gümanımı bir yerdə qərarlaşdıra bilmirdim. Bir istədim «cəhənnəmə ki» deyə teleqramı unudum, axşamın ilhamlı və musiqili havasına doğru axışan xoşbəxtlərə qoşulub sevgi-limin görüşünə gedim. Olmadı. İntizar və nigaranlıq yolumu kəsdi. Hər şey, hər kəs məni tələsdirib qaytarmağa çağırırdı. «Ağlını başına yığ, ehtiyatlı ol. Kişi sənə tel vurub, get gör nə məsələdir. İstirahət evi qaçmır, iki gün gec gələndə nə olar?» Yerimi, yurdumu, pasportumu, putyovkamı qoyub, maşın ayağına götürüldüm.

Gecə saat doqquzda şəhərə çatdım. Yenə təndir kimi isti məni bürüdü. Tər tökdüm. Ağır nəfəs aldım. Yorğun yeridim. Acdım,



lakin aclığımı hiss etmədim. İçimin gəmirildiyini, bədənimdə bütün ehtiyatın tükəndiyini zənn etdim. Üzvlərim mənə tabe olmaq istəmirdi. Ayaqlarımı zorla sürüyürdüm. Güc-bəla özümü evə saldım. Evi salamat görüb, bir az dincəldim. Qonum-qonşudan anamı xəbər aldım, «salamatdır» dedilər, soyundum, kranın altında dayanıb yuyundum, qurulandım. Evi nəzərdən keçirirdim, pəncərədə açıq məktub gördüm. Əvvəlcə möhürünə, sonra imzasına baxdım. İki gün əvvəl gəlmişdi. Məlikədəndi. Sevindim. Acar qızına hörmətim artdı. Məktubu açdım:

«Vicdansız alçaq!

Babaxanın dərdi azdı, bir də sənin kimi ölüsoyan kəmfürsətə rast gəldim. Evində yediyim duz-çörəkdən də utanmadınmı? Qərib bir qıza ehtiramın bu idimi, ey insan maskalı tülkü? Sənin Babaxandan nəyin əskikdir?

Məlikə».

Bu nədir? Kim yazır? Kim yazır? Kim yazır? Məktubun adresini, imzasını bir də yoxladım. Məlikə yazırdı. Mənə yazırdı. Qurudum qaldım. Mənim Məlikəyə nə pisliyim olmuşdu? Ona neyləmişdim? Bu nə töhmətdir? Ömrumdə heç kəsdən, alçaq adamlar haqqında belə eşitmədiyim bu sözləri gör kimdən eşidirəm! Babaxana qarşı haqqını müdafiə etdiyim, bacı kimi baxdığım Məlikədən. Elədiyim yaxşılığa qarşı təşəkkür bu imişmi? Məni od götürdü. Məktubu bir də oxudum. Məlikənin aldadıldığını, məndən nə isə bir şey eşitdiyini yəqin etdim. Nahaqdansa qadına layiq olmayan küçə söyüşlərilə mənə müraciət etdiyinə qızışdım. Mən də açıq məktub yazdım. Təhqir olunmuş gənclik vüqarımı müdafiə edərək, əsəbi və titrək barmaqlarımla ağzıma gələni yazdım, küçəyə çıxdım, məktubu poçt qutusuna atdım. Bununla ürəyimə təskinlik verdim.

Səhər yenicə açılmışdı. Xoruzlar ağız-ağıza verib camaatı ayıldırdı. Mənim isə intizardan, fikir-xəyaldan başqa işim yoxdu.

Gah Murtuzun teleqramını düşünürdüm, gah Məlikənin təhqirinə əsəbiləşirdim. Az qalırdım bilet alıb Acarıstana gedim. Vaxtilə simpatiya bəslədiyim, sadə və səmimi saydığım qızın üzünə durum, yazdıqlarının məsuliyyətini ona hiss etdirim.

Durdum, yuyundum. Köhnə qəzetlərdən birinə baxırdım, qapı döyüldü. Açdım, bir nəfər milis içəri girdi.

- Salam!

- Salam.

Cinayət-axtarış idarəsi naçalnikinin imzası ilə mənə bir çağırış verdi və dedi:

- Eviniz axtarılacaq.

Mən çəkilib, bir kənarda durdum. O, evi axtardı. Sandıq, şkaf, çamadan, bufet, siyirmə qalmadı, hamısını yoxladı. Nədənsə heç bir şeyə dəymədi.

Cinayət-axtarış idarəsinə yollandıq.

Dağdan qayıdanda intizarım bir idisə, indi yüz oldu. Bu əhvalat daha ciddi, daha qorxulu və gözlənilməz idi. Heç şahid sifətilə də məhkəmə tanımadığım halda, birdən-birə nə iş idi düşdüm! Məni nə üçün qurdalayırlar? Mən uşaqlığımdan başlayıb, bu günə qədər bütün həyatımı, münəqqidlər demişkən, «tənqidi surətdə» gözdən keçirdim, cinayət aradım, xatırlaya bilmədim. Başıaşağı, bənizi ağarmış, iztirabdan sarsılmış halda gedirdim.

Budur, müstəntiqin qarşısındayam. O nə isə yazır. Başını qaldırıb, üzümə baxdı. Mən də baxdım.

Qarasaçlı, enlikürək, üzündə iş qayğısı hiss olunan bu oğlan mənim məktəb yoldaşımdı. İbtidai məktəbi bitirdikdən sonra ixtisas məktəblərinə getdik. Hərə bir sənət seçdi. Bir-birimizdən ayrı düşdük.

İllər keçdikcə aramızda olan uşaqlıq, məktəbli cəmimiyyəti də əriyib getdi. Hər kəs özünə, təbii, yeni yoldaşlar tapdı. Mən bu



adamı unutmuşdum. Ancaq burada, gözüm onun təzəcə tüklənmiş üzünə sataşanda xatırladım. Bu, məktəbdə kök, dəcəl və hazırcavab bir oğlandı. Dərsin, müəllimin, məktəbin nöqsanını hamıdan tez görərdi və deyərdi. Hətta hesab müəllimi, məsələləri taxtada həll edəndən sonra, zarafatyana, üzünü ona çevirər, soruşardı:

- Yaqub, necədir, etirazın yoxdur ki?

O gülər, başını aşağı salıb, məsələnin həllini dəftərinə köçürərdi.

İndi o, böyük, ciddi, məsul bir adam olmuşdur. Başqa yerdə rast gəlsəydik, tanışlıq verərdim. Bəlkə, əlini də sıxardım, əhvalını da soruşardım! Lakin burada bir müqəssir sifətilə onun qarşısında dururkən tanışlıq verməzdim. Bir təmənna fikrilə tanışlıq verdiyimi, ondan kömək umduğumu zənn edə bilərdi. Qoy qanun nə tələb edirsə, onu yazsın, yoldaşıyam deyə, mənə üz görməsin. Nədənsə, o da tanışlıq vermədi. Başını qaldıran kimi adımı, familiyamı soruşdu.

- Siz,-dedi,-Məmmədyarov küçəsindəmi olursunuz?

- Bəli, orada olurdum.

Ayağa qalxdı. Acıqlanmışdı. Qolumdan tutub küncə tərəf çəkdi. Güman etdim ki, qulağıma xəlvəti söz pıçıldayacaq. Küncə tökülmüş kərpic parçalarını göstərib soruşdu:

- Bu nədir?

Mən müstəntiqin üzünə baxdım. Baxdım ki, bu sualın mənasını anlayım. Lakin anlaya bilmədim. Pərişan və ümidsiz səslə cavab verdim.

- Kərpicdir!

- Fikirləş, gör bu nədir? - O, sualını daha da qətiləşdirir, şəhadət barmağını kərpiclərə uzadıb dururdu. - Fikirləş, gör bu nədir? Yaxşı fikirləş!

- Cisimdir!

- Necə yəni cisimdir?

- Həndəsi cisimdir, sülb...

O, papiros yandırıb əyləşdi. Suallarında davam etdi:
- Siz Məlikə adlı acar qızı tanıyırsınızmı?
- Bəli, tanıyıram. Babaxanın arvadı!
- Siz Məlikəni Batumiyə yola salmışsınızmı?
- Salmı...
Müstəntiq sözümü kəsdi:
- Bütün cavab ver!
- Mən Məlikəni Batumiyə yola salmışam.
- Düzdür?
- Düzdür!
Yazdı.
- Vağzala gedəndə Məlikənin çamadanını siz aparmışdınızmı?
- Apar... Bağışlayın, vağzala gedəndə Məlikənin çamadanını mən aparmışdım.
- Doğrudur?
- Doğrudur!
- Çamadan dolu idi, ağırdı, ya yox?
- Çamadan lap dolu idi, ağırdı, az qalırdı qolum üzülə.
- Belədir?
- Belədir!
- Təsdiq edirsiniz?
- Təsdiq edirəm!
- Çox gözəl. - Başını aşağı salıb, tez-tez yazdı. Yenə soruşdu: - Çamadanı açıb, şeylərini götürüb, əvəzinə kərpic yığmısınızmı?
- ...
- Yığmısınızmı?
- Çamadanı açıb, şeylərini götürüb, əvəzinə kərpic yığmamışam. - Mən səsimi ucaltdım. - Yoldaş müstəntiq, bu, başdan-ayağa şər...
O, əlini qaldırdı.
- Hirslənmək lazım deyil! Cavabını bir də təkrar elə, yazım.





- Çamadanı açıb, şeylərini götürüb, əvəzinə kərpic yığmamışam.

- Aha... demək, çamadanı açıb, şeylərini götürmüşsünüz, ancaq əvəzinə kərpic yığmamışsınız, eləmi?

- Xeyr, xeyr, yoldaş! Mən demək istəyirəm ki, nə çamadanı açmışam, nə şey götürmüşəm, nə əvəzinə kərpic qoymuşam, nə də mənim bu işdən xəbərim var.

- Açığını de!

- Açığı budur.

- Olub belə şey?

- Olmayıb elə şey.

- Siz doğrusunu deyin. Yalan cəzanızı artıra bilər. Doğruluq, günahı boynuna almaq işinizi yüngülləşdirər. Deyin görək, nə üçün qızı yola salanda çamadanından qiymətli şeyləri götürüb, yerinə bax, bu kərpicləri doldurubsunuz? Bunları yazıq qıza yük eləyib Batumiyə göndəribsiniz? Vicdanla danışın, bu nə hərəkətdir, hə?

Mən müstəntiqin kəskin sualları qarşısında heyrətimdən dondum.

İndi bildim ki, Babaxan hansı səxavətlə həftədə bir toy etməyi, arvad boşamağı bacarırmış.

Müstəntiqə dedim:

- Qələmi götürün, yoldaş müstəntiq, mən hamısını deyim, siz yazın.

1937



## HİKMƏTDƏN XƏBƏR

İttifaqın sədri zəng eləyib məni çağırmışdı. İşin axırında tramvaya minib getdim.

- Yaxşı gəlmisən, - dedi, - əyləş, səni gözləyirdim. Siyirməsindən bloknot çıxartdı, bir neçə vərəq geri qatladı, qələmi mürəkkəbə batırıb, yazmaq istədi, nə fikirləşdisə, əl saxladı, üzümə baxdı:

- Bilirsən, Rəhim, - dedi, - nə var? Seçki məntəqələrində çalışmaq üçün bizdən bir təbliğatçı istəyirlər. Buna da hər adamı göndərmək olmaz, yoldaşlarla məsləhətləşdik ki, sən gedəsən. İş, özün bilirsən, çox məsul və olduqca şərəflidir. Hazırlıqlı komsomolçusan, işləmisən, məktəb görmüsən, bacararsan, - sonra sədr səsini bir az alçaltdı və yumşaq bir əda ilə danışdı: - Ancaq ayrı şey demək istəyirəm.

Telefon zəng elədi. Sədr telefon xəttini o biri otağa bağladı, davam etdi.

- Axı, çoxunuz evdar qadınlara dərs deyəcəksiniz, cürbəcür adamlara rast gələcəksiniz. Qocası, qarısı var, çoxu savadsızdır! Namaz qılanı var, üzüyolası, sözə baxmayanı, dinməzi, dilli-dilavəri var. Gərək hər biri ilə danışanda özünə görə dil tapmağı, müsahibəyə cəlb etməyi, işə alışdırmağı, seçki qanununu sadə sözlər, uyğun misallarla başa salmağı bacarasan. Sənə köməklik, rəhbərlik olacaq. Amma işin nəticəsi səndən asılıdır. Ürəklə yapışıb, can yandırsan, bütün kəm-kəsiri yox eləyərsən. Xahişim budur: elə eləyəsən ki, sabah peşmançılıq olmasın.

Mən təbliğat işinə başladım. Evdar qadınları başıma yığdım. Mü-sahibələrimi sadə, aydın və həyati misallarda qurmağa çalışdım. Mənə tapşırılan işin yaxşı getməsi üçün əlimdən gələni əsirgəmədim.

İttifaqın sədri də məni unutmamışdı. Özü dərnəyimə gəlirdi. Bir

gün yanına çağırdı. «Danış, - dedi, - görək dərnəyin nə haldadır?» Mən başıma gələnlərin hamısını söylədim.

101, 105, 107 nömrəli evləri mənim öhdəmə vermişdilər. Burada, evlər müdirinin məlumatına görə, 19 nəfər evdar qadın vardı. Əvvəlcə mən yoxlamalı idim. Qapı-qapı otaqları gəzib, qadınların adbaad siyahısını tutmalı, dinləyicilərin hamısına yaxın bir yer tapmalı idim. Nömrələri yanaşı yazılan bu evlər bir-birinə o qədər də yaxın deyildi; 101-ci evlə 105-ci evin arasında böyük bir xəstəxana binası vardı. 107 nömrəli ev bağlı-bağçalı bir hasarın lap dibində idi. Mənim siyahımda iki nəfər artıq çıxdı. Bu iki nəfər - bir qız, bir ana - Gilə xalanın qonaqları idi. Qadın dərnək açılacağını, dərs keçiləcəyini biləndə qiyamət qoparıb, öz adını qaralatdı ki, bizim xəstəmiz var, üç-dörd günə çıxıb gedirik. Bu yaşa gəlmişəm, əlifbey deməmişəm. Mənim nə vaxtımdır oxumağa gedəm?

Qız isə oxumaq istəyirdi. Anası onu da dilə tutmaq istədi:

- A Hikmət, ay qızım, yazılma, biz ki buralı deyilik, nə lazım dəftər, kitab?..

O, sual şəklində verdiyi məsləhətə Hikmətdən cavab gözləyirdi. Hikmət razı olmadı:

- Gedəndə gedərik də! Nə qədər buradayam, oxuyacağam, yeni seçki qanununu öyrənəcəyəm.

Mən onların mübahisəsindən istifadə edib, Hikmətə baxırdım. Hikmətin, o mütənasib boylu, yaraşıqlı, təmiz və səliqəli geyinmiş qızın zahirinə baxan adam onu anadangəlmə şəhər qızı, məktəb tələbəsi, ya da idarələrdən birinin əməkdaşı sayardı və bunda yanılmazdı. Lakin zahirdə belə idi. Sonra öyrəndim ki, Hikmətin şəhərə ilk gəlişidir. O, kənddən, rayondan kənara çıxmamışdı. Hikmətin yaraşığında və gözəlliyində libasın, modanın, demək olar ki, qətiyyən iştirakı yox idi. Əksinə, onun əynindəki qırmızı kofta, başındakı abı kəlağayı, ayağındakı yüngül tufli Hikmətin



gözəlliyindən ümumi və gözəl bir ahəng alırdı. Mən Hikməti 18 yaşında yazanda anası qapıya çıxdı:

- Əvvəla, - dedi, - yazma! İndi ki yazırsan, düz yaz: qızın on doqquzca yaşı var.

Mən Hikmətin üzünə baxdım: «Cavab ver!» demək istəyirdim.

Hikmət dedi:

- Ay ana, odur, metrikdə tarixim var: düz yazıb, 18 yaş!

Arvad bir az da cinləndi:

- Ay qızım, bu da təzə qaydalar, təzə haqq-hesablar deyil ki, məni çaşbaş qoyasınız! Sənin yaşını beş barmağım kimi bilirəm. Sən olmusan düz Orucluq bayramının günündə! Orucluq bayramına hələ neçə ay var.

Mən soruşdum:

- Ay xala, Hikmət, deyirsiniz, Orucluq bayramının günündə olub, eləmi?

- Bəli, elədir.

- İndi də, deyirsiniz, orucluğa hələ bir neçə ay var?

- Elədir!

- Elə isə, Hikmət deyən düzdür, 18 yaş!

Bunu deyib başımı aşağı saldım, yazdım. Kəndli qadının acığı tutdu:

- Həlbət ki, Hikmət deyən düz olar... O, yeniyetmə, alma kimi bir qız... Mən qarının biri! Həlbət ki, Hikmət deyən düz olar!..

Onun sözünə gülüşdülər.

- Xala, - dedim, - bir başa düşün ki, sizin o orucluq ayları, qurban ayları ildə azı 10 gün dal-qabaq vurur. Mollalar özləri il on iki ay camaatı aldatdıqları kimi, tarixləri də sizi aldadır. 18 ildə azı 6 ay aldanırsınız. Hikmət bir gün də aldanmayıb, onun hesabı düz çıxır.

Gilə də mənim sözümə qüvvət verdi:

- Doğru deyir, ay bacı, lap doğru deyir: müsürman ayları dəyir-

man daşı kimi dolanır axı, bir də görürsən orucluq getdi qışa düşdü.

Deyilənlər, yəqin ki, qadına təsir etmişdi. O, bir əlində corab, o biri əlində ip yerində donub qaldı.

Yer axtarmaqda çətinlik çəkmədim. Ağzımı açmamış Gilə xala özünün bərli-bəzəkli qonaq otağını təklif etdi: kağız, qələm, mürəkkəb gətirdi.

Mən savad bilənlərə kitabçalar verdim. Hikmət haradansa çoxlu karandaş gətirib stolun üstünə qoydu. Qadınlar böyük həvəslə qulaq asırdılar. Mən onlara yeni Sovet Konstitusiyasını və yeni seçki qanununu öyrətməyə, günün siyasi hadisələrindən müsahibələr keçirməyə başladım.

Çox çəkmədi mənim dərnəyim nizamlı-qaydalı bir sinif otağına döndü. Hər gün naharımı yeyib gedəndə hamını hazır görürdüm. Hətta Hikmətin anası da gəlirdi. Qadınların bəzisi uşağını yatırıb gəlirdi, kimisi qucağında gətirirdi. Eləsi də vardı ki, ərinin qılığına girib, «bir saatlığa» uşağı ona tapşırır, kitablarını götürüb, dərsə tələsirdi.

Hikmət dərnəyin bütün işlərində mənə kömək edirdi. Xüsusilə onun bir xidmətini heç vaxt unuda bilməyəcəyəm. Dinləyicilərin sırasında Şərəbanı adlı bir qarı var idi. O, müsahibənin ilk günlərində seçki qanununa dair şıdırğı suallar yağdırırdı. Cavablarımdan sevinirdi.

- Arvadlarla kişilərin seçkidə bir təfavütü ki, yoxdur?

Mən cavabımı bitirməmiş, o, üzünü dərs oxuyanlara tutdu, əl-qolunu ölçə-ölçə dedi:

- Görün bir, bacılar, bir görün! Başına döndüyüm Sovet hökumətinin gözəl-gözəl qanunlarına baxın, qəşəng-qəşəng qaydalarına baxın! Arvad, kişi olub bərabər. Sabahları, deməli ki, əl qaldırıb, içimizdən bir ağbirçəyi seçib, iş başına qoysaq, qoyarıq. İxtiyar öz əlimizdədir, niyə də qoymayaq!



Mən Şərəbanı arvadı başa salmaq üçün seçki qanununun müəyyən maddələrini oxumaq istəyirdim. o, macal vermədi. mənim yumşaqlığımdan istifadə edib danışdı:

- A qadan alım, başağrısı olmasın. indi budur, timsalən deyirəm. biz zəhmətkeşlər, söz belə, istəsək. burada oturan arvadların birini seçək; nə olar. inanırıq. görürük ki, timsal belə, yaxşı işləyir. dilli-ağızlıdır, haqq-ədalətnən baxandır. ağbirçəkdir, ürəyimizə yatır. seçirik. A qadan alım, necə eləyək ki. seçək? Söz məsəli deyirəm!

Şərəbanının sual yerində danışdığı söhbətlər məni gündəlik temamdan kənar salsa da, cavab verməyə məcbur idim.

- Bizim dərnəkdə cəmi 15-20 adam var. Deputatlığa seçilən yoldaşa isə gərək minlərlə adam səs versin. Rayonumuzun bütün seçiciləri bir yoldaşı namizəd göstərəndə, əlbəttə ki. biz də ona səs verərik.

Mən qurtarmamış o başlayırdı:

- Bacılara bəlli oldu ki, biz zəhmətkeşlər kimi istəsək. öz içimizdən seçərik, seçəcəyik. Həlbət ki, elə yaxşıdır. Bəs necə. tanımadığımız bir qıraqdan gələni. həlbət ki, seçməyəcəyik. Biz öz yoldaşlarımızdan seçəcəyik. Təki bizim öz yoldaşlarımızdan olsun. Timsaləni deyirəm. Gilə bacı, Həcər, ya o birisi söz bir eləyib. məni seçəndə, həlbət ki, mən də kişi qızıyam. yadımda saxlayacağam. Sabah özümüzünkülərin. beş barmağım kimi tanıdığım arvadların işinə tez baxacağam.

Mən yəqin elədim ki, Şərəbanı arvad ya qohumlarından birini seçmək istəyir, ya özü seçilmək istəyir. ya da ki, özünü «fəal» qələmə verib, qadınlar arasında ad çıxarmaq istəyir. Bu fikrimi bir az örtülü və yumşaq halda Şərəbanıya dedim. Xahiş elədim ki. suallarını axırda versin. Sonrakı məşğələdə Şərəbanı arvad bir az dal tərəfdə dinməz-söyləməz oturmuşdu. Mən danışırdım. Dərsin şirin yerində Həcər geri döndü, acıqla qışqırdı:

- Yaxşı, yaxşı, ay arvad, yaxşı!

Mən soruşdum:

- Nə məsələdir?

Şərəbanı qızardı. Həcər cavab vermədi. Hamı onlar tərəfə döndü. Mən çox maraqlandım:

- Nədir, yaxşı ola, nədən danışırsınız?

Həcər acığını söndürmək istəyənlər kimi:

- Heç, müəllim, - dedi, - dərsimizi keçək!

Mən davam etsəm də, Şərəbanı ilə Həcərin arasındakı söhbətdən nigaran qaldım. Xəyalımda tutdum ki, dərsdən sonra Həcəri kənara çəkim, soruşum görüm dərs arasında nə söhbət idi.

Dərsi yenicə bitirmişdim. Hikmət məni çağırdı:

- Xəstəxanaya, atamın yanına gedirəm, sizə sözüm var, - dedi.

Nədənsə, onun ürəyində bir söz olduğunu hiss etdim. Qapıdan bir az uzaqlaşmışdıq. Hikmət Şərəbanı arvaddan söhbət açdı:

- Yoldaş müəllim, - dedi, - o arvaddan ehtiyatlı olun! O, məscid müsavirinin arvadıdır. Əri qırağa çıxmır. Özü meydan alıb, arvadların bəzisinə dua yazdırır, üzdə bir cür, dalda da bir cür danışır. Həcər sizə demədi? Şərəbanı on gündür qadınlardan əl çəkmir ki: «Məni seçin, özüm qadın, ağbirçək, sizi tanıyıram». Yaxşı olardı ki, siz Şərəbanı arvadı tanıyaydınız. Mənim ondan gözüm su içmir, yağlı dilinə baxmayın!

Hikmət düz seçmişdi, sonradan məlum oldu ki, Şərəbanı alverçilərin, mollaların, azançıların, müsavirlərin ortalığa saldığı adam imiş. Ali Sovetə seçkilər zamanı düşmənlər Şərəbanının dili ilə əks-təbliğat aparmaq üçün əldən gələni edirmişlər.

Hikmətin atası sağalıb gəlmişdi. Qızının dərnəkdə oxumasına sevinir, mənə təşəkkür edirdi. Onlar gedəsi oldular. Dərnəkdə oxuyanlar Hikməti öz qızları, öz bacıları kimi hörmətlə rayona yola saldılar.



Dərnəklərə mədəni xidmət üçün bəzi idarələr şefliyi boyunlarına gö-türmüşdülər. Teatr, kino bileti göndərirdilər. İstirahət günləri bir də görürdün «M-1» maşını qapıda dayandı, dinləyiciləri növbə ilə əyləşdirib gəzdirirdik. Vurhavur işləyən neft mədənlərini, camaat qaynaşan mədəniyyət saraylarını, muzeyləri, musiqisi, mahnısı ucalan istirahət evlərini, yeni qəsəbələri, zümrüd kimi yamyaşıl, çit kimi əlvan bağları gördükcə evdar qadınlar həvəslənir, sevinir, ruhlanırdılar. Maşın asfaltın üstündə süzüb getdikcə, onlar gözlərini tamaşadan götürmürdülər. Tanımadığı yerlərdən, yeni gördükləri tikintilərdən suallar verirdilər.

Bir gün dərnəkçilərimi ekskursiya üçün seçki məntəqəsinə apar-mışdım. Otaqları bir-bir gəzdirib, seçki texnikasını təkrar yadlarına salırdım:

- Gördüyünüz bu bəzəkli yer istirahət zalıdır. Bu, bir otaqdır, pas-portunuzu göstərib, seçki bülleteni alacaqsınız. Bax, bu ikinci otaqdakı pərdəli guşələri görürsünüz, burada səs verəcəksiniz. Sonra üçüncü otağa keçəcəksiniz. Bura seçki işinin həll olunduğu yerdir, seçki qutusu buradadır, bülleteni qutuya salacaqsınız.

Ekskursiyanı bitirməmişdim. Gilənin oğlu tövşüyə-tövşüyə gəldi:

- Yoldaş müəllim, - dedi, - çağırırlar, evə adam gəlib.

Qayıtdım. Tələm-tələsik ekskursiyanı bitirib, Gilə xalagilə getdim.

Dərnəkdə oxuyanlar da maraqlandılar; güman edirdilər ki, bəlkə, bilet gəlib, ya da yeni plakat, kitab gətiriblər.

Biz evə çatanda Gilə xalanın əri və uşaqları dayanmışdılar. Gələn adam ayağını səkiyə qoyub, dizinə dirsəklənmişdi.

- Qol çəkin, - dedi, - yoldaş, sizə sovqat var.

Poçtalyonu görəndə təəccüb eləmişdim: «Mənə sovqat göndərən bəs bu adresə niyə göndərsin?» Soruşdum:

- Haradandır ki?

- Gərək ki, Qarabağdandır.

«Qarabağ» adı gələndə Hikməti, ay yarımdan bəri tamam unutduğum qızı xatırladım. Nədənsə, ürəyim döyündü, əl çamadanı boyda, yüngülvarı bağlını əlimə aldım. Görəsən, bu nə olar? Meyvə deyil, kitab da deyil. Paltara bənzəyir. Ancaq Hikmət hara, mən hara, paltar hara? Nigarançılığım bir az da artdı, özümü itirdim. Bağlamanın kəndirini dartıb qırdım. Qadınlar baxırdılar. Hamının gözü sökülməkdə olan bağlamada, intizardan əsəbi işləyən əllərimdə idi. Giş parçasını sökdüm, içində bezə bükülmüş bir şey var idi. Bezin də tikişini kəsdim. Səliqə ilə qatlanmış yumşaq şeyi açanda otağa işıq düşdü, sevincdən sifətlər qıpqırmızı qızardı: bu, Hikmətin toxuduğu və bizə hədiyyə göndərdiyi gözəl balaca bir xalça idi. Lenin yoldaşın şəklini elə gözəl yaratmışdı ki, mahir bir rəssamın əsərinə oxşayırdı. Biz sevincdən, heyrətdən baxa-baxa qalmışdıq. Hamı sevindi və Hikmətin məharətini alqışladı. Xalçanın baş səmtində çap xəttilə qırmızı sapla yazılmışdı: «Bakı fəhlələrinə».

Gilə xala adamları aralayıb irəli keçəndə Həcər ona gözaydınlığı verdi:

- Hikmətdən xəbər yoxdur, deyirdin, gözün aydın, buyur, bu da Hikmətdən xəbər!

O təzə, yumşaq, nazik xalçaya, rəhbərin şəklinə baxdıqca baxmağın gəlirdi. Xalçanın naxışlı yol-yol haşiyələri gözlərdə parıldayırdı. Tərpəndikcə rəng çalırdı. Sanki çiçək və bənövşə səpilmiş axar suya baxırsan. Onun hər ilməsində, hər xalında və hər gülündə gənc Hikmətin ağ və möhkəm barmaqları görünürdü. Mən ona baxdıqca fərəhlənir, həm də düşünürdüm. O balaca, sakit və nəcib qızın qabiliyyətini, özünə şərait və zəminə tapan istedadların gücünü, necə bahar kimi çiçəkləndiyini düşünürdüm.

- Halal olsun belə qızı doğan anaya!

Gilə xalanın bu sözünə hamı əl çaldı.



- Xala, - dedim, - onu da bilmək lazımdır ki, Hikmətin əsl anası inqilabdır; onu böyüdən, onu bu sənətkar qabiliyyətinə yetirən oruclug haqq-hesabı ilə yaşayan qadın deyildir, - sonra bir təklif elədik: - Yoldaşlar, gəlin Hikmətin bu qəşəng hədiyyəsini ləyaqətlə yerinə çatdıraq. Gəlin bunu məntəqəmizin seçki komissiyasına bağışlayaq. Səs verilən otaqda, seçki qutusunun üstündən assınlar. Səs verənlər sovet xalqının birinci və böyük namizədinə baxsın, onun adı ilə daha da ruhlansınlar. Qoy qadınlara, qızlara, onların tükənməz qüdrətinə və hünərinə xor baxanların gözləri çıxsın. Qoy Hikmətin əsərinə baxanlar azad əməyin gücündəki hikməti bir daha bilsinlər!..

Bu təklif hamının ürəyindəndi. Xalçanı məntəqəyə apardıq.

1937

## GÖZÜN AYDIN

*Oğlum Arifə*

Axşam istirahətindən sonra eyvana çıxmışdım. Uzaqlara, şəhərin dənizə sallanan ətəklərinə baxırdım. Yerə ulduz səpilmişdi. Hər yan çıraqban idi. Rəngli lampaları gördükcə küçələrin daş-qaşa tutulduğunu zənn edirdim. Sahil sularından qızıl sütunlar asılmış, dəniz bəzənmişdi. Sahil xiyabanlarında camaat qaynaşırdı. Şaqqıldayıb gülən cavanların sədası, radiolardan musiqi səsi ətrafa yayılırdı. Gündüzün məhsuldar zəhmətindən sonra sanki bütün şəhər dincəlirdi.

Mən belə təsirli vaxtlarda özümü saxlaya bilmirəm, danışmaq istəyirəm. Sinəmdə alovlu bir arzu qaynayırdı; deyəsən, isti bir əl qolumdan tutdu, gətirib, yazı stolunun dalında əyləşdirdi. Qələmi əlimə aldım. Üç ildən bəri görüşmədiyim və həmişə xahişini təxirə saldığım anama kağız yazmağa başladım. Salamsız-kalamsız yazdım:

«Ana, mən lap bakılı oldum, getdim. İnanma bir də qayıdam. Buraya elə bağlanmışam ki, traktor qoşasan, məni buradan üzə bilməz. İlk günlər darıxırdım, şəhər mənə qəribə gəlirdi. Nə maşın, nə fit, nə zəng səsi qulağıma batırdı. Kəndimizin söyüdlü çəpərlərini arzulayırdım. Vaxt tapan kimi binalardan uzaqlaşıb, kənara, açıqlığa qaçırdım. İstəyirdim sərin külək olsun, yarpaq xışıldasın, quşlar uçsun, küçələr boyu su axsın... Darıxmağım uzun sürmədi. Dərs başlandı. O başlayan oldu, bilmədim həftələr, aylar, illər necə gəlib keçir. Tələbəliyin məğrur, qayğısız yoldaşlıq həyatı, dərs, yarış, kitab, mütaliə, gənclik, gəzmək... Bir də gördüm buraxılış konserti, yəhərlənmiş at kimi, budur hazır!

Məktəbi qurtarandan sonra hökumət bizi daha çox əzizlədi. Bizə



bir şadyanalıq elədilər ki, mən mat qaldım. Hərəmizə bir dəst mahud paltar tikildi. Döşümüzə qızılgül taxıldı. Böyük yerlərdən dəstə-dəstə qonaqlar gəldi. Bizi qabaq sərgədə əyləşdirdilər. Direktorumuz nitq dedi. Musiqi çalındı. Qızlar xorla oxudular. Camaat bizi dönə-dönə alqışladı. Müəllimlər əlimizi sıxıb, xeyir-dua verdilər, salamatlaşdılar. Oğluna utanmaz desən də, gizlətməyəcəyəm. Ana, həmin konsert axşamı Həbibə adlı bir qız ilə görüşdüm... Mənə bənd oldu...»

- Yalansa gözündən gəlməsin! Bir ay ondan qabaq qapımızda əsim-əsim əsməyin nə idi bəs?

Mən başımı qaldıranda Həbibəni yanımda gördüm. Tez əlimlə kağızı örtdüm.

- Yoldaş, - dedim, - özgənin kağızını icazəsiz oxumaq olmaz!

- Özgənin kağızını oxumuram, haqqımda uydurduğun yalanı oxuyuram.

- Nəyi yalandır?

Həbibə beşiyə tərəf gedib, uşağı tərpətdi və yavaşca dedi:

- Saqqız kimi suvaşan sən idin, mən? Niyə yazmırsan ki, altı ay dalınca süründüm, bir qarış dil çıxardıb mələdim?

- Sürünən sən idin, mən?

- Sürünsəydim, mən də on bir kağız yazardım.

- Nə olsun, onda avam idim! Qanmadım, yazdım.

Həbibənin daha da acığı tutdu:

- Deməк, indi ağıllanmısan, məni istəmirsən? Hə?!

Mən onun könlünü aldım:

- Səni istəməyib, kimi istəyəcəyəm, ay qız! Anamdır, küsməsin ki, niyə məsləhət eləmədin, niyə demədin, filan... Ona görə yazıram. Başa düş, özündən çıxma!

O, sakit oldu, mən yazdım:

«...Həkim qız, sənin gəlinin Həbibə bu saat uşağı rahatlayır.

Gözün aydın! Girdəsifət bir nəvən olmuşdur.

Ev sakitlikdir. Pəncərənin qabağında oturmuşam, sənə kağız yazıram. Bakının aydın və ulduzlu gecəsi mənə sakit-sakit baxır. Dünən evdə vur-çatlasın idi. Bizi istəyənlər tökülüb gəlmişdilər. Nəvənə ad qoyurduq. Şadyanalıq edirdik. Çalıb-oynayır, deyib-gülür, yeyib-içirdik.

Ana, bilirsən ki, bu əziz və ağ günümdə səni nə qədər arzulamışam! Mən sevincimdən uçuram: hökumət bizə təzə ev tikdirib: mən üçüncü qatda, gümüş kimi tərtəmiz otaqlardayam. Suyu, işığı, radiosu, telefonu, mətbəxi, hamamı içində... Deyirəm, anam gələydi, evimdə oturub rahatlanaydı. Mənim xoşbəxt həyatımda iştirak edəydi. Deyəydim: «Ana, köhnə zamanada çox korluq çəkmisən, otur, rahatlıq elə! Qara günlərin acısı tər kimi tökülsün». Hansını yazım? Bilirəm, 21-ci ildə qızını xəstəxanaya gətirəndə Bakını görmüsən. Ay ana, o zaman gördüyün tozlu-torpaqlı, boz Bakıdan bircə İçəri şəhər qalıb. Dənizin quruyan sahilində böyük bulvar, bağlar salınıb. Bayıl yolunda, sən gördüyün o köhnə yerlərdə xiyabanlar yamyaşıl, yollar gümüş kimi! Bu yollarda pirə gedən arvadlar əvəzinə, indi neftçi mühəndis qızları, məktəbliləri, maşınlarda süzüb gedən mədən işçilərini görərsən, tez-tez dolub-boşalan tramvayları görərsən. Təpələrin dalında yeni və geniş mədənlər salınıb, saysız-hesabsız buruqlar yarışan adamlar kimi şıdırğı işləyir, baltalar enib-qalxdıqca «neft, neft»! deyir. Hər yana baxırsan, göyün bir qatına qalxan təptəzə binalar, bunlarda gülüb-oynaşan cavanlar görünür. Nəhəng xörək fabrikini, bərli-bəzəkli işçi mənzillərini, mədəniyyət saraylarını, kino və teatrları, «İnturist» mehmanxanasınımı deyim...

Bakı eninə, uzununa, həm də göylərə doğru böyüyür. Çox çəkməz Abşeron yarımadası Bakı yarımadası olar. Bu qurmaq, tikmək, yaratmaq işi ki Bakıda başlanıb, şəhəri bir neçə il sonra



çətin tanımaq olar.

Ezamiyyətə getmişdim. 20-25 gün çəkdi. Qayıdanda tramvaydan düşdüm ki, «Novbahar» aşxanasında nahar eləyim, saatın altından iki addım yeridim. Bir də gördüm, azmışam, gedib güllü-çiçəkli bir bağa çıxmışam. Yan-yörəmə baxdım, çaşıb qaldım, əlacım kəsildi. Qayıdıb, bələdlədiyim küçə ilə təzədən gəldim. Saatın altından dönüb, düz «Novbahar» tərəfə yüyürdüm. Bir də gördüm, nə o «Novbahar» var, nə o küçə. O yerdə bağ salınıb. Musiqi çalınır, körpə uşaqlar oynaşır. Daş pilləkənlərin yanlarında çiçəklər baş-başa verib, nilufər, gülsabah, nərgiz ləkləri salınıb. Güllərin ətri aləmi götürüb, orada bir cüt qız oturmuşdu, yanaşıb soruşdum:

- Bacı, «Novbahar» haradadır?

Qız dedi:

- Elə buradır!

Mən söz tapmadım. Ötmək istəyəndə başa saldı:

- Qardaş, - dedi, - düz gəlmisən. Gördüyün o köhnə dükanların yerində bir ay olmaz ki, bu bağ salınıb.

Mən qıza baxdım. Bağa, çiçəklərə, yaşıllanan yerlərə baxdım, işçilərin, yaradan əllərin hünərinə afərin dedim...».

- Altı ay nişanlı qaldıq, bir-birimizdən ayrı düşdük, nə olardı, mənə də belə bir kağız yazaydın?

- Həbibə əlimdən çıxan vərəqələri oxuyurdu və məndən gileylənirdi.

- Nişanlı, - dedim, - tapılar, amma ana ələ düşməz!

Həbibə beşikdə yatan körpəni göstərib dedi:

- Onu bil ki, mən indi nişanlı deyiləm, mən özüm də anayam!

Mən Həbibənin könlünü alır, məktubumu davam etdirirdim.

Yazırdım, gəncliyimin bəxtiyar günlərindən, Vətənimin boy atmasından yazdıqca yazırdım:

«...Eşitmiş olarsan, ana, ölkəmizdə Staxanov adlı bir igid çıxıb.



sadə, yaraşıqlı, cavan fəhlədir. Köhnə normaları, qədim adamların qoyduğu iş üsullarını vurub darmadağın edib, aləmə sübut edəyib ki, indi azadlıq və hünər ölkəsində, əl-qolu açıq, ruhla, ürəklə işləyəndə dağı dağ üstə qoymaq olar. Onun iş qaydasını indi hamı öyrənir! Minlərlə qabaqcıl adam staxanovçu olub, o qayda ilə işləyirlər. Ayda birə-beş, birə-on məhsul verən, 3000-3600 manat qazanan fəhlələr çoxdur. Bir ucdan da şəhər bəzənir, abadlaşır, gözəlləşir. Nə deyim, ana, yazmaqla başa gələsi deyil. Sovet hökuməti Bakının köhnə evlərinin yerində başdan-başa bəzəkli təzə üsullu, çoxqatlı binalar tikir. Hər gün yeni və nəhəng bir binanın bünövrəsi qoyulur».

Kağızı göndərəndən sonra narahat idim. Cavab gözləyirdim. Bilirdim, anam dönə-dönə oxudacaq, gözlərinə sürtəcək, haçandan bəri görüşmədiyi oğluna ürəkdolusu kağız yazacaq, bəlkə də, əgər-əskik nə varsa, xahiş edib istəyəcək.

Səhər yenicə açılmışdı. Yağışlı bir gün idi. Elə yağırdı ki, deyərsən, göydən vedrə ilə su tökülür. Navalçalar kran kimi işləyir, küçələrdən su gedirdi. Üfüqlər elə qaralmışdı, deyərdin, bu hava daha açılmaz. Rü-tubətli, ağır havada hər şey bomboz və kədərli idi. Hələ sönməyən lampalar limona bənzəyirdi. Adamlar yerə baxır, yeyin ötür, bir-birini basıb, tramvaylara doluşurdular. Cəld ötən çətirli qadınlar səyyar çadır kimi görünürdülər. Yer səməni qazanı kimi pıqqapıq qaynayırdı. Mən eyvanın pəncərələrini açmışdım. Radionun komandası altında idman edirdim. Telefon səsləndi. Dəstəyi götürdüm, bir qız səsi gəlirdi. Heç nə anlaşılmırdı. Dəstəyi yerinə asıb, idmanıma qayıtdım. Bir də zəng oldu. Zil bir qız səsi gəlirdi. Nömrəmi soruşdu:

- Danışın, - dedi, - Lenin kolxozuna cavab verin!

Səs kəsildi, dəstək xışıldadı. Deyəsən, xəkə tökülürdü. Sonra dərindən, uzaqdan gələn bir səs eşitdim. Onun dalınca bir arvad



dilləndi, adımı çağırdı. Bu səsdəki hərarət bütün bədənimi mum kimi yumşaltdı. Hər şey mənə təsirli gəldi. Özümü mehriban anamın bəsləyici, ovuducu, rahat qucağında hiss etdim. Anamın sevincdən yaşarmış gözlərini, titrəyən dodaqlarını, açıq qollarını, mənə tərəf gələn qısa və yeyin addımlarını görürdüm, ürəyim quş kimi çırpınırdı. Dedim:

- Ana? Xoş gördük, ana! Kefin, əhvalın? Kağızımı aldın?

Anam tələsirdimi, telefonu ağır eşidirdimi, nəsə, müxtəsər danışdı:

- Kağızını almışam, oğul. Sağ olasan, əlin var olsun. Ancaq səndən bərk incimişəm. Dayan bir!..

Mən bunları eşitdim. Lakin inanmağım gəlmədi. Anam belə deməz. Bu yəqin özgəsidir. Dünya dağıla, anam mənim boyumu oxşamamış dindirməz. Bu nə işdir?

Bu sözlər mənə dəydi. Tutuldum, qızardım, anamın sonra nə danışdığını bilmədim. Bircə bunu eşitdim ki:

- Birisi gün səhər maşın ayağına çıx. Gecikmə, yarımca saat vaxtım var. Hələlik salamat qal!

Səs kəsildi. İstər-istəməz dəstəyi yerinə qoydum. Donub qaldım. Bir müddət dəstəyə baxdım. Sanki dəstəyin bu saat təzədən səslənəcəyini, anamın gileyli sözlərini mənə açıq deyəcəyini, bayaqkı danışıqdan pozulmuş oğlunun könlünü alacağını gözləyirdim. Dəstək isə başını aşağı salıb susurdu. Anamdan xəcalətlilik, intizar məni boğurdu. Ha fikirləşirdim ki, anama nə pislik eləmişəm, bir şey xatırlaya bilmirdim. Kağızda, görəsən, nə səhv buraxmışam. Bəlkə də, bəlkə də, toy barəsində... Kağızı sətir-sətir xəyalıma gətirməyə, yoxlamağa, anamı küsdürən səbəbləri aramağa çalışırdım. Anamın gəlməyinə də bir məna verə bilmirdim. Axı, qoca arvad tək-tənha Bakıya niyə gəlir? Bu tezliklə Bakıya gələcəkdisə daha telefon ilə danışmağa nə ehtiyac? Yəqin mənim yanıma,

gəlinini, nəvəsini görməyə, ya burada istirahət eləməyə gəlir. Telefon ilə danışmağı da xəbər verməк, qabağına çıxıb, qarşılamaq üçün imiş. Yəqin belədir ki, var. Buna da inana bilmərəm. Yanıma gəlir, bəs nə üçün «gecikmə, - deyir, - yarımca saat vaxtım var!» Bu hansı yarım saatdır.

Mən belə fikirləşirdim, lakin bir tərəfdən də birigün maşın ayağına çıxmaq vaxtını aramsız gözləyirdim.

Bu səhər hava bulaq suyu kimi dumduru, saf, sərin idi. Oktyabr gü-nəşinin parlaq işığı qaranlıqları yox etmiş, kölgələri aydınlatmış, hamını, hər şeyi oyatmışdı.

Anamın pişvazına gedəsi idik. Geyindik, kecindik. Çıxanda küçədə böyük təntənə gördük. Sən demə, idmançıların şəhər nümayişi imiş. Yollar tərtəmiz süpürülmüşdü. Binalar bəzənmiş, tramvaylar dayanmışdı. Radio guruldayır, orkestr çalırdı. Komsomolçular gənclik, qüdrət mahnısı oxuya-oxuya addımlayırdılar. Qırmızı yaxalıqlı ağ mayka geyinmiş sağlam cavanlar dalğalanan bayraqlar altında dəstə-dəstə izdihamlı küçələrə doluşurdu. Onlar yeridikcə fərəhlənir, fərəhləndikcə daha möhkəm addımla yeriyirdilər. Musiqi susanda gənc qızların addımları asfalt döşəmədə «şib-şib» səsi verirdi. Sürətlə uçan, fişəng kimi vıyıldayan ulduz nişanlı təyyarələr nizami dəstələrə oxşayırdı. Onlar nümayişçiləri salamlamağa gəlmişdi. Göydən təbrikimə gül tökdülər. Fəza çiçəklərlə doldu. Hər tərəfə dağılan çiçəklər yerə endikcə məni heyrət bürüyürdü. Biz paraşütçülərin yerə enməsinə tamaşa edirdik. Təyyarələrdən tö-külən əl boyda qırmızı kağızlar sovet şahinlərinin 20 illik bayrama necə hazırlaşdıqlarını deyirdi. Kağızlar göydə, günəşdə bərq vurur, qırmızı pilləyə oxşayırdı və aşağı endikcə dağılırdı. Yerdən minlərlə əl onları tutmağa uzanmışdı.

Həbibənin körpəsi də bu şənlik aləminə ağzını açır, gözünü



zilləyir, əl atıb kağız tutmaq istəyirdi. Mən ona bir kağız verdim. Ovcunda xışıldatdı, sevinib qışqırdı, ağzına təpmək istədi.

Həbibə komsomol forması geyinmiş paraşütçü qızlar dəstəsinə baxırdı. Mən onun yadına saldım:

- Gedək! Qayınanan gəlir, axı!

Mən bufetin qarşısından vağzal səkisinə çıxıb, cərgə ilə dayanan va-qonlara, qapılarda danışan adamlara, pəncərələrdən yaylıq oynadanlara diqqətlə baxır, anamı axtarırdım, lakin görə bilmirdim. Dal vaqonlardan birinin qabağında duran oğlan mənə əl elədi. Mən götürüldüm. O, məktəb yoldaşım Ümid idi.

- Tbilisiyə gedirəm, - dedi, - sözündən, sovundan?

- Bu vaqonlarda bir arvad görmədin?

- Vaqonlarda çox arvad var. Necə arvad deyirsən?

- Qoca arvad!

- Bilirsən ki, mən arvadlara, xüsusən qarılara baxmaram.

Mən anamın gələcəyini dedim. O, məni başa saldı:

- Gecikmişsən! Tbilisi qatarı ötdü. Bu, Moskva qatarıdır.

- Nə danışırsan! - deyə mən lap pozuldum. Dedim, daha anam üzümə baxmayacaq.

Bir gün səhər tələsik evdən çıxdım. Birinci dərsim var idi. Sinfə girdim, danışmağa başladım. Tələbələrdən bəzilərinin mənə baxıb gülümsədiyini duyurdum, lakin səbəbini anlaya bilmirdim. Bəlkə, deyirdim, danışmağıma gülürlər? Ya pis geyinmişəm, başımı daramamışam? Birtəhər dərsi başa verməyi, müəllim otağına qaçıb, üst-başıma, üz-gözümə yaxşıca diqqət eləməyi qət etdim. Zəng çalındı, sinifdən çıxanda gülümsəyən tələbələrin biri məni yanladı:

- Müəllim, - dedi, - sizi qəzetə vurublar.

- Necə?

Mən sualı sual üstündən verdim:

- Nə vaxt, hansı qəzetdə, nə üçün yazıb, nə yazıb?

Tələbə qiraətxanaya yüyürüb, qəzeti gətirdi.

Mən palto geymiş, üzü-gözü, alnı-başı açıq ciddi və fərəhli dayanmış bir qadının şəklini gördüm. Deyəsən, mən bunu tanıyıram... Bu ki anamdır! Anamın cavan çağlarıdı... Anamın şəklini görüb, dörd gözlə qəzeti oxumaq istədim.

Anam Moskvada, pambıqçı staxanovçular müşavirəsində iştirak edib danışmışdı. Qəzet yuxarı sütunlarda anamın danışığını başdan-ayağa çap etmişdi.

O, kəndimizin inkişafından, kolxozçuların yeni həyatından, mədəni yaşayışından danışırdı. Nitqinin bir yerini gətirib o məsələyə çıxarırdı ki: «Şəhərdə oturan bəzi yoldaşlar kənddən yaxşı xəbərdar deyillər. Beş-on il bundan qabaq kəndi necə qoyub gəliblərsə, indi də elə bilirlər. Amma onlar çox səhv edirlər. Biri götürək elə mənim oğlumu. Özü oxumuş, məktəb qurtarmış bir müəllimdir. Amma, di gəl, kənddən əsla xəbəri yoxdur. Bu yaxınlarda mənə kağız yazıb. Bakıdan danışır, yenilikləri bir-bir sayır. Bunlar hamısı düz, öz yerində. Amma oğlumun səhvi ondadır ki, kənddəkiləri, mənim özümü, az qala, avam hesab eləyir. Görün nə yazır?

Yazır ki, «Ana, şəhərdə Staxanov adlı bir igid çıxıb, belədir, filan...»

Əvvəla, yoldaşlara məlumdur ki, Staxanov o igidin adı deyil, familiyasıdır. Həmin igidin adı Alekseydir. Qoy mənim oğlum bilmirsə-bilsin...»

Anam mətləbi bura yetirəndə mən onun nitqindən sonra zalda qopan alqış səslərini eşitdim, özümü həmin zalda hiss etdim. Budur, hamı dönüb mənə baxır, ana tənqidinin təsirini görmək istəyirlər.

Sonra oğlum yazır: «Ana, səni arzulayıram, deyirəm, anam gələydi, evimdə oturub rahatlanaydı, mənim xoşbəxt həyatımda iştirak edəydi». Əziz oğlum burada da yanılmışdır. Deyən ola, ay oğul, sən Bakıdan nə deyirsənsə, kəndimizi də elə bil! Gəl camaata,



kolxozun işinə, məktəbinə, xəstəxanasına, kinosuna, doğum evinə, radiosuna, elektrik işığına bax! Bolluğa, firavanlığa bax! Həyətlərdə taxılı tığ vurmuşuq. Sən xəyal eləyirsən 20-ci illərdir ki, kəndlinin uşağı şəhərə gedənəcən pianino nə olduğunu bilməsin? Xeyr, keçmiş ola! Kəndli qızlar indi dərs ilə bərabər neçə sənət öyrənirlər. Mən, kolxozda çalışan bir ana kimi, özümü oğlumdan da əskik saymıram. Sən xoşbəxtsən, mən də üstəlik! Öz xoşbəxtliyim sənə bərabər, oğlumunku da üstəlik! Oğlum tək öz xoşbəxtliyi ilə öyünürsə, mən oğlumun da xoşbəxtliyi ilə öyünürəm. Mən əslən kəndimizin, bütün xalqımızın xoşbəxtliyi ilə fəxr edirəm...»

Anamın faktlarla dolu sadə, mənalı nitqi məni sevindirdi. O yaşda qoca bir qadının böyük ictimai tribunalardan ləyaqətlə danışmasına hansı oğul sevinməz?

İndi mən yarımçadralı, ağzıdualı, köhnə bir qadını yox, minlərlə kolxozçu adından danışan, yeni kəndin məşhur adamlarından sayılan hörmətli bir nümayəndə gözləyirdim. Onun qarşısına çıxmağa hazırlaşırdım. Onu staxanovçuların nümayəndələri də qarşılayırdı.

Yoldaşım mənə dedi:

- 15 il oxumusan, yenə qoca arvad sənin qələtini tutur! Bir yazanda fikirləş, başına vur, sonra yaz! Bunu uşaq da bilir ki, Staxanov o igidin familiyasıdır. Bunu bilməyə nə var ki?

Mən də ona dedim:

- Sən ki oxumuşdun, niyə səhvimi düzəltmədin?

1937

# VƏTƏN OĞLU

Mənim nə dərdim vardı? Yalnız ailəmin, ata-anamın razılığını almağı düşünürdüm. Atam da anam da, Zahidi görmüşdü. Mənim məktəb yoldaşım, məlumatlı, mərifətli bir oğlan olduğunu, yaxşı kamança çaldığını bilirdilər.

Mən ailəmin rəyini soruşmamışdımsa da, onların bu işə razı olacaqlarına şübhə etmirdim. Ona görə məsələni cəsarətlə anama açdım:

- Ay ana, Zahid məndən əl çəkmir, nə deyirsiniz?

Anam dik-dik baxdı:

- Nə danışırsan, a qız! - dedi. - Özbaşınasan, nədir?

Mən hər nə qədər azad hərəkət etsəm, sərbəst olsam da, hər işdə ata-anamın ehtiramını saxlar, onlardan izin alardım.

- Özbaşına olmadığım üçün, - dedim, - sizdən soruşuram, yoxsa bə-ziləri kimi, heç sizə deməzdim.

Anam üstümə çığırdı:

- Kişi dünyanı dağıdar. Zəhmət çəkib qız böyütmüşük. Sənin nə haqqın var alışıb-verişəsən, ay ərkansız!

- Məni satmaq üçünmü böyütmüşsünüz, ana?

Anam dinmədi. Krantı açıb, əl-üzünü yumağa başladı. Mən evə girdim. Pəncərənin qabağında məyus-məyus dayandım.

Dalandan anamın səsi gəldi:

- Haralıdır, ay qız?

«Görünür, o bu barədə danışıq aparmağa razıdır», - deyə düşündüm və cavab verməkdə bir az gecikdim.

Qapını açıb çağırdı:

- Bura gəl, görüm!

O, sanki xəlvət bir şey soruşur, heç kəs bilməsin deyə ətrafına





baxıb döyükürdü:

- Haralıdır o gədə, hayandandır?

- Qarabağdan.

Bir müddət anam dinmədi. Yəqin cavabımdan razı qalmışdı. Yenə soruşdu:

- Atası-anası varmı?

- Bir qoca atası var, anası çoxdan ölüb.

- Qardaşdan, bacıdan nəyi var?

- Ərdə bir bacısı var.

Anam daha kiridi. Mən bildim ki, o, Zahidin qohum-qardaşı haqqındakı cavablardan razı qaldı. Çünki «oğlanın anası yoxdur». Demək, qızı qayınana qeydi çəkməyəcək, evdə dedi-qodu olmayacaqdır. Anam, görünür, buna çox məna verirdi. Mən anamın susmasını fürsət bilib, şərti kəsmək istədim:

- Razısanmı, ana? Daha bir sualın, sözün varmı?

O gülümsündü və dedi:

- Mən heç bir şey bilmirəm, atandan soruş!

O özünü ciddiləşdirdi və səsini dəyişdirdi:

- İndiki oğlanlara nə etibar! Sabah elə olmadı, belə oldu.

- Necə oldu? Mən atama söz deyə bilmərəm.

Atam çox zaman işdə olurdu. İşıq idarəsində montyor idi. Sənətinə çox həvəsi var idi. İş paltarını əynindən çıxarmaq istəməzdi. Xatirini də istəyirdilər, ona etibar edərdilər. Çətin işdə, avariya vaxtlarında bir də görərdin, qapıda maşın səsləndi. Atam xörəyini qabağında qoyub yüyürərdi. Hər işi qaydaya salmamış qayıtmazdı. Anama yalvarmışdım ki, mən evdə olanda atama heç nə danışmasın!

Bu gün dərsdən qayıdanda atamı istirahət eləyən gördüm. Evdə özgə adam yox idi. Söhbətin açılmış olduğunu yəqin etdim. Atamın üzünə baxa bilməsəm də, kefi açıq olduğunu hiss edirdim.

Xəyalımdan keçdi: «Atam, deyəsən, razıdır».

Anam mətbəxdə qurdalanırdı. Yanlayıb qulağına əyildim və:

- Nə deyir? - deyə soruşdum. Anam eşitmədi, ya özünü eşitməməzliyə qoydu, bir də soruşdum:-Nə dedi?

Anam gözlərini mətbəx stolundan ayırmadı, ahəstə cavab verdi:

- Danışmamışam. İndicə gəlib.

Sən demə, o məndən gizlədirmiş. Bir də gördüm atam məni çağırdı. Stul çəkib əyləşdirdi, kefimi soruşdu.

O məni çox istəyirdi. Lakin indiki ehtiramında mən yeni bir istilik, səsində xüsusi bir nəvaziş duyurdum.

Qapını örtdü, yanımda oturdu. Üzümə yox, vərəqlədiyi kitabın cildinə baxa-baxa başladı:

- Qızım, Sitarə, bilirsən ki, biz, ata-anan səni necə istəyirik. Mənim fikrim-zikrim sənsən. Gözümün, necə deyərlər, ağı-qarası, görüb-görəcəyim oğlum da, qızım da sənsən. Tay-tuşların içində başıuca olmağını, həmişə xoş gün keçirməyini, ürəyinə zərrə qədər xiffət gətirməməyini istəmişəm. Bunun üçün əlimdən gələni eləmişəm, eləyəcəyəm də. Anan da bu cür, bizim böyük arzumuz var, gərək sənin xeyir işin, ömrümüz boyu çəkdiyimiz qəm-qüssənin hamısını yuyub aparsın. Ancaq, qızım, sənə bir ata məsləhətim var!

Atamın hər şeydən xəbərdar olduğunu bilib, qıpqırmızı qızardım, başımı aşağı salıb, dözmək istədim. Lakin atamın sözləri, indiyə qədər eşitmədiyim və bəlkə də, daha eşitməyəcəyim təsirli sözləri qüvvətli bir təlqin kimi məni aldı. Atam mənim toyumdan, köçməyimdən, cehizimdən, xəbər verirdi. Deməli, mən bu evdən, böyüyüb bəsləndiyim ana qucağından, ata yurdundan ayrılacağam. Bu mümkündürmü? Uşaqlıq, gənclik həyatımın əziz, qayğısız günlərini, xoşbəxt dəqiqələrini bu evdə töküb gedə bilərəmmi? Yox, yox! Mənim sevgilim də, ailəm də, gələcəyim də buradadır. Atamın, o mehriban anamın munis qucağı nə tez soyudu, nə tez mənə yad



oldu!

Gözlənilməz və kədərli bir duyğu məni aldı. Əvvəllər, icazə almaq arzusunda olduğum zaman atamı köhnə həyat qaydalarından silkinməmiş, sevgidən, məhəbbətdən uzaqlaşmış, sevdalı qəlbin mahnılarına yad bir adam kimi təsəvvür edirdim. İndi isə atam qarşımda böyük və həssas bir qəlb sahibi kimi dururdu. Sanki onun bir dəqiqəlik müqəddiməsi mənə kitablar qədər mənalı idi. Hər şey: keçmişim, gələcəyim, şən və acı dəqiqələrim, arzularım, həsrətli çağlarım, könül yoldaşlarım, hamısı, hamısı gəlib, gözümün önündə dayandı. Gözlərimdən axan səssiz damlaların yanaqlarımı islatdığını duyanda başımı daha da aşağı saldım, yaylıqla üzümü örtdüm. Atam məni sakit elədi.

Atamın sözləri məni sanki daxili həyəcandan ayıltdı, qəlbimə su səpdi. İndi o məni öyrədib, oxudub mübarizə meydanına yola salan, öz ixtiyarıma, öz bacarığıma tapşıran bir müəllim kimi görünürdü. Mən müəllimimin dediklərini ürəyimdə təkrarlayır, azmamaq üçün, onu şad etmək və özümü pis təsadüfdən qorumaq üçün düşünürdüm. Düşünürdüm ki, doğrudan da, Zahidin şirin söhbətləri, zahirən mülayim xasiyyəti mənim üçün ideal ola bilməz. Mən onun bir insan olaraq cəmiyyətdə, həyatda, xalq yanında nə qədər faydalı olduğunu yoxlamaq istəyirdim. Onu bərkə-boşa salıb, imtahandan çıxarmaq üçün fürsət, vasitə axtarırdım. Onun, atam dediyi kimi, daha nəyi sevdiyini və nəyə nifrət etdiyini bilməliydim. Mən bilməliydim ki, qoltuğunda gəzdirdiyi qalın kitabların nəyini sevir, nə üçün sevir. Bəlkə, bu, bir görkəmdir. Zahidin bütün xasiyyətlərini təsəvvürümə gətirir, bir-bir mühakimə edirdim. Onun yoldaşları ilə olan bir söhbəti yadıma düşdü və məni sevindirdi. O, tibb institutunu qurtarandan sonra kəndə göndəriləcəyinə təəssüf edən bir yoldaşına deyirdi:

«Mən bu məktəbə daxil olan gündən bilirəm ki, kəndə gedə-

cəyəm. Pis həkim olduğum üçün yox, kəndə yaxşı həkim lazım olduğu üçün gedəcəyəm. Mən axı komsomolçuyam. Mən kənddə çalışmalıyam. Getdiyim yerdə qızdırmanın kökünü kəsincəyə qədər qalacağam. Kəndlilərin uşaqlı-böyüklü sap-sağlam olduğunu, yanaqlardan qan damdığını, «qızdırma» sözünün ancaq nağıl kimi söhbətlərdə deyildiyini görəndən sonra, bəlkə, kənddən çıxan, bəlkə də, uzaq və kiçik kəndlərin birində bəzi adamların qanında gizlənib qalan qızdırma mikrobları ilə son mübarizə də mənə qismət oldu. Mən bununla xalqa bacardığım xidməti etmiş olaram».

Mən bir il də Zahidi ləngitdim. Etiraf edim ki, onu çox incitdim də. Ona inanmamağa heç bir əsas tapa bilmədim. Yanılmadığıma sevindim. Səhər evdən çıxanda atam üçün əl boyda bir məktub qoydum:

«Əziz atam, sizin tanıdığınız oğlana «hə» dedim. Siz çox evlərə, çox qaranlıq yerlərə işıq çəkirsiniz. İki gəncin könül otağında yenicə parlayan məhəbbət işığının sönməsinə, yəqin ki, razı olmazsınız!..»

Bizdə də, Zahidgildə də toya hazırlıq gedirdi. Zahid diplom işini bitirmişdi. Mən hələ çalışırdım. O, axşamlar gəlib mənə kömək edirdi. Dediyim kitabları tapıb gətirir, sitatların üzünü köçürür, qaralanmış vərəqləri ağardırdı.

Yayın əvvəllərində Zahidi hərbi stola çağırdılar. Bir il gedəsi oldu. Çağırış məntəqəsinə qədər onu özüm yola saldım. Mənə təsəlli verir, azı həftədə bir məktub yazacağına and içirdi, tez-tez cavab yazmağı xahiş edirdi:

- Heç bir hazırlıq işi üçün, - deyirdi, - özünü yorma. Sağlıq olsun, özüm qayıdan kimi hər şeyi düzəldəcəyəm. Sən diplom işini bitir, sonra otur dincəl, çox yorulmusan, sınıxmısan.

Öz yaxın yoldaşlarından bir neçəsi ilə onu Uzaq Şərqə yola salırdıq. Qatar hərəkət fitini verib, stansiyadan çıxdı. Qəlbim də onunla, pəncərədən çəkilməyən, əl edib mənimlə vidalaşan sevgi-



limlə getdi.

Mən diplom işimi bitirəndən sonra, həm onun tapşırığını yerinə yetirmək, həm də Bakının bərk iyul bürkülərindən qurtulmaq üçün məktəbdən putyovka alıb Kislovodska, sanatoriyə getdim.

Deyə bilərəm ki, bu yay ömrümün ən əziz, ən arxayın yaylarından biri idi. Məktəbi yaxşı bitirdiyim üçünmü, sevgimə nail olduğum üçünmü, sanatoriyanın dinc, təmiz və təmin olunmuş əyləncəli həyatından xoşlandığım üçünmü, vaxtımı təbiət döşündə, gül-çiçək içində keçirdiyim üçünmü, nə isə, bu günlər mən özümdə diləgəlməz bir xoşhallıq, xoşbəxtlik hiss edirdim.

Məni gözlənilməz və nagahani bir intizar tapdı. Bu o günlər idi ki, düşmənlərin qudurğanlığı həddini aşmışdı. Qəzetlər Yaponiya samuraylarının Uzaq Şərq sərhədlərində bizim torpağımıza soxulduğunu xəbər verirdilər. Bu xəbərlər xalqı həyəcana gətirmişdi. Milyonlarla zəhmətkeş müqəddəs sovet torpağını qorumaq üçün candan-başdan keçməyə hazır olduqlarını bildirir, samuraylara nifrət yağdırır, onlara qəti zərbə vurulmasını tələb edirdilər.

Qəzetlər Xasan gölü ətrafında olan döyüşlərdən xəbər verirdi. Mən ikitərəfli narahat idim. Sanatori həyatı daha nəzərimdə yox idi. Axşam istirahətindən sonra qızlar əl-ələ verib parka çıxanda, mən yayınırdım. Kənar, səssiz xiyabanlarda başıaşağı gəzinir, Zahidi düşünürdüm. Mənə elə gəlirdi ki, o yanımdadır. Budur, onun möhkəm əlinin istisi ovcumdadır. Solumda yeriyən addımlarından qum xışıldayır, mənalı söhbəti qulağımda səslənir...

Başımı qaldıranda teleqrafxana lampalarının işığı üzümə düşdü. Anama teleqram vurdum. «Çox nigaranam, mənə bir xəbər!» Əsəbi barmaqlarım qələmi elə bərk sıxırdı ki, pero kağızda yerimirdi.

Bütün gecəni gözümə yuxu getmədi. Alacağım sabahkı cavabı dü-şünürdüm: «Anam, yəqin ki, Zahiddən nigaran olduğumu bilir, ondan aldığım məktub, ya teleqramdan məni xəbərdar edəcəkdir».

İki gün səbirsizliklə gözlədiyim cavab məni daha da əsəbiləşdirdi. Anam yazırdı: «Biz yaxşıyıq, nigaran olma!»

Zahiddən heç bir xəbər bilə bilmədim. Evimizin də bir xəbər almadığına inandım. Məktub alsaydılar, mənə bildirərdilər. Bir də fikirləşirdim: «Bəlkə, bu, anamın sadəlövhlüyündəndir. Bəlkə, mənim teleqramımı duya bilməmişdir. Bəlkə də, onun məktublarını əziz bir sovqat kimi yığıb, qayıtmağımı gözləyir?»

Bu təsəvvürlər, şübhəsiz, məni rahat edə bilməzdi. Qəzetləri oxumaqla təsəlli tapırdım. Sərhəddə vuruşan döyüşçülərimizin dünyanı heyrətə salan qəhrəmanlığına sevinirdim. Zahidi də unuda bilmirdim. Cəbhədən gələn ümumi xəbərlərdən onun halını bilmək istəyirdim, sanki onun haqqında ayrıca yazılacaqdı... Hər səhər qəzet kiosku açılmamış növbəyə dururdum. Narahat da-yandığımı kənardan baxanlar da hiss edirdilər. Qəzet üçün dayananların içində qırmızıpaltarlı, sarışın bir qız var idi. O öz növbəsini gözləməyə dözə bilmirdi. Yanaşıb kənardan, mən baxdığım qəzetə baxırdı Onun bu hərəkəti mənə qəribə gəlmirdi. Lakin mənim əhvalımı hiss etmədiyinə, yaxud hiss edib maraqlanmadığına acığım tuturdu. Tanış olmasaq da, dillənməyə məcbur oldum:

- Mənim cəbhədə adamım var, sizə nə olmuşdur?

O, üzümə baxdı, sonra gözlərini qəzetin sütunlarına çevirib cavab verdi:

- Sizin bir adamınız oradadırsa, mənim minlərlə qardaşlarım oradadır, mənim müqəddəs vətən torpağım oradadır.

Mən qəzetləri oxuyub, radionu dinlədikcə, sanki Zahidi görürdüm. Gah hücumda, tozlu-dumanlı havalar içində dəstə ilə irəliyə doğru yüyürdüyünü, silahını bayraq kimi göyə qaldırıb «Ura!» çəkdiyini görür, sevincimdən nə edəcəyimi bilmirdim. Xəyalımda canlanan qəhrəmanların qalibiyyət səsini hamı eşitsin deyə, hər şeyi susmağa, dinləməyə çağırmaq istəyirdim.



Zahid cavandır, komandirdir. Ştabda oturmaz, atəş xəttində vuruşar! Odur, səngərə sığınmış, dizini yerə qoyub atan, üfüqdə başı tərpənən düşmənləri bir-bir dənləyən Zahid deyilmi? O, necə də əsəbidir! O boylanır, qartal kimi cummaq istəyir, hirsindən dişi dodağını kəsir. Amandır, Zahid, səngərə sin, güllə yağır! Bəzən də onu xəstəxanada görürəm. Başına ağ dəsmal bağlanmışdır, rəngi solmuş, üzünü yanaqlarına qədər tük basmışdır. Nə qədər də sınıxmışdır, əl sümükləri şəbəkə kimi görünür. O, gənc, həsrət nəzərlərini çevirib, başı üstündə dayanan şəfqət bacılarına baxır. Qaraxallı, ağxalatlı qız əyilib, onun nə istədiyini soruşur. O, cavab vermir, solğun gözləri ilə ağır-ağır sağına-soluna baxıb susur! Şəfqət bacısı onu anlaya bilmir.

Gözəl qız, mehriban qız, özünü yorma, Zahid ayrı adam axtarır, inandığı, könül verdiyi bir etibarsızı axtarır... Of... bu xəyallar nə qədər ağırdır! Başımdan ağrı qopur, gözlərimə qaranlıq çökür. Xəyallar, bir bıçaq kimi qəlbimə sancılan xəyallar, məndən uzaq olun dağlara, daşlara!

Bu tənha düşüncələrdən ayrılıb parka çıxmışdım. Yoldaşlarım məndən muştuluq istədilər.

Primorye döyüşçülərinin düşməni məğlub etməsi, torpağımızın samuraylardan təmizlənməsi haqqındakı son məlumatı qəzetdə oxudum. Qəzetlər bu qələbənin ayrı-ayrı səhnələrini təsvir edən maraqlı yazılarla dolu idi. Biz həvəslə bir-bir oxuyurduq. İç səhifədə «Vətənin oğlu» adlı bir oçerk çap olunmuşdu. Sanki mənim qulağıma pıçıldadılar: «Oxu!»

Mən xırda hərflərlə yığılmış sətirlər arasında qara və iri hərflə yazılmış Zahid kəlməsini görəndə ürəyim döyündü, ayağa qalxdım, qəzeti yoldaşlarımın əlindən aldım, sanki hərfləri gözümlə yeyəcəkdim. Onlar mənim hərəkətimə heyran qaldılar. Soruşdular, qalxıb qolumdan tutdular, dönə-dönə dindirdilər. Lakin mən heç

nə etmir, heç nə görmür, heç nə duymurdum. Bütün duyğularım gözümə cəmlənmişdi. Gözüm bir ada sancılıb qalmışdı. Ha istəyirdim oxuyum, ha istəyirdim görüm onun başında nə var, ha istəyirdim tez bilim, səadətimdənmi, müsibətimdənmi yazırlar, lakin nəzərim sətirlərdə yerimirdi. Mən titrəyirdim, ixtiyarsız diz üstə çökdüm. Qəzet əlimdən düşdü. Yoldaşıma işarə elədim.

- Oxu, tez ol, görüm, nə var?..

Onlar mənim bu oçerkdə adıçəkilən adamlardan birinə bağlı olduğumu duymuşdular. Ona görə ehtiyat edirdilər. Məni kədərləndirə biləcək heç nə demək istəmirdilər. Mən onların duruxmasına hirsləndim, bərk qışqırdım:

- Oxu, oxu, ay bacı, Zahidi oxu!

Yoldaşım ucadan oxudu:

«...Zahid adlı bir qəhrəman döyüşçünü on doqquz nəfər düşmən əhatə etmişdi. Gülləni dolu kimi yağdırırdılar. Mühasirədə, duman içində tək qalan o polad vücud, əl pulemyotu ilə düşməni yaxına qoymur, dumanda seçə bildiyi hədəfi dərhal aşırır, çətin dəqiqələrin ola biləcəyini düşünüb, patronu israf etmirdi. Düşmənlərin beşini öldürdü. Yeddi nəfər isə sürünə-sürünə irəliləyirdi. Görünür, düşmənlər qəhrəmanı diri tutmaq istəyirlərmiş. Zahid onların hənirtisindən yaxınlaşdıqlarını duyur, torpağı onların başına sovururdu. Onlar yenə irəliləyirdilər. Zahid birinin canavar kimi həris gözlərini görür. Əsəbiləşirdi, canından artıq sevdiyi sovet silahını bağrına basır, düşmən üzərinə ildırım kimi şığıyırdı. Uzaqda vuruşan döyüşçülər onun odlu səsini eşitmişdilər. O, düşməni vahiməyə salan nifrətlə bağırırdı:

- Canavar, sənə silahımı verməyəm! Öl, murdar!..

Mən ancaq buraya qədər dinləyə bilmişdim. Gözümü açıb özümü yatağımda gördüm. Qızlar məni təbrik edirdilər.

- Zahid sağdır. Zahid qəhrəmandır. Zahidi indi milyonlar





tanıyır, əzizləyir. Gör nə yazılıb:

«...Belə böyük qəhrəmanları olan xalq məğlubedilməzdir!»

Mən oçerki başdan-ayağa bir də oxudum. Zahidin əsl qəhrəman kimi vuruşduğunu, mühasirədən aslan kimi çıxdığını yazmışdılar. Yaralandığını da yazmışdılar. Səhifənin ortasındakı şəklə baxdım. Deyəsən, rəssam bu şəklə mənim baxacağımı bilirmiş. Onun silah çəkib hücum etdiyini, bükülməz qollarını, məğrur başını, geniş köksünü nə gözəl çəkib! Geri daranan bu sıx və qara saçlar onunkudur. Rəssam, yəqin, onu görmüşdür. Rəssam onu tanımamış deyil!

Mən bilet alıb, Bakıya qayıtdım. Anamın dediyinə görə, bacısı yaralandığını eşidib, ərilə Uzaq Şərqə gedib. Mən Zahidin adresini götürüb, vağzala getmək, bilet sifariş etmək istəyirdim. Atam mane oldu:

- Sənin getməyinə ehtiyac yoxdur, - dedi, - qayıt, otur yerində!

Anam da çox soyuq danışırdı:

- Hara gedəcəksən, ay qız? Ağlın azıb, nədir? Yollarda tək-tənhamı qalmaq istəyirsən? Qız oğlan dalınca getməz!

Xəyalıma gəldi ki, bəlkə, Zahidin başında bir iş var. Bəlkə, anam qəsdən məni soyutmaq üçün, mənim qüssəmi azaltmaq üçün belə danışır. Qayıdıb soruşdum:

- Ay ana, yoxsa Zahiddən xəbər bilirsiniz? Düzünü deyin görüm, oğlan haradadır?

Anam duruxdu, atam da anama baxdı. Mən onların baxışmasına məna verə bilmədim. Anam dedi:

- Nə olacaq, ondan ötrü niyə üzülürsən?

Onun sağ olmadığı haqqındakı şübhəm daha da artdı, ağlamaq məni boğdu. O biri otağa keçdim. Anam yanıma gəldi. Qolumdan tutub aparmaq, təsəlli vermək istədi. Mən başımı aşağı salıb, gözümün yaşını tökürdüm. Birdən anamın içini çəkdiyini eşitdim.

- Qonaq istəyirsinizmi?

Bu səsdə mən özümdən, səadətimdən, gəncliyimdən bir hiss duydum. Qışqırıb özümü Zahidin qucağına atdım.

O güldü və dedi:

- Yenə bunu kim incitmişdir? Sizə tapşırmamışdımmı? Ay Sitarə, bu nə halətdir, sənə ağlamaq yaraşmır. Məni təbrik et! Vətən torpağını düşmənlərdən təmizləməyimi təbrik et! Yoldaşının isti qanı ilə qoruduğu bu müqəddəs torpağı təbrik et!

O, dəsmalla gətirdiyi qanlı torpağı mənə göstərdi və dedi:

- Yaralarım məni haldan salanda, bədənim bir yarpaq kimi yüngül olub sözümə baxmayanda hirsimdən torpağı xışmalamışdım. Xəstəxanada bu qanlı torpağı əzizləyib saxladım. Sevgilimə, - dedim, - hədiyyə aparacağam. Qoy bu torpaq mənim səadətim və ilqarım üçün böyük andım olsun!

Mən danışa bilmirdim, sevincimdən dünyanı bir parça nur görürdüm. Ailəmizə böyük bir şənlik üz vermişdi. Qonum-qonşu tökülüb gəlmişdi. Çay qoyan, xörək hazırlayan, Zahidin hərbi geyiminə, döşündə gün kimi yanan ordeninə baxır, onun əlini sıxırdı.

1938



## DOST GÖRÜŞÜ

Məzuniyyətdə idim. Cibim dolu, kefim saz. On-on beş günümü şəhərdə keçirtdim. Sonra doydum, darıxdım. Əziz dostlarımdan biri, uşaqlıqdan məktəb yoldaşım olan Fətulla yadıma düşdü. Onun şəhərə yaxın kəndlərdən birində evlənib kök saldığını, müəllimliklə məşğul olduğunu bilirdim. Bazar ağzına çıxıb, maşınların birinə oturdum. Birbaş kəndə yollandım.

Fətulla mənim dostum idi. Özü də, münəqqidlər demişkən, «sözün əsl mənasında» dostum idi. Bilmirəm, lüğət yazanlar dost sözünə nə mənə verirlər, amma mən öz «lüğətimdə» dost o adama deyirəm ki, öz qəlbimi onun köksünə, onun qəlbini öz köksümə qoymağa razı olum, o da razı olsun. Bu razılıqdan doğan bütün nəticələr, gərək ki, öz-özünə məlumdur. Fətulla ilə belə dost idik. Mən həyatımda olan bütün işləri (xeyir, şər, fərqi yoxdur) hamıdan qabaq ona bildirməyi, məsləhətləşməyi borc və daxili bir ehtiyac sayırdım. Beş-on gün görüşməyəndə, bu müddətdə yaşadıqlarım, təsirlərim mənə yarımçıq və natamam gəlirdi. Bütün ləzzətlərin dadı o zaman damağımda duyulurdu ki, onlar haqqında Fətulla ilə söhbət etmiş olam.

Ancaq həyat özü qəribə, bizdən asılı olmayan və izahı çətin qanunlarla qurulub. İş dəyişir, yaş dəyişir, baş dəyişir, bunların nəticəsində zövq də dəyişir. Əziz dostunun bəzi hərəkətləri sənə artıq xoş gəlmir, səninki də ona. Görürsən, onun səndən də əziz dostu tapıldı, sənin ondan da mehriban dostun var imiş. Hər şeyin təzəsi, deyirlər, dostun köhnəsi. Mənim zənnimcə, təzəlik, ya köhnəliyin burada əhəmiyyəti azdır. Dostun sədaqətlisi yaxşıdır. Sədaqət olmayandan sonra, yüz ilin köhnəsi olsun, nəyə lazımdır? Əslinə baxsan, belə söhbətlər Fətulla ilə mənim barəmdə lap artıq-

dır, çünki biz dost olanda müzakirəyə qoyub dost olmamışıq və hələ aramızda belə müzakirələrə səbəb olan heç bir hadisə baş verməyib.

Bəli, dedim ki, dostum Fətulla yadıma düşmüşdü, maşına oturdum. Elə anlaşılmasın ki, Fətullanı bu neçə ildə unutmuşdum, birdən xatırladım. Heç vaxt, nəinki unutmaq, hələ mən həmişə xəyalımda özümü məzəmmət edərdim ki, onun işi kənddədir, külfət sahibidir, hər saat gələ bilmir, mən getməliyəm axı. Məhz məzuniyyət vaxtında Fətulla ilə görüşməyi niyyətimə qoymuşdum.

Bazar ağzında həmin bu niyyətim yadıma düşdü. Maşına oturub getdim. Maşın məni xəzəlli, əyrim-üyrüm yollarla gətirib Çanaqçı kəndinə çıxartdı. Bir kəndlidən soruşdum ki, Fətulla müəllimin evi haradadır? Göstərdi. Çay qırağında, alçaq divarlı, tay darvazalı bir həyət idi. İçində meyvə ağacları da var idi. Maşını yola salıb, dar küçə ilə ora yanaşdım, qapını döydüm.

Ayağında köhnə, böyük bir başmaq sürütləyən qız uşağı qapıya gəldi. Beş-altı yaşı olardı. Belə başa düşdüm ki, Fətullanın evləndiyi dörd il, ya dörd il yarım ancaq olar. Onun bu yaşda qızı hardandır?

- Fətullanın evi budurmu? - deyə soruşdum.

- Bəli, - deyə qız cavab verdi.

- Özü evdədirmi?

Qız ikinci sualıma cavab vermədi. Qayıdıb evə getdi. Bir dəqiqə çəkmədi ki, qaça-qaça gəldi:

- Deyir, buyursun!

Mən eyvanda qaloşumu çıxarıb, evə girəndə ayrı bir mənzərə gördüm. Hərarətli görüş üçün, sevinmək, gülüşmək, qucaqlaşmaq niyyətilə daxil olduğum evdə bir qış soyuqluğu məni dondurdu. Fətulla evin yuxarı başında, çarpayıda yaman gündə yatırdı. Onu çətin tanımaq olurdu. Dolu sifətli, qırmızıyanaq, şən və gülümsər müəllimdən quru bir qəfəs, şam kimi işıldayan bir cüt göz qalmışdı. Məni görən kimi Fətullanı qəhər tutdu, gözləri yaşardı. Başını



yastıqdan götürməyə, dirsəklənməyə çalışdı. Dodaqları tərpəndi, zəif səs ilə nə isə dedi. Xəstənin yanında oturdum. Nəbzini əlimə aldım, halını soruşdum. Arvadının deməyinə görə, xəstələndiyi bir aydan artıq idi. On beş gün rayon xəstəxanasında yatmışdı. Özünü babat hiss edən kimi, uşaqları üçün qəribsəyib, dözməmiş və onu evinə gətirmişdilər. Evdə sinəsindən qan açılmış, get-gedə vücudu əriyib, qüvvətdən, taqətdən düşüb...

Kənd həkimi hər gün müalicəyə gəlirmiş. Onun yazdığı reseptlərə baxdım. Mənə elə gəldi ki, bu dərmanların Fətullanın xəstəliyinə dəxli azdır. Xəstəyə zəhmət də olsa, onu mən əməlli-başlı müayinə etdim. Bütün bacardığımı işlətməyə baxmayaraq, kənd həkiminin diaqnozundan bir əlamət tapa bilmədim. Yəqin ki, həkimi qorxudan xəstənin sinəsindən gələn qan imiş. Qanı kəsmək üçün isə belə dərman vermək olmaz. Bu dərmanı xəstə qadınlara, özü də az bir miqdarda vermək olar.

Fətullanın ailəsi: arvadı və körpə uşaqları ailə başçısını ağır naxoş görüb, külək vuran zərif bağ bitkiləri kimi soluxmuşdular.

Qadın mənim Fətullanı diqqətlə müayinəmi ümid və intizarla gözləyirdi. Cəld hərəkətlərilə xəstəyə və mənə kömək edir, hər dəmdə xəstənin gecələr sayıqladığını, çay və dərmandan başqa heç nə içmədiyini, yemədiyini şikayətli bir ifadə ilə deyirdi. Dostumun bu vəziyyəti məni çox kədərləndirdisə, kənd həkiminin müalicəsi də lap əsəbiləşdirdi. Dərman kağızlarını cırıb tullamaq, evinə adam göndərib çağırtdırmaq istədim. Belə bir təlaşdan ailənin daha da təşvişə düşə biləcəyini düşünüb, özümü sükuta məcbur etdim. Fətullanın başaltısını hündür etdirdim, oturub həkimin gəlməyinə müntəzir oldum.

Bəli, axşama yaxın bir də gördüm əlində bir itdöyən ağac, qoltuğunda nə isə qəzetə bükülmüş bir bağlı, ortayaşlı, gödərək bir kişi içəri girdi. Onun adını bilmirdim, ancaq «Mirzə» deyirdilər.

Mirzə çox arxayın və ərkyana bir əda ilə soyunub, yuxarı başa keçdi. Üzünü qadına tutdu:

- Hə, - dedi, - necədir, öskürək çoxalıb, azalıb, qan gəlib, ya yox?

Qadın nə isə cavab verdi. Mirzə xəstənin nəbzinə baxdı, o yan-bu yanına keçdi, çəliyini əlinə aldı və bağlamasını qoltuğuna vurdu:

- Dediyim qayda ilə dərmanı içirdərsən, gecələr üstünü də möhkəm örtərsən...

O çıxmaq istəyəndə, mən dilləndim:

- Mirzə, - dedim, - bu yazığın bir sürü külfəti var, mümkün etsəniz, müalicəsilə ciddi məşğul olun, halı ağırdır.

Mirzə qayıdıb, mənə əyri-əyri baxdı:

- Ciddi, ya qeyri-ciddiliyini siz nədən bilirsiniz? Təbabətin qayda-qanunu var. Necə ki, lazımdır, rəftar olunur. Bu, pambıq planı deyil, artıqlaması ilə, necə deyirlər, vaxtından əvvəl zad eləyəsən...

Mənim səfər geyimim bir o qədər yaxşı deyildi. Sakit oturmağım da həkimə başqa təsir bağışlaya bilməzdi. Hətta o mənim xahişimi lağa da qoyurdu. Bundan məlum idi ki, Mirzə məni çöl adamı, ya da təsadüfi yolçu sayırmış. Mən qalxdım, onun yazdığı resepti götürüb, latınca yazılan sözləri ona oxudum və dedim:

- Doktor, məni bağışlayın, sizin yazdığınız dərman qadın xəstəlikləri üçündür. Sizin diaqnozunuz yanlışa oxşayır...

Latın sözləri mənim ağzımdan çıxanda Mirzə bir diksinən kimi oldu. Özünü yığışdırdı, yaxın gəlib, resepti məndən aldı. Baxa-baxa qaldı. Guya oxuyurdu. Halbuki qıpqırmızı qızarmışdı, gicgahında tər damcıları işıldayır, xəcalətindən başını kağızdan qaldıra bilmirdi. Mən ona kömək etdim:

- Doktor, - dedim, - mənim fikrimcə, xəstənin dərdi belədir.

Mirzə mənim danışığımdan həkim olduğumu yəqin etmişdi.

- A səni sağ olasan, - dedi, - bu qüvvəniz var idi, niyə bir az qabaqdan gəlmirdiniz?





Mirzə xəstənin dərmanını mən dediyim kimi dəyişdi, mənim kim olduğum, haradan gəlib, hara getdiyimlə maraqlandı. Mən hamısını danışdım.

Lakin Mirzənin canına düşən qorxu bir dəqiqə də olsun simasından çəkilmirdi, bütün hal və hərəkətində hiss olunurdu. Qalxıb getmək istəyəndə məni həyətə çağırdı:

- Görürəm, - dedi, - siz bir alicənab adamsınız, gəlin mənim çörəyimə bais olmayın. Bildiyinizi, bir daş üstdən, bir daş altdan, qoyun burada qalsın.

- Necə bilirsiz, - dedim, - Mirzə, Fətulla sizin müalicənizlə dirilə bilərmi?

Mirzə dinmədi. Ağacını ata-ata başıaşağı bir az yeridi. Sonra mənə tərəf döndü:

- Bilirsiniz, günah bizim müəllimlərimizdə olub, siz alan bilik, əlbəttə ki, bizə qismət olmayıb...

Mirzəni qapıya qədər yola saldım, qayıtmaq istəyəndə qolumdan tutdu:

- Xahişimi yerə salmayın. Mən də bir bölük külfət sahibiyəm...

- Qorxmayın, - dedim, - Mirzə, mənim heç kəsə pisliyim dəyməz. Ancaq bu barədə sonra danışarıq.

Mən qollarımı çirməyib, Fətullanın müalicəsilə məşğul oldum. Fayton tutdurub, rayona - aptekdən bəzi şeyləri almağa adam çağırtdım. Fətullanın evində, demək olar ki, xəstəxanaya yaraşan bir şərait düzəltdim.

Xəstənin yaxşılaşması, irəli gəlməsinin bir səbəbi də onun mənəvi cəhətdən, ruhən dinc və arxayınlığıdır. O, mənim müalicəmə və özümə inandığı üçün bütün tapşırıqlarıma boyun əyir, öz-özünə diqqət yetirməyə çalışırdı. Həm də darıxmağa qoymurdum. Özüm darıxsam da, yanında oturub söhbət edir, yuxu vaxtında ətrafda sükutu təmin edirdim. Ayıq zamanında Fətullanı əyləndirir,



xəstəliyini unutdurmağa çalışırdım.

Mirzənin vəziyyəti Fətullanı da düşündürürdü. O da hərdən hirslənir, Mirzənin məsuliyyət duymayan adam olduğunu deyirdi.

Gəlişimin on dördüncü günü Fətulla tamam sağalıb durmuşdu. Hətta kənd həkimi bu gün bizi evinə qonaq çağırmışdı. Mən gedə bilməyəcəyimi bildirdim. Fətulladan qabaq arvadı razı olmadı:

- Yox, mümkün olsa, ürəyini sındırmayın, - dedi.- Bir də siz çıxıb şəhərə gedəcəksiniz, biz həmişə Mirzə ilə üz-üzə gələcəyik, işimiz düşəcək. Elə olmasın ki, incisin, yaxşı olmaz...

Mən o gün şəhərə qayıdırdım. Mirzəni yol ağzına çağırıb dedim:

- Neçə ildir buradasınız?

- On bir il var.

- Bu qəbiristanlıqda yatanların neçə faizindən xəcalətlisiniz?

Mirzə qarşıda, yamacda düşən qəbiristanlığa, mənə və sonra çəkməsinin ucu ilə eşələdiyi torpağa baxdı:

- Onların hamısından artıq sizin yanınızda xəcalətliyəm. Ancaq bir xahiş idi, elədim. Nə olar, adamın adama işi düşər.

- Mirzə, - dedim, - sizə pisliyim dəyməyəcək, buna lap arxayın ola bilərsiniz. Camaatı belə, baytarcasına müalicənizə qarşı isə susa bilməyəcəyəm. Bunu da yəqin edin.

Mirzə qızardı və duruxdu:

- Bildim, deməli, mənə nə etsəniz, hökumət əlilə edəcəksiniz. Hə! Həm öz əlinizlə, həm də hökumət əlilə!

- Necə yəni! - deyib, Mirzənin qolundan tutdum və onu yoldan kənara çəkdim. Divar dibində, daş üstündə oturduq. - Ayda neçə alırsınız? - deyə sual verdim.

- Beş-altı yüz.

- Sizə bir yüngül qulluq düzəltsəm, özünüzü də tibb işçilərinin ixtisas kursuna qəbul etdirsəm, necədir?!

Mirzə sevindi:

- Oxumağa mənim başmaqlarım da razıdır. Ancaq ailə dolansın.

- Ailəli olduğunuz üçün sizə təqaüd də verərlər. Qulluqdan da alarsınız, heç olmasa, bir-iki il oxuyun, onda görərsiniz elm aləmində yeni nələr var. Səhvinizi anlarsınız, hazırlaşıb düz-əməlli həkim olarsınız, mənim kimisinin yanında diliniz də gödək olmaz.

Doğrudur, Mirzə mənim sözlərimə «bəli», - deyir və əlini gözü üstünə qoyurdu, amma sifətindəki nigarançılıqdan bəlli idi ki, vədlərimə inanmır, onun səhvini aləmə yayacağımdan, vəzifədən qovduracağımdan qorxur.

Mən artıq heç bir şey demədim, Fətulla ilə xudahafizləşib, şəhərə gəldim.

Mirzəyə verdiyim vədi yerinə yetirmək üçün rayon səhiyyə işçiləri də mənə kömək etdilər. Mirzə ilə şəhərdə görüşəndə o, əlimi sıxır və vicdanına and içirdi:

- Ya loğmana bərabər həkim olacağam, ya da ki, bu sənətdən tamam əl çəkəcəyəm. İndi görürəm ki, mən necə avam imişəm!..

O, kursla kifayətlənmirdi, tibb institutunda mühazirələrə də davam edirdi.

1938



# KƏMTƏROVLAR AİLƏSİ

*Hörmətli ədibimiz Ə.Haqverdiyevə*

- Yallah, yallah! Haradasan? Kefin necədir?
- Sən nə təhərsən?
- Göz dəyməsin, qıvraqlaşmısan, rəngin açılıb.
- Bir qıvraqlığım yoxdu. İşdən baş açıram ki?
- Neyləyək ki, bir görüşək?
- Bu vıxodnoy zanitəm. Gələn vıxodnoy bəlkə...
- Sən evdə olacaqsan?
- Söz versən, gözləyərəm.
- Gözlə, birtəhər eləyib gələrəm.

Bir-birinin əlini hərarətlə sıxan, əhvallaşan bu əziz dostlar görəsən kimdir?

Desəm onların ikisi də bir şəhərdə yaşayır, inanmayacaqsınız. Desəm onlar bir evdə yaşayırlar, heç inanmayacaqsınız. «Necə ola bilər ki, bir yerdə yaşayasan, bir-birindən xəbərsiz olasan?» - deyəcəksiniz. Desəm onlar ər-arvaddırlar, təəccüb edib, deyəcəksiniz: «Nə danışır bu!»

Nəyə deyirsiniz and içim ki, belədir: Qulam Kəmtərovla arvadı Leylanın həyatı belədir. Deyəcəksiniz yəqin Kəmtərovla Leyla keçmişdə, bir zaman ər-arvad olublar, sonradan xasiyyətləri tutmayıb, ayrılıblar, bir yerdə yaşamaları da mənzilsizlik bəlasıdır. Xeyr, sizin bu gümanınız da düz deyil. Nə Kəmtərov Leylanı boşayıb, nə Leyla Kəmtərovdan boşanıb. Əgər günü bu gün mənzil idarəsinin müdiri Kəmtərovu, ya Leylanı çağırıb, üçüncü qatda dörd otaqdan ibarət bir qurulu mənzilin açarını verə, təklif edə ki, biriniz köhnə mənzildə qalın, biriniz köçün, heç biri köçməz. Birbaş qayıdıb, öz evlərinə gələrlər. Mənzil idarəsinin də zəhməti hədər gedər.

Məsələ bunda deyil.

Bəs nədədir?

Kəmtərovu sizə tanıtmaq üçün gərək bir az vaxtınızı alam. Kəmtərov Qulamla Leyla, bayaq dediyim kimi, ər-arvaddırlar. Özü də «xala-xatirin qalmasın» yox. Lap istəkli, şairlər demişkən, aşiq-məşuqdurlar. Cəmi iki il olmaz ki, toy ediblər. Asanlıqla da toy etməyiblər. Leyla Qulamın ucundan bir il ata-anası ilə küsülü qalıb. Qulam Leylanın uğrunda İçəri şəhərdə bıçaqlanıb, qulağının dibində yaranın yeri indi də durur və ölənəcən duracaq. Qış da onları bir-birindən soyuda bilməz. Qulamın şorgöz oğlanlardan acığı gəlir. Leyla da könlü, gözü tox qızdır. Yer üzündə Qulamdan başqa kişi olduğuna inanmaz.

Bəs bu istəklilər niyə belə çətin görüşür, az-az görüşürlər? Mümkün deyil ki, ər-arvad olasan, istəkli olasan, bir evdə yaşayasan, həftə ilə görüşməyəsən. Ürəyinizə şübhə gələ bilər: «Bəlkə açıq deyilməsi ayıb olan səbəblər üçün görüşməyə ehtiyac duymurlar».

Yox, heç yox!

Onu da bilin ki, nə Qulamın, nə Leylanın qulluğu uzaq - kənar-guşə yerdə və ya namünasib qulluq deyil. İkisi də şəhərdə çalışır. Onların qulluğunda olan minlərlə qız, oğlan, ər, arvad qəşəngcə yaşayır, günün çoxunu evdə, öz külfətləri ilə olurlar.

Bəs bizim qəhrəmanların azarı nədir?

Bu, bir az köhnədən qalma azardır.

Başdan danışaq. Deyə bilərəm dünyada beş nəfər arvadını sevən varsa, biri Qulam Kəmtərovdur. Kəmtərovun nə eşqlə, nə sevda, nə həvəslə toy edib, Leylanı evinə gətirdiyini qələm yazmaqda acizdir. Ona elə gəlirdi ki, dünyanın bütün neməti, kef və ləzzəti Leylanın üzündə cəmlənmişdir, Leylanı alsa, həyatda bir arzu-kamı qalmayacaq, tamam xoşbəxt olacaq.



Kəmtərov düşünürdü ki: «Bu mənim ən ağır və ən son çətinliyimdir. Toy dəsgahını tamam-kamal düzəldib, xeyir işimi başa versəm, daha ömür-billah arxayın olaram. Sonra bir tikə yavan çörək də tapsam, sevgilimlə qabaq-qabağa əyləşib, ağız ləzzəti, iştaha ilə yeyərəm».

Ancaq, necə deyərlər, insanın gözünü torpaqdan savayı heç nə doyurmaz. Kəmtərov xeyir işini bitirəndən, dünyada ən böyük arzusuna çatandan sonra bir də gördü ki, xeyr, indi də ürəyi yeni-yeni şeylər istəyir. Könlü min bir eşqə düşür. Hardansa, baharda bitki kimi göyərib baş verən arzu və ehtiyaclar kişini məşğul etməyə başladı. Dünya gör-götür dünyasıdır.

Leyla görürdü ki, artist Eyyubun arvadı barmağında cüt-cüt brilyant üzük, qulağında bahalı sırğa qırğı kimi gəzir. Görürdü ki, qıyıq Ələkbərin üçmərtəbə evinə hamballar pianino çıxarır; qoz ağacından düzəlmə mebel daşınır, bədənnüma güzgü, Varşava çarpayısı, Quba xalçası gəlir. Leyla bunların hamısını görürdü və Kəmtərova danışırdı. Kəmtərov qaşlarını çatır, başını tərpədib, arvadını inandırırdı:

- Bilirsən nə var, Leylacan, biz gərək işləyək. İşləyək. Lap möhkəmcə işləyək! Mənim də qeyrətim qəbul eləməz. Qıyıq Ələkbərin nəyi məndən artıqdır? Özümüzü oda-közə vursaq da, gərək bir dəsgahlı ev-eşik düzəldək. Qonşular baxsın, yana-yana qalsın.

Leyla ərinin məsləhətindən çıxan deyildi. Təki pul olsun...

Kəmtərov əvvəlcə Leylaya bir iş soraqlaşdı. Leyla qızlığında maşinistkalıq etmişdi. Bu sənəti pis bilmirdi. Kəmtərov arvadına iki yerdə iş tapdı: Azərittifaqda və Ünvanlar bürosunda. Bir çox götür-qoydan sonra hələlik, rast gəlmişkən, hər iki yeri əldə saxlamağı məsləhət bildilər. Azərittifaqda iş səhər səkkizdən dördə qədər, Ünvanlar bürosunda axşam saat beşdən on birə qədər idi. Leyla iki növbə ilə işləməyə razı oldu. Kəmtərov onu ev işindən, sil-süpürdən

tamam azad etdi.

Leyladan arxayın olandan sonra Kəmtərov özünün boş vaxtlarını «doldurmağa» başladı. Kəmtərov zirək və savadlı adam idi. İş tapmaq onun üçün su içmək kimi asan bir şey idi. Özü nəşriyyatda tərcüməçi idi. Səhər saat ondan gedib, altıda çıxırdı. Bir saat dincini alandan sonra, yəni saat səkkizdən on ikiyədək layihə idarəsində olurdu. Fikirləşib gördü ki, iki növbədə işləsə də, arada yenə boş vaxtı var: «Səhər saat onadək yatmaq bu zəmanənin adamına, xüsusən «roskoşni» güzəran qurmaq istəyən bir abırlı kişiyə heç yaraşmaz. Yarım, ya bir növbə işi rahat apara bilərəm. Beş-altı yüz manat alsam, əlimi qaraltmaz ki...»

Kəmtərov daha bir yeni iş tapdı. Gecə saat on ikidən dördədək «İşıq» mətbəəsində korrektor vəzifəsi var idi. Ayın səkkizindən Qulam mətbəədə yeni, əlavə qulluğa düzəldi.

Bu gün Kəmtərov toy gecəsindəkindən az sevinməmişdi. Haqq-hesaba vurub görürdü ki, özünün üç qulluğunu, Leylanın iki qulluğunu, bir az da «o yan-bu yandan gələn əl xərcliyini yığıb-yığışdıranda bir neçə minə çıxır. İki-üç il belə getsə, çervonu yığıb-yığışdırmaq olmaz. Di qoy Ələkbər gəlsin, qıyıq gözü ilə gətir-götürümüzə baxsın!»

Payızın soyuq günlərində ağzından buğ çıxa-çıxa Kommunist küçəsilə başıaşağı yeyin gedən boz paltolu adamı kim görməmişdir? Onun üzündən, gözündən, baxışından, yerişindən tələsmək yağır. Elə gedir ki, deyərsən yerə dəysə, min parça olar. Sürtülməkdən rəngi dəyişmiş köhnə və «hamilə» portfelini bu qoltuğundan o birinə verir; gah əlini cibinə qoyur, gah damağındakı papirosu barmaqları arasına alıb sıxır, gah çəkməsinin sallanan bağına baxır, məna vermir, daha da yeyinləyir. Bəzən görürsən Kəmtərov qopdu, nə qopdu! Tramvay sürətlə ötdüyü halda quş kimi atılıb minir, milis ağzını açmamış çıxardıb bir üçlük verir, qəbz almaq istəmir. Uzaq



tanışlarına bir işarə ilə salam verir. Yaxın tanışlarını görür, görməzliyə vurur: «Müftə yerə niyə vaxt itsin?» Vaxt alan hər bir əyləncə Kəmtərovun düşmənidir. Onu ictimai yerlərdə görməzsən. İş yerində ancaq vacib, ad yoxlanan iclaslara gələr, adını qeyd etdirib, xəyal kimi gözdən itər. Teatr, kinolar barədə yoldaşlardan eşitdiyilə kifayətlənər.

Bəzi yazıçılarla şəxsən tanış olduğundan, əsər oxumağa ehtiyac duymaz. Qohum-əqrəbası rayondadır. Buradakılar isə Kəmtərovun ünvanını ələ keçirə bilmirlər. Kəmtərovun şəxsi, ictimai həyatı beləcə öz qaydasındadır.

O, ailədə daha ciddi, daha səliqəlidir. Bir adam onun evindən səs-küy, qalmaqal eşitməyib. Qapı açıq olanda olur, olmayanda girvəngəlik qıfıl qarovul çəkir, evə quş səkmir. Kəmtərov səhər saat onda yuxudan qalxır. Deyəcəksiniz onda işə gedən adam heç olmasa bir saat tez durmalıdır. Doğrudur, durmalıdır, amma unutmayın ki, yazıq Qulam mətbəədən, təshih işindən tez qayıdanda gecə saat dörddə, beşin yarısında qayıdır. Necə qayıtdığından özünün də xəbəri olmur. Qəzetin axır səhifələrini mürgüləyə-mürgüləyə, alnı tıqqıltı ilə stola dəyə-dəyə oxuyur. Birtəhər özünü evə salır, çul kimi düşür.

Qulam olmasın, siz olun, saat doqquzda dura bilərsinizmi?

Kəmtərovun səslənən bir stol saatı var. Qulağının dibində qoyur. Vaxta on dəqiqə qalmış saat qışqırır. Kəmtərov dəli kimi yuxudan qalxır, tələm-tələsik geyinir, qapını bağlayıb qaçır.

Leylanın da işi Qulamınkından əskik deyildi. Atalar deyib: «Arvad ərinə oxşayar». Xülasə, baş elə qarışmışdı ki, Qulamın Leyladan, Leylanın Qulamdan xəbəri olmurdu. Qulam gecə mətbəədən qayıdanda sevgilisini yatmış görürdü. Leyla səhər işə gedəndə Qulamı şirin yuxuda qoyub gedirdi. Vacib sözü olanda balaca kağız yazıb, stolun üstünə qoyurdu: «Qulam, qayğanaq

bişirəsi olsan, yumurta bufetin alt gözündədir, yağ da taxçada». Qulam da gedəndə Leyla üçün kağız qoyub gedirdi. Onların arasında əməlli başlı bir məktublaşma var idi. Ancaq markasız, poçtalyonsuz ötüşürdülər.

Leylanın məktubları bu məzmunda idi: «Dəyişiklərini tiyanın içinə tulla, paltaryuyana göndərəcəyəm!» «Açarı asma. Çarhovuzun üstündəki kərpicin altına qoy, görən olmasın». «Redaksiyadan dalınca gəlmişdilər, zəng vur».

Qulamın məktublarından ələ keçən bunlardır: «Qadası, mənim soyuz kitabçamı görməmisən? Tapsan, stolun yeşiyinə qoy». «Maşinkada yazmağa vaxtın olsa bizim idarədə xaltura var, gətirim». «Adama cavab niyə yazmırsan? Dediyim məsələ necə oldu?»

Bu qısa və gündəlik məktublar Kəmtərovlar ailəsində yeganə və əsas münasibət idi.

Qulamla Leylanın sevgi və məhəbbəti bu məktubların qara, dolaşıq, tələsik xətlərindən keçirdi. İnsan hər şeyə alışarmış! Bu sevgili ər-arvad qurduqları yeni yaşayışa elə öyrənmişdilər ki, «köhnə» həyatı tamam unutmuşdular. Onlar indi belə güman edirdilər ki, dəm-dəsgahlı ev qurmaq istəyənlərin, oxumuşluğun, qarşılıqlı sevgi ilə qurulmuş ailənin qaydası belədir ki, var.

Doğrudur, Leyla yazırdı ki: «Açarı kərpicin altına qoy, görən olmasın», Qulam da çalışırdı öz istəklisinin tapşırığını yerinə yetirsin, amma olacağa çarə yoxdur, açarı görən olmuşdu...

Bir Sarıköynək qadının hər gün saat ondan, Qulam gedəndən sonra gəlib, qayda ilə kərpicin altından açarı götürdüyünü, öz evi kimi Kəmtərovların otağını açdığını və tərtəmiz silib süpürdükdən sonra çıxıb getdiyini qonşular görmüşdülər. Onları şübhədən çıxarmaq üçün Sarıköynək qadın deyirdi: «Mənə özləri tapşırıb, bacılar, ürəyinizə bir şey gəlməsin».



Dili dinc durmayan qonşu qadınlardan biri Sarıköynək qadının gəlib-getdiyini Qulama dedi. Qulam güman etdi ki, Leylanın gətirdiyi qulluqçu qadın olacaq. Leyla da düşünürdü ki, Sarıköynək qadını Qulam çağırıb, səliqə sahman üçün çağırıb. Eşidən kimi qonşuya sualı bu oldu:

- Cavandı, ya qoca?

- Ahıl adamdır, bir nazik...

Leyla Qulamın pis niyyətə düşmədiyini bilib, arxayın oldu. Daha bu barədə söhbəti artıq sayıb, qapıdan çıxdı.

Bu günlərdə belə məktublar yazılırdı: «Mənim ipək paltarımı hara qoymusan?» «Zayomları tapa bilmədim. Çıxart yoxlayaq, yeni uduş var». «Gümüş qaşıqlar hardadır?» «Dünən bir qadının başında, lap səninkinə oxşar bir şal gördüm. Az qalmışdım səni dəyişik salam».

Sarıköynək qadın isə öz işində idi. Hər gün gəlib evi süpürür, zəhmət haqqı üçün də ağlı kəsən, evdə gözə dəyən şeylərdən birini sarı köynəyinin altına vurub, soldat bazarına aparırdı. O, Qulamın da, Leylanın da iş peşəsini, üst-alt paltarlarını, qulluq vaxtlarını yaxşıca öyrənmişdi. Odur ki, evə çox arxayın gəlib-gedirdi. Hətta bir dəfə «köhnə paltar alan» pullu müştərilərdən bir-ikisini özü ilə lap evə gətirmişdi. Qulamın bufetindəki şüşələrdən pivə töküb, bir-birinin sağlığına və bu pivəni bazardan alıb gətirənin sağlığına içmişdilər. Sonra yük yerindən yorğanlardan soyduqları ipəyi, çarpayı xalçasını, sandıq şeylərindən dəyərlisini ortaya töküb sövdələşmişdilər.

Pullu müştərilərlə yollaşandan, çervonları alıb yerbəyer edəndən sonra Sarıköynək qadın Qulamın məscidə dönmüş evinə baxıb, ürəyində demişdi: «Yox, balam, daha mən bir də bura nə üzlə gələ bilərəm!.. Həmişəlik xudahafiz!»

- De görüm, bir korrektor kimi səhifəni oxuyub, qol çəkmisən,

ya yox?

- Bu nə sözdü, yoldaş redaktor? Siz məni o qədər məsuliyyətsiz sayırsınız ki, guya oxumamış da qol çəkərəm?

- Deməк, oxumusunuz?

- Əlbəttə, özü də kəlmə-kəlmə!

-Bəs bu nədir: «işləyirlər» əvəzinə «dişləyirlər» gedib?

Qulam qəzetin o yerinə diqqətlə baxdı. Ciddi vəziyyətini pozub dedi:

- Bu heç, buna səhv deməzlər! Gözdən qaçıb, yoldaş redaktor. Bir də, işləyib, dişləyib, ikisi də bir sözdür. Yəni düz gəlir. Bizim qaydamıza lap tuş gəlir ki, işləyən dişləyər, işləməyən dişləməz!

Redaktor qəzeti çəkib, Qulamın əlindən aldı:

- Neçə yerdə işləyirsən?

Qulam dik-dik baxdı:

- Bunun məsələyə nə dəxli var?

- Soruşuram, neçə yerdə işləyirsən?

- Cəmisi bir-iki...

- Nəşriyyatda çalışırsan?

- O heç... səhərdi o.

- Layihə idarəsi necə?

- Cəmisi bir altı saat.

- Zaqotzernoda necə?

- Yoldaş redaktor, o zdelnidir!

Redaktor hirsləndi:

- Yaraşarmı sizə, yaraşarmı bu qədər yerdə...

- Yaraşmasın o adamlara ki, işləmirlər. Biz ki gecə-gündüz çalışırıq, tər tökürük, bu da mükafatımızdırmı?

Redaktor ayağa qalxdı:

- Sizin bu günkü səhvinizin üstündən keçmək olar. Saydığım yerlərdən azad olunmasanız, sabah işə buraxılmayacaqsınız.



Yorğun başla, üzgün zehinlə mətbuat işinə xeyir vermək olmaz!

Qulam qalxıb ətəklərini tovlaya-tovlaya, fikir içində yeni və pullu qulluq xəyalı ilə evə gəldi.

O axşam Leylanın da gözünə yuxu getmədi. Pambıq kimi atım-atım edilmiş evdə, əli qoynunda oturub Qulamı gözlədi. Ürəyinə min cür fikir gəlirdi: «Bu nə işdir! Yoxsa Qulam özgə bir arvad alıb, mənə kələk gəlmək istəyir? Yoxsa şeyləri yarı bölüb, öz payını aparmaq istəyir? Bəlkə də heç bu zalım oğlu işləmir, bəlkə də vaxtını restoranlarda keçirir? Var yoxunu şəraba, qumara qoyur?.. İnsanı nə tanımaq olar!»

Gecə də orucluq ayı kimi uzanırdı. Leyla gah durub yük yerini töküşdürür, anasının cehiz verdiyi ipək yorğanı, xalçanı axtarır, şaraqqıltı ilə bufetin gözlərini açıb-örtür, işıldayan hər şeyi götürüb diqqətlə baxır, gümüş qaşıqların itdiyinə inana bilmirdi.

Aləm yıxılıb yatdı. Radio susdu. Tramvaylar dayandı. Xoruzlar bir ağız səsləndi. Haçandan-haçana bir də həyətdə ayaq səsi eşidildi. Qulam içəri girib, Leylanı əli qoynunda, məyus oturmuş görəndə, əvvəl bir duruxdu, soruşmaq istədi ki: «Əzizim, niyə bu zamanacan yatmamısan?»

Gözü evin ortasına tökülmüş şeylərə sataşdı. Leyla macal vermədi. Sökülmüş pərdələri, tökülmüş yükü iki əli ilə göstərib dedi:

- Bu nədir? Bu nə hərrac bazarıdır?

Qulamın dili dolaşdı:

- Necə bəyəm, nə gedib?

- Mənim cer-cehizim hanı? Hanı mənim ev-eşiyim, paltarlarım, ata-ana yadigarlarım?..

Bunu deyib Leyla hönkür-hönkür ağladı. Qulamın rəngi saraldı.

- Bəs kim açıb bu qapını? - deyə təəccüblə soruşdu. Onların səsinə qonşular çıxdılar.

Sarıköynək qadından kim nə bilirdisə dedi. Leyla bir tərəfdə yıxılıb, hissiz qaldı. Qulam qonşulardan iki nəfər şahid götürüb, milis idarəsinə yollandı.

O, sinəsindən ah qopa-qopa, ürəyində peşmançılıq qaynaya-qaynaya gedirdi. Ancaq bilmirdi kimdən şikayət etsin. Sarıköynək qadındanmı, qonşularındanmı, yoxsa özünün dəm-dəsgah hərisliyindənmi?!

1939



## QONAQPƏRƏST

Ən yaxşı müalicə, xəstələnməməyə çalışmaqdır.

Həkim hekayələri, bir müddət həkimlik etdikdən sonra sənətindən əl çəkən bir tanışımın xatirələrindəndir. Burada xoşagələn nə varsa, o kişininkidir. Ancaq əl zəhməti ədibindir. Yazının yaraşıqsızlığı üçün ədibi töhmətləndirmək lazımdır.

Yəqin bu hekayələr çap olunmuş bir şəkildə xatirə sahibinin özünə də çatacaqdır. Eşitdiyimə görə, o, indi rayonların birində bağça mürəbbisidir, boş vaxtı var, oxuyar.

Xahişimiz budur ki, «Qonaqpərəst», «Dost görüşü» və «Vicdan əzabı» hekayələrindən alınan təsir haqqında arada-bərədə danışılmasın. Əl boyda bir məktubla müəllifin özünə bildirilsin. Deyirlər, xarici restoranlarda belə yazılar var: «Xörəyin yaxşılığını hamıya de, pisliyini isə ancaq restorançıya de». Biz isə belə şərtləşək: yazının pisliyini də, yaxşılığını da hamıdan əvvəl yazanın özünə deyək.

Bağban Nəsibin evinə ilk dəfə yazda, sular bulananda, onun altı yaşlı qızını müayinəyə gelmişdim. O zaman mən cavan və təcrübəsiz bir həkim idim. Buna baxmayaraq, çox iddialı idim. Naşılığımı hiss etdirməz, özümü yuxarı pillələrdə saxlardım. Bu, şübhəsiz ki, az bilməyin, daha doğrusu, uşaqlıq qalıqlarının əlaməti idi, sonralar qızğın həyat günəşinin təsirilə yaz qarı kimi əriyib getdi. Lakin bunun başqa, xeyirli bir cəhətini də görürdük. Bu iddiaya münasib, mən rəftarımda tamam bişmiş, təcrübə görmüş təmkinli bir həkim görünməyə çalışırdım. Evlərə çağırılanda başıma panama qoyur, təkatlı bir fayton kirayə edirdim. Evə girən kimi panamamı və paltomu çıxarırdım. Xəstə yatan otağa keçməmiş ahəstə öskürüb, xəbərdarlıq edirdim. Mehriban bir səslə deyilən «buyur» sözünü eşitməkdən həzz alırdım. Ev sahibi əl-ayağa düşür, stul çəkir, kağız, qələm hazırlayırdı. Mən ağzımı açanda hamılıqca susur, diqqətlə

qulaq asırdılar. Ürəyimdə deyirdim: «Nə olaydı, bütün insanlar ya bu ev sahibi kimi mehriban, ya da mənim kimi həkim olaydılar!» Xəstənin nəbzini, ürəyini, ciyərini yoxlayır, dilinə, boğazına baxır, dərman yazırdım. Evdən çıxanda min bir razılıq eşidirdim. Doğrusu, bilmirdim camaat təkcə mənəmi, yoxsa bütün həkimlərə belə hörmət edir. Uşaq vaxtımda bizim evimizə həkim ayağı dəyməmişdi. Müalicə haqqında ancaq nağıllar eşitmişdim. Eşitmişdim ki, gün girən evə həkim girməz. Amma bizim evə nə gün girərdi, nə də həkim.

Mətləbə qayıdaq. Nəsib kişinin balaca və xəstə qızı mətbəxə oxşayan dar bir daxmada, taxtın üstündə quru bir əl ağacı kimi uzanmışdı. Qızdırma uşağın zəif və zərif vücudunu bir bəla kimi bürümüşdü. Qız gündən-günə quruyurdu. Taqətsizlikdən nəfəs alırdı, verə bilmirdi, verirdi, ala bilmirdi, onun üzündə həyat sönürdü. Yalnız nigaran və yalvarıcı bir baxış oxunan, hər kəsdən kömək gözləyən iri qoşa gözlərində hərəkət vardı.

Dava-dərman yazmaq istədikdə, atası qolumdan tutub, eşiyə tərəf çəkdi. Həyətin sağ tərəfindən bir neçə pillə çıxıb, fərş döşənmiş gözəl və bəzəkli bir otağa girdik. Yazı stolu və lampa var idi. Mürəkkəb, qələm hazır idi. Oturdum, dərman yazdım. Xəstənin işıqlı, havalı, təmiz bir otaqda saxlanmasını məsləhət gördüm, pəhriz tapşırıb çıxdım.

Bir də o qızın üzünü görmək mənə qismət olmadı. Sabahısı nə iş üçünsə uzaq yerə getdim. Nəsibin qızının, eləcə də başqa xəstələrimin müalicəsindən xəbər tuta bilmədim.

İki, ya iki il yarım sonra, payız vaxtı, Nəsibin evinə bir də yolum düşdü. Həmin daxmada, həmin taxtın üstündə dörd-beş yaşlı bir oğlan uşağı yatırdı. Onun rəngi soluxmuş, dil-dodağı qurumuşdu. İshaldan yatırdı. Atasının dediyinə görə, məni evdə tapa bilməyib, bir neçə başqa həkim çağırıblar, xəstə çox dərman içib, ancaq xeyrini görməyib. Mən reseptlərə baxdım. Xəstənin yastığı yanında





bir tərəfi çürük nar gördüm.

- Onun, - dedim, - təmizini, yaxşısını tapın, sıxın, suyunu içsin.

Dərman yazmaq üçün yenə yuxarı, qonaq otağına çıxdıq. Dərman yazdım. Nədənsə, ilk gəlişim və qızdırmalı uşaq yadıma düşdü, soruşdum:

- Qızın kefi necədir?

Nəsib kişi başını aşağı saldı, sinəsindən soyuq bir ah qopdu. Məyus bir dillə dedi:

- Ömrünü sizə bağışladı.

Soruşduğuma peşman oldum, xəcalətimdən qızardım. Mən əvvəl güman edirdim ki, Nəsib kişi məndən razıdır. Qızını yaxşı müalicə etdiyim üçün indi də məni çağırır. Zənnim tamam dəyişdi. Mənə elə gəldi ki, bu kişi qəsdən məni çağırır, utandırmağa, qızartmağa çağırır. «Ömrünü sizə bağışladı», - deməklə Nəsib kişi, deyəsən, mənə, mənim müalicəmə gülürdü...

Məni daha artıq incidən o balaca qız, açılmadan solan qönçə idi. O, nə üçün ölsün? O yaşamalı idi. Yaşasa idi, bu ailənin şənliyi pozulmazdı. Məktəblərdə oxuyar, gələcəkdə xalqımıza xeyir verən yüz minlərdən biri olardı. Bəlkə də yeni, ziyalı bir ana, nümunəvi bir tərbiyəçi olardı. Yaşasaydı, mənim də başım aşağı, dilim gödək olmazdı. Ölüm nə qədər vəhşi və amansızdır!

Bu təsirlərlə o qədər pozulmuşdum ki, ikisətirlik resepti yaza bilmirdim. Qalxdım, ayaqüstü bir-iki kəlmə təsəlli sözüdeyib, getmək istədim. Nəsib kişi mane oldu.

Bir də gördüm qapının hər iki tayı açıldı. Məcməyi dolusu meyvə gəldi. Boşqablara böyük, saf, şirin narlar, sarı armud, üzüm qalanmışdı.

- Zəhmət çəkin yeyin, - dedi, - doktor, öz bağımızın məhsuludur.

Narın birini kəsdim. Zoğal kimi iri, əqiq kimi duru gilələri var idi. Belə meyvələrdə təbiətin həyat və səhhət gətirən şirəsindən,



sağlamlıqdan başqa bir şey aramaq nahaqdır.

- Nəsib əmi, - dedim, - əcəb nardır. Bunun suyundan uşaqlara içirdin, xeyir eləyər.

- Doktor, - dedi, - kəsin yeyin, onlar üçün tapılar. Bunlar sizin kimi əziz qonaqlar üçündür.

Bir az söhbətdən sonra getmək istədim. Nəsib kişi yenə əl çəkmədi.

- Nahar vaxtıdır, - dedi, - sizi hara buraxıram! Meyvə ilə başınızı məşğul edirdim. Əyləşin, yaxşı yarpaq dolmamız var, əyləşin!

Çox çəkmədi, Nəsib kişinin böyük oğlu süfrə açdı, çörək gətirdi. Biz yeməyə məşğul olduq. Oğlan ayaq üstə dayanıb, nəyi isə gözləyirdi. Mən onu süfrəyə çağırdım. Atası gözünü necə ağartdısa, oğlan tez əkildi.

- Bu heç yaxşı olmadı, - dedim. - Gərək İmran oturub bizimlə nahar eləyəydi.

Nəsib kişi həm əli, həm də başı ilə «yox» işarəsi verib dedi:

- Doktor, böyüyün böyük yeri var, kiçiyin kiçik. Onlar çardağın altında yeyərlər.

- Burada yesə, nə olar?

- Yox, hər şeyin qaydası var. Bura qonaq otağıdır. Qonağın qonaq yeri var, qaranın qara. Uşaqlara sən deyən kimi yol versəm, iki gündə bu evlər samanlığa dönər. Gəlib-gedən olur. Dost var, düşmən var. Səliqə-sahman yaxşı şeydir axı, doktor. Beş adam gələndə, heç olmasa, bir təmizlik görsün.

Üçüncü dəfə Nəsib kişinin evinə qışda getmişdim. Böyük oğlu İmran revmatizmdən yatırdı, qıçlarının ağrısından yata bilmirdi. Tanış daxmaya girməmiş, ev sahibi qabağımı kəsdi:

- Ay doktor, - dedi, - amanın bir günüdür. İmrana çarə! Gədənin qılçaları açılmır. Bir addım ata bilmir.

Mən dinmədim, xəstəyə baxmağa başladım. Kişi sözü və xahişi

ilə mənə təsir etdiyini və ya nəyi isə düşündü, davam etdi:

- Doktor, bilmirəm nə bədbəxtlikdir məni basıb. Yeddi uşaqdan üçünü basdırmışam. Dördü də belə. Ölmə-diril, yarımayaq dolanır. Həkim bundan artıq olmaz, dava-dərman bundan çox olmaz. Sizin kimi handa bir təbiblərin qədəmi buradan əskik olmur, aptekləri uşaqların qarnına boşaldıram. Lap bahalı dərmanlar yazdırıb alıram, olmur ki, olmur. Uşaqlar gündən-günə saralırlar. Mat-məəttəl qalmışam ki, bu nə bəladır, nəzərdir, gözdür, afatdır, vurğundur, qarğışdır, nədir, bilmirəm! Nədisə məni tutub, yaman tutub!

İmranın anası da əlini əli üstünə qoyub dayanmışdı. Kişi danışdıqca, o da ah-vay edir, köksünü ötürür, yalvarıcı bir dillə mənə nə isə demək istəyirdi, kəlməbaşı ərinin sözünə qüvvət verir, kəsmə-kəsmə danışırdı. Xəstəni müayinədən sonra ata da, ana da gözlərini mənim dodaqlarıma zilləmişdi. Onlar övladlarının müalicəsindən xeyir xəbər, ümidli bir söz eşitmək istəyirdilər. Bunun üçün hər şeydən keçməyə, vardan-yoxdan çıxmağa hazır idilər.

Mən hirslənmişdim, bilmirdim nə deyim və necə deyim. Mənim duruxmağıma Nəsib kişi ayrı məna verirdi. Deyəcəyim müalicə tədbirinin, bəlkə də, çox pul götürən bahalı bir məsələ olduğunu düşünmüşdü. Əlini sinəsinə qoyub qabağa yeriyir, boynunu əyib, ürəkdən deyirdi:

- Doktor, xərcdən, puldan arxayın olun, nə çarə lazımdır, buyur, lap dərmanı Moskvada da olsa, aparacağam, de, vardan-yoxdan çıxmağa razıyam, təki İmran oğlum ayağa qalxsın...

Oğlunun adını çəkəndə kişi daha da təsirləndi, boğazını qəhər tutdu, gözü doldu, udqundu, güclə özünü saxlamağa çalışdı və müsibətini gizlədə bilməyən bir səslə davam etdi:

- Ay doktor... bunlarsız mənə güzəran... nəyə lazım! Xiffət məni üzür, doktor!

Mən bir tərəfi hirs, bir tərəfi ərk yolu, onları dalımca çağırdım.



Pilləkənləri çıxdım. Təpiklə vurub, döşənmiş qonaq otağının qapısını açdım.

- Bu ev, - dedim, - kimindir?

- Kimin olacaq, ay doktor? Şükür Allaha, özümüzün! Qonaq otağımızdır da, bilmirsiniz?

- O yankı, o çarpayı qoyulan otaq kimindir?

İmranın anası dilləndi:

- Eh, - dedi, - ay doktor, fələyin üzü qara olsun. Arzu-kamımız var axı bizim. Oranı İmranın toyuna, gəlininə saxlamışıq...

Mən ikinci otağın da qapılarını taybatay açdım. Ağ və böyük nikel çarpayının üstündən pərdəni açdım, qırmızı ipəkli yorğan-döşək göründü.

- İmran burada yatsa, nə olar? - dedim.

Nəsib kişi mətləbi anladı. Susdu. Mən davam etdim:

- Qonaq üçün, qonaq üçün... Ay müsəlman oğlu, bağışla məni, sənin övladlarını bir-bir əlindən alan həmin bu niyyətindir, sənin özünsən. Xəstəni Moskvaya aparmaq lazım deyil, ağzına qıfıl vurub, haçana, hansı qonağa saxladığın bu otağa gətirmək lazımdır. Ölən uşaqlar dirilib qəbirdən qalxsalar, sizdəki qonaqpərəstliyə lənət oxuyarlar. Doktorlara təklif etdiyin peşkəşi hamıdan qabaq öz övladlarına qıy, onlara yazığın gəlsin! Narın yaxşısını qonağa, çürüyünü qızına verəndə, qonağı işıqlı otaqda, uşağını qaranlıq daxmada saxlayanda, qonağı ipəklə, oğlunu çul-palazla yatıranda, bilmirsənmi ki, axır nəticəsi belə olar?! Sənin bu işlərini bilən həkim bir də bu evə ayaq basa bilərmi? Ayaq basıb nə deyəcək? Qoy övladlarının hesabına əzizlədiyin qonaqlar gəlib sənin İmranını diriltsinlər, ya sənə övlad olsunlar!

Ata və ana məyus, xəcalət, peşmanlıq yağan nəzərlərilə mənə baxırdı, heç biri dinmirdi.

*1939*

## ANKET ANKETOV

Anketov hamamlar trestinə rəis təyin olunan gündən indiyə qədər kabinetinin qapısında həmişə adam olur. Bəzən uzun bir növbə düzülür. Birinin rəisə şikayəti var, biri maaşının artırılmasını xahiş edir, biri qulluğunu dəyişir, biri oxumağa gedir, biri iş paltarı davası edir, biri məzuniyyətə çıxır, kurorta getmək istəyir.

İş böyük, işçi az, məsuliyyət ağır. Anketov da bu postda təzə! Çoxları güman edirdi ki, Anketov bacarmayacaq, hətta onun təyininə etirazlar da olmuşdu. Anketovun qulağına çatanda, belə cavab verdi:

- Nə olar, etiraz eləsinlər. Bəyəm etiraz eləyənlər kimlərdir? Aydındır ki, kapitalizm tör-töküntüləri... Onlar artıq özlərinin ölümə məhkum olduqlarını hiss etmişlər. Mənhus işlərini indi də bu yanda görmək istəyirlər. Onların öhdəsindən gəlmək mənim boynuma.

Vəzifə başına keçən kimi hamam müdirlərini yanına çağırdı. Hamısından «liçni delo» tələb elədi. Onlar: «Baş üstə!» - deyib oturmaq istəyəndə Anketov qoymadı:

- Baş üstə olunca, əl üstə olsun, bu saat liçni delolar mənim qabağımda olmalıdır!

- Yoldaş Anketov, getsək iclas bəs nə olsun?

Anketov bu sualdan heyrətə gəldi. Əllərini, bir şey qucaqlamaq istəyirmiş kimi, yana açdı və həzin səslə dedi:

- Liçni delosuz nə iclas, balam? Mən bilməliyəm kimlər ilə iclas eləyirəm, ya yox?

Müdirlər durub getdilər. Bəzisi evdən, bəzisi idarədən şəxsi işlərini gətirdilər. Bəziləri də tələsik anket doldurdu, tərcümeyi-hal yazdı, iş qovluğu aldı. Şəxsi işləri stolunun üstünə yığandan sonra



Anketov müdirlərdən üzr istədi:

- Yoldaşlar, mən sizinlə tanış olmaq istəyirəm. Ona görə xahiş edirəm kabinetdən çölə çıxasınız.

Bunu deyib başını aşağı saldı, anketləri varaqlamağa, hecələyə-hecələyə oxumağa başladı:

- Mmm... Ağaverdi oğlu Mürsəl Hadiyev. Min doqquz yüz on birinci ildə doğulmuş. Atası Nalbənd... - Anketov bu sözün altından bir qırmızı xətt çəkdi, haşiyədə sual işarəsi qoyub, Hadiyevin başqa sənədlərini diqqətlə nəzərdən keçirtdi.

Müdirlər kabinetin qabağında bir saata qədər gözləməmişdilər ki, qonşu otağdan katib çıxıb, əlindəki siyahıya baxa-baxa dedi:

- Əhmədov Murad Rəhim oğlu evlərinə gedə bilər. Hadiyev Mürsəl öz atası barədə yoxlama gətirməlidir. Qalan yoldaşlar içəri buyursunlar.

Əhmədov bir şey anlamadı:

- Yoldaş, bu nə sözdür? O, işimdən danışsın görüm mənə tapşırığı nədi? Yoxsa mənim niyə vaxtımı itirir.

Hadiyevin səsi də Əhmədovun qışqırığına qarışdı:

- Atam barədə nə yoxlama? Otuz ildən çoxdur öləli, sümüyü də çürüyüb...

Katib onun sözünü lağa qoydu:

- Sən niyə avam söz danışırsan. Atanın ölüsü naçalnikə yox, inkir-minkirə lazımdır. Naçalnik bilmək istəyir atan nəçi idi!

Hadiyev bərkdən dedi:

- Canım, anketimə baxsın. Nalbənd. Nalbənd yazılıbdır ki!

Katib şikayətçilərdən yaxa qurtarmaq üçün qaçıb öz otağına girdi. Şikayətçilər onu boşlamadılar. Axırda dedi:

- Ərizə yazın!

- Nə ərizə?

- Ərizə yazın görək nə istəyirsiniz?

- Biz bir şey istəmirik. Siz deyin görək bizdən nə istəyirsiniz?

Katib yenə başa saldı:

- Özünüz yaxşı bilirsiniz ki, naçalnik öz kadrlarını yoxlayır. Bir saatdı sizin liçni delolardan başını qaldırmayıb. İndi məni çağırdı, belə dedi. Buradan görünür ki, sizin liçni delonuz onu təmin etmir...

- Bəs özümüz? Özümüzə sözü nədir?

- Özünüz ilə o, maraqlanmır, əldə dokument lazımdır.

Əhmədov acıq eləyib getdi. Hadiyev iclasın axırını gözlədi ki, rəislə üzbəüz danışsın.

Anketov müdirləri çox saxlamadı. Hamısına bərk tapşırdı ki, bütün işçilərin şəxsi işini düzəldib, üç gündən gec olmayaraq, şəxsən rəisə təqdim etsinlər. Müdirlər çıxanda, Hadiyev Anketovun kabinetinə girdi. Anketov başıaşağı stolunun başında dayanmış, səliqə ilə düzdüyü kağız qovluqlarının yan-yörəsini sahmanlayırdı. Başını qaldırıb, Hadiyevin əlinə baxdı. Əlində kağız görməyib soruşdu:

- Nə istəyirsən?

- Mən bir şey istəmirəm, katibin deməyinə görə siz məndən yoxlama istəyirsiniz.

Rəis bir əli ilə başının tükünü yana daradı, bir əlini iş qovluqlarının üstünə qoyub soruşdu:

- Familin nədi?

Hadiyev cavab verən kimi, Anketov onun iş qovluğunu tapıb açdı. Mənalı bir: «da!» - deyib, barmağını bayaq yazdığı sualın üstünə qoydu.

- Sən, - dedi, - çox örtülü yazmısan. Mən sənin işini başdan-ayağa oxudum, diqqətlə oxudum, yenə səni yaxşı tanıya bilmədim. Məsələn, vajnı bir yer: yazırsan atam nalbənd olub. Nalbənd cürbəcür olur...

Hadiyev onun sözünü kəsdi:



- Cürü-mürü yoxdur bunun! At nallayıb, öküz nallayıb...

Anketov sifətində istehzalı bir təbəssüm doğurmağa gücəndi. Başını tərpətdi:

- Məsələ atda, öküzdə deyil. Məsələ onun sahibindədir. Görək sənin atan qaniçən, istismarçı hampaların heyvanını nallayıb, yoxsa füqərayi-kasibənin...

Hadiyevi gülmək tutdu:

- Hər kəs pul veribsə, onun heyvanını nallayıb.

- Şübhəsiz ki, burjuaziya dövründə, hansı ki, sənin atanın həyat fəaliyyəti təsadüf edir, hampanın pulu çox idi, çem füqərayi-kasibə.

- Əlbəttə ki, hampa pullu idi.

- Deməli, sənin atana gələn pulun çoxu, görürsən ki, istismarçılardan...

Hadiyev dedi:

- Axı nə olsun?

Anketov başını kağızdan qaldırmayıb, əli ilə sükut işarəsi verdi:

- Dayan, dayan. Belədir, ya yox?

- Nə?

- Düzdürmü ki, hampalar daha çox at nalladar?

- Düzdür!

- Elə mənə də bu bəsdir, gedə bilərsən.

Hadiyev dedi:

- Mən anlamıram ki, siz nə üçün mənim atamın nalbəndliyi ilə bu qədər maraqlanırsınız. Nallanası şeyiniz varsa, buyurun deyin.

Anketov yenə başını kağızlardan qaldırmadı. Sol əlinin baş barmağını Hadiyev familiyasının üstünə qoydu. Yazıya baxa-baxa sağ əlinin şəhadət barmağını silkələdi. Sonra qələmi əlinə alıb, kəsik-kəsik xətlərlə yazdı: «İşə buraxılmayacaqsan, on günlüyə sənə izin verilir ki, öz xərcinə valideyninin ictimai vəziyyətilə məşğul olasan».

Anketov bunları yazdı. Hadiyevə heç nə demədi. Ehtimal ki, heç Hadiyevin axırıncı sözlərini eşitmədi də, çünki Anketovun fikri şəxsi işlər, anketlər, tərcümeyi-hallar, xarakteristikalar, yoxlamalar, şəhadətnamələr, izahatlar, ərizələrlə məşğul idi. O, bütün işlərinin bu iş qovluqlarından asılı olduğuna ürəkdən inanmışdı. Onları sahmana salmaqla trestdəki işlərin sahmana düşəcəyinə, nöqsanların aradan qalxacağına inanırdı. Gün olurdu ki, səhərdən gecə saat birə qədər Anketov kabinetinə qapanır, «liçni deloları» maraqlı bir roman kimi başdan-ayağa, ayaqdan-başa oxuyurdu. Qovluqları da sahiblərinin ictimai vəziyyətlərinə görə cərgə ilə düzürdü.

Acığı gəldiyi adamın iş qovluğunu aparıb lap aşağı başa salır, xoşlandığını başa keçirirdi. Anketlərin kənarına yazırdı: «Başqa vəzifəyə keçirdim, maaşını əlli manat artırıram», «Yaxşı işlədiyinə görə səni irəli çəkirəm».

Anketov əlinə alıb vərəqlədiyi, bu qəfəsədən o qəfəsəyə apardığı kağızlarla əməlli-başlı danışırdı. Qıraqdan qulaq asan, lakin onu görməyən adam güman edirdi ki, kabinetdə Anketovdan başqa beş-altı nəfər üzüyola, sakit bağça uşağı var. Anketov o uşaqların qolundan tutur, birini bu, birini o biri kürsüdə oturdur. Hərdənbir də danışır. O, anketlərə həqiqi insan, işçi və öz dili ilə desək «kadr» kimi baxırdı. Ona elə gəlirdi ki, pis-yaxşı işləyənlər həmin bu anketlərdir. Hamamda görünən müdir, kassir, tulanbarçı, süpürgəçi iş qovluqlarının səyyar kölgələridirlər, başqa şey deyillər. Əsl iş bu qovluqlardadır. Anketin təmiz-dürüstlüyü, sahibinin həmişəlik təmizliyi, dürüstlüyü deməkdir. Anketin kənarına yazılıb «qovulan adam», öz-özünə kölgə kimi işdən çəkilir, əksinə, anketinə «qəbul» yazılan adam da o dəqiqə işdə görünür.

Bir adam gəlib Anketova desə idi ki, yoldaş rəis, filan işçimiz xəstələnib, xəstəxanada yatır. Anketov inanmırdı, dərhal iş qovluqlarını töküşdürür, həmin adamın «şəxsi işini» götürüb baxırdı. Anketdə xüsusi bir qeyd görmədikdə deyirdi:

- Bağışlayasan, filankəs sağ-salamat öz yerində işləyir.

Hətta bəzən tanıdığı iş qovluğunu heç açmırdı. Kənardanca qəfəsəyə baxır, onun cərgə nömrəsini düz görüb, başını tərpədirdi:

- Filankəs öz vəzifəsində bərqərardır.

Katib əlini dizinə döyüb deyirdi:

- Vay atonnan, inanmır ha! Yoldaş Anketov, Qurbanəli üç aydır ki, əsgər gedib. Uzaqlardan kağızı gəlir, özü də sanitar işləyir, sən deyirsən vəzifəsində bərqərardır.

Anketov hirslənirdi, sonra hövsələsini basıb, katibi başa salırdı:

- Ay küt, niyə başa düşmürsən, liçni delası odur ey, göz qabağında. Liçni delasız hara gedə bilər?! Ağzı nədi addımını kənara qoya! Getmiş olsaydı, «liçni delo» çoxdan ordan çıxıb, lazımi yerinə getmişdi.

Katib təngləşib çıxırdı, baş qoşmurdu. Baş qoşmaq da faydasız idi, çünki anketlər Anketov üçün nameyi-əmal hökmündə idi. Hər kəs nə etsə, nə düşünsə, xəyalından nə keçirsə, guya dərhal anketdə həkk olunur, qiyamətə qədər silinmir. Bir adamın işinə qiymət vermək üçün anketini rəisin hüzuruna - «məhşər ayağına» gətirmək kifayət edər...

Hansı iclas idisə, axırda Anketov qalxıb təklif elədi:

- Yoldaşlar! Hamamlarda köhnədən bir pis qayda var. Mən calobni knişkaları demək istəyirəm. Hər gələn oraya yazır. Bilmirik bu şikayət yazan dostdur, düşməndir, ya barışdırıcıdır. Mən təklif edirəm: ya şikayət yazan qabaqcadan anket doldurub bizim təsdiqimizə versin, ya da bu qaydalar lazım deyil. Yazırlar, yazırlar, bilmirsən hansı liçni deloya tikəsən. Bu barədə...

Kommunxoz müdiri Anketovun sözünü ağzında qoydu:

- Yum, yoldaş Anketov, ağıllı söz danışmadın. Sən, görünür,

kütlənin səsini eşitməyin, rəyini öyrənməyin nə olduğunu başa düşməkdə çətinlik çəkirsən. Bu sözü bir də ağzına alma! Onu bil ki, həmin şikayət dəftəri xalqın səsi, müştərilərin söylədiyi rəylərdir. Onlar həmişə qalacaqdır.

Anketov qıpqırmızı qızardı, danışdığına peşman oldu, söz alıb ayağa qalxdı, dodağı əsə-əsə dedi:

- Mən burada kobud bir səhv buraxdım. Özüm indi səhvimi başa düşmüşəm, yüz faiz boynuma alıram. Amma çox xahiş eləyirəm bu məsələ anketimə yazılmasın, protokola düşməsin.

Anketov öz anketini beləcə qoruyurdu. Hamam müdirlərindən bəziləri gəlib şikayət edirdi:

- Yoldaş Anketov, işçilər tələb edirlər, deyirlər bir gəlsin yanımıza, baxsın görək necə işləyirik. Anketov o saat iş qovluqlarına baxırdı.

- O hansı işçidir, de görüm? - Əli ilə qəfəsəni göstərirdi: - Gecə-gündüz mən bunlarla bir yerdə deyiləmmi, daha nə istəyirlər?

X nömrəli hamamın müdirinə bir qadın kisəçisi, iki süpürgəçi, bir hecabdar lazım idi. Müdir Anketovun xasiyyətinə bələd olduğu üçün, işə girmək istəyənlərin şəxsi işlərini hazırladı, iş qovluğuna tikdi, rəisin yanına gətirdi, dedi:

- Özləri də qapıdadırlar, gəlsinlərmi?

- Neyləyirəm özlərini, qara gözlərinə-zadlarına aşiq deyiləm ki!..

- Bəlkə danışdırıb elədiniz?

Anketov enli və bərk əli ilə iş qovluqlarını şapalaqladı:

- Bunlar, budur ey, bunlarla danışacağam. Əsl doğru-düzgün söhbət bunlardadır.

Müdir çıxıb getdi, Anketov «təzə kadronu» yoxlamağa girişdi.

Şəxsi işlərdən biri Nuru Nuruzadə adlı komsomolçunun idi. Müdir onu hesabdar götürmək istəyirdi. Nurunun bu işdə az da olsa təcrübəsi var idi. Hesabdan həmişə əla oxumuşdu.



Biri də Qənbər qızı Nisənin işi idi. Onu qadın hamamına kisəçi götürmək istəyirdilər. Nisə də öz vəzifəsinə layiq adam idi. Altı il bir qələmə Tiflisdə IX nömrəli hamamda çalışmışdı.

Süpürgəçiliyə girmək istəyənlərin biri Şərəbanı arvad idi, biri də onun, ərindən boşanmış qızı Məsmə idi.

Anketov qırmızı qələmi əlinə alıb, anketlərin kənarında öz əmrlərini yazdı. Məsməni rədd elədi ki, keçmiş əri ilə əlaqə barəsində rəsmi dokument gətir. Şərəbanını işə götürdü.

Nisə Qənbər qızının anketi, tərcümeyi-halı çox xoşuna gəldi. Oxudu, oxuduqca ruhlandı: «Özü dəmirçi qızı, özünün bir kəs ilə əlaqəsi olmamış, özü ev qadını, özü savad kursunda oxuyur... Mənə belə təmiz kadrolar lazımdır». Anketov Nisəni hesabdar təyin elədi. Nurunu onun əvəzinə, qadın hamamına kisəçi təyin elədi. Səliqə ilə iş qovluqlarını qatlayıb, qəfəsəyə yığdı. Gəlib əllərini ovuşdura-ovuşdura otaqda özündən razı bir halda gəzindi.

Müdir telefonla deyəndə ki, Nisə Qənbər qızı hesabdarlıq vəzifəsini boynuna götürmür və yaxşı da eləyir götürmür, çünki o, kəmsavaddır, iki rəqəmi cəmləyə bilməz, Anketov özündən çıxdı:

- Ağzı nədi götürməyə, dayan bir mən özü ilə danışım.

Dəstəyi asdı, cəld Nisənin anketini açıb qabağına qoydu, danlamağa başladı:

- Heç gözləməzdim səndən. Gözləməzdim, həqiqətən gözləməzdim. Mən sənə daverit eləyirəm. Mən səni baş qulluğa qoyuram. Bu nə zarafatdır! Buna mən zarafatdan savayı özgə bir ad verməzəm. Bir də belə zarafatları eləmiyəsən, haydı işə başla!

İş qovluğunu qatlayıb yenə qəfəsəyə qoydu. Birdən qapı açıldı, başı açıq bir oğlan içəri girdi.

- Salaməleyküm!.. Anketov yoldaş sizsiniz?

Anketov stolunun dalına keçib dayandı. Əllərini şalvar cibinə salıb qurdalandı, deyəsən, bir şey axtarırdı. Başını qaldırıb soruşdu:

- Necə bəyəm?

- Gəlmişəm təşəkkür eləməyə. Mənimi arvad hamamına kisəçi təyin etmək istəyirsiniz?

- İstəyirsiniz nədi, çoxdan əmr yazılıb, iki gündür siz işləyirsiniz.

- Xeyr, bağışlayasan, bu vəzifədə işləmək üçün sizin kimi mühakimədən məhrum olmaq lazımdır!

Anketov dik-dik Nurunun üzünə baxdı. Heç nə demədi. Keçib qəfəsədən Nuruzadənin şəxsi işini götürdü. Acıqlı-acıqlı anketinə yazdı:

- Səni işdən qovuram. Get, hara gedirsən, get!

Nuru iş qovluğunu çəkib, Anketovun əlindən aldı. Anketov diksinən kimi oldu.

- Yavaş ol, - dedi, - kağızları tökərsən.

- Görüm üstünə nə yazıb korlamısan.

Nuru bunu deyib, anketini açdı, Anketovun qeydinə baxıb gülümsədi:

- Bambılının iddiasına bir bax! Sən nəkarasan məni qovasan, həpənd!

Nuru rəisin qeydini cırıb tullayanda, Anketov «Uff!» eləyib özündən getdi, çul kimi yerə sərildi.

1937



# VƏTƏN YARALARI

Səngərimdən çıxanda, üzgüçü suya atılan kimi, ön xəttin atəşinə atılmışdım. Nə gurultu, nə alov, nə də sanki dəhşətləri örtmək istəyən toz, duman mənə qəribə gəlirdi. Güman edirdim ki, bu atılan güllələrin biri də mənəm, gurultunu qopardan da mənəm, gündüzün boz və kəsif üfüqlərinə bir bayraq kimi açılıb-örtülən alov da mənəm. Döyüş sürəti və hərarətində özümdən xəbərsiz kimi yanırdım. Qan gözümü örtəndə, qılçalarım hərəkətdən qalanda kökü vurulmuş bir ağac kimi yerə sərildim. Sanki bir səs mənə deyirdi: "Bəsdir! Burax!" Lakin mən bunu eşitmək istəmirəm. Diqqətlə yaralarımı duymaq, özümə gəlmək istəyirəm, bacarmıram. İsti mayenin vücuduma axdığını və axdıqca məni xoş və sakit bir rahatlığa apardığını, olduğum aləmdən ayırdığını hiss edirəm. Ayrılmaq istəmirəm. Görmək, eşitmək, düşünmək istəyirəm. Hansı bir qüvvənin əli iləsə gözlərim örtülür, bayaqdan bəri dəmirçi kürəsi kimi səslənən qulaqlarım tutulur, başımdakı ağrı məni alıb aparır. Birdən-birə aləm sükuta dalır, hava qaralır, ətrafımızdakılar əvvəlcə gülləyə, sonra daşa dönür, get-gedə kiçilir, sularda əriyib yox olurlar.

Məndən qabaq yaralanmış yoldaşlarım danışardılar: birisi həsrətlərini, birisi əziyyətlərini, bəzisi ölüm təhlükəsini necə keçirdiyini deyirdi. Mən bunları xəyalıma gətirmədim. Bəlkə də buna görə bunları keçirə də bilmədim. Mən gözümü açanda, özümü isti, təmiz və sakit bir otaqda, rahat yataqda görəndən sonra başım üstə dayanan ağsaçlı həkimin təbəssümünü, gənc bir qızın tərimi sildiyini, su içirtmək istədiyini görəndən sonra duydum ki, həyata qayıdıram. Deyəsən, məni bunlar, qalın kitabların mənası ilə silahlanmış həkimlər, şəfqət və mərhəmətdən yoğrulmuş qızlar qaytarırlar?

Haraya qaytarırlar? Mən qapandığım, tapındığım hissiz sükut aləmindən qayıdıram.

Ürəyimdə bir şadlıq var: dodaqlarım qaçdı, üzülmüş, qanını itirmiş, dəri ilə sümükdən ibarət sifətimə ilk təbəssüm işığı düşdü. Sonra hardansa məni bir düşüncə yaxaladı. Haraya qayıdıram? 15 il ömür keçirdiyim, doğulduğum, böyüdüyüm, yorulduğum, dincəldiyim, dərd çəkdiyim, sevindiyim həyata qayıdıram! Orada hələ görmədiyim nələr var?

Bunu nə kitabda oxumuşam, nə həkimdən eşitmişəm. Amma mənə elə gəlir ki, xəstənin fiziki həyatından çox mənəvi həyatı var. Onu möhkəm addımlar, taqətli ayaqlar, bükülməz dizlər yox, zəif və zərif xəyallar aparır. Bu xəyallar, bəlkə də, sağlamlıq zamanında adamın başına yol tapmır. Həyatın kəşməkəşləri onlara növbə, yol, imkan vermir. İndi isə əl-qolunu boş qoyub, yatağa uzanmış bədən tamamilə onların, qanadlı düşüncələrin ixtiyarındadır. Düşünürəm, görürəm ki, mən həyata azğın bir maraq üçün qayıtmıram, oynamağa gəlmirəm. Dolu süfrələr başında oturub yeməyə, qədəh sındırmağa, tərif deyib, tərif eşitməyə gəlmirəm. Məxmər stol dalında tabelərimin üstünə qışqırmağa, əmrlərə, fərmanlara qırmızı mürəkkəblə qol çəkməyə gəlmirəm. Nə qızlar, nə qayıq gəzintiləri, nə məzhəkədən qabaq başlayan, sonra da bitməyən qəhqəhələr...

Məndə qəribə bir arzu dinlənir: iki ömür istəyirəm. İstəyirəm ki, ilk ömrüm təcrübə dərsi olsun; bu mürəkkəb dünyanı, qapalı adamları öyrənməyə sərf olunsun. İmtahandan çıxa bilsəm, mənə ikinci həqiqi ömür imkam verilsin. Belə ömrün qədrini bilərəm. Mən yenidən bir körpə olum, anamın, o mehriban xilqətin qucağına atılım, isti nəvazişlərinə tutulum. Atamın sərin torpaq astanasında iməkləyim. Səsim gəlsin. Yıxıla-dura yeriyim, ağı qaradan, şirini acıdan, istini soyuqdan seçən, qayğısız körpəlik günləri başlasm...

O günlər... məgər xəyal onları gətirib yetirə bilərmi?.. Qapımızdan keçən su arxının başında oynardım, söyüd yarpaqlarından əsən xəfif küləklər daraq görməmiş saçaq kimi dolaşıq saçlarımı üzümə tökərdi...





Hanı mənim tay-tuşum? Aşıq atan, top oynayan, gizlənqaç yoldaşlarım? Vuruşub-barışdığım, atıb-tutduğum, ayrılıb-birləşdiyim yaşıdlarım?

Bax, bunlardan doymamışam.

Ömrüm yüz gündürsə, doxsan doqquzunu yurdumda, torpağımda yaşamışam. Doymamışam.

Nəyini deyim? Xoş saatları, əziz günləri, munis axşamları...

Heç bir zaman bu xatirələr cəbhədəki qədər şirin olmur. Əsgər onları arxada qoyub gəlmişdir. Onları qorumağa, onları hədələyən təhlükəni yox etməyə gəlmişdir.

Səhra xəstəxanasından arxaya göndərilməli olduğumu eşidib, yolaşlarımdan ikisi yanıma gəlmişdi. Biri mənim yaşıdım, məktəb yoldaşım Nəsrəddin idi. Bizi universitetdən, tələbəlikdən çağırmışdılar. Onu görəndə həmişə məktəbli uşaqların kitab çantası yadıma düşür. Nəsrəddinin belə yaraşıqlı bir çantası var idi. Özü də qayışla belinə bağlardı. Bəzən onun çantasından tutub çəkişdirərdik, ha dönmək istərdi ki, görsün kimdir, bacarmazdı. İndi Nəsrəddin bizim komandirin köməkçisidir. Komandir sirrini ona deyir, bərk yerlərə onu özü ilə aparır.

İkincisini cəbhədə tanımışam. Kolayır kəndindəndir. Mina arvadın oğlu Lətifdir. Atası çoxdan ölüb. Anası kənddə nümayəndə idi. Qadınlar yığıncaqlarında onu stol başında, ayaq üstə durub, açarı mürəkkəbqabına döyən, sükut istəyən görərdin. Yaraşmasa da, həmişə sədrlik etmək istərdi.

Lətif anasına oxşamır. Başıaşağı, üzüyola oğlandır. İki yaş bizdən kiçik olduğu üçün yüngülayaqlıq edər. Hər işə gedər, bəzən suyumuzu, çörəyimizi də hazırlar. Yürüşlərdə, gecə istirahət əmri

veriləndə, bir də görərdin, Lətif çəkməsinin dabanı ilə yeri döyür. O, torpağı hamarlayıb, üç adam üçün "yataq" düzəldərdi. Əleyhqazlarımızı başımızın altına qoyub tirtap düşərdik.

Bunlar mənim yanıma həm görüşə, həm sifarişə gəlmişlər. Mənim nə danışmağa, nə də əsəblərimə toxunacaq bir xəbər almağıma icazə var idi. Mən bu səhra xəstəxanasında 7 gün ərzində həkimdən başqa yalnız bir şəfqət bacısını görürdüm. Yanıma gələn, məni dindirən olmadığına darıxırdım. Ancaq onu da duyurdum ki, mənə yaxınlaşmaq istəyənləri şəfqət bacısı buraxmır. Bəzilərini qaytarır, bəzilərinə də yalan satır ki, "xəstə yuxudadır". Bu dəfə mən çadır örtüsünün dalından Nəsrəddinin üzünü gördüm. Dərhal bacının səsi gəldi:

- Yoldaş əsgərlər, xəstə yuxudadır, oyada bilmərəm.

Mən dözmədim:

- Oyanmışam, - dedim, - bacı, burax gəlsin.

Bunu dedim, sevindiyimdən dikəlmək, dirsəklənmək istədim. Çarpayıya sarındığım, ya ağrıdan qorxduğum üçün dikələ bilmədim. Başım, ümidsiz kimi, balışa yapışıb qaldı.

Yoldaşlar bir üzü xətir, bir üzü zor-güc özlərini mənim yanıma saldılar. Bacı onlara yalvarırdı:

- Həkim bilsə, mənim atamı yandırar. Aman günüdür, tez gedin!

Nəsrəddin ona təsəlli verdi:

- Tez, arxayın ol, tez gedəcəyik.

Lətif dedi:

- İki-üç dəqiqə, artıq yox.

Çadıra girəndən sonra Nəsrəddin nə bacıya baxır, nə də onun sözünü eşidirdi. Mənim alnımdan öpüb, zəif əlimi ovcunun içinə almış, illər ayrısı kimi həsrətlə söhbətə başlamışdı...

Onlar yaralarımdan sarı mənə təsəlli verirdilər:

- Güllə yarası əti bişirir, tez sağalır. Anan dua eləyir, yaxşı



ötüşmüşsən, on-on beş günə duracaqsan.

Mən ağrılardan şikayət edəndə Nəsrəddin bir ədib kimi cavab verdi:

- İnanıram, sən daha çox ağrı duyarsan. Həyatla dolu adamlara, bütün hissləri ilə mükəmməl həyat keçirən adamlara hər yara əzabdır. Sən yorulmuş qoca, ya çox şeylərdən əl üzmüş bədbin deyilsən. Qoca ağacların gövdəsini yarıb içində ocaq qalayırsan, halına təfavüt eləmir. Sağlam, ucaboylu qovaq ağaclarının gövdəsinə bir bıçaq vurulsa, o saat yaşardığını görərsən. Belə ağacların həyatı sağlam gənclərin həyatı kimi mükəmməldir, əsl həyatdır. Sən belə gənclərdənsən. Ancaq onu da bil ki, bir neçə ay sonra qovaq ağacının bıçaq vurulan yerini möhkəmlənmiş, bərkimiş görərsən. Sağlıq olsa, sən həm müalicə olunacaq, həm dincələcəksən, həm də ki...

Lətif Nəsrəddinin ürəyindən xəbər verdi:

- Həm də ki, vətənə gedəcəksən.

Bu sözü deyəndə onların hər ikisi qızardı, gülümsədi, mənim gözlərimə baxdı. Mən bunun mənasını yaxşı anlayırdım. Onlar on illərə bərabər olan bir neçə aylıq cəbhə həyatından aldıqları duyğu və təsəvvürlərini yaxın adamlarına çatdırmaq istəyirdilər.

Bacı Nəsrəddinin qarşısında dayanıb xahiş edirdi. Nəsrəddin isə gözünü məndən ayırmırdı:

- Səndən, - deyirdi, - heç nə istəmirəm. Bizim evə get, mənim yazı stolumun başında otur, kitablarıma, kağızlarıma fikir ver, gör qoyub gəldiyim kimidirmi? Gör, mənə kağız-zad yazan, itirib-axtaran olurmu? Küçəmizdən bir neçə dəfə o yan-bu yana keç, anamın sözünü-sorğusunu qulağında yaxşı saxla. Səndən hər şeyi təfsilatı ilə soruşacağam... Universitetə, bilirəm, gedəcəksən. Uşaqlara bir-bir salam de. Mənim əvəzimdə bir lektoriyada sükut içində otur. Bu gördüyün gurultuları orada xatırla. Yəqin mənim abunə vərəqim

durur, onu bir al, bax gör kitabxanaçı deyirmi ki: "Bu oğlan niyə kitab götürmür?"

Lətif Nəsrəddinə macal vermədi:

- Özün bilirsən də, nə deyim. Arvad eşitsə, birbaş yanına gələcək. Bu şəkli ver, deyinən, nigaran olmasın. Bacarsan, bir bizim məktəbə dəy, gör, Ədil müəllim oradadırmı? Gör, yenə dərslər qaydasındadırmı? Uşaqlarını yadına salırmı? Gedən kim, qalan kim? Mənim adresimi direktora, Ədil müəllimə ver, bəlkə, məktub yazan oldu.

Nəsrəddin bir şey xatırlamış kimi Lətifə mane oldu:

- Get bizdə də bir-iki gün qal. Qoy anam da oğul səsi eşitsin. Yəqin hazırlıq görəcək. Nahardan sonra mənim tarımı al, tozunu sil, bağrına bas, bir "Çargah" başla. İnan ki, üstümə yüz topdan güllə yağsa da, mən burada "Çargah"ın səsini eşidəcəyəm...

Lətif tapşırırdı:

- Kəndə gələndə kövşənə, Dişli qaya tərəfə çıx. Durnagözlü bulaqdan ovucla, mənim əvəzimə iç. Yazdır. Otur, bir quşları dinlə. Gör onlar nə deyir: dünyanın bu işləri onların mahnısına kar eləyir, ya yox? Yaşıl yamacdan dəstə tut. Lalə, bənövşə, nərgiz, nanə, xətmi, nilufər, nə desən, taparsan. Yaş yarpaqları tök dəftərinin arasına, qurusunu bizə gətir. Torpağın ətrini oradan alarıq. Ax, o yerlər!.. Səcdəsinə düşmək, öpüb yalamaq, ürəyimi o torpağa, daşa sürtmək istəyirəm.

Anama qabaqcadan heç nə yazmadım. Vağzalda düşüb yavaş-yavaş evimizə gəlirdim. Anamı görməyə tələsirdimsə də, çoxdan ayrıldığım bu küçələri, yolları, bu məhrəm binaları, ağacları, hasarları diqqətlə nəzərdən keçirmək həvəsi ilə yaşayırdım. Çalışırdım görüm, nə dəyişmişdir. Mənim qoyub getdiyim yerlərin nəyi və necə dəyişmişdir? Mənə elə gəlirdi ki, hər şey öz qaydasındadır. Yenə də həmin sentyabr axşamıdır. Şəhərimiz möhkəm inam və etimadla ömrünü sürür. Uca çinarlar, yaşıl təpələr baş əyərək, cəbhədən gələn



oğullarını salamlayır, cəbhəyə gedən oğullarına xeyir-dua verir.

Anamı evdə tapmadım. Açarı bir-birimizə bələdlədiyimiz yerdən götürdüm, qapını açıb, evdə rahatlandım.

Bu evdə nə təzəlik var?

Mənim əsgər şəklim stolun üstündədir. Məktublarım üst-üstə səliqə ilə qoyulmuşdur. Sanki anam bunları hər gün oxuyur. Pəncərənin ağzında balaca və üzü bezlə tikilmiş bir qutu var. Yəqin etdim ki, anam yenə nəsə göndərir, istədim anamın cəbhə sovqatını açım, dəymədim. Kitab şkafının şüşələri tərtəmiz silinmişdi. Gələn qəzet və jurnallar sahmanla şkafın bir gözünə yığılmışdı. Anladım ki, anam bunları mənə saxlayır, oxumamış qəzeti o, tərk etməz.

Evin hər tərəfində bir qayğı əli gəzirdi. Bu, əməksevən və zəhmətdən həzz alan əsgər anasının əli idi. O, hər qədəmi oğul yolunda atırdı.

Bunların hamısı mənə aydın idi. Lakin anlaya bilmədim ki, anam evin açarını nə üçün həyətdə, xəlvət bir yerdə qoyub gedir. Qapını özündən başqa kimsə açmayacaq, bəs açarı kimə etibar edir?

...Anam mənim bu sualıma köksünü ötürərək cavab verdi:

- Bala, - dedi, - çox vaxt səninlə oturub söhbət eləyirdim. Sən cəbhədə, bəlkə də, atışmadasan. Mən burada bardaş qurub, səni körpə çağında görürəm, dindirirəm, danışırsan, oynayırsan... Açar orada dursun. Mən onu yaxşı niyyətlə qoyuram. Elə bilirəm, evimizdəsən. Sənin səfərin uğurlu səfərdir. Ürəyim mənə deyir ki: "Sən işdən qayıdanacan oğlun gələr, qapıda qalar. Açarı qoy, get..." Gördün ki, niyyətim düz çıxdı, Allah düz adama niyyətinə görə verər. Şükür ki, gəldin çıxdın!

Anam danışdıqca mənim ürəyim genişlənir, iftixar hissim alovlanırdı. Ürəyimdə deyirdim: "Bəşəriyyət hamısı analar qəlbi ilə yaşasaydı, dünya başdan-başa bir cənnət olardı. Bunların duyğusu, arzusu, xeyirxahlıq və mərhəmət dolu ürəkləri həmişə bizimlə, cəb-

həçilərlədir. Bu müqəddəs qəlb sahiblərinin keşiyində durana zaval yoxdur!"

Vətənin hava və sularındanmı, adamlarımızın "cəbhəçidir", - deyə mənə göstərdikləri qonaqpərəstlikdənmi, görüş sevincindənmi, nədənsə, mən çox tez dirçəldim. Özümü əvvəlkindən də möhkəm hiss etdim. Sağaldıqca, qüvvətə gəldikcə təkrar cəbhəyə qayıtmaq arzusu məndə alovlanırdı. Nəhayət, anam məni yola salmalı olduğuna inanandan sonra Nəsrəddinin də, Lətifin də anasını çağırdı. İstirahət günü bizim evimiz səfər evinə oxşayırdı. Hərə bir sovqat bağlayıb gətirmişdi. Mən ha yalvardım ki: "Canım, bunların heç birinə ehtiyac yoxdur, bunu aparmaq özü çətin işdir", buraxmırdılar. Corab gətirən, papiros alan, fətir bişirən, xörək hazırlayan kim... Anam məndən xəlvəti bir qutu bağlamışdı.

- Bala, - deyirdi, - bu, üçünüzün payıdır, açmazsan. Yetirən kimi Nəsrəddini, Lətifi çağırarsan, açarsınız. Bu, üç ananın səliqəsidir. Bir açın, bir oturun, bir yeyin, bir gəzin, bir vuruşun!

Cəbhəyə qayıdanda hərbi mütəxəssislər məni böyütmək, başqa yerə, yeni vəzifəyə göndərmək fikrində idilər. Mən yoldaşlarımdan ayrılmayım deyə, bundan yayındım, öz hissəmizə gəldim. Təəssüf ki, yoldaşlarımın heç birini yerində tapmadım.

Nəsrəddinin iki gün əvvəl yaralandığını, səhra xəstəxanasına götürüldüyünü deyirdilərsə, Lətif haqqında açıq danışmırdılar. Mən dərhal komissarın yanına getdim, tələşımı görüb, mənə ikisətirlik bir yazı göstərdi. Orada savadlı bir əl rusca yazmışdı: "Demişdim, elə də oldu: döyüşçü ölməyəcəkdir!" Mən yazını oxuyub komissarın üzünə baxdım. Nəzərlərimlə soruşurdum. Nə soruşduğumu komissar bilmirdi:

- Həkim yazır, - dedi, - Lətifin sağalmağına ümidimiz yox idi. Köks qəfəsinə iki güllə, bir mina qəlpəsi dəyib, ciyərinin başı zədələnib. Amma həkim Qiyaslı ümid verirdi. İndi isə Lətifin sağal-



mağı müəyyəndir.

İki ay əvvəl mənim yanıma gələn yoldaşlarımı axtarıb, görüşmək üçün icazə aldım. Ən əziz sovqatı, anaların verdiyi bağlamanı səhra xəstəxanasına gedən maşınların birinə atdım.

Əvvəl Nəsrəddini tapdım. O, isti bir xalat geymiş, həyətdə gəzinirdi. Yarası qolundan idi, həm də yüngül idi. Mənim gəlməyim onun üçün yox, xəstə yoldaşlarım üçün də bir bayram oldu. Şəhərimizdən, yollardan, əkindən, məhsuldan suallar verirdilər. Nəsrəddin ikilikdə söhbət üçün məni çəkib, palataların kənarına gətirdi. Torpaq üstündə dirsəklənib oturduq. Mən gördüklərimin hamısını nağıl etdim. Bıçağı çıxarıb, bağlamanı açmaq istədim. Nəsrəddin mane oldu:

- Qoymaram, - dedi.

- Yeməli şeydir, xarab ola bilər.

- Lətifsiz açmayacaqsan.

Nəsrəddinin sözü qabağımı kəsdi, bıçağı qatlayıb cibimə qoydum.

- Elə isə dur, - dedi, - dur, onun yanına gedək.

Nəsrəddinin ucaboylu, zabitəli bir həkimi var idi. Başqaları həkim olub orduya gəlmişdilər, bu adam tibb təhsilindən əvvəl mükəmməl hərb adamı, böyük komandir imiş. Rəsmiyyəti çox sevirdi. Xəstələr və ya bacılar ondan bir güzəşt xahiş etməli olanda ümidsiz əllərini tovlayırdılar. Buna görə də Nəsrəddin xahiş etmək istəmirdi.

Mən həkimi "yumşaltmağı" boynuma aldım. Gözlədim. O, otağından çıxanda rəsmi vəziyyət alıb, məqsədimizi söylədim.

- Sabah nahardan sonra yarım saat gedə bilər, - deyə o, icazə verdi.

Həkim bunu deyib ötdü. Mən sabaha qala bilməyəcəyimi deməyə israr etməyə macal tapmadım.



Mən bu gün Lətifin yanına getdim. Lətif ağır xəstəlikdən təzə ayılırdı. Rəngi-rufu qalmamışdı. Məni görəndə sevincindən ağladı. Məni də qəhərləndirdi. Narahat etməyim deyə, tez durdum. Bağlamanı onun yanına qoyub çıxdım.

Lətifin sağalıb hissəmizə qayıtmağı iki ay yarım çəkdi. Bu müddətdə anaların bağlaması gah onun çarpayısı başında, gah təcili yardım arabasında, gah istehkamda qaldı. Lakin açılmadı. Ancaq Lətif gələndən sonra üç səmimi yoldaş oturub, sovqatı açdıq. Burada albuxara, kişmiş, fındıqdan tutmuş Ordubad almasına qədər vardı. Yeməli şeylərin altında adama bir əl dəsmalı, bir ətirli sabun, adama bir cüt toxunma əlcək var idi.

Əlcəkləri əlimizə taxdıq. Anamın sözü mənim qulağımda cingildədi: "Bir oturun, bir gəzin, bir vuruşun!"

- Uşaqlar, - dedim, - bu əlcəklərdə analarımızın mehribanlıq istisi, vətənimizin dostluq sədaqətinin, birliyinin hərarəti var. Əllərimizə baxıb, analarımızın bizimlə, yanımızda olduqlarını hiss edirik. Onların mehriban ana nəfəsi bizi bəsləmiş, böyütmüşdür, bizi döyüşə də, qələbəyə də aparacaqdır.

Lətif də, Nəsrəddin də anamın sözlərini təkrar etdilər:

- Bir gəzək, bir vuruşaq!

- Qoyun, - dedim, analarımızın surəti gözümüzün önündə, səsi qulağımızda, əli ürəyimizdə olsun. Qoyun, onlar oxşayıcı, məhrəm əllərini həmişə bizim yaralarımızın üstünə çəkib sağaltsınlar. Sağ olaq, torpağımıza soxulan təcavüzkarları məhv edək! Analarımız sevinsin, arxayın yaşasınlar. Ana Vətən bizdən razı qalsın.

1942



# LEYLA

*Gözləyən qızlarımız, gəlinlərimiz,*
*bacılarımız, analarımıza hədiyyə!*

Bir müddət onun ayağı tramvaydan kəsilmədi. Şəhərə yaxın düşərgələrin birində əsgəri hissədə vuruşmaq öyrənən sevgili əri Mir Əlinin görüşünə gedər, əlinə düşəndə hədiyyə aparardı. Axırıncı dəfə vidalaşandan, Mir Əli cəbhəyə yola düşəndən sonra da gəlini yollarda görmək olardı. Sevgilisindən xəbər almayanda səbri tükənər, darıxardı, heç bir şeydən təsəlli tapmayanda baş alıb çölə, Mir Əlini yola saldığı yerlərə gedər, sanki hər addımda bir xatirə axtarardı. Orada, əsgərlərin keçmiş düşərgəsində indi küləklər əsirdi. Məşq üçün qazılan səngərdən, basdırılan nişan ağaclarından, dar cığırlardan, sökülmüş çadır yerlərindən, sökük ağaclardan, konserv qutularından başqa heç nə qalmamışdı.

İntizarlı gəlin kənarda dayanıb, ziyarətinə gəldiyi yerin hər tərəfinə diqqətlə tamaşa edərdi. Mir Əli ilə görüşdüyü səmtdə durar, uzanıb gedən nəhayətsiz qoşa dəmirlərə baxar, baxar, ahəstə səslənərdi:

- Mir Əli! Mir Əli, sənin dalınca gəlmişəm!..

Heç nədən və heç kəsdən cavab gəlməzdi. Gəlinin çağırışı dərin və sirli sükut içində əriyərdi. Tənha yerlərin sükutu müdhiş olur. Ağaclar yenə küləyin səmtinə əyilir, quşlar günəşin, havanın feyzindən faydalanmağa can atır, dəniz həmişəki ahəngi ilə çağlayıb durur, torpaq oxunmuş, lakin hələ layiqincə anlaşılmamış kitablar kimi görünürdü...

İndi, soyuq payız axşamında Leyla yenə səfərə, həmin yerlərin ziyarətinə hazırlaşır. Yüz dəfələrlə axtarıb tapmadığı, arayıb görmədiyi Mir Əlinin getmiş olduğuna hələ də inanmaq istəmir. Onsuz

heç nə boğazından keçmir, zehnən bir dəqiqə də ondan ayrılmır, ayrıla bilmir. Həmişə dolu aparıb, dolu qaytardığı hədiyyə dəsmalını yenə xüsusi sahmanda hazırlayır, yenə bacısı Zibaya belə deməkdən həzz alır.

- Mir Əlinin yanına gedirəm, ev-eşikdən muğayat ol!

Bu zahiri sevinclərin arxasında bir səhra kimi dayanan ümidsizlik onun yaralı qəlbini gəmirir, sanki ona gülürlər, öz-özünü aldadan bu arvadın ağlına şübhə edirlər. Sanki bir səs, bütün gücü ilə onun qulaqlarına qışqırır ki: "Haraya gedirsən? Quru çöldə Mir Əli nə gəzir, yorulmadınmı?"

Leyla daxili çırpıntılar içində özünü unudub dayanmışkən, poçtalyon qapıdan bir zərf atıb ötdü.

Leyla quş kimi qapıya atıldı. Zərfi açıb, bərkdən oxudu:

"Hörmətli bacım Ziba!

Salamlar olsun. Tanımadığınız bir əsgərin sizə kağız yazmağından təəccüblənməyin. Mən Mir Əlinin cəbhə yoldaşıyam. Onun söhbətindən sizi tanımışam. Bu saat Tbilisidə 8 nömrəli xəstəxanada yatıram. Sizə deməli vacib sözüm var. Mümkün etsəniz, buraya zəhmət çəkmənizi xahiş edirəm. Ayaqdan salamat olsaydım, bu zəhməti verməzdim. Bacınıza və qohumlarınıza Mir Əlinin və mənim dilimdən salam!

Mürsəl Babayev".

Düzdür, Leyla əvvəlcə məktubu səslə başladı, ancaq ilk sətirdəcə səsini və sürətini dayandırıb, düşüncəyə daldı. "Mürsəl kimdir? Ziba hara, o hara? Mir Əlinin yoldaşı bəs Mir Əlidən niyə yazmasın?.."

Leyla Zibanın məktəbdən qayıtmasını gözləyə bilmədi. Qonşusu Səriyyənin qızını çağırıb dalınca göndərdi:

- Zibaya deyinən bu saat evdə olsun! Deyinən vacib iş var, bacın səni gözləyir.

Qız o yana getdi. Leyla məktubu başdan-ayağa, ayaqdan-başa



təkrar-təkrar oxudu. Hər sözün düzünə mənasını, məcazi mənasını axtardı. Zənnini bir yerə qərarlaşdıra bilmədi:

"Bəlkə, məndən gizlədir, qızın əlaqəsi varmış! Yox, gizli əlaqə saxlayana belə aşkar yazmazlar. Bəlkə, bu adamın qıza meyli qonub, gözü düşüb, görüşə çağırır. Yox, yaralının belə şeylərlə uğraşmasına macalı hanı. Elə vicdansız əsgər olarını ki, bacı dediyi qıza əyri gözlə baxsın. Bəlkə, bu tamam ayrı Zibadır, kağızı səhv gətiriblər?.. Yox! Adres-filan yerli-yerindədir. Üstəlik Mir Əlinin də dostu...

Yaxşı, tutaq ki, bu yazılanların hamısı doğrudur, bu adam bizi Mir Əli vasitəsilə cəbhədən tanıyır. Bəs elə isə nə üçün Zibaya müraciət etsin? Nə üçün dost saydığı Mir Əlinin arvadına bir kəlmə xoş xəbər deməsin?! Buna nə ad qoymaq olar?"

Yarım saat çəkmədi ki, Ziba kitablar qoltuğunda, təngnəfəs, pörtmüş, qızarmış özünü evə saldı.

- Nə var, ay bacı, xeyir ola? Yeznəmdən xəbərin var?

Leyla onun sözünü kəsdi:

- Ay qız, sənin Mürsəl adlı tanışın varmı?

- Mürsəl?

- Mürsəl Babayev!

- Yox.

- Yaxşı fikirləş!

Ziba bacısının simasındakı ciddiyyəti görüb fikrə getdi:

- Mürsəl, Mürsəl, biri var, bizim yeddinci sinifdə. Elə-belə məktəbdən tanıyıram.

- 7-ci sinif yox ey, əsgər!

- Mən Mürsəl adlı əsgər tanımıram.

- Babayev! Yaxşı fikirləş, tanımasan sənə kağız yazmaz. Bəlkə, bir vaxt olub, sonra yadından çıxıb?

Leyla bunu deyib, zərfi Zibaya verdi. Ziba bacısının son sözün-

dən daha da təsirlənib qızardı. Kağızı oxuyub dodağını büzdü:

- Bu adı birinci dəfədir eşidirəm. Mürsəl kimdir. zad kimdir? Bu necə işdir?

Leyla kağızı onun əlindən aldı. Sanki xəlvət bir söz demək üçün içəri otağa keçdi və Zibanı da çağırdı:

- Bura gəl, söz deyirəm.

Ziba bu işdən bir şey başa düşə bilmədiyindən və bacısının şübhəsindən o qədər qüssələnmiş, tutulmuşdu ki, çırtıq vursan, qanı çıxardı. Leyla isə məktubun əsl mənasını anlamışdı. Ona görə də sanki əli hər şeydən üzülüb əlacsız qalmışdı.

İçəri otaqda ayaq üstə dura bilməyib diz çökdü:

- Bacım, - dedi, - bu kağız yaxşı kağıza oxşamır. Bilmirəm fələk başımda nə oyunlar oynayır. Evi, uşağı sənə tapşırıb gedirəm.

Leyla Zibanın səsindən və ahəngindən anladı ki, bacısı Mir Əlidən nigarandır. Salamat adam haqqında belə danışmazlar. İllah da ki, dost ola!..

Leyla yarımca saatın içində, yasa batmış kimi, qapqara qaralmışdı. O, aldığı məktuba belə məna verirdi:

"Kağız yazan Mir Əlinin yoldaşıdır. Yəqin, yaman bir xəbərlə gəlib, məndən gizlədir. Zibanı çağırıb, ona demək istəyir..."

Leyla bu zənnini həqiqətə yaxın sayırdısa da, ürəkdən inanmaq istəmirdi. Düşüncələrinin belə dəhşətli bir ehtimalla nəticələndiyini görüb, bütün vücudu ilə alışıb-yanırdı. Çalışırdı düşünsün ki, bu, düzəltmə məktubdur. Çalışırdı inansın ki, bəzəmə xəbərdir. Yaxud da bu Ziba ayrı Zibadır. Mir Əli ayrı Mir Əlidir...

İntizar və nigarançılıq isə amansız bir qızdırma kimi gəlini taqətdən salırdı. Ürəyi qəfəsdəki quş kimi çırpınırdı.

- Bacım, - dedi, - gedirəm. Gedim, görüm, bəlkə bədbəxtin başında, dilim-ağzım qurusun, bir iş var...

Bacılar qüssələrini bölüşdürəndə, balaca, iki yaşlı Tofiq də yuxudan durmuş, dinməz-söyləməz səs gələn otağa keçmişdi. Pişik balası kimi qapı ağzında dayanmış, anasının pərişan, müztərib vəziyyətinə baxır, ahəngini dəyişmiş, qəhərli səsinə qulaq asırdı.



- ...Bəlkə, bədbəxtin başında bir iş var!..

Bu söz ağzından çıxar-çıxmaz Leylanın gözü Tofiqin gözlərinə sataşdı. Özünü güclə saxladı, uşağın başını sığalladı.

Leyla xəstəxana xidmətçisinə deyəndə ki:

- Mürsəl Babayev!

Xidmətçi soruşdu:

- Qılçası kəsilənimi deyirsən?

Leyla duruxdu:

- Babayev Mürsəli zəhmət çək, çağır!

Xidmətçi öz qəbahətini anlamış kimi, heç bir söz demədən içəri getdi. Beş dəqiqə çəkmədi ki, qoltuq ağacı ilə yeriyən uzun, qalınsaç bir oğlan palatadan çıxıb, qapıya göz gəzdirdi. Birbaş Leyla tərəfə yeridi:

- Bağışlayın, Babayevi axtaran sizsiniz?

- Bağışlayın, Mürsəl sizsiniz?

- Mənəm!!! Siz, yəqin ki, Ziba xanımsınız!

- Bəli!

- Xoş gəlmişsiniz! - Bunu deyib Mürsəl görüşmək üçün əlini Leylaya tərəf uzatdı. Leyla da ona əl verdi.

Mürsəl Leylanı palatadan bağçaya baxan pəncərələrinə tərəf apardı. Skamyalardan birini göstərdi.

- Buyurun, əyləşin, - dedi.

Leyla oturan kimi əlindəki sovqat bağlamasını yaralının qabağına qoydu:

- Bağışlayın, - dedi, - xəstə yanına gəlməyə adam xəcalət çəkir. Bir-iki dənə fətir gətirtmişəm. Layiq olmasa da...

Mürsəl başını aşağı salmış halda:

- Var olun, - dedi, - burada bizə hər şey verirlər. Ehtiyacımız yoxdur, zəhmət çəkməyin!

Deyəsən, Mürsəl gəlinin uzaq yol gəldiyindən və sifətindəki iztirabdan həyəcan çəkdiyini duymuşdu. Dərhal mətləbə keçdi:

- Ziba xanım, - dedi, - yəqin ki, məktubu almısınız. Mən onu qəsdən sizə yazdım. - Mürsəl başını aşağı saldı. İri və uzunbarmaqlı ələrini bir-birinə çataqladı, sanki əsəblərini ələ almaq üçün daha nəsə düşündü. Bir qədər sükutdan sonra ifadəsinə başqa ahəng verdi: - Dünyada heç dostun, yaxşı dostun olmasın! Bu, bir dərd deyil! Dərd odur ki, beləsi ola! Ünsiyyət bağlayasan, sonra da... Ziba xanım, görürsünüz, sağ qıçımı itirmişəm. Bir dəfə kəsiblər, bəlkə yenə kəsdilər. Buna mən dözərəm, iş igid başına gələr. Amma Mir Əli, yox! O gündən elə bilirəm bir tərəfimi çapıblar. Ziba xanım, Mir Əli ayrı oğlan idi. Onun üçün biz nə qədər qəm çəksək, azdır. Sizdən xahişim budur ki, Leyla xanım bilməsin. Mən onların məhəbbətinə bələdəm, qızı da, uşağı da bədbəxt edərsiniz, bu sirri, heç olmasa, dava bitənə qədər saxlayın! Deyin ki, bir xəbər yoxdur, qabaq xətdədir!..

Mürsəl bir tərəfdən Zibaya nəsihət, tapşırıq verir, o biri tərəfdən cəbhədəki mənzərəni xatırına gətirirdi.

“Hissələrimiz düşmən mövqelərinə lap yaxınlaşmışdı. Hücumda onu dəstənin qabağında, "irəli" deyə qışqıranda gördüm, başından dəyən güllə zireh papağını kənara atdı, yazıq üzü üstə düşdü. Mən pulemyotu idarə edirdim, qoyub gedə bilmədim. Onlardan sonra biz yeridik. İki saat sonra mən necə yaralanmışdımsa, heç nədən xəbərim olmayıb, gözümü açıb özümü sarğı məntəqəsində gördüm.

Mir Əli qəhrəman idi, qəhrəman kimi də vətən borcunu verdi. Bizim vəzifəmiz isə onun intiqamını almaq, heç bir zaman onu unutmamaqdır!”

Mürsəl sözünü tamamlamadan cibindən balaca dəsmala bükülü



bir şey çıxartdı:

- Buyurun, - dedi, - Ziba xanım, mərhumun saatıdır, sanitarlar mənə verib qəbz aldılar. Sən bunu, əlbət ki, Leyladan gizlətməlisən! Sizə zəhmət verməkdən qəsdim bu idi.

Mürsəl belə bir xəbərdən sonra Zibanın simasına nəzər saldı, birdən oturduğu yerdən dik atıldı, qız çoxdan özündən gedib, huşsuz düşmüşdü. Mürsəl bacıları səslədi, həkim istədi. Leylanı götürüb palataya apardılar. Mürsəl isə dediyinə peşman oldu.

Mürsəl Mir Əlini od içində tərk etmişdi. Daha doğrusu, tərk etməyə məcbur olmuşdu. Ayılandan sonra sarğı məntəqəsinə hay salıb soraqlaşmışdı. Belə bir yaralı tapılmadığından yoldaşının ölümünü yəqin etmişdi. Ancaq Mir Əlinin vəziyyəti Mürsəl düşündüyü kimi yox, bir az başqa cür idi. Həmin gün Mir Əli başından ağır yaralanandan sonra top gülləsinin açdığı çalanın kənarında, vücudunun yarısı torpaqda örtülü halda, huşsuz düşüb qalmışdı. Sərin yay gecəsinin nəsimi onun əsəblərinə toxunanda oyanmış, özünü meyitlər arasında görmüşdü.

"Çıxmayan cana ümid çoxdur" demişlər. İnsan vücudundakı zəngin həyat imkanlarını ancaq ağır xəstəlik məqamında duyur. Mir Əli gözlərini açıb aydın fəzaya baxanda, güman etdi ki, axır nəfəsidir, hər şey bitmişdir. Bu baxış yalnız sönmək üzrə olan həyat qığılcımının son parıltısıdır. Bunun ardınca zülmət gələcək, ağırlaşan göz qapaqları əbədi bir qaranlıq gətirəcəkdir... "Of! Həyat!"

Mir Əli vücuduna hərəkət vermiş, tükənməkdə olan taqətini diz qapaqlarına toplayaraq, şərqə - səngərə tərəf yollanmışdı. Hər işıldayanı su bilib yönəlmiş, ağaclar altında sərin torpaq arayıb, sinəsini sürtmüşdü...

Bir gün sonra sanitar əsgərlər Mir Əlini yarımcan meşədən tapıb aparmışdılar. Ay yarım məntəqədən-məntəqəyə, xəstəxanadan-xəstəxanaya keçirilərək, getdikcə arxanın dərinliklərinə aparıldı.

Son bölgü məntəqəsində yarası uzun sürənlərin Novosibirsk şəhərinə göndəriləcəyini bir şəfqət bacısından öyrəndi, həkimlərdən və xəstəxana müdirindən xahiş edib, özünü vətəninə - Bakı xəstəxanalarına yollanan qatara saldı.

Eyni gündə, eyni saatda şimaldan cənuba gələn qatar Mir Əlini gətirdi: cənubdan şimala gedən qatar isə Leylanı və Mürsəli gətirirdi.

Canbir qəlblə olan bu üç adamın, bu üç əzizin bir-birindən xəbəri yox idi. Müharibə, qəfildən qopan bir ruzigar kimi, onları ayırıb o qədər uzağa atmışdı ki, heç biri o birisinin halını təsəvvür edə bilmir, sağlığına xatircəm ola bilmirdi.

Uzun ayrılıqdan və təhlükələrdən sonra doğma yurduna, öz ailəsinin yanına, Leylanın, Tofiqin yanına qayıdan Mir Əlinin halını mən yazmasam da, oxucu bilir.

Tbilisi şəhərində Mürsəli görəndən sonra Leylanın necə pərişan hala düşdüyü, nə iztirab içində qayıtdığı da oxucuya məlumdur.

Mürsəl isə Leylam belə vəziyyətdə tək buraxa bilməmişdi. Şikəst olsa da, iki günlüyə icazə alıb özü gətirmişdi.

Mürsəl tanış olduğu, müşayiət etdiyi qızı hələ də Ziba bilir, Ziba çağırırdı. Ona görə də təsəlli verir, evdə, Leylanın yanında ahzardan tamam əl çəkməsini xahiş edirdi. Deyirdi, ancaq bunun mümkün olacağına özü də inanmırdı. Yəqin etmişdi ki, fəlakətli xəbərdən bulud kimi tutulan bu matəmli qız Mir Əlinin evinə sakitliklə girməyəcək, bəlkə də, bütün qüssələrini ifadə edən yanıqlı bir fəryadla yeddi qapı-qonşunu başına yığacaqdır.

Bu vəziyyəti gözü önünə gətirən Mürsəl heç evə, Leylanın yanına getmək istəmirdi.

- Ziba bacı, - deyirdi, - mənim sizə getməyim yaxşı düşməz. Ürəyim pisdir. Mərhumun uşağını görsəm, özümü saxlaya bilməyəcəyəm. Gəlin, siz rüsxət verin, mən vağzaldan qayıdım, onsuz da...



Bu xahiş Leylanın qəlbinə dəydi:

- Mir Əlinin sizin kimi əziz dostu qapımızı açmaq istəmirsə, bundan sonra yoluxub-yoxlayanımız kim olacaq?!

Mürsəlin deməyə sözü qalmadı.

Onlar vaqondan düşüb evə yollananda səhər yenicə açılırdı. Şəhər təzəcə yuxudan qalxır, günəş yenicə Xəzərdə çimib çıxır, fəzalar seyrinə hazırlaşırdı.

Vağzalın kənar tərəfində dayanan səhiyyə maşınları vaqonlardan düşən xəstələri qəbul edirdi. Mürsəl bu maşınlarda o qədər uzanıqlı qalmışdı ki, onları görəndə gözü ağrıyırdı. O bilsəydi ki, əziz dostu və həlak olmuş saydığı Mir Əli də bu xəstələrin içindədir, sevincindən qışqırıb, nə bilim, nə deyərdi.

Səhiyyə maşınının yollanmasını gözləyən və şəhərə gələnlər içində, demək olar ki, ən sevincəyi olan Mir Əli vaqonlardan düşüb tramvaylara tələsən camaata baxırdı. Səki dolusu izdihamla yeriyənlər içində, bəlkə də, onun tanışları, qohumları, ürəyinin bəndi - Leylası var idi. Mir Əli də bunu görmədi, seçmədi. Ancaq Mir Əlinin qəlbi döyünürdü. Xəstəxanaya tələsirdi. O, briqadirə yanaşıb icazə istəmişdi. "Evimizə dəyməsəm, ailəmi görməsəm, mən nə xəstəxanada yata bilərəm, nə də müalicə olunaram. İkicə saat mənə vaxt!"

Briqadir də:

- "Get, - demişdi, - ancaq vaxtında qayıt!"

Maşın xəstəxana qabağında dayananda birinci çıxan başısarıqlı Mir Əli oldu. Qolunda şinel, başı, yaxası açıq, elə sevincək və sürətlə evlərinə yüyürürdü ki, deyirdin, kişinin yağı daşır. Ev qapısına çatanda baş Mir Əlinin, baş Leylanın! Bunun əlində şinel, onun əlində çamadan...

- Leyla!

- Mir Əli!

- A qız, səsinə qurban!

Mir Əlinin səsi Leylanın çöhrəsini örtən qəm və matəm pərdəsini yırtdı.

Sevgililər qucaqlaşdılar. İçəridən, Zibanın, sonra da Tofiqin səsi eşidildi. Uşağı tələsik oyatmışdılar. O, yalınqat köynəkdə balaca yumruğu ilə yuxulu gözünü ovaraq qapıya qaçır və qışqırırdı:

- Atam gəldi!

Tofiq, o şirindil uşaq o gün qələbə bayrağı kimi əllərdən düşmədi, başlarda gəzdi.

1943



## MUŞTULUQ

Bir ay olar ki, Əşrəf burada, şəhərdən bir az kənarda düşərgədədir. Birinci dəfədir ki, anası ona icazə verib, yola salmışdır. Birinci dəfədir ki, Əşrəf öz evlərində yatmır.

Bura «El bağı» deyilən gözəl bir yerdir. Ağaclar baş-başa verib, hər tərəfə ətir səpilib, arxlarda sular pıçıldaşır, ağaclarda quşlar səslənir. Günəş - göllər sultanı güclü günəş sanki aşağıya enib, lap yaxına gəlmişdir. Uşaqlar çox vaxt qolsuz bir köynəklə yaşıl ot üstündə ayaqyalın gəzirlər. Tərbiyəçi qadın hər səhər gəlib, uşaqların yeməyinə baş çəkir, onları yığıb yamaca, uca çinar ağacının kölgəsinə söhbətə aparır.

Əşrəf bu il ikincini qurtarmışdır. Əlində tərifnamə kağızı da var. Anası onu gətirəndə tərifnaməni də götürmüşdü, götürən kimi də tərbiyəçiyə vermişdi. Tərbiyəçi də Əşrəfi həmişə mehriban dindirir, həmişə onun adını çəkərdi. Əşrəf də tərbiyəçinin bir sözünü iki etməzdi, suallarına cəld cavab verər, onun yanında ucadan danışmazdı.

Tərbiyəçinin söhbətləri də gəzmək kimi ləzzətli idi. O, havadan, sudan, ağaclardan, çiçəklərdən danışardı. Quşların, kəpənəklərin adını da deyərdi. Şəhərdən, fəhlələrin işindən söhbət salardı. Bir də görürdün sözü gətirdi cəbhə üstünə.

Bu yerdə Əşrəf də, bir çoxları kimi, tərbiyəçiyə yaxın oturar, və gözünü onun ağzından ayırmazdı. Çalışardı ki, sözləri dalqabaq salmasın, hamısını yerli-yerində öyrənsin, anası gələndə ona danışsın. Bir gün tərbiyəçi yenə cəbhədən söz açdı:

- Uşaqlar, - dedi, - biz gərək qəhrəmanlarımızı tanıyaq. Mən sizə bir qəhrəmandan danışacağam. O qəhrəman üç tank vurub, düşmənin bir dəstə qoşununu qırıb!..

Uşaqlar əl çaldılar. Kim isə soruşdu:

- Müəllim, orden alıbmı?

Bir başqası tərbiyəçidən qabaq cavab verdi:

- Çoxdan! Əlbəttə ki, alıb!

Tərbiyəçi qələmi stola vurub, sükut yaratmaq istədi:

- Qulaq asın, qulaq asın, hamısını danışacağam. Deməli, üç tank vurub, məhv edib. Düşmənin bir rota qoşununu qırıb. O, qəhrəmanın familiyası Ağayevdir.

Əşrəf yoldaşı Nüsrətə pıçıldadı:

- Mənim atam da Ağayevdir.

Tərbiyəçi dedi:

- O qəhrəmanın adı İlyasdır.

Əşrəf yenə pıçıldadı:

- Mənim atam da İlyasdır.

Tərbiyəçi davam etdi:

- Ağayev İlyas qəhrəman sovet topçusudur.

Əşrəf Nüsrətə dedi:

- Mənim atam da topçudur.

Nüsrət ona etina etmədi:

- Nə olsun ki, topçudur, qəhrəman ki deyil.

Əşrəf dinmədi. Tərbiyəçi qəzetə baxıb, qəhrəman İlyas Ağayevi tərifləyirdi. Əşrəf isə fikirləşirdi ki: «Atama yazacağam. Yazacağam ki, o biri İlyaslar qəhrəman olublar, sən də ol, o biri Ağayevlər üç tank vurublar, yaz görək sən neçəsini vurmusan? Ata, sən də topunla vur! Faşist tankını vur, dağıt! Vura bilməsən, butulkanı doldur neftlə, at üstünə! Müəllimimiz bizə öyrədib. Böyüyəndə tankı biz yandıracağıq. Limonad butulkalarımızı yığıram... Tank vursan, müəllimimiz səndən də danışar. Uşaqlara səni təriflər, yaxşı müəllimdir...»

Əşrəfin xəyalında atasına məktub yazmaq, onunla danışmaq idi.



Birdən tərbiyəçinin uca səsini eşitdi:

- Budur, qəhrəman İlyas Ağayevin şəklinə baxa bilərsiniz! Topun dalındakı odur!

Bunu deyib tərbiyəçi dörd bükülmüş qəzeti göyə qaldırdı. Uşaqlara göstərərək, skamyaların arasını gəzdi. Şəklə baxan kimi Əşrəfin ürəyi döyündü, ixtiyarsız qəzeti tərbiyəçinin əlindən aldı, ayağa qalxdı, bərkdən qışqırdı:

- Müəllim!

Uşağın yanaqları gül kimi qızardı, gözləri ulduz kimi parıldadı, sifəti sevinc təbəssümü ilə işıqlandı. Əşrəf gözünü qəzetdən ayırmır, baxır, qəzeti heç kimə vermir, heç nə demirdi. Tərbiyəçi bir şey duymuş kimi, soruşdu:

- Əşrəf, yoxsa tanıyırsan?

Əşrəf gözünü şəkildən ayırmadan cavab verdi:

- Müəllim, atamın şəklidir.

Müəllimin inanmağı gəlmədi:

- Atan haradadır ki?

- Davada!

- Sənin atan piyadadır, atlı?

- Piyada deyil, topçudur.

Ad və familiyasını yoxlayandan, ata ilə oğulun sifətində bir oxşayış tapandan sonra tərbiyəçiyə yəqin oldu ki, söhbət Əşrəfin atası haqqındadır. Uşağı qucaqlayıb, stol üstünə qaldırdı və:

- Mübarək olsun, Əşrəf! - dedi. - Sən indi qəhrəman balasısan!

Onun əlini sıxdı, nə isə demək istəyirdi, Əşrəf əlində qəzet hoppanıb, müəllimdən xahiş etdi:

- İzin ver, anama deyim!

Müəllim əvvəl icazə vermək istəmədi. Sonra gördü ki, bacarmayacaq. Uşaqları dəstəbaşıya tapşırıb, Əşrəflə şəhərə gəldi.

Onlar qapıdan içəri girəndə Firuzə xanım beşiyi tərpədib.

körpəsini yatırırdı. Əşrəf qışqırdı:

- Ana, dur ayağa, atam qəhrəman olub!

Firuzə xanım gülümsəyir, əlini ağzına qoyub deyirdi:

- Uşaq yatıb, ay Əşrəf, nə xəbərdir!

Əşrəf anasının bu böyük xəbəri etinasız qarşılamasına qızdı, onun qolundan tutub çəkdi:

- Dur, tez ol, dur!
- Ədə, hara çəkirsən məni?
- Tez ol, tez ol, gedək, qəzetə xəbər verək!

Tərbiyəçi onlara baxıb dedi:

- Əşrəf, qəzet sənə xəbər verir, ya sən qəzetə?

Əşrəf fikirləşib, əlindəki qəzetə baxanda özü də güldü.

1943



## BADAM AĞACLARİ

*Ədalət! Yaşıdlarınla gəlin-gəlin oynamalı vaxtında səni çöllərə salanları, vətənini, xanimanını, şərəfini tapdayanları tanıyırsanmı, qızım?*

Ağarzanın evindən tappatap səsi gəlirdi. Dünəndən bəri evin ortasında, təndir başında salınmış təlisin üstündə badam döyürdülər. Bu il badamın məhsul ili idi. Ağacın birindən 7-8 batmanacan badam dərilmişdi. Evdəkilər badam sındırır, iç hazırlayırdılar. Deyirlər, şəhərdə iç yaxşı pula gedir, bayramqabağıdır. Ağarza bir yük iç aparacaq, bir azını taxıla dəyişəcək, bir azını da uşaqlara əyin-baş alacaq.

Altı yaşlı Ədalət də iş görür, kömək edirdi. Atasının sındırıb tökdüyü badam içini qabıqdan təmizləyib nimçəyə yığırdı. Hərdən, atasından xəlvət birini ağzına atır və birdən yeyə bilmirdi. Oğurluq şeyi yemək nə çətin olur! Badam Ədalətin ağzında böyüyürdü. Süfrədə yığılan ağlı-sarılı, təmiz, ətirli badam içinə baxıb həsrət çəkir, bunları doyunca yeyənlərin kim olduğunu düşünür və atasına sual verirdi:

- Ata, bunları hara aparacaqsan?
- Bazara, şəhərə aparacağam, qızım.
- Kimə satırsan orda?
- Müştəriyə.
- Müştəri kimdir?
- O da bir adamdır da, qızım.
- Yaxşı adamdırmı?
- Yaxşısı da var, pisi də var!
- Yox, ata, pis adama vermə, heyifdir, yaxşı adama ver!

Ağarzanı maraq götürdü. "Uşağın yaşından böyük danışmağına baxırsanmı?" - deyə düşündü.

- Qızım, - dedi, - müftə vermirəm ki, puluna minnət! Kim çox versə, ona satıram.

Ədalət etirazında davam edirdi:

- Yox! Pis adam çox pul versə də, satma! Badamı ona vermə, heyifdir! Pis adama qismət olmasın, ata!

Ədalətin dedikləri uşaq sözü olsa da, bir həqiqətdən xəbər verirdi. Ağarza badam içinin balacalarından üç-dörd dənə götürüb, Ədalətin ovcuna qoydu, sonra mülayim, mehriban bir dillə təsəlli verdi:

- Qızım, bizə pul lazımdır. Allah qoysa, məhsulun alıcısı olsa, bu dəfə əlimə pul gəlsə, ərbabın borcunu, xumsu, zəkatı çıxandan sonra, taxıldan artıq qalsa, qədək alacağam. Bacarsam, sənə də bir cüt təzə başmaq alacağam, qotazlı başmaq, lap onun özündən alacağam ki, bayramda geyəsən!

Dalandan ayaq səsi eşidildi, dərhal evin qapısı zərblə açıldı. Ağarzanın qonşusu Əlican güllə dəymiş quş kimi özünü içəri atdı:

- Ay rəhmətlik oğlu, nə oturmusan, badamlığı kəsdilər! - deyə həyəcanla xəbər verdi.

Ağarza sağ əlində daş, sol ovcunda badam olduğu halda çömbəldiyi yerdən dik qalxdı və:

- O nə sözdür, Əlican? - deyə soruşdu.

- Sənə deyirəm, badamlığı kəsirlər.

- Səfeh-səfeh danışma, elə şey olmaz!

- Bu saat oradan gəlirəm, kəsirlər.

Ağarza qonşusunun üzündəki ciddiyyəti, baxışlarındakı vahiməni duyub, çarığını ayağına çəkdi.

- Axı kim kəsir, nə deyib kəsir?

- Əmələ töküblər, odur, kəndxudadan soruş!



- Kəndxudanın nə haqqı var, öz əlimlə əkib-becərdiyim ağacı kəsə, bəyəm mən ona bağça satmışam? Gəl otur!

- Ay sağ olmuş, oturası vaxtdır? Mən də yoncalığın hayındayam. Onu da sürəcəklər. Müşavirin yanına getmək istəyirəm. Görüm nə çarə taparam.

Əlican qapıdan çıxmaq istəyəndə Ağarza kəmərini bağlayıb, onun dalınca tələsdi. İtə rast gələcəyini düşünüb, əl ağacı götürmək istədi, bir də fikirləşdi ki: "Ərbabın adamları bunu görüb bir az da hirslənərlər. Yaxşısı budur əliyalın get!"

Ağarza özünü badamlığa o zaman yetirdi ki, müşavirin adamları daş hasarı uçurub çaya tökürdülər. Hasar ağzından kəsilib atılmış ağacları görəndə, elə bil, Ağarzanın qolunu qələm elədilər, qıçlarını peylədilər. Vücudu od tutub yandı, qan başına vurdu. Bütün köyşən dəyirman daşı kimi onun başına dolandı. Havaxt çaydan hoppanıb, birisinin yaxasından yapışdığını özü də bilmədi.

- Niyə dağıdırsan, a bayquş? - deyə qışqırdı. - Bu divarı çəkənəcən mənim kürəyim qabar olub, niyə sökürsən?

Alnından tər daman ortaboy soldat dartınıb onun əlindən çıxmaq istəyir və dil-ağız eləyirdi:

- Boşla yaxamı, buyruq quluyam! Məndən nə yapışmısan?

Ağarza onu kənara itələyib qışqırdı:

- Çıxın mənim bağçamdan!

Xaki pencək geyinmiş bir amerikan zabiti ona yanaşıb, əlini tapançasının dəstəyinə qoydu, ehmal səslə, lakin hədəli əda ilə dedi:

- Bu köyşənləri sizin ağalarınız bizə satıblar. "Marşal planı" üzrə biz buraya köməyə gəlmişik. Şikayətinizi ərbabınıza eləyin, işə mane olmayın!

Son zamanlarda qoca və izdihamlı şəhərin dar, qaranlıq və dolaşıq küçələrində ucaboy, uzunqol, üz-gözünü tük basmış, qaşqabaqlı, əliağaclı, ayağıçarıqlı bir kəndlinin səkidən-səkiyə ad-

dımladığını görənlər çox idi. Kənardan gəldiyi, nabələd adam olduğu, nə iş üçün isə qapılar gəzməyə məcbur bir müsafir olduğu ilk baxışdan məlum idi. Güman gəldiyinə o, əl boyda bir kağız göstərir, ünvan soruşur, dərdini demək istəyir, baş əyib yoluna davam edirdi. Yorulsa, taqətdən düşsə də, yağışa, küləyə, vaxt-bivaxta baxmadan küçələri addımlayırdı.

Bu müsafirin kim olduğunu oxucular yaxşı bilirlər. Kənddə ümidi üzülən Ağarza bununla üçüncü dəfə idi ki, şəhər küçələrində gəzə-gəzə badamlığının haqqını müdafiə edən adam axtarırdı. Kəndliləri Mirzəməmmədə bir "tutarlı" ərizə yazdırıb, ərbabın hüzuruna apardı. Uca hasarlı bir həyətin qapısını ehtiyatla taqqıldatdı. Cavan bir oğlan çıxıb onun üzünə baxdı. Ağarza salam verib sözünü dedi:

- Bizim ərbabın evi buradırmı? Kəmərli kəndindən gəlmişəm. Ağaya ərzim var.

Cavan oğlan qayıdıb getdi, bir az keçməmiş qapını açdılar. Ağarza "Bismillah!" - deyib içəri daxil oldu. Hovuzdan su gətirən bir qarı ona işarə elədi: "Ağa ibadətdədir, gözlə!"

Ağarza daş səkinin yanındakı sütuna söykənib dayandı. Əvvəl ətəyinin altında gizlətdiyi hədiyyəni yerə qoymaq istədi. Sonra düşündü ki: "Yox, ağanın özü gələndə verərəm". Ağarza heyrət və həsrətli gözləri ilə ərbabın imarətini seyr etməmişdi ki, eyvanın başındakı qapıdan əli təsbehli, beli əyri, kosa, arıq bir kişinin çıxdığını, ona tərəf gəldiyini gördü.

Ağarza ərbabı axund libasında, əli təsbehli, ağzı dualı görəndə xeyli sevindi: "Allah adamıdır, - dedi, - rəhmi gələcək". Özünü itirmiş halda bir addım irəliyə yeridi. Layiqsiz hədiyyə sayıb gətirdiyi iki beçəni bağlı qıçlarından tutub, səkinin kənarına qoyandan sonra ətəklərini silkələyib düzəldi. Əllərini döşünə qoyub salam verdi, baş endirdi... Qoltuğundan çıxardığı əl boyda ərizəni təqdim etdi, təkrar



baş əydi. Ağ araxçınlı, kosasaqqal, qadın başmaqlı, cindara oxşayan adam isə əlindəki yüsür təsbehi çevirə-çevirə dinməz-söyləməz Ağarzanın ərizəsinə baxırdı. O gah kağıza, gah da qarşısında itaətkar vəziyyətdə duran kəndlisinə baxırdı. Ancaq heç nə demirdi. O nə üçün dinmirdi? Ağzındakı duanımı bitirmək niyyətində idi? Cındır içində batan kəndlisinin üst-başınamı tamaşa edirdi? Ağarzanın halınamı acıyırdı, ya da şikayətçini diqqətlə eşitməkmi istəyirdi? Ərbabın sükutu Ağarzaya bir qədər də cürət verdi. O, başına gələni - amerikalı müşavirdən gördüyü zülmü danışmaq istəyirdi ki, ərbab kağızı qatlayıb sahibinə qaytardı. Onun batıq səsi eşidildi:

- Kişi, nəyə gəlmisən?

- Ağa, şikayətim var!

- Kənddəkiləri, mübaşiri qoyub bu əkin-tikin vaxtında bura niyə gəlmisən?

- Ağa, mənə zülm eləyənin biri də mübaşir özüdür.

- Nə olub, yenə şikayət dəftərini açmısan?

Ağarza özünü tanıtmaq istədi:

- Ağa, kənd camaatı bilir, mən ömrümdə şikayətə gəlməmişəm. Amma indi gör necə əlacım kəsilib ki, sizə başağrısı verirəm. Ağa, mənim öz əlimlə əkib-becərdiyim badamlığı kəsirlər. Sizə pənah gətirmişəm!

Ağarza çox şeylər danışmaq istəyirdi. Lakin araxçınlı kişi onun sözünü kəsdi:

- Kişi, şükür eləmək əvəzinə, şikayətə niyə gəlirsən?

Ağarzanı təəccüb götürdü. "Bu nədən yana danışır? Mən nə üçün şükür eləməliyəm, niyə eləməliyəm?"

Ağarzaya elə gəldi ki, ərizə yaxşı yazılmayıb. Araxçınlı kişi onun dediklərindən də bir şey eşitmədi. Güman etdi ki, bəlkə, kişinin gözü pis görür, qulağı ağır eşidir, qocalıqdan ola bilər, bir az qayımdan

danışmaq lazımdır.

Ağarza bir addım da irəli yeriyib, sözlərini ucadan təkrar edəndə, araxçınlı kişi bir addım geri çəkildi və səsini ucaltdı.

- A kişi, qışqırığa salma, kar adam yoxdur burada! Deyirəm, badamlığı kəsirlərsə, sənin xeyrinə kəsirlər.

Ağarza təəccübdən çiynini çəkdi, ona toxunan bir şeyi rədd edirmiş kimi, əllərini qabağa tərəf açdı:

- Ağa, mənim çörək ağacımı kəsirlər, evim yıxılır. Evi yıxılan adam niyə gərək şükür eləsin?

- Şükür elə ki, müşavirlər gəlib səni-məni qoruyurlar.

- Ağa, məni kimdən, nədən qoruyurlar?

- Necə nədən, kommunistlərdən! Bəli, başa düşməlisən ki, amerikalılar bizim torpaqda təyyarə meydanı tikirlər ki, sabah kommunistlər sənin başına bomba tökməsinlər.

- Ağa, mən kommunistləri dava vaxtı kəndimizdə görmüşəm. Onlar kasıb-kusubun əlindən tutan adamlardır. Mən onlardan bir pislik görməmişəm. Bomba-filan nə söhbətdir!..

Ağarza bunu dediyini gördü. Araxçınlı kişi irəli yeridi, təsbehi bir kənara atıb, ağacı Ağarzanın əlindən almaq, onun başına çırpmaq istədi. Ağarza əvvəl ərbabın niyyətini başa düşmədi. Onun ağaca əl atdığını görəndə, yatıbmış kimi ayıldı. Ərbab ağzına gələn söyüşü deyib, nökərlərini çağırdı.

- Qovun bu mürtəd oğlunu! - deyə bağırdı. - İtilsin, hansı cəhənnəmə gedir-getsin! Mənim kəndimdə oturmasın! Gör nə qələt eləyir! Təbliğat aparmağına bir bax! Ayağı çarıqlının biri! Ay çörək tutsun sizin kimi nadürüstləri!..

Ağarza özünü qapıdan çölə atdı, birbaş onu ərbab yanına göndərən həmyerlisi Mirzəməmmədin yanına getdi. Mirzəməmməd də Ağarzanı danladı.

- Ay bədbəxt oğlu, - dedi, - bu yaşa çatmısan, ərbabla danışmağı



da bacarmırsan. Ərbab söz götürməz. Bilmirsən, iki yoluq cücə ilə ağa yanına getməzlər? Sən nə hesab eləyirsən! Hamı Mirzəməmməd olmaz ki, sənə müftə ərizə yaza.

Ağarza yerlisi ilə razılaşmadı:

- Mirzəməmməd, axı, dostum, nə üçün elə deyirsən? Ərbab gərək özü razı olmuya! Mən öz əlimin əməyi ilə əkdiyim ağacların bahasını istəyirəm. Bu, fitrə, sədəqə-zad deyil. Qardaş, müşavirdi, amerikandı, ingilisdi, hər kəsdi, ona yer lazımdır, ayrı torpaqdan götürsün! Köyşən doludur. Mənim badamlığım olmasa, bu təyyarə yerə enə bilməz bəyəm! Onu görüm heç sağ enməsin! Mahalda meydan qurtarmışdı ki, mənim bir tikə badamlığımı kəsirlər?

Ağarza dostunun məsləhəti ilə təkrar kəndə qayıtdı. Deyirlər, müşavirdən kağız gətirsən, o kağızı dövlət bankına təqdim etsən, ziyanın bir payını alarsan.

Müşavir, doğrudan da, ona bir kağız verdi. Təsdiq etdi ki, filan mahalda, filan kənddə Ağarza Baba oğlunun otuz bir ağaclıq badamlığı "Marşal planı" əsasında kəsilib, müəyyən məqsəd üçün düzəldi.

Ağarzanın kənddə bu kağızı oxutmadığı savadlı qalmadı. Orada yazılanların hamısı aydın idi. Hər şey ona aydın idi. Ancaq "Marşal planı", "marşallaşma" deyilən sözdən bir şey başa düşmürdü. Kağızı oxuyanlara macal vermir, barmağını yazının həmin yerinə qoyub soruşurdu:

- O nə sözdür, qardaş? "Marşallaşma" - yəni kim barəsində yazır? Mənə təəllüqü var o sözün, ya yox? Yəni o adam kimdir, görüm mənim ağaclarımı kəsən adamdır, ya buna əmr verən, pul buraxan adamdır? O kimdir axı?

Oxumuşlar qəzetdən, siyasətdən söhbət salıb çox söz deyirdilər. Ancaq Ağarza daha da hirslənirdi:

- Qardaş, hər nə planı-filanı var, aparsın şahla, vəzirlə danışsın.

Mənim ağaclarıma nə dəxli var axı! Plana düşür, qoy mülkədarların xalvar-xalvar yerləri düşsün. Mənim canamaz boyda badamlığımı, bilmirəm, kim plana salır axı!

Mirzəməmməd Ağarzanı başa salıb deyirdi:

- Ay rəhmətlik oğlu, bu "Marşal planı" o yandan – Amerikadan gəlir. Bir bizim vətənə deyil, odur, türkə də, yunana da, ərəbə də gəlir. Vergi-tövcü kimi bir şeydir. Əvvəllər İrana vəba gələrdi, taun, çəyirtkə gələrdi. İndi də "marşallaşma" gəlir, Amerika soldatı gəlir, çürük mal, tısbağa yumurtası gəlir. Dünən bir kəndlinin cilovunda bir arıq at var idi, üfürsəydin, yıxılardı. Soruşdum ki: "Kəndli qardaş, at niyə bu kökə düşüb?" Kəndli gülüb dedi: "Marşallaşıb". Belə yekə bir kəndin bağ-bağatını kəsib tökürlər; soruşursan: "Bu nə həngamədir?" Deyirlər: "Marşallaşırıq". Şəhər küçələrində dilənçi əlindən keçmək olmur. Deyirsən: "Canım, bu nədir?" Deyirlər: Səsini çıxarma, "marşallaşırıq!" Kəndlilər bir-birini lüt, möhtac görəndə deyirlər: "Sən "marşallaşıb" qurtarmısan!" Heç bir zəlzələ, sel, heç bir səmum yeli kəndləri "marşallaşma" qədər yaman günə qoymamışdı...

Ağarza dostunun dediyindən nəticə çıxartdı:

- Yaxşı, qardaş, nə vacib olub? Olmaz ki, "marşallaşmayaq?" İndi ki, "marşallaşma" bizi bu kökə salır, gəlin "marşallaşmayaq" da!

Mirzəməmməd qəhqəhə çəkib güldü.

- Sən, - dedi, - doğrudan da, lap avam imişsən. Görünür, Kəmərli dağlarının arasından kənarı görmürsən. Ay rəhmətlik oğlu, ölünü öz kefinə qoysan, şıllaq atıb kəfəni yırtar. Sənin nə ixtiyarın var "marşallaşmayasan?" Sən "marşallaşmayasan", bəs bu amerikan zabitlərinin qazancı haradan gəlsin? Yeddi iqlim, yeddi dərya basa-basa buraya əbəs yerə keçməyiblər axı! Yazıqsan, get, bəlkə, müşavirdən bir kağız ala bildin, bəlkə yerin, bahasından bir az



verdilər. Yenə qənimətdir, lənət heçə!

Müşavirin kağızına şəhərdə güldülər. Bu kağız, - dedilər, - sənin bağçan haqqında yoxlamadır, ayrı bir şey deyil. Heç bir iddia üçün sənə əsas vermir.

- Mən ayrı iddia eləmirəm. Hökumətlə hökumətlik eləmirəm. Torpaq divana lazım olub, buyursun mənim ziyanımı versin. Bu iş qanunda var.

- Qanunda nə var?

- Qanunda var ki, kəndlinin əlindən alınan malın, ya mülkün bahası verilə gərək.

- Kəndli var, kəndli var.

Bank dəftərdarı, dazbaş, çeşməkli kişi Ağarzanı daha da heyrətə saldı.

- Necə yəni, mən necə kəndliyəm bəyəm? - deyə gözləri alacalandı.

- Necə kəndlisən, özün bilirsən, amma ixtiyaratın ərbabdır.

- Ərbab məndən vergi alır, maliyat alır, bağçamın da sahibi deyil ki.

Dəftərdar kağızı Ağarzaya tərəf uzadıb, içəri qayıtdı.

- Sənin, - dedi, - işin məhkəməlikdir. Get orada baxsınlar, gör nə deyirlər.

Məhkəmədə Ağarzanı, bəlkə, iyirmi dəfə dindirib - danışdırdılar. Yazıb-pozdular. Şahid, sübut istədilər. Müşavirin iştirakı olmadan işə baxmadılar. Çox xahişdən, tələbdən sonra günün birində müşavirin vəkili gəlib çıxdı, məhkəməni inandırdı ki, Ağarzanın bağça yeri əvvəldən ərbabın olub, kəndlinin iddia üçün əlində nə kağızı, nə sübutu var. Ona görə də bir şahı tələb etməyə haqqı yoxdur!

Ağarzanı danışmağa qoymadılar. İddiasını rədd etdilər. Vəkil çaldığı qələbənin iftixarı ilə Ağarzanın yanından ötüb getmək istəyəndə Ağarza onu saxlamaq istədi.

- Bura baxın, ağayi vəkil! - deyə müraciət etdi.

Vəkil qulaq asmadı. Ağarza bərk addımlayıb onun çiynindən tutdu, geriyə çəkdi:

- Sənnənəm axı!

Kəndlini hirsindən qızarmış görən vəkil özünü itirdi. Ağarza da tünd və kefli nəzəri ilə ona baxıb düşündü: "Deməli, işi-gücü qaldı, eləmi? Di, al gəldi!"

Ağarza bunu deyib, vəkilə elə bir sillə çəkdi ki, üç dəfə fırlanıb fəryad çəkdi, yıxıldı. Ağarza çıxmaq istəyəndə, kimsə qapını bərk itələdi, qapı onun alnına toxunub yaraladı. Ağarza aradan çıxdısa da, onu təqib edənləri görüb qabaqdakı döngəyə döndü. Uçuq bir divardan hoppanıb kiçik həyətə, oradan isə ağaclı bir yerə keçdi. Bura xəstəxana imiş. Ağxalatlı bir həkim onu qarşılayanda, Ağarza alnının yarasını göstərdi. Onu sarğı otağına apardılar. Ağarzanın yarası bağlanıb qurtarmışdı ki, xəstəxana qapısında izdiham göründü. Müdir qapıya çıxdı. Qorxu və təəccüblə qapıdakılara baxdı. Müşavirin adamları müdirdən Ağarzanı tələb edirdilər.

- Ağa, nə buyurursunuz? - deyə xəstəxana müdiri soruşdu.

- Buranın müdiri lazımdır! - deyə müşavirin adamlarından biri donquldandı.

- Buyurun görək!

- Deməli, müdir sizsiniz?

- Belə görünür.

- Burada gizlənən düşməni istəyirik.

- Ağa, bura müalicəxanadır! Fərqi yoxdur, hər kim olsa, vəzifəmiz naxoşları müalicə etməkdir.

- Burada yaralı varmı?

- Yaralı da var, şikəst də var, qızdırmalı da...

- Biz buraya qaçıb gizlənən...

Vəkil sözünü bitirməmişdi ki, Ağarza camaatı yarıb, heykəl kimi





onun qabağında dayandı.

- Ağayi vəkil, pis olmazdı, sən gedib öz yerində, Amerikada vəkil olaydın. Burada nə Amerika torpağı var, nə təbəəsi. Sizi bura çağıran da yoxdur. Bilmək olmur, dünyanın o başından atıla-atıla gəlib burada nə sülənirsiniz! Kəndlinin qanı sizə də şirin gəlib... eləmi?

Ağarza hirslə irəli çıxdı. Hiddətindən gözləri böyümüş, gicgah damarları şişmişdi, sifəti mis kimi qızarmış halda dişlərini qıcayaraq, yumruğunu düyərək, sözünü bərkdən təkrar etdi:

- Şirin gəlib, eləmi?

Ağarzanın odlu baxışları ətrafa ildırım saçırdı. Yumruğu göyə qaldıranda, vəkil bu saat başına enəcək zərbənin dəhşətindən ürkərək, geriləmək istədi. Səndələdi, özünü saxlaya bilmədi. Qollarını kənara açıb, dırmaşdığı uca yerdən düşən toyuq kimi ləngər vurdu. Arxadan tutmasaydılar, tirlənəcək idi. Ağarza hərifin çəkildiyini gördükdə, sanki zərbəsini endirməyə hədəf axtarırdı. Yumruğu ilə havanı yardı, sinəsində yanan nifrət, qəzəb alovu ilə dedi:

- Zəlilər! Əqrəblər!

Ağarza irəli cumanda, vəkil də, adamları da cəld çəkildi, izdiham parçalanıb qolu çirməkli, saçı dağınıq kəndliyə yol verdi. O, bir neçə addım atandan sonra dönüb vəkilə baxdı. Sanki baxışı süngü idi və bununla da özünə yol açdı. Vəkilin ətrafındakılar dağılışdılar. Vəkil yolun ortasında qanqal kolu kimi tənha göründü. İzdiham Ağarzanı bir qəhrəman kimi qucağına alıb, gözdən itənəcən müşayiət etdi.

Doğrudur, kənddə Əlican Ağarzanın uşağına, atasının tapşırdığı balaca Ədalətə öz övladı kimi baxırdı, onu gözdən qoymurdu. Ancaq Ədalətdən arxayın ola bilmirdi. Çünki Ədalət hər gün oğurlanıb kənd üstünə, badamlığa gedirdi, təzəcə puçurlayan nəhəng ağacların doğranıb töküldüyünə, bağça hasarının yerində



bünövrələr salındığına diqqət və ürəkağrısı ilə tamaşa edirdi. O baxırdı, müşavirin adamlarının nə iş gördüklərinə diqqət yetirirdi ki, atası gələndə danışsın. Bağçada Ədalətin öz əli ilə toxumunu basdırdığı ikiyaşlı bir badam ağacı adamboyu ucalmışdı. Qız bu ağacı həmişə əli ilə suvarır, dibini alaqdan, gövdəsini qarışqadan təmizləyirdi. Bağçanın sökülüb dağıldığını görsə də, Ədalət o körpə ağaca baxmaqda davam edirdi. O, buraya gələndə əziz yoldaşını - kimsəsiz qalmış, qohum-əqrəbasından uzaq düşmüş bir yetimi görən kimi qəhərlənirdi. Sanki körpə ağacın yenicə puçurlayan, həyat, günəş arzusu ilə baş qaldıran zərif, zümrüd yarpaqları Ədalətin gəlişindən hərəkətə gəlir, nə isə dil açıb demək istəyirdi. Ədalət nə etsin? Badamın dibinə torpaq yığsın, ətrafına çəpər çəksin? Dağ kimi divarları vurub dağıdan, təpələri düzə çevirən bu silahlı müşavirlərin, gurultulu maşınların qabağında Ədalət nədir ki, çəpər də çəkə! Heç yerdə Ədalət buradakı qədər gücsüz, əlacsız olmamışdı. Sanki bunu körpə ağac da hiss etmişdi. Ədalətə tərəf əyilərək yalvarmaq, ağlamaq, arxalanmaqmı istəyirdi, ya qıza məlum olmayan bir sirr deməkmi istəyirdi? Bəlkə deyirdi: "Bu qansızlardan uzaq ol!" O demək istəyirdi ki: "Məni apar!" Qız onu hara apara bilərdi? Ədalət əlində balaca bel körpə ağacın yanına gəlir, ağ əlcəkli bir zabit onu istehza ilə qarşılayır, ağaca işarə edirdi: "Qızım, bu sənindirmi?" Ədalət cavab verməmiş, zabit bıçağı ilə ağacı kəsib Ədalətə tərəf uzadırdı! Ağac kəsiləndə Ədalətdən odlu hıçqırıq çıxırdı. Özünü dəhşət almış, gözləri böyümüş uşaq yerindəcə donub qalır və bilmirdi ki, nə etsin. Əlcəkli zabit "səhvini" anlayıbmış kimi, ağacı böyrü üstə tutur, Şərq adəti ilə ikiəlli, peşkəş təqdim edən kimi bir vəziyyət alır və:

- Buyurun! - deyirdi.

Ədalət canavara tuş gəlmiş quzu kimi naçar nəzərlərlə aşağıdan yuxarı zabitə baxırdı. Zabit badam şivini əlinə alıb, qızın çılpaq

baldırlarına döyür, qışqırırdı:

- Haydı, meymun balası!

Uşaq ağlayıb qaçanda əlcəkli zabit qəhqəhə çəkib durur, təpiyini yerə vurub uşağı hədələyir, baxanlar gülüşürdülər.

Ədalət gözlərindən almaz yaşlar tökərək, başıaşağı dərəyə qaçırdı. Yenicə göyərən çəmənləri, yoncalıqları ayaqlayaraq, kollardan, hasarlardan, arxlardan ötərək, yaralı bir quş kimi çırpınaraq qaçırdı. O, birbaş şəhərə yol almışdı, atasının dalınca gedirdi. Əlindəki badam şivini bərk-bərk tutub ehtiyatla aparırdı. Aparırdı ki, atasına göstərsin, böyüklərə şikayət etsin.

Bu yerlər - bağçalar, kövşənlər körpə qızın həmişə oynadığı, çiçək yığdığı, sünbül dəstələdiyi, quş yuvası axtardığı, quzu otardığı, çırpı topladığı yerlər idi. İndi isə Ədalət heç nə düşünmürdü. Cənuba, uzaqda ağaran qarlı dağlar arxasına, şəhər yoluna doğru üz tutaraq qaçırdı. Anasından qalma köhnə başmaqlar çoxdan ayağından çıxmışdı. Soyuqda gah qızaran, gah göyərən balaca ayaqları keyimiş kimi, nə daş, nə tikan, nə palçıq hiss edirdi. Qız hərdən hıçqırığını boğaraq: "Atacan!" - deyə fəryad edir, əlindəki ağaca baxırdı. Uşağı bu kökdə görən kəndlilər müşavirin qorxusundan ona yanaşmasalar da, ağaclar arxasından haylayır, uşağı saxlamaq istəyirdilər. Ədalət qulaq asmır, yoluna davam edirdi.

Bütün ümidləri puça çıxmış, müşavirin, mübaşirin, ərbabın, məhkəmələrin qapısından naümid olan, əl üzən Ağarza həmin bu axşam da həmin yolla kəndə qayıdırdı. O, buradan gedəndə cibində pul, əlində ərizə, ürəyində ümid aparmışdı. Qayıdanda isə bunların hamısını itirmişdi. Ancaq ürəyindən daş kimi asılan və get-gedə ağırlaşan bir intiqam hissi gətirmişdi.

Qəribədir, ürəyini ağrıdan bu hiss ona nələr deyir, nələr öyrədirdi? O, uzun və qayım addımları ilə kəndə doğru yaxınlaşdıqca qəlbi tərpənir və tərpəndikcə də sanki ondan çox sirlər soruşurdu: "Sən





Kəmərlidə yenəmi qalacaqsan! Yenədəmi müşavirlə üz-üzə gələcəksən? Bağça yerində dikələn daş binalar sənə gözdağı deyilmi?" Sonra öz-özünə sual verirdi: "Əlimdən nə gələr? Odur, göz qabağındadır. Neçələri həbsdə, sürgündə çürüyür. Bu gəlmə zabitlər ərbaba köməyə gəliblər. Kəndlini soyub-talamağa gəliblər".

Ağarza fikirləşirdi ki, olub-keçəni yaddan çıxarsın, dağların döşünü bel, kərki ilə qaraldıb bir-iki batman arpa səpməklə güzəran keçirsin, yeganə balası Ədaləti böyüdüb başa çatdırsın. Görürdü ki, yox, o, müşavirin zülmünü heç cürə unuda bilməyəcək. O görürdü ki, cəllad əli ilə kəsilib atılan o igid badam ağacları qalxıb baş-başa veriblər, bir sirr kimi onun qarşısında dayanıb sual edirlər, təkidlə soruşurlar: "Bizim günahımız nə idi? Bizi bahara həsrət qoyanlardan sorğu-sual olacaqmı?"

Ağarza ürəyində onlara cavab verirdi: "Yox, ey mənim bərəkətli ağaclarım, sizin qatilinizdən sorğu-sual edən olmadı. Mən şəhərdə qapı qalmadı döydüm, məhkəmə qalmadı dəydim, oxum daşa dəydi..."

Ağarza bu sözü min bir nisgil və ürəkağrısı ilə deyirdi. Birdən başını qaldırıb ucadan əlavə etdi: "Ancaq mənim oxum qurtarmamışdır. Mənim bir oxum, bəlkə də, axırıncı oxum lap hədəfə dəyməlidir. Şikayətdən haray yox imiş. Mən öz gücümə güvənməliyəm!"

Onun bu sözlərini qabaqda gələn, titrəyərək, qorxaraq, kollara sığınaraq gələn Ədaləti eşidirdi. Birdən:

- Atacan! - deyən Ədalətin səsi eşidildi.

Ağarza yuxu görürmüş kimi döyüküb dayandı, ətrafını dinlədi. Addım səsləri yaxınlaşırdı. Uşaq səsi təkrar olundu:

- Atacan!

- Qızım, Ədalət!

- Ay ata!

- Can, qızım, haradasan?

- Ata, səni axtarıram. Badam ağacımı da kəsdilər. Məni döydülər, ata!

Uşaq qaranlıqda özünü atasının qucağına atdı. Ağarza badam şivini qızının əlindən alıb şəfəqdə ona baxdı, uşağın yalın ayaqlarını qoltuğunda sıxdı. Xəcalətdən başını aşağı saldı. Axı o, qızına söz vermişdi: şəhərdən belə qayıtmayacaq, hədiyyələri ilə Ədaləti sevindirəcəkdi.

Nəvazişli bir səslə qızına dediyi sözlər atanın qulağında təkrar səsləndi: "Qızım, Allah qoysa, məhsulun alıcısı olsa, bu dəfə əlimə pul gəlsə, ərbabın borcunu, xumsu, zəkatı çıxandan sonra, taxıldan artıq qalsa... sənə bir cüt təzə başmaq alacağam, qotazlı başmaq. Lap onun özündən alacağam ki, bayramda geyəsən!.."

Ağarza yoldan kənara çəkilib, böyük və soyuq bir daş üstündə oturdu. Ədalət müşavirin adamlarından gördüklərini ağlaya-ağlaya, yanıqlı dildə kəsmə-kəsmə danışdı.

Gözü təmiz yay göylərinin dərinliklərinə dikildiyi halda Ağarza Ədalətin məsum, məzlum səsini bir fəryad kimi eşidirdi. Eşidir, ancaq cavab vermirdi. O bilmirdi, uşağına nə ilə və necə təsəlli versin. Onun gözü şimalda parlayan və gur işığı ilə diqqətləri çəkən qızıl ulduza dikilmişdi. Ata şəhadət barmağı ilə göstərərək, Ədalətə təsəlli verirdi:

- Görürsən, qızım! Biz o ulduzun dalınca getməliyik, onun işığı və gücü bizə də nicat verəcəkdir. Qalx gedək!

Ata-bala əl-ələ verib qaranlıq çöllərdən parlaq şimal ulduzuna doğru yol aldılar.

MIR JALAL

AN ANTOLOGY



BİRİNCİ KİTAB

TƏRTİB EDƏN VƏ REDAKTOR

Nərgiz PAŞAYEVA
Təhsin MÜTƏLLİMOV

**rəssam**

Elçin CABAROV

**nəşriyyat redaktoru**

Həqiqət ELDAROVA
Taleh HƏMİD

**texniki redaktor**

Fərid KƏRİMOV

**korrektor**

Həlimə MEHDİYEVA
Cavid CABBAROĞLU

**kompyuter yığımı**

Eldəniz XOCAYEV
Süsən ZƏRBALIYEVA
Elgin ASLANOV
Aysel BAXŞİYEVA

**kompyuter tərtibatı və dizayn**

İdris ƏHMƏDOV
Vüqar NAĞIYEV

**tərcümə**

Anna TOMSON

**çapçı**

Vüqar ƏLİYEV
Əjdər FEYZULLAYEV

**ÇAŞIOĞLU**
MƏTBƏƏSİNDƏ ÇAP OLUNMUŞDUR

ISBN 978-9952-27-132-4

REGİONLARIN İNKİŞAFI İCTİMAİ BİRLİYİ